Şirin Xanım Kərimbəyli Şadiman

YOL GEDİRİK

(NƏZM YAZILAR)

BAKI – 2018

Kitaba maddi və mənəvi dəstək göstərdiyinə görə həyat yoldaşım Əli Abdulla Əli oğluna minnətdaram.

Redaktoru və Korrektoru: Əli Abdulla

Tərtibatçı: Əli Abdulla

Şirin Xanım Kərimbəyli Şadiman
YOL GEDİRİK
Bakı, Qanun Nəşriyyatı, 2018, 596 səh., 500 tiraj
Çapa imzalanmışdır: 16.01.2018

Şirin xanım Kərimbəyli Şadiman Azərbaycan ədəbiyyatında öz dəsti xətti olan sənətkarlardan biridir. Onun yaradacılığı təkcə Vətən məhdudiyyətində qalmır. O, öz ürəklər fəth edən yaradıcılığı ilə çoxdan Azərbaycan sərhədlərini aşıb. Dünyanın harasında bir ağrı-acı varsa, Şirin xanımın ilhamlı qələmi orda olur və o ağrıları nəzmə çəkir. Şair istər şeiriyyəti, istərsə də publisist düşüncələri ilə oxucu ürəyini riqqətə gətirən sənətkardır. Nəşriyyatımız adından müəllifə yeni-yeni yaradıclıqlıq zirvələri arzulayırıq.

ISBN 978-9952-36-471-2

© Qanun Nəşriyyatı, 2018
© Şirin Xanım Kərimbəyli Şadiman, 2018
www.shirinxanim-shadiman.net

YOL GEDİRƏM – HAQQA YETİM

Yeni çapdan çıxacaq kitabıma yazacağım fikirlərin başlığını yol gedirəmlə başlamağım söz gəlişi ifadə deyil. İnsan doğulan gündən dünyasını dəyişənə qədər yol gedir. Bu Yaradanın ona bəxş etdiyi ömür yoludur. Təsadüfü deyil ki, kitabın adı da 03.02.1992- ci il tarixində yazılmış «Yol gedirik» adlı şerimin adından götürülmüşdür. «Yol gedirik» adlı kitabın çap olunmasıyla bağlı verdiyimiz qərar nədən qaynaqlanır?! Bax bu məqsədin isbatına ehtiyac duyduğum üçün istəyirəm bunu yetərincə açıqlayım. Bu vaxta qədər çap olunmuş geniş həcimli kitablarımdan yığılan seçmələrin seçməsi bu topluda öz əksini tapmışdır. Yəni yaradıcılığıma maraq göstərən geniş oxucu kütləsi, sözə dəyər verən insanlar bu kitab vasitəsi ilə asanlıqla mənim bu illər ərzində yazdıqlarımın nəbzini tuta biləcəklər. Bu həm ədəbi tənqiddə bu yerə qədər yazdıqlarım haqqında öz fikrlərini demiş və demək istəyən söz adamlarının yazacaqlarına kömək vasitəsi, həm də poeziyasevər insanların mütaliyəsi üçün ərmağan olacaq. Çox saylı kitabların arasından müxtəlif məzmunlu şeirləri arayıb axtarıb tapmaq günlərlə, aylarla vaxt aparır. «Yol gedirik» kitabı bütün bu məsələlərə çıraq tutmaq üçün meydana gəldi.

Düzdü, bir müəllif olaraq bilirəm ki, yaradıcı insan üçün yaratdıqlarının hamısı doğma, hamısı əzizdir. O, gözlərinin nurunu vərəqlər üstə səpələyir. Yaxşı mənada yaradılan nə olursa olsun ağılın və təfəkkürün məhsuludur. Hər biri yazan adamın ruhundan doğur, bir bala kimi ona vazkeçilməz olur, amma bir həqiqət də var ki, istər oxucu, istərsə tədqiqatçı müəllifin çoxsaylı kitablarını axtarıb aramaq peşində olmur. Ümid edirəm ki, bu kitabın hazırlanıb çapa verilməsi ədəbi ictimayyətə və oxucu əhlinə ümumi yaradıcılığım üçün dəyərli ünvan olacaq. Sözün ovqatına köklənib bütün ağrı-acıları, dünyada, cəmiyyətdə baş verən haqlı və haqsız olayları nəzm diliylə izhar etmək o qədər də asan başa gələsi məsələ deyil, yaradıcı insanın ruhu çeşmə təki qaynamasa o heç bir hadisəyə, faciyəyə bədii sözün qüdrəti ilə yanaşa bilməz, onda da olsun nəzm, şerin möcüzəli dili…O dili açmaq, o dillə pıçıllaşmaq hər qələm sahibinin də bacardığı iş deyil. Əgər bu yerə qədər yazdıqlarımla oxucu ürəyinə yol tapmışamsa, Allahıma min şükür…

Əslində «Yol gedirik» kitabı həyat yoldaşım Əli Abdullanın ideyasıdır. Bu yerə qədər çapdan çıxan kitablarıma maddi və mənəvi cəfakeşlik etməkdən usanmayan, mənəviyyata inkaredilməz dəyər verən bu insanın aylarla çəkdiyi əziyyətlər hesabına kitab artıq çap ərəfəsindədir.

Kitabda şerin hər janrında yazılmış maraqlı nümunələr toplanmışdır. Nəzmin heca, əruz, sərbəst şeir növləri ilə cilanmış səhifələrlə bərabər nəzm hekayələr, rəvayətlər, dramlar, dördlüklər, rubailər, bayatılar, yanğılar, ikiliklər, deyimlər, məsəllər topluda özünə yer almışdır.

Bu kitabda sıralanmış bölgələr əvvəlki çapdan çıxan kitabların bölgə adlarıyla eynidir.

Nəzm hekayələr bölməsində «Tağayım», «Ağı dastan», «Burdan bir atlı keçdi», «Dükan adamın hekayəsi», «Quzey elin güney elə məktubu», «Xocalı soyqırımı» adlı mənzum əsərlər var.

Rəvayətlər bölməsində «Qismət Allahdandı», «Üç qisimdə olan insan», « Qazi və zina qadının hekayəti», «Ruzisinə asi olan kişinin rəvayəti», «Ana leyləyin hekayəsi» sıralanıb.

Dramlar bölməsində isə «Kahada ölüm hökmü» və « Sevgi vara satılmaz» özünə yer alıb.

Kiçik həcmli şeir növlərinə dördlüklər, rübailər, bayatılar, yanğılar, ikiliklər, deyimlər, məsəllər göstərmək olar.

Bu kitabda təkcə publisistik əsərlər yoxdur. Beləliklə kitab kimin əlinə düşsə müəllifin ümumi yaradıcılığı barədə müfəssəl məlumat ala biləcək. Bu baxımdan kitabın içindəkilərin toplanıb araya-ərsəyə gəlməsi əvəzsiz zəhmətin bəhrəsidir. Bu zəhməti çəkən Əli Abdullaya xüsusi minnətdarlıq düşür.

Ruhumdan qopub gələn fərəhli və qəmli duyğularımın beşiyi olan, illərin eniş-yoxuşunu içində daşdıran «Yol gedirik» kitabı bu vaxta qədər çapdan çıxmış on yeddi çox səhvəli kitabların içindən seçilib yığılmış topludur. Bu topluyla tanış olan hər bir kəs bədii yaradıcılığımın aşıb-daşan təbii çalarlarıyla bəhrələnəcək. Mən də bir müəllif olaraq oxucunu bədii ovqatıma kökləyə bilmişəmsə, demək yazdıqlarımla doğulduğum Vətənə, onun ədəbiyyatına hansısa töhfə verməyi bacarmışam. Bəli biz, doğulan gündən ölənə qədər yol gedirik. Bu yolun enişi, yoxuşu olur. İnsan özüylə çarpışa-çarpışa, döyüşə-döyüşə ömrünü başa vurur. Öz ağılı, düşüncəsi sayəsində uğurları, uğursuzluqları olur. Bir yaradıcı insan kimi mən özümü uğursuz müəllif saymıram. İnanıram ki, yazdıqlarım zamanın ələyindən keçəcək və zaman rəfində özünün dəyərli yerini tutacaqdır.

Sözə , bədii yaradıcılığa qiymət verənlər, üz tutanlar sizlərə isə ünvanlamaq istəyirəm ki, bu kitabla tanış olmaq heç də pis olmazdı. Pis odur ki, müəllifin yaradıcılığıyla tanış olmamış onun haqqında fikir söyləsinlər. Hər birimizə sağlıq dolu günlər diləyirəm.

Müəllif.
07.09.2017.

BÖYÜK YARADANA

Ey böyük Yaradan, ey qadir Allah!
Doğulduq…İşlətdik nə qədər günah.

Coşdu içimizdə saysız diləklər,
İblis hiylələrlə doldu ürəklər.

Öncə nizə, qalxan, qılınc yaratdıq,
Ovtək bir-birinin köksünə atdıq.

Əsirlər ötdükcə coşdu ehtiras,
Vəhşi əlimizlə quruldu min yas.

Bizə Əzrayılla əcəl göndərdin,
Miskin cəsədləri torpağa sərdin.

Böldün bəndələri neçə qisimə,
Sonda məzar qıydın yalnız cisimə.

Anlaya-anlaya ölәriyik biz,
Tanrı hüzurunda qatlamadıq diz.

Vəhşitək hey qırdıq biri-birini,
Sən bizdən qorudun haqqın sirrini.

Böyük Yaradanım, səbirlə yerə,
Hey dinlər göndərdin inansın hərə.

Sonuncu dininsə oldu pak İslam!
Müqəddəs peyğəmbər Mühəmməd-salam.

O gül çöhrəsinə nur bəxş eylədin,
Quranı köksünə Sən nəqş eylədin.

Ərəb səhraları, Məkkə, Mədinə,
Tapındı rəhminə, tapındı dinə.

İslamın işığı dünyanı tutdu,
Diz çöküb səcdənə, özün unutdu.

Fəqət, parçalandı cahanda dinlər,
İnsan da bu sitəm içində inlər…

Xaçpərəst, müsəlman, yəhudi, yezdi…
Torpaq, su üstündə el-eli əzdi.

Böyük Yaradanım, töküldü qanlar,
Məzara gömüldü əcəlsiz canlar.

Sənsə yüksəklikdən baxıb bəndənə,
Saldın ölərləri çox çəndən-çənə.

Qopartdın yerlərin min yol bağrını,
Məzara döşədin acı, ağrını.

Neçə yurd torpağın altında qaldı,
Hökmünlə bəndələr min yol alçaldı.

Gah sellər yaratdın, gahsa zəlzələ,
Qurdun ölərlərə, ey Tanrım, tələ.

Unudub qəzəbi, coşdular yenə,
Bəzən xor baxdılar Haqqa və Dinə.

Qılınclar gülləylə əvəz olundu,
Tanklarla, toplarla qeyrət alındı.

Basıldı vicdanlar raketlər ilə,
Cahanda hökm etdi iblis və hiylə.

Sənsə qəh-qəh çəkdin ünsüz fələkdən,
Güldün bəndələrə min yol ürəkdən.

İnsanlar dinlərlə fitnə qurdular,
Savaşa yollandı saysız ordular.

Qanlar su yerinə axdı dünyada,
Atdılar namusu, qeyrəti oda,

İsanın, Musanın müqəddəs ruhu,
Böyük Mühəmədin(s) naləsi, ahı.

Qırdı dünyamızı hey qəzəb ilə,
Məzara göndərdi min əzab ilə.

Bizsə unutqanlıq yolunu tutduq,
Allahı, Quranı, Haqqı unutduq.

Özümüzü səndən qüdrətli bildik,
Sildik içimizdən inamı, sildik.

Namus da, qeyrət də qiymətdən düşdü…
Bəndənin ayağı hər dəm sürüşdü.

Ölüm qapımızda gülləyə döndü,
Söndü evimizin çırağı, söndü.

Böyük Yaradanım, adil hökmünlə,
Döndərdin ağılı, ürəyi külə.

Allahım, ey Tanrım, yuvam-məmləkət,
Başının üstündə qara fəlakət.

Yağı evimizə tökür gülləni,
Qurur torpağıma min bir hiyləni…

Yanır diri-diri ana, bacılar,
Dolaşır yurdumda ağrı-acılar.

Sitəmdən usanmış, könlümüz talan,
Yenə taxtı-tacda oturub yalan.

Hökmüylə namərdi bütə döndərir
Tülkünü quduza, itə döndərir.

Adilim, Kərimim, Haqqım, İlahi,
Qoyma məhkəməsiz naleyi-ahi,

Müqəddəs hökmünlə özün divan qur,
Yalanın, fitnənin sən boynunu vur.

Bir azca işıq ver qaranlıq yurda,
Amandır, quzunu tapşırma qurda.

Hökmü-fərmanınla zülmət nur olsun,
Yetər, içimizə halallıq dolsun.

Böyük Yaradanım, ümidim sənə,
Şahlıq quşu göndər sadiq ölkənə.

Ayılıb binəva millət yuxudan,
Özün qurtar onu qara-qorxudan.

Bu Şadiman sənə sadiq bəndədi,
Özün də görürsən yaman gündədi.

Gəl qoluzorluğu vermə yetənə,
Son qurbanlıq eylə məni Vətənə!

Hazıram, cismimi məzara göndər,
AZƏRBAYCANIMA AZADLIQ GÖNDƏR!!!

13.12.1991

QURANDA ŞAİRLƏR HAQQINDA AYƏ

Şairlər surəsi şəfəqdi Ayə,
İki yuz iyirmi yeddi ayəbəayə.

***

Quranda şairlər haqqında ayə –
Deyir haqq yolunda düşsəndə vayə,
Əgər salmasalar sözünü sayə,
Zənn etmə gedibdi əməyin zayə,
Ol, düzlük yolunda sağ ikən dayə,
Axsa da göz yaşın, dönsə də çayə,
Yetişər çaldığın qələmin hayə,
Mən sənə vermişəm ilhamı qayə,
Eylə ömrün boyu haqqı himayə!
Əyrini vəsf edən şeytandır, ayə,
Şərdən yoğrulubdu kökündə mayə!
Səvabı, günahı vur günə, ayə,
O haqq dünyan üçün dönəcək sayə.
Yükləmə günahı belinə tayə,
Yüklədin nə qalar səndən dünyayə?!…
Şadiman, dönübdü qəm oxa, yayə,
Haray sal, ahını aləmə yayə!
Saldığın harayın tutar daş-qayə,
Dirikən zavallı, yetiş ah-vayə!

06.12.2006

YARADANIM

Can sənə bağlıdır, ey Yaradanım,
Əmrinlə ölçülür dəqiqəm, anım.
Bütün kainatı sən verdin bizə,
Sən işıq verirsən gecə, gündüzə.
Sən göyə qaldırdın mənəviyyatı,
Sənin əlindədir insan həyatı.
Aç haqqın üzünə kor gözümüzü,
Tanıyaq, qınayaq öz-özümüzü.
Qaytar bu dünyanı tanrı yoluna,
İblislər vurmasın zəncir qoluna.
Sənlə bağlıdır səadətimiz.
Öc alır eşqindən həqiqətimiz.
Səndən ulu sayan özün, ey Xaliq,
Yalnız lənətinə olacaq layiq.
Sənin işığındır dünyanı tutan,
O böyük rəhmindir bizlərə çatan.
Şərəfə yetirik mərhəmətinlə,
Dünyadan köçürük biz rəhmətinlə.

Olmayır hər kəsin o da nəsibi,
Ölsə də lənətdi məzarın dibi.
Sənin əlindədir yer, göy, ey Xaqan,
Əmrinə, hökmünə tabedir hər can.
Dünyada nə qədər insan qismi var,
Sənin hüzuruna qədəri qovar.
Səndədir hər qəlbin, bəxtin açarı,
Rəhmə yetirərsən sonda naçarı.
Gizlənə bilərmi səndən heç bəşər?
Hökmün ürəyinin başını deşər.
Səndən can gizlədən olubmu söylə?
Hər kəsin canına hakimsən öylə.
Bir sənə bəllidir günahlarımız,
Hökmünlə açılar sabahlarımız.
Kimsəyə varmı yol səndən oyana?
Kim əymib başını, de Yaradana?
Kimin ürəyində qorxu hissi yox?
Önündə qulundur, həm ac, həm də tox.
Sən həyat bəxş etdin o insanlığa,
Hər canın yolu var o divanlığa.
Özün uca sayan səndən aşağı,
Ey nurlar çeşməsi, həyat işığı!
Kim saydı özünü səndən də ali,
Çox kədərli oldu sonunda hali.
Varmı de elə bir bəşər övladı?
Səndən ucalığa qaldıra adı.
Keçsə də hissindən, ağlından elə,
Qoparıb başından vermisən yelə.
Yox elə bir qüvvə dünyada, Allah,
Qopmasın köksündən, sinəsindən ah,
Önündə əyilib dua etməsin,
Sənin hüzurunda əfvə getməsin.
Bütün kainatın sahibi özün,
Həyata can verər o nurlu üzün.
Sənin qulunuq biz, Böyük Yaradan,
Sonda hüzuruna qayıdacaq can!...

27-29. 11. 1999

BAHAR BULUDUTƏK

Bahar buludutək dolmuşam, Allah,
Yağmağa sel tutan çay axtarıram.
Yerlə göy arası qalmışam, Allah,
Çəkdiyim dərdlərə say axtarıram.

27.02.2016

BİR TANRI VAR...

Qırılarkən taleyinin ömür sapı,
Ruhun çıxıb ayrılacaq bədənindən.
Bir Tanrı var, bir körpü var, bir də qapı,
Tamahın da çapılacaq gödənindən.

İlahinin hüzuruna yetişməkçin,
Haqlayacaq ayağını o dar körpü.
O dünyada əzabların bitişməkçin,
Ürəyindən alınacaq hikkə köpü.

O körpüdən keçə bilsə ayaqların,
Sanarsan ki, dar qapıya çatdın daha.
Bədənində titrəyərsə dayaqların,
Ruhun yetməz o dünyada heç Allaha.

Yetsən əgər o qıfıllı göy qapıya,
Onu açmaq məqamına haqqın yetər.
Çatsan, tələs ikiəlli döy qapıya...
Açılmasa, ahın ərşin bağrın ütər.

O qapıdan yetə bilsən dərgahına,
Elə bilmə ruhuna o sığal çəkər.
Hansı üzlə gedəcəksən Allahına?
Ruhun özü qoşqusundan çıxmış təkər.

Ürəyini haqq dərgaha qoyacaqsan,
Cavabını suallarla yoracaqlar.
Çıxan canı əzablarla oyacaqsan,
Əməlləri birər-birər soracaqlar...

Günah bolsa, dərdin aşıb dağ olacaq,
Hesabları çəkiləcək o başının.
Sanki bədən ölməmiştək sağ olacaq,
Qulu olar bəbəklərin göz yaşının.

Orda rüşvət, orda dayı olmayacaq,
Orda kimsə, bir-kimsəni vurmayacaq.
Orda ciblər haram pulla dolmayacaq,
Kimsə kimin arxasında durmayacaq.

Orda bəşər öz haqqına çatacaqdı,
Fərqi yoxdu hansı dində doğulacaq.
Təmiz ruhun təndən ayrı yatacaqdı,
Orda hikkə, orda tamah dağılacaq.

Ey insanlıq mərtəbəsin unudanlar!
Ağır olur o dünyanın tarpa-tapı...
Zalımların əllərində qan udanlar,
Bir Tanrı var, bir körpü var, bir də qapı!...

01.07.2001.

SƏCDƏ NƏ GƏRƏK HƏR BÜTƏ ALLAH OLAN YERDƏ?

Səcdə nə gərək hər bütə Allah olan yerdə?
Rəbdən nə xilas insana günah olan yerdə?

Bulmaz bir əlac ağrıya heç bir dəva dərman,
Loğman nə edər ürəyə min ah olan yerdə?

Zülmət bürüsün göylərə qapqarə çadırın,
Qarə gecəyə bir nurlu sabah olan yerdə.

Kim eşqi və əhlini sayar şeytana qulluq?
Allahı buyuran kəbin-nigah olan yerdə.

İnsana səcdə eləyən bilmir, bu xətadır,
Tanrı evi adəmə səcdəgah olan yerdə.

Səbir edən, nicata çatar, deyirlər nahaq,
Heç kəs səbir etməsin zülümgah olan yerdə.

Qoy çırpmasın heç ələm özünü daşə, divarə,
Şadiman tifilin bağrı nişangah olan yerdə.

28.01.2007

RƏBBƏ...

Zaman qovqasında zəif fərdlərik,
Dünya dəyişdikcə elə dərdlərik,
Biz öz-özümüzə min bir sədlərik,
Öldürüb bir-birin qisas alırıq,
Ucalmaq istərkən, Rəbb, alçalırıq!

Baş-başa, üz-üzə həyatla insan,
Fələk uf demədən, qoparır asan,
Çıxır yolumuza müşküllər hər an,
Yanır gilə-gilə hər ömrün şamı,
Hər tale qapısın döyür axşamı.

Sınaqçın həyata atıldıq, ey Rəbb,
Dünyanı insana verdin acı həb…
Önündə aşkardır çox kiçik mətləb,
Çəkdin üstümüzdən bir an kölgəni,
Aldı savaş-ölüm yurdu-ölkəni.

Sənin əlindədir sirli kainat,
O başa, bu başa zaman çapır at,
Çökür ayağına son anda həyat,
Sınaqçın şeytanı qəlbə yolladın,
Adəm övladını oda tulladın.

Dinlə pərdələndi iküzlü bəndən,
Zinətə, altuna büründü dən-dən,
Qurtula bilmədi bəşər düyündən,
O məhşər günündə önündə çökdü,
Öz böyüklüyüntək rəhmin böyükdü!

Son anda millətə bölməzsən ərzi,
Önündə ruh durar, bir də tərəzi,
Bəndənin əliylə suçu-qərəzi,
Hətta misqal-misqal çəkdirib ona,
Cəhənnəm bir açar bu son divana.

Nə qədər canımız cisimdə durur,
Bəşər bir-birinə hey tələ qurur,
O Haqq dərgahında əyilməz qürur,
Məhşəri gizlətdin son zülümədək,
Bir yol var həyatdan o ölümədək.

Tale qəndilləri bəxtdə şam kimi,
Hər ömür sonunda bir axşam kimi,
Alçaldır, ucaldır min yol kim-kimi?
Rəbbim, qol qoyduğun hökümlər ulu,
Bizlərsə əbədi Adilin qulu!

Şadiman yaş tökür bu miskin halə,
Ey Rəbb, neçə tale gəldi zavalə,
Zəhərlə doludu əldə piyalə,
Əzrayıl, Cəbrayıl qapıda hər gün,
Birinə yas qurur, birinə düğün.

26.04.1994

HƏR NƏ VARSA ALLAHDANDI

Ərşi, kürşü ram eyləyən,
Acılarla kam eyləyən,
Hər ağrını dam eyləyən,
Yamanlıqlar günahdandı,
Hər nə varsa, Allahdandı.

Dizimizi bükən də O,
Gözdən yaşı tökən də O,
Biçən də O, əkən də O,
Bəlanı verən ahdandı,
Hər nə varsa, Allahdandı.

Zülmətləri işıq edən,
Haqqı qaşıq-qaşıq edən,
Bu dünyanı aşıq edən –
Göyün nuru sabahdandı,
Hər nə varsa, Allahdandı.

Bu Şadiman Tanrı qulu,
Gəldi gedər üzüsulu,
Atdan düşən ömür çulu –
Əcəl açan silahdandı,
Hər nə varsa, Allahdandı.

14.02.2003

TANRI SAXLASIN

Hər gözəl çöhrədən, hər gözəl üzdən,
Hər qəlbə ürəyə od salan közdən,
Hər könlü oynadan işvəli sözdən,
Tanrı saxlasın.

Hər addım toxunan hiylə torundan,
Yağı ocağının düşən qorundan,
Qəlbə qış gətirən dostun qarından,
Tanrı saxlasın.

Ağızlar qapadan şərin dilindən,
Hər cür ehtirasdan, hər cür zülümdən,
Düşmənlər əliylə qəfil ölümdən,
Tanrı saxlasın.

İnsanı əskildən hər cürə dərddən,
Yurdlar parçalayan sərhəddən, səddən,
Pis gündə kənarə çəkilən mərddən,
Tanrı saxlasın.

Şadiman bəxtinə düşən düyündən,
Ömrü ovsunlayan hər səsdən, ündən,
Qəlbə vay gətirən hər qara gündən,
Tanrı saxlasın.

29.04.1990

DOLAŞIR YERİ-GÖYÜ QƏM-QADALAR

Dolaşır yeri-göyü qəm-qadalar,
Qoparır ürəkdə min bir nidalar.
Səhərin gözləri qan-yaşlı olub,
Canımız dərd ilə sirdaşlı olub.
İblisə bənzəri var çoxlarının,
Allahlıq iddası toxlarının.
İlahi, çarə elə qəmlərə bir,
Əlində açılmayan hər cürə sirr.

07.06.2008

QORU, ALLAHIM

Sənin tufanın da, küləyin də nur,
Sənin dünya adlı ürəyin də nur,
Göylərdən sütunlu dirəyin də nur,
Bizi izimizdən qoru, Allahım,
Bizi özümüzdən qoru, Allahım.

Sənin dairəndə bu dünya üzük,
Sənə tövbə edib, suç edən bizik,
Sənin atəşinin oduna közük,
Bizi közümüzdən qoru, Allahım,
Bizi özümüzdən qoru, Allahım.

Bizi əyri yoldan əyləyən də sən,
Adəmi imtahan eyləyən də sən,
Nizam tərəzidən söyləyən də sən…
Bizi gözümüzdən qoru, Allahım,
Bizi özümüzdən qoru, Allahım.

İblisi içində bizləyir bəşər,
Haqqı, ədaləti dizləyir bəşər,
Üzünü min rənglə gizləyir bəşər,
Bizi üzümüzdən qoru, Allahım,
Bizi özümüzdən qoru, Allahım.

Dodaqlar əsirdi Haqq duasına,
Qaytar bu dünyanı öz yuvasına,
Şadiman qul olub söz havasına,
Bizi sözümüzdən qoru, Allahım,
Bizi özümüzdən qoru, Allahım.

08.12.1997

MƏZHƏB ACISINDAN QOP, AY MÜSƏLMAN

Ya Rəsulum! Şübhəsiz ki, sənin firqə-firqə olub dinini parçalayanlarla heç bir əlaqən yoxdur. Onların işi Allaha qalmışdır. Allah sonra (qiyamətdə) onlara nə etdiklərini xəbər verəcəkdir!

Quran, 6 Surə, 159-cu ayə

Haqqına qurtuluş tap, ay müsəlman,
Məzhəb acısından qop, ay müsəlman.

Müsəlman elləri qanlar içində,
Ağrılar taxt qurub canlar içində,
Dilləri hıçqırır niyə-neçində.
Özün bu sitəmdən sap, ay müsəlman,
Məzhəb acısından qop, ay müsəlman.

Bizə hava təki birlik gərəksə,
Haqqın varlığına inam dirəksə,
Qurana səcdəyə gələn ürəksə…
Birliyə pak qala yap, ay müsəlman,
Məzhəb acısından qop, ay müsəlman.

Allah sevdalılar bir-birin qırır,
Xaça inanclılar bizə tor qurur,
Min bir hiyləsiylə arxadan vurur…
Bizi yerə soxur lap ay müsəlman,
Məzhəb acısından qop, ay müsəlman.

Yalnız xilasımız birliyə bağlı,
Hissi yox, qaldıraq ayağa ağlı,
İslam ölkələri lal, qolubağlı,
Aslan ol, şərini qap, ay müsəlman,
Məzhəb acısından qop, ay müsəlman.

Məhəmməd də bizim, Əli də bizim,
Qurbanam imana, paklığa özüm,
Türkə, kürdə, farsa, ərəbə çözüm…
Min iman atına çap, ay müsəlman,
Məzhəb acısından qop, ay müsəlman.

Baxın, ölkə-ölkə oda düşmüşük,
Sanki bir-birinə qada düşmüşük,
Avropada belə yada düşmüşük?!
Onların sevgisi gop, ay müsəlman,
Məzhəb acısından qop, ay müsəlman.

Bizi təkləyərək, dənləyəcəklər,
Bir olub birləşsək, inləyəcəklər,
Bizi də insantək dinləyəcəklər!
Şəri hissə-hissə çap, ay müsəlman,
Məzhəb acısından qop, ay müsəlman.

Gör başın üstündə gəzən qadanı,
Burax bir-birinə çürük ədanı,
Birlik ilə başla qəlbə sevdanı,
İltifat qırılan sap, ey müsəlman,
Məzhəb acısından qop, ay müsəlman.

Bu necə Qurana, imana sevgi?
Rəbbin göndərdiyi fərmana sevgi?
Gəlib qırğınlardan dərmana sevgi,
Olub ayaqlara top, ay müsəlman,
Məzhəb acısından qop, ay müsəlman.

Şadiman bu dərdi vərəqə saldı,
Bizim ağlımızı yağılar çaldı,
Qapımız ağzını gəlib şər aldı,
Dərdimiz kağızda çap, ay müsəlman,
Məzhəb acısından qop, ay müsəlman.
Məzhəb acısından qop, ay müsəlman.

03.02.2012

ALLAH

Sorulur hər yanda məzlumun qanı,
Dünyada hökm edir min suç, min günah.
Sən öz qüdrətinlə bəndən insanı,
İçi boş başlardan uzaq et, Allah.

Baş kəsən yüzdürsə, baş kəsdirən min,
Oyuncaq edilib hər etiqad, din,
Salınır bəxtlərə gündə yüz düyün,
Hardasan, bircə yol dada yet, Allah.

Ürəklər, diləklər yoxsullanıbdı,
Vicdanlar, qeyrətlər lap qullanıbdı,
Dünyanın belinə qəm çullanıbdı,
Qalx, zülmün evinə bir yol get, Allah.

24-25.11.1990

DİN ADI ALTINDA BU VƏHŞİLİKLƏR

Tökülən qanlara bəs deyən yoxdu,
Dil deyən yalana kəs deyən yoxdu,
Bunlar Yaradana – qəsd, deyən yoxdu,
İnləyər beyinlər, sızlar iliklər,
Din adı altında bu vəhşiliklər.

İlahi bunumu əxz etdi bizə?
Yerisin qan-qırğın, dərd evimizə,
Artır fitnə-feil, boş-boş moizə,
Hiylə qəlbə girər, vicdanı təklər,
Din adı altında bu vəhşiliklər.

Dağılır, viranə olur şəhərlər,
Boğazdan yapışıb acı qəhərlər,
Mövhumat kök atar, beyni zəhərlər,
Açar ürəklərdə min bir dəliklər,
Din adı altında bu vəhşiliklər.

Heç kəs ayranına turş deməyir ki,
Axan göz yaşına yaş deməyir ki,
Hissin törətdiyin baş deməyir ki,
Haqqa xain çıxar qəlbi dönüklər,
Din adı altında bu vəhşiliklər.

Dünyanın xilası yalnız elmdə,
İlahi kəlməsi dua bilimdə,
O öz yuvasını qurub könlümdə,
Nadan silahını sinəyə diklər,
Din adı altında bu vəhşiliklər.

Allahın varlığı savada bağlı,
Bəxtiyar o kəsdir işlədir ağlı,
Ehkama uyanlar uydurar nağlı,
İnsanın xilası yalnız biliklər,
Din adı altında bu vəhşiliklər.

Ey din kitablarla qırğınlar salan,
Allah yaradansa, sevərmi talan?!
Bəsdir İlahiyə söylədiz yalan,
Tapdanır namuslar, enir mənliklər,
Din adı altında bu vəhşiliklər.

Müsəlman ölkələr bir-bir dağılır,
Sərvəti talanır, yurdu sağılır,
Köçkünü, qaçqını küncə sıxılır,

İndi yasxanaya dönüb şənliklər,
Din adı altında bu vəhşiliklər.

Adəmə davamı öyrətdi tanrı,
Bəlkə şüurlara illətdi tanrı,
Qana susayana alətdi tanrı,
Dünyanı savaşla titrətdi ilklər,
Din adı altında bu vəhşiliklər.

Tükənib dünyada, qalmayıb səbir,
İnsana nə qalır? Bir quru qəbir!...
Şadiman, həllini tapmayır cəbir,
Cavabsız suala dönüb tənliklər,
Din adı altında bu vəhşiliklər.
Din adı altında bu vəhşiliklər.

3.08.2015

UTANIRAM İLAHİ

İnsan olmaqdan utanıram, İlahi,
Qulaq dələn ah-uflardan yanıram, İlahi.
Su yerinə torpaq suvarır qanlar,
Xarabaya dönür ünvanlar.
Hamımız bir ömür yaşayırıq,
Adam adı daşıyırıq.
Adam da adamı öldürərmi?
Allah verən ömrü gərərmi?
Qanlara, qırğınlara rəng verənlər,
Bu dünyanın işlərini cəng görənlər,
Aləmi qatır bir-birinə,
Başım şişir gedəndə dərinə.
Vəhşi niyyətləri beyinlərdən siləsən bəlkə,
Yıxırıq bir-birimizi düşəndə bərkə.
Ömürlər qırılır yarıda,
Axı dünyada qalır dünyanın varı da.
Bu müsibətləri qanıram, İlahi,
İnsan olmaqdan utanıram, İlahi…

22.10.2014

***

Sənə açılıbdı əllər, İlahi,
Sənin hüzuruna gələsiyik biz.
Səni soraqlayır dillər, İlahi,
Günün bir günündə öləsiyik biz.

15.12.2009

ƏNCAM ET

Daş-qənbər ürəklərə,
Ey Tanrım, sərancam et!
Puç olan istəklərə,
Ay Allah, bir əncam et!

Minüzlü sifətlərə,
Hiyləgər niyyətlərə,
O vəhşi silqətlərə,
Ay Allah, bir əncam et!

Axıdılan qanlara,
Yandırılmış canlara,
Köməksiz insanlara,
Ay Allah, bir əncam et!

Hissi boğmalayırlar,
Haqqı damğalayırlar,
Eli yağmalayırlar,
Ay Allah, bir əncam et!

Qan ağlayan ellərə,
Ağı deyən dillərə,
Bu bəlalı illərə,
Ay Allah, bir əncam et!

Bu sinəsi daşlara,
Bu üzülmüş başlara,
Bu şəhid olmuşlara,
Ay Allah, bir əncam et!

Dərddən qovrulanlara,
Ömrü sovrulanlara,
Yanıb qovrulanlara,
Ay Allah, bir əncam et!

Bu fitnə-fəsadlara,
O qana həsadlara,
Ağıldan kəsadlara,
Ay Allah, bir əncam et!

Qandallanmış qollara,
Səd çəkilmiş yollara,
Darda mərd oğullara,
Ay Allah, bir əncam et!

Qaralmış gündüzlərə,
Bu ağlayan gözlərə,
Qaysaqlanmış közlərə,
Ay Allah, bir əncam et!

Bu matəmli çağlara,
Bu sinəsi dağlara,
Şirin Xanım ağlara,
Ay Allah, bir əncam et!

08.04.1990

NƏ OLA YETİŞƏM SƏNƏ, ALLAHIM

Gecədən sübhədək səcdələrimlə,
Dualar içində gələr sabahım.
Sinəmdə alışan müjdələrimlə
Nə ola yetişəm sənə, Allahım.

Bu başsız dünyanın qəmini atıb,
Gözdə yuva salan nəmini atıb,
Ah, nalə gətirən dəmini atıb
Nə ola yetişəm sənə, Allahım.

Ən uca dağların qalxam başına,
Baxam buludların axan yaşına,
Dönüb bircə anda Simurq quşuna,
Nə ola yetişəm sənə, Allahım.

Alışan bağrımın odundan çıxıb,
Adəmin insanlıq adından çıxıb,
Dünyanın biryolluq yadından çıxıb
Nə ola yetişəm sənə, Allahım.

Bəşər dönük olub, İlahi, sənə,
Çoxu səcdədədir yalandan dinə,
Yuxuda olsa da gələm Kəbənə,
Nə ola yetişəm sənə, Allahım.

Gəlmir bu dünyadan Haqqın qorxusu,
Yoxdu heç Adəmin səndən qorxusu,
Gələ gözlərimə ölüm yuxusu…
Nə ola yetişəm sənə, Allahım.

27.09.1998

EY XUDA

Mum etdin hər sirini,
Açmadın heç birini,
Həm ölü, həm dirini,
Qoydun qəflət yuxuda,
Ey Xuda.

Bizi Məcnun eylədin,
Eşqə cunun eylədin,
Təni unun eylədin,
Sındı dünya oxu da,
Ey Xuda.

Hökmündə bəşər ömrü,
Dilində haqq əmiri,
Yuğurursan xəmiri,
Qalıb əldə çoxu da,
Ey Xuda.

Hər bədən açmış gülün,
Aləm gözünə tülün,
Oxur həyat bülbülün,
Burnu min bir qoxuda,
Ey Xuda.

İtirib bəşər özün,
Boyayıb şərlə üzün,
Qapına dizin-dizin…
Gələr qara-qorxuda,
Ey Xuda.
Gecəmi şam eylədin,
Təbimlə kam eylədin,
Əhdi ilham eylədin,
Əqlimi tam eylədin,
Ərşə qaçıb yuxu da,
Ey Xuda.

Şadimanı var etdin,
Canın qəmə zar etdin,
İlhamıyla yar etdin,
Bu aləmə car etdin,
Eşqin könlümə qida,
Ey Xuda…

19.02.2003

NİYƏ ŞAİRLƏRİ YARATDIN, ALLAH?

Dünya ağrısıyla yoğurub məni,
Ruhumu göylərdən qopartdın, Allah.
Ana bətinindən doğurub təni,
Niyə şairləri yaratdın, Allah?

Zamanın acısı sinəyə yağı,
Süzülür ürəkdən dodağa ağı,
Həyat da, dövran da, gün də bayağı,
Niyə şairləri yaratdın, Allah?

Biz Tanrı deyilik boğaq dərdləri,
Yıxaq sərhədləri, qıraq sədləri,
Namərdlər cəngindən alaq mərdləri,
Niyə şairləri yaratdın, Allah?

Ağlayan gözlərdə yaş inilləyir,
Hər şeyi düşünən baş inilləyir,
Torpaq əsir düşür, daş inilləyir,
Niyə şairləri yaratdın, Allah?

Qandallı dillərin sorğusumu var?
Yalan kəlmələrin doğrusumu var?
Fitnənin, fəsadın oğrusumu var?
Niyə şairləri yaratdın, Allah?

Dərdlərdən sinəyə tonqal qalanır,
Haqq şişə çəkilir, manqal qalanır,
Yollara, izlərə qanqal qalanır,
Niyə şairləri yaratdın, Allah?

Milli çəkişmələr, dini bölümlər,
Şahların taxtında sultan zülümlər,
Danışsaq, boğazdan tutar ölümlər,
Niyə şairləri yaratdın, Allah?

Canımıza yağı hər düz sözümüz,
Zindan sinəmizə dustaq özümüz,
Bir yol ölənədək gülmür üzümüz…
Niyə şairləri yaratdın, Allah?

Madam ki, kəlməmiz boğazda qalır,
Hər dilin üsyanı ağızda qalır,
Hər yazılan misra kağızda qalır…
Niyə şairləri yaratdın, Allah?

03.08.1996

DÜNYA

DÜNYA, SEVİNCDƏN DOLDU YA KƏDƏRDƏN GÖZLƏRİN?

Baxışından min əsrin dərdi-səri tökülür,
Gündüzünün əliylə min bir zülmət sökülür,
Gözlərinə gecənlə, sanki sürmə çəkilir,
O göz yaşın deyilmi çayların, dənizlərin?
Dünya, sevincdən doldu, ya kədərdən gözlərin?

İdrakla çarpışmada bu yöndəmsiz duyğular,
Pak sinəndən çəkilməz dərdi-sərlər, qayğılar,
Yenə baş alıb gedir çarpışmalar, sayğılar,
Bu həyat meydanında bükülmədi dizlərin…
Dunya, sevincdən doldu, ya kədərdən gözlərin?

Tamah həddin aşanda ağıl gələr haraya,
Bəzən elə olar ki, ağ deyərlər qaraya,
Çox gəlib-gedən oldu bu bəşəri saraya,
Saxladın hafizəndə gedənlərin izlərin,
Dünya, sevincdən doldu, ya kədərdən gözlərin?

Əsər çılğın küləklər bağrında sağa, sola,
Min ağrı-acı dolar köksündəki haqq yola,
Atın çapar sinəndə min-min tale dördnala…
Ömrünü başa vurar şahların, kənizlərin,
Dünya, sevincdən doldu, ya kədərdən gözlərin?

Başında min bir qovğa, əsirlər yola saldın,
Hər günü ötürəndə bir mərhələ qocaldın,
Namərd əlində enib, mərd əlində ucaldın,
Sinəndə köçün sürdü çirkinin, təmizlərin,
Dünya, sevincdən doldu, ya kədərdən gözlərin?

İdrakıının əliylə alim verdi kəşfini,
Tamah düşdü araya hey qıcıtdı dişini,
Hey döndərdin düz yola zamanın gərdişini,
Naqislər qulağına çatmayanda sözlərin,
Dünya, sevincdən doldu, ya kədərdən gözlərin?

Şadimanın köksündə tükənməzdir məhəbbət,
Haqsız haqqına çatar gec-tez qoynunda əlbət,
Gül açsın sinən üstə xoş məramlar, xoş niyyət,
Çox-sox « mənəm » dedilər, incitdilər özlərin,
Dünya, sevincdən doldu, ya kədərdən gözlərin?

16-17.03.1986

DÜNYA MƏNƏ TANIŞ GƏLİR

Qəmi boldu, sevinci az,
Hər payıza bir qış gəlir.
Hər taledə bir dəfə yaz,
Dünya mənə tanış gəlir.

Çiçəyinin arısı bol,
Küpəgirən qarısı bol,
Hər ömürün yarısı yol…
Dünya mənə tanış gəlir.

Cığırının izi ləkə,
Yerində min bir mərəkə,
Ceyranını qovur təkə,
Dünya mənə tanış gəlir.

Buludların dolan vaxtı,
Külək saçın yolan vaxtı,
Bənövşəsi solan vaxtı,
Dünya mənə tanış gəlir.

Yollarını keçəndə də,
Çeşməsindən içəndə də,
Əzrayıl can biçəndə də,
Dünya mənə tanış gəlir.

Fələk alın yazanda da,
Əl məzarı qazanda da,
Yuxularım azanda da,
Dünya mənə tanış gəlir.

Son, əvvəlin hey təkrarı,
Əvvəl - axır təkdə yarı,
Rəbb ovcunda bəşər darı…
Dünya mənə tanış gəlir.

Can cisimin içində sirr,
Bu cisimi sirr də kəsir,
Hər öləni yerə həsir,
Dünya mənə tanış gəlir.

Ey Şadiman, adamıyla,
Dərdlə dolu hər damıyla,
Həm fərağı, həm kamıyla,
Dünya mənə tanış gəlir.
Dünya mənə tanış gəlir.

10.12.1997

GÖZLƏMƏ

Naqisdən doğruluq, namərddən düzlük,
Özünü sevəndən peyman gözləmə.
İkiüzlü adamdan saflıq, təmizlik,
Yolundan azandan iman gözləmə.

Çox «mənəm» deyənlər özündən dedi,
Min-min günahsızın başını yedi,
Özgə əməyilə zərxara geydi,
Əyri əməllərə zaman gözləmə.

Kişilər az gəlib qoca dünyaya,
Qanmazlar qananı verib fənaya,
Çox dil pəhləvanı yetərək «haya»,
Başına ələyər duman, gözləmə.

Özündən razılar tutub dünyanı,
Bir qara qəpiyə satıb dünyanı,
Alovun köksünə atıb dünyanı,
Vicdanı yoxsuldan, aman, gözləmə.

Düzlükdən danışdı çox kələkbazlar,
Ağıl da öyrətdi ağlıdayazlar,
Suyun çirkabına baş vurar qazlar,
«Düzəm», deyəndən qaç, yaman gözləmə.

Çox, əyri əllərdə söndü min ocaq,
Çox tale, çox ürək oldu oyuncaq,
Dost əli sinənə saplasa bıçaq…
Döz ağrı-acına, dərman gözləmə.

Şirin, sən boşalıb-dolma buludtək,
Bəmdə haray çəkmə, yanıqlı udtək,
Ömrün tufanına döz bir palıdtək…
Yaxşıya baş endir, fərman gözləmə!

19.10.1989

BU QƏRBƏ BƏRƏKƏLLAH

Kömpüterin əsiri,
Robotların qəsiri,
Sanki yoxdu kəsiri,
Röyadı, Allah, Allah,
Bu Qərbə bərəkallah.

Ürəyi qışın buzu,
Ölkələr əldə quzu.
Nə parlaqdı ulduzu?
Qan tökür, saymır günah,
Bu Qərbə bərəkallah.

Yalnız dildə birləşir,
Getdikcə sehirləşir,
Be-em-te-si sirləşir,
ATƏT-lə mehirləşir,
Savaş doğur hər sabah,
Bu Qərbə bərəkallah.

Ürəyi robot olub,
Min bir yerdən çat olub,
Hiyləsi min qat olub,
Dünya batabat olub,
Nə vecinə nalə-ah,
Bu Qərbə bərəkallah.

Cahan qeylüqallaşır,
Ağalar cığallaşır,
Bəzi xalqlar ballaşır,
Yardımları yallaşır...
Ətəklərdən sallaşır,
Aclar sanır qibləgah,
Bu Qərbə bərəkallah.

Şeri də robotlaşır,
Şeyri də robotlaşır,
Xeyri də robotlaşır,
Dünya necə qatlaşır?
Öz-özünə yadlaşır
Sözləri çalır gah-gah,
Bu Qərbə bərəkallah.

Fırladır Yer kürrəsin,
Göstərir fil nərəsin,
Təyyarəsin, bərəsin
Robot edib maşallah,
Bu Qərbə bərəkallah.

Ağa olub hamına,
Çəkir haqqı kamına,
Çıxır göyün damına,
Daş atır adamına,
Salır mərəkə, vallah,
Bu Qərbə bərəkallah.

Aləmi qarışdırır,
Hamının vuruşdurur,
Dinləri yarışdırır,
Dolları sırışdırır,
Olub dünyada Allah,
Bu Qərbə bərəkallah.

Şvilizasiya deyərək,
Özünü hey öyərək,
Tərəzini əyərək,
Başımıza döyərək,
Əzir hamın inşallah,
Bu Qərbə bərəkallah.

Yad səyyarədən gəlib,
Ayrı heyətdən gəlib,
Hansı qüdrətdən gəlib?
Baş açmaq olmur billah,
Bu Qərbə bərəkallah.
Bu Qərbə bərəkallah.

31.10.2001.

SİYASƏTDİ, SİYASƏT

Cahanda hey mərəkə,
Ev-ev gəzir səksəkə,
Qeyzlənir hər ölkə,
Qırğınlar alır vüsət,
Siyasətdi, siyasət.

Nə qədər ölüm qada,
Sakitlik yox dünyada,
Gedir vicdanlar bada,
İndi ən yaxşı sənət,
Siyasətdi, siyasət.

Dinlər əldə oyuncaq
Söndürülür çox ocaq,
Qan içində hər bucaq,
Artır ilbəil zillət,
Siyasətdi, siyasət.

Hökümdarlar dilləşir,
İmanla kin əlləşir,
Axan qanlar selləşir,
Düşür araya həşir,
Yalançı hörmət, izzət,
Siyasətdi, siyasət.

Ölkələr ağlaşırlar,
Ələmə bağlaşırlar,
Dərd olub dağlaşırlar,
Əzir milləti millət,
Siyasətdi, siyasət.

Böyük xalqlar ağadır,
Kiçik xalqlar çağadır,
Qartala şah qarğadır,
Yaxşılıqda hər niyyət,
Siyasətdi, siyasət.

Qanunların hər üzü,
Yatmayır gecə gözü,
Çalxalanır Yer üzü...
Sabahımız, ya qismət,
Siyasətdi, siyasət.

Savaş bəşərin dəbi,
Artdıqca artır təbi,
Kimdə qırğının həbi?!
Yəhudiylə ərəbi
Yağı edən qiyamət,
Siyasətdi, siyasət.

Fələstində qan axır,
Hökmdarlar yan baxır,
Əfqanıstanı yıxır,
Ölüm, zülüm və illət
Siyasətdi, siyasət.

Çeçenlər qara bağlar,
Ürəyi yara bağlar,
Bu dünya qalıb ağlar!
Hər şahda şaha hörmət
Siyasətdi, siyasət.

Balkanlar həzar edər,
Sinəsi ah-zar edər,
Evini məzar edər...
Orda qanlı müsibət
Siyasətdi, siyasət.

Qarabağ qara bağrı,
Kəsir bizi bu ağrı,
İblisin sözü doğru,

Haqqı ediblər oğru!
Allaha da itaət,
Siyasətdi, siyasət.

Var İsada bir dua
Qılmırsan cana rəva,
Etmə özgəyə dəva!
Kökümüz Adəm, Həvva,
Əlinizdə ibadət-
Siyasətdi, siyasət.

Milli qırğınlar daşır,
İblis, şeytan ulaşır,
Zülümlər başdan aşır,
Bütün dünya savaşır...!
Edilib qana adət,
Siyasətdi, siyasət.

Dolubdu səbrin qabı,
Göyün, Yerin yox tabı,
Allahın hər kitabı
Bəşərin haqq-hesabı!...
Tanrıya da xəyanət
Siyasətdi, siyasət.

Fitnə-feildən həzar,
Rəbbim bir ömür yazar,
Bizdən sonra dar məzar,
O da dünyaya azar,
Bunu duymaq da, əlbət
Siyasətdi, siyasət.

Ağalar dingildəyir,
Qədəhlər cingildəyir,
Tulalar zingildəyir,
Şər yolu edilib qət,
Siyasətdi, siyasət.

Ey Şadiman, etmə qəm,
Ömür bəxtə düşən dəm,
Eyləmə nəşəni kəm,
Dünya gözündəki nəm,
Şah qədəhində şərbət...
Siyasətdi, siyasət!
Siyasətdi, siyasət!

31.10.2001.

EY BİR DƏLİ SEVDA DÜNYA

Nələr gəldi bu başıma?
Nələr etdim fəda dünya?
Gah döndün can sirdaşıma,
Gah könlümdə nida dünya.

Ağladanda güldürmədin,
Heç eşqini bildirmədin,
Ağrı verdin, öldürmədin,
Sandın mənə qida dünya.

Hara gedir bu cığır, yol?
Ürəyimdə alovun bol,
Boyunundan asılıb qol,
Qoyma qıra əda dünya.

Əzəlin heç, sonun puçdu,
Ağlım səvab, hissim suçdu,
Günlər əldən quştək uçdu…
Doğdu min bir səda dünya.

Hesab etdin qəlbdə kamla,
Səadətin damla-damla,
Hə oynadın hər adamla
Etdin cana vida dünya?

Doğulanlar vuruldular,
Yollarında yoruldular,
Torpağına soruldular,
Heç bitmədi cida dünya.

Şadimana sən baxmadın,
Can evinə buraxmadın,
Nədən dildən düşmür adın?
Ey bir dəli sevda dünya.

22.07.2009

VERİLİR HAQQA CƏZA

« İblis nədir – cümlə xəyanətlərə bais,
Ya hər kəsə xain olan insan nədir? – İblis?»
Hüseyn Cavid

Verilir haqqa cəza,
Basıb hər yanı qəza,
Ağlayan gözlərə bax,
Maskalı üzlərə bax,
Hamı Allahlıq edir,
Haqq deyən haqqı didir.
Allahın səbri çoxdur,
Bəndənin rəhmi yoxdur.
Dünya utanır özü,
Yoxdu deməyə sözü.
Tökülən qanlarına,
Didilən canlarına,
Bəndənin içində şər,
Alışır, yanır bəşər!
Edib hələlı əsir,
Tikdirir haram qəsir.
Üzülür bədəndə can,
Haramdı damarda qan.
Bəndənin işlərinə,
O quduz dişlərinə
Edir tamaşa fələk,
Görür haqq olur həlak.
Neyləsin göydə mələk?
Verdiyi canlarına,
Yazıq insanlarına
Köməyi təkcə ölüm,
Bu da cisimə zülm.
Tamah həddini aşıb,
Yerdə ara qarışıb.
Tazının tulası var,
Tulanın qalası var.
Bir deyən yoxdu bəşər,
Nədir bu içində şər?
Səni insan eyləyən,
İşi asan eyləyən,
Hər şeyi düzüb-qoşan,
Başın üstə dolaşan,
Göydəkindən et həya,
Sal onu bircə saya.
Həm su, həm quru onun,
Gözünün nuru onun.
Göydə ki, o əndaza,
Dünya bir cismi-əza,
Başın üstə hər qəza,

Onun əmrinə əsir,
Yer ayağına həsir.
Edər çoxunu gəda,
Nədir bəs böylə əda?
Unudub haqqı-sayı,
Çəkmisiz başa vayı!
Canı qandan ayıran,
Cismi candan ayıran,
Əzrayılın işini,
Onun haqq gərdişini,
Kim edib əqlə əta
Ki, cahan yasa bata?
Dağılan yurdlara bax,
Ulayan qurdlara bax,
Gözlərin yaşı dəniz,
Saralır böylə bəniz.
Uçur haqqın sarayı,
Canın dildə harayı..!
Arar şeytanı gözü,
Şeytan insanın özü?!…

19.10.1998

BU DÜNYADA

Kimlər gedir, kimlər qalır,
Bu dünyada, bu dünyada.
Mərd üstünə kölgə salır,
Bu dünya da, bu dünya da.

Kimsəsizin burnun ovar,
Haqq deyəni yurddan qovar,
Təmizləri satar, sovar,
Bu dünya da, bu dünya da.

Gücsüzlərə şahmar ilan,
Zor əlində qırğın, talan,
Kimdi görən sona qalan?
Bu dünyada, bu dünyada.

Əzazilin başındadır,
Sanki onun yaşındadır,
Doğru, yalan qarşındadır,
Bu dünyada, bu dünyada.

Şirin Xanım, çəkibdi sədd,
Hər addıma yoxdu bir hədd,
Parça-tikə min-min sərhəd –
Bu dünyada, bu dünyada.

20.10.1989

QARA FİKİRLƏR OLMASA...

Qara fikirlər olmasa...
Heç ürəklərə dolmasa,
Ağıla zəfər çalmasa,
Adamlar olar silahsız,
Dünya sayılar günahsız.

Gəlməsə başdan sorağı,
Sönməsə haqqın çırağı,
Paslanar qırğın yarağı,
Qalar gecəsi sabahsız,
Dünya sayılar günahsız.

Qara fikirlər dağılsa,
Şərin evinə yığılsa,
Haqqını qucan ağılsa,
Özünü görməz Allahsız,
Dünya sayılar günahsız.

Körpə gözləri güləndə,
Aləm sevincə gələndə,
Şər pisliyindən öləndə,
Ömürdən keçər gün ahsız,
Dünya sayılar günahsız.

22.04.2011

KÖRPƏ GÜLÜŞÜ

Tağına şeh dəymiş qönçəyə bənzər,
Canlara dərmandı körpə gülüşü.
Könüllər oxşayan baxışları tər,
Hər evə loğmandı körpə gülüşü.

Hiylədən uzaqdı o pak çöhrələr,
Hələ lap fidandı zərif pöhrələr,
Unutsan dünyanı qəmlə qəhr elər,
Ahıyla yamandı körpə gülüşü.

Kiçik varlığıdı bəşərin o da,
Atılsa, tuş olar atan fəryada,
Bizdən sonra qalır hələ dünyada,
Gələcək zamandı körpə gülüşü.

İlahi, hökm edən yalanlara de,
Dünyanı fitnəyə salanlara de,
Savaşda günahı olanlara de,
Bəşərə ümmandı körpə gülüşü.

İnsan başdan-başa feilsə, qansa,
Bir körpə qurğuşun odunda yansa,
O pak təbəssümü dodaqda donsa…
O zaman divandı körpə gülüşü.

25.04.1997

ƏLƏMİN ÖMÜRÜ ZAMANDAN UZUN

Ələmin ömürü zamandan uzun,
Onu talelərə yazan kim oldu?
Çoxu qəmlə dolu bəxt yolumuzun,
Bu yolda yorulub azan kim oldu?

Hər günün acısı ürəyə zəhər,
Yapışar boğazdan ikəlli qəhər,
Qəlb dərdə düşəndə qəm verər bəhər,
Ona öz könlünü qızan kim oldu?

Bədəndən ayrılıb uçduqca hər can,
Dondu damarlarda dövran edən qan,
Ölüm ayağında şirin ikən an…
Bir çarə arayıb, yozan kim oldu?

Hər insan dünyanın bir gülüstanı,
Payızı yetəndə solar bostanı,
Bütöv bir bəşərin ömür dastanı
Qaldı sinələrdə, ozan kim oldu?

Bəşər bir-birinə yağıdır nədən?
Torpaq, ölənlərlə dolukən mədən,
Köçəndə bir parça yerindi bədən,
Ona gec məzarı qazan kim oldu?

Şadiman fələyin önündə sail,
O qoyduğu yola gedənlər qail,
Verdiyi əmrə Əzrayıl nail…
Onun fərmanı pozan kim oldu?

20-21.10.1998

YALAN DÜNYA

Şəhriyarın «Yalan dünya» şe'rinə nəzirə

Nəşə yeyib kədər qusdun,
Hər addımda haqqı pusdun,
Şər önündə sən də susdun
Hər şeyə kor olan dünya,
«Yalan dünya, yalan dünya».

Ağlamayan bir göz hanı?
Hey yandırdın təndə canı,
Haçan olar haqq divanı?
Boş yerə saç yolan dünya,
«Yalan dünya, yalan dünya».

Al bəşərdən canı bir yol,
Səvabı az, günahı bol,
Hara gedir söylə bu yol?...
Savaşlarda solan dünya,
«Yalan dünya, yalan dünya».

Əllərini yuma qanla,
Bacarırsan haqqı anla,
Kədər illə, sevinc anla,
Hər addımı talan dünya,
«Yalan dünya, yalan dünya».

Əzabına tutuşan biz,
Qəmlərinə qatışan biz,
Sənlə hey atışan biz,
Zurnasın boş çalan dünya,
«Yalan dünya, yalan dünya».

Göylərini qəmin sağır,
Qəlb damına kədər yağır,
Yükün səndən min qat ağır,
Dalında çul, palan dünya,
«Yalan dünya, yalan dünya».

Saxlama heç o gödəni,
Doydurmadı tən mədəni,
Candan alıb hər bədəni...
Boş məzara salan dünya!
«Yalan dünya, yalan dünya».

Dilinin hər əmri belə...
Çıxmaz səsi-səmri belə,
Bu beşgünlük ömrü belə
Əlimizdən alan dünya,
«Yalan dünya, yalan dünya».

Soldu necə gül bədənlər,
Əzrayıl hər təni dənlər,
Doymadı ki, heç gedənlər?
Özü sona qalan dünya,
«Yalan dünya, yalan dünya».

Həyat gülün dərmədim ki,
Qəmin qolun gərmədim ki,
Mən ki, heç gün görmədim ki,
Əzabıyla kalan dünya,
«Yalan dünya, yalan dünya».

Anasından bala aldın,
Qəbirinə nə tez saldın?
Guya ki, sən zəfər çaldın,
Sənin ki, yox balan, dünya,
«Yalan dünya, yalan dünya».

Əzrayıldan nəyin əskik?
Çox dam, saray yıxıq, sökük,
Hünərin var bir yuva tik,
Varınmı heç dalan dünya?
«Yalan dünya, yalan dünya».

Çox zirvədə olan taxtı,
Təpəsindən yerə çaxdı,
Təbim kimi coşan vaxtı,
Xəyallara dalan dünya,
«Yalan dünya, yalan dünya».

Atını şər evinə çap,
Haqqı onun əlindən qap,
Ya bircə yol səadət tap,
Ya odlara qalan dünya!
«Yalan dünya, yalan dünya».

Şadimanın əsir özü,
Tutulanda qəmdən üzü,
Bulud təki ağlar gözü,
Könlüm kimi dolan dünya!...
«Yalan dünya, yalan dünya».

22-23/01.2000

DÜNYA SUSDU

Qətrə-qətrə qan töküldü, çox talandı məkanımız,
İnsanlığa yaxşı bələd ali ədəb, ərkanımız.
Haqqımızı anlatmağa az tapıldı imkanımız,
Heç olmadı özümüzə, içimizə təkanımız.
Hər zülümə, müsibətə, həqarətə dünya susdu,
Ağzımıza daş basıldı, ədalətə dünya susdu.

Hey çəkildi gözümüzə zaman-zaman yağı mili,
Hey kəsildi cəlladların əllərində haqqın dili.
Nə bir qansız, nə qovğasız olmadı ki, vətən ili,
Ocaqları kor qoydular, quru yurdda qaldı külü.
Fitvalarda biz əzildik, biz üzüldük, dünya susdu,
Kətan təki hey nazildik, hey süzüldük, dünya susdu.

Şəhidimiz məzar-məzar çoxaldıqca, adiləşdik,
Torpağımız hissə-hissə alındıqca, vadiləşdik.
Beynəlmiləl deyildikcə üzümüzə, sadələşdik,
Yurdumuzdan pay verməkçin xainlərlə, vədələşdik...
Qan töküldü, bel büküldü, yurd söküldü, dünya susdu.
Atamızın qəbirinə xaç çəkildi, dünya susdu.

Bizdən əvvəl gələnlər də birləşməyi ar bildikcə,
O tayfanın böyüklüyün bu tayfaya xar bildikcə,
Yadellinin xatunların özlərinə yar bildikcə,
Öz yurdunu, öz elini bir-birinə dar bildikcə,
Xərabəyə döndü ocaq, söndü ocaq, dünya susdu.
Aşıb-daşdı qanlı qucaq, dondu bucaq, dünya susdu.

Aman Allah, kim açacaq bizim bu kor gözümüzü?
Düşmən bildik, yağı bildik özümüzə özümüzü,
Oğurladı iblis, şeytan içimizdən közümüzü,
Yadelliyə, xainlərə öyrətdikcə üzümüzü.
Xırdalandıq, könlümüzə zəfər çaldıq, dünya susdu,
Son məqamda özümüzlə tənha qaldıq, dünya susdu.

Zülüm evi yıxılmazdır min il belə ötüb keçdi,
Zəlzələlər, fırtınalar insanları ot tək biçdi,
Cahillikdən çıxmıb bəşər bir-birinin qanın içdi...
Zaman-zaman ölüm, qırğın, müsibətlər yolun seçdi,
Haqqımızı içimizdə şəhid edən, dünya susdu,
Aman Allah, bu qanlara söylə nədən dünya susdu?

Xərabəyə döndü yurdlar, bilinmədi ölüb-itən,
Unutqanlıq, biganəlik qəlbimizdə ottək bitən,

Əslimizə, kökümüzə ağız büzdü, əfsus yetən,
Kiçildikcə, söküldükcə, büküldükcə yazıq vətən!
İnsanları işğallarda üyüldükcə, dünya susdu,
Ədalətin baş-gözünə döyüldükcə, dünya susdu.

Ey Şadiman, yandı bağrın hər əzabın cəfasından,
Kimə qaldı bu cahanın əlçatmayan vəfasından?
Zaman qaçdı, Tanrı qıymıb insanlara şəfasından,
Ocağında kül olmusan ürəyinin səfasından,
Sən alışdın, alovundan yandı Günəş, dünya susdu,
Vulkan oldu könlün içi, doğdu atəş, dünya susdu.

3.04.2001.

NİGARANAM

Bu dünyanın qüssə dolu sabahına inamım az,
Qarlı qışdan üzü bəri uzaqlardan əl edir yaz,
Göylər sirli, günəş altun, yol gözləyən yollar bəyaz,
Bu sərsəri oyunların hər sirindən, nigaranam,
Dünyanın üst qatı asan, mən dərindən nigaranam.

Ağrı-acı qıvrılıbdı, ilan təki, köks içində,
Çöhrə gördüm, könül gördüm, vicdan gördüm hər biçimdə,
Bu nakişi zamanənin nə var desən o içində,
Haqq qıfılı itirilmiş açarından, nigaranam,
Sürünəni ayaqlarda uçarından, nigaranam.

Dünya içi alovlanan bir məşəldi, yanacaq hey,
Namərdi min qədd əyilən, mərdi sızlar yanıqlı ney,
Sürükləyir eniş-yoxuş min illərdi bizi ğiley,
Yerlərə səd ət bədənlər ölümlərdən, nigaranam,
Ərzi-göyü ram eyləyən zülümlərdən, nigaranam.

Sinəm bağrım köpüklənən bir nəhrdi qalxıb ərşə,
Əyilməzdir dağ vüqarım, amadədi hər döyüşə,
Zərif qadın vücuduma sığmaz, Tanrım, bu əndişə,
Acıları dağlar boyda insanından, nigaranam,
Hiyləsi min fil aşıran hər anından, nigaranam.

Şadimanın sinəsində dünya sığmaz, möhnəti çox,
Səadəti bircə anlıq ömrü boyu zilləti çox,
Bu dövranın hər addımı ürəyinə zəhərli ox,
Min il belə hönkürəcək sözlərimdən, nigaranam,
Ürəklərin için görən gözlərimdən, nigaranam…

07.10.1992

ÇƏKƏNƏ QƏM DÜNYA

«Sənsiz » analar cəmiyyətinin sədri Zenfira Rəhimovaya.

Zülm ərşə bülənddi,
Həyat feildi, fənddi,
Əzrayıl himə bənddi…
Ay çəkənə qəm dünya,
Çəkməyənə dəm dünya.

Kiminin yurdu savaş,
Kiminin gözündə yaş,
Kiminin ürəyi daş,
Ay çəkənə qəm dünya,
Çəkməyənə dəm dünya.

Birinin başda tacı,
Acın puldur amacı,
Yox sabaha əlacı,
Ay çəkənə qəm dünya,
Çəkməyənə dəm dünya.

Toxun aca rəhmi yox,
Zaman ötür fəhmi yox,
Ölümün də zəhmi yox…
Ay çəkənə qəm dünya,
Çəkməyənə dəm dünya.

Göz var min çeşmə doğar,
Göydə buludu sağar,
Selində özün boğar,
Ay çəkənə qəm dünya,
Çəkməyənə dəm dünya.

Ömür cahana karvan,
Zaman başında sarvan,
Haqqı deyənə divan…
Ay çəkənə qəm dünya,
Çəkməyənə dəm dünya.

Bəşər yollar yorğunu,
Zülm əzər doğrunu,
Başa çəkər oğrunu,
Ay çəkənə qəm dünya,
Çəkməyənə dəm dünya.

Bir elin gülzarı bol,
Bir elin məzarı bol,
Dünyanın azarı bol,
Ay çəkənə qəm dünya,
Çəkməyənə dəm dünya.

Minlər qoynunda yatar,
Minlər minini satar,
Şadimanı gəl qutar…
Ay çəkənə qəm dünya,
Çəkməyənə dəm dünya.

10.05.1994

DOĞULAN PEŞİMAN, ÖLƏN PEŞİMAN

Acılar könlümdə qübara dönüb,
Bir anlıq sevincim nübara dönüb,
Bəxtim, səadətim dübarə dönüb,
Görmədim çoxunda əqidə, iman,
Doğulan peşiman, ölən peşiman.

Dünyanın acısı-şirini zəhər,
Boğur həyatımı büsbütün qəhər,
Zaman da dördnala çapan bir kəhər…
Alır əlimizdən anları yaman,
Doğulan peşiman, ölən peşiman.

Göyün yeddi qatı sirli bir kaha,
Milyonlar öldürür naləyə, aha,
Gah toydu, gah yasdı, eyvah sabaha,
Yolur saçlarını əlində zaman,
Doğulan peşiman, ölən peşiman.

Ərəsat gününü bir düşünən yox,
Mini ac yaşayır, biri isə tox,
Dünyanın dəlisi bilənindən çox,
Heç kəs düşünməyir axirət divan…
Doğulan peşiman, ölən peşiman.

Hərə günahının yükünə ulaq,
Axır zamanıyçın yanacaq qulaq,
Gözdən axan qanlar min çeşmə, bulaq,
Didir bir-birini sağ ikən insan!
Doğulan peşiman, ölən peşiman.

Vicdan yox, paranın bölgüsü gedir,
Ağılsız başların hörgüsü gedir,
Hər cür alçaqlığın süngüsü gedir,
Büdrəyən, yıxılan, əzilən ümman,
Doğulan peşiman, ölən peşiman.

Bir kimsə bilməyir dünya imtahan,
Pulu-parasıyla şirindi cahan,
Harama, halala çox azdı baxan,
Gözümüz önündə hər günahsız qan,
Doğulan peşiman, ölən peşiman.

Birinin altunu qucağa sığmır,
Biş-düşü min cürə, ocağa sığmır,
Birinin əyalı bucağa sığmır,
Yoxuşu, enişi, örüşü duman,
Doğulan peşiman, ölən peşiman.

Zaman hədələyir bizi ürəklə,
Leysanla, boranla, acı küləklə,
Allahlıq edirik, vallah, fələklə,
Döyür qapımıızı ölüm, ah, aman…
Doğulan peşiman, ölən peşiman.

Demə Şadimana Tanrı naşıdır,
Dəryalar, çeşmələr gözüm yaşıdır,
Ruhum sənin, cismim vətən daşıdır!
Əbədi deyildir bəxş etdiyin can,
Doğulan peşiman, ölən peşiman.

19.11.1992

SAZIM ÇAL

Dərdlərimin təzəsi çox, azı yox,
Ölər ömrün sərt qışı var, yazı yox,
Heç alında yazım kimi yazı yox,
Yaralanmış könlü al,
Qopuzum çal, sazım çal.

Mən gələli dünya yaman dünyadır,
Yazıq başım gecə-gündüz qaldadır,
Var-dövləti gözümüzü aldadır,
Yaralanmış könlü al,
Qopuzum çal, sazım çal.

Ellərimin qan ağlayan gözləri,
Alışdırır bağrın için közləri,
Yağılara göz dağıdır özləri,
Yaralanmış könlü al,
Qopuzum çal, sazım çal.

Dərd sinəmi min bir yerdən oxladı,
Bu kor olmuş bəxtim yenə yuxladı,
Gül bəslədim, ətrin yağı qoxladı,
Yaralanmış könlü al,
Qopuzum çal, sazım çal.

Nədəndir ki, buludlanmış nəhirlər?
Boğdu məni min bir yerdən qəhərlər,
Dünya zalım üstbəüstdən zəhərlər,
Yaralanmış könlü al,
Qopuzum çal, sazım çal.

Zəmanənin üzü dönüb yenə də,
Min yara var qəmə batmış sinədə,
Tarix ağlar uçuqlanmış binədə,
Yaralanmış könlü al,
Qopuzum çal, sazım çal.

Tale quşu bağrımızdan uçubdu,
Əlçatmayan zirvələri qucubdu,
Bəxt sarayı başımıza uçubdu,
Yaralanmış könlü al,
Qopuzum çal, sazım çal.

Acılara ağlayan kim, gülən kim?
Dünya varın min bir yerə bölən kim?
Altunlarla çarpışan kim, ölən kim?
Yaralanmış könlü al,
Qopuzum çal, sazım çal.

Saçın yolur halımızdan mələklər,
Şimşəklərdən şivən qurur fələklər,
Qüsurlunu, qüsursuzu ələklər…
Yaralanmış könlü al,
Qopuzum çal, sazım çal.

Ey Şadiman, dünya mənim deyənlər,
Varın, pulun, əyin-başın öyənlər,
Haqqı danıb, tərəzini əyənlər,
Bir gün Tanrı dərgahında hey inlər,
Yaralanmış könlü al,
Qopuzum çal, sazım çal.

27.10.1991.

ETMƏDİ DÜNYA

Heç kəsə göstərməz öz vəfasını,
Çəkdirər gələnə qəm cəfasını,
Görən az olubdu o səfasını,
Hər haya, haraya yetmədi dünya,
Kimsəyə etibar etmədi dünya.

Boşaltdı gözlərdən dolan yaşları,
Kəllədi, sümükdü bomboz daşları,
Min illər çatılıb dərddən qaşları,
Hər ömür bağında bitmədi dünya,
Kimsəyə etibar etmədi dünya.

Endirdi sultanı, şahı taxtından,
Kimi düşürtmədi o ağ baxtından?
Bir ömrə qatmadı bir an vaxtından,
Ölənlə məzara getmədi dünya,
Kimsəyə etibar etmədi dünya.

Canı boğazından çıxarıb aldı,
O gül bədənləri qəbirə saldı,
Hamının gözündə axıra qaldı,
Ömürtək tələsik ötmədi dünya,
Kimsəyə etibar etmədi dünya.

Yolunda yorğundu bəşər karvanı,
Salar ayağına ötən sarvanı,
Gələnə, gedənə bəlli ünvanı,
Yorulub yollarda itmədi dünya,
Kimsəyə etibar etmədi dünya.

Az-az verdiyini əlindən qapdı,
Zaman dolayında tərsinə çapdı,
Hər doğulan təndə özünü tapdı...
Tək öz qanadını ütmədi dünya,
Kimsəyə etibar etmədi dünya.

Sümük daşa döndü, daş da divarə,
Zamanın əlində ömür avarə,
Gedənlər gəlmədi bir də dübarə,
Doğuldu, heç sona yetmədi dünya,
Kimsəyə etibar etmədi dünya.

Səpər darısını torpağa, düzə,
Keçirər xəlbirdən çıxarar üzə,
Bənzər tələtümlü, çılğın dənizə,
Əvvəli, axırı bitmədi dünya,
Kimsəyə etibar etmədi dünya.

Haqdan atəş basıb bu canımıza,
Qaynayıb qarışıb al qanımıza,
Gəlməz o dünyaya heç yanımıza,
Bülbültək gül üçün ötmədi dünya,
Kimsəyə etibar etmədi dünya.

Şadiman, az olur ürək sevinci,
O sədəf içində gizlənən inci,
Ovxalar kaşını, dağıdar pinci,
Hiyləyə, tələyə getmədi dünya,
Kimsəyə etibar etmədi dünya.
Kimsəyə etibar etmədi dünya.

19.03.2001

DÜNYANIN QƏMİNƏ QƏM KİMİ BAXDIM

Dünyanın qəminə qəm kimi baxdım,
Dünyanın sevinci güldürdü məni.
Bütün ağrıları qəlbə buraxdım,
Bu ağrı-acılar öldürdü məni.

Gözümdən damlayan yaş dərya oldu,
Düşüb bu dəryaya boğulub qaldım.
Sanki boğulmağım bir röya oldu,
Yenidən sabaha doğulub qaldım.

Zaman kül üfürdü gözümə mənim,
İşığı acışdı baxışlarımın.
Atəşim qarışdı közümə mənim,
Buzları əridi sərt qışlarımın.

13.10.2007

GÜNƏŞİSEVƏRLƏR DEYİLLƏR SƏNƏ

Zəhmətiylə daim fəlakəti üstələyib, işıq kimi parlayan yapon xalqına

Günəşisevərlər deyillər sənə,
Bütün nəcibliyi öyüllər sənə,
Vallah, düzlükdə tay deyillər sənə,
Dərdə yük çəkməyən, ey yapon xalqı,
Göz yaşı tökməyən, ey yapon xalqı.

Vardır hər millətin böyük cəfası,
Səndə şüurludur insan vəfası,
Həyatı məntiqli, dolu qafası,
Dəhşətə çökməyən, ey yapon xalqı,
Göz yaşı tökməyən, ey yapon xalqı.

Nəhrlər titrədi ac canavartək,
Aldı cəhənginə yurdu ovartək,
Neçə şəhərini satıb-sovartək,
Bu dərddən hürkmüyən, ey yapon xalqı,
Göz yaşı tökməyən, ey yapon xalqı,

Dünyanı çalxatdın məşəqqətinlə,
Ağrını oxşadın şəfaqətinlə,
Ərzə heyrət etdin sədaqətinlə,
Qəmiylə səkmiyən, ey yapon xalqı,
Göz yaşı tökməyən, ey yapon xalqı.

Zəlzələ oynatdı yurdunu yerdən,
Tərpədə bilmədi qurdunu yerdən,
Fəlakət qorxusun şumlayıb dən-dən
Qəlbinə əkməyən, ey yapon xalqı,
Göz yaşı tökməyən, ey yapon xalqı.

Sunami yurdunu çatdı okyana,
Minlərlə insanı atdı okyana,
Fəryadı, vəhşəti batdı okyana...
Belini bükməyən, ey yapon xalqı,
Göz yaşı tökməyən, ey yapon xalqı.

Dünyada bir kimsə bilmir sonunu,
Zamana bağlanmış ömür anını,
Sirli təbiətin vəhşət donunu
Əyninə tikməyən, ey yapon xalqı,
Göz yaşı tökməyən, ey yapon xalqı.

Qurduğun ocaqda alışır közün,
Kimsə ayağına düşməyir sözün,
Vaxt gələr yenə də qalxarsan özün...
Günəşə baş əyən, ey yapon xalqı,
Göz yaşı tökməyən, ey yapon xalqı.

26.04.2011

BU DÜNYA QƏM ÇEŞMƏSİ

Hər taleyə bir ömür, hər ömrə bir həyat var,
İnsanın ağılında açılmaz neçə qat var,
Şüurun fəqanından ürəkdə min cür çat var,
Bir tərəfdə göz yaşı, bir tərəfdə büsat var…
Ağrılara qul oldun, taleyin yatıb gedir,
Bu dünya qəm çeşməsi, üzməyən batıb gedir.

Sabahın naləsinə gecənin ahı-zarı,
Hiylədən hiylə doğur bu insanlıq bazarı…
Hər beyində açılmaz haqqın müdrik gülzarı,
Bəşərin əməlinə layiqdi öz məzarı,
Bədən canın libası, libasın atıb gedir,
Bu dünya qəm çeşməsi, üzməyən batıb gedir.

Hər ağrının öz ahı, hər ahın min fəryadı,
Dildə boğulur qalır ürəklərin imdadı,
İnsana rövnəq verir gözəl həyatın dadı,
Göz qızır, ağıl çaşır, unudulur Rəbb adı,
Ölən ömrün əzabın belinə çatıb gedir,
Bu dünya qəm çeşməsi, üzməyən batıb qedir.

Hər duyğunun baharı, hər baharda qış olur,
Allah xofu olmayan sinə, ürək daş olur
Ağıldan nalə qopur göz içində yaş olur,
Fitnəyə rəvac verən iblisə qardaş olur,
Qəlbində şeytan olan aləmi qatıb gedir.
Bu dünya qəm çeşməsi, üzməyən batıb gedir.

Ağrılara əyilən əzabların quludu,
Doğulanın həyatı bir imtahan yoludu,
Ömrümüz keşməkeşlə, fəqanlarla doludu,
Boynumuza sarılan mələklərin qoludu,
Hansı doğulan insan tam kama çatıb gedir ?!…
Bu dünya qəm çeşməsi, üzməyən batıb gedir.

Sitəmlərin içində min agrı, min acı var,
Hər doğulan bəndənin pak olmaq əlacı var,
Cahanın başı üstə Rəbbin şahlıq tacı var,
Könlü odda qovuran iblisin şər sacı var,
Dilәkləri sinədə fitnəyə satıb gedir,
Bu dünya qəm çeşməsi, üzməyən batıb gedir.

İnsanın vaxt açarı fələyin boğçasında,
Bahar payıza tacdı ömürün bağçasında,
Canımızın rəfi var Yaradan taxçasında,
Dil divara çalınır haqq-hesab mıxçasında,
Zaman ömur atını dalınca dartıb gedir…
Bu dünya qəm çeşməsi, üzməyən batıb gedir.

17.11.2003

SEVDAM VAR HƏLƏ

Deməyin solmuşam bağçada gültək,
Gülzarda ötmürəm xarıbülbültək,
Deməyin yel məni əyər sünbültək,
Dolanar sorağım hey eldən-elə,
Mənim bu dünyayla sevdam var hələ.

Gözlərim dolanda yaş inciməsin,
Ağlın çəkisinə baş inciməsin,
Ömür tələsəndə yaş inciməsin,
Axmasın əlimdən anlarım elə,
Mənim bu dünyayla sevdam var hələ.

Bitib tükənməyir ürəkdə sözüm,
Qəlbi zirvələrə aparır dözüm,
Sanki yerin, göyün əsiri özüm,
Qanadlı mələktək dönmüşəm yelə,
Mənim bu dünyayla sevdam var hələ.

Zaman acısından qurtulmaq çətin,
O bir bəlasıdır bəşəriyyətin,
Məramı xoş olsun min bir niyyətin,
Bağlıdır anlarım bir zərif telə,
Mənim bu dünyayla sevdam var hələ.

Ürəyim zamana köklənən simdi,
Köksümdən qaçıran məni hissimdi,
Kainat dediyin bir tilisimdi,
Onun çox sirləri düşməyir ələ,
Mənim bu dünyayla sevdam var hələ.

Könlün acısını bilən də odur,
Bizə qəh-qəh çəkib gülən də odur,
Ölənlə bir yerdə ölən də odur,
Keçsə də altuntək hey əldən-ələ,
Mənim bu dünyayla sevdam var hələ.

Hər duyğum taxtını bəzəyən şahım,
Gah şövqlə, gah zövqlə açar sabahım,
Qəmimi içimdə boğar Allahım,
Anlarım bənzəyir bir coşqun selə,
Mənim bu dünyayla sevdam var hələ.

Dağ sisə, dumana aşiq kimidi,
Ay zülmət gecəyə işıq kimidi,
Dərə gur sellərə qaşıq kimidi,

Zaman toxunmasın könlümdə telə,
Mənim bu dünyayla sevdam var hələ.

Fələk bələkləyir ağrı, acımı,
Bəzəyir ilhamla könül tacımı,
Duyur yerim, göyüm ehtiyacımı,
Çapsın duyğularım belədən-belə,
Mənim bu dünyayla sevdam var hələ.

Ürək alışmasa gözdə yaş olmaz,
Ağılı olmayan başdan baş olmaz,
İnsan doğulanın qəlbi daş olmaz,
Şadiman, ölümü gətirmə dilə,
Mənim bu dünyayla sevdam var hələ.
Mənim bu dünyayla sevdam var hələ.

03.03.2001.

QABARLI ƏLLƏR

Böyük şəhərləri, böyük kəndləri,
Dünyaya gətirdin, qabarlı əllər.
Sussuz torpaqlarda tikdin bəndləri,
Bar-bəhər yetirdin, qabarlı əllər.

Ağılla nemətlər süfrəyə doldu,
Zəhmətin hamıdan birinci oldu,
Fərəhdən gözlərin qürurla doldu,
Daşdan gül bitirdin, qabarlı əllər.

Zinətli evlərdən uzaq yaşadın,
Çiynində ən ağır bir yük daşıdın,
Bər-bəzəkli gəzdi sənin yaşıdın,
Seltək tər itirdin, qabarlı əllər.

Sanki bol nemətdir evə-eşiyə,
Hazırdır dunyaya ulu keşiyə,
Körpəli-çağalı məsum beşiyə,
Gülabdır, ətirdir qabarlı əllər.

Yorulmaq bilmədin işdən, əməkdən,
Torpağın yükünü hər an çəkməkdən,
Dil doymaz şəninə dastan deməkdən,
Hər anın sətirdi, qabarlı əllər.

Düzgün yaşayanlar sevər Allahı,
Gücünlə görürəm aydın sabahı,
Məni zəhmətinə bağlayan axı,
İstəkdi, xətirdi, qabarlı əllər.

24.01.1987

QOYUN AZAD UÇSUN GÖYLƏRDƏ QUŞLAR

Gəzir səmalarda çiskin-dumanlar,
Dolaşır dünyanı şübhə, gümanlar,
Dilsiz canlılar da bizi yamanlar,
Tökər üstümüzə min-min qarqışlar,
Qoyun azad uçsun göylərdə quşlar.

Səma da, torpaq da el də bizimdir,
Gah acı, gah şirin dil də bizimdir,
Ömrümüzdən gedən il də bizimdir,
Göydən yağdırmayın nüvə yağışlar,
Qoyun azad uçsun göylərdə quşlar.

Ey qafil, yuxudan erkən dur bir gün,
Gör necə parlaqdır səmada al gün,
Salmın bu dünyanın bəxtinə düyün,
Bir də fikirləşin, düşünün, başlar,
Qoyun azad uçsun göylərdə quşlar.

Yerin də, göyün də öz cəfası var,
Hər qarış torpağın öz səfası var,
Dilsiz canlıların öz vəfası var,
İnsanın ağlını qədər alqışlar,
Qoyun azad uçsun göylərdə quşlar.

Dağlara, düzlərə gəl diqqət edək,
Buyurub, dünyanın seyrinə gedək,
Mənəm deyənlərin ağzını güdək,
Cahanda yenə də qan-qırğın başlar,
Qoyun azad uçsun göylərdə quşlar.

Gəl seyrinə dalaq pak ormanların,
Dəli şimşəklərin, sis dumanların,
Sabahın düşünək bu ümmanların,
Dünyanın gözünü dərd, ələm yaşlar,
Qoyun azad uçsun göylərdə quşlar.

Baxıram fəzada ağ bulud uçur,
Gah dərəyə qaçır, gah düzə qaçır,
Bu altun kainat ürəyi açır,
Gəzsin ölkələri qoy qaranquşlar,
Qoyun azad uçsun göylərdə quşlar.

Gözəllik duyuram dağda, aranda,
Göyün seyrinə çıx gün qızaranda,
Dünya ki, dururdu biz yarananda,
Canlı həyat imiş bir zaman daşlar,
Qoyun azad uçsun göylərdə quşlar.

Biz ki, bu dünyaya günahsız gəldik,
İdrakla, ağılla hər gün yüksəldik,
Zirvəni fəth edib, ormanı dəldik,
Atomlar, nüvələr bizə nə aşlar?
Qoyun azad uçsun göylərdə quşlar.

Hər gün ömrümüzə baldı, şəkərdi,
Hər an, hər dəqiqə zaman təkərdi,
Dünyanın dərdini de kim çəkərdi?
Kim bizə yeni bir dünya bağışlar?
Qoyun azad uçsun göylərdə quşlar.

Doldurmun dünyanı acı silahla,
Oynamın gündüzlə, gecə-sabahla,
Kim mərama çatıb naləylə, ahla,
Salmayın raketdən yerə naxışlar,
Qoyun azad uçsun göylərdə quşlar.

Şadiman, dünyaya gəl diqqət elə,
İdraka təbiət yalvarmıb belə,
Qitələr, okyanlar gəlibdir dilə,
Həyat, həyat deyir bütün baxışlar,
Qoyun azad uçsun göylərdə quşlar.
Qoyun azad uçsun göylərdə quşlar.

17-29.06.1986

YUXUM ÇİN OLAYDI KAŞ

Röyada gördüm ki, bu gecə yarı...
Süd gündüz içində dünyanın varı,
Nemətlər hamıya bölünüb yarı,
Yad sözü yox, hamı – bacı və qardaş...
Bu gecəki yuxum çin olaydı kaş!

Nə silah, nə sərhəd, nə nüvələr var,
Dünyaya od qoyan nə «güvələr» var,
Babalar, nənələr, gül nəvələr var,
Təmiz, pak sevənlər sevənə sirdaş,
Bu gecəki yuxum çin olaydı kaş!

Röyada gördüm ki, gülür kainat,
Özgə təmtəraqda silahsız həyat,
Kasıbsız, varlısız, günahsız həyat,
Dünyanın evinə dolubdu daş-qaş,
Bu gecəki yuxum çin olaydı kaş!

Çəkilib kürədən əzab, zillətlər,
Bir yerdə süfrəsin açıb millətlər,
Xoşdur hər məramlar, bütün niyyətlər,
Yox olub dünyanın gözündən qan-yaş,
Bu gecəki yuxum çin olaydı kaş!

Ağ, qara, sarıdan, hər irqdən olan,
Hamının köksündə yalnız bir inam,
Röyada olsa da mən necə danam...?
Gözəl arzularla dolub ürək, baş,
Bu gecəki yuxum çin olaydı kaş!

Uçur səmalarda sülh göyərçini,
Parlayır dünyanın orağı-çini,
Çəkir məğrur-məğrur dünya içini,
Asılıb pisliyin sinəsindən daş,
Bu gecəki yuxum çin olaydı kaş!

Sərhədlər yerinə çinar əkilib,
Dünyanın üzünə ağ tül çəkilib,
Həyatdan yamanlıq, pislik əkilib,
Gülür çöhrələrdə bəxtəvər göz-qaş,
Bu gecəki yuxum çin olaydı kaş!

Yoxdur kürəmizə meydan oxuyan,
Yoxdur künc-bucaqda pislik toxuyan,
Hər ləhcədə, dildə nəğmə oxuyan,
Yeri zirvələrin zirvəsində baş,
Bu gecəki yuxum çin olaydı kaş!

Töküb səmalara günəş tellərin,
Keşiyin çəkirdi xoşbəxt ellərin,
Yeri hədələyən yaman dillərin,
Ağzına basılmış qapqara bir daş,
Bu gecəki yuxum çin olaydı kaş!

Yanıb kürəmizdə bütün silahlar,
Yox olub dünyadan, ağrılar, ahlar,
Lap ətir qoxuyur açan sabahlar,
Zillətdən, əzabdan ağrımayır baş,
Bu gecəki yuxum çin olaydı kaş!

Vətən bütövləşib şadlıq içində...
Dərdi baş götürüb qəlbdən köçündə,
Dillər alışmayır niyə-neçində?
Silinib sinədən əbədi təlaş,
Bu gecəki yuxum çin olaydı kaş!

Günahsız qanlara son qoyulubdu,
Yalanlar, hiylələr lap oyulubdu,
Dünya günahlardan tam yuyulubdu...
Bəxtəvər qocalır hər ömür, hər yaş,
Bu gecəki yuxum çin olaydı kaş!
Bu gecəki yuxum çin olaydı kaş!

24.01.1987

ŞAD ETDİN KİMİ DÜNYA?

Haqla dövran eylədin,
Canda cövlan eylədin,
Ömrü viran eylədin,
Hər könlün simi dünya,
Şad etdin kimi dünya?

Ağlatdın can yiyəsin,
Sındırdın an tiyəsin,
Bilmədin şər mayəsin,
Fələyin himi dünya,
Şad etdin kimi dünya?

Diləkdə hiss yaşatdın,
Başda nəfs yaşatdın,
Ürəyi pis yaşatdın,
Uddu kim-kimi dünya?
Şad etdin kimi dünya?

Ağılda üsyan etdin,
Damladan leysan etdin,
Bədənlə ehsan etdin,
Vaxtın həkimi dünya,
Şad etdin kimi dünya?

Şadimanı sorma gəl,
Ürəyini yorma gəl,
Canla ara vurma gəl,
Rəbbin tilsimi dünya,
Şad etdin kimi dünya?

14.07.2005

TAMAŞA DÜNYA

Kiminə şirindi, kiminə acı,
Kiminin başında şan-şöhrət tacı,
Mənhus ölümünə tapmaz əlacı,
Bənzər qanadıyla bir quşa dünya,
Hamıya bir seyr, tamaşa dünya.

Heç kəsdən varını həsləmədi ki,
Əbədi kimsəni bəsləmədi ki,
Gedəni geriyə səsləmədi ki,
Sultantək çəkildi hey başa dünya,
Hamıya bir seyr, tamaşa dünya.

Ağlayan gözlərdən yaşı qopartdı,
Uca saraylardan daşı qopartdı,
Əzrayıl əliylə canı apardı...
Bələndi qatbaqat daş-qaşa dünya,
Hamıya bir seyr, tamaşa dünya.

Şahı gəda etdi, gədanısa şah,
Naləsiz, savaşsız gəlmədi sabah,
Bəşərin köksündən qopan fəqan, ah,
Döndü bəbəklərdə qan-yaşa dünya,
Hamıya bir seyr, tamaşa dünya.

Məzarlar üstündə məzar yaratdı,
Cavanı, qocanı məzara atdı,
Ölənlə əbədi qəbirdə yatdı...
Döndümü ürəyin de daşa, dünya?
Hamıya bir seyr, tamaşa dünya.

Kimsənin halını sormadı ki, heç,
Atını yollarda yormadı ki, heç,
Bir yerdə əbədi durmadı ki, heç,
Doymadı baxmaqdan göz-qaşa dünya,
Hamıya bir seyr, tamaşa dünya.

Boyadı min rəngə gözdəki yaşı,
Daşıdı torbayla torpağı, daşı,
Ömürlük olmadı dostu, sirdaşı,
Qalıb taley ilə baş-başa dünya,
Hamıya bir seyr, tamaşa dünya.

Kimsəni özündən incidən deyil,
Nədə ki, bizimtək can güdən deyil,
Özünü bəşərtək xar edən deyil,

Vurmaz bir gününü boş-başa dünya,
Hamıya bir seyr, tamaşa dünya.

Hamıdan ucadır Tanrı qüruru,
Tutubdu aləmi gözünün nuru,
Çox dolu bostanı eyləyər uru,
Gələnlə, gedənlə, ey qoşa dünya,
Hamıya bir seyr, tamaşa dünya.

Yorar yollarında o, Şadimanı,
Tutub əllərində bu şirin canı,
Gəlib-gedənin hesabı hanı?
Donunu bürüyüb qumaşa dünya,
Hamıya bir seyr, tamaşa dünya.

01.06.2001

BU DÜNYA MƏNİMDİ

Ruhumdan alışan odum, közüm var,
Həyatdan doymayan könlüm, gözüm var,
Hələ deyiləsi çoxlu sözüm var,
Məcnunu olmadım heç boş xülyanın,
Bu dünya mənimdi, mən də dünyanın.

Ovqatım köklənib xoş məramlara,
Ürəyim yatmayır heç haramlara,
Cığırlar açıram canda kamlara,
Qanadlı quşuyam, sanki hər yanın,
Bu dünya mənimdi, mən də dünyanın.

Sevda yolçuları canımdan keçir,
Eşqi şəfa təki qanımdan keçir,
Bütün səadətlər anımdan keçir,
Gözüm qonağıdır şirin röyanın,
Bu dünya mənimdi, mən də dünyanın.

Şadiman qələmi sözə calayır,
İçində gah sevinc, gah qəm ulayır,
Dilin zəhəri də könül bulayır,
İnsan, gün ışığı olsun həyanın,
Bu dünya mənimdi, mən də dünyanın.

16.02.1986

BİLMƏDİN DÜNYA

Səndə kədər gördüm, səndə qəm gördüm,
Heç məni sevdirə bilmədin, dünya.
Gözdə çəpərlənmiş gizli nəm gördüm,
Könlümü güldürə bilmədin, dünya.

Pünhan alışmağım gecələr nalan,
Dolu dərdlərimi tutmayır palan,
Nə etdim önündə hamısı yalan,
Özümü bildirə bilmədim, dünya.

Mən ki, hər addımda səni səslədim,
İçimdə sevdalı istək bəslədim,
Bütün ağrılardan canı həslədim,
Adımı sildirə bilmədin, dünya.

Batdın tikan təki hər gün gözümə,
Elə qərar verdim yenə dözümə,
Heç gələ bilmədim bir dəm özümə,
Hər addım sevdalar saldın izimə,
Sən məni öldürə bilmədin, dünya.

19.05.2013

BU DÜNYA NƏ SƏNƏ, NƏ MƏNƏ QALMAZ

Eşq ilə bəşərin könlünü alar,
Puluyla başlara qələbə çalar,
Köçəndən xatirə bir məzar qalar…
Əbədi heç kəsi qoynuna almaz,
Bu dünya nə sənə, nə mənə qalmaz.

Sevdası şirindi, ömrə bəs etməz,
Sonadək kimsəylə yola da getməz,
Varından bir zərrə heç kimə yetməz,
Gözü qamaşdıran bir parlaq almaz,
Bu dünya nə sənə, nə mənə qalmaz.

Dağların, daşların tarixin açmaz,
Zamantək anlara qoşulub qaçmaz,
Can təki bədəni tərk edib uçmaz,
Ömrün son nəğməsin fələksiz çalmaz,
Bu dünya nə sənə, nə mənə qalmaz.

Hər başı ağradır keşməkeşiylə,
İnsanı üzdürər çətin işiylə,
Kəsər ömürləri iti dişiylə,
Özü bəşər kimi saralıb solmaz,
Bu dünya nə sənə, nə mənə qalmaz.

Suyundan içənlər sağlıq tapmadı,
Kimin ürəyini qəmlə qapmadı?
Həyat bağçasını soyub-çapmadı?
Canı aparmasa, can qabı dolmaz,
Bu dünya nə sənə, nə mənə qalmaz.

Əsiri olanı əsir eyləyir,
Varından, pulundan qəsir eyləyir,
Daşından, başından yesir eyləyir,
Haqqını deyənnən arası olmaz,
Bu dünya nə sənə, nə mənə qalmaz.

Uca sarayları uçurtdu-tökdü,
Çox taxtın özülü əbədi çökdü,
Əlinlə tikdirdi, əliylə sökdü,
Fələkdən izinsiz bir təni almaz,
Bu dünya nə sənə, nə mənə qalmaz.

Bəndənin üzünü iki eylədi,
Ömrünü zamanın tükü eylədi,
Bəşəri torpağın yükü eylədi,
Heç zaman qolunu boynuna salmaz,
Bu dünya nə sənə, nə mənə qalmaz.

Can deyib yapışma anlardan heç vaxt,
Sənə əbədilik verilmib bu baxt,
Qırılar öhdənə buraxılan vaxt,
Bədənin canına qələbə çalmaz,
Bu dünya nə sənə, nə mənə qalmaz.

Bulma, ey Şadiman, könlü nəş'ədə,
Fələk canımızı bəslər şüşədə,
Keçirmə ömrünü boş bir guşədə,
Çağlat ilhamını hey əndişədə,
Üzülər tənindən duyğusu olmaz,
Bu dünya nə sənə, nə mənə qalmaz

06.01.2003

NƏ OLDU?

El malın talayıb yığma bucağa,
Sərvəti künclərdə qalan nə oldu?
Haram-halal bilmib, qatma ocağa,
Sandığı haramla dolan nə oldu?

Ev yıxıb, qapılar bağlayan da var,
Sinələr, ürəklər dağlayan da var,
Bir vaxt güldüyünə ağlayan da var,
Nahaq deyən dildə yalan nə oldu?

Mənsəbin, şöhrətin əlindən tutan,
Arxa kölgəsində yüksəyi tutan,
Malını gücsüzün malına qatan,
Özgənin haqqını alan nə oldu?

Dünya keçməyibdi bir gün vaxtından,
Əli qabarlının qara baxtından,
Çox «mənəm» deyəni salıb taxtından,
Torpağı çəpərə salan nə oldu?

Xeyir-şər bilməyib, şadam, deyənlər,
Elin artığından tapıb yeyənlər,
Sutək axar işin yolun əyənlər,
Qonşunun yasında çalan nə oldu?

Həyat imtahanı çətindən-çətin,
O duyan qəlbidi bəşəriyyətin,
Özgəyə tuşlanan çirkin niyyətin,
Miskin sinəsində solan nə oldu?

Ocaq keçirənin ocağı sönər,
Addımı enişdən yoxuşa dönər,
Hiyləylə ucalan, fitnəylə enər,
«Mənəm» xəyalına dalan nə oldu?

Zaman addımlardan qəsir ucaldıb,
Dünən qaldırdığın, bu gün alçaldıb,
Şüurla ürəyi birgə qocaldıb,
Özgə bostanın yolan nə oldu?

Çox cahangirləri kor eləyibdi,
Haqqın qulağına düz söyləyibdi,
Böhtan danışanın dilin əyibdi,
Sərvətlər üstündə talan nə oldu?

Dünya düşünəndi, dünya həyalı,
Düzə təbiidir, pisə boyalı,
Çarpışar, döyüşər evin əyalı,
İlantək bir-birin çalan nə oldu?

Ömür edir qananı, qanmayanı da,
Ürəkdən yananı, yanmayanı da,
Addımı ananı, anmayanı da,
Gedənlər getdisə, olan nə oldu?

Dünyanın malını qamarlayanlar,
Sərvətin sandığda tumarlayanlar,
Çirkin niyyətləri hamarlayanlar,
Ac qarın dərdində kalan nə oldu?

Açıq qapıları üzə bağlayan,
Hiyləni, fitnəni gözə bağlayan,
Min bir yalanları sözə bağlayan,
Haqq dili susdurdun, balan nə oldu?

Şadiman, dəryanın sirləri min-min,
Acizdir önündə yüz elm, yüz din,
Sən ki, hər addımda, haqq mənəm, dedin,
Düzlükdən tikdiyin qalan nə oldu?

19.11.1987

BİZİM DÜNYA ADLI VƏTƏNİMİZ VAR

Baxıram hüdudsuz gen ormanlara,
Gümüşü tül geyən asimanlara,
Ağ gəlin libaslı sis-dumanlara,
Qulağımı həzin pıçıltı ovar,
Bizim dünya adlı vətənimiz var.

Şırıltıyla axan dağ çaylarından,
Qızıl payızlardan, odlu yaylardan,
Əfsanə illərdən, şanlı aylardan,
Qulağımı həzin pıçıltı ovar,
Bizim dünya adlı vətənimiz var.

Qara çadrasına bürünən gecə,
Layla nəğməsini çaldı indicə,
O zülmət gözəlin bal dili incə,
Qulağımı həzin pıçıltı ovar,
Bizim dünya adlı vətənimiz var.

Dolaşar yer üzün ilıq küləklər,
Həyat min-min arzu doğar, bələklər,
Qəlblərdən-qəlblərə gəzər diləklər,
Qulağımı həzin pıçıltı ovar,
Bizim dünya adlı vətənimiz var.

Bahar, gözəl bahar çadır qurarkən,
Yoluna çıxanı orda yorarkən,
Çiçəyə bürünüb yolda durarkən,
Qulağımı həzin pıçıltı ovar,
Bizim dünya adlı vətənimiz var.

Dağlar, ulu dağlar qürurla baxar,
Arada-bərədə şimşəklər çaxar,
İrmaqlar ilantək qıvrılıb axar,
Qulağımı həzin pıçıltı ovar,
Bizim dünya adlı vətənimiz var.

Sığmaz məcrasına gömgöy bulaqlar,
Suyunu göllərin üstə qalaqlar,
Öz bəyaz dumanın yayar yaylaqlar,
Qulağımı həzin pıçıltı ovar,
Bizim dünya adlı vətənimiz var.

Qarşıdan üzümə gülmüsər Xəzər,
Tufana, şaxtaya, çovğuna dözər,
Mavi dalğalarda bir mahnı gəzər,
Qulağımı həzin pıçıltı ovar,
Bizim dünya adlı vətənimiz var.

Təbiət ortada toy-mağar çalar,
Baharın evinə özünü salar,
Dünyaya bir şərqi, bir nəğmə dolar,
Qulağımı həzin pıçıltı ovar,
Bizim dünya adlı vətənimiz var.

Təbiət insanı haqqa səsləyər,
Xeyrin sinəsində vicdan bəsləyər,
Şərin hər işini qəlbdən pisləyər,
Qulağımı həzin pıçıltı ovar,
Bizim dünya adlı vətənimiz var.

Həyat ümidlərlə baxar sabaha,
Düzlük qapıları bağlı günaha,
Üzün insanlara tutar bir daha,
Qulağımı həzin pıçıltı ovar,
Bizim dünya adlı vətənimiz var.

07.02.1987

DÜNYA ŞEYTAN İÇİNDƏ

Ərşi-kürşü ram edən,
Acılarla kam edən,
Qəlbə dərdi dam edən,
Bədənlərlə şam edən,
Zalımlar can biçində,
Dünya şeytan içində.

Yıxılıb haqq guşəsi,
Kəsir nahaqq tişəsi,
Sınır ürək şüşəsi,
Artır iblis nəş'əsi,
Hamı niyə, neçində?
Dünya şeytan içində.

Yerdən göyə fəryaddı,
Can bədəninə yaddı,
Ağızlarda imdaddı,
Şər hər işdə abaddı,
Bəşər köçə-köçündə
Dünya şeytan içində.

Can üzülür ah ilən,
Vicdanlar günah ilən,
İllətlər sabah ilən,
Beyinlər gah-gah ilən,
Zaman keçə-keçində,
Dünya şeytan içində.

Rəbbim bizi yaratdı,
Canı bədənə atdı,
Vəhləri ağla qatdı,
Ondan kitab ucaltdı,
İmtahanı həyatdı!
Varı olan heçində,
Dünya şeytan içində.

İnsan qocalır niyə?…
Əllər uzanıb göyə,
Başına döyə-döyə,
Əzrayıl gəlir iyə,
Fələk seçə-seçində,
Dünya şeytan içində.

Şadiman, adəm yolu,
Fitnə-feyillə dolu,

Bağlanıb haqqın qolu,
Zaman bilmir sağ-solu,
Qanlar içə-içində,
Dünya şeytan içində.

30.10. 2003

TUŞ OLMASIN NAKƏSƏ

Ara qatmaq, ara vurmaq, şər işi,
Hər adama yaxşı olmaq, ər işi,
Əcəllə də deyib-gülmək, nər işi,
Pislik etmək çətin deyil heç pisə,
Mərd dediyin, tuş olmasın nakəsə.

Çox sinənin bağlı qalar yol-izi,
Duman alar, uzaq görən hər gözü,
Ömrü boyu qatdalayıb diz-dizi,
Ocaq çatan, od-köz üçün döz hisə,
Mərd dediyin, tuş olmasın nakəsə.

Xeyir verməz hər açılan qapılar,
Şər əlində düzün köksü çapılar,
Harda olsa, düzə yağı tapılar,
Dəyirmandan dolu çıxmır çox kisə,
Mərd dediyin, tuş olmasın nakəsə.

Mənəm dedi, çox özündən deyənlər,
Arxasını, kökünü də öyənlər,
Axar suyu arxa bənddən əyənlər,
Kişi adı yaraşmayır hər kəsə,
Mərd dediyin, tuş olmasın nakəsə.

Ar olmayır ulusunu dananda,
Baş ağrıyır, yaxşı-yaman qananda,
Qəlb dincəlməz ürək odla yananda,
Qızıl parlaq, bəxt ağlamıb güc misə,
Mərd dediyin, tuş olmasın nakəsə.

Arzularla, məramlarla ucallıq,
Şənliklərdən, toy-bayramdan tac allıq,
Ömür keçər, biz də bir gün qocallıq,
Ay gələnlər, gördümü hər əl əsa?
Mərd dediyin, tuş olmasın nakəsə.

Yolun üstə çox tərəzi qurular.
Lilli sular düzü görər, durular,

Gülzarlıqda gül axtarır arılar,
Bağlı yolu namərd gələr tez kəsə,
Mərd dediyin, tuş olmasın nakəsə.

Ey Şadiman, həyat səni yoxlayır,
Hərzə baxış sinə için oxlayır,
Çox istəklər şər əlində yuxlayır,
Baş sahibi, tufan etmə, el əsə…
Mərd dediyin, tuş olmasın nakəsə.
Mərd dediyin, tuş olmasın nakəsə.

25.10.1987

SƏLAM OLSUN

Bu dünyanın hər üzünü
Görənlərə səlam olsun.
Qatlayanda şər dizini
Ərənlərə səlam olsun.

Ala zaman çələyini,
Döyə şərin diləyini,
Hər namərdin biləyini
Gərənlərə səlam olsun.

Heç dönməyə haqq yolundan,
Buxov düşə mərd qolundan,
Həqiqəti öz kolundan
Dərənlərə səlam olsun.

Dərya qopmaz mayağından,
Qəlb dönməsin dayağından,
Şəri dartıb ayağından
Sərənlərə səlam olsun.

Haqq çıxarda səs-səmrini,
Tütyə edən Rəbb əmrini,
Halallıqla öz ömrünü
Sürənlərə səlam olsun.

19.02.2000

VƏTƏN

BAYRAĞIM

Həsrət ilə xəyallarda alışdığım, yandığım,
Gecə-gündüz min hicr ilə məhəbbətlə andığım,
Vüsalını uyğularda cəfalarla sandığım,
Fırtınalı nəhrlərtək coşub-daşan bayrağım,
O əzablı tale ilə qardaşlaşan bayrağım.

Başın üstən fəlakətlər əsib keçdi yel kimi,
Qabarman da, çəkilmən də dağdan aşan sel kimi,
Taleyin də dərdli imiş bu bəlalı el kimi,
İldırımlar başın üstən çaxıb keçdi, bayrağım,
Bəxt ulduzu göylərindən axıb keçdi, bayrağım.

Yetmiş ildə yağıların əyib bükdü belini,
O əzablı hekayətin yandırdıqca elini,
Bağladılar min bir yerdən qıfıl ilə dilini…
Haqq, ədalət döyülsə də bükülmədi bayrağım,
Millət qanı nahaq yerə tökülmədi, bayrağım.

Ey üç rəngli ay-ulduzum, məhbus eldə doğuldun,
Fitnələrlə, fitvalarla qara əldə boğuldun,
Fəzilətdən, həqiqətdən, istiqlaldan yoğruldun,
Parla şərəf dünyasında al günəştək, bayrağım,
Dol bu təşnə ürəklərə bir atəştək, bayrağım.

Haqsızlığı dolu təki döydün qəfil gəlişlə,
Lənətlədin məhbusluğu bu üsyankar gedişlə,
Yıxıb-sökdün əsarəti sən mərdanə gərdişlə,
Od yurduna Tanrı oldun şövqün ilə, bayrağım,
Ən şiş zirvə yuvan olsun fövqün ilə, bayrağım!

Məmməd Əmin səmasında doğan parlaq planet,
Sən dalğalan nəhr kimi yetmiş illik kama yet,
Aç azadlıq qapısıını, məmləkətə əlac et,
Gəl, bu dərdli yurdumuzda yıx qəfəsi, bayrağım,
Qoy hayqırsın şimşək təki haqqın səsi, bayrağım.

Yasaq oldun yağı əllə doğulandan dünyada,
Başın üstə kölgələndi yer titrədən qan-qada,
Tanrıdamı gücsüz oldu yetişmədi fəryada?
Sən idrakıın bəxş etdiyi mükafatsan, bayrağım,
Sinələrdə üsyan edən hekayətsən, bayrağım.

Tapdalandı yurdun haqqı, millət qalxdı savaşa,
Xəyanətkar əllər ilə oxun dəysə də daşa,
Gec də olsa gəl qovuşdur sən qardaşı qardaşa,
Gəl şəhidlər eşqinə dur, yıx sədləri, bayrağım,
Torpağımı parçalayan sərhədləri, bayrağım.

Aç qapısın istiqlalın, alsın nəhri əlinə,
Bir səadət bəxş eləsin Şadimanın elinə,
O tamarzı əllər yetsin həmişəlik əlinə,
Çıx qəhrəman savaşlardan pələng təki, bayrağım,
Boynumuza həmayil ol, çələng təki, bayrağım.

30.10-1.11.1990

QAN - QADALI MƏMLƏKƏTİM

Azərbaycan – dərdi böyük, şəhidlərin yurdu diyar,
Hıçqırığın boğazında kilidlənib ürək oyar,
Yadellilər azğınlaşıb əleyhinə imza qoyar,
Sərvətini talayanlar, hər nəyin var satar,sovar,
Yığdığını gizlədənlər yığdığından nə vaxt doyar?…
Varlığına qənimlərin gül hüsnünə haçan uyar?
Səndən başlar, Gözəl Vətən, Allahıma ibadətim,
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

İçindəki göz yaşını boğub, susub dayanmısan,
Fitnələrdən, fəsadlardan al qanına boyanmısan,
Qollarında qandalların ya yatıb, ya oyanmısan,
Alışmısan ocaq üstə, atəşlərə çox yanmısan,
Ağızımın dadı Vətən, təbim, ruhum, bərəkətim,
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Sən səadət arayarkən, səadətin öldü getdi,
Düşmən gəldi torpağını tikə-tikə böldü getdi,
Xainlərin, bədxaxların hey üzünə güldü getdi,
Atəşini sovurdular, ocaqların küldü, getdi,
İzlərində, cığırında niyə donub hərəkətim?
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Sənə canı qurban dedim, qurbanını götür apar,
Atıl savaş meydanına titrət ərzi, tufan qopar,
Əliqanlı cəlladların içdə, çöldə bağrı çapar,
Ürəyim od tutub yanar, dərdlərinə misra yapar,
Harda itib, harda batıb milli hissə nəzakətim?!
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Düşmən çapır yurd-yuvanı övladların susur, durur,
Döşənibmi ayaqlara bəy babama layiq qürur?
Cəlladların Qarabağda ağac çapır, yuva qurur,
Öz ağlımız içimizin atəşini suya vurur,
Dodaqlarım kilidlənib cövlan edir sükunətim,
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Cavidimin, Cavadımın, Mümtazımın ahı səndə,
Məmməd Əmin amalını batırdınmı duman, çəndə?
Övladının gəzdirdiyi ürəkmi, ya daşmı təndə?
Ölülərin dirilərə ağı deyir bu Vətəndə!!!…
İqtidarım – müxalifim susub, öndə fəlakətim…
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Al canımı birdəfəlik, canım sənə fəda olsun,
Başın üstə bu sonuncu itgi olsun, qada olsun,
Dur əyilən qəddi düzəlt, get savaşa səda olsun,
Ayağının altın qazan övladların gəda olsun,
Düşməninə, satqınına bu mərtəbən əda olsun,
Xain çıxsam, quşlarının yemi olsun təndə ətim!…
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Səndən əziz kimim var ki, de cahanda ulu yurdum?
Ürəyinin atəşindən bu könlümə ocaq qurdum,
İçimdəki qorxuları kötüklədim, boynun vurdum,
Alacaqmı işğalçıdan torpağını Milli Ordum?
Bu məramla mən yuxumda gecəgözlü şəri yordum,
Səndən başlar Qanunuma, Kitabıma ibadətim,
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Qarabağın qıfılına düşməyirmi heç bir açar?
Şəhidimin məzarının goru çatlar, yerim qaçar,
Bədənimin əti gedər, vücudumdan dərim qaçar,
Eyləmişik özümüzü qul fikirli qəmə düçar,
Əri olan bir ölkənin yurdu qalmaz düzdə naçar…
Boğulubmu kişi həddim, ər dözümüm, dağ cürətim?
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Bizi tarix dolaylarda min bir yerə çapdı keçdi,
Sinəmizin aynasına qara çirkab yapdı keçdi,
İtdişlilər ağzımızdan sözümüzü qapdı keçdi,
Övladların ocağını kül eylədi, sapdı keçdi,
İçimizdən xain çıxdı, oldu xara qul heyrətim,
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Dağlar başı duman olar, yel dumanı qovar gedər,
Sel coşanda bənd-bərəni, çal-çəpəri ovar gedər,
Gözdən axar qan yaşlarım yanan könlü suvar gedər,

Sinəmizdən qorxuları gurşadların yuvar gedər,
İçimdəki sərsəmlərə üsyan edər can qeyrətim,
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Nədir belə qoruyuruq canımızı tən altında?
Kürsülərə aşiq olduq, hiss boğuldu mən altında,
Ağlımızı ovxalayır iradəmiz çən altında,
Sərçələrin sürüləşib, qartalların dən altında…
Öz gözümün güzgüsündən sanki mənə Ay surətim,
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Kərküküməə,Təbrizimə, Dərbəndimə ağı Vətən!
Övladların özü oldu yurd-yuvana yağı, Vətən!
Getməz qeyrət hissi olan sinədən el dağı, Vətən!
Vuruşmasaq, döyüşməsək, bitməz işgal çağı, Vətən!
Dur ayağa çalxat yeri, qopart göydən tağı, Vətən!
Kəs Xətayi qılıncınla əllərindən bağı, Vətən!
Ürəyimdə yaram sızlar, təbib bulmaz bir illətim,
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Şadimanın bağrı partlar, dözməz sənin möhnətüvə,
Qarabağın əldən gedib, düşmən gülür möhlətüvə,
Dodaqların dilin tutub, mat qalmışam millətüvə,
Pardaqlanır yağlananlar, fərman verir zillətüvə,
Qolun harda qopub düşüb, nə olubdu qüvvətüvə?
Tanrı özü təkan versin donub qalan sürətüvə,
Haçan qalxar ayaqlardan ucalığa ləyaqətim?!…
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim…

03. 05. 2003

QƏRİBƏM, VƏTƏN…

Bir içim suyumsan, bir udum havam,
Dilimdən göylərə ucalan duam,
Köksümü sığdığım ən isti yuvam,
Ruhum ağuşunda bülbültək ötən,
Sənsiz yerdə, göydə qəribəm, Vətən.

29.04.2016

SƏNİ QANA SALAN

Səni qana salan qanda boğulsun,
İçinə dünyanın qəmi yığılsın,
Başından dərd-bəla bir yol dağılsın,
Ruhumuz içində eşqiylə bitən,
Ey candan, könüldən boylanan Vətən.

13.05.2016

ƏSKİ AZƏRBAYCANIN İYİRMİ SƏKKİZ MAYISAN

Ürəyində dərdləri qubarlanan, bayramım,
Şanlı istiqlal eşqi qamarlanan, bayramım,
İzi-tozu silinib hamarlanan, bayramım,
Bir millətin Tanrıya ucalan ah-vayısan,
Əski Azərbaycanın İyirmi səkkiz Mayısan.

O böyük məmləkətin qazanılan yoluydun,
Əsir, kölə millətin açılmış əl-qoluydun,
Sildilər yaddaşlardan… tarixəsə uluydun,
Dədəm Oğuz bəyinin, sən bozqurd harayısan,
Əski Azərbaycanın İyirmi səkkiz Mayısan.

Yetmiş il dilimizdən aldılar bu kəlməni,
Vətən bayram eylədi yağı eldən gəlməni,
Şeir nədir, xalça da işlədi bu ilməni,
Parçalanmış ölkənin qanlı Araz çayısan,
Əski Azərbaycanın İyirmi səkkiz Mayısan.

Sən ey Məmməd Əminin ən qeyrətli balası,
Azəri türklərinin Dədə Qorqud qalası,
İstiqlal savaşında Vətən haqqı alası,
Aylara rövnəq verən əsrimizin ayısan,
Əski Azərbaycanın İyirmi səkkiz Mayısan.

Doğuldun onsəkkizin o daşnak davasında,
Boğuldun imperyanın əjdaha yuvasında,
İyirmi səkkiz aprel – qırmızı havasında,
Topxanası dağılmış, zəncir qırmış ayısan,
Əski Azərbaycanın İyirmi səkkiz Mayısan.

O iyirmi üç fevral xalqa kölə dügünü,
Bizə bayram dedilər, ərlərə bəxşiş günü,
Düşünən beyinlərə yeritdilər süngünü…
Bəxtiqara Cavidin, Müşfiqin haqq payısan,
Əski Azərbaycanın İyirmi səkkiz Mayısan.

Gəl şəhid olmuşların qanını hifz eylə,
Fəda olanlarının canını hifz eylə,
Əsir Qarabağının anını hifz eylə,
Üçrəngli kəhkəşanın ayparası, ayısan,
Əski Azərbaycanın İyirmi səkkiz Mayısan.

Əldən getmiş Kəlbəcər, Laçın əsir yağıda,
Qız-gəlin nalələri parçalayır dağı da,
Bu savaş meydanını dəli nərən dağıda!

Sən əzilən millətin ikiyüzillik hayısan,
Əski Azərbaycanın İyirmi səkkiz Mayısan.

Yenə də qalxıb daşnak istiqlalı boğmağa,
İmperya hamilədir köləliyi doğmağa,
Yuxulu məmləkəti inək təki sağmağa,
Çox millətli bir yurdun oxdan çıxan yayısan,
Əski Azərbaycanın İyirmi səkkiz Mayısan.

Qolu dibdən vurulmuş Babəkini yad eylə,
Qətrə-qətrə soyulmuş Nəsimini ad eylə,
Dünyaya lərzə salan bir dəli fəryad eylə,
Məzarı bəy otağı şəhidlərin sayısan,
Əski Azərbaycanın İyirmi səkkiz Mayısan.

Təbrizimin gözləri qoy yollardan çəkilsin,
Sərhəd deyilən yerə gül-çiçəklər əkilsin,
Çılğın sevinc yaşları xan Araza tökülsün…
Sən böyük bir millətin o tayı, bu tayısan,
Əski Azərbaycanın İyirmi səkkiz Mayısan.

Bu Şadiman ağlının külünü köz eyləyir,
Könlünün qubarını vərəqlərə söyləyir,
İstiqlalsız bu kölə məmləkəti neyləyir?
Azəri xalqlarının azadlıq sarayısan,
Əski Azərbaycanın İyirmi səkkiz Mayısan.

23.05.1993

PIÇILDAŞAN DEYİLMİ?

Azərbaycan, parlaq, nurlu gözlərin,
Hər addımda tarix olan izlərin,
Bəd ayaqda bükülməyən dizlərin,
Sinələrdə coşub-daşan deyilmi?
Ürəklərlə pıçıldaşan deyilmi?

Azərbaycan, bahar gəlib elinə,
Al günəşi kəmər elə belinə,
Yenə min bir nəğmə düşsün dilinə,
Qarşı dağlar bir tamaşa deyilmi?
Lalə, nərgiz başdan-başa deyilmi?

Qoy atlansın igidlərin çəməndə,
Al bəzənsin qızlar güllü çəməndə,
Sevgi salsın ürəklərin kəməndə,
Həyat gözəl, ömür şanlı deyilmi?
Zaman bizə istiqanlı deyilmi?

07.04.1987

BİZİ ÖZÜMÜZƏ QAYTARAN OLA

İçimdə alışan şamdı ürəyim,
Dərdlərin əlindən damdı ürəyim,
Bu necə murazdı, kamdı ürəyim?
Gəlsin Şah İsmayıl, Qacar bu hala,
Bizi özümüzə qaytaran ola.

Ana ətəyində gizlənən oğul,
Addımı gəlintək izlənən oğul,
Külək nə, mehdən də gözlənən oğul,
Doğulduğun evmi qeyrətə qala?
Bizi özümüzə qaytaran ola.

Kişi at belində, əlində qılınc,
Başının altına qız qoyar balınc,
Utanır gözəllər – Sevda, Gül, Narınc…
Oğul dediyimiz Vətənə bəla,
Bizi özümüzə qaytaran ola.

Donub damarlarda qeyrətin qanı,
Necə miskin edib Azərbaycanı?
Hanı Cavanşirin, Babəkin canı?
Qoymasın bir ana gözləri dola,
Bizi özümüzə qaytaran ola.

Pulsuzlar gedirlər cəbhə xəttinə,
Vətənin yaralı qan sərhəddinə,
Nə oldu oğulun kişi qəddinə?
Ürək necə gedir qeyrətlə yola?
Bizi özümüzə qaytaran ola.

Niyə içimizdə namus əzildi?
Niyə bu Vətəndən belə bezildi?
Hünər kəndirimiz əldən üzüldü,
Allah içimizdən qorxunu ala,
Bizi özümüzə qaytaran ola.

Yağının hələ də vayı olmayıb,
Xain ermənin tayı olmayıb,
Heç kəsə düşməndən dayı olmayıb,
Allah nizamlasın bizi haqq yola,
Bizi özümüzə qaytaran ola.

Şadiman, çoxları qul olub vara,
Vətənin köksünə vurubdu yara,
Çəkilsin satqınlar, xainlər dara,
İblis ürəklilər payıztək sola,

Yaradan bizi də düz yola sala,
Bizi özümüzə qaytaran ola,
Bizi özümüzə qaytaran ola.

09.11.1997

VƏTƏN FƏRYADI

Ey Vətən yolunda canı verənlər,
Müqəddəs torpağa ərlər, ərənlər,
Ey qana şahidlər, qanı görənlər,
Qanlı köynəyini yurda sərənlər...
Siz şəhid, biz isə günahkar olduq,
Yurdlar haray çəkdi, niyə kar olduq?

Qarabağ sızlayır aman içində,
Yanır ellərimiz yaman içində,
Oxumuz paslanıb kaman içində,
Fırlanır bu dünya zaman içində,
Məğlubtək tarixdə qaldı adımız,
Boğuldu sinədə ah-fəryadımız.

Yağı işğalını dərd sayırıq biz,
Özünü cahanda mərd sayırıq biz,
O qanlı düşməni səd sayırıq biz,
Hər dərdin əlacın bəd sayırıq biz,
Namus savaşına pul, dayı olmaz,
Heç cəngsiz yağının ah-vayı olmaz.

Vuruşmaq kişiyə iftixar, hünər,
Qılıncla, qalxanla yatar, durar ər,
Dünya nərd taxtası bəşər isə zər,
Tökməsən döyüşdə əgər qanlı tər,
Torpaq da, namus da, şərəf də batar,
Vətənin əbədi taleyi yatar.

Bir yurdu min yerə bölməkmi olar?
Bu qanı torpaqdan silməkmi olar?
Bu acı dərdlərə gülməkmi olar?
Bu qəmlə şahanə ölməkmi olar?
Bəsdir ermənin nazını öydük,
Yurdun qılıncın yox, sazını öydük.

Hey bəxşiş verdikcə torpağımızı,
Artırdıq sinədə qəm dağımızı,
Ərköyün bəslədik biz yağımızı...
Yadlardan axtardıq dayağımızı,
Ya xofu ürəkdən qoparmalıyıq,
Ya dərdi məzara aparmalıyıq.

Bəsdir, Cavanşirdən, Babəkdən dedik,
Bəsdir, Koroğludan, Beyrəkdən dedik,
Bəsdir, puldan, vardan, diləkdən dedik,
Bəsdir, bu ağrını ürəkdən dedik,
Biz savaş etməli vuruşmalıyıq!
Ya ölüb torpağa qarışmalıyıq!

Niyə yad ellərdə canı girlərik?
Niyə bir-birinə söz diyirlərik?
Niyə bu qan ilə ölüb çərlərik?
Niyə içimizdə elə kürlərik?
Yumalı qan ilə namusumuzu,
Özümüz qurmalı ya yasımızı!

Bu Vətən vallahi hamımızındı,
Ən ali diləktək kamımızındı,
Bacası ucalan damımızındı,
Şirini, şərbəti canımızındı,
Qoparmaq olarmı köksoyu ondan?
Çıxara bilmərik biz onu candan!

Yarımız acından pul dilənirik,
Yarımız qürbətdə hey tellənirik,
Yarımız zər geyib veyillənirik,
Düşüb ayaqlara çox bellənirik.
Nə vaxt millət olub çağlayacağıq,
İblisin qapısın bağlayacağıq?

Şuşada gülümüz, çiçəyimiz qan,
Xarıbülbül təki ürəyimiz qan,
Dam altda əyilən dirəyimiz qan,
Nə vaxta saxlanır bu gedəri can?!
Biz cılızlaşdıqca vətən kiçilir,
Torpaq paralanır, torpaq biçilir.

Dünyada qeyrətə edilir hörmət,
Şərəflə tanınır hər yerdə millət,
Acizə, qorxağa, cahilə illət,
Könlümüz olduqca əllərdə alət,
Dilənçi yardımı yedi kişilər,
Özünə qaçqınam dedi kişilər.

Oğullar bəslənir bəh-bəhə ilə,
Oxşanır boyları pəh-pəhə ilə,
Dilləri ötüşür cəh-cəhə ilə,
Düşmən gülür bizə qəh-qəhə ilə,
Sönmüş ocaqların külü sovrulur,
Vətən haray çəkir, Vətən qovrulur.

Yerdə qalmamalı bu tökülən qan,
Yara qaysaqlanır ötüşdükcə an,
Millət bir-birinə can deməli, can!
İqtidar, müxalif bir Azərbaycan,
Əsir yurd-yuvaya etməsək çarə,
Sonra lap dərinə işləyər yarə.

Bu dağ hamımızın sinə dağıdır,
Yağı hamımıza elə yağıdır,
Gəl, vətən insanı, qeyrət çağıdır!
Əldə Məmməd Əmin hür bayrağıdır,
Parlasa Günəştək istiqlalımız,
Bəxtiyar olacaq istiqbalımız.

Şadiman, vətənin canda yuvası,
Dərdinə dərmandır onun havası,
Tükənməz dodaqdan haqqa duası,
Bu torpaq dəryada Tanrı qəvvası,
Odur Yer üzündə xoş cəlalımız,
Onunla çağlayır çün vüsalımız!...

24.12.2001

NEFTÇİLƏR

Əzəldən qüdrətli şöhrət-şanınız,
Düşdü ağızlara, elə car oldu.
Neftçi qəhrəmanlar, bu ad-sanınız,
Vətənin dilində bir şuar oldu.

Bürünüb bir qara qızıla diyar,
Qorxutmasın sizi qışın tufanı.
Adınız müqəddəs, ürək bəxtiyar,
Əməklə ucaldın Azərbaycanı!

Boranlı günlərdə, qarlı zamanda,
İşdən soyumayır sizin əliniz.
Yağışda, yağmurda, çiskin, dumanda,
Uğursuz keçmədi bircə iliniz.

Siz qiymətli neftin töhfələrindən,
Dünyaya tonlarla yola saldınız.
Tarixin silinməz səhfələrindən,
Pozulmayacaqdır, sizin adınız.

Göylərə yüksələn neftin şöhrəti,
Neftçinin halalca dirliyindədir.
Doğma Vətənmizin sonsuz qüdrəti,
Bizim mübarizə birliyindədir.

20.12.1972 Siyəzən

EY KARVAN YOLUNDAN SORAQ, DƏVƏÇİ

1982-ci ildə Dəvəçi bölgəsinin Aygünlü kəndi yaxınlığında traktorla şumlama işi aparılakən Azərbaycanın mərkəzi şəhərlərindən biri Şabran aşkar edildi.

Ey karvan yolundan soraq, Dəvəçi,
Dərbəndlə Şirvanın könlünün içi,
Tarixdən boylanan qərinə nəçi?
Unutsun torpağın, daşın Şabranın,
Görməsin gözünün yaşın Şabranın.

Ey salnamələrdə qalan, şəhərim,
Qəsbkar əliylə talan, şəhərim
Yandırar sinəmi yaxar qəhərim,
Dağılmış qalası, yurdu Şabranın,
Yağılar boynunu vurdu Şabranın.

Xaraba yurdunda ilanlar mələr,
İnsan sümükləri haraya gələr,
Tanrıdan can alar, can verib ölə,
İnsanı torpaqda yatan Şabranın,
Adı, cəh-cəlalı batan Şabranın.

Savaşlar şahidi, ey Şabran çayı,
Əsrlər görmüsən ömürlər sayı,
Selmi, qəsbkarmı törətdi vayı?
İtdi bu dünyadan izi Şabranın,
Qaldı tarixlərdə özü Şabranın.

Keçən əsrlərin fəryadı orda,
Yolçu, ayaq saxla, baş əy bu yurda!
Bu batan şəhərin ruhları burda –
Dolaşar başının üstə Şabranın,
Sirrini daşlardan istə Şabranın.

Orta əsrlərin, ey baş sarvanı,
Çox keçdimi yurddan dəvə karvanı?
Dəvəçi, nişan ver şəhər Şirvanı,
Necə nişan verdi adı Şabranın?
Ruhlarla alışan odu Şabranın.

O küp qəbrlərdə tapılanları,
O daşa, divara yapılanları,

Ocağı, yuvası çapılanları,
Dərin qatlarında ara Şabranın,
Kim çevirdi taxtın gora Şabranın?!..

Xəqanitək həbsə atılmışları,
Şabran zindanına qatılmışları…
Zülmkar şahlara satılmışları…
Ağlar ruhlarından soruş Şabranın,
Burada hər addım, qarış Şabranın.

Dəvəçi-oğuzun bir ipək yolu,
Beşbarmaq, Qalaltı imzası, qolu,
Şadiman, bu torpaq tarixlə dolu,
Viran dam-daşından oxu Şabranın,
Hələ torpaq altda çoxu Şabranın…

10-11.11.1998

***

Dəvəçi-Siyəzən isti ocağım,
Tağay, doğma yuvam, uşaqlıq çağım,
Şahdag, dağlar içrə ən uca dağım,
Coşqun, dəli-dolu Gilgilçay çayım,
Xəzər, şıltaq Xəzər, dünyaya hayım,
Anam Azərbaycan büllur sarayım!
Qanımla qaynayan diləyimdəsiz,
Siz mənim döyünən ürəyimdəsiz!

12.11.1998

SİYƏZƏN

Sinəsi neft qoxulu,
Gecələri yuxulu,
Nağılları qorxulu…
Başı qarlı, Siyəzən,
Dağ vüqarlı, Siyəzən.

Uca Qafqaz dirəyi,
Gömgöy Xəzər ürəyi,
Daşdan çıxar çörəyi,
Siyah telli, Siyəzən,
Şirin dilli, Siyəzən.

Dərbəndə çatar yolu,
Torpağı tarix dolu,
Xıdırzində haqq yolu…
Dağım, düzüm, Siyəzən,
Görən gözüm, Siyəzən.

Buruqların yan-yana,
Mən övladın, sən ana,
Bu şərəfə, ad-sana,
Layiq daşın, Siyəzən,
Uca başın, Siyəzən.

Qızılburun ocağı,
Sərvətdir hər bucağı,
Çıraqqala qucağı,
Karvan yolu, Siyəzən,
Sirlə dolu, Siyəzən.

Dağlar beldə kəməri,
Dəli Xəzri qəməri,
Qafqazın aslan əri,
Dağ qürürlu, Siyəzən,
Bəxti nurlu, Siyəzən.

Gecə-gündüz qatarlar,
Bəxtin burda taparlar,
Sağa-sola çaparlar…
Yolları ağ, Siyəzən,
Zirvəsi dağ, Siyəzən.

Səslə məni, gələrəm,
Dərdi sənlə bölərəm,
Dam-daşınçın ölərəm,
Təmiz havam, Siyəzən,
İsti yüvam, Siyəzən.

Şadimana bala de,
Qəlbə atəş qala de,
Necə dözüm hala de,
Səndən uzaq, Siyəzən,
Qəlbdə sazaq, Siyəzən.

11.11.1998

VƏTƏN OLMAZ

Yurdda isti hər bucağın,
Qərib dada yetən olmaz.
Vətən sənin öz ocağın,
Qürbət eldən vətən olmaz.

Ha səsləsən fəryadına,
Çatan olmaz imdadına,
Yad baxarlar övladına,
Qürbət eldən vətən olmaz.

Ağlayarsan için-için,
Yas tutarsan yuvan üçün,
Ah, İlahi, bilməm neçin?!
Qürbət eldən vətən olmaz.

Yadlaşarsan ana dilə,
Səsin çatmaz doğma elə,
Qabar salar məktub ələ,
Qürbət eldən vətən olmaz.

Dilindəki söz yad olar,
Adətinə göz yad olar,
Sinəndəki köz yad olar,
Qürbət eldən vətən olmaz.

Məsləkindən dönər könül,
Alışmamış sönər könül,
Ayaqlara enər könül,
Qürbət eldən vətən olmaz.

Dindirərlər, dilin ağlar,
Qürbətdə hər ilin ağlar,
Göy yuxuya könül bağlar,
Qürbət eldən vətən olmaz.

Su deyilsən calanasan,
Yad irmağda talanasan,
Qərib-qərib bulanasan,
Qürbət eldən vətən olmaz.

Vətənsizə nə səadət?
Gəl eyləmə yada adət,
Yad ocağa nə ibadət?
Qürbət eldən vətən olmaz.

Vətən dilin duasıdı,
Ciyərimin havasıdı,
Millətimin yuvasıdı,
Qürbət eldən vətən olmaz.

Qınamayın Şadimanı,
Vətən onun şirin canı,
Keçməsin heç yurdsuz anı,
Qürbət eldən vətən olmaz.
Qürbət eldən vətən olmaz.

29.06.2001

NECƏ GEDƏ BİLƏYDİM

Ay Vətənim, səni atıb, qürbətə,
Özün söylə, necə gedə biləydim?
Məhəbbəti, eşqi satıb qürbətə,
Həsrətlərin üzünəmi güləydim?

Bir ocaqsan, qarışırsan oduma,
O pak adın həkk olunub adıma,
Qəriblikdə sən düşərkən yadıma,
Acıları kimin ilə böləydim?

Qınağ ollam dostlara, tanışlara,
Sipər ollam eyhamlı baxışlara,
Ayrılığın səbəb olan yaşlara,
Öz əlimlə özüm necə siləydim?

Qürbətləri kim deyər yurd, məkandı,
Oralara düşmək özü imkandı,
Necə pozum ürəyimdən yurd andı?
Eşqimizin bağırını dələydim?

Tanrı qoyan yol-irizi azaraq,
Sevgimizin məzarını qazaraq,
Bu sevdanı baş daşına yazaraq,
Sonra onu ziyarətə gələydim?

Şadiman – od, sən yandıran çırağa,
Sığışmayır ahım-naləm varağa,
Qorxdun məni ürək sala fərağa,
Xiffətindən saralıban öləydim!

08.09.1994

CAN AZƏRBAYCAN

Bağrın parçalandı hey qəlpə-qəlpə,
Gədalar bəy oldu, küllüklər təpə,
Verdi başımızdan dərdimiz ləpə,
Yağılar tapıldı elə qan səpə,
Necə qara gəldi an, Azərbaycan,
Ey yurdum, vətənim, can Azərbaycan.

Qaçqın kişiləri gördü gözümüz,
Öyrəndi yalana hər gün üzümüz,
Şir olduq təklikdə özü-özümüz,
Dağları aşırdı dildə sözümüz,
Yolunda az verdik can, Azərbaycan.
Ey yurdum, vətənim, can Azərbaycan.

Çıxdı əlimizdən yurdlar birbəbir,
Elə bir-birinə dilədik səbir,
Yağılar birləşib oldular əlbir,
Düşmənin əlindən düşmədi xəlbir,
Dedilər, partlayıb yan Azərbaycan.
Ey yurdum, vətənim, can Azərbaycan.

Biz Qarabağ təki yurdu itirdik,
İçimizdə olan qurdu itirdik,
Döyüşə atıldıq, ordu itirdik,
Babalar cah-cəlal qurdu, itirdik,
Gəl bu itkiləri san, Azərbaycan!
Ey yurdum, vətənim, can Azərbaycan.

Dərbənd, Təbriz qərib, İrəvan yağı,
Boğazdan yuxarı sözlər bayağı!
Hanı ər kişilər, yurdun dayağı?
Əlimiz saz çalır, dilimiz ağı,
Bumu şərəf-namus, şan, Azərbaycan?
Ey yurdum, vətənim, can Azərbaycan.

Bir olub yağının köksün oymadıq,
Başbilənimizi yaxın qoymadıq,
Bir-birin tərifdən bir an doymadıq,
Dərdin böyükliyin niyə duymadıq?
Axdı sellər təki qan, Azərbaycan.
Ey yurdum, vətənim, can Azərbaycan.

Sənə hiylə qurdu düşmənin əli,
Haqqın söyləyənə dedilər, dəli.
Yıxdı evimizi «baş üstə», «bəli»,
Çökdü babamızın qeyrət təməli!
Batdı göylərində dan, Azərbaycan.
Ey yurdum, vətənim, can Azərbaycan.

Əllərdə qalıbdı səadətimiz,
Ümidə əl açıb ibadətimiz,
Bir-birinə yağı bir adətimiz,
Özgəni sevməkdi sədaqətimiz,
Demirəm bunları dan, Azərbaycan.
Ey yurdum, vətənim, can Azərbaycan.

Olub bu dərdlərdən Şadiman xəstə,
Söylər qəmlərini dili ahəstə,
Tökər dərdlərini kağızlar üstə,
Sən məndən bu şirin canımı istə,
Eyləyib könlümü şan, Azərbaycan.
Ey yurdum, vətənim, can Azərbaycan.

12.12.1999.

VƏTƏNDİ

Dərəsiylə, ormanıyla, daşıyla,
Baharıyla, payızıyla, qışıyla,
İslanaram axan o göz yaşıyla,
İsidərəm ürəyimin başıyla!
Harayıma, fəryadıma yetəndi.
Candan əziz, candan şirin vətəndi.

Başım üstə əsən sərin yelimdi,
Ocağımdı, məkanımdı, elimdi,
Dili, mənim ötən tuti dilimdi,
Dağdan aşan, haray çəkən selimdi,
Ürəyimin güşəsində bitəndi.
Candan əziz, candan şirin vətəndi.

Gəz qürbətin dərəsini, düzünü,
Qəriblikdə kim tapıbdı özünü?
Qopardarlar ürəyinin közünü,
Öz dilində deyərsənmi sözünü?!...
Adın-sanın yad ellərdə itəndi.
Candan əziz, candan şirin vətəndi.

Vətən dərdi sağalmayan bir yara!
Çəkər səni qürbət eldə dərd dara,
Sahib olsan min sərvətə, min vara,
Qəriblikdə ölənlərə yurd hara?
Demə niskil, demə hicran ötəndi.
Candan əziz, candan şirin vətəndi.

Yağı əldə o yurd, yuva qalmasın,
Xalqımıza qoy göz dağı olmasın,
Ürəklərdə qeyrət eşqi solmasın,
Elim deyib, analar saç yolmasın!
Qeyrət ilə, namus ilə yurd təndi.
Candan əziz, candan şirin vətəndi.

Şərəf hissi hər bir hissdən baş olub,
Şuşa, Laçın zirvələrə qaş olub,
Əsir düşüb aləmlərə faş olub!...
Niyə bizim ürəyimiz daş olub?!
Kökümüz ki, bir bədəndi, bir təndi,
Candan əziz, candan şirin vətəndi.

Torpaq eşqi heç çıxmasın ürəkdən,
Azalmasın, əskilməsin diləkdən,
Yağı başın açılmasın kələkdən,

Heç bir işin düzəlməsin fələkdən,
Hər cür hiylə, hər cür fitnə batandı.
Candan əziz, candan şirin vətəndi.

Şərəf qataq, şöhrət qataq anına,
Qoy canımız fəda olsun canına,
Qurban olaq şəhidinin qanına!
Yurd məzarın, yurd anandı, atandı,
Candan əziz, candan şirin vətəndi.

11-12. 12.1999

MÜƏLLİM

Həyat yollarında sönməz çırağsan,
Sənətin ölməzdir sənin, müəllim.
Nurlu gələcəyə böyük dayaqsan,
Məsləkin dönməzdir sənin, müəllim.

Sən öyrətdin bizə özgə dilləri,
İşıqlı günlərə çatdıq əlinlə.
Nura bəxş elədin bu nəsilləri,
İyrənc cəhaləti atdıq əlinlə.

Həyat yollarında çəksən də əzab,
Sənət zirvəsində döndün ulduza.
Ağartsa saçını fikir, iztirab,
Döndü əməllərin ətirli yaza.

Bilik ver müqəddəs ellərimizə,
Vur gözəl dövranı başa, müəllim.
Böyük həyat yolun öyrətdin bizə,
Ürəkdən deyirik yaşa, müəllim.

Biliyin, savadın – uca qalası,
Sən bizə həm ürək, həm də direksən.
Vətən torpağının nəcib balası,
O nəcib yoluna daima əhsən.

Əziz bayramında bir nəğmə olan,
Şəninə alqışlar deyək, müəllim.
Həyatın ən şirin neməti olan,
Cansağlıq diləyək sənə, müəllim!

15.10.1972

ŞƏHİDLƏR XİYABANI

Əsarətinə üsyan dünyanın qəm adası,
Nakam olmuş canların şəhid ruhlar odası,
Zəncirləri qırılmış Vətənin qan-qadası,
Şəhidlər Xiyabanı!

Gözü yaşlı analar saçın yolur ah ilə,
Məmləkət üsyan edir qul olmuş sabah ilə,
Allah necə barışır bu suç, bu günah ilə?…
Şəhidlər Xiyabanı!

Xonçası qara geymiş igidin yas ocağı,
Cocuğu gözü yaşlı gəlinlərin qucağı,
Əli qanlı cəlladın min illik umacağı…
Şəhidlər Xiyabanı!

Diləkləri, amacı sinəsində boğulmuş,
Onsəkkizdən bu yana iki dəfə doğulmuş,
Öz halal torpağında, öz qanıyla yoğurmuş,
Şəhidlər Xiyabanı!

Görməyib səyyarəmiz bu cürə sitəm, zülm,
Lay-divar igidlərin sinəsi dilim-dilim,
İlahidən xəbərsiz yazılmış savaş, ölüm,
Şəhidlər Xiyabanı!

Gözüyaşlı körpələr ata yoluna baxar,
Rüzgar da qan-qadadan ərzi yandırıb yaxar,
Selmi, sumu bədənlər hər gün qoynuna axar?
Şəhidlər Xiyabanı!

Sonu olacaq görən bu tökülən qanların?
Şəhidlik ünvanına yazılan cavanların,
Allah hesabın çəksin qoy sonsuz divanların!
Şəhidlər Xiyabanı!

İçimdə vulkan olan, ərzi tutan acısan,
Yağı gülləsinə tuş sən qardaş, sən bacısan,
Özünü danan xalqın tək mənlik əlacısan,
Şəhidlər Xiyabanı!

Anaların köksünə dağ basma özü közdü,
Yetər daha məmləkət qanlı işğala dözdü!
Millət qul ola-ola öz canından əl üzdü,
Şəhidlər Xiyabanı!

Qərənfili matəmə boyanmış bəy məzarı,
Ağlayır sinələrdə ürəklər zarı-zarı,
Qəbirləri qucaqlar gəlin, ana, qız, qarı,
Şəhidlər Xiyabanı!

Nə vaxt sona yetəcək, ay Allah, bu müşgüllər?
Lay-lay balam deməkdən qabar çalıbdı dillər…
Ağı deyir ağlayır bağçamızda da güllər…
Şəhidlər Xiyabanı!

Ey millətin istiqlal dünyasının günəşi,
Məzarlara sığınmış nakam ruhların nəşi,
Min yerə parçalanmış zəncirlərin atəşi-
Şəhidlər xiyabanı!

Sən nəhirlər ağladan ölkənin qibləgahı,
Qocadan cocuğadək hər evin səcdəgahı,
Dikiləcək min illər fələyə ana ahı…
Şəhidlər xiyabanı!

Şadiman ölsə bir gün ruhu səcdəyə gələr,
Başdaşından dünyaya ömürlük ah yüksələr,
Məzar-məzar önündə tənim doğulub ölər-
Şəhidlər Xiyabanı!
Şəhidlər Xiyabanı!

4-5.06.1994

BƏXTİN AÇILSIN

İstərəm sənin də bəxtin açılsın,
Üstündən çəkilsin buludlar, Vətən.
Yağının başına dağlar uçulsun,
Getsin yurd-yuvadan fəryadlar, Vətən.

Hər qara gecənin ağ sabahı var,
Səhərin nurları üzündə gülsün.
Bilirəm, içində işğal ahı var,
Gözündə dünyanın sevinci gülsün.

Şadiman ağrından dağlar yaratdı,
Gözüm bulud oldu, ürəyim qəhər.
Özünün dağların üstündən atdı,
Tək sənin varlığın qoy versin bəhər.

14.02.2016

«YANIQ KƏRƏM»

«Yanıq Kərəm » –
« Əsli, Kərəm » dastanın qəm havası,
İki qəlbin İlahiyə eşq duvası,
İki canın ovsunlanmış dərd yuvası,
Dövranına, zamanına can davası…!

«Yanıq Kərəm » –
Sevdalanmış könüllərin müsibəti,
Yandı ürək həm aşkarda, həm xəlvəti,
Göz yaşıyla axıb dolan qan səbəti,
İki gəncin bəxti qara məhəbbəti.

«Yanıq Kərəm » –
Məhəbbətin Rəbb sevdası, cana qida,
Səadəti qara gəlmiş iki qəlbdən qopan nida.
Barmaqları sarı simə haray salan dəli sevda,
İki gəncin alışdığı eşqə vida…

«Yanıq Kərəm » –
« Əsli, Kərəm » dastanın can fəryadı,
Bir millətin iki dində nalə dadı,
O xaçpərəst Albanyanın İslam adı,
İsa (s) ilə Mühəmmədin(s) Rəbb imdadı!…

«Yanıq Kərəm » –
Əsrlərin o tayında din savaşı,
Bir millətin gözlərindən axan yaşı,
İslamını tutan Kərəm dərdə naşı.
O xaçpərəst Əsli ilə can sirdaşı.

«Yanıq Kərəm » –
İki gəncin bir məhəbbət sinfonyası,
Bir tayfanın iki dində hicran yası,
Kərəm deyib yanan qızın qız həyası,
Külə dönən iki gəncə dövran ası.

«Yanıq Kərəm » –
Əsrlərin o tayının vicdan ahı,
Dinə müti o keşişin din günahı,
Lal eyləyib bu müsibət al sabahı,
Fəryad edir yerin, göyün tək Allahı…

«Yanıq Kərəm » –
Sarı simə toxunaraq dinsin sazlar,
Oynamaqçın, ay adamlar, çox avazlar,

Bu havanın sədasıyla qaynamazlar,
Bu faciə havasında oynamazlar!…
Bu faciə havasında oynamazlar!…

12. 11. 2005

BİZİ BU DƏRD İLƏ BARIŞDIRMAYIN

İnsan da öləri bir məxluqatdır,
Yaşadan-öldürən onu həyatdır,
Ruhun özü sirdir, sirri min qatdır,
Canı həyatıyla yarışdırmayın,
Bizi bu dərd ilə barışdırmayın.

Hər ağrı-acıdan keçmək olardı,
Hər zülmü sinədən biçmək olardı,
Zəhəri şərbəttək içmək olardı,
Vətəni bazarla qarışdırmayın,
Bizi bu dərd ilə barışdırmayın.

Quş da yuvasının üstünə gəlir,
Dil də duasının üstünə gəlir,
Düşmən yurd-yuvanın qəsdinə gəlir,
İşğalın min üzün araşdırmayın,
Bizi bu dərd ilə barışdırmayın.

Hər şeydən üzünü döndərmək olar,
Başına daş-qaya əndərmək olar,
Yağını ayağa endirmək olar...
Dərdi içimizlə vuruşdurmayın,
Bizi bu dərd ilə barışdırmayın.

Başsız yurdlarımız yavrudu, fələk,
Bu imansız yağı gavurdu, fələk,
Ürəyi sac üstə qovurdu, fələk,
Onu qaysaq ilə sarışdırmayın,
Bizi bu dərd ilə barışdırmayın.

Şadiman içindən bağrıqan olub,
Ağlayan göz olub, yanan can olub,
Qarabağ ah edir, ah hicran olub,
Ey bizim dillilər, duruş durmayın,
Bizi bu dərd ilə barışdırmayın,
Bizi bu dərd ilə barışdırmayın.

05.03.2011

VƏTƏN, ELİNƏ QURBAN

Ulduzların gecələr yandırarlar, yaxarlar,
Şimşəklərin çaxnaşıb göy içindən çaxarlar,
Buludların gözlərin uşaq kimi sıxarlar,
Sellərin şaqqa-şaraq dağdan, düzdən axarlar,
Coşqun selinə qurban,
Vətən, elinə qurban.

Çəmənlərdə göy otlar al yaşıla bürünər,
Ala-bəzək ilanlar köl dibində sürünər,
Uzaqlarda al Günəş asimandan görünər,
Adam bu gözəlliyi tərk etməkdən ərinər,
O gen çölünə qurban,
Vətən, elinə qurban.

Dağım, düzüm, çəmənim, sanki atlas geyinər,
Təbiətin ürəyi bu torpaqla döyünər,
Qafqazın məğrur başı tarixinlə öyünər,
O ulu keçmişinə qəvi düşmən deyinər,
O ağ telinə qurban,
Vətən, elinə qurban.

Sən ki, doqquz iqlimin məkanısan həmişə,
Üzməsin ürəyini nə kədər, nə əndişə,
Varın, sərvətin bol-bol düşübdü dilə, dişə,
Dünyanın tacı, taxtı, İlahi sevən guşə,
Könül telinə qurban,
Vətən elinə qurban.

Anam beşik başında mənə layla çalardı,
Ürəyimin içinə elə bil od salardı,
Buludlanmış könlümü bayatıyla alardı,
Hopub qanıma misra idrakımda qalardı,
Şirin dilinə qurban,
Vətən, elinə qurban.

Ulu Tanrım de səni hansı anda xəlq etdi,
Könlümüzün içində ya ki, canda xəlq etdi,
Odu, suyu tükənməz bu ünvanda xəlq etdi...
Küləklərin üzünü şeh yuvanda xəlq etdi.
Əsən yelinə qurban,
Vətən, elinə qurban.

Məni əsir edibdi o məcnun məhəbbətin,
Xoş məqamına düşdün yəqin ki, o xilqətin,
Bu həyatın yolları nə qədər olsa çətin,

Əyilmə, qalx ayağa ol döyüşkən, ol mətin,
Dünyanı silkələsin sənin o qətiyyətin!
Qalib ilinə qurban.
Vətən, elinə qurban.

İlahi xəmirimi torpağından yuğurdu,
Ruhumu oda büküb bətinindən doğurdu,
Bu Tanrının hikməti, yolum üstə uğurdu,
Röyamda gördüm əlin düşmənimi boğurdu...
Sınmaz əlinə qurban,
Vətən, elinə qurban.

Yel qovar dumanları dağlara axışarlar,
Əlçim-əlçim buludlar bir yerə yığışarlar,
Çiçəklərin otların dibindən qalxışarlar,
Bir-birinin üzünə sevdayla baxışarlar,
Əsmər gülünə qurban,
Vətən, elinə qurban.

Ovçu dağda, meşədə ov gəzər, ov ovlayar,
Gah kəkliyi, turacı, gah fərəni qovlayar,
Tumarlayıb itini bir doyunca tovlayar,
Od vurub çır-çıpıya ocağı alovlayar,
Qalmış külünə qurban.
Vətən, elinə qurban.

Qış gəldi çeşmələrin gözü donar, buzlayar,
Şaxta qılınctək kəsər, göylərin ulduzlayar,
Təbiət yeri, göyü hey ağappaq duzlayar,
Dalar sükuta könül elə hey yalqızlayar...
O ağ tülünə qurban.
Vətən, elinə qurban.

Şadiman məzar qazar qəminə, məlalına,
Yanar candan, sinədən ürək didən halına,
Zaman-zaman göz dikib azğın düşmən malına,
Sözüm bitib-tükənməz ilahi cəmalına,
Bükmə belinə qurban,
Vətən, elinə qurban.

04.03.2001

QANLARA BOYANDI BAKI AH İLƏ

31 mart 1918-ci ildə Bakı erməni silahlı dəstələri tərəfindən Soyqırımına məruz qalıb…Və bu heç vaxt ağlımızın yaddaş səhifəsindən silinmədi.

Otuz bir mart min doqquz yüz on səkkiz,
Saldın yaddaşlara necə qanlı iz.
Ağladın, hönkürdün diləyimizdən,
Ağrın heç getmədi ürəyimizdən!
Məzarlar dağıldı, qanunlar susdu,
Hər dəhşət beyində min yol qan qusdu.
Kitablar az yazdı bu cinayəti,
Qocalar yaşatdı bu hekayəti.
Yaddaşın gətirib imdadlarına,
Onlar pıçıldadı övladlarına.
Ağıllar hifz etdi qırğını, ahı,
Arxivlər gizlətdi haqdan günahı!
Fəqət unuduldu vaxtın sabahı,
Aldada bilməyib şeytan Allahı!…

***

Qanlara boyandı Bakı ah ilə,
Qırğın gecə ilə, sübh-sabah ilə.
Müsəlman olanın bağrı söküldü,
Bütün arvad-uşaq çölə töküldü.
Qanlar su yerinə axdı şəhərdə,
Boğuldu məmləkət acı qəhərdə.
Hər yeri qışqırtı, nalə bürüdü,
Burda insanları ölüm sürüdü.
Heç vaxt yayındırmır şər qibləgahı,
Aldada bilməyir şeytan Allahı.

***

Min doqquz yüz on səkkizin sədası,
Otuz biri martla oldu qadası.
Ölənlərin say-hesabı yox idi,
Ermənilər, bolşeviklər çox idi.
Ev-ev gəzir əllərində silahı,
Titrətdilər həm gecəni, sabahı.
Ünsüz göylər göz yaşını axıtdı,
Ölüm, qada Allahı da qorxutdu.
Minlər ilə kişi, qadın qırıldı,
Müsibətdən yerin bağrı yarıldı.
Bu fəlakət ermənin qurumu,
Otuz bir mart-Bakının Soyqırımı!

***

Hər həyətdə su quyusu var idi,
Bu quyular meyitlərə dar idi.

Tökürdülər ölənləri quyuya,
Etdikləri cinayətlər uyuya!
Ermənilər qırdı, çatdı Bakını,
Bircə gündə qana atdı Bakını.
Dalanlardan zarıltılar gəlirdi,
Hər qapıdan inilti yüksəlirdi.
Silahlılar, yaraqlılar at üstə,
Fəryad edib, vay deyənlər can üstə…
İblislərdən qorxusu var divin də,
Müsəlmanlar şəhid oldu evində!
Bu fəlakət ermənin qurumu,
Otuz bir mart-Bakının Soyqırımı!

***

Mən necə yazmayım bu qanı axı?
Sonrakı günlərdə Səlyan, Şamaxı,
Batdı qan içində Dəvəçi, Quba,
Doldu şəhidlərlə neçə el, oba.
Sanki məmləkətin bəxt çərxi döndü,
Günahsız ellərin çırağı söndü.
Erməni hiyləsi hər yeri aşdı,
Bütün yurd-yuvanı ölüm dolaşdı.
Uşaqlar atıldı oda, atəşə,
Bu qan yağılara bir iyrənc nəş'ə.

***

Osmanlı dözmədi bu müsibətə,
Qəlbindən hayqıran o məhəbbətə,
Yolladı köməyə Nuru Paşanı,
Qardaşın eşqiylə könlü daşanı.
Əskəri qüvvəsi yetdi imdada,
Bu böyük igidlik düşməzmi yada?
Qanı unutmadı millət ağılı,
Tarix dana bilməz qanlı nağılı.

***

Çox ağrılar, çox itgilər ötəcək,
Çox yaralar sinələrdə bitəcək.
Şəhidlərin nə köhnəsi, təzəsi,
Heçnə qalmıb səbrimizdən dözəsi.
Keçmişimiz bu günlərə ağlayır,
Bu dəhşətlər yeri, göyü dağlayır.
Bəşər varsa, iblis, şeytan durmada,
Canımıza min bir hiylə qurmada.
Qoy həqiqət beynimizdən itməsin,
Qəlbimizdən çox uzağa getməsin.
Bu fəlakət ermənin qurumu,
Otuz bir mart-Bakının Soyqırımı!

30.03.2008

«AZƏRBAYCAN»

Səməd Vurğunun
«Azərbaycan» şe'rinə

Məhəbbətin cana dəva,
Sənsiz nədir de su, hava?
Dodağımdan qopan dua,
Can içində sevdalı can,
Azərbaycan, Azərbaycan.

Xəzərinin bağrı coşar,
Fırtınalar aşıb-daşar,
Varlığımız sənlə yaşar,
Ürəyimdə dövr edən qan,
Azərbaycan, Azərbaycan.

Abşeronun küləkləri,
Göllərinin ördəkləri,
Coşdurar eşq ürəkləri,
Qaçaq düşər təndən hicran,
Azərbaycan, Azərbaycan.

Çıraqqalan bir aləmdi,
Duman düşdü, gözü nəmdi,
Sənlə keçən nə xoş dəmdi?
Sehirləşir hər saat, an,
Azərbaycan, Azərbaycan.

Könlünə yar istiqlalın,
Qəlbi oxşar bu cəlalın,
Sona yetsin qeylü-qalın,
Çatsın kama yurdda hər yan,
Azərbaycan, Azərbaycan.

Yel atında yal-yəhərin,
Tükənməsin bar-bəhərin,
Ötüb getsin qəm-qəhərin,
Zülmətində parlasın dan,
Azərbaycan, Azərbaycan.

Daim xeyrə olsun yazın,
Ötsün qışın, gəlsin yazın,
Bayrağında Ay-Ulduzun,
Qoy parlasın eşqlə hər an,
Azərbaycan, Azərbaycan.

Sabahımsan, gözəl Vətən,
Ey ürəkdə, canda bitən,
Varmıdır de, eşqinlə tən?
Deyir sənə yer-göy ay can,
Azərbayan, Azərbaycan.

Bakı, Şirvan, Şəki mələk,
Mil-Muğanın arzu-dilək,
Qarabağın viran ürək,
Düşmənini tutubdu qan,
Azərbaycan, Azərbaycan.

Gözəl Bərdən bir yaraşıq,
Ona baxan olar aşıq,
Eşqindən ver qaşıq-qaşıq,
Tökülübdü Şuşaya qan,
Azərbaycan, Azərbaycan.

Gözəl Şəki bir şahzadə,
Pak cənnəti salır yadə,
Səndən varmı heç dünyadə?
Bulaqların torpağa can,
Azərbaycan, Azərbaycan.

Oğuzunun meşələri,
Cənnət-məkan guşələri,
Qartalların peşələri-
Zirvələrdən qoparmaq san,
Azərbaycan, Azərbaycan.

Təbrizinə çatmır əlin,
Şux Urmiyan, Ərdəbilin,
Var Borçalı – gözəl elin
Sən bu eşqlə alovlan, yan,
Azərbaycan, Azərbaycan.

Cəbrayılın kəhrizləri,
Kəlbəcərin pak izləri,
Laçınının dağ-düzləri,
Yad əlində olub büryan,
Azərbaycan, Azərbaycan.

Sərvətlərin aşıb-daşır,
Dilə düşür, el dolaşır,
Dostun gülür, yağın çaşır,
Dərd ürəyi edir büryan,
Azərbaycan, Azərbaycan.

Abadlaşır kənd, şəhərin,
Yenə artır bar-bəhərin,
Ölüb gedər qəm-qəhərin,
Torpağındır gül-gülüstan,
Azərbaycan, Azərbaycan.

Lənkaranın yamyaşıldır,
Lerikinin üzü aldır,
Qızlarının dili baldır,
Yenə gülür üzə dövran,
Azərbaycan, Azərbaycan.

Gədəbəyin gözəl üzü,
Tovuz, Qazax ceyran düzü,
Nə gözəldir Gəncən özü?-
Səadətlə deyir zaman,
Azərbaycan, Azərbaycan.

Arazın lal, Kürün şaqraq,
Gur suları yurda çıraq,
Tarixini varaq-varaq,
Fəlakətlə alıb-qucan,
Azərbaycan, Azərbaycan.

Durub gəlsən, düş Salyana,
Tellərini bir sal yana,
Aşiqini qoyma yana,
Səninkidir, bu şöhrət-şan,
Azərbaycan, Azərbaycan.

Göygölünün dağ vüqarı,
Ram edibdi dostu, yarı,
Qoşqarının bumbuz qarı
Çeşmələrdən verir nişan,
Azərbaycan, Azərbaycan.

Gözəl Quba bir tamaşa,
Çat Xaçmaza, gir qumaşa,
İstiqlalla, eşqlə yaşa,
Dada yetsin nəş‘ə hər an,
Azərbaycan, Azərbaycan.

Qusar, Xudat qoşa şamdır,
Dəvəçi-Şabran ilhamdır,
Qərib düşmüş – Dərbənd kamdır,
Bu kamınla sevdalan, yan!
Azərbaycan, Azərbaycan.

Siyəzənin gül-gülüstan,
Xızın yaşıl – göy bağ-bostan,
Tağayındır – könlə yatan,
Gözüm yatmaz görrəm haçan?
Azərbaycan, Azərbaycan.

Şadimanın ürəyisən,
Can içində diləyisən,
Yerin, Göyün mələyisən,
Eşqindəndir hiss, həyacan,
Azərbaycan, Azərbaycan.
Azərbaycan, Azərbaycan.

26.01.2008

AÇILMAYIR BAXT

Bir ağ gün görmədi millətin heç vaxt,
Bitib tükənməyir zillətin heç vaxt.
Üzdə can deyənlər bağrına yağı,
Vətən, bağlı qalıb açılmayır baxt.

14. 02. 2016

BİR TƏRƏFDƏ ŞƏHİDLƏR, BİR TƏRƏFDƏ DANIŞIQ

Bir tərəfdə şəhidlər, bir tərəfdə danışıq,
Haçan yanar, ey Vətən, yurdumuzda gur işıq.
Şəhid balalarının goru çatlayır axı,
Dözmür ürəklərimiz qəmdən partlayır axı.
Qətrə-qətrə qanımız tökülür yurd-yuvaya,
Öyrəşibdi ağzımız yalvarışlı duaya.
Danışıqlar tükənmir, danışıqlar uzanır,
Biz təslimə öyrəşir, düşmən zəfər qazanır.
Bu dəyirman çox sular aparacaq deyəsən,
Yağı neçə il möhlət qoparacaq, deyəsən?
Uzanır danışıqlar, uzanır sövdələşmə,
Neçə masa önündə kağızla vədələşmə.
Qaçqın balalarından doğulanlar haralı?
Şəhid Qarabağımız min bir yerdən yaralı.
Əsir düşən balalar, şəhid olan balalar,
Yığışmışıq Bakıya ucaldırıq qalalar.
Düşmən içir Şuşanın qanını qaşıq-qaşıq,
Haçan yanar, ey Vətən yurdlarında gur işıq?!...

31.10.2010

VƏTƏN TORPAĞI

Qışda quzeyimsən, yayda güneyim,
Sübh çağı şehlərlə nəş‘əli meyim,
Bağrı sarı bülbül – uzaq Güneyim,
Seyir, tamaşadır aranı, dağı,
Mənə candan əziz vətən torpağı.

Bir sarı siminəm, mizrab istərəm,
Çəkdiyin ağrıya hesab istərəm,
Tabsız səbirimə mən tab istərəm,
Bizi parçaladı düşmən ayağı,
Mənə candan əziz vətən torpağı.

Göyündən asılan günəşin olum,
Sönmüş ocağında atəşin olum,
Bu haqsız dövranla gərdişin olum,
Öz insanında gəz yurda dayağı,
Mənə candan əziz vətən torpağı.

Bilməm nə hikmətdir sevgin diləkdə,
Özün boylanırsan canda, ürəkdə,
Ağrın döşək salıb yatıb kürəkdə,
Sinəyə yaradır ayrılıq dağı,
Mənə candan əziz vətən torpağı.

Dur aç sərhədləri, keçim Təbrizə,
Tikələr, parçalar dağ çəkib bizə,
Asaq müjdələri gecə-gündüzə,
Sənin harayların yırtsın qulağı,
Mənə candan əziz vətən torpağı.

Gəzək məmləkəti istək içində,
Yıxaq sərhədləri, ötək içində,
Ya qalxaq, ya da ki, itək içində!
Yazaq misra-misra bu ağ varağı,
Mənə candan əziz vətən torpağı.

10.07.1987

MƏNİM ŞAİR BABAM…

Şah İsmayıl Xətaiyə

Birlik təşnəsiylə alışdı ürək,
Dedin ki, gur yansın ocağım, sobam.
Qoymadı kamına yetməyə fələk,
Mənim şair babam, mənim şah babam.

Könlündə min tonqal çatdı duyğular,
Vətənə, torpağa, yurda sayğılar,
Gecə də «birləşin» - dedi uyğular,
Mənim şair babam, mənim şah babam.

Alışdı içində sönməz ocaqlar,
Birlik eşqi ilə ürəyin dağlar,
Düşündün birləşməz, bu Vətən ağlar,
Mənim şair babam, mənim şah babam.

Dedin ki, «Təbrizdən Dərbəndə qədər,
Bir şahın əmiri, hökmü bəs edər!
Əgər ayrı düşsək yağılar didər»,
Mənim şair babam, mənim şah babam.

Çapdın eldən-elə o yel atını,
Yollarda keçirtdin şah büsatını,
Bu amalla verdin mərd həyatını!
Mənim şair babam, mənim şah babam.

Birləşmək yanğısı içində coşdu,
Sevgiyə, torpağa şərqilər qoşdu,
Bu duyğu dağlardan, düzlərdən aşdı,
Mənim şair babam, mənim şah babam.

Birlikdən alışan bu cəng, bu cida,
Yandıra bilmədi hər qəlbi oda,
Əsdi başın üstə yaman qan-qada…
Mənim şair babam, mənim şah babam.

Çaldıran döyüşü – qanlı bir savaş,
Oğuzla oğuzun arasında daş,
Fələyin gözündə gilələnən yaş,
Mənim şair babam, mənim şah babam.

O gün türklüyümüz düşdü ayağa,
Məmləkət büründü qara bayrağa,

O gün qan doldurdu fələk çırağa,
Mənim şair babam, mənim şah babam.

O gün çarpışmada qanbir oğuzlar,
O gün söndü günəş, batdı ulduzlar,
O gün od püskürdü qanlı ağızlar,
Mənim şair babam, mənim şah babam.

Çaldırana suçdu oğuz savaşı,
Qırdı qılınclarla qardaş qardaşı,
Niyə Tanrı göydən tökmədi daşı?
Mənim şair babam, mənim şah babam.

Sındı Qorqudumun ruhu bu dağdan,
Partladı Vətənin bağrı fərağdan,
Neçə qanlı dastan doğdu varaqdan?
Mənim şair babam, mənim şah babam.

Qanadın gərdiyin torpaqlar hanı?
Qırmızı çalmalı papaqlar hanı?
Möhürlü, fərmanlı o çağlar hanı?
Mənim şair babam, mənim şah babam.

Əyilib gördüyün ana məmləkət,
Alıbdı başını qara fəlakət,
Yurd içindən keçir neçə sərhəd, səd,
Mənim şair babam, mənim şah babam.

Ruhun lərzə salsın, ayılsın Vətən,
Fərman çıxarmasın hər yoldan ötən,
Qan yaddaşımızda qılıncla bitən,
Mənim şair babam, mənim şah babam.

Ey xəqan Xətai, ey şah Xətai,
Ruhun qovuşdursun bu tay, o tayı,
Qılıncın doğrasın kölə sarayı!
Mənim şair babam, mənim şah babam.

Odlar ölkəsində oddan doğuldu,
Qızın Şirin Xanım dərddə boğuldu,
Yağı savaşında o da oğuldu…!
Mənim şair babam, mənim şah babam.

08.12.1991

DÖZƏ BİLMİRƏM

Gözündə yaşların göyərdi dən-dən,
Qaldı dağlarında həm duman, həm çən,
Ah, kaş səndən ayrı olmayaydım mən,
Niyə o yerlərdə gəzə bilmirəm?
Vətən, bu dərdinə dözə bilmirəm.

Coşsun içimizdə qeyrət havası,
Bitsin dilimizdə haqqın duası,
Quraq yağılara bir ölüm yası,
Həsrətin ürəyin üzə bilmirəm,
Vətən, bu dərdinə dözə bilmirəm.

İlahi almadı qəlbdən acımı,
Saldı ayaqlara büsat tacımı,
Düşmən əsir etdi ana, bacımı,
O namərd başını üzə bilmirəm,
Vətən, bu dərdinə dözə bilmirəm.

Hiyləsi yamanmış o düşmənlərin,
Cəzası böyükdür əhrimənlərin,
Bağlayaq qapısın acı mənlərin,
Bu dünya qəm dolu kuzə, bilmirəm?
Vətən, bu dərdinə dözə bilmirəm.

Əsir məzarlarda ruhlar gileyli,
O məcnun sevdadan aralı Leyli,
Düşüb yağıların yurduma meyli,
Enmişəm dərəyə, düzə, bilmirəm?
Vətən, bu dərdinə dözə bilmirəm.

Dağılmış yurdlarda ağlar ocaqlar,
Qan libası geyib künclər, bucaqlar,
Qan ilə boşaldı doldu qucaqlar...
Zülümün yuvasın əzə bilmirəm.
Vətən, bu dərdinə dözə bilmirəm.

Araya bilmədik düşməni dostdan,
Qaldı yağılara gülzar, gülüstan,
Xırmanlar, otlaqlar, bağ-bağça, bostan...
Hardan unutqanlıq bizə, bilmirəm?
Vətən, bu dərdinə dözə bilmirəm.

Hey Cəngi üstündə köklənsin başlar,
Qurusun gözləri batıran yaşlar,
Göydən yağışlar yox, qoy yağsın daşlar!

Xainin şahmardır, gürzə, bilmirəm?
Vətən, bu dərdinə dözə bilmirəm.

Biz ölüb-gedərik, necə ad qalar?
Ya kişilik, mərdlik, ya fəryad qalar,
Birləşə bilməsək elə yad qalar,
Silaha inanım, sözə, bilmirəm?
Vətən, bu dərdinə dözə bilmirəm.

Bizim haqqımıza kor olub dünya,
Ya başdan, binadan kar olub dünya,
Yağılar əlində xar olub dünya,
Bu qəmi misraya düzə bilmirəm,
Vətən, bu dərdinə dözə bilmirəm.

Sən uca minarə, mən könlü yarə,
Yağı dağlar çəkib üstdən dübarə,
Açdığın gülləri saxla nübarə,
Əsir çəmənləri süzə bilmirəm,
Vətən, bu dərdinə dözə bilmirəm.

Sənə qurban deyib Şadiman canın,
Sussuz çəməninə tök axan qanın,
Sahibi olmayıb qansız dövranın,
Dünya qılınc, qalxan, nizə, bilmirəm?
Vətən, bu dərdinə dözə bilmirəm.

03.04.2001

QONŞU, BELƏ QONŞULUĞA AR OLSUN

Hiylə toru toxuyursan gecələr,
Şeytan, iblis, şər qulağın kar olsun!
Ağılına ağılsızlıq güc eylər,
Qonşu, belə qonşuluğa ar olsun!

Çörək kəsdin bir süfrədə xeyli vaxt,
Evimizdə əcəb qurdun, yağı, taxt,
Hiylələrlə millət olmaz heç xoşbaxt,
Qonşu, belə qonşuluğa ar olsun!

Torpağımı azaltmağa çalışdın,
Özgə eldə pis duyğuya alışdın,
Yuva qurdun işimizə qarışdın,
Qonşu, belə qonşuluğa ar olsun!

Köz bağlamış yaraları qanatdın,
Yatanları yuxusundan ayıltdın,
Öz xalqını qan-qırğına sən atdın,
Qonşu, belə qonşuluğa ar olsun!

Ad axtardın özgəsinin adında,
Çox isindin bu torpağın odunda,
Tarixini pis saxladın yadında,
Qonşu, belə qonşuluğa ar olsun!

Musiqimi, mənim deyim, çalmısan,
Özgəsinin tar-kamanın çalmısan,
Adın haydı, yurduma göz salmısan,
Qonşu belə qonşuluğa ar olsun!

Sən xalqsansa özgə yurdda nə gözün,
Barışmağa su qoymayır o üzün,
Ara qatıb, qan salmağa nə sözün?
Qonşu, belə qonşuluğa ar olsun!

Millət deyib, səhər-axşam ağladın,
Albanın da sinəsini dağladın,
Günahsızın qapısını bağladın,
Qonşu, belə qonşuluğa ar olsun!

Türk şər deyib, gecə-gündüz yazırsan,
Öz xalqına yaman quyu qazırsan,
Düz olmayan yolundan da azırsan,
Qonşu, belə qonşuluğa ar olsun!

Böhtan dedin türk millətin adına,
Gətirmirsən tarixləri yadına,
Dönüb dilin qeybətçil bir qadına,
Qonşu, belə qonşuluğa ar olsun!

Yoxdur, görən, aranızda mərd ata,
İçirtdiyin zəhər suya bal qata,
Millətçilər nə verdi bu həyata?
Qonşu, belə qonşuluğa ar olsun!

Şirin xanım Nigar, Həcər övladı,
Müqəddəsdir ana yurdun pak adı,
Boşa getməz, yağı, bu el fəryadı,
Qonşu, belə qonşuluğa ar olsun!
Qonşu, belə qonşuluğa ar olsun!

06.12.1988

NEFT DAŞLARINDA GECƏ

Gecədir. Qaranlıqlar çəkilib göy üzünə.
Ay buruqlar adası, nə füsunkar olmusan?
Qatar-qatar işıqlar oxşar nurlu gözünə,
Şirin arzular təki ürəyimə dolmusan.

Söylə, hansı diyarda su üstə şəhər yatır,
Hər buruq bir çıraqban ulduzlar meşəsidir.
Bu dəniz ölkəsində ulduzlara əl çatır,
Neft Daşları qəlbimin ən dilbər guşəsidir.

Suların qucağında gəmilər salamlaşır,
Yatırır sinəsində gecə gəlib-gedəni.
Bu payız axşamında xoşbəxtlik başdan aşır,
Yuyunur qaranlığın dənizdə pak bədəni.

Sərin mehlər gecəylə pıçıldaşır aşiqtək,
Sanki sevgi nəğməsi həzin-həzin səslənir.
Bu gecə gözəl Xəzər bir divanə məşuqtək,
Sevgilərin evində odlu-odlu bəslənir.

Gecə ay işığında dəmir körpü uzanır,
Alır işdən gələni ehtiyatla qoynuna.
Ulduzlar da bu axşam bir tamaşa qazanır,
Heyranlıqla baxırlar maşınların oynuna.

Burda göydə, dənizdə topa-topa ulduzdur,
İşıq seli sularda ox təki düşüb qalıb.
Bu gecə gözəl Xəzər, sanki növrəstə qızdır,
Gur qara tellərini zümrüd sulara salıb.

Növbə qurtaran zaman binalar da gurlaşar,
Həyatsevər adamlar gəlirlər dəstə-dəstə.
Ürəklərin atəşi hünər ilə qovlaşar,
Şirin nağıla dönər sərin mehlər ahəstə.

Gündüzün zəhmətini unutdurar gecələr,
Təmiz dəniz havası gözləri yatızdırar.
Tufanların sehiri adamlarla gecələr.
Yuxulara şirinlik, şəkərlik qatızdırar.

Gecə yuxularına gələr su pəriləri,
Necə də baş vurarlar qorxmadan dərinliyə.
Almaz təki bərq vurar gümüşü dəriləri,
O ilahi mələklər öyrəşər sərinliyə.

Oğlan, qız sədaları sularda sınıb qalar,
Dolaşar Neft Daşların pak gecə gülüşləri.
Hər qəlbə, hər ürəyə şadlıq mehrini salar,
Yığar öz ətrafına hey tanış-bilişləri.

İşıq seli altında qaranlıqlar incələr,
Növbədən qayıdanlar yavaş-yavaş yatışar.
Yorğun düşmüş əl-ayaq rahatlıqla dincələr,
Burda halal zəhmətə şirin yuxu qatışar.

Sübhədək qalıb oyaq, dəniz də layla çalar,
Mehriban ana kimi oxşayar yatanları.
Coşub-daşan dalğalar qolları üstə alar,
Şərəfli əməyiylə arzuya çatanları.

Yorğunluqdan dincələn ürəklər pərvazlanar,
Sabah görülən işi bugün ölçüb-biçərlər.
Buruqlar ölkəsində həyat necə nazlanar,
Çətin görünən yoldan asanlıqla keçərlər.

Gecə qayğılarına bürünərlər ürəklər,
Xəyallar yığın-yığın alar ağzına bizi.
Sığallar sinəmizi o mələkə diləklər,
Sabaha qarşımızda açar neçə yol-izi.

Ərzin dərdi-səriylə gözlərimiz yuxlayar,
Kiminin eşq yanğısı sinədən ərşə qalxar.
Təzə-tər könülləri bir pak sevgi oxlayar,
Bir divanə məhəbbət qəlbi yandırıb-yaxar.

Buruqlar adasında ay xoş, sevdalı gecə,
Dəniz nəsimi ilə nəvaziş göstər bizə.
Həyat da çiçəklənir, sellər gurlaşır necə.
Mübarək qədəminlə çıxmışıq hər gündüzə.

Yolumuzu gözləyir halal zəhmət, şanlı iş,
Taleyimiz, ömrümüz necə bağlıdır ona.
Bu Odlar ölkəsində baş ucaldan yüksəliş,
Həyatın yollarında olub ağ saçlı ana.

Nələr keçir qəlbimdən elə bu an, bu gecə,
Ürək min bir qürurla vurur sinə içində.
Ey Şadiman, bu dövran, bu şad, firavan büsat,
İlhamdan bir qalaça qurur sinə içində.

21.12.1985

TÜRKÜN BAYRAĞI

Yanacaqdır yerdə, göydə nurlu, parlaq çırağı,
Enməyəcək səmalardan heç vaxt Türkün bayrağı.

O sevdalı ürəklərdə alışacaq şam kimi,
Zülmətlərə udduracaq yağını axşam kimi,
O Turanın sinəsində coşub-daşan kam kimi,
Altaylarda, Türküstanda gəzəcəkdir sorağı,
Enməyəcək səmalardan heç vaxt Türkün bayrağı.

Canımızdan, qanımızdan, ruhumuzdan boylanır,
Onun rəngin görən düşmən fəryad çəkir-oylanır,
Çıxır əngin asimana, başımıza haylanır,
Birləşəcək Turan ellər, görəcəkdir xoş çağı,
Enməyəcək səmalardan heç vaxt Türkün bayrağı.

Qurd ürəkli kişilərin məkanıdır uluslar,
Qan yaddaşa qayıtmağın təkanıdır uluslar,
Şərəf, namus, qeyrət, ismət ərkanıdır uluslar,
Kəsiləcək Türk yurdlardan yağıların ayağı,
Enməyəcək səmalardan heç vaxt Türkün bayrağı.

Gələcəkdir bir araya, Ərəm, deyən oğullar,
Qurd ruhundan qopub çıxan, nərəm, deyən oğullar,
Silah qapıb xainləri, gərəm, deyən oğullar,
Sibiryadan, Tatarlardan uçacaq yel sayağı,
Enməyəcək səmalardan heç vaxt Türkün bayrağı.

Çanaqqala savaşının qanı gəzir üzündə,
Şəhid ruhu alov saçır torpağının özündə,
Məhşərətək haray çəkir ocağının közündə,
Yağı özü yaddır ona, yağı sözü bayağı,
Enməyəcək səmalardan heç vaxt Türkün bayrağı.

Türk torpaqlar Ay-Ulduzlar istiqlalın doğacaq,
Onun ruhun sındıranı künc-bucağa sığacaq,
Bayraqların, Türkəm, deyən bir sıraya yığacaq,
Artacaqdır sülhsevənin bu topluma marağı,
Enməyəcək səmalardan heç vaxt Türkün bayrağı.

Göy atların kişnərtisi qulaqlardan getməyir,
Tarixlərin havacatı hələ başdan ötməyir.
Əllərimiz ayrılalı bir-birinə yetməyir,
Qıpqırmızı sancağıdır könlümüzün dayağı,
Enməyəcək səmalardan heç vaxt Türkün bayrağı.

Türkiyənin səmasından gəl-gəl deyir bizlərə,
Sığal çəkir al rəngiylə şəfəqli gündüzlərə,
İşığından nur ələnir könüllərə, üzlərə,
Süslənibdi məhəbbətlə tarix dolu varağı,
Enməyəcək səmalardan heç vaxt Türkün bayrağı.

Yanacaqdır yerdə, göydə nurlu, parlaq çırağı,
Enməyəcək səmalardan heç vaxt Türkün bayrağı.

09.11.2012

BU YURDUN ELİ HANI?...

Dağılıb yurd, yuvası,
Necə canından ası,
Qana susub havası,
Odun, ocağın tanı,
Bu yurdun eli hanı?

Səadəti boğulub,
Qəmi dərddən doğulub,
Eli hara dağılıb?
Sanki çıxacaq canı,
Bu yurdun eli hanı?

Ocağını su basıb,
Dərdi özünü asıb,
Niyə bu Allah susub?
Fəğandır, ahdır anı,
Bu yurdun eli hanı?

Çeşmələri ağlaşır,
Buludlarla bağlaşır,
Bu dərd niyə dağlaşır?
Keçən günü gəl sanı,
Bu yurdun eli hanı?

Gəlməyə sabahları,
Boğub içdə ahları,
Məzarların ruhları,
Gəzir nalan hər yanı,
Bu yurdun eli hanı?

Gələ vətən ərləri,
Boğa dərdi-sərləri,
Elin şiri-nərləri
Uddura yada qanı,
Bu yurdun eli hanı?

6.08.2001.

EŞQİN BİTMƏZ AZƏRBAYCAN

Nədən heç vaxt eşqin bitməz? Coşar çağlar özün kimi
Öylə bir od tapmıram ki, alovlansın közün kimi,
Gözəlliklər ayna tutar camalına üzün kimi,
Qəlbə yatmaz heç bir istək, heç bir dilək sözün kimi,
Məhəbbətin zirvəsində daim bitən, Azərbaycan,
Cana qida, eşqə sevda, ruha Vətən Azərbaycan!

Yadlar sənin qollarını zəncirlədi dönə-dönə,
Parçaladı torpaqları, sərhəd çəkdi, yandı sinə,
Dağ vuruldu düşmənlərin fitvasıyla od köksünə,
Sərvətini apardı yad, «dostlar» getdi hey əksinə,
Övladları savaşlarda ölüb-itən Azərbaycan,
Cana qida, eşqə sevda, ruha Vətən Azərbaycan!

Mən də sənin bir zərrənəm qəbul eylə, ey çırağım,
Adın ilə bağlıdır bil hardan gəlsə xoş sorağım,
Əsir düşmüş yurdlarındı ürəyimdə can fərağım,
Ordumuzun qüdrətiylə gedəcəkdir könül dağım,
Ürəyimin tellərində dil-dil ötən Azərbaycan.
Cana qida, eşqə sevda, ruha Vətən Azərbaycan!

Gündən-günə yüksəlişin yağıları çaşdıracaq,
İgidlərin haqq yolunda qoşun çəkib səf duracaq,
Sənə olan zülümlərin hesabını ər soracaq,
Quzey-Güney bu məmləkət bir sinədə yanan ocaq!
Bu sevginlə varmı sənə dünyada tən Azərbaycan?
Cana qida, eşqə sevda, ruha Vətən Azərbaycan!

Dərbəndinə Təbrizinə Borçalına can qurbandı,
Əsir düşmüş Qarabağın könlümüzün şərəf andı!
Bədənindən aralanmış Naxçıvanın qopan candı,
Məni, səni çalxaladan sevgi dolu həyəcandı,
Ərkim çatan, könlüm yatan, ünüm yetən Azərbaycan,
Cana qida, eşqə sevda, ruha Vətən Azərbaycan!

Qalx ayağa, qap sılahı, yürü yağı üstünə, yurd,
Əsir ellər həqarəti toxunmurmu şəstinə, yurd?
Durub azğın düşmənlərin zaman-zaman qəsdinə, yurd.
Yandırdılar el-obanı çox baxdılar tüstünə, yurd,
Od götürüb müsibətdən alışır tən Azərbaycan,
Cana qida, eşqə sevda, ruha Vətən Azərbaycan!

Taleyimtək yollarına düzülübdü çoxlu tikan,
Yuvalarda ocaq sönmüş savaşa nə ədəb-ərkan?
Əsirlərlə yağıların əllərinə keçib imkan,

Döyüşlərdə dağılıbdı, yıxılıbdı ulu məkan,
Ocağına kül ələnib bəxti yatan Azərbaycan,
Cana qida, eşqə sevda, ruha Vətən Azərbaycan!

Sevinirəm, Güneyinin müstəqillik sevdası var,
Başımızın üstə əsən bayrağının sədası var,
Himnimizin könlümüzdə havalanan nidası var,
Sənə olan sitəmlərin düşməninə qadası var,
Qürbətlərdən heç bir zaman olmur Vətən, Azərbaycan,
Cana qida, eşqə sevda, ruha Vətən Azərbaycan!

Şadimanın ürəyini parçalayır müsibətin,
Səni sevən övladına həyat eşqi məhəbbətin,
Yavaş-yavaş faş olacaq bu dünyaya həqiqətin,
Düşməninə qan uddurmaq əvvəl-axır ibadətin!
Torpağına düşən toxum olacaq dən Azərbaycan,
Cana qida, eşqə sevda, ruha Vətən Azərbaycan!

15.05.2014

GÖZƏL VƏTƏN

Gözəl Vətən, dur gur səsin yayılsın,
Süd gündüzlər yuxusundan ayılsın,
Zülmət gecə qoy zəhmindən bayılsın,
Hünər göstər, ürəyimiz şad olsun,
Bu hünərin şan-şöhrətli ad olsun.

Gözəl Vətən, əməyinlə ucal sən,
O şiş tağlı zirvələrdən bac al sən,
İgidlərin oylağına tac ol sən,
Son qoy qəmə, diləklərlə gül daha,
Alnı açıq get bugündən sabaha.

Nə tufandan, nə borandan qorxun yox,
Hünərin bol, zəhmətin bol, gücün çox,
Könlümüzdə istəyin var, gözün tox,
Qorxma, adla yenə çətin yolları,
Yenilməzdir cəsarətin qolları.

Gözəl Vətən, od yurduna dayaq ol,
Gecələrdən, zülmətlərdən iraq ol,
Azadlığın gözlərinə çıraq ol,
Qaranlıqlar gündüz olsun əlinlə,
Ürəyimiz qoy öyünsün sənlə.

22.01.1987

ÇANAQQALA

Ruhumuzun qürur yeri, Çanaqqala,
Ürəklə bir vurur yeri, Çanaqqala…

Üstümüzə gələn azğın yolun sapdı,
Qorxu bilməz igidlərin silah qapdı,
Süngülərlə düşmənlərin bağrın çapdı,
Varlığımız dincliyini səndə tapdı,

Sən titrətdin ərzi-göyü, Çanaqqala,
Nərə çəkdin, kəsdin heyi,Çanaqqala.

Yerlər-göylər bir-birinə dəydi o gün,
Əsgərlərin qurd ürəyi yedi o gün,
Paltarını süngülərdən geydi, o gün,
Yağıların bayraqların əydi o gün,

Türkə sönməz çıraq oldun Çanaqqala,
Tarixinə varaq oldun, Çanaqqala.

Türkü əymək istəyənlər vaya düşdü,
Yer titrədi başlarına qaya düşdü,
Bütün dünya için çəkdi, haya düşdü,
Qan sıçradı, ulduzlara, Aya düşdü,

Ət bədənlər çəpər oldu, Çanaqqala,
Şəhidlərlə için doldu, Çanaqqala.

O qanların izi qalıb ürəklərdə,
Fəryadları cövlan edir fələklərdə,
Əsgərinin səsi gəzir küləklərdə,
Mərtəbəsi əlçatmayan mələklərdə,

Məzarına baş əyirik, Çanaqqala,
Qəhrəmana can deyirik, Çanaqqala.

Türkiyənin bağırından baxan diyar,
Osmanlını ağırınla yaxan diyar,
Düşmənlərin axırına çıxan diyar,
Ucalığa bayrağını taxan diyar,

Bugünümüz sənə borclu, Çanaqqala,
Müsəlmana şərəf taclı, Çanaqqala.

Başı uca millətinin Vətənisən,
Namusunun, qeyrətinin Vətənisən,
Anaların heyrətinin Vətənisən,
O kişilik sərvətinin Vətənisən,

Ay-ulduzlu sancağın var, Çanaqqala,
Al qırmızı ruhuna yar, Çanaqqala.

Sən şərəfli tarixinlə öyünməkdə,
Türk deyənin sinəsində döyünməkdə,
Xainlərin yalanlarla deyinməkdə,
Yenə türkün əleyhinə şər dinməkdə.

İgidlərin bu gün də var, Çanaqqala,
Vətən adlı torpağa yar, Çanaqqala!

Atatürkün şərəf dolu hərb meydanı,
O möhtəşəm İnsan uddu qan-qadanı,
Göylərində qanad açır ruhu canı,
Torpağının güllərində şəhid qanı,

Hayqırtısı dağda-daşda, Çanaqqala,
Ürəklərdə yeri başda, Çanaqqala.

Bütün dünya heyran olub şöhrətinə,
Yığışırlar hər il sənin izzətinə,
Allah özü aşiq olub zəhmətinə,
Bu Şadiman canın verər millətinə,

Heç sönməyən çırağımız, Çanaqqala,
Bir millət tək sorağımımız, Çanaqqala.

23.04.2015

MUSTAFA KAMAL ATATÜRK

Bir zaman yağıların eylədi işğal Vətəni,
Saldı min bir əzaba gör necə bu hal Vətəni,
Qoydu qara günlərə, etdi halbahal Vətəni,
Atdı ağrı-acıya öylə qeylü-qal Vətəni,
Oldu millətə dirək – Mustafa Kamal Atatürk,
Böyük yurduna ürək – Mustafa Kamal Atatürk.

Yığışıb cəm olaraq diddilər Osmanlını,
Min yerə parçalayıb ütdülər Osmanlını,
Elə zənn eylədilər ötdülər Osmanlını,
Sanaraq qul sayağı etdilər Osmanlını,
Millətə oldu çıraq – Mustafa Kamal Atatürk,
Açdı tarixə varaq – Mustafa Kamal Atatürk.

Gah rus, gah ingilis, gah da fransız gəldi,
Yurdu ram eyləməyə neçə amansız gəldi?
Dövlətə xain çıxan erməni qansız gəldi,
Yağlı kökə arayan bir çox imansız gəldi,
Xalqı xilas elədi – Mustafa Kamal Atatürk,
Millətə hür dilədi – Mustafa Kamal Atatürk.

O ki, türk dünyasının özünə Günəş oldu,
Yaralı torpağının könlünə atəş oldu,
Biçdi düşmənlərini – yerində küləş oldu,
Önündə yağıları hey tökülüb qəş oldu,
Aldı silahı ələ – Mustafa Kamal Atatürk,
Xəbəri düşdü elə – Mustafa Kamal Atatürk.

Həm Vətən, həm Bayraq dedi, atıldı savaşa,
Son qoydu ana, bacı gözündəki qanlı yaşa,
Əymədi millətini, vermədi rəvac tələşa,
Tökdü ərlər qanını kişi təki dağa, daşa,
Oldu millətə çıraq – Mustafa Kamal Atatürk,
Açdı tarixə varaq – Mustafa Kamal Atatürk.

O türkün namusunu qoymadı yensin ayağa,
O böyük tarixini vermədi ensin ayağa,
Döndü qaradənizin sinəsidə mayağa,
Gətirdi qüdrətiylə şan və şərəf bayrağa,
Titrətdi Avropanı – Mustafa Kamal Atatürk,
Sandı Vətəni canı – Mustafa Kamal Atatürk.

Kəsdi Xaç yürüşünün qarşısını qüdrət ilən,
Getdi düşmən önünə pələng kimi həddət ilən,
Şərəfi dünyaya düşdü elə bir vüs'ət ilən,

Qaldı həqqi sevənin sinəsində izzət ilən,
İslama nur çilədi – Mustafa Kamal Atatürk,
Yaraları bələdi – Mustafa Kamal Atatürk.

Döndü Çanaqqalanın döyüşü bir dastana,
Düşdü yağıların ürəyi zimistana,
Osmanlı torpağını çevirdi gülüstana,
Vermədi xəzan gələ baharında bostana,
Ərdi, türk övladına – Mustafa Kamal Atatürk,
Çatdı Ata adına – Mustafa Kamal Atatürk.

O Fərid Sultanı da qoymadı çöksün yada,
Olmamaqçın təslim atdı özünü oda,
Dedi: - « Tək taxtına yox, bu Vətənə bir qada »,
Yetdi vaxtında igid millətinə imdada,
Elə işıq oldu – Mustafa Kamal Atatürk,
Yurda aşiq oldu – Mustafa Kamal Atatürk.

Şadiman, bu igidi vəsf eləyər zamanlar,
Onu səcdəyə gələr haqq arayan imanlar,
Gülər tarix adına, edər ona peymanlar,
Hələ hər gün doğular bu şərəfə fərmanlar…
Anadan təkdi belə – Mustafa Kamal Atatürk,
Doğmayıb ana hələ – Mustafa Kamal Atatürk !...

19.05.2004

İSTİQLALIN SORAĞI

İstiqlalımızın Öndəri Məmməd Əmin Rəsulzadəyə…

Azərbaycan davasıyla gəzdin ölkəbəölkə,
Hər cür ağrı-acılara dözdün ölkəbəölkə,
Pak bağrını əzablarla üzdün ölkəbəölkə,
İstiqlalı ürəyində yaşatdın, Məmməd Əmin,
Qəlbdə şanlı heykəlini ucaltdın, Məmməd Əmin.

Ey millətin fədaisi, ey başı uca öndər,
Köləliyə usyan dedin, düşdün yurddan dərbədər,
Yaratdığın cumhüriyyət sanma ki, oldu hədər,
Könlümüzün şərəf dolu havası Məmməd Əmin,
O himin ki, dilimizin duası, Məmməd Əmin.

O üç rəngli ay ulduzun başımızın üstündə,
Ucalacaq bu torpaqda heykəlin də, büstün də…
Keçdin hər cür qan-qadadan bu Vətənin üstündə!…
Mirvari ki, parlaq olar sədəflə, Məmməd Əmin,
Taprixlərə düşdü adın şərəflə, Məmməd Əmin.

Ey taleyi məhkum olmuş Məmləkətin övladı,
Avropada aha döndü dilinin haqq fəryadı,
Sən qorudun kişiliylə o müqəddəs, pak adı,
Qürbətlərdə Vətən dedin, alışdın, Məmməd Əmin,
Bağrımızın atəşinə qarışdın Məmməd Əmin.

O qurduğun istiqlalın havası başımızda,
Çəkdiyimiz sitəmlərin ahı göz yaşımızda,
Kölə olduq, qana batdı hər zərrə daşımız da,
Öldü min bir savaşlarda bacı, qardaşımız da,
Əsirliyi dada-dada qul olduq, Məmməd Əmin,
Selə düşmüş çay daşıtək oyulduq, Məmməd Əmin.

Əyilmədin, qul olmadın yağılara heç zaman,
Qulpərəstlər təki, Öndər, diləmədin ah-aman,
İman əhli olanları tərk eləyərmi iman?
Ey imanı kamil başçı, yağı hiyləsi yaman,
Didərginlik fəraqına tuş oldun, Məmməd Əmin,
İstiqlalın mayağıtək faş oldun, Məmməd Əmin.

Azərbaycan istiqbalın dünyaya e'lan etdin,
Dağıtdılar amalını, sonadək nalan etdin,
Üçrəngli pak bayrağı, himnini balan etdin,
İrmi üç ay hürr tarixin o könül qalan etdin,
Qəlbimizin səmasında Günəşsən, Məmməd Əmin,
Azadlığın ocağına atəşsən, Məmməd Əmin.

O qurduğun cumhüriyyət yenidən ucalıbdı,
Sevmədiyin köləliyə millət zəfər çalıbdı,
Başıbəlalı məmləkət öz haqqını alıbdı,
Adın, ey ulu Öndərim, tarixlərdə qalıbdı,
Ruhun azad uça bilər Vətəndə, Məmməd Əmin,
Pak olur qəlbdə hüriyyət bitəndə Məmməd Əmin.

Səni tarix yaşadacaq böyük əməllərinlə,
İstiqlal yoldaşlarınla hür qurdun əllərinlə,
Qaldın tarix səhnəsində üsyankar illərinlə,
Ürəyində yara açdı dərd kölə ellərinlə,
Məzarın türk torpağında qalıbdı, Məmməd Əmin,
Ruhun ana Vətəndə yurd salıbdı, Məmməd Əmin.

Növxanıdan qanadlandın istiqlal səmasına,
Könlümüzdə bir ocaq var o günəş təmasına,
Tuş olubdu çox diləklər taleyin əmmasına…
İlahi də imza qoyub köləliyin yasına,
Əsir olmuş torpağımız alına, Məmməd Əmin,
Şanlı Himin qul Şuşada çalına, Məmməd Əmin.

Bu Şadiman, ey Öndərim, istiqlala can deyir,
Öz qanını azadlığın yolunda qurban deyir,
Sənə arxa çevirənə savaş deyir, qan deyir!
Yumruq boyda ürəyinə haqq yolunda yan deyir!
Bayrağımın, himinimin çırağı, Məmməd Əmin,
İstiqlalın on səkkizdən sorağı, Məmməd Əmin!

21.01.2002

ELÇİBƏY

Vətən aşiqi Əbülfəz Elçibəyə

Candan artıq sevdin yurdu, vətəni,
Kama çatdın istiqlala yetəni,
Fələk nə tez ruhsuz qoydu o təni?
Həyatını haqqa verdin, Elçibəy,
Bu torpağa sən ki, ərdin, Elçibəy.

Ürəyində vətən eşqi gurladı,
Ocaq oldu, atəş oldu qorladı,
Millət necə unudar o pak adı?
Sən ki, vətən daşı idin, Elçibəy.
Ürəyinin başı idin, Elçibəy.

Kim görmədi fələk tarpa-tapını?
Vaxtsız ölüm nə tez döydü qapını?
Qırdı qəfil ömrün tale sapını!...
Bu getməyin zülüm oldu, Elçibəy.
Bu nə müdhiş ölüm oldu, Elçibəy.

İmperyaya hamı boyun əyəndə,
Köləliyin önündə qədd əyəndə,
Bu əzablar ürəyinə dəyəndə,
Yandı köksün için-için, Elçibəy,
Fələk qırdı ömrü neçin, Elçibəy?

Bu yurdunu Kə'bə bildin qəlbinə,
Yurd dananın vüqarı nə, qəlbi nə?
Zülüm basıb haqqı çoxdan qəlbinə,
İşğal altda qaldı vətən, Elçibəy,
Bu dərdlərdən əridi tən, Elçibəy.

Bulaq təki təmiz idi ürəyin,
Həm istiqlal, həm ədalət dirəyin,
Halallıqla yuğrulmuşdu çörəyin,
Ey vətənin qadir oğlu, Elçibəy,
Bu torpağın nadir oğlu, Elçibəy.

Elə tə'nə edib səni əydilər,
Haqsız yerə ürəyinə dəydilər,
Kim çarpışdı, kimlər özün öydülər?
Haqqa canı fəda etdi Elçibəy,
O dünyada haqqa yetdi Elçibəy.

Söz götürdün yolun üstə ötəndən,
Ürəyində dərdə dönüb bitəndən,
Sən nigaran getdin yurddan, vətəndən,
İndi ruhun özün üzər, Elçibəy,
Başımızın üstə gəzər, Elçibəy.

Məzarını Azərbaycan qucaqlar,
Bu ölümə için-için hey ağlar,
Çəkdi fələk dağ üstünə hey dağlar...!
Tarix oldu adın, sanın, Elçibəy,
Qəlbimizlə vurar canın, Elçibəy.

Bayrağımız Məmmədəmin amacı,
Himinimiz istiqlalın baş tacı,
Onları da sənsiz görmək çox acı,
Təki vətən ölməz olsun, Elçibəy,
Məzar evin nurla dolsun, Elçibəy,
Məzar evin nurla dolsun, Elçibəy.

24.08.– 09.09.2000.

EY BÖYÜK ŞAİRİM

İstiqlal şairimiz Əhməd Cavadın ruhuna!

Elə yaşamalı həyatda insan…
Dünyadan köçəndə yeri görünsün.
Onun yoxluğundan xəbər versin an,
Adamlar içində diri görünsün.

Yüz illər keçsə də əməli qalsın,
Adına baş əysin yaxınlar, yadlar.
Ürəklər içində zirvəni alsın,
Çün həyatda qalır layiqli adlar.

Dirikən ölülər çoxdu dünyada,
Varlığı zəhərli kol-kosa bənzər.
Var ikən elə bil yoxdu dünyada,
İçi qanla dolu bir tasa bənzər.

Sən ey böyük şair, Vətən aşiqi,
Ölükən dirisən, ruhun ucadı.
Adınla nur saçır haqqın işığı,
Hər misran, hər sözün Rəbbə bacadı.

Sən « Göygöl » şerinlə suçlandın bir vaxt,
Şerin də adıntək uludu indi.
Etdisə ömrünü zalımlar bədbaxt,
Amalın istiqlal yoludur indi.

Onlar ölü idi, sağ ola-ola,
Səninsə dirilik haqqın əbədi.
Şairim, qandalı vurdular qola,
Sağ ikən ölünün qandalı nədi?

İndi də paxıllıq edirlər sənə,
Çünki himnimizdə yaşayır adın.
Hər misran, hər sözün, özün təntənə,
Əbədi yaşardı təbi ustadın.

Ömrünü qırdılar qəlbi kösövlər,
Qanında, canında istiqlal vardı,
Ürəyi kir ilə min cürə növlər,
Təbli həyatını əzaba sardı.

Cisminlə yox ikən, ruhunla varsan,
Adınla Vətəndə dirisən, şair.
Ziyasan, işıqsan, haqqa vüqarsan,
Millətin qeyrətli ərisən, şair.

Sağlığında ölü çoxu həyatda…
Əbədi ölməzlik qazanıb getdin.
Hər kəs qala bilməz əbədiyyatda,
Sən bunu dəhşətli zamanda etdin!…

Ey böyük şairim, ey Əhməd Cavad,
Sənin qeyrətinə baş əyirəm mən.
Vicdanı olana əzizdir bu ad,
Sənintək ucalmaq istəyirəm mən.

16. 04. 2003

ÜZEYİR ELİMİZİN DAHİSİDİR

Dahi Üzeyir Hacıbəylinin
əziz xatirəsinə

Yazdı ilk operanı - ad elədi,
«Leyli-Məcnun» ilə fəryad elədi,
O böyük Füzulini yad elədi,
Şərqdə musiqini abad elədi,
Operanı yurda övlad elədi,
Bu elmdə neçə ustad elədi,
Üzeyir elimizin dahisidir,
Musiqi elmimizin dahisidir.

Bəllidür aləmə bəyzadəliyi,
Bəy ola-ola elə sadəliyi,
İstiqlal yolunda azədəliyi,
Ziyalı ad-sanına zadəliyi,
Üzeyir elimizin dahisidir,
Musiqi elmimizin dahisidir.

Yayılıb hər tərəfə uca adı,
Arşın-Malalan, Məşədi İbadı,
Necə heyrətdə qoyub dostu, yadı,
Ucaldır sənəti bu pak ustadı,
Üzeyir elimizin dahisidir,
Müsiqi elmimizin dahisidir.

O böyük el yazarın işığı var,
Neçə min cümlə-cahan aşığı var,
Ona kəm baxanın yad qarşığı var!
Onun dürr sənətinin yaraşığı var,
Üzeyir elimizin dahisidir,
Musiqi elmimizin dahisidir.

O Milli himni-inqilab elədi,
Çökdü istiqlal-iztirab elədi,
«Koroğlu»-«Cəngi» haqqısab elədi,
Bu kimi ağrılara tab elədi,
Ürəyin hər əzaba bab elədi,
Üzeyir elimizin dahisidir,
Musiqi elmimizin dahisidir.

Şərqdə ilk operanın banisidi,
Bu adı danan elin canisidi,
Onun etdikləri yurdun bəsidi,
O Böyük Rəbbinin divanəsidi,

Məhəbbətin dəli pərvanəsidi,
Üzeyir elimizin dahisidir,
Musiqi elmimizin dahisidir.

Bu adın şöləsi-Qarabağımız,
Xarıbülbüllü – Şuşalı çağımız,
İndi əsir olalı qəlb dağımız,
Musiqi beşiyidür sorağımız,
Nətəvan ruhuna – quldu ağımız,
Şuşaya sancılmasa bayrağımız,
Əbədi yanmayacaq çırağımız,
Üzeyir elimizin dahisidir,
Musiqi elmimizin dahisidir.

O böyük ziyaya izzət eləyək,
Adının eşqinə hörmət eləyək,
Nə ki, min cövrlə minnət eləyək,
Bu ulu dahini zinnət eləyək,
Ona xor baxana – lənət eləyək,
Haqqını qorumağa – qət eləyək,
Üzeyir elimizin dahisidir,
Musiqi elmimizin dahisidir.

Şadiman, çəkmə belə ağrı-acı,
O böyük sənətkarın başda tacı,
Onun ilhamının Rəbbdən xəracı,
Bunu hər kimsə danır qəlbə acı,
Onun ağlındadı şeytanın ucu,
Hər iki dünyada yoxdu əlacı,
Üzeyir elimizin dahisidir,
Musiqi elmimizin dahisidir.

27.01.2008

XƏLİL RZA

Xəlil Rza! Vətənimin göylərində dolan bulud,
Xəlil Rza – tufanlara sinə gərən,
ilğımları, sazaqları üstələyən
güclü palıd!
Xəlil Rza – əzabları dəmirləşən,
düşmənləri əyilməyən qüdrətiylə
vurub sərən bahar seli!
Xəlil Rza –Vətənimin zümzüməsi –
dodağında kilidlənən susmaz dili.
Zəncirlənən azadlığın Prometeyi!
Azərbaycan anamızın udu, neyi!

Xəlil Rza – o susmayan qüdrətiylə çağlayacaq!
Yağıların qan-qan deyən ürəyini
xəncər-bıçaq sözləriylə dağlayacaq!
Od yurdunun adı bizdən
özü ögey dillərini bağlayacaq!
Xəlil Rza – məmləkətin azadlığa
təşnə olan ürəyidir!
Azərbaycan torpağının ikibaşlı
əjdahaya qarşı duran dirəyidir!
Azadlığın damlasını əzizləyən,
Yolumuzdan tikanları, qanqalları
xışım-xışım təmizliyən,
Dədə Qorqud babamızdır!..
Xəlil Rza – min ildir ki, fəryad edən,
fəğan edən qəlbi qopuq
dərdli sazdır!
Xəlil Rza – min bir yerdən parçalanmış,
igidləri diri-diri xain əllə
odda yanmış,
Azərbaycan adlı diyar.
Yağıları o Koroğlu nərəsiylə başsız qoyar!
Xəlil Rza – istiqlalın özü boyda parlaq Günəş!
Yüz yetmiş il sinəmizdə zaman-zaman,
nəsil-nəsil doğan atəş!
Zəncirləri qolumuzdan qıracaqdır nərəsiylə!
Azərbaycan ölkəsini tanıdacaq kürəmizə
öz müqəddəs haqq səsiylə!..

22.11.1990

KÖÇDÜ HAQQ DÜNYASINA ŞEİRMİZİN BƏXTİYARI

Haqq dünyasına qovuşmuş ustad şairimiz Bəxtiyar Vahabzadəyə

Ey Vətən aşiqi-nur, türk dilə sevda eləyən,
Ey sevib millətini eşqini qida eləyən,
Ey ana südü təki könlünə nida eləyən,
Ey ölüm xəbəriylə bizə əlvida eləyən,
Getdi əldən Vətənin canı-dili-ixtiyarı,
Köçdü haqq dünyasına şeirmizin Bəxtiyarı.

Bu ağır itgiyə heç gözdəki yaş bəs eləməz,
Bəbəyim dəryaya dönsə, bunu əbəs eləməz,
Təbi yoxsa sinənin, ustada həvəs eləməz,
Onun söz aləminin etdiyin hər kəs eləməz,

Getdi əldən Vətənin cani-dili-ixtiyarı,
Köçdü haqq dünyasına şeirmizin Bəxtiyarı.

Oxuyub kitabını sözləriylə huş etdik,
Dadaraq misrasını könlümüzə nuş etdik,
Oxşadı qəlbimizi ömrü boyu cuş etdik,
Bu böyük sənətkara hər cürə alqış etdik,
Getdi əldən Vətənin cani-dili-ixtiyarı,
Köçdü haqq dünyasına şeirmizin Bəxtiyarı.

Aparır qəbr evinə bir düşünən başı diyar,
İtirib öz dilinə, yurduna sirdaşı diyar,
Qoyacaqdı məzara böyük Vətəndaşı diyar,
Ağladır qəmi-ələm torpağı, dağ, daşı, diyar,
Getdi əldən Vətənin cani-dili-ixtiyarı,
Köçdü haqq dünyasına şeirmizin Bəxtiyarı.

Çox yazarlar gələcək, tərk edəcək dünyanı,
Bir belə şöhrəti də tutmayacaq hər yanı,
Sözü cəfəng olanın həqqi sevər xulyanı,
Salmadı kitabına, varağına riyanı!..
Getdi əldən Vətənin cani-dili-ixtiyarı,
Köçdü haqq dünyasına şeirmizin Bəxtiyarı.

Neçə il əhd elədim yetmədi ustadə dilim,
Daha gecdi yetişib getməyə o dadə, dilim,
Tutub hər beytimə yas ağlayır fəryada, dilim,
Necə gəlsin qələmim etdiyi imdadə, dilim?!
Getdi əldən Vətənin cani-dili-ixtiyarı,
Köçdü haqq dünyasına şeirmizin Bəxtiyarı.

Qələm əhli olanın könlü gedir aha sarı,
Gecə-gündüz ürəyi üz tutur Allaha sarı,
Aparır misraların sözünü sabaha sarı,
Kimi səvaba gedir, kimi də günaha sarı…
Getdi əldən Vətənin cani-dili-ixtiyarı,
Köçdü haqq dünyasına şeirmizin Bəxtiyarı.

Şadiman bu ölümə ah ilə büryanə gəlib,
Yığışıb əhli-diyar dərdə yanə-yanə gəlib,
Bu ağır itgiyə el hüzünlə həyanə gəlib,
Döyüb qapını ölüm Əzrayıl həyanə gəlib?
Getdi əldən Vətənin cani-dili-ixtiyarı,
Köçdü haqq dünyasına şeirmizin Bəxtiyarı.

13.02.2009

ÇƏKDİ YAZIQ MİLLƏTİNİN AĞRISIN

Böyük Vətəndaş
Mirzə Ələkbər Sabirə

Çəkdi yazıq millətinin ağrısın,
Haqqına şam etdi sözün doğrusun,
Cəhd elədi dərdü-qəmə bağırsın,
Tapmadı ahına qanan çağırsın,
Qəlbi gördü yaraları Sabirin.
Sözü gəzdi haraları Sabirin?

Etdi ağıl cövhərinə cəfanı,
Ürəyindən əksiltmədi vəfanı,
Yazdığına gözləmədi səfanı,
Bulmadılar ciyərinə şəfanı,
Uddu bəxti qaraları Sabirin,
Sözü gəzdi haraları Sabirin?

Qələmini kağıza yar eylədi,
Şeirləri aləmə car eylədi,
Haqqı yaman nahaqqı kar eylədi,
Beyitləri hər misra bar eylədi,
Dərdi üzdü çaraları Sabirin,
Sözü gəzdi haraları Sabirin?

Ölkəsinin qəflətinə ağladı,
Sağalmayan illətinə ağladı,
Ac-yalavac millətinə ağladı,
Ömrü boyu zillətinə ağladı,
Artdı şeir sıraları Sabirin,
Sözü gəzdi haraları Sabirin?

Dərdi bişdi sabun ilə tiyanda,
Haqq nazilir, üzülməyir hər yanda,
Baş ağrıyır hər bəlanı duyanda,
Bu minvalla təmizliyə uyanda,
Təbi pozdu araları Sabirin,
Sözü gəzdi haraları Sabirin?

Xalqa yanan misrasını dil etdi,
Beyti hikmət bağçasına gül etdi,
Qanmayanlar gözlərinə tül etdi!
Nadan əhli külliyatın kül etdi,
Ahı qarsdı qoraları Sabirin,
Sözü gəzdi haraları Sabirin?

Kim deyər ki, «Hophopnamə» yuxlayıb?
Fəryad ilə naqisləri oxlayıb,
Ürəklərdə hörmətini saxlayıb,
Ey Şadiman, misrasını qoxlayıb,
Bükər könül xaraları Sabirin,
Sözü gəzdi haraları Sabirin?

06.06.2009

BÖYÜK ƏMƏLLƏRİN YAŞAR ELLƏRDƏ

Məşhur xeyriyyəçi Bakı milyonçusu Zeynalabdin Tağıyevin ruhuna…

Böyük əməllərin yaşar ellərdə,
Adın nəsil-nəsil gəzər dillərdə,
Sən xalqın, millətin dayağı oldun,
Bu ana Vətənin mayağı oldun.
Yurduna sərf etdin varı, sərvəti,
Künclərə dürtmədin pulu, dövləti.
Atalıq eylədin imkansızlara,
Fəqir-füqəraya çox kamsızlara.
Çəkdin şollar suyun Bakıya bir vaxt,
Su deyən dilləri eylədin xoşbaxt
O qız gimnazyanın adı ucaldı,
Mövhumat üstündə qələbə çaldı.
Teatr, dəyirman, fabrika açdın,
Millətin qəlbində günəştək saçdın.
İlahi tökdükcə başına pulu,
Sən onun əyilib olmadın qulu…!
Millət atasıtək tanındı adın,
Ucuz təriflərə əsir olmadın.
Şimaldan cənuba gəzdi sorağın,
Yandı məmləkətdə qeyrət çırağın.
Tikdiyin binalar Bakının gözü,
Hər biri tarixdi bunların özü.

***

Ey Vətən aşiqi, millət dayağı,
Varmı xeyriyyəçi səninsayağı?
Sərf etsin varını, pulunu elə,
Həkk olsun əbədi ağıza, dilə.
Sən ellər atası, ellər sevinci,
Millətin içində parlayan inci.
Pulunla, varınla öyünmədin heç,
Yabançı hisslərlə döyünmədin heç.
Vətənə xidmətdə oldun əbədi,
Qurdun könüllərdə sevda mə'bədi.

***

İmperya çökəndə istiqlal gəldi,
Bayraqlı ulduzlu pak hilal gəldi,
Fəqət bu səadət çəkmədi uzun,
Keçdi caynağına ölkə quduzun…
Vətənin üstünü aldı fəlakət,
Bir gün yasa batdı ana məmləkət.
Torpaq da, diyar da çox qanlar içdi…
Qırmızı terrorun əlinə keçdi.
Varını taladı gədə-güdələr,
Elə çalışdılar zülüm edələr.
Mərdəkanda bağa sığındın o vaxt,
Qaldın cəlladların əlində bivaxt.
Canına toxunub dəyməsələr də,
Üzdə mənliyini əyməsələr də,
Könlünün sutunu uçdu töküldü,
Bütün diləklərin içdən töküldü.
Sən atıb getmədin yurdu, Vətəni,
Qucdu ana torpaq müqəddəs təni.
Məzarın Mərdəkan elində yatır,
İşığın günəşin özünə çatır.
Bir el atasıtək dillərdə qaldın,
Tarixin özünə sən zəfər çaldın.

03.11.2004

AH, YAZIQ MƏMLƏKƏT, AH, YAZIQ VƏTƏN…

Ah yazıq məmləkət, ah yazıq Vətən,
Könlümün içində eşq ilə bitən,
Adın rüşvətlə talanıb gedir,
Ürəyin ağrıyla bulanıb gedir.
Əzabdan o yana yolun yoxmu heç?!
Varsa müsibətdən bir qurtulub keç.
Dilin haqq arayır cəllad əlində,
Gözlərin boğulur kədər selində.
Rüşvət sevgisiylə çırpınır başlar,
Göydən başımıza tökülür daşlar.
Hər gün aldadan kim, hər gün alan kim?
Kim-kimə oğrudur, kim-kimə məhkum?
Qanuna zülm edən yalançı hakim,
Qanun can verərkən olarmı həkim?
Bizim ağlımıza kim deyəcək can?
Bizim içimizdə şahdı həyacan!
İşimiz rüşvətsiz keçmir heç yerdə,
Yaxşı vərdiş etdin, ey Vətən, dərdə.
Rüşvət beynimizin həyat qurşağı,

Rüşvətlə oxşanır bağça uşağı!
Məktəbdə rüşvətlə bilik alırlar,
Rüşvətlə elimli adam olurlar.
Ali məktəb pulla açır qoynunu,
Rüşvətlə fırladır iblis oynunu!
Rüşvətin quludur bütün məmləkət,
Vətən, bundan böyük yoxdu fəlakət!
Beyini rüşvətə qul olan millət,
Kimsədən diləyə bilməz ədalət.
Biz haqqı rüşvətlə əsir etmişik,
Bütün zehnimizi yesir etmişik.
Rüşvətlə maşınlar, evlər alınır,
Rüşvətlə saraylar, mülklər salınır.
Rüşvətə əyilir ağlımız hər gün,
Rüşvət almayana deyirlər miskin.
Vəzifə kürsüsü ona yad olur,
Hər gün təmizliyi bir fəryad olur.
Rüşvətin dəlisi olan millətin,
Tanrı azaltmayıb heç vaxt zillətin.
Əsir torpağımız yağı əlində,
Ölünün, dirinin ağı dilində,
Pulla düzəldirik hər işimizi,
Rüşvətə qul etdik vərdişimizi!
Sonra da yapışıb mikrafonlara,
Tele-radioyla girdik donlara,
Ekrana rəng verib düşdük anlara…

***

Ziyalı deyərək sinə yırtırıq,
Kütlənin gözünə hey kül atırıq.
Kütləsə fəxr edir bizlə hər zaman,
Bizə səcdə edib, gətirir iman.
Ey şair, ey alim, ey boyalı baş!!!
Vətənin gözündən seltək axır yaş!
Bu yaşlar içində boğulur millət,
Bütün yer üzünə dağılır millət!…

***

Dünyaya göz açır rüşvətlə körpə,
Rüşvət yatmır daha heç sapa-ipə.
Ölüyə, diriyə rüşvətdi əlac,
Ölkə başdan-başa rüşvətə möhtac.
Rüşvət verməyənə iş yox, peşə yox,
Rüşvət verənəsə bir əndişə yox.
İblisə, şeytana qul olub qaldıq,
Özmüzü iblisin gününə saldıq.
Ürəyin içində bu dərdlər bitən,
Çarə yox nə sənə, nə mənə Vətən…

11.04.2007

HEÇ OLMADI BİR XOŞ GÜNÜMÜZ

Heç olmadı bir xoş günümüz, ay bahalanma,
Aldı başımız üstünü ah-vay, bahalanma.

Çoxları tökür başına şabaş təki pulu,
Bir bilməyirlər nədir o say, bahalanma.

Qəpik-quruşa meylimizi etmişik pənah,
Gözdə yaşımız olmadadı çay, bahalanma.

Bizlər də axı bu Vətənin övladı olduq,
Harayımıza kimsə demir hay, bahalanma.

Yaşayış pulu, işıq pulu, qaz pulu artar,
Başımızı bir dürtməyə yox tay, bahalanma.

Dediklərimə inamını etmirsən rəva,
Onda dur özün dərdimizi say, bahalanma.

Heç andıra qalmış nöyütdən görmədik səfa,
İçlərdəki ahlarımızı yay, bahalanma.

Üzdə gülüşə olmayacaqdır daha hacət,
Dolaşıq olub bizlərə gün-ay, bahalanma.

Vətən əhli dükan-bazarı eyləyir seyir,
Borclar da edib günümüzü zay, bahalanma

İndi daha səhər bizə lazım deyil əsla,
Deyək bütün yatmışlara lay-lay, bahalanma.

Bu Şadimanın dilinə dinc durmağı dedim,
Töhmətləri etdi mənə çox pay, bahalanma.

17.12.2013

ŞƏHİDİN QANI

Torpaqdan lalətək cücərib çıxır,
Cənnətə bəzəkdir şəhidin qanı.
Ruhu kainatın köksündən baxır,
Döyünən ürəkdir şəhidin qanı.

Bu yurdun sinəsi çox paralandı,
Bağrı min bir yerdən hey yaralandı,
Düşüb nahaq şərə çox qaralandı,
Göyündə küləkdir şəhidin qanı.

Şahidlər torpağım deyib, bağırdı,
Tarixi zülümün evnə çağırdı,
Göydən də, yerdən də güllə yağırdı,
Sınmış bir diləkdir şəhidin qanı.

Güllə yağışları həddən ziyada,
Gözlərdən yox oldu işıq, ziya da,
Ahlar parçalandı daşda, qayada,
Usanmış mələkdir şəhidin qanı.

Şadiman, boş yerə dünya döyüşdü,
Köksü paralandı, torpağa düşdü,
Haqq neçə yol enib, ayağa düşdü,
Min illər hələkdir şəhidin qanı!

24.07.1990

YARADIR İNSAN

Həyatı yaşadır, yaradır insan,
Böyük arzularla boy atır hər an.
Pillə-pillə qalxır ucalır asan,
Həyatdan zövq alır ötdükcə zaman.

İnsanı yaşadır illərdən bəri,
Alçaldır, ucaldır qəribə həyat.
Bu dünya evinin gözəllikləri,
Ürəyinin ömrünü uzadır heyhat.

Bir-birindən gözəl vüqarlı illər,
İnsanın ömrünə ömür calayır.
Şövqlə bir-birini ötən fəsillər,
Duyan könüllərə sevinc qalayır.

Ey odlar diyarı, Azərbaycanım,
De, hansı bir ürək zövq almaz səndən?!
Sənin gözəlliyin, ey mənim canım,
Qəlbləri ruh verir, eh günü-gündən.

12.01.1974

NECƏ YAŞAYIRIQ BİZ

Gülləboran olunduq, yenə ocağımızda,
Dərdi daşıyırıq biz.
Bəslədik iblisləri isti qucağımızda,
Necə yaşayırıq biz?

Vətən ahlar içində, fəryada gələni yox,
Qırılıb-çatılırıq, ölümüz var yerdə çox,
Ürəyimiz partlayır, nə dözürük dərdə çox?
Necə yaşayırıq biz?

Kölə babalar bizə, kölə Vətən saxlayıb,
Hər əsrdə min dəfə, ölüb-itən saxlayıb,
«Böyük qardaş» qəzəbli, yalançı eşq laxlayıb,
Necə yaşayırıq biz?

Düşmənin tanımayan, başa yaman kül olur,
Ağlayan ürək üçün, haray salan dil olur,
Millət tökülür çölə, dünyada səfil olur,
Necə yaşayırıq biz?

Azərbaycan, kimdədir sənin torpağın,daşın?!
Niyə dərddən qurtulmır, dincəlməyir heç başın?
Səni qorumaq üçün, nə etdi Vətəndaşın?!
Necə yaşayırıq biz?

Hanı Borçalı, Dərbənd, İrəvan, Göyçə hanı?
Nədən qorumuşuq bəs, tən içində bu canı?
Bürüyüb vücudumu bir illət həyəcanı,
Necə yaşayırıq biz?

İndi də Qarabağa göz dikib qansız yağı,
Dağılır kənd, qəsəbə, sönür yurdun çırağı,
Çatdırın məzarlarda yatanlara sorağı,
Necə yaşayırıq biz?

Təbriz, qaldır başını, bax o taydan, bu taya,
Bax Vətənin qəlbindən dikələn ahu-vaya,
Uçub töküləydi kaş başımıza daş-qaya!
Necə yaşayırıq biz?

Biz nəyin fəxrindəyik, ey dilibir yurddaşlar,
Axı necə sinədən dikəlib qalxır başlar?
Axıdırıq kişili, qadınlı acı yaşlar!!!
Necə yaşayırıq biz?

Kölelik eşqiylə çox, a yanıb yaxılanlar,
Ey rusun ayağına qul təki yıxılanlar,
Bəsdir, sizi qorxutdu ayı donlu xoxanlar,
Necə yaşayırıq biz?

Hanı atlar üstündə qılınc çalan dədələr?
Qalxıb qəbirlərindən bağırımızı didələr,
Hanı başı papaqlı, hanı Vətəndidələr?
Necə yaşayırıq biz?

Şadimanı dilindən durun çəkin çarmıxa,
Ya mən doğulmayaydım, ya ruhum çıxsın yoxa,
İşğala dözmək olmur, axı göz baxa-baxa,
Necə yaşayırıq biz?
Necə yaşayırıq biz?

17.03.1990

ƏSLİ-SOYU TAMAM DANAN

Əsli-soyu tamam danan,
Hardan gəlib, hara getdi?
Doğmaya yox, yada yanan,
Harda idi, hara yetdi?

Bədən cana xain çıxmaz,
Yaramaza kimsə baxmaz,
Şər əlindən heç buraxmaz,
Bülbül susdu, qarğa ötdü.

Qırantlarla bəslənənlər,
Bu eşq ilə süslənənlər,
Düşmənlə bir səslənənlər,
Könlə gələn sözdə bitdi.

Atı minib, tərsə çapan,
Öz xalqına çirkab atan,
Bilinməyir anan, atan,
Bilinirsə nə xislətdi?

Şər yağıdı, bəlli üzü,
Fitnə-fəsad hər bir sözü,
Baş açmaq da olmur düzü,
Kök birsə nə xəyanətdi?

Şadimanı çək çarmıxa,
Fitvalara verməm yaxa,
Xalqın gözü baxa-baxa,
Düşmənə nə ibadətdi?

14.02.2013

ÖZÜMÜ AXTARIRAM

ÖZÜMÜ AXTARIRAM

Ömür əlimdə darı,
Günlərimi arıram,
Bala gül yığan arı…
Özümü axtarıram.

Ötən günlərə varıb,
Qəlbi zamana sarıb,
Qəmin sinəsin yarıb,
Özümü axtarıram.

Bəşərin damı uca,
Hər dama da bir baca,
Özümdən qaça-qaça,
Özümü axtarıram.

Həyat sobası isti,
Ömür bacası tüstü,
Alıbdı möhnət üstü,
Özümü axtarıram.

Ağıl cana təsəlli,
Can yiyəsinə bəlli,
Tutub vaxtdan minəlli,
Özümü axtarıram.

Diləklərim havada,
Ürəyimlə davada,
Dilim haqqa duada,
Özümü axtarıram.

Şadiman doğulandan,
Ələmlə yoğrulandan,
Can qəmdə boğulandan,
Özümü axtarıram…
Özümü axtarıram…

22.11.1998

ULU TANRIM, NARAHATAM

Min bəlalı sabahlarçın,
Necə deyim mən rahatam?
Dünya tutmaz günahlarçın
Ulu Tanrım, narahatam.

El içində elsiz olmuş,
Öz yurdunda dilsiz olmuş,
Cahan nahaq qanla dolmuş,
Ulu Tanrım, narahatam.

Nə qədər ki, haqq qəfəsdə,
Fitnə-fəsad min həvəsdə,
Yağlamaq hər nəfəsdə,
Ulu Tanrım, narahatam.

Nə qədər ki, yalan gülür,
Vaxt-vədəsiz bel bükülür,
Əcəlsiz də İNSAN ölür…
Ulu Tanrım, narahatam.

Cılızlaşan qeyrətlərçin,
Asiləşən millətlərçin,
Dağıdılan nemətlərçin,
Ulu Tanrım, narahatam.

Söndürülmüş ocaqlar var,
Fənd yuvası qucaqlar var,
Qan tökülmüş bucaqlar var,
Ulu Tanrım, narahatam.

Çəkilməyən dərdlərimiz,
Namərdləşən mərdlərimiz,
Keçilməyən sədlərimiz,
Ulu Tanrım, narahatam.

Tale mənə bıçaq düşüb,
Dərdi saçaq-saçaq düşüb,
Vicdan başdan qaçaq düşüb…
Ulu Tanrım, narahatam.

8-14.03.1990

GƏL TƏLƏSMƏ AĞARMAĞA, SAÇLARIM

Qocalığı duyuq salma, amandır,
Qoyma telə qarı yağa, saçlarım.
Vaxtsız düşən payız, qış da yamandır,
Gəl tələsmə ağarmağa, saçlarım.

Bu dünyanın kədəri bol, qəmi bol,
Min havada yaxşı, yaman dəmi bol,
Qəlb dolanda gözlərimin nəmi bol,
Gəl tələsmə ağarmağa, saçlarım.

Mərdlik də var, namərdlik də dünyada,
Düyünlərdən baş çıxarmır dünya da,
Ekiz olub şadlıq, kədər, xülya da,
Gəl tələsmə ağarmağa, saçlarım.

Dünya böyük düşünən çox, duyan az,
Yaman olur «mənəm », deyəndə dayaz,
Qarlı qışdan sonra gəlir bahar-yaz,
Gəl tələsmə ağarmağa, saçlarım.

Baş ağrıyır addım düz olmayanda,
Payız nədir yarpaqlar solmayanda?
Namərdlərdə vicdan, ar qalmayanda,
Gəl tələsmə ağarmağa, saçlarım.

Məhəbbətdən, sədaqətdən danışdıq,
Ucalıqçın zirvələrlə yarışdıq,
Çətin anda əğyarla da barışdıq,
Gəl tələsmə ağarmağa, saçlarım.

Biz bir olsaq dünya sevinclə gülər,
Kürəmizə nəşə, şadlıq tökülər,
Bünövrəsiz daş binadan sökülər,
Gəl tələsmə ağarmağa, saçlarım.

Qaçhaqaçda, qovhaqovda bu zaman,
Dünən gəldi, bu gün getdi il, aman!
Şirin Xanım inci tapar dəryadan…
Gəl tələsmə ağarmağa, saçlarım.

14.11.1987

ÜRƏK, NİYƏ AĞRIYIRSAN?

Nə dolmusan qəmlər ilə,
Köksün için dağlayırsan.
Dərdi-səri bilə-bilə,
Ürək, niyə ağrıyırsan?

Toysuz, vaysız bir günmü var?
Bir açılan düyünmü var?
Yorulmayan beyinmi var?
Ürək, niyə ağrıyırsan?

Sözə sadiq çıxan da var,
Nahaqdan ev yıxan da var,
Xain gözlə baxan da var,
Ürək, niyə ağrıyırsan?

Gülmək də var, ağlamaq da,
Dərddən qubar bağlamaq da,
Bəzən coşub-çağlamaq da,
Ürək, niyə ağrıyırsan?

Yaxşı sözün yaman olar,
Ömründə çən-duman olar,
Səadətin güman olar,
Ürək, niyə ağrıyırsan?

İş hər gün düz gətirərmi?
Namərd haqqı yetirərmi?
Mərd mərdliyin bitirərmi?
Ürək, niyə ağrıyırsan?

Çox deyərlər qara ağa,
Çox dözərlər min bir dağa,
Qəlbə leysan yağa-yağa,
Ürək, niyə ağrıyırsan?

Vaxt olar ki, tale gülər,
Sevinc açar, qəm bükülər,
Göydən yerə nur tökülər,
Ürək, niyə ağrıyırsan?

Şadimandan ibrət elə,
Onun dərdi gəlməz dilə,
Sən bunları bilə-bilə
Ürək, niyə ağrıyırsan?

30.07.1985

ADIN GƏZƏR BU ELLƏRDƏ, RÜBABƏ

Mərhum şərqi ustası Rübabə xanım Muradovaya

Bu nə atəş, bu nə yanğı, bu nə od,
Bu nə niskil, bu nə nalə, bu nə dad,
Od qaladı bağrıma o ah, fəryad,
Səsindəki o inilti, Rübabə,
Qəlbə doldu bir gizilti, Rübabə.

Zəngulədən könlümə od hopubdu,
Hər şərqindən min yol qəlbim qopubdu,
İlham atım əngin göydə çapıbdı,
Acıları vurmub üzə, Rübabə,
Güc gəlibdi yanan sözə, Rübabə.

Gecələrin Araz keçən uyğular,
Gündüzlərin haqsızlıqlar, qayğılar,
Zəncirlənmiş, sərhədlənmiş duyğular,
Ürəyində tonqal çatdı, Rübabə,
Sənətini dərd yaratdı, Rübabə.

Allah verdi sənə ilahi səsi,
O bənzərsiz, o qənirsiz nəfəsi,
Çoxdan söküb o tikanlı qəfəsi,
O Koroğlu zəngulələr, Rübabə,
Min il keçsə qəm güllələr, Rübabə.

Şərqin böyük ulduzusan el bilir,
Hər ağrını dəli mizrab, tel bilir,
Təbrizinə yetmiş səsi yel bilir…
Əcəl qondu qəfil cana, Rübabə,
Ruhun uçdu Savalana, Rübabə.

Heydər baba qara örtdü başına,
Ağ buludlar güc gəldi göz yaşına,
Duman çökdü Ərdəbil dam-daşına,
Araza da qan ələndi, Rübabə,
Musiqimiz güllələndi, Rübabə.

Bəxtiyarıq, yazarımız yazardı,
Öz əliylə öz qəbrini qazardı,
Sənin şərqin «şad ölkədə» azardı…
Uçardı hey Araz üstə, Rübabə,
Ürək xəstə, könül xəstə, Rübabə.

Parçalanmış yurd ağlatdı Allahı,
Ayrılıqdan ölənlərin günahı,

Qəm örtüklü gecələrin sabahı,
Tilsimləndi boğazında, Rübabə,
Zili ötdü avazında, Rübabə.

Vətən qızı, ruhun könlün mehmanı,
İsmarladın haqq səsinə sən canı,
Nəğmən coşan damarımın al qanı,
Şərqin ulu səs anası, Rübabə,
Muğamatın haqq sonası, Rübabə.

Şirin Xanım, elin sözü yaqutdu,
Füzuliylə Rübabəni bir tutdu,
Ruhun cənnət, cismin qəbrə tabutdu,
Yaşayarsan min illərdə, Rübabə,
Adın gəzər bu ellərdə, Rübabə.

13.09.1992

ARZULAR

Vuran ürəklərin qəlb məsləkdaşı,
İnsanı güldürür hər qədəm başı,
Baxmayır müdrikdir, ya da ki naşı,
Hər duyan ürəyə sirdaş arzular,
İnsan taleyinə qardaş arzular.

Bircə dəqiqədə könlü şad edən,
Qorxağın, namərdin bağrını didən,
Bir anda köməksiz qəlbi isidən,
Ömrün hər gününə mayak arzular,
Canlı kainata dayaq arzular.

Qoymaz ki, naümid heç bir nəfəri,
Qəlblərin ilk kəşfi, böyük səfəri,
Açılan sabahın yeni zəfəri,
İnsan taleyinin özü arzular,
Hər bir qələbənin gözü arzular.

O qurub yaradan nəcib əllərin,
Qəlblərə ruh verən tuti dillərin,
Yaş üstünə gələn saysız illərin,
Ürəyi, nəfəsi, canı arzular,
Vuran nəbzlərin qanı arzular.

Körpəyə, cavana, qocaya həmdəm,
Könüllərin dostu, arxası hər dəm,
Dərdli ürəklərdə qoymaz bircə qəm,
Dərmansız dərdlərə şəfa arzular,
Saf düzlük, etibar, vəfa arzular.

İlk anda, ilk sözə sadiq qalana,
O ilk məhəbbətdən doğan yalana,
Ürəyi ömürlük dərdə salana
Ən böyük məsləhət, dirək arzular,
Ürəyi xəstəyə ürək arzular.

İllərlə yataqda xəstə olana,
Varlığı qüssəylə, dərdlə dolana,
Sevinclə, şadlıqla şərik hər ana,
Ən ülvü, ən yeni həyat arzular,
Tükənməz xoşbəxtlik, büsat arzular.

Altun əməllərin qəlbə ələnir,
Sayəndə ürəklər eşqə bələnir,
Əlindən qüssələr çöldə dilənir,
Daim gülümsərdir bəniz arzular,
Coşğun, tələtümlü dəniz arzular.

Ürəkdə qələbən sonsuz bəslənir,
Ölməz sinfonyadır nəş‘ən səslənir,
Duyğular üstünə duyğular enir,
Parlaq müjdələri pak iz arzular,
Şadlıqla, sevinclə əkiz arzular.

Sənin böyüklüyün dəniz qədərdir,
Bəzən sonu şadlıq, bəzən kədərdir,
Bəzən müqəddəsdir, bəzən hədərdir,
Ay sirli, söhbətli, sözlü arzular,
Ay odlu, alovlu, közlü arzular.

Həqiqət, xəyanət olmuş ocağın,
Gah düzlük, gah pislik sənin bucağın.
Ya ölüm, ya həyat sirli qucağın...
Tarixə şan-şöhrət, şərəf arzular,
Ay pak vicdanlara əşrəf arzular.

Bəzən tikir ellər, obalar salır,
Bəzən də zamanı geriyə salır,
Bəzən nota dönüb şadlıqlar çalır,
Gah qəmli, qüssəli ağlar arzular,
Gah çılğın gurlayar, çağlar arzular.

O əqil, düşüncə yolun dananda,
Büdrəyib özünü şərə yananda,
Gözüylə, arayıb, kömək ananda,
Hamıya dar gündə təbib arzular,
Tənha könüllərə həbib arzular.

Fəqət, insan adlı bir cəmiyyətin,
Daim ömür edən bəşəriyyətin,
Ürəklərə keçən əbədiyyətin,
Susmaz nəğməsidir bil ki, arzular,
Bunu deyə bilmir dil ki, arzular.

Torpaq üstə gəzən canlı xilqətin,
Sel kimi gurlayan pak həqiqətin,
Min illər çağlayan qalibiyyətin,
Duyğusu, amalı, özü arzular,
Aqil şüurların sözü, arzular.

Çılğın düşüncələr sirlər ümmanı,
Şirin xəyalların röya dumanı,
Sanki quş qanadlı əsrin zamanı,
Əzəl ixtiyarı, kamı arzular,
Ey könül ləzəti, tamı arzular.

İnan tükənməyən bir ülviyyətin,
Ən ali, ən sonsuz səmimiyyətin,
Hər şeylə ölçülən saf kəmiyyətin,
Dövləti arzular, varı arzular,
Duyan ürəklərin yarı arzular.

Gah qəzəbə, gah da bir kinə dönür,
Ya od-atəş olur, ya da ki, sönür,
Hərdən namərdliklə, mərdliklə dinir,
Bəzən əyriliyi quran arzular,
Lapdan xəzri, tufan, boran arzular...

Birdən keşməkeşli necə gedişi?
Qəlbə hakim olan şərdir hər işi,
Gahdan acı olur şirin gülüşü,
Bəzən etibarsız olur arzular.
Niyə barlı, barsız solur arzular?

Neylim kainata fitnən yamandır,
Gah aydın, gah çiskin, gah da dumandır,
Sirli əməlləri oxsuz kamandır,
Çəkir kainata keşik arzular...
Ay bütün cahana beşik arzular.

Haqsızlıq görəndə dərddən boğulan,
Düzlük beşiyində ey pak doğulan,
Ehtiras odunda hərdən yuğrulan,
Dəyənət, əzəmət seli arzular,
Cəsarət, mətanət eli arzular.

Hərdən şirin, şəkər, hərdənsə acı,
Aqil şan-şöhrətin başların tacı,
Şücaət, şəfaqət əqlin turacı,
Könlü bülbül təki açan arzular,
Qartaltək zirvəyə qaçan arzular.

Beyinin, şüurun, zehnin aynası,
Azad duyğuların nazlı sonası,
Əzəl insanlığın dahi anası,
Hərdən mərhəmətə dönən arzular,
Sonu çatan şamtək sönən arzular.

Bu günün, sabahın təmiz əməli,
Yaşamaq eşqiylə yaradan əli,
Xoşbəxt gələcəyin azad təməli,
Milyon könüllərə səda arzular,
Məğrur xoşbəxtliyə ada arzular.

İnsan, kainata şaqraq gəlişin,
Dodaq təbəssümün, incə gülüşün,
Bu fani dünyada hey yüksəlişin,
O çağlar könlünə həyan arzular,
O sərban ömürə əyan arzular.

21.03.1978

TƏNHA QADIN

Sənin bir halına yananın yoxmu?
Ömrünü, gününü ananın yoxmu?
Bu fəna bəxtini qananın yoxmu?
Alnına talesiz yazılıb adın,
Ay gözükölgəli, ay tənha qadın.

Səndən İlahi də çeviribmi üz?
Olurmu fələyin yolları heç düz?
Bu acı məlalın gəl bağrını üz
Göyün nəfəsini kəsib fəryadın,
Ay gözükölgəli, ay tənha qadın.

Niyə bu dynyaya gəlmisən nalan?
Ömür ötür keçir büsbütün talan,
Könlün qan ağlayır, gülüşün yalan...
Duya bildinmi heç həyatın dadın?
Ay gözükölgəli, ay tənha qadın.

Sənin addımına hey göz qoyarlar,
Qəlbinə dəyərlər, könlü oyarlar,

O qara bəxtini nə vaxt duyarlar?
Yetməyir heç kəsə niyə imdadın?
Ay gözükölgəli, ay tənha qadın.

Axır göz yaşları niyə içinə?
Ömrün bu tək evdə necə keçinə?
Qəlb cavab axtarır niyə, neyçinə?
Qapını açırmı yaxının, yadın?
Ay gözükölgəli, ay tənha qadın.

Gecələr sinəndən ahın yüksələr,
Evin divarları üstünə gələr,
Ürəyin hər səsə, hər ünə mələr!
Soyuq bir təsəllin varsa övladın...
Ay gözükölgəli, ay tənha qadın.

Qorxarsan işığı keçirəsən bir,
Eşqin, sevgin, hissin gecənə qəsir,
Xəyalın çin olmaz vüsala əsir,
Bayquşlar bəzəyər yurdun bərbadın,
Ay gözükölgəli, ay tənha qadın.

Şənə hansı qara ləkə yaxılmaz?
Üzünə bir təmiz eşqlə baxılmaz,
Bəxtin bağlı yolu niyə yıxılmaz?
Boğar göz yaşların göyün gurşadın,
Ay gözükölgəli, ay tənha qadın.

Köçüb yar-yoldaşın xəyalınamı?
Əllərin yetməyir vüsalınamı?
Bir yanan tapılıb de halınamı?
Qapında nə işi eviabadın?
Ay gözükölgəli, ay tənha qadın.

Fələk taleyinə niyə qəm yazıb?
Bəxtinmi gecikib, yollarmı azıb?
Acı dərdlərinə bir məzar qazıb
Dadasan dünyanın şadlığın, şadın,
Ay gözükölgəli, ay tənha qadın.

Şadiman gözündə görür qəm izi,
Ömrün tufanında solan bənizi,
Ayıq ol! Batırar həyat dənizi...
Yetənə yanmasın qoy könül odun,
Ay gözükölgəli, ay tənha qadın.
Ay gözükölgəli, ay tənha qadın.

14.08.2001.

MƏN İNSAN AXTARIRAM

Günü günorta çağı,
Tutub əldə çırağı,
Küçələrdən keçirəm,
Hər gözdən qəm içirəm,
Aləmi seyr edirəm,
Yorulmadan gedirəm.
Ağında, qarasında,
Kütlənin sırasında,
Gözüm gəzir ac təki,
Könlümə əlac təki,
İzdihamı yarıram,
Mən insan axtarıram.

***

Hərənin öz dünyası,
Çoxu canından ası,
Kiminin cibi boşdu,
Kiminin qəlbi daşdı.
Biri lap göydə gəzir,
Addımı yeri əzir,
Neçə könlü məkirli,
Ürəyi, qəlbi kirli,
Ötür keçir yanımdan,
Haray qopur canımdan...
Yolun salır qanımdan.
Baxıram bu üzlərə,
O davalı gözlərə,
Ürəyimi qəm alır,
Gözüm gözlərdə qalır,
Min bir məna arıram,
Mən insan axtarıram.

***

Əqidəsi puçları,
Sinəsində suçları,
Qovuram baxışımla,
Gözdən axan yaşımla!
Deyirəm, İlahi, kaş
Ağılı, idrakı daş,
Keçməyə heç yanımdan,
Bu ilham ünvanımdan.
Gözüm gəzir üzləri,
Ürəklərin düzləri,
Yoxuşundan az imiş,
Adəm nə dayaz imiş?
İçində iblis yağı,
Çox əməli bayağı,

Ötür keçir yel kimi,
Şeytan onun hakimi.
Küçə qaynar adamla,
Bu şəhər dolu damla,
Harasa tələsən var,
Taleyindən küsən var.
Baxır yanır ürəyim,
İmdada yet, fələyim!
İnsanlar yaxınında,
Bu adəm axınında
Ürəklərin pası bol,
Kədəri bol, yası bol,
Dilində duası bol...
Könlə ümid sarıram,
Mən insan axtarıram,
Mən insan axtarıram.

5.02.2000

DİL NAHAQ DANIŞANDA

Duyan insan boğular,
Zülm həddin aşanda.
Min-min fitnə doğular,
Dil nahaq danışanda.

Zamanın çərxi dönər,
Elin çırağı sönər,
Yerdə sürünər hünər,
Dil nahaq danışanda.

Dünya namərdlə dolar,
Tanrının gözü dolar,
Ömür yarımçıq solar,
Dil nahaq danışanda.

Çox yurdun odu keçər,
Günahsız candan keçər,
Dünyamızı qəm biçər
Dil nahaq danışanda.

Şirin Xanım, bezaram,
Həqiqəti gəzərəm,
Həyatımdan bezərəm,
Dil nahaq danışanda.

06.04.1990

KİM DEYƏR HANSI YAXŞI?

Göyün min bir ulduzu,
Yerin öz dadı, duzu,
Ayın nuru, sal buzu,
Bu İlahi baxışı,
Kim deyər hansı yaxşı?

Adəmin öz nəsili,
Hər nəsilin əsili,
Ömrə düşən fəsili,
Yaz-yayı, payız-qışı,
Kim deyər hansı yaxşı?

Səmanın neçə rəngi,
Şimşəklərin ahəngi,
Dolanda çalar «Cəngi»,
Buludunun yağışı,
Kim deyər hansı yaxşı?

Torpağa nemət bəşər,
İçində xeyr, ya şər,
Yer altında yerləşər…
Canına bəla başı,
Kim deyər hansı yaxşı?

Göy yeri tarazlayar,
Can cismdə nazlayar,
Əzrayıl da yazlayar,
Gələn-gedən də naşı,
Kim deyər hansı yaxşı?

İblis bəşər içində,
Gecə-gündüz biçində,
Ey Şadiman, hər dində-
Tanrının haqq baxıışı,
Kim deyər hansı yaxşı?

24.03.1998

***

Pislik günahdan gəlir,
Ağrılar ahdan gəlir,
Əcəl Allahdan gəlir,
Bunu bilən insanın,
Fələk qoruyar canın…

05. 03. 2004

ANA DÜNYASI

Ana, səmalarım havam, dənizim,
Ey mənim yaxınım, doğmam, əzizim!
Titrək dodağınla layla çalanım,
Hətta, yuxumda da könlü alanım.
Bətində olanda duydum səsini,
O isti, o yumşaq pak nəfəsini.
Dünyaya gətirdin məni bir səhər…
Gecələr yuxuna hey qatdın zəhər!
Yatmadın sübhədək beşik başında,
Əritdin ömrünü cavan yaşında.
Titrək addımlarla yeridim bir gün,
Bu sənə həyatda oldu toy-düyün.
Soyuqdan, sazaqdan xəstələnəndə,
Azacıq alınım istilənəndə,
Ana, gözlərinə doldu qəm yaşı,
Ağrıdı könlünün qüssədən başı.
Qopdu dodağından Tanrıya dua,
Sənə nuş olmadı çörək, su, hava.
Allahdan canıma sağlıq dilədin,
Elə bil könlümə sən nur ələdin!
Vaxt olub sözündən çıxaraq, ana,
Adicə bir zəhmət vermədim cana.
Ağlım kəsməyəndə incitdim səni,
Elə yana-yana böyütdün məni!..
Arada uşaqlıq oldu bahanə,
Sənin duyğuların necə şahanə?
Hər şey arzuladın körpə balana,
Səni zəhmətlərə hər gün salana.
Qəlbinə dəydiyim anlarımda mən,
Çöküb ürəyinə yəqin duman, çən.
Sən qurban vermisən umu-küsünü,
Buludtək bir anlıq o hirisini-
Doğma övladının şirinliyinə,
Getmədin hər sözün dərinliyinə.
Mən üz döndərəndə küsüb yeməkdən,
Dilin yorulmadı, bala, deməkdən.
Üzümdən, gözümdən öpdün min kərə,
Məni qucağından qoymadın yerə.
Oxşadın laylayla könlümü pəstdən,
Özünü günahkar göstərdin qəsdən.

***

Bir gün böyüyərək uçdum ocaqdan,
Ana, ayrı düşdüm o pak qucaqdan.
Həsrətlə yollara dikildi gözün,
Tutuldu buludtək qüssədən üzün.

Yandırdı içini bala həsrəti,
Budur, analığın saf təbiəti!
İndi o qapqara tellər ağarıb,
Qocalıq palanın çiyninə sarıb.
Fəqət, saxlamısan sonalığını,
İlahi, müqəddəs analığını!
Mən sənin nazını çəkməkdən belə,
Sən mənim nazımı çəkirsən elə.
Ana, bu sevgidən dolur gözlərim,
Titrəyir ağızda, dildə sözlərim.
Çəkdiyin xiffətin bağrını deşər,
Ürəyin başında balan yerləşər.
Üstünü kəssə də qocalıq çağın,
Balayçın alışar, yanar qucağın.
Ana, yerin, göyün nurlu mələyi,
Sənə Allah verib gözəl ürəyi!
Məni ucaltmısan səcdələrinlə,
O haqdan doğulan müjdələrinlə.
Nə qədər sağamsa, bir qulam sənə,
Çünki bu həyatı sən verdin mənə.
Məzarda olsa da bədənim əgər,
Ruhum hüzurunda hər an baş əgər.
Ana, qurban olum qocalığına,
Ey vücudu pakım ucalığına!
Ana, əzabkeşim, ey zəhmətkeşim,
Sənin ayağına səcdədir işim.
Mənə çıraq etdin baxışlarını,
Ömrünün rəngarəng naxışlarını-
Çəkdin taleyinin səhvələrinə,
Mürəkkəb həyatın lövhələrinə.
Yazıldı bəxtinin anları belə,
Bir müdriklik verdi ağaran telə.
Alıb başın üstün indi qocalıq,
Gözlərin arayır elə xoşqılıq.
Tez-tez xəstələnib üşüyür canın,
Buzlanır damarda o isti qanın.
Qanımı, canımı verərəm sənə,
Mən yatağa düşüm sənin yerinə!
Yasdığım yanında bir layla oxu,
Alsın gözlərimi şəfalı yuxu…
Qəlbə məlhəm eylə odlu nəfəsi,
Oxşasın ruhumu o ana səsi.
Yenə də bas məni isti bağrına,
Ana, qurban olum acı-ağrına.
Başım ayağına səcdəyə gələr,
Sənə fəda olub, bədənim ölər.
Ruhumsa dolaşar səmalarda hey,

Nə yorulmaq bilər, nə edər giley.
Sənin işığının fövqündə uçar,
Sənə qovuşmaqçın haqqa yol açar…
Hər zaman can atar sənin adına,
Sən də can deyərsən öz övladına.
Ana, ürəyimdə hər dərdi-sərim,
İzin ver, qəlbimi yoluna sərim.
Dodağından qopan təsəlliləri,
Ana, o mübarək, titrək əlləri,
Qoy könlüm başına, ey səcdəgahım,
Həm Kəbəm, Nəcəfim, həm Gibləgəhım!
Göydə Tanrım, yerdə sənsən Allahım!
Başım ayağına səcdəyə gələr…
Sənə fəda olub Şadiman ölər!..

04.10.1998

NƏ SƏN BİLDİN, NƏ MƏN

Bacım Mirvariyə

Vaxtsız ağarmış saçların
içimdən ağ cığırlar saldı.
Ó yaş dolu gözlərinin atəşi
əbədi gözlərimdə qaldı.
Tufan nə vaxt başımızın
üstünü aldı?
Gənclik də, hərarət də,
səadət də getdi əldən,
Nə sən bildin, nə mən.

***

O pənbə dodaqlarının atəşi
söndü yad nəfəsdə.
Bəxtin, taleyin, sevincin
qaldı əbədilik qəfəsdə.
Bir zaman ömrünü bağladığın
nakəs ayrı həvəsdə,
Acılı illərin dən-dən,
Nə sən bildin, nə mən.

***

Gözündə dondu səadətin yazı,
İçini, bənizini, həyatını puç etdi bu yazı.
Sındı əbədilik vüsal sazı,
Çökdü taleyinə sis, duman, çən,
Nə sən bildin, nə mən.

***

Gözündə kölgələndi buludlar,
Bir nankor əlində hər anın, saatın buludlar.

Tufanlara dözmüş ümidlərin palıdlar,
Gözü yaşlı çocuqların ətəyindən tutar,
Özlərini o imisti qucağına atar,
Ağrılı səadətinlə qucaqlaşıb yatar.
Ümidsizlik içində arzular düşdü dildən,
Ağır gəldi il-ildən,
Nə sən bildin, nə mən.

***

Şadimanın ağrılı yollarının mərd bacısı,
Nə çox imiş taleyimizin acısı,
Ömrümüz də, illərimiz də, dillərimiz də ası.
Halını soruşanda «yaxşıyam»
kəlməsi axdı dilindən,
Bağırın para-para, dən-dən,
Nə sən bildin, nə mən.

18.11.1991

BACIM

Bacım Xaniməyə

Çətin günlərimin anası bacım…
Sən yaşca məndən kiçiksən,
acı taleyimin sorağı oldun,
Zülmətində yıxılıb durduğum
qara bəxtimin çırağı oldun.
Bu tənha könlümə ümid beşiyi.
Amandır, əksiltmə üstümdən qayğıkeşliyi!
Ümidsiz günlərimin möhnətində boğularkən,
Qayğıkeş gözlərinin günəşiylə
yenidən doğularkən,
əlini çəkmə üstümdən!
Vallah gözlərim acışır
içdən qoru alışmayan tüstümdən.

***

Çətin günlərimin anası bacım…
Dərd hər gün döyür
qəlbimin qapı-pəncərəsini.
Anlarım ölçə-ölçə qəmin dərəcəsini
Zaman qapımdan qaçaq düşür.
İllərim bir-bir suya həsrət
balıqtək əlimdən sürüşür…
Mənim də bəxtimə
gecə-gündüz qəm yemək düşür.

***

Çətin günlərimin anası bacım…
Hərdən əsəbi oluram
taleyin bəd gərdişindən.

Qopara bilmirəm qara bəxtimi
fələyin qanlı dişindən!
Boşalıb-doluram şimşəklərlə öcəşən,
Yaşamaq eşqiylə əzrayılla əlləşən,
Ürəymin yeri-göyü titrədən fəryadından.
Amandı, sən Tanrı, sil bu umu-küsünü
yadından, yaddaşından.
Usanma bu narahat bacının
Qapqara, imisti göz yaşından.
Düşün, bu tənha bacının
insan hənirtisinə həsrət ehtiyacını.
Qırma soyuq ürəkdən,
soyuq dillərdən qopan sözlərlə
könlümün son əlacını.
Atma yad künclərə,
yad gecələrə bu tənha bacını.
Qorxuram tənhalığın o qurd hovundan,
Bir canlının əsir edəcək məkirli tilovundan.

***

Çətin günlərimin anası bacım…
Bu şair könlümü ovutmağa,
Dərdimi başımdan dağıtmağa,
Bir xoş baxışın bəs edər mənə.
Əksiltmə bir an belə onu ürəyindən,
Bu gün agah edirəm səni bu diləyimdən.

***

Çətin günlərimin anası bacım…
Bir ovuc ürək hərarətinlə,
yaralı könlümə yara.
Səndən uzaq olsam belə ayla, illə,
Sən məni dinlə,
Sən Allah, sən Tanrı,
Sən məni ara,
Sən məni ara.
Çətin günlərimin anası bacım…

03.06.1992

ACILAR

Acılar ömrümü parçaladılar,
Taleyin yolların haçaladılar
Sındırıb ürəyi hey caladılar,
Buna dözmək çətin, dözməmək ölüm,
Allah, haçan yetər, söylə bu zülüm?

10.10.1991

KÜLƏYİ ÖTƏN GƏMİ

Ah, yenə izdiham, dəniz limanı...!
Yaman külək əsir, üşüdür canı.
Köpüklü dalğalar necə rəqs edir,
Dəniz neftçiləri növbəyə gedir.
«General Əsədov» gəmisi durur,
Dəniz limanında lövbərin vurur.

***

Adamlar atdıqca pilləyə ayaq,
Xəzər qəh-qəh çəkir dəlilər sayaq.
Bir azdan neftçilər yerlərin tutur,
Çoxu ayaq üstə, çoxu da yatır.
Gəmi yola düşür Neft daşlarına,
Dalğalar can atır oda sarına.
Necə külək əsir, rüzgar qorxulu,
Hələ ləpələrin çoxu yuxulu.
Top təki atdıqca dalğa gəmini,
İtirir binəva tamam çəmini.
Gəmi ləngər vurur, başlar gicəlir,
Yorğun ürəkləri ah-aman dəlir!
Hələ altı saat yol getməliyik,
O mənzil başına biz yetməliyik.
Dənizdə fırtına, dənizdə külək,
Bizi imtahana çəkir bu fələk.
Dalğalar üstündə gəmi yel təki,
Sanki taleyimiz saçda tel təki.
Gərir küləklərin biləyin gəmi,
Elə heyran edir dilsiz aləmi.
Dalğalar şığıyır hey üstümüzə,
Fəqət, dişlərini qıcıyır bizə!

***

Pulun daşdan çıxır, zəhmət adamı,
Qoymasın könlündə küləklər kamı.
Üstünüzdə olsun Allahın gözü,
Tanrı söndürməsin ürəkdə közü,
İşiniz daima yolunda olsun,
Sizə kəm baxanın gözü oyulsun.

***

Gəmimiz yetişir Neft daşlarına,
Bənzər dəli dalğa göz yaşlarına!
Son qoyur qəlblərin o ah-zarına,
Könüllər qovuşur öz ilqarına.
Ah, necə dəlisən, cənub küləyi,
Ey ünsüz göylərin şıltaq mələyi.
İndi necə düşək bu dalğa ilə?
Yandırıb ürəyi döndərmə külə,

Bəlkə rəhm edəsən, gələsən dilə?
Çevirmə zamanın anların ilə.

***

Özülə yan alır, dayanır gəmi,
Qayğıya, zəhmətə boyanır gəmi.
Piləkən qoyulur birinci qata,
O yorğun ayaqlar özülə çata.
Fəqət, aman vermir külək bir an da,
Ah, aman duyulur, sanki hər canda!
Cəmi iki nəfər düşür özülə,
Dalğalar bənzəyir bir azğın filə.
Piləkan yığılır birinci qatdan,
İki əl yapışır, hənuz həyatdan...
Dalğalar gəmiylə şirtək savaşır,
Yorğun adamların səbiri daşır.
Qoyulur ikinci qata piləkan,
Azğın dalğalara bata piləkan.
Adamlar piləkan üstündə əsir,
Gəmi yırğalanır, canlar tələsir...
Özünü özülə çatdırmaq üçün,
Allahım, bu qəfil fırtına neyçün?!
Əsən pillələrdən adamlar qaçır,
Xəzər əjdahatək, sanki od saçır.
Ağır çantalar da əllərdə nalan,
Düşənə mərd deyir, arxada qalan.
Mən də çətinliklə düşürəm ordan...
Qoparıb qaçıram könlümü dardan!
Düşənlər qalana acıyır necə?
Sanki lap aşacaq gəmi indicə.
Tökülür adamlar gəmidən hamı,
Qalır ürəyində küləyin kamı.
Düşənlər düşürlər, fəqət gedənlər...
Onların sevincin ləpələr dənlər.
Ötür pillələri ayaqlar bir-bir,
Göyərtə əlçatmaz, göyərtə nə sirr?
Necə yellənçəktək yellənir gəmi,
Sanki nalə çəkir dillənir gəmi.
Yığıb adamları o düşür yola,
Qalır Neft adamı Xəzərə qala!
Çörəyi dənizdən çıxan adamlar,
Hər cür əzabları ürəkdə damlar.

06.02.2000

KÖNÜL HÜCRƏM

Dəli-dolu Xəzər,
Bə‘zən mələyə,
bə‘zən əjdahaya bənzər.
Dirəklər üstündə bomboz meydança,
Dövrəsi dəmir tellərlə haça-haça,
Ruhumuzla birləşib
İlahiyə yol açа-açа!
Meydançaya pərçimlənmiş evciklər,
Canımızı soyuqdan,
istidən qoruyan divciklər.
Hərdən mənə bura
xatırladır zindanı,
Sanki insanların həbs meydanı.
Fırtınalı anlarda içimizdə
ağrayır Xəzərin vicdanı!
Evciklərimizi tökmür dənizə,
Rəhm eləyir bizə!
Meydança içində evciyim,
Mənə həyan divciyim.
Evciyin içində bapbalaca üç otağım,
Misralar qanadında aləmlərdən sorağım.
Yemək otağımda kiçik masa,
Hərdən qələmimtək batır yasa.
Tufan qopanda, dəniz şahə qalxanda,
Bizə yağı kimi qanlı-qanlı baxanda,
Vərəqlərim ağlaşır,
Ürəyimlə qanı qaynayır daşır,
Duyğularımtək ucalaşır.
Bu mənim iyirmi iki ildir
taleyimə yazılmış könül hücrəm,
Sinəmə tökülən min bir cürəm,
Altun saraylardan uca,
Beynimdən açıb aləmlərə baca.
Zamanı geniş, məkanı bapbalaca!
Ruhumu titrədən sükanım,
Bu davalı dünyamda ədəb-ərkanım,
Təbimi nehrətək çalxadan məkanım.
Sən mənim cəvahiratım,
Gömgöy, dəli-dolu Xəzərə
mehrini salmış busatım,
Bəxtimə yazılmış həyatım.
Odu-atəşi min bir cürəm,
Rəbbimə açılan könül hücrəm,
Könül hücrəm…

16.05.2007

AY AMAN

Hamı ölüb gedəsidi dünyadan,
Əbədilik qalan kimdi, ay aman?
Ömür keçir sanki iti röyadan,
Bu cahanın olan kimdi, ay aman?

Hər acıya, hər ağrıya, hər qəmə,
Ürəkləri dərdə basan hər dəmə,
Bəşər ilə çarpışan bu aləmə,
Bulud təki dolan kimdi, ay aman?

Bizdən əvvəl gələnlər nə gördülər?
Bu fələyin bağından ah dərdilər,
Haqq deyənin qollarını gərdilər,
Öz haqqını alan kimdi, ay aman?

Oturmuşuq bu dünyanın belinə,
Şan verilir, şan bilməyən əlinə.
Bulaşırıq gözümüzün selinə
Öz saçını yolan kimdi, ay aman?

Ağlar qalan bəbəklərdən yaş uçdu,
Dar ürəyə əyilməyən baş uçdu,
Ocaq söndü, barı çökdü, daş uçdu,
Ömrü boyu talan kimdi, ay aman?

Zaman tutub əlimizdən aparır,
Sel coşanda kol-kosu tez qoparır,
Dəryalartək anlar üzə qabarır,
Açan kimdi, solan kimdi, ay aman?

Şadimandan ürək edir əlhəzər,
Qopub içdən gecə, gündüz haqq gəzər,
Zəmanənin gərdişinə et nəzər,
Şərə zəfər çalan kimdi, ay aman?

26.01.2000.

ÖMRÜN İLLƏRİ

Ötür karvan təki ömrün illəri,
Yaşımın üstünə yaş gəlir daha.
Saraldır bağçada açan gülləri,
İntəhasız könlü qəm dəlir daha.

İllərin çovğunu, qarı ələnib,
Qara saçlarıma müddətdi belə.
Üzümə illərin çəni ələnib,
Əzabdı, niskildi, hiddətdi belə.

01.09.1989

DEYƏCƏM

Könlüm qul olmadı dünyada şərə,
Bağlansa bəxtimdə min bir bənd-bərə,
Madam ki, doğulan yaşar bir kərə,
Paklığı, getsəm də hara, öyəcəm,
Çəksələr dilimdən dara, deyəcəm.

Zaman qəndilləri gözümə işıq,
Mümkünmü haramla, Rəbbim, barışıq?!
Versələr halalı zəhərqarışıq,
Açılsa könlümdə yara, yeyəcəm,
Çəksələr dilimdən dara, deyəcəm.

Bir kəs düşünməyir bəndənin halın,
Parasız ciblərin sormun əhvalın,
Dünya əyləncəli, gün gönüqalın,
Gəlməyir kürsülər kara, deyəcəm,
Çəksələr dilimdən dara, deyəcəm.

Güzəran eşqiylə başlar yel olur,
Qürbətdə beyinlər axar sel olur,
Qəriblik ağzına düşən el olur,
Gəlibdi məmləkət zara, deyəcəm,
Çəksələr dilimdən dara, deyəcəm.

Ah, bulanıq sular durular haçan?!
Yağı köksünə dağ vurular haçan?
Millətin məlalı sorular haçan?
Yaxılır çoxuna qara, deyəcəm,
Çəksələr dilimdən dara, deyəcəm.

Dağılan ocaqlar, yurdlar yağıda,
Gəzdirmək olarmı bu fərağı da?
Əsir qız-gəlinin yox sorağı da,
Namus ayaqlarda qara, deyəcəm,
Çəksələr dilimdən dara, deyəcəm.

Millət ac-yalavac, millət quldu, qul,
Oynadır zavallı məmləkəti pul,
Neyləsin təknəsi boşalan yoxsul?!
Yoxmu bu dərdlərə çara, deyəcəm,
Çəksələr dilimdən dara, deyəcəm.

Məni qınamasın ağzı göyçəklər,
Bu dərdlər sinədə necə çəkilər?
Bağrıma dağ basır hey səksəkələr...
Vallah, bu yol gedir hara deyəcəm,
Çəksələr dilimdən dara, deyəcəm.

24.02.1995

GƏRƏK

Şərəf də ucadı, namus da uca,
Kimsə ayaqlara atmasın gərək.
Dünyada təmiz ad layiqdi taca,
Heç kəs əyriliyi tutmasın gərək.

İlahi bir ömrü bəxş edib bizə,
Unutma, yolların yoxuşu nizə,
Edək yaxşılığı dönsün dənizə,
Hiylə pərdəsini tutan bənizə,
Özünü bəşərə qatmasın gərək

Qoy təmiz ad qoyaq fani dünyada,
Şərəfsiz ömürdən kimə nə fayda?
Buluddan özünü qoruyur Ay da,
Əzəldən belədir cahanda qayda,
Doğulan çirkaba batmasın gərək.

Çalış olmayasan nəfsinin qulu,
Sınaqlarla dolu bu həyat yolu,
Gurşadlar aparır tikanı, kolu,
Fələyin qoyduğu imzanı, qolu,
Heç kəs tamahına satmasın gərək.

Eşq də ötəridi, gənclikdə əlbət,
Qoru, pozulmasın arada nisbət,
Sonradan hönkürüb ağlama xəlbət,
Gül ötəri hissə, deyib məhəbbət...
Bülbülün qoynunda yatmasın gərək.

Dünyanın qulağı deyildir ki, kar,
Hər kəsin qabında olan aşikar,
Zaman eyləməyir kimsəni inkar,
Hər çatan etməsin zirvəni şikar,
Layiqsiz şöhrətə çatmasın gərək.

Sanma, ey Şadiman, bu həyat sadə,
Hər ömür zamanın əlində badə,
Badə içiləndə dəm qalır dadə,
Bəşər öləcəyin salmayıb yadə,
Hiyləsin dünyaya çatmasın gərək.

28.11.2001.

YOL GEDİRİK...

Qapılıb tənha otağıma,
Sığınıb qələmimə və varağıma,
Ümidlərimin dayanacağında
daldalana-daldalana,
Ağrı, acılardan bulana-bulana,
Qoşuluram ün yetməz axına,
Buraxmıram ilğımları yaxına.
Yol gedirik,
Sabaha qovuşmaq üçün,
Tanrı ilə danışmaq üçün…
Yol gedirik,
Ehtiyat etdiyim bircə ürəkdir,
Qırar ömrümü yarı yolda,
Arzularımın başıbəlalı,
Taleyim qalmaqalda,
Elə hamımız məzara qədər çalışırıq,
Duyğularla alışırıq, çarpışırıq.
Sabahkı yoxluğumuzu düşünmədən
bir-birinin işinə qarışırıq…
Nə Allah yadımıza düşür,
nə də bir gün
bu dünyadan köçməyimiz.
Yalnız yalançı zirvələrə
can atmaqdır səyimiz!
Qəlbimizlə döyüşə-döyüşə,
Taleyimizlə deyişə-deyişə,
Yol gedirik.
Kimi para üçün,
Kimi də əlacsız dərdinə çara üçün…
Dizimiz bükülənə qədər,
Gəncliyimiz, sağlamlığımız
xəzan olub tökülənə qədər,
Bir andan sonra ölənə qədər…
Yol gedirik.
Yol gedirik.

03.02.1992

BİLMİRƏM SƏNİ

Ağrısan, acısan bilmirəm səni,
Hicran əlacısan bilmirəm səni.
Bir şirin yuxuya dönüb qalmısan,
Ömrüm, həyatımdan silmirəm səni.

15.02. 2016

İTİRİRİK GÜNÜMÜZÜ ZƏRRƏ-ZƏRRƏ ƏLİMİZDƏN…

İtiririk günümüzü zərrə-zərrə əlimizdən,
Ağ cığırlar salır həyat bəyaz-bəyaz telimizdən.
Lap əzəldən qol çəkib Rəbb, bu cahanda
zülümmüzə,
Cümə-cümə yol gedirik üzüqara ölümmüzə…
Rahat rəva bulmadı Haqq yaşamaqçın ünvanmızı,
İki dünya arasında Allah qurur divanmızı.
Doğulandan xaliq verir necə olmaq əmrimizi,
Başımızın gücü ilə işlədirik ömrümüzü!
Kimi rahat həyatını yuxularla yatmaq sayır,
Kimi qəbir evinədək kamalına çatmaq sayır.
Kimi insan əzabıyla ürəyini çox kökləyir,
Dərdə-sərə batdıqca o, dərdi-səri köpükləyir.
Vicdanının ağrısına baxan da var, baxmayan da,
Ağrılarla ürəyini yaxan da var, yaxmayan da.
İtiririk günümüzü diləklərə yetmək üçün,
Gecə-gündüz çalışırıq nəyi isə etmək üçün.
Könlümüzün məramları selləşdikcə şirləşirik,
Özümüzə vuruluruq, içimizdə pirləşirik.
Səhvimizi ağrımıza bələyirik uşaq kimi,
Sarılırıq vaxtımıza yeddi rəngli qurşaq kimi.
Axır gedir əlimizdən saatımız bir su təki,
Özümüzə yad baxırıq, bəxtimizə asi təki.
Bizi alıb ilimizdən ovsunlayır zamanımız,
İlahinin dərgahına əl uzadır imanımız…
İçimizi zindan edən günahlardan ötüşməkçin,
Yaradanın hüzuruna mələkanə yetişməkçin,
Könlümüzdə paslaşırıq günahlardan gilə-gilə.
Axır günə kim yetir ki, qəh-qəh ilə, gülə-gülə?
Doğulannan ölənədək ağlayırıq bəxtimizə,
Tanrı əcəl toru salır bu beşgünlük təxtimizə.
Hər həyatın sonu təki insana da son yazılıb,
Can vücudun astarıdır, bədən cana don yazılıb.
Bu məramı duymayanlar dünyanı çox çaldı keçdi,
Cəhənnəmi öz əliylə o dünyayçın aldı keçdi.

***

İtiririk günümüzü, heç gəlməyir əlimizə,
Cümə-cümə yol gedirik, fələk yazan ölümmüzə…

26.12.2002

GECİKMƏYİN

Bu dünyanın dərdlərini bilə-bilə,
Dərmansızın əzabların
soyutmağa gecikməyin.
Bir xəstənin yatağanı kəsib duran,
Əzrayılı yubatmağa gecikməyin.
Ürəkləri çilik-çilik eləməyə
dəqiqə, an bəs eyləyər.
Yaman dillər, yaman gözlər o qədər ki,
Min bir tale yollarını nəhs eyləyər.
Ürəkləri ikiayaqlı şeytanlardan
qutarmağa gecikməyin,
Hiylələri ədalətin dəryasında
batırmağa gecikməyin.
İlahinin varlığına tapınaraq,
İblislərin kölgəsindən sapınaraq,
Yasda, vayda ağlamağa,
Toyda qəlbdən çağlamağa gecikməyin.
Lazım gəlsə el yolunda son paranı
bölməyə də gecikməyin,
Haqq yolunda kişi kimi
ölməyə də gecikməyin.
Gecikməyin.

05.11.1992

ÖZÜMÜ HEÇ YERDƏ TAPA BİLMİRƏM

Hər dərdin ağrısı düşüb ürəyə,
Ağrıdan, acıdan qopa bilmirəm.
Arxanın zərbəsi dəyir kürəyə,
Ömür yollarında çapa bilmirəm.

Bəxtimin sarayı titrəyir, əsir,
Şıltaq anlarımtək elə tələsir,
Şübhün qapısını zülmətlər kəsir,
Kərpicin divara yapa bilmirəm.

Kədərim başımdan sel təki aşır,
Aşdıqca bulaqtək qaynayır, daşır,
Bu kor taleyimlə hey pıçıldaşır,
Qoyduğu qanundan sapa bilmirəm

Gecəni gündüzə qatıb gedirəm,
Bu dərdi özünə satıb gedirəm,
Ay təki, gün təki batıb gedirəm,
Özümü heç yerdə tapa bilmirəm.

30.03.2003

ÜŞÜDÜM

Üşüdüm gözlərin xəyanətindən,
İblis ürəklərin bəd niyyətindən,
Üşüdüm sevginin soyuqluqundan,
Sısqa baxışların donuqluqundan,
Müdrik duyğuların oyuqluqundan.

***

Üşüdüm yalanın qaralarından,
O haram ciblərin paralarından,
Dünyanın sağalmaz yaralarından…
Əyilməz qəddimi əydi bu ələm.

***

Üşüdüm, tək otaq, bir mən, bir qələm,
Əyilməz qəddimi əydi bu aləm,
Yetmədi Tanrıya, yetmədi naləm.
Zaman çıraq tutdu əyri işlərə,
Ürəklər sındıran pis vərdişlərə,
Quduzluq bəxş edən haram dişlərə.

***

Soyuq baxışların dönüklüyündən,
Eşqin, məhəbbətin sönüklüyündən,
Qara yalanların böyüklüyündən.
Üşüdüm, İlahi, üşüdüm, yenə,
Yandı sitəmlərdə günahsız sinə.

***

Üşüdüm–tökülən nahaq qanlardan,
Yaşamaq eşqiylə solan canlardan…
Bir-birinə yağı bu insanlardan!
Sitəmləri sonsuz dünya nə yaman?
Aman istəyirəm, ey Tanrım, aman!

***

Üşüyə-üşüyə soldu varlığım,
Çırpındı qəfəsdə can vüqarlığım,
Qaraya büründü bəxtiyarlığım.
Dünyanın fəqanı göylərdə gülüş,
Qurtarmaq bilməyir min illər döyüş.
Əzablı vuruşda bu Şadimanın,
Tanrım bilməm niyə almayır canın?!..

03.12.1991

QANUNSUZ DOĞULMUŞ QIZCAĞAZA

Sənin göz yaşların
atəşli könlümə ocaq,
Qəlbimdə oyandı
mərhəmət hissi qucaq-qucaq.
Titrək əllərim uzanar yoluna…
Qollarım sarılar qoluna.
Yaralı köksüm sənə isti qucaq,
Ana nəvazişindən,
ata qayğısından uzaq bala,
Saldı həyatın uçurumları
cocuq həyatını qeylü-qala!
Nə çılğıncasına hönkürtüylə
nalə çəkdin?
Qəmini qəlbimə tökdün.
Onsuz da yaralı könlümdə
min bir dərdi-qəm.
Ağlatdı qəlbimi
narahat baxışlarındakı nəm.
Səni bu dünyaya atana-ölüm.
Qiyamət günü gələr,
kəsər qapısının kəndarın zülüm.
Sil göz yaşlarını,
dünya keşməkeşli.
Bizi anbaan izləyən həyat canavar dişli.
O kiçik vücudunu ələ al,
Özünü zamanın axarına sal.
Döyüşkən iradənlə irəliyə get,
Ən uca zirvələrə yet.
Dünya başdan-başa mübarizə,
Ölümüylə, zülmüylə qan çıxıb dizə,
Bu əzablı yolları şərəflə keçmək qalır bizə.
Ümidini qırma,
sığınıb Allaha-
məğrurluqla, namusla get sabaha.
Anan içkiyə möhtac,
Atanın ölmüş cismində ruhu ac.
Sən isə iradəsiz qadının,
Qeyrətsiz kişinin atdığı
səhv addımın qurbanı.

***

İndi sən tənha ikən,
səni bu dünyaya atanlar hanı?
Qanunsuz doğuldun
bir ağılsız qadının bətnindən,
Bəlkə də xəbəri olmadı
onun heç bir dindən.

Allah özü saxlasın iradəsiz
qadınları bu rüsvayçı gündən…
İndi içki məclislərinə qul anan,
Özü bildiyi kimi halına yanan-
Necə qoruyacaq
on bir yaşlı qız vücudunu?
Ay qanunsuz doğulmuş biçarə qızcağaz,
Bəxtin parça-parça, qırıq-qırıq saz.
Qəmli gözlərindən
görürəm bədbəxt olduğunu,
Bişərəf anan bilmirmi
bu adla doğulduğunu?

***

Ey dünyaya qanunsuz
körpələr gətirənlər,
Namusunu, qeyrətini
heyvani hisslərlə itirənlər,
Kişilərin bir saatlıq
şirin dilinə aldanmayın,
Hər riyakar ürəyə yanmayın.
İradəsiz vücudunuzla döyüşün,
Baxın hara gedir axırı bu yürüşün?
Qanunsuz doğulanlar dünyaya zillətdi,
Kiçilən, heyvaniləşən millətdi.
Nədir bu günahsız tifillərin günahı?
Gec-tez tutar sizi onların ahı.
Hər məkirli qəlbə, ürəyə yanmayın,
Ömrünüzdə bircə an da aldanmayın.
Cocuqlar hamısı məsum, hamısı fağır,
Səhv addımdan fəlakət doğur!

***

Siz deyin, ey məhəbbəti
özünə eyş-işrət bilənlər,
Dünyanın güclü varlıqları «ərlər, ərənlər.»
On bir yaşlı köməksiz qızcağaz
kimdən imdad diləsin?
Kimə ata, ana desin?
Bu tifili kim atıbsa bu məkirli dünyaya,
Tanrı dözməyəcək vaya.
Haqqın gözü imanlarla, dinlərlədi.
Bu tifillər minlərlədi,
Bəbəkləri əbədilik nəmdi.
Onları cahana atanların
axirəti cəhənnəmdi,
Cəhənnəmdi…

26.06.1992

LƏNƏT VƏ RƏHMƏT

İki şeydən birin qazanır insan,
Biri lənətdirsə, o biri rəhmət.
Lənətə sahiblik nə qədər asan,
O ki, tələb etmir heç kimdən zəhmət.

Rəhmətin yiyəsi olmaq çox çətin,
Adəmdən Tanrıya lənət – xəyanət!
Rəhmət qazancıdır bəşəriyyətin,
İnsanlıq adına lənət – cinayyət.

Nə dövlət, nə sərvət, nə pul, nə para,
Heçnə aparmadı gedən dünyadan.
Vurduq bir-birinin köksünə yara,
Niyə gen gəzərək bu pak qayədən?

Rəhmətlə anılan insanlar böyük,
Onlar aynasıdır yaxşı işlərin,
Lənətə tuş olan dünyaya bir yük,
O ki, meyarıdır pis vərdişlərin.

Deyirlər, cahana gələndə hər kəs,
Anadan saf olur, sonra pozulur.
Mənimsə qayəmdə bu fikir əbəs,
İnsanın kimliyi köklə yozulur.

Kökdə haram varsa, demək, soy haram,
O, naqis işlərdən yapışacaqdır.
Doğulan zamandan tapmayıb aram,
Düzlüklə, şərəflə çarpışacaqdır.

Hər lənət qazanan nə qədər müti,
O ki, məzarda da məzara yaddır.
Ondan çox anılır qapının iti…
Hər iki dünyaya rəhmət həyatdır!..

Rəhmətdir bəşəri şərdən qoparan,
Onunla açılır, ey həyat, gözün,
O biri dünyaya lənət aparan,
Lənətə boyadın dünyanın özün!..

06.10.1998

BU GÖYLƏ YER ARASI

Buludun axar yaşı,
Gözlərin çıxar yaşı,
Çatladar dağı, daşı,
Fələk bəşərdən asi,
Bu yerlə göy arası.

Göydən gələn bəndələr,
Göylə yeri bənd elər,
Dünya heyrətdən ölər,
Qurar özünə yası,
Bu yerlə göy arası.

Özün öldürən bəşər,
Haqqa güldürən bəşər,
Bir gün torpağa düşər…
Pozular hey sırası,
Bu göylə yer arası.

Fələk yeri silkələr,
Daş-divarı övkələr,
Sönər ahla hikkələr,
Can üstə can yarası,
Bu göylə yer arası.

Göydən gələn adamlar,
İçdə təccübü damlar,
Susar ocaqlar, damlar,
Donar gözün qarası,
Bu yerlə göy arası.

Uçan nimçələr atı,
Harda, necə həyatı?…
Sirr – göyün yeddi qatı!
Bəşərlə yox arası,
Bu göylə yer arası.

Fəzanı partladanlar,
Azonu çatladanlar,
Dünyanı qatladanlar,
Ölümün nə çarası?
Bu yerlə göy arası.

Şadiman, nə mərəzi?
Dünyamızın qərəzi?
Səyyarəmiz tərəzi.
Əyilməyən harası,
Bu göylə yer arası?

30-31.05.1997

DƏNİZLƏ MƏN

Dənizdə uğultu, tufan, sərt külək,
İşdəyəm, narahat vaqon otaqım.
Yenə də üzülür dəhşətdən ürək,
Donur əllərimdə qələm-varaqım.

Dəmir direklərin üstündə bu an,
Boylanıb baxıram coşan dənizə.
Allah, rüzigarı qan tutubdu, qan,
Durub dalğalarla yenə üz-üzə.

Elə güman etmə bu sətirləri,
Qorxudan qələmə alıram, külək.
Bu bəxt yazısıyla illərdən bəri,
Cəsarət donunu geyinib ürək.

Dəmir direklərin üstündə keçdi,
Ömrümün cavanlıq, gənclik illəri.
Taleyim gah nəş'ə, gah kədər içdi…
Ağartdı əndişə məhzun telləri.

Deməyin, küləklər qorxudur məni,
Bu şair könlümə şərqidir onlar.
Titrəyir bəxtimin tənha yelkəni,
Onu ovundura bilmir tufanlar.

Bilsin taleyimdən xəbərsiz ellər,
Bir şair yaşadı Neft Daşlarında…
Aldı ağuşuna nəhs bəxt, nəhs illər,
Dəniz də qabardı göz yaşlarında..!

24.01.1993

QADINLAR

Cahanın ən incə, gözəl varlığı,
Dünyanın xoşbəxtlik üzü, qadınlar.
Bütün insanlığın əzəl varlığı,
Hər açan ömürün özü, qadınlar.

Zərif çiçəklərdi – rüzgardan solar,
Sevincdən çağlayar, kədərdən dolar,
Gözləri ümidin yolunda qalar…
Həyat ocağının közü, qadınlar.

Bəşərin ən ağır yükün çəkərlər,
Hər ağrı-acını qəlbə tökərlər,
Könül bağçasında dilək əkərlər,
Həyatın bəzəyi, gözü, qadınlar.

05. 03. 2004.

NİYƏ GƏRƏKDİR?

Bağa gəlir bülbül gülün xətrinə,
Hər budaqda gəzmək niyə gərəkdir?
Yaxşılıq et yaxşıların xətrinə,
Könlü, qəlbi üzmək niyə gərəkdir?

Zaman aqil, ömür qısa, gün yarı,
Elə qalar eldən gələn el varı,
Dar ayaqda atıb qaçıb dost yarı...
Daş torpağı əzmək niyə gərəkdir?

Dünyaya bax, əllərində tərəzi,
Biri vardır, biri namərd şər gözü,
Əzizləyir o gecəni-gündüzü,
Varı küncə düzmək niyə gərəkdir?

Başın açıb, pislik edən bir şərə,
Yamanlamaq, qarğışlamaq min kərə,
Əyri-oğru nə verdi bu bəşərə?
Haqsızlığa dözmək niyə gərəkdir?

Yol üstündə yaman-yaxşı çıxanda,
Bir nahaq dil min bir bağır sıxanda,
Naxələflər sənə əyri baxanda,
Həyatından bezmək niyə gərəkdir?

Baş ağardı, diş töküldü, yaşa nə?
Qəlb yanırsa, gözdən gələn yaşa nə?
Sonu çatıb bu payızın, qışa nə?
Hər yerişi sezmək niyə gərəkdir?

Könül uysa bir sevginin oduna,
Biri getsə bir nakəsin badına,
Əməlləri yaraşırsa adına,
Onu pis-pis süzmək niyə gərəkdir?

Bulaq gözdən bulanaraq çıxırsa,
Şəffaflığı, duruluğu axırsa,
Gözün ona bir su kimi baxırsa,
Daha onu süzmək niyə gərəkdir?

Şirin xanım, yaman gözü el görər,
Ağ cığırı min bəlalı tel görər,
Eniş-yoxuş, dərə-təpə sel görər,
Hər çamurda üzmək niyə gərəkdir?

25.10.1987

EHTİYAC

Ehtiyac – çox qəfil oyunların var,
Kəslər mərtəbədən endirmisən sən.
Sənin o boşluğun çox canlar udar,
Çoxunu yoxluqla dindirmisən sən.

Kimini tox edib, kimin ac etdin,
Çox qapı açılmıb sənin üzündən.
Yoxluğu şöhrəttək başa tac etdin,
Az adam yayınar iti gözündən.

Ümidi alaraq qəfil ağzına,
İti dişlərinlə didib çeynərsən.
Bə'zən də sakitcə çəkilib qına,
Ağrı timsalında qəlbə dönərsən.

Çox aqil başları alçaldaraq sən,
Yerinə, yurduna həsrət qoyarsan.
Salaraq saçlara alatoran dən,
Vaxtsız ürəkləri dərdlə oyarsan.

Ehtiyac əlindən nə gəlməz daha,
İnsan iradəsin əldən alarsan.
Satarsan tamaha qiymətdə baha,
Özünü tülkütək dona salarsan.

Güclü tufan təki qəfil başlarsan,
Açıq qapıları çırparsan üzə.
Ağlamayan gözü dərdlə yaşlarsan,
Sənin qəddarlığın tez çıxar üzə.

Dolu bulaqların gözü quruyar,
Çaylar öz səmtini dəyişər tamam.
Ürək hər tərəfdən köməyə uyar.
Yoxluğun üzündən qəlb bişər tamam.

Nə yaxşı, nə yaman aramaz gözün,
O qapı qalmaz ki, daş atmayasan.
Yoxluq anlayışın bilərək özün,
O adam olmaz ki, alçatmayasan.

Bə'zən dolu evi boşa qoyarsan,
İçində sərsəri küləklər oynar.
Bir küt bıçaq təki qəlbi oyarsan,
Başında acılı xülyalar qaynar.

Əlinlə ən aqil başlar alçalar,
Düzlüyü yolundan sən azdırarsan.
Düşmənlər sevinər, xain əl çalar,
Namərdin adını düz yazdırarsan.

Sütunlu evləri sütunsuz etdin,
Rəzil qanununun tutub ucundan,
Hər elə, obaya, qapıya getdin,
İnsan çox cəfalar çəkib ucundan.

Çox adlar alçalıb əllərin ilə,
Ehtiyac – çoxların sən susdurmusan.
Gözlərdən tökülüb yaş gilə-gilə,
Sən çox yurdsuzlara qan qusdurmusan.

Zaman bəlaların söyləyərsə ah,
Etdiyin pisliklər dünyanı tutmaz.
Şadiman gerçəyi söyləsə hərgah,
Sənin əməlinə bir əməl çatmaz.

29.07.1985.

YOLLARA DİKİLİB QALIB

Gözlərim yollara dikilib qalıb,
Könlümün evini dumanlar alıb,
Ömrümün illəri xəyala dalıb,
Nə bir gedənim var, nə bir gələnim,
Nigarançılığa qəlbim bələnib.

Tale keşməkeşli olurmuş, aman,
Məni imtahana çəkdi bu zaman,
Dünyanın işləri yamandır, yaman,
Bir gündə qəm-qüssə, sevinc də gəlir,
Könlümdə min cürə heyrət yüksəlir.

Mənim həyatıma ağrıyan ürək,
Səni susdurmasın fırtına, külək,
Coş, gurla sədanı eşidək, bilək,
Həyat yollarında büdrəməyək, gəl
Fərəhlə qurulsun hər köklü təməl.

06.02.1985

ADDIMLAR

Dan yeri sökülür, səhər açılır,
Başlayır dünyada gediş-gəlişlər.
Qapı üzümüzə çətin açılır…
Başlanır bir günlük görülən işlər.

Küçənin sükutun pozur addımlar...
Ayaq səsi alır ərzi ağzına.
Hər addımın sirri, hekayəti var,
Bağlıdır ürəyin öz dünyasına.

Biri çox nazlıdır, biri təmkinli,
Bir addım əsrtək sürət götürüb.
Biri çox ötkəmdir, birisə kinli,
Qeyrisi yerişin tamam itirib.

Bu ədalı addım görəsən hansı
Vəzifə sahibin idarə edir?
Bəlkə kimə isə kəsilib asi,
Kiminsə məhvinə fərmançın gedir?!

Aman qarşıdakı addım yiyəsi,
Necə nur tökülür sənin çöhrədən.
Torpağa qoyduğun hər ayaq səsi,
Alır ixtiyarı, əqli də əldən...

Ey aqil torpağın sükutun pozan
Addımlar, necə də öz ahəngin var.
Dünyanın işlərin min yerə yozan,
Səndə muğamım var, səndə cəngim var.

Beyin fikirləşir, ürək döyünür,
Addımlar həyata keçirir onu.
Addım var cəmiyyət onla öyünür,
Addım var anlamır nə olduğunu...

Addım var bir elə ölüm gətirir,
Tufanı dünyanı buza döndərir.
Addım var yollarda çiçək bitirir,
Hər keçən yolçu da bir baş endirir.

Qatı açılmamış kitab addımlar,
Sizdə Babəkim var, siz də Koroğlum.
Sizin qayənizlə həyat verər bar,
Sizlə ovsunlanar bu hissim, ağlım.

Hər səhər küçədə axın başlanır,
Ağıllı ürəyi addım gəzdirir.
Bə'zən ağlınızla həyat daşlanır,
Bircə təkanınız minin bezdirir.

Əsrin sizin ilə bir ağ günləyir,
Alqış ey yaradan, quran addımlar.
Sizin səsinizi zaman dinləyir,
Dünyanın qəlbiylə vuran addımlar.

Bütün qitələrdə kəndlər, şəhərlər,
Addımlarla vurur gününü başa.
Dünyanın ürəyi yerlər, nəhirlər,
Addımla çatıbdı bilinməz yaşa!..

Addımla çıxmışıq ulduza, aya,
Səyahət edirik bir an içində.
Onunla əriyir öncə daş-qaya,
Addımla üzülür qəlb can içində.

Ey könül, gəl seyr et bu mənzərəni,
Uğurlu, uğursuz addımlar axır.
Biri zirvə tutur, biri dərəni,
Gözlər ustadına ümidlə baxır.

Hər atılan addım dünyaya şirin,
Laylalar çalaydı həyat boyunca.
Səhvin sarsıtmaya tərkini yerin,
Rahat nəfəs alsın yer-göy doyunca.

Fəqət səhv addımlar xislətinizdən,
Torpaq nalə çəkib, dağlar yaranıb.
Hər çirkin, bəd rəftar niyyətinizdən,
Bağrı şırımlanıb hey parçalanıb.

Addımlar ömrün ilkin təməli,
Səhvi sönən ocaq, düzü bulaqdır.
Min illər, əfsus pis, yaxşı əməli,
Tarixin evində qalaq-qalaqdır.

Addımlar saf-çürük edilir, yaman,
Pisi beyinlərdən pozulacaqdır.
Yaxşısı, yaxşısı, yaxşısı aman,
Əsrin yaddaşına yazılacaqdır.

15-18.02.1986

ÇƏTİN GÜNDƏ YAMAN-YAXŞI SINANAR

Yaxşı gündə dostlar gəlib cəm olar,
Ürəyindən dərdin, qəmin kəm olar,
Kef damağın başdan-başa dəm olar,
Düşünərsən səndən xoşbəxt yoxdu heç,
Oğulsansa bu illərdən qəmsiz keç.

Başın üstün qəfildən dərd alanda,
Ömrə neçə ələm kölgə salanda,
Pünhan-pünhan mərəz qəlbə dolanda,
De sailəm, yıxılmışam, gəl ey dost,
Yataqdayam, indi söylə mənə tost.

Yaxşı günüm onsuz mənə yaxşıdır,
Dost-tanışın yığın-yığın axşıdır,
Əsl kəsin yaman günə baxşıdır...
Onda bil ki, adamın var, elin var,
Bülbül kimi ötən tuti dilin var.

Eniş-yoxuş olmayan bir yol varmı?
Gücdən düşməz söylə bir əl, qol varmı?
Dost-düşmənsiz heç sağ varmı, sol varmı?
Çətin gündə yaman-yaxşı sınanar,
Şüurunda çox mətləblər qınanar.

Ələm səni girdabına salanda,
Bağrın-başın xəstəliklər alanda,
Tənhalıqdan qəfil gözün dolanda,
Onda gör ki, gəlib-gedən varmı heç?
Qohum, yadı onda yoxla, onda seç.

Şadimanın köksü dolu, yox aram,
Üzə gülən, sənin ilə yox aram,
Təmiz qəlbli, səni gəzim, mən aram,
Bu duyğudur, bu istəkdir, diləkdir,
Pak yolunda qurban olan ürəkdir.

20.07.1985.

FƏLƏK

Məni dəli edib fitnə-fəsadlar,
Ağıldan dayazlar, qəlbdən kəsadlar,
Mənsəbə, şöhrətə, pula həsadlar,
Pisliyin əlində imkandı, fələk,
Bu necə zəmanə, məkandı, fələk?

İçimdə ağlardır saysız diləklər,
Niyə imkansıza daşdı ürəklər?
Dünyanı qiymətdən salıb kələklər,
Dövran zalımlara sükandı, fələk,
Bu necə zəmanə, məkandı, fələk?

Çox eldə, çox yurdda tökülür qanlar,
Vaxtsız torpaq olur növrəstə canlar,
Dünyaya beşgünlük gələn insanlar,
Özü öz qanını tökəndi, fələk,
Bu necə zəmanə məkandı, fələk?

Məramı hiyləylə sovulanların,
Bəxti çay daşıtək ovulanların,
Öz yurd-yuvasından qovulanların,
Dərdi bir-birinə söykəndi, fələk,
Bu necə zamanə, məkandı, fələk?

Dünya başdan-başa sərhəddi, səddi,
Nalədi, fəqandı, fəryaddı, dərddi,
Qan tökən zənn edir dünyada mərddi…
Zülümün evini tikəndi, fələk,
Bu necə zəmanə, məkandı, fələk?

Maskalı iblislər dövran sulayır,
Qapının iti də qurdla ulayır,
Aslanlar tülküyə quyruq bulayır,
Dünya alqı-satqı dükandı, fələk,
Bu necə zəmanə məkandı, fələk?

Günahsız günahkar qazanda bişir,
Haqqını deyənlər ayağa düşür,
Gündə min yol qəlblə əcəl görüşür…
Bu dərdlər ölümə təkandı, fələk,
Bu necə zəmanə, məkandı, fələk?

Həyat bir iblisdir, Şadiman naşı,
Neçə min Arazdır gözünün yaşı,
Yurdum parçalanıb, sıldırım qarşı…
Sərhəd dirəkləri tikandı, fələk,
Bu necə zəmanə, məkandı, fələk?

08.05.1990

ZƏHƏR VAR ALTINDA YAĞLI DİLLƏRİN

Hər kəsin könlünü sanma cana yar,
Bağrının başını avarə qoyar.
Didər nizəsiylə, könlünü oyar,
Zənn etmə, içdikcə qanını, doyar,
Qorxusu çox olur əsən yellərin,
Zəhər var altında yağlı dillərin.

Üzünə güləndən qoru özünü,
Gecə alıb udar al gündüzünü,
Tufan ocağından udar közünü,
Aşikar eyləmə ürək sözünü,
Yağış aynasıdır axan sellərin,
Zəhər var altında yağlı dillərin.

Sənə can deyəndən canını həslə,
Düşmə ayağına elə həvəslə,
Zindan, zindan olur, yalnız qəfəslə!
Hiylə ciyərinə girər nəfəslə,
Hər kəsə dinlətmə könül tellərin,
Zəhər var altında yağlı dillərin.

Hər ağrı-acının qəhəri olur,
Bal verən arının zəhəri olur,
Hər gələn bəlanın bəhəri olur,
Zamanın bəd çapan kəhəri olur,
Tanrı alır bir-bir ömrün illərin,
Zəhər var altında yağlı dillərin.

Bu canın o cana yolu olmayır,
Canın gizlənməyə kolu olmayır,
Hər dolan buluddan dolu olmayır,
Günahın imzası, qolu olmayır,
Məkri və zikiri çoxdu ellərin,
Zəhər var altında yağlı dillərin.

Çoxu öz canını bağlayar haqqa,
İman qul olubdu bə'zən nahaqqa,
Dil fəryad qoparar, bağırar haqqa,
Düzlük qiymə-qiymə, haqq şaqqa-şaqqa,
Fitnəsi mərd udur şər əməllərin,
Zəhər var altında yağlı dillərin.

İnsanın varlığı haqqın siridi,
Canı bədəninə parlaq dürüdü,
Hiyləsi, fitnəsi könül kiridi,
O da canlılardan, vallah, biridi,

Batırıb qanlara çoxdan əllərin,
Zəhər var altında yağlı dillərin.

Başına tumarı çəkəndən qorun,
Könlünün bağında səkəndən qorun,
Ora bir fidanı əkəndən qorun,
Acına göz yaşı tökəndən qorun,
Özülü boş olar bəd təməllərin,
Zəhər var altında yağlı dillərin.

Kül solub gedəndi, köz alışandı,
İnsan taleyiylə çox barışandı,
Ömür zamanıyla hey yarışandı,
Nahaqq, haqq, hər işə o qarışandı,
Fitnəsi dağ yıxar xoş könüllərin,
Zəhər var altında yağlı dillərin.

Bu həyat aləmi hər başa sınaq,
Çalış olmayasan sən ona qınaq,
Gəl can yuvamıza, Şadiman, qonaq,
Allah verən ömrü birlikdə yanaq,
Hər gələn tuşlayır gözə millərin,
Zəhər var altında yağlı dillərin.

06. 01. 2003

KİMƏ NƏ?

Dərdlərimin hesabı da çözülməz,
Çarə tapmaz, loğmanı yox, kimə nə?
Qəmin əli ətəyimdən üzülməz,
Bir xoş gələn zamanım yox, kimə nə?

Qara-qara yuxuları yozmağa,
Yazılmışı alınımdan pozmağa,
Dərdlərimi vərəqlərə yazmağa,
İqtidarım, amanım yox, kimə nə?

Ələyində ələnirəm dövranın,
Alıb üstün, yıxıb evin qəm canın,
Qamçısıyla döyülürəm hər anın,
Bu halımı umanım yox, kimə nə?

Şadimanı həyat çəkdi çarmıxa,
Zalım fələk, qaçar olsam sar mıxa,
Cəllad yara, yaralara göz baxa…
Təbib bulan dərmanım yox, kimə nə?

25.04.1994

MƏNİ BU TALELƏ TƏK BURAXMAYIN

Dərmansız dərdimə çara demədim,
Mənim deməyimə siz heç baxmayın.
Yaram qan axıtdı, yara demədim,
Məni bu talelə tək buraxmayın.

Siz ey varlığımdan xəbər tutanlar,
Dəli harayıma gəlib çatanlar,
İstəklə könlümdə birgə yatanlar,
Məni bu talelə tək buraxmayın.

O ürək ağrısı, o can sovqatı,
Heç zaman düzəlməz daha ovqatı,
Əzabdan əzaba bükülür qatı,
Məni bu talelə tək buraxmayın.

İynə ucu boyda işığı yoxdu,
Onun qəlbim kimi aşığı yoxdu,
Zəhəri udmağa qaşığı yoxdu,
Məni bu talelə tək buraxmayın.

Mən can deyəniyəm, o can alanı,
Nə doğrusu varmış, nə də yalanı,
Bircə ümid imiş olub qalanı…
Məni bu talelə tək buraxmayın.

Şadiman hicrandan boylanıb baxır,
O nə kürədir ki, yandırıb yaxır,
Yenə göylərində ulduzu axır,
Məni bu talelə tək buraxmayın,
Məni bu talelə tək buraxmayın.

05.03.2011

YAXŞI ADAMLARI GƏLİN QORUYAQ

Yaxşı adamları gəlin qoruyaq,
Onların eşqinə durur bu həyat.
Allaha açılmış əlin qoruyaq,
Gah xeyrə, gah şərə vurur bu həyat.

Zalımlar artıqca, vicdan kiçilir,
Ağlın hesabına ürək biçilir,
Gözlə baxa-baxa haqdan keçilir,
Şərə tacı-taxtı qurur bu həyat.

Yaxşı adamları sipər eyləyək,
Zülmün qabağına çəpər eyləyək…
Hər cana düzlüyü təpər eyləyək,
Ürəyi heç nədən qırır bu həyat.

Ey bəşər, bir düşün, yolun haradı?
Yamanlıq edənlər üzüqaradı,
Hər bir müşkülünə iman çaradı,
Kimə qəm, kiməsə qürur bu həyat.

Yaxşı adamların zəkası bahar,
Dünyanın dərdindən ciyəri ahar,
Könlümün qanıyla qəm edir nahar,
Ağlıyla yuxudan durur bu həyat.

Bədəndə can deyil, mələk gəzdirir,
Haqqı yaşatmaqçın dilək gəzdirir,
Yaradanı sevən ürək gəzdirir,
Qəlbimin səsiylə vurur bu həyat.

Yaxşı adamları gəlin qoruyaq,
Duyğulu sevdasın cana sarıyaq,
Usanıb yaxşıdan pisi arıyaq,
Yoxsa hamımızı qırar bu həyat.

Şadiman tifili sanmayın dəli,
Haqqına uzanıb yetməyir əli,
Şərdən zədələnib insan təməli,
Ona min cür divan qurur bu həyat.

19. 02. 2004

DÜZLÜYÜ AXTARMIŞAM

Düzlüyü axtarmışam dünyada ömrüm boyu,
İxtiyarım olsaydı qurardım şərə toyu,
Çalışardım hər oba düzlüklə nəş‘ələnsin,
Göylərdən yağış təki yerə düzlük ələnsin.
Riya, yalan önündə heç kəs boyun əyməsin,
Dünyada bir acı dil bir ürəyə dəyməsin.
Sözündə bütöv olsun hər dilin öz sahibi,
Duru olan bulağın aydın görünər dibi!
Yalan dalınca qaçan özünü aldadacaq,
Hər gözdə bir şölədi, tezcə alışar ocaq.
Ev yıxıb, ara vurmaq bu dünyada şər işi,
Yıxılanı qaldırmaq ta adəmdən ər işi.
Şirin xanım, könlünü sıxmasın ələm, kədər,
Hər addımda köməyə gələcək ölçü, qədər.

25.08.1989

EY SƏADƏT QUŞU, HARDA QALMISAN?

Ey səadət quşu, harda qalmısan?
Bəs mənim başıma niyə qonmadın?
Hansı bəxtəvərin könlün almısan?
Gəlib əhvalıma bir dəm yanmadın.

Çalıb qanadları ötdün yanımdan,
Çırpındım dəlitək həyacanımdan,
Çıxmır məhəbbətin, çıxmır canımdan,
Nədən varlığımı heç cür anmadın?

Mən sənin hüsnünün aşiqi ikən,
Tərk edib getmisən könlümü erkən,
Sən ki, saray yapan, sən ki, ev tikən,
Bəs mənim qapımda heç dayanmadın.

Ey səadət quşu, könlüm havalı,
Dəyir hər gün ona şərin zavalı,
Təbim elə çalır dəfi, qavalı,
Onun sədasına bir oyanmadın.

Mən körpə uşaqkən sən qanad açdın,
Neçə yol başımın üstündən uçdun,
Mən hara getdimsə, sən ora qaçdın.
İndi o günləri niyə sanmadın?

Gözlərim göylərin ənginliyində,
Səni arayıram zənginliyində,
Ömrümün, günümün gərginliyində,
Mənim atəşimə bir boyanmadın.

Səni səsləməkdən dildən olmuşam,
Sənə əl etməkdən əldən olmuşam,
Ömürdən olmuşam, ildən olmuşam,
Bu qədər möhnətdən heç usanmadın.

Ey səadət quşu, Şadiman xəstə,
Yüklənib ağrılar ürəyi üstə,
Mənim taleyimlə gəl durma qəsdə,
Heç kəsin varlığın axı danmadın…?

18.10. 2004

EY MƏNİM RUHUMA CAN OLAN, FƏLƏK

Əsdi səmum yeli könlümü aldın,
Qəlbi tufanların içinə saldın,
Onunla üz-üzə, göz-gözə qaldın,
Sən necə oynatdın min bir cür dilək?
Ey mənim ruhuma can olan, fələk.

Titrətdin eşqimi, məhəbbətimi,
Qurdun ayrılıqla vaxt ülfətimi,
Artırdın hicrinlə sən xiffətimi,
Hönkürdü, ağladı qarşında ürək,
Ey mənim ruhuma can olan, fələk.

Dilindən düşmədi heç zaman adım,
Aləmə hay saldı dəli fəryadım,
Tək sənə yetmədi, bəs niyə dadım?
Bu ahı bir kərə duyaydın gərək,
Ey mənim ruhuma can olan, fələk.

Möhnət ağrısından sinəm hıçqırdı,
Arada sevdanı möhlətin qırdı,
Bağrım nəş'ələrin ələmin vurdı,
Əsdi tufanlara öc verən külək,
Ey mənim ruhuma can olan, fələk.

Qaçan zamanımın atəşin aldın,
Verdiyi əzaba mehrini saldın,
Yenə Şadimana eşqinlə qaldın,
Aç bu möcüzənin sirrini bilək,
Ey mənim ruhuma can olan, fələk.

26.03.2008

***

Ömür elə keçir ki…
Su kimi axıb gedir,
Gedərkən ürəyinə
od-atəş yaxıb gedir.

Dünən olan saatlar,
sanki bir nağıl olur.
Qəlbə çox salır çatlar,
Əzabda ağıl olur.

Ömür həyat elçisi,
İlahinin sirridir.
Səliqəli biçisi,
Sağ olanla diridir

05.11.2013

ÜRƏYİM AĞLAYIR GÜNÜMƏ MƏNİM

Soyuq baxışlardan üşüyür canım,
Zamanım sızlayır ünümə mənim.
Halıma can deyir dəqiqəm, anım,
Ürəyim ağlayır günümə mənim.

Əsən payızımın mehri bilinmir,
Titrəyən bağrımın qəhri bilinmir,
Dərdim öz işində, sehri bilinmir,
Ürəyim ağlayır günümə mənim.

Dünyaya vəfasız deyən insanlar,
Nə bir hala yanar, nə dili anlar,
Hara gedirəmsə dərd məni yanlar,
Ürəyim ağlayır günümə mənim.

Bu yazıq könlümə səhman bilmədim,
Kimsəni sinəmə mehman bilmədim,
Hər can yiyəsini rəhman bilmədim,
Ürəyim ağlayır günümə mənim.

Çıxıb Şadimanın tənindən canı,
Titrədir aləmi can həyacanı,
Buzladır könlümü ağlın üsyanı,
Ürəyim ağlayır günümə mənim.

13.10.2007

KİM DEYİR HEÇ NƏYİ APARMIR İNSAN?

Deyirlər nə qədər yığsan sərvəti,
Sağ ikən olsa da can səadəti,
Yaradan bizlərə qoyubdu qayda,
Qalır bu dünyanın malı dünyada.
Yığdığın olacaq əllərdə asan,
Lüt gəlib, lüt gedir həyatdan insan.
Amma bunu deyən, yanılır müdam,
Ölərkən, günahın aparır Adam.
Günahlar cürbəcür, günahlar əsir,
Elə günahlar da adamı kəsir.
Dirikən duymayan vicdan əzabı,
Ruha çəkdirəcək can iztirabı.
Günahın ağrısı – ruhun zülümü,
Sağ ikən yaddaşdan silmir ölümü!
Qopur tən evindən hər canın ahı,
Özünə yük edir gedən günahı.
Bu yükü aparmaq deyildir asan,
Kim deyir heç nəyi aparmır insan?!...

06.02.2008

TƏKLİYİM MƏNİM

Qoparıb sinəmdə min ağrı-acı,
Mənim qəlb ağrıdan tənha günlərim.
Ürəyi qocaldır, ağardır saçı,
Qəlbdə baş qaldıran min dərdi-sərim.

Məyusluq könlümə qənim kəsilib,
Üzür gündən-günə bu təklik məni.
Gəlib-gedənimin yolu kəsilib,
Edir tarlasına bir İəklik məni.

Dayanıb pəncərə qarşısında mən,
Sükutla baxıram gedib-gələnə.
Gələr səs-sədalar hardasa pəstən,
Maraq kəsilərəm söhbət edənə…

Şüurum, düşüncəm lap düşüb əldən,
Ürəyim qübarlı dağa dönübdü.
Düşmüşəm qüvvədən, qalmışam dildən,
Bəxtimin çırağı, sanki sönübdü.

Təklik əziz-xələf, güllü-çiçəkli,
Otağımın sadiq qonağı olub.
Ömrümün tufanı min bir küləkli,
Ağac yarpağıtək xəzansız solub.

Bu başı bəlalı təkliyim məni,
Cılız təmənnaya boynumu əyir.
Tale dəryasından qopub yelkəni,
Bərəsi dəryanın dibinə dəyir.

Girirəm otağa, divarlar ölgün,
Baxıram, ətrafda əşyalar laldır,
Laqeydliklə məni süzürlər üzgün,
Bu necə ömürdir, bu necə haldır?

Gözlərimin yaşı düşür yanağa,
Saatın səsası sükutu pozur.
Bu dilsiz otaqdan oxunur giley,
Təkliyin günahın min yerə yozur.

Məndən soruşsalar deyərdim, vallah,
Ən ağır bəladır təklik dünyada.
Şadiman, nə ölüm, nə şivən, nə ah,
Onuntək insanı verməyib bada.

29.07.1985.

YIXDI KÖNÜL MÜLKÜNÜ HİCRAN DOLU ƏNDİŞƏ

Yeri, göyu yandıran bu sitəm abad deyil,
Ürəyimin ahına fəqanlarım yad deyil,
Bağırımdan hayqıran imdaddı, fəryad deyil,
Qəlbimi ovutmağa tapmıram sakit güşə,
Yıxdı könül mülkümü hicran dolu əndişə.

Ömür atına minib zaman məni sürüdü,
Dərd yığıb qoşununu ətrafımı bürüdü.
Titrəyən duyğularım vaxt içində əridi.
Saat quduz qurd təki anları çəkdi dişə.
Yıxdı könül mülkümü hicran dolu əndişə.

Acıların içindən bəxtimə yol tapmadım,
Qəmimə oldum aşiq eşqə qala yapmadım,
Ömrün dolaylarında sağa-sola çapmadım,
Yar olmadı könlümə nə şadlıq, nə də nəş'ə,
Yıxdı könül mülkümü hicran dolu əndişə.

Əzablarım tükənmir, bu cahana qaç deyir.
Döyür həyat qapısın, gəl qapını aç deyir.
Yan mənim alovuma, atəşlərdə saç deyir.
Necə dözüm ömürlə edilən bu gərdişə?
Yıxdı könül mülkümü hicran dolu əndişə.

Şadimanın ahına inildəyir qələmim,
Məndən əvvəl doğulub bu dünyada ələmim.
Siz deyin yerlər, göylər necə imdad diləmim?
Ürəyimi taxırlar kabab təki hər şişə,
Yıxdı könül mülkümü hicran dolu əndişə.

16.10. 2003

SƏADƏTİM

Bir zamanlar hey qapımı döyərdin,
Xoş avazla mənə nəğmə deyərdin,
Sabahımla çox özünü öyərdin,
Səadətim, gələcəyi səslədin,
Ürəyimdə xoş duyğular bəslədin.

İndi hara getdi bəs o vədlərin?
Keçilməzdir, aşılmazdır sədlərin,
Açılmayır, bağlanıbdı bəndlərin,
Axar suyu kəsilibdi bəs hara?!
Səadətim, çəkmə məni gəl dara.

Yollarını haçanadək gözləyim,
Hara çatdım elə səni izləyim,
Boşa çıxsın arzum, duyğum, hər səyim,
Səadətim, nə qədər bəs yanım mən?
Lap usandım öz-özümdən, canım mən.

İldırımı, şimşəkləri çaxdırdın,
Bu sinəmi od-alova yaxdırdın,
Şadlığımı suya verdim, axdırdın,
Adın qaldı, axdın getdin sellərdə,
Bu qəzamız dastan oldu dillərdə.

Gözləyirəm qayıdasan, gələsən,
İntizarı taleyimdən siləsən,
Hər ağrımı, acımı da biləsən,
Qollarını dolayasan boynuma,
Səadətim, od tökəsən qoynuma.

Yollarına baxmaqdan göz yorulub,
O ünvanın hər obadan sorulub,
Ürək dərddən için-için qovrulub,
Səadətim, itginliyin ağrımdır,
Əzablarda batıb qalan bağrımdır.

Nə müddətdi fərağından naçaram,
Həsrətindən öz yurdumdan qaçaram,
Sənsiz necə şadlığa yol açaram?
Dərd əlindən qolu bağlı qalmışam,
Tənhalığa yaman mehr salmışam.

Səadətim, harayıma ver haray,
Həsrətindən mən tikmişəm daş saray,
Ağır olub sənsiz mənə bu il, ay,
Minnətçinəm, aç qapını, gələrəm,
Üz-gözünə ruhumdan nur ələrəm.

29.07.1985.

ÖMÜR

Keçib körpəlikdən düzəldin yola,
Günlər dolandıqca düşdün min hala,
Həyat bağçasına əkilən ömür,
Ağacdan yarpaqtək tökülən ömür,
Zaman boğçasına bükülən ömür.

06.07.2014

MÖHTACAM

Bu bağrımı min bir əzab paralar,
Şirin sözə, şirin dilə möhtacam.
Qəlb evində ocaq açar yaralar,
Xoşbəxt aya, xoşbəxt ilə möhtacam.

İsmarladı tale kamı ürəkdə,
Bu halımdan zarə gəlib fələk də,
Bir kəs varmı görən məni ürəkdə?
Harayımı sala dilə, möhtacam.

Arzuların qəsir evi uçuldu,
Min bir yerdən qəlbdə yara açıldı,
Şimşəklərdən üstümə od saçıldı,
Bir diləyim gəlməz ələ, möhtacam.

Dörd divarın sükutunda boğuldum,
Zülm üçün, ələm üçün doğuldum,
Bəxt əlində qolu bağlı bir quldum,
Bu sitəmi aləm bilə, möhtacam.

Zalım zaman qanımda dərd qaynatdı,
Tora saldı, qəfəsində oynatdı,
Pünhan-pünhan qəm göndərdi, baş qatdı,
Səadətə sevgim ilə möhtacam.

Dərdi-sərim sinəmdə qövr eyləyir,
Günüm, ayım aləmlə dövr eyləyir,
Şadimandan ürək də tövr eyləyir,
Bağrımdakı açan gülə möhtacam.

15.07.1991

NİYƏ VAXTSIZ AĞARIRSAN SAÇLARIM?

Cavanlığım hələ mənim yol gedir,
Hələ ömrün yetkin çağı əldədir,
Dəli könlün nəğmələri teldədir,
Niyə vaxtsız ağarırsan, saçlarım?

Ömür gözəl, həyat gözəl, el gözəl,
Vətən gözəl, torpaq gözəl, dil gözəl,
Zil üstündə haray salan tel gözəl,
Niyə vaxtsız ağarırsan, saçlarım?

Mən ki, hələ doymamışam həyatdan,
Dünyamızdan, kainatdan, büsatdan,

Gəl tələsib salma məni yel atdan,
Niyə vaxtsız ağarırsan, saçlarım?

Yer üzünün sabahları pak nurdur,
Addımımız, hər günümüz uğurdur,
Vətənimin gözlərində qürurdur,
Niyə vaxtsız ağarırsan, saçlarım?

Ələmlərdən, kədərlərdən qaçıram,
Bəxtimizə altun bir yol açıram,
Bulud kimi üfüqlərdə uçuram,
Niyə vaxtsız ağarırsan, saçlarım?

Gözəlliyin gedir əldən. Əlacı?
Cavanlığın məhəbbətin şah tacı,
Tələsməyək, günü edir şər acı,
Niyə vaxtsız ağarırsan, saçlarım?

Qara telə bəyaz qarlar yaraşmaz,
Sənə görə ürək mənlə barışmaz,
Həyat verən nemət dərdə qarışmaz,
Niyə vaxtsız ağarırsan, saçlarım?

Biz ki, hələ yetginliyin çağında,
Cavanlığın bir növrəstə bağında,
Sabah üçün gün ucalıq dağında,
Niyə vaxtsız ağarırsan, saçlarım?

Ürəyimi bəxşiş bulma qəm, dərdə,
Könlümüzü gülüş etmə namərdə,
Yaraşmayır qara telə ağ pərdə,
Niyə vaxtsız ağarırsan, saçlarım?

Üstbəüstdən sınıq könlü əyərək,
Qocalığın qapısını döyərək,
Şadimanın xətirinə dəyərək,
Niyə vaxtsız ağarırsan, saçlarım?

13.11.1987

ACLIĞI OLAN BİR KƏSİN

Genində aclığı olan bir kəsin,
Doydurmaq olmayır gödənin heç vaxt.
Tamahı öldürə bilməz həvəsin.
Yemək doldurmayır bədənin heç vaxt.

15.02.2016

DÜNYAYA GƏLMƏK YAMAN

Keçib-gedən illərin əzabıyla qovruldum,
Acı küləklər əsdi, ocağımda sovruldum,
Coşdu tale selləri, çay daşıtək ovuldum,
Həyatın zülümü çox, üzüldüm, Tanrım, aman,
Dünyaya gəlmək yaman, dünyadan getmək yaman.

İllər ömür yolumda bir qanadlı quş oldu,
Ürək, ağıl çarpışdı, çox qanlı döyüş oldu,
Həyat-ölüm yolunda min bir anlayış oldu,
Kəsdi cığırlarımı gözəgörünməz duman,
Dünyaya gəlmək yaman, dünyadan getmək yaman.

İçi dolu qanlı kin, çox-çox gülər üz gördüm,
Ömrün hər dolayında min bir dərə, düz gördüm,
Çox quduzu, qatili pak ciliddə «düz» gördüm,
Görənlər bunu bilir, fələyin çərxi həmən,
Dünyaya gəlmək yaman, dünyadan getmək yaman.

Ölənlərə nə var ki, ölüb borcun ödədi,
Qonubdu çiynimizə sağ ikən ölüm dərdi,
Bu həyat bağçasından gedəndə kim nə dərdi?
Hər gün iradəmizi sınağa çəkir zaman,
Dünyaya gəlmək yaman, dünyadan getmək yaman.

Əldən gedən keçmişim gələcəklə davada,
Tükdən asılı bəxtim doğulandan havada,
Dünən sənə can deyən bu gün özgə havada,
Əsəblərim tarımda, sanki köklənmiş kaman,
Dünyaya gəlmək yaman, dünyadan getmək yaman.

Şirin xanım, həyatın köhlənində çox çapdın,
Getdi ömrünün çoxu, eyvah, özünü tapdın?
Acı-şirin taleyin yoluna ümid yapdın,
Bağırıma tuşlanan dərd – rəhm bilməz ox, kaman,
Dünyaya gəlmək yaman, dünyadan getmək yaman.

10.04.1992

SƏNDƏN ÖTRÜ

Səndən ötrü dünyamız gözəlləşir, ey insan,
Mirvari şəlalələr zirvələrdən tökülür,
Bəxtəvər təbiətlə can dilləşir, ey insan,
Viranə ələmlərin bağrı-başı sökülür.

Səndən ötrü həyata sevdalı bahar gəlir,
Dünyanın qucağında səadətlər bəslənir,
Səndən ötrü sevginin altun səsi yüksəlir,
Cahanın başı üstə həqiqətlər bəslənir.

Bundan gözəl, duyğulu, söylə, nədir həyatda?!
Bülbültək cəh-cəh vurub bəmdən zilə qaçırsan,
Sənin öz ocağın var bu ucsuz kainatda,
Odur ki, yerdə, göydə quştək qanad açırsan.

27.11.1985.

MƏNƏM, MƏN

Gecə-gündüz pünhan-pünhan alışan,
Sinəsində fəğan, fəryad mənəm, mən.
Cismi-canı haqq evinə qarışan,
Zamanından uman imdad mənəm, mən.

İçindəki ağrıları sovuşmaz,
Ürəyi də hər ürəyə yovuşmaz,
Qərib düşmüş diləklərə qovuşmaz,
Gecə-gündüz eyləyən dad mənəm, mən.

Nalələri zilə qalxan kamanam,
Arzuları tükənməyən ümmanam,
Endirməyin, dağ başında dumanam,
Can dediyim canıma yad mənəm, mən.

Bitişməyir sinəmdəki yaralar,
Zaman qəlbi üstbəüstdən yaralar,
Sevgim, eşqim cılızlıqdan saralar,
Eşqə sadiq, könlü abad mənəm, mən.

İstəkləri dəryaları tutmayan,
Duyğuları gecə-gündüz yatmayan,
Neçə-neçə amallara çatmayan,
Bəxti dönük, qəlbi bərbad mənəm, mən.

Ey Şadiman anlamaq da bir dərddi,
Ömür gedir, xəstə ürək namərddi,
Hər əzaba dözənlər nə cömərddi,
Dili bağlı, dərdi azad mənəm, mən.

21.08.1989

PAYIZLARIM BELƏ BAŞLAR

Ürək bəxti sora-sora,
Həsrət qəlbi salar tora,
Qarışanda yenə ara,
Gözlər tökər acı yaşlar,
Payızlarım belə başlar.

Bir mərhəmət umar gözlər,
Qəlb ağrıdar acı sözlər,
O keçdiyim cığır, izlər,
Köksə vurar qara daşlar,
Payızlarım belə başlar.

Ürəyimə ağrı dolar,
Göylərini bulud alar,
Qəm üstümə kölgə salar,
Hey çatılar dərdə qaşlar,
Payızlarım belə başlar.

Yanan qəlbin odu sönər,
Yol-irizdən günüm dönər,
Karvan-karvan dərdlər enər,
Ağırlaşar qəmli başlar,
Payızlarım belə başlar.

Tufanlarla açar səhər,
Duyğularım olar zəhər,
Gün keçirər qəlb bir təhər,
Tale mənə bunu aşlar,
Payızlarım belə başlar.

Ürəyimdə eşqin odu,
Pak sevginin təmiz adı,
Gözüm arar yaxın, yadı,
Cana yovuq yox sirdaşlar,
Payızlarım belə başlar.

05.08.1985.

***

Məndən yazdıqlarıma cavab istəmə, dostum,
Dərdin dar ağacından min dəfə canı asdım.
İnsanlara acılar bəxş edənlər kar-kormu?
Mənim günahımmıdı haqq yola qədəm basdım…?

04.02.2016

YARPAQ TƏKİ İLLƏRİM

Qopdu düşdü yarpaq təki illərim,
Qara saçlar acı yelə tuş oldu.
Zəncirləndi bəxt evində əllərim,
Cavanlığım bir köçəri quş oldu.

Səbri kəsdi ömrün eniş-yoxuşu,
Puç eylədi kimlərin bəd baxışı,
Tutdu məni yaman dillər qarğışı,
Kabab olmuş bəxtim dərdə nuş oldu.

Kim deyər ki, zaman məni güldürdü?
İçimdəki yaram gildir-gildirdi,
Bu bəxt məni diri gözlü öldürdü,
Yaxşı işim yaman dildə faş oldu.

Əzəl gündən murad atım yıxıldı,
Köksüm dərddən min yol yanıb-yaxıldı,
Talesizlik yazıq başa çaxıldı,
Acılarım ürəyimdə daş oldu.

Nə etdim ki, ələm mənlə çarpışdı,
Çocuq təki ətəyimdən yapışdı,
İtgin düşmüş dərdlər qəlbdə tapışdı,
Gözlərimdə gilələnib yaş oldu.

Əcəl atım bəxt evinə yollandı,
Taleyimi qırx quyuya tulladı,
Ağ bəxtimi min qarayla qolladı,
Dünya tutmaz dərddən-qəmdən baş oldu.

Şadimanın içi ələm yuvası,
Öldürübən nə'şini qəm yuvası,
Zərgər könlüm tapmaz sevinc qəvvası,
Ömrüm yaman ağızlarda tuş oldu.

12.07.1991

KƏSİRLƏR DOSTA QURBANI

Deyirlər kəsirlər dosta qurbanı,
Kəsilən heyvanın günahı nədir?
Eylə ürəyini dost mehribanı,
Sonra söyləmə ki, bəs ahı nədir?
Bir çoxu dostluğu səbatsız edir.

15.02.2016

KÜÇƏ UŞAQLARI – GÖZLƏRİ QƏMLİ

Küçə uşaqları – gözləri qəmli,
Baxışları doğar kədər yaşları.
Bütün ömürləri keçər ələmli,
Dərdləri onlarla can sirdaşları...

Kirli üst-başları gendən görünər,
Bir ana qucağın həsrətlə anar.
Dallarıyca acı tale sürünər,
Dözməyən ürəklər bu dərdə yanar.

Dilləri böyüktək danışar, amma
Yorğun üzlərində inciklik gəzər.
Onlar dilənçidi arzuya, kama,
Arzu-kam onlara salmaz bir nəzər.

Parkda dolaşarlar gündüzlər, gecə
Soyuq zirzəmilər evləri olar.
Yatırar qoynunda qaranlıq küçə,
Körpə baxışları yollarda solar.

Küçə uşaqları sahibsiz tifil,
Ana nəvazişi onlara yaddı.
Miskin həyat sürər künclərdə səfil,
Bəs kimlər onları küçəyə atdı?

Bir-birin döyərlər, vuruşarlar da,
Köhnə üst-başları cırılıb çıxar.
Yolçuluq etməkdə yarışarlar da,
Darda bir-birinə doğmatək baxar.

Bir qarın çörəyin dərdin çəkərlər,
Onlar böyüklərtək vurnuxar gündüz.
Bütün ağrıları qəlbə tökərlər,
Baxışlar dilənçi, heç vaxt gülməz üz.

Küçə uşaqları dünya yarası,
Fərqi yox hansı bir ölkə bitirib.
Onlar vicdanlara bir üz qarası,
Onları cəmiyyət özü yetirib.

16.01.2012

ÖMÜR SINAQ MEYDANI

Həyat çətin, ömür – sınaq meydanı,
Leysanları döyəcləyir başıma.
Bilinməyir əyri hanı, düz hanı?
Kim yol açar, kim səd çəkər qarşıma?

Zaman məni tələsdirər, qovlayar,
Gah fərəhlə, gah niskillə hovlayar,
Hiyləsiylə başımızı tovlayar,
Duz yerinə zəhər qatar aşıma.

Hardan gələr, hardan gedər bu günlər,
Neçə-neçə açılmayan düyünlər.
Namərd əllə bəxtimizi düyünlər,
Bir ömürlə nələr gəlməz başıma?!

Gələnlərin sinəsində çağlayar,
Gedənlərin qapısını bağlayar.
Şadla gülər, ağlayanla ağlayar,
Hansı başlar dəyməz ömür daşına?!

Qovğalıdır, məkirlidir işləri,
Parçalayar, yalquzaqtək dişləri.
Süd verəndi hər gələnə döşləri,
Özü ölçər, sayı verməz arşına.

Ey Şadiman, nə qovğadır, bu qovğa?
Buraxmayır həyat bizi heç yovğa,
Bəxtimiz də hər işində lap lovğa,
Hər gün, hər an yaş gətirər yaşına.

24.11.1989

EY MƏNİM ƏLİMDƏN QAÇAN İLLƏRİM

Ey mənim əlimdən qaçan illərim,
Sizdə qövr eliyən amanım getdi.
Atəşin altında qalan küllərim,
Ömrümü yaşadan zamanım getdi.

Çıxıb boylanıram dalınızca mən,
Qayıdıb-gələnə heç oxşamırsız.
Düşdüm min cövürə halınızca mən,
Dönüb gurşadlara vaxta damırsız.

Zaman pilləsindən enirəm hər gün,
Gələn saatıma süfrə açıram.
Bir ağrı-acıya dönürəm hər gün,
Cismidən silkinib, candan qaçıram.

Mənim taleyimə dönük illərim,
Üzə gülə-gülə ömrümü aldız.
Dindi hər havada könül tellərim,
Siz onu mizrabla kökündən saldız.

Durub boylanırsız candan havalı,
Ötən günlərimə ağı tutursuz.
Məndən qaçanlarım düşünün halı,
Qəlbi ağrılara yağı tutursuz.

Asılıb kirpikdən zaman ağrısı,
O da Şadimanın qanından keçir.
Məni tərk edirsiz, bilməm doğrusu,
Kim kimin üstündə canından keçir?!...

21.03.2012

HƏYAT MƏSUM BİR KÖRPƏ

Həyat məsum bir körpə,
Biz onu öpə-öpə
bəsləyirik ömürlə,
Bağlanırıq əmirlə.
Səsi-sədası bizdən,
Ağrı-acısı dizdən,
Gecələr canla yatar,
Səhər aləmi qatar.
Arzu-istəyi bitməz,
Çoxuna əli yetməz.
Hər şeydən bir az dadar,
Gah sevinc, gah qəm udar.
Duyğularla öcəşər,
Bütün günü əlləşər.
Hərdən düşüb yorular,
İşdən bağrı yarılar.
Çəkilər bir guşəyə,
Üz verər əndişəyə.
Candan doğar həvəsi,
Bu həyat fəlsəfəsi.

21.01.2013

HƏR GÜN GƏLİB KEÇİRSƏN

Hər gün gəlib keçirsən bu küçədən sükutla,
Sükutun bu yollara ağ-qara cığır salıb.
Sən daha isnişirsən, yollaşırsan həyatla,
Yəqin ki, başın üstün qorxunc qayğılar alıb.

O nimdaş pal-paltarın xeyirdən xəbər vermir,
Üzünün sarıltısı gözə xəzan ələyir.
Sənin arzu-diləyin donub daha, yerimir,
İçində diləklərin quzu təki mələyir.

Milyonların üstündə oturanlar kefdədir,
Sənsə qəpik-quruşu arayırsan cibində.
Sənin diləklərini yatıranlar kefdədir,
Sənsə çapalayırsan bu həyatın dibində.

Uşaqların gözünün dikib yəqin yoluna,
Deyirlər, açacaqdır indi atam qapını.
Sənsə çoxdan dönmüsən ümidsizlik quluna,
Bütün qonum-qonşular çəkir iztirabını.

Həyat çarpışmaları sevən div oğlu divdi,
Acizləri itirib batırır öz selində.
O daima güclünü basıb bağrına sevdi,
Xeyirlə şər çarpışır həm sağ, həm sol əlində.

Bunu duyan özünü, sanki ucada görür,
Heç zaman əyilməyir heç bir kəsin önündə.
Hər bir doğulan insan bir dəfə ömür sürür,
Günü özünə bənzər, həyatı öz günündə!

06.05.2014

ÖMRÜN İLLƏRİ

Ötür karvan təki ömrün illəri,
Yaşımın üstünə yaş gəlir daha.
Saraldır bağçada açan gülləri,
İntəhasız könlü qəm dəlir daha.

İllərin çovğunu, qarı ələnib,
Qara saçlarıma müddətdi belə.
Üzümə illərin çəni ələnib,
Əzabdı, niskildi, hiddətdi belə.

01.09.1989

DOĞUM GÜNÜM

Ömür keçir, saç ağarır, yaş artır,
Qəlb içində arzu-dilək baş qatır,
Hər keçən də yollarıma daş atır,
Çalma, partlar taleyimin qavalı,
Doğum günüm, nə gəlmisən havalı?

Mən heç yolun yarısına çatmadım,
Boş işlərlə öz başımı qatmadım,
Yorğanımı çəkib başa yatmadım,
Ömür günün dəyir cana zavalı,
Doğum günüm, nə gəlmisən havalı?

Göz açandan çarpışıram aylarla,
Ürəyimdən yara açan vaylarla,
Göz yaşımdan çeşmə gəzən çaylarla…
Fikirin var, soruşasan sən halı,
Doğum günüm, nə gəlmisən havalı?

Bu dünyaya öz xoşumla gəlmədim,
Gələn gündən bir doyunca gülmədim,
Niyə gəldim? Gəldiyimi bilmədim,
Utancdanmı, üzün-gözün həyalı?
Doğum günüm, nə gəlmisən havalı?

Deyiləsi sözün varsa, de, danış,
Ürək yanır, sən də ora dur qarış,
Bilirəm ki, deyəcəksən, nə yarış?
Sevməmişəm heç bir sözü boyalı,
Doğum günüm, nə gəlmisən havalı?

Şadimanın gözündə gəz qəmini,
Ağrılara tut gözünün nəmini,
Vurnuxuram, tapım işin çəmini,
Dodaqlarım doğulandan dualı,
Doğum günüm, nə gəlmisən havalı?
Doğum günüm, nə gəlmisən havalı?

02.09.1988

GƏRƏK DÜRÜST OLA

Gərək dürüst ola qonşu qonşuya,
Hər ağrı-acısın özünün saya.
Qonşuluq adını sərrast daşıya,
Yetişə o evdən hər qopan haya.
Toyunda, vayında gələ haraya.

15.02.2016

MƏKTƏB İLLƏRİ

Səni ki, unutmaq mümkünsüz, inan,
Yamanca çağlatdın tuti dilləri.
Ürək sənə bağlı, getməz bu peyman,
Əlvida, müqəddəs məktəb illəri.

Titrək əllərinə çanta aldığım,
Kiçik kənd yoluna cığır saldığım,
O pak uşağlığa zəfər çaldığım,
Əlvida, müqəddəs məktəb illəri.

Kövrək addımlarla yollar getdiyim,
Uca zirvələri dilək etdiyim,
Boranı, sazağı eşqlə ötdüyüm,
Əlvida, müqəddəs məktəb illəri.

Həyat yollarında ey düz yerişim,
Odlu sınaqlarda mətin vuruşum,
Elmdə, savadda qəti duruşum,
Əlvida, müqəddəs məktəb illəri.

İsmətin, qeyrətin yolları olan,
Yorulmaz, bükülməz qolları olan,
Elmə, maarifə gur işıq salan,
Əlvida, müqəddəs məktəb illəri.

Ata-anamıztək mehribanlığın,
Uşaq dünyamıza istiqanlığın,
Aydın gələcəyə pak insanlığın,
Əlvida, müqəddəs məktəb illəri.

Cəhaləti üzə bağlı eylədin,
Avamlığın köksün dağlı eylədin,
Bizi nə bəxtiyar çağlı eylədin,
Əlvida, müqəddəs məktəb illəri.

Qoynuna sığındıq bir bala kimi,
Yer verdin bizlərə sən qala kimi,
İzlədin bizləri düz yola kimi…
Əlvida, müqəddəs məktəb illəri.

Bu Şirin zirvəyə hey ucalsa da,
Elmdən, ədəbdən o tac alsa da,
Unutmaz tək səni, yaş qocalsa da,
Əlvida, müqəddəs məktəb illəri.
Əlvida, müqəddəs məktəb illəri.

24.05.1972

BOĞULDUM

Laqeydilik, iküzlülük, min sifət,
Allah, niyə bu zamanda doğuldum?
Üzdü məni bu müsibət, bu xiffət,
Göz yaşımdan axan seldə boğuldum.

Haram tikə ağızlara yol tapır,
Boş fərmanlar kağızlara yol tapır,
Hiylə, fitnə gecə-gündüz at çapır,
Bu minvalla gələn ildən boğuldum.

Açan sabah göy bəyazı ağıdı,
Sərvət yatar, ağıllara yağıdı,
Hamımıza Tanrı özü ağıdı,
Hər fitnədən, hər feildən boğuldum.

Çox ocağın şər közünü üfürdü,
Qanunlara, fərmanlara tüfürdü,
Haqqımızı zalım kəslər sümürdü,
Hərzə-hərzə ötən dildən boğuldum.

Şadimanın canı gündən bezardı,
Soyuqqanlıq içimizdə azardı,
Allah, bu nə alqı-satqı, bazardı,
Öz-özünə yağı eldən boğuldum.

12.10.1990

İNSAN KİMDİR?

İnsan kimdir?
Qurduğunu dağıdan,
Öz-özünü cəfalarla ağrıdan.
Yalanlara üz tutaraq
çox vaxt qaçan doğrudan.
Kəşfi ilə zirvələri fəth edən,
Bəzən çaşıb, varlığını mədh edən.
Aslanları, pələngləri qaçırdan,
Yeri-göyü nərəsiylə uçurdan,
Acıları içdən çölə tökəndi,
Yaratdığın bircə anda sökəndi.
Duyduğutək yaradıcı,
Varlığına aldadıcı.
Görünməyir hiyləsinin,
yalanın heç vaxt ucu…

***

İnsan kimdir?
Dərdlərinə bir həkimdir,
Əzabına can təhkimdir!
Ölənədək çarpışmada,
Adı ilə, özü ilə min illərdi
Azarıyla,
Məzarıyla,
Baş daşıdı bu dünyada.
Atıb,
Atır,
Atacaqdı əsrlərlə özün oda.

16.11.2014

ƏLİ-QOLU BAĞLILARIN

Əli, qolu bağlıların,
Qolların güc açа gərək.
Haqq parlada ağılların,
Sözləri od saça gərək.

Gün getməyə boş-boşuna,
Bürünməyə göz yaşına,
Ömür düşsə sərt qışına,
Qışdan yaza qaça gərək.

Əyilmə heç çətinliyə,
Əyildinsə can inləyə,
Qəlb zəkanı çox dinləyə,
Qanad açıb uça gərək.

Hər möhnətin xoş günü var,
Hər kələfin düyünü var,
Hər canlının beyini var,
İnsan ağlı uca gərək.

Doğum-ölüm bir möhlətdi,
Can bədənə əmanətdi,
Ömür bizə zəmanətdi,
Can ruhunu quca gərək.

Bu Şadiman təb təşnəsi,
Girib qəlbə çox rişəsi,
Gah acısı, gah nəş‘əsi,
Layiq edək taca gərək.

23.12.2014

BİR İL DƏ GETDİ ÖMÜRDƏN

Yeni il, bir il də getdi ömürdən.
Gəlirsən xeyirlə qapıları aç.
Zaman ötəridi, çıxmaz əmirdən,
Düzəlməz işlərə özün tap əlac.

Hamı diləyini eşqə calasın,
İnsan bir-birinə kinlə baxmasın,
Ağıla səadət odun qalasın,
Heç kəs ürəyinə dərd buraxmasın.

Yeni il, dünyanı qanda boğanlar,
Unutsun qəzəbi, sülh əhli olsun.
Döysün qapıları, hər gün xoş anlar…
Bütün qan-qadalar dünəndə qalsın!

31.12.2014

DİL DEYƏ BİLMİR

Ürəyə gələni dil deyə bilmir,
Hıçqırır sözlərim ağız içində.
Qəlbin xatirinə söz dəyə bilmir,
Misralar ağlayır kağız içində.

Vicdanı qəfəsə salan adamlar,
Məddaha, yaltağa boyun əyirlər.
Yanır cızhacızla könüldə kamlar,
Vaxt dəyirmanında ömür üyürlər.

Zamanın köhləni çapdıqca çapır,
Zalımlar işləri tərsə çevirir.
Bir qarın çörəyə kim yoldan sapır,
Kimi də fələyin taxtın devirir.

Başı boş nadanlar mənlik bilməyir,
Mənlik də ayaqlar altında inlər.
Bir çoxu matəmdə, şənlik bilməyir,
Çatılıb bəxtlərə min bir düyünlər.

Özünü Allahdan yuxarı sayan,
Allahın damına çıxıb düşməyir.
Zalımdan məzluma olmayıb həyan,
Vicdan Yaradanla heç görüşməyir.

İpini yığan yox harınların heç,
Dəbdəbə içində zirvə tutarlar.
Toxundan partlayan qarınların heç,
Çarəsi bulunmaz röya qatarlar.

Bir tikə çörəyə həsrət olanlar,
Səfil həyatıyla baş-başa qalıb.
Dünyanı fırlanır, gəzir yalanlar,
Dünya bu işlərə tamaşa qalıb.

Boğazı quruyub haqqın şivəndən,
Quruyan boğaza su tapılmayır.
İlahi mat qalıb boylanır gendən,
Ömrünə hönkürən yerində sayır.

Vicdanlar lal olub, dil topuq çalır.
Ürəyi partlayan məzara köçür.
Zalımlar hallanır, məddah əl çalır,
Utanan üzlərdə tər puçur-puçur.

Hamı gəldi-gedər deyir dünyanı,
Dünya öz yerində, ağrı çəkən biz.
İtirib bir çoxu çoxdan həyanı.
Dərdini şumlayıb bostan əkən biz.

Zindanlar dustağa yox deyir daha,
Yoxsula rahat yer həbisxanadır.
Şər nərdivan qoyub çıxır Allaha,
Həyasın itirən yekəxanadır.

Kimi öz ömrünü aclıqla sürür,
Kimi də sərvətlə bilmir neyləsin?
Tərəzi əyilir, Yaradan görür,
Azğınlar haqq yola gəlmir, neyləsin?

Ürəyin çəkdiyin dil deyə bilmir,
Dilin də ağrısı candan keçirmiş.
Çəkdiyi zülümü bəs niyə bilmir?
Bilirsə, qanını özü içirmiş.

Şadiman dərdlərə olub mübtəla,
Məzlumun acısın gəzdirə bilmir.
Göydəmi? Yerdəmi? Bilməm, Haqq-tala,
Bu acı dərdləri çözməyə gəlmir!

07.07.2015

GƏL İÇƏRİ DOĞUM GÜNÜM

Ötüb keçən günlərimi üyütmüşəm,
Ağrıları yaşımdan çox böyütmüşəm,
Ötənlərə canın özün şam etmişəm,
Sükutunu geyinmişəm, yoxdu ünüm,
Qapım açıq, gəl içəri doğum günüm.

Bir az kövrək, bir az şıltaq uşağam mən,
Könül telim himə bənddi, aşığam mən,
Ötüb keçən illərimə işığam mən,
Gəlişinə dolu təki yağım, günüm,
Qapım açıq, gəl içəri doğum günüm.

Ayaqlarım yorğun düşüb zamanına,
Bir ömürdü sığınıram imkanına,
Məni atdın dünya adlı məkanına,
Acıların zirvə dələn dağım, günüm,
Qapım açıq, gəl içəri doğum günüm.

Zaman qovur qaça-qaçda ömür ilə,
Kainatdan qorub gələn əmir ilə,
Calayıram Tanrı verən ili-ilə,
Yavaş-yavaş solur bağçam, bağım gülüm,
Qapım açıq, gəl içəri doğum günüm.

Sevməyənlər sevənimdən çox olubdu,
Bəzən ruhum qopub məndən yox olubdu,
Ətrafımın dərdi cana ox olubdu,
Gecələrdə qalxıb ərşə ağım, günüm,
Qapım açıq, gəl içəri doğum günüm.

Çəkdiyimi qulağına oxuyacam,
Dərdlərimdən sənə xalı toxuyacam,
Sən pıçılda, hənirtini mən duyacam,
Gah fərəhdi, gah kədərdi çağım, günüm,
Qapım açıq, gəl içəri doğum günüm.

Şadimanın hönkürtüsü dolu təki,
Varmı çətin, söylə, ömür yolu təki?
Gir içəri, sən gələsən hər il təki…
Payızüzlüm, tök çiçəyi, yığım günüm,
Qapım açıq, gəl içəri doğum günüm.
Qapım açıq, gəl içəri doğum günüm.

02.09.2017

DƏRD YÜKÜM

Elə ağırdır ki, mənim dərd yüküm,
Sərvəti talanan Vətənəm özüm.
Bu qədər dəhşəti mən necə çəkim?
Əzablar içində itənəm özüm.

Zülmətin bağrında işıq gəzirəm,
Ulduz parıltısı yetmir gözümə.
Ruhuma qoşulub göydə süzürəm,
Necə heyran olmum canda dözümə?!

Çıxıram gecənin qaranlığından,
Düşürəm sabahın parıltısına.
Bezirəm xəyalın viranlığından,
Dönürəm ümidin pıçıltısına.

Ağrım qol götürüb oynayır mənə,
Qoşulub onunla rəqs eləyirəm.
Qapımı açıram şadlığım dönə,
Onun gəlməyini çox diləyirəm.

Şübhəylə baxırlar əqrəblər düzü,
Sanki sağlığıma əmin deyillər,
Hönkürdür ürəyim gecə-gündüzü,
Kədərlər Allahsız mömin deyillər.

Bir şirin yuxutək ötəri ömür,
Nə vaxt düşürəcək canı taxtından?
Bütün həsrətlərin betəri ömür,
Sən də gileylisən məntək baxtından.

Nə edim, ümid də diləyə bağlı,
Ağladıb güldürür adamı hər an.
Şadiman, aparma uzağa ağlı,
Tanrı töfhəsidir bədənindən can.

31. 07 2016

AY BU KÖNÜL YOXSULU

Çatsa ən uca ada,
Dahi olsa dünyada,
Varmı bəşərə fayda?
Yetişməyirsə dada,
Varlığı tikan kolu,
Ay bu könül yoxsulu.

Ürəkdə heç nəyi yox,
İnsanlığa səyi yox,
Heç bir şeydə rəyi yox,
Sanki cansız heyi yox,
Olar tamahın qulu,
Ay bu könül yoxsulu.

Fikri, zikri sərvətdir,
Qazandığı lənətdir,
Allaha xəyanədir!
Zənn elər dəyanətdir,
Düşünər bu haqq yolu,
Ay bu könül yoxsulu.

Hiyləsi başdan aşar,
Haramla pıçıldaşar,
İstəyi aşıb, daşar,
Dağı min dağa qoşar,
Cibləri haram dolu!...
Ay bu könül yoxsulu.

Başlara ağıl qoyar,
Özünü müdrik sayar,
Öz camalına uyar,
Yığdığından heç doyar?
Sanar özünü ulu,
Ay bu könül yoxsulu.

Xoş olar ahdan, vaydan,
Pul qoparar röyadan,
Sanki gəlibdi Aydan,
Köç edib bu dünyadan
Getməz ki, üzüsulu,
Ay bu könül yoxsulu.

11.12.1999.

UCALDAQ İSLAMI

Olub məşhədi, hacı,
Müsəlman qardaş, bacı.
Yeyirlər haram filan,
Çoxunda iman yalan.
On dəfə gedir haca,
Etməyir kömək aca,
Qəm qatmaz əhvalına,
Etməz fəna halına,
Dünənki toyda özüm,
Gördü bir hacı gözüm,
Alıb ikranı ələ,
Etmədi uf da belə,
Yedi kabab sayağı,
Güldü sonra bayağı,
Dedi Rəbb nemətidi,
İlahi qismətidi.
Meyisim çəksə əgər,
Günahdı yemək məgər?
Məşhədə, Haca gedən,
Haqqı ziyarət edən,
Doydura bircə acı,
Edə yetmə əlacı.
Su çəkə, məktəb açа,
El içində nur saça.
Demirəm getmə Haca,
Allahın yolu uca,
Qonuma-qonşuna bax,
Qazanda aşına bax,
Yetim tələşına bax,
Sal yerə bişmişini,
Çağır bir ac kişini,
Eylə savab, işini.
Düzəldər Allah özü,
Odur xəlq edən bizi,
İslamın dini uca,
Deyir kömək et aca.
Millətin yarı işsiz,
Qalıb qazanı bişsiz.
Ziyarət də burdadı,
Xeyirat də burdadı.
Küçədə ac uşaqlar,
Kirlə dolu qurşaqlar...
Səkilərdə dolaşır,
Toz, torpağa bulaşır.
Kimi pulsuz, çörəksiz,

Kimi pullu ürəksiz,
Vətənin könlü yarə,
Bunlara edək çarə.
Müsəlman qardaş, bacı,
Quranın səvab tacı.
İslamı şövqləndirək,
İşığın rövqləndirək.
Bir ayağımız burda,
Bir ayağımız gorda.
Fələk bizə nə yazar?
Müdhiş ölüm, dar məzar!
Ucaldağın islamı,
Bunu düşünsün hamı.

01.11.2001.

KİŞİDİ BU

Hiylə-fitnə başına tac,
Hər dərdinə şərab əlac,
Arvad, uşaq evində ac,
Kişinin öz işidi bu,
Kişidi bu, kişidi bu.

Heç eyləməz cəfa cana,
Nə düşüb ki, oda yana,
Butulkadı bacı, ana,
Kişinin öz işidi bu,
Kişidi bu, kişidi bu.

Arağ verin qoy dəmlənsin,
Paprosundan göz nəmlənsin,
Dil şərabla hey təmlənsin,
Kişinin öz işidi bu,
Kişidi bu, kişidi bu.

İşi atıb evdə yatsın,
Arvad, uşaq batır batsın,
Tək arağa əli çatsın,
Kişinin öz işidi bu,
Kişidi bu, kişidi bu.

Dil-dodağa şərab nəş‘ə,
Evdə yataq rahat guşə,
Hey düşsə də dilə, dişə,
Kişinin öz işidi bu,
Kişidi bu, kişidi bu.

Arvad düşsün dağa, daşa,
Uşaq acsa döysün başa,
Bu da ona bir tamaşa,
Kişinin öz işidi bu,
Kişidi bu, kişidi bu.

Tula kökdən gələr tazı,
Bazu getməz yeməz azı,
Niyə çəksin uşaq nazı?
Gopla vursun göydə qazı,
Kişinin öz işidi bu,
Kişidi bu, kişidi bu.

Hey hamını evdə danlar,
Xoruz təki bərkdən banlar,
Nə namus, nə vicdan anlar,
Kişinin öz işidi bu,
Kişidi bu, kişidi bu.

Ona, buna borca gedər,
Qarınına qulluq edər,
Butulkanın dibin güdər,
Kişinin öz işidi bu,
Kişidi bu, kişidi bu.

Sərxoşluqdu zövqü-səfa,
Arvad, uşaqda nə vəfa?
Çəkdirməyir cana cəfa,
Kişinin öz işidi bu,
Kişidi bu, kişidi bu.

Yalanı dildən düşməyir,
Borca kimə ilişməyir?
Ağız-dodaq bitişməyir,
Kişinin öz işidi bu,
Kişidi bu, kişidi bu.

Ayləsini tənbeh edər,
Can qədəhə şəbeh edər,
Öz-özünü valeh edər,
Kişinin öz işidi bu,
Kişidi bu, kişidi bu.

Balaların gözü yaşlı,
Arvadının başı daşlı,
Ana doğub yaxşı-başlı,
Kişinin öz işidi bu,
Kişidi bu, kişidi bu.

Vurulub öz cəmalına,
Kimsə tənmi kəmalına,
Gözün dikər yad malına,
Kişinin öz işidi bu,
Kişidi bu, kişidi bu.

İçində iblis yerləşər,
Paxıllığı bağrın deşər,
Ayaqlara enər, düşər,
Kişinin öz işidi bu,
Kişidi bu, kişidi bu.

İtiribdi namus, arı,
İçki, siqar könül yarı,
Qədəhində şərab yarı,
Kişinin öz işidi bu,
Kişidi bu, kişidi bu.

Can qalacaq, bir də araq,
Ömür ötür varaq-varaq,
Əhvalını gəlin soraq,
Onunla nöş ara vuraq?
Kişinin öz işidi bu,
Kişidi bu, kişidi bu.

30.10.2001.

ƏLƏBAXAN

Alışmadın heç zəhmətə,
Adın layiq nə hörmətə?
Ağlın kəsməz mərifətə,
Ədalısan, ələbaxan,
Sevdalısan, ələbaxan.

Can saxlamaq olub peşən,
Yeyib, içmək, yatmaq nəş‘ən,
Yatağındır rahat guşən,
Nə kədərin, nə əndişən?
Cin əcinə, ələbaxan,
Nə vecinə, ələbaxan.

Gözün özgə cibə baxar,
Ürəyini oda yaxar,
Bərəkətin hardan axar?
Nə biləsən, ələbaxan,
Nə köləsən, ələbaxan.

Dikib gözün özgə vara,
Yaxma ona-buna qara,
Bu yol çəkir səni hara?
Ağlın çaşır, ələbaxan,
Yoxsa daşır, ələbaxan?

Oğul-uşaq dolu damın,
Yığ dövrənə işlət hamın,
Ürəyində çoxdu kamın,
Nə əmirdi, ələbaxan,
Bir ömürdü, ələbaxan.

Sanki göyün qurşağısan,
Hələ ana uşağısan,
Sən hamıdan aşağısan,
Özün gəda ələbaxan
Hardan əda, ələbaxan?

Olma onun-bunun qulu,
Ay ananın qənd oğulu,
Tök cibinə ye noğulu,
Ötsün ünün, ələbaxan,
Keçsin günün, ələbaxan.

Ananın gül balasısan,
Soy-kökünün olasısan,
Ocağında qalasısan,
Qonşunu yax, ələbaxan,
Canına bax, ələbaxan.

Atan, anan sağdı hələ,
Çək sığalı belə telə,
Ver fikiri, dərdi yelə,
Nə bayıra, nə də çölə
Getməyəsən, ələbaxan,
İtməyəsən, ələbaxan.

Yorğanını çək başına,
Zəhər qatma heç aşına,
Atan fikirdən daşına...
Öləcəksə kül başına!
Ölməsin ha, özbaşına,
Tək qalarsan, ələbaxan,
Zay olarsan, ələbaxan.
Vay olarsan, ələbaxan.

16.07.2001

TÜLKÜ XİSLƏTLİ ADAM

Boyu bir balaca, hiyləsi böyük,
Dünyanın özünə dünya boyda yük.
O murdar xislətin içində gizlər,
Qohumu, qonşunu, hamını bizlər.
Hərdən bir dilənçi, hərdən pinəçi,
Heç kəsə göynəməz könlünün içi.
Paxıllıq qəlbini dağıdar, deşər,
İçində ən böyük iblis yerləşər.
O zülüm eyləyər hey arvadına,
Üç uşaq anası bədbəxt qadına.
Yalnız qulluq edər öz boğazına,
Yeməkçin yaranmış lağ-lağ ağzına.
Canını hamıdan artıq istəyər,
Kişiyəm, deyərək özünü öyər.
Özgə uşaqlara baxar balalar,
Bir parça çörəyçin saralıb-solar.
Qadın ürəyində çəkər bu dərdi,
Bəxtinə çıxardıb Tanrı namərdi.
Bütün cavanlığı solub puç olub,
Dünyaya gəlməkmi ona suç olub?
Sığınıb namusa, ismətə qadın,
Batırıb köksündə ahın, fəryadın.
Bir parça çörəyə möhtac diləyi,
Partlayır ələmdən, dərddən ürəyi.
Kimi bir övladın həsrətin çəkər,
Kimi də şüursuz hey əkib, tökər.
Ondakı böyütmək məqamı yetər,
Sinəsi içində bir tikan bitər.
Nədir körpələrin görən günahı?
Tutar bir gün sizi onların ahı!
Boyu bir balaca əməli zəhər,
Ömrünü keçirir fəndlə bir təhər.
Özü qəh-qəh çəkər öz əməlinə,
O tülkü xisləti zinət əlinə.
Qohumdan, qonşudan qalsa da dala,
Tökər tuluğuna hey bala-bala.
Arağdan, çaxırdan sipirtdən vurar,
Baş yekə, beyini, düşüncəsi dar.
Balalar sərgərdan, balalar nalan,
O tülkü xislətə qarındı qalan.
Faş edər dilənçi, murdar adını,
Salar qapı-qapı öz arvadını!
Elə hiylələrlə canın saxlayar,
Beyindən laxlayar, başdan laxlayar.
Hərə öz nəslinə kökünə bağlı,
Kök ilə, soy ilə fırladar ağlı.
Naqisin balası naqis olacaq,
Aqilin balası aqil qalacaq.

O iblis xislətlər nə qədər ki, var,
Fələk hamımızın burunun ovar!
Qurunun oduna yaş yanar axı,
Ürək vurmaq üçün baş yanar axı.
O tülkü xislətin yeri cəhənnəm,
Bu fani dünyada dünya ona dəm.
O murdar tuluğun doldursun hələ,
Versin balaların haqqını yelə.
O kölə qadını əritsin şamtək.
Dərdini şişirtsin ürəkdə damtək.
Hər şeyi biləndi, görəndi Tanrı,
Hamının əməlin böləndi Tanrı.
Onun da cəzası yetişər, gələr,
Onun da etdiyin İlahi bölər.
Qoy hələ unutsun öz Allahını,
Qədəhlərə töksün o günahını.
Şərabla çimdirər mələklər onu,
Zənn edən məzardır həyatın sonu,
Görəcək Allahın qadirliyini,
Bizlərdən yüksəkdə nadirliyini.
Onda yetməyəcək kimsə dadına,
Özü batacaqdır öz fəryadına!
Hər şeyi, hamını görəndi Tanrı,
Bəşərin haqqını verəndi Tanrı.

22.08.2001

OĞRU

Bəşər oğurluqla məşğul dünyada,
Bir gündə səbəbdi min bir fəryada.
Biri rüşvət alıb, hər gün cib soyur,
Neçə imkansızın ürəyin oyur.
Kiminə oğurluq gündəlik peşə,
Çəkir zənginlərin ürəyin şişə.
Kimi bir özgənin yığdığı varı,
Dədəmalı təki, eyləyir yarı.
Kimi könüllərdən közü oğurlar,
Kimi bir misrayçın sözü oğurlar,
Kimi sinələrdən ürək oğurlar,
Kimi fırıldaqdan kələk oğurlar.
Kimi ocağından od-kül oğurlar.
Kimi can bağından saf gül oğurlar.

***

Bəşər bir-birini soymaqla məşğul,
Ayağının altın oymaqla məşğul.
Kimi şan-şöhrətə ucalmaq üçün,
Gecələr yatmayır çeynəyir için.
Mininə alçalsın, qul olsun nə qəm?

Yalançı şöhrətdən təki olsun dəm.
Heç qiymət vermədi çoxu şərəfə,
Kiminsə önündə çökdü min dəfə.
Çox vaxt ucalmaqçın yandıran qəlbin,
Görmür yıxılanda dərənin dibin.
Kimi özgəsinin məhəbbətini,
Müqəddəs, ilahi səadətini,
Sanki iblis təki keçirtdi ələ,
Qurdu bir bədbəxtin eşqinə tələ.
Kim xəstə ruhuna dad oğurlayır.
Kimi də özünə ad oğurlayır.
Hamı oğurluqla məşğul dünyada,
Lakin, gətirmirik bircə an yada,
Bizdən yuxarıda Allahımız var,
Bilmirik heç neçə sabahamız var...
Tanrının Əzrayıl bir mələyi var,
Ona da oğurluq İlahidən yar.
Hər şeyin oğrusu olan insanın,
Bir gün o Əzrayıl oğurlar canın!...

4.02.2001.

BU YAZIQ XALQA QALAN BOŞ, QURUCA ZƏHMƏT OLUR

Talanır sərvətimiz xarici işbazlar üçün,
Nədir millət amalı ağlı dayaz qazlar üçün?
Banglərə dollar yığılır hər diləyi sazlar üçün,
Vətənin eşqi niyə sözləri avazlar üçün?
Nə ki var, var-yoxumuz yadlara bir nemət olur,
Bu yazıq xalqa qalan boş, quruca zəhmət olur.

Sorulur neftimizin ən dərin qatları belə,
Aranır, axtarılır qatların çatları belə,
Təki başdakıların olsun büsatları belə,
Çağlasın min neçə cür haram həyatları belə,
Başımızda nə ki var, əcnəbiyə alət olur,
Bu yazıq xalqa qalan boş, quruca zəhmət olur.

Torpağın tən yarısı işğala möhtac edilib,
Millətin çoxu hələ qarnı tamam ac edilib,
Bu kimi işlərimiz taleyə amac edilib,
Varsa imkan qapısı, xariciyə bac edilib?
Bizlərin bəxtlərinə düşən hələ zillət olur,
Bu yazıq xalqa qalan boş, quruca zəhmət olur.

Sözə gələndə elə min cürə cəh-cəh vurulur,
Daşınan varımıza gör necə qəh-qəh vurulur.
Damağı çağlar üçün badələr pəh-pəh vurulur,

Əlləri əllərinə nəşədən bəh-bəh vurulur,
Əzilən kütlələrə bəxş edilən illət olur,
Bu yazıq xalqa qalan, boş quruca zəhmət olur.

Bayrağa, həm himnə nə zatlar fərman eləyir?
Yazıq istiqlal hələ yadlara dərman eləyir,
Gopu min dağlar aşan dillərə aman eləyir,
Nə qədər imkanı var, hər işi yaman eləyir?
Ayağ altda əzilən yenə də bu millət olur,
Bu yazıq xalqa qalan boş, quruca zəhmət olur.

Amerka xammalının dəyməyib heç bir qatına,
Sərvəti başdan aşır, nur tökülür həyatına,
Düşmüşük biz də elə taleyin bata-batına,
Baxırıq Avropanın gözqamaşan busatına…
Səsimiz çıxsa əgər, lap böyük bir qələt olur,
Bu yazıq xalqa qalan boş, quruca zəhmət olur.

Əlimiz başımıza kül eyləyir vay-vay ilən,
Gözümüzdən yaş axır dəli-dolu min çay ilən,
Bizə hər nə verilir ölçü-biçi və say ilən.
Nəyimiz var daşınır bankələrə lap tay ilən,
Ahı ərşi dağıdan bir neçə cür halət olur,
Bu yazıq xalqa qalan boş, quruca zəhmət olur.

Bizim kor bəxtimizə gülmədi heç Xuda niyə?
Diləyimiz çin olur gecələr yuxuda niyə?
Əcnəbinin burunu qalıbdı qoxuda niyə?
Ötüşür günlərimiz bəs qara-qorxuda niyə?
Bizə çor, xariciyə bir o qədər hörmət olur,
Bu yazıq xalqa qalan boş, quruca zəhmət olur.

Nə ki, Bakı nefti, bölgələr də dəbə düşüb,
Talananlar talanır, ürəklər də həbə düşüb.
Əlində hökmü olanlar nə yaman təbə düşüb?
Binəva millətimiz xariciyə təbə düşüb…
Ölkəyə, ay həzarat, bəs bu necə qiymət olur?
Bu yazıq xalqa qalan boş, quruca zəhmət olur.

Şadiman bir parasın söylədi bu ahımızın,
Doğulanlara görə nəyi var sabahımızın?
Özümüzdə görürəm çoxunu günahımızın,
Yetməyir bizlərə heç haqq nuru Allahımızın!…
Gələcəyi görməyən bəxti qara millət olur,
Bu yazıq xalqa qalan boş, quruca zəhmət olur.
Bu yazıq xalqa qalan boş, quruca zəhmət olur.

19. 02. 2005

MÜSTƏQİLİK

Gedib əldən Qarabağ gülzarı, bizlərə nə var?
Artıb kasıb-kusubun azarı, bizlərə nə var?
Ya çadır, ya da ola məzarı, bizlərə nə var?
Çıxıb ərşə yetimin ah-zarı, bizlərə nə var?
Torpağı yağıya verdik, özümüz müstəqilik,
Dünyaya çatır daha hər sözümüz, müstəqilik.

Əslimiz gədə-güdə, sərvətimiz başdan aşır,
Kütləni əzmək üçün qüvvətimiz başdan aşır,
Millətə elitayıq – hörmətimiz başdan aşır,
Hər yerə gedib çıxan izzətimiz başdan aşır,
Nə olar yurd-yuvamız əsir olub? Müstəqilik.
Pulumuz bəxtimizə qəsir olub, müstəqilik.

Erməni qoy Şuşada özünə cəlal açsın,
Xan qızı Nətəvanın ruhuna məlal açsın,
Qarabağı elədik yağıya həlal açsın,
Xalqımızın dilini eyləmişik lal, açsın.
Tanıyır dünya bizi, indi daha müstəqilik,
Batsa da ac-yalavac kasıb aha, müstəqilik.

Əcnəbi banglərə də doldurmuşuq dolları biz,
Açmışıq Amerkaya, Avropaya yolları biz,
Etmişik azad daha qandallardan qolları biz,
Tacımız çiçəkləyir – azadlığın kolları biz.
Cibimiz pulla dolu yoxdu azar, müstəqilik,
İndi çox şairimiz bizə yazar – müstəqilik.

Xarici maşınların yoxdu sayı-hesabı heç,
Daha süfrəmizə də qoymarıq ucuz qabı heç,
Yoxsulun dözümü çox, kəsilməyir ki, tabı heç,
Bizlərə yazılmayıb din və qanun kitabı heç,
Tökürük sağa-sola varımızı, müstəqilik,
İndi pul həll eləyir arımızı, müstəqilik.

Çoxdu ki, torpağımız Qarabağı neyləyirik?
Savaş etsək görərik sinə dağı, neyləyirik?
Hökmümüz, fərmanımız, qanlı çağı neyləyirik?
Çadıra binə olan desin ağı, neyləyirik?
Kasıba kaha da bəs, pul-parmız müstəqilik,
İndi çox dövlət ilən saz aramız, müstəqilik.

Nefti xammal eləyib çıxarmışıq bazarlara,
Düşsün ac millətimiz min cürə qoy azarlara,

Pul basıb cibimizə, baş vururuq gülzarlara,
Kütlənin çox hissəsi ölüb düşsə məzarlara,
Tək sağ olsun canımız, külfətimiz, müstəqilik.
Artır hey dollar ilə ülfətimiz, müstəqilik.

Torpaq kasıba gərək, bizlərə pul-para yetər,
Millət ağzını açа, yaxarıq çox qara yetər,
Böyüyər uşağımız, hər əli min vara yetər,
Çəkərik danışanın dilini lap dara yetər,
Eyləsin kasıblığın ellərimiz, müstəqilik,
Necə şad xürrəm olub illərimiz, müstəqilik.

Beynəlxalq kürsülərdə bülbültək cəh-cəh vururuq,
Qudurdub var da bizi özümüzə qəh-qəh vururuq,
Əyləşib meyxanada canlara pəh-pəh vururuq,
Doldurub qədəhləri bu günə bəh-bəh vururuq,
Arzumuz çiçək açır, kamı bilir, müstəqilik,
Düşmüşük cəh-cəlala hamı bilir müstəqilik.

Bakıda, xaricidə bir neçə adda evimiz,
Bağı bir yana hələ, gör neçə qatdda evimiz,
Göygöldə, Şüvəlanda, lap Batabatda evimiz,
Bizə şöhrət gətirir pullu həyatda evimiz,
Hələ Ulduzları da fəth edirik, müstəqilik,
Ayı Günəş eləyib mədh edirik, müstəqilik.

Xarici maşınlarla hey keçirik bir-birini,
Gözümüz qızır hələ çaş seçirik bir-birini,
Ali məclislərə də baş seçirik bir-birini,
Hərdən paxıllıq edib lap biçirik bir-birini,
İndi zirvəni dəlir dirbaşımız, müstəqilik,
İşləyir cibimizə pak başımız, müstəqilik.

Candan artıq sevirik biz Azərbaycanımızı,
O bizim pullu edib gör necə də anımızı,
Artırır sərvətiylə zirvələrə şanımızı,
Qurbandı min Qarabağ, tək qoruyaq canımızı,
Millətin səbri böyük, dözür hələ, müstəqilik,
Düşməz ki, bir belə fürsət də ələ, müstəqilik.

Şadiman hər nə qədər cəhd eləsə yazmamağa,
Təb ilə dilbir olub, əhd eləsə yazmamağa,
Ağlını qəlbinə sərhəd eləsə yazmamağa,
Od tutan şe'rinə bir həd eləsə yazmamağa.
Girir şeytan ürəyə deyir, bala, müstəqilik…
Cala beyti-beyitə, eylə qala, müstəqilik.

20. 07. 2003

ƏCƏB YAXŞI MƏKANDI

Bakının tini, yolu,
Şadlıq eviylə dolu.
Bazardı sağı, solu,
Necə gözəl imkandı?
Əcəb yaxşı məkandı.

Fabrik, zavodu hanı?
Fəhlə olaq biz yanı?
Neftdir bədəndə canı,
Addımımız dükandı,
Əcəb yaxşı məkandı.

Bekar olmaq səadət,
İşi neynir bu millət?
İşləmək özü zillət,
İşsizlik də sükandı,
Əcəb yaxşı məkandı.

Hamı nə isə satır,
Özünü oda atır,
Bir çoxu evdə yatır,
Deyirlər millət batır,
Əsas ədəb, ərkandı,
Əcəb yaxşı məkandı.

Yollarda qız, gəlinlər,
Polis önündə inlər,
İsti-soyuqlu günlər,
Ürəyində düyünlər,
Dilində çörək andı,
Əcəb yaxşı məkandı.

Kişidə olsun ürək,
Fəhlə olmaqçın zirək,
Evini satsın gərək.
Bu da zamandı, andı,
Əcəb yaxşı məkandı.

İş yeri tapa bilsə,
Tale üzünə gülsə,
Bəxti qara deyilsə,
Rüşvət alan nə candı?
Əcəb yaxşı məkandı.

Hamı Bakıya qaçır,
Restoran, dükan açır,
Çayxanalar gül açır...
Dildə Qarabağ andı,
Əcəb yaxşı məkandı.

Pullular gizlənirlər,
Elə əzizlənirlər,
Pulsuzlar dizlənirlər,
Hər yerdə bizlənirlər,
Kasıbsan, atan yandı,
Əcəb yaxşı məkandı.

Qurban olaq dollara,
Qərbə gedən yollara,
Qüvvət gəlsin qollara,
Hər kəs evin tikəndi,
Əcəb yaxşı məkandı.

Salmarıq canı vaya,
Səpilmişik dünyaya,
Gəlmərik, vətən, haya,
Bu da bir addı, sandı,
Əcəb yaxşı məkandı.

Min bir sektə dolullar,
Lap xaçpərəst olullar,
Boyna xaç da salıllar,
Pul-para da alıllar,
Dünyada şirin candı,
Əcəb yaxşı məkandı.

Dində bablıq edillər,
Tüllablıq edillər,
Lap yabılıq edillər,
Pis yola da gedillər,
Bədnəzərə tikandı,
Əcəb yaxşı məkandı.

Qoruyaq canımızı,
Damarda qanımızı,
Ucaldaq sanımızı,
Azərbaycanımızı,
Bu millətə təkandı,
Əcəb yaxşı məkandı.

01.11.2001

RÜŞVƏTƏ PƏRƏSTİŞ

Hər xalq bu dünyada adın daşıyır,
Öz keyfiyyətinin dadın yaşayır.
Bizim xalqın da öz cəhətləri var,
Ağlında min cürə qəhətləri var.
Azalıb mənəvi dünyaya eşqi,
Kasıblardan qopan min vaya eşqi.
İndi bu millətin bədəndə canı,
Oxşayır rüşvətlə kürsü tutanı.
Onun arvadına pərəstiş edir,
Vəzifə adına pərəstiş edir,
Altında maşına pərəstiş edir,
Mənasız yaşına pərəstiş edir.
Toyda, yasda, vayda öyülür adı,
Fəxirlə anılır özü, övladı.
Bütün məclislərdə çəkilir başa,
Gəlir ağızlarda, dillərdə cuşa.
Elə ki, yıxıldı kürsüdən yerə,
Zirvəni qurd təki ovladı dərə,
Baxışlar dikilir təzə məmura,
Əllər çəpik çalır, ağızlar ura!
Təzə rüşvətxorun atı işləyir,
Haram tikələri elə dişləyir.
Az zaman içində ev, maşın alır,
Millətin qəlbinə təzə iz salır.
Yenidən təriflər köklənir, qalxır,
Gözlər gəlişinə həsədlə baxır…
Öyülür maşını, evi bağçası,
Dolur rüşvət ilə dolur boğçası.
Rüşvətə pərəstiş bu xalqın canı,
Aləmə tanıdır Azərbaycanı.
Hər xalq bu dünyada adın daşıyır,
Öz keyfiyyətinin dadın yaşıyır…

16. 11. 2004

MƏDDAHLIQ ZAMANIN ÜRƏYİNƏ OX

Məddahlıq zamanın ürəyinə ox,
O ziyan gətirir beyinlərə çox.
Bitirir dünyada fəlakətləri,
Yerlə-yeksan edir məmləkətləri.
Kirlədir məkriylə bəzən saf suyu,
Qazıyır insana ən dərin quyu.
Məddahlıq insanı Allah eyləyir,
Allahın önündə günah eyləyir.
Beyni zəhərləyir çürük kam ilə,
Zehində dolaşır bu ehkam ilə.
Məddahlıq doğurur fitnə-fəsadlar,
Ona ürcah olur qəlbi kəsadlar.
O alıb sürüyür bəşəriyyəti,
Hər zaman çirkindir onun niyyəti.

26.04.2010

MƏNƏ MEYDAN VERİN...

Mənə meydan verin, mikrofon verin...
Səsimlə aləmi dağıdıb töküm.
Deyin kədərlərin siz mənə yerin,
Dişim-dırnağımla bağrını söküm.

Göynəyən yaramı duzla sarıyım,
Qəlbimdən qopanı gəzim, arayım,
Ağrımın dərdiylə qoyun qarıyım,
Olmayın boş yerə siz ona həkim.

Mənə meydan verin, sızıldayır Şərq...
Zaman bir okean, günlər olur qərq,
Vurur saatımız su içində bərq,
Hər damla üstündə durur can çəkim.

Mənə meydan verin, sözlə oynayım,
Yerdə ocaq olum, göydə qaynayım,
Çarpışım, döyüşüm bir dəm aynayım,
Silkinən ruhumu ardımca çəkim.

Mənə meydan verin məkri olmasın,
Sözümü udmağa fikri olmasın,
Onu ovlamağa zikri olmasın,
Uçum səmasında quş təki səkim...

Sadimana belə ərki etməyin,
Danlağı edəndə bərki etməyin,
Ürəyim doludur sərki etməyin,
Sözün gülzarına gülləri əkim.

11.04.2011

İLHAM

İLHAM PƏRİSİ

Ah, ilham pərisi, bu zülmət gecə,
Könlümün evinə gəlmisən necə?
Hissim, həyacanım yenə əlində,
İncəlik, lətiflik tuti dilində,
Dadlı duyğuların qəlbimi bəzər,
Ruhumun bağında mələyə bənzər.
Büküb ürəyimi o atəşinə,
Dönmüsən bəxtimin sən günəşinə.

Ah, ilham pərisi, bu gecə yarı,
Gətirdin könlümə əhdi-ilqarı,
Bağında açılan çiçəklərinlə,
Bağrımı odlayan diləklərinlə,
Sarmısan canımı sevgili yartək,
Qoynu ətir qoxan nurlu bahartək.
Ürək süfrəsinə sevda düzürsən,
Könül qədəhinə duyğu süzürsən.

Ah, ilham pərisi, təndə can varkən,
Bu vəfalı dünyam könlümə yarkən,
Gəl oynat qəlbimin duyğularını,
Unudaq cahanın qayğılarını.
Coşqun buludlartək dolub-boşalaq,
Bu qara zülməti edək daşqalaq,
Uçaq asimana mələklər sayaq,
Yuxlasın kainat biz isə oyaq!..

Ah, ilham pərisi, hardan qaçmısan?
Könlümün qapısın necə açmısan?
Mən ki, qolboyundum yuxularımla,
Qəlbi əsir edən qorxularımla.
İzin ver, bağrıma basım qoy səni,
Yenə tələtümə gətirdin məni.
Çıxaq duyğuların seyrangahına,
Dönək hər sətirin yanan ahına!

Ah, ilham pərisi, bu könül odam,
Sənsiz mən də orda qəribəm, yadam.
Sənin atəşinə yanar ocağım,
Duyğuyla sevgiylə dolu qucağım,
Səni uca Tanrım göndərib mənə.

Könlümün qapısın göstərib sənə,
Eşqin ürəyimin içində bitər,
Sənincin ölürəm mən səndən betər.

Ah, ilham pərisi, bu gecə vaxtı,
Qurmusan evimin ağzında taxtı,
Qapımı ahəstə elə açırsan,
Qaranlıq içində işıq saçırsan.
Doğub göylərində həyat günəşi,
Düşüb ayağına zülmətin nəşi,
Bütün vücudumu almısan ələ,
Tutmuşam sənlə yenə əl-ələ.

Ah, ilham pərisi, könlümü qopar,
Məni də özünlə dünyadan apar,
Birgə qanad açım, uçum sənlə,
Ey incə mələyim, gəl məni dinlə,
Ağrıyan könlümə bir yuva ara,
Qoyum ürəyimi əbədi ora!...
Rahatlıq tapmadım mən ki, bir dəm də,
Gəzdirə bilmirəm onu sinəmdə.

Ah, ilham pərisi, baxışın incə,
Ötməsin axşamın anları becə.
Dönək gecəmizin təranəsinə,
Bir şirinlik qataq incə səsinə.
Darayaq zülmətin qara telini,
Qucaq nurlu ayın incə belini.
Ürəyi oynasın ötən anın da,
Qoy həyat qaynasın donan qanında!

Ah, ilham pərisi, gəlişin təzə,
Bəzə ürəyimi, al-əlvan bəzə.
Gedək mehman olaq vüsal bağına,
Qalxaq duyğuların ucalığına.
Silək gözlərimdən niskili, qəmi,
Şadlığa bələnsin könül aləmi.
Yetir Şadimanın qəlbini dada,
Bundan da gözəl şey nədir dünyada?!..

26.09.1999

MAVİ YUXULARIM

Gecələr – qaraörtüklü fələklər,
Mavidonlu mələklər.
Mavi tüllər çəkir gözlərimə,
Alovdan don biçir sözlərimə…
Alır ağuşuna könlümü diləklər,
Sanki bəmbəyaz küləklər.
Mavi yuxular,
bağrımı didən qorxular,
Atır məni kainatın izlərinə,
Batıram fikir dənizlərinə.
Göydə durnalar təki,
Vücudum ən yüngül çəki.
Pənbə buludların üzəriylə uçuram,
Gah röyadan və yalandan qaçıram,
Gah da əlçatmaz, ünyetməz,
bu sehrin sonu bitməz
ulduzları qucuram.
O qapqara buludlara acıram.
Sanki ayrı bir dünyanın,
gözəlliklə dolu röyanın,
Qapılarını açır,
Günəş təki nur saçır
Mavi donlu mələklər üzümə,
Bütün məmləkətlər mavi şəkildə
görünür gözümə.

***

İçimdə acılarla dolu yasım,
Əynimdə mavi donlu libasım,
Nalə çəkən könül sazım,
Üzümə gülən alın yazım.
Qansız, savaşsız, ölümsüz,
Divansız, sərhədsiz, bölümsüz,
Bir səyyarədə dolaşıram.
Bu dünyadan çəkdiklərimi,
Vərəqlərə tökdüklərimi…
Mavi donlu mələklərə danışıram,
Bu atəşlə alışıram.
Ayrılmaq istəmirəm,
Heç kəsə demirəm,
Mavi yuxuların şirinliyindən,
Vücudumu bir heyrət bürüyür,
Və bu heyrət buzları əriyir.
Bu sehrin dərinliyindən
Gecələr mavi paltarımda,
İçimdə ilham adlı yatarım da.

Mavi donlu mələklərlə,
Məni ovsunlayan fələklərlə
Tanrıya üz tuturam,
Haqqın dərgahına çatıram!..
Zaman nələsiz, ahsız,
Ruhlar günahsız,
Ruhlar günahkar,
Etdiklərini edə bilmir inkar,
Küskün-küskün ətrafımda dolaşır,
Mənimlə pıçıldaşır.
Ömrün dönüklüyündən,
Cəzaların böyüklüyündən,
Dünyanın faniliyindən söz açırlar…
Önümdə o yan, bu yana qaçırlar!
Mən də mavi yuxularımla,
İçimi didən qorxularımla,
Dərdləşirəm onlarla,
Min bir dərdli canlarla!

***

Beləcə səhər açılır,
Nur saçılır,
Otağıma al günəş dolur.
Mavi donlu mələklər,
İçimə sığınmış diləklər,
Harasa tələsən qaranlıqda solur
Mavi yuxularımla,
Ölümdən ağır qorxularımla,
Bir göz qırpımında yox olur…
Əzab verən min bir xülya,
Qanla dolu dünya,
Sinəmə ox olur…

05.12.1992

İKİ DAMLA YAŞ

Gözümdən iki damla yaş
Axdı ağ vərəq üstə.
Ağ vərəq də könlüm təki oldu xəstə.
Ölən anlarımı yudu, tabutladı,
Ümidlərimi qatladı.
İki damla yaş...
Canıma dedi sirdaş,
Məni tənhalığa apardı,
İçimdə tufan qopardı.
Canıma sirdaş olana bax,
Gözümdə yaş olana bax.

17.03.2001

TİTRƏYƏN ŞAM

Başımın üstündə dağ təki ağır dam,
Masamın üstündə tənha qızılgül və titrək şam.
Qapqara çadraya bürünmüş məsum axşam.
Könlüm yaz buludutək dopdolu,
Enişli, yoxuşlu bu tale yolu.
Titrəyir içimdə niskillərim,
Açılmayan müşküllərim.

***

Könlüm sevda zindanında məhbustək,
Acılar üstümə qəm tökür ətək-ətək.
Sıxılıram gecənin tənhalığından,
Bir ilə dönür an,
Qəlbim atəşlərdən büryan.
Nə əhvalımı soran var,
Nə könlümü aran var,
Nə də halıma qalan,
Ürək büsbütün talan.
İşığı keçmiş şam da ömrü başa yetirmiş,
Qəmli həyat dastanını bitirmiş,
Mənsə həyatla çarpışmada,
İlhamla pıçıllaşmada.
Bu da könlümə Tanrıdan paydır,
Tufanı bitməz bəxtimə vaydır!
Hey döyəcləyir məni acı küləklərlə,
Yağmuru usanmaz fələklərlə.
Allahımdan aman diləməz,
Sabahıma duman diləməz,
Titrəyən göz yaşlarımla qol-boyun,
Bitib-tükənməz bu oyun.

***

Mürəkkəbi qurumuş qələmimi,
İsladıram göz yaşımla,
Tələşdayam ağrılı başımla.
Rüzgarı susmuş könlüm gərgin,
Qəmlərdən usanmış həyatım didərgin.
Sabahımın ümidləri yollarda veyil,
Ömrüm ki, bu qovğalardan qurtaran deyil.
Kəsib qapımın ağzını axşam,
Masamın üstündə işığı keçmiş şam...

06.11.1994

QƏRİBƏM

Bu adamla dolu dünya mənə yad,
Çəkir ürəyimin fəqanları dad,
Bu xərabə könlüm olmadı abad,
Səadət barımı iblislər dərib,
Allah, bu dünyada qəribəm, qərib.

Gözümdə yaşlarım şimşəktək çaxır,
Fələyin qəm seli üstümdən axır,
Heç acı dərdlərə olmadı axır.
Könlümü neçə yol qəm yuyub sərib,
Allah, bu dünyada qəribəm, qərib.

Bəşər ram olubdu pis niyyətlərə,
Boğazdan yuxarı ibadətlərə!
Ürək uyuşmayır yad sifətlərə,
Zülümlər bəxtimin qolların gərib,
Allah, bu dünyada qəribəm, qərib.

Fələk kədərimlə giribdi bəhsə,
Tutub ürəyimi salıb qəfəsə,
Mənə dərd verməkçin düşüb həvəsə,
Yığıb əzabları qəlbə göndərib,
Allah, bu dünyada qəribəm, qərib.

Canım ağılımdan olubdu ası,
O da ürəyimə qurubdu yası,
Taleyin əlində qəm dolu tası,
Könlümə cahanın ahın əndərib,
Allah, bu dünyada qəribəm, qərib.

Ağlar ürəyimin ahı gileyə,
Dönüb mənim təki bir qəmli neyə.
Şadiman, bilmirəm, bu fələk niyə,
Viranə bəxtimi yoldan döndərib?
Allah, bu dünyada qəribəm, qərib.

03.02.2000.

QURUMAYIR NƏM

Mənim əzablarım içimdə gəzir,
O sərt addımlarla könlümü əzir.
Qəlbimdən başlayır dünyanın qəmi,
Dərdə batırmışam bütün aləmi.
Mənimlə doğulub yəqin ki, bu qəm,
Odur ki, gözümdən qurumayır nəm.
Dəniz ürəyimdə qopub fırtına,
Keçib dalğaların yeddi qatına.
Ağlar sinəmdəki bütün duyğular,
Umar bu narahat qəlbdən sayğılar,
Hər şeyin ağrısın çəkir ürəyim,
Bilmirəm onunla, Allah, neyləyim?
Necə narahatdı mənimtək hər dəm,
Odur ki, gözümdən qurumayır nəm?!

19.02.2000.

BÜTÜN ARZULARIM QALDI ÜRƏKDƏ…

Bütün arzularım qaldı ürəkdə …
Ağrıyan ruhuma can tapılmadı.
Diləklər asılı durdu dirəkdə,
Xilasa çırpındım an tapılmadı.

Ağlım ürəyimə fəryad eylədi,
Hər aha düşəndə min dad eylədi,
Yerlərə, göylərə imdad eylədi,
Dondu damarlarım, qan tapılmadı.

Hıçqırdı zamanın yoxuşunda baxt,
Qul oldu əmrinin hökümünə vaxt,
Mən bal arısıtək çırpındım hər vaxt,
Onun pətəyinə şan tapılmadı!…

19. 09. 2004

DƏLİ ÜRƏK

***

Tutub varlığımı qəmə çuğluyan,
Ey sevincdən gülən, dərddən ağlayan,
Alovla, atəşlə könül dağlayan,
Qəlbi incilərlə sərraf bağlayan,
Qaynar bulaqlartək coşan, çağlayan,
İnci dəryasından çələng bağlayan,
Gah şimşək, fırtına, gah da ki, külək,
Coşqun təbiətli, ey dəli ürək.

***

Bu sakit qəlbimi sözlə oxlayan,
Çılğın xəyalları yoldan saxlayan,
Hər kiçik kəlməni günlə yoxlayan,
Haqsızlıq görəndə dözmüb laxlayan,
İlham otağında sözlə yuxlayan,
Şeir gülzarından güllər qoxlayan,
Gah şimşək, fırtına, gah da ki, külək,
Coşqun təbiətli, ey dəli ürək.

***

Xəyal körfəzində üzgüçü olur,
Bahartək açılır, payıztək solur,
Ümid girdabından təsəlli alır,
Məni söz pərimin çölünə salır,
Əngin səmalartək xəyala dalır,
Eşqi kaman olur şadlıqlar çalır,
Gah şimşək, fırtına, gah da ki, külək,
Coşqun təbiətli, ey dəli ürək.

***

Bu odlu torpaqda odlara dönür,
Qartal asimanın köksünə enir,
Yalçın qayaların başına sinir,
Röyalar uçanda quştək diksinir,
Qaynar təbiətə susmayır, dinir,
Arzusu daşanda xəyalı sönür,
Gah şimşək, fırtına, gah da ki, külək,
Coşqun təbiətli, ey dəli ürək.

***

Alov dilləritək şölələr çəkər,
Könül bulağında sonatək səkər,
İlhamın barını ortaya tökər,
Duyğu bağçasında gövhərlər əkər,
Kədərin evini şadlıqla sökər,
Sevincdən bir qəsir, bir saray tikər,
Gah şimşək, fırtına, gah da ki, külək,
Coşqun təbiətli, ey dəli ürək.

***

Gur şəlalələrtək zirvədən içər,
Hər acı söz-sovu qəzəblə biçər,
Şadlığın evini pak mənzil seçər,
Enişdən, yoxuşdan əzimlə keçər,
O söz boğçasının ağzını açar,
Gah şimşək, fırtına, gah da ki, külək,
Coşqun təbiətli, ey dəli ürək.

04 aprel 1972.

NİYƏ ŞAİR DOĞDUN MƏNİ, AY ANA?

Niyə şair doğdun məni, ay ana?
Niyə hamı təki olmadım mən də?
Girir bu ürəyim gündə min dona,
Batır duyğularım dumanda, çəndə.

Alışan könlümə sazaq gəzirəm,
Onun yanğıların soyutmaq üçün.
Mən özüm özümdən uzaq gəzirəm,
Bu dəli ilhamı ovutmaq üçün!

Niyə şair doğdun məni, ay ana?
Heç yerdə özümə məkan tapmıram.
Canım oda salıb təni, ay ana,
Oddan qurtulmağa imkan tapmıram.

Hamının qəm yükü sinəmdə yatır,
Bu ağır dərdlərə dözə bilmirəm.
Fəryadım içimdə boğulur, batır,
Könlü qəm əlindən üzə bilmirəm.

Niyə şair doğdun məni, ay ana?
Qəlbə divan tutur soyuq baxışlar.
Mən göllər pərisi, didərgin sona,
Dondurur sinəmi payızlar, qışlar.

Hamıdan soyuqluq, ögeylik gördüm,
Heç yerdə özümü tapa bilmədim.
Hey tale atımı sağ-sola sürdüm,
Yolum yoxuş oldu qopa bilmədim.

Niyə şair doğdun məni, ay ana?
Bu ağrı-acını çəkə bilmirəm.
Vallah, həyatımdan doymuşam cana,
Sinəmdən məlalı tökə bilmirəm.

Məni də ilhamsız doğaydın sən də,
Dünyaya hamıtək baxa biləydim.
Təbimi beşikdə boğaydın sən də,
Hamıtək ağ günə çıxa biləydim.

Aləmin qəm yükün çəkən könlümü,
Qəmlərin əlindən ala bilmədim.
Bütün kainatda səkən könlümü…
Tutub ürəyimə sala bilmədim!

Niyə şair doğdun məni, ay ana?
Doğulduğum günüm yalan olaydı.
Solaydı ömrümün dəni, ay ana?
Şadiman büsbütün talan olaydı.

06. 03. 2003

GÖZDƏ YAŞIM GİRYAN OLAR

Gözdə yaşım giryan olar,
Harayıma kimsə gəlməz.
Ürək yanar, büryan olar,
Bu kar dünya səsə gəlməz.

Bezar olar tən canımdan,
Həzar edər dövranımdan,
Nalə qalxar hər anımdan,
Duman canda sisə gəlməz.

Ağlayaram için-için,
Kədər didər könlün için,
Ah, İlahi, bilməm neçin?
Can bədəndən küsə gəlməz.

Haray salar dil ağızda,
Fəryad edər söz kağızda,
Dinməz dünya bir ağız da,
Başda tufan əsə gəlməz.

Öz fəqanım məni boğar,
Gözlərimdən leysan yağar,
Qəmim dərddən hicran doğar,
Nəfəsimi kəsə gəlməz.

Ürəyimə qəm ələnər,
Donmuş dərdim istilənər,
Könlüm yanar, tüstülənər,
Boğar canı hisə gəlməz.

Uzandıqca ömür yolu,
Qandallayar əli, qolu,
Namərdlərlə dünya dolu,
Ölüm də heç pisə gəlməz.

Ey Şadiman, söylə bilim,
Niyə fəryad edir dilim?
Ürək itər ilim-ilim,
Haraylarım nəsə gəlməz.

06. 10. 2002

YENƏ KÖNLÜM TƏBLƏ CÖVLAN ELƏYİR

Yenə könlüm təblə cövlan eləyir,
Sinəmdə ah ilə dövran eləyir,
Nəşəmi qəlbimə bir an eləyir,
Girir bağrın için al qan eləyir,
Tapıbdı hər bəla dünyada məni,
Gör necə atıbdı fəryadə məni?

Yanıram cövr ilə atəş oduna,
Necə ki, yandı göy günəş oduna,
Ürəyim etmədə hey qəş oduna,
Olubdu vücudum küləş oduna,
Sandı zatən niyə o sadə məni?
Gör necə atıbdı fəryadə məni?

Yenə könlüm elə həsrətdə gəzir,
Alıb ilhamımı vüsətdə gəzir,
Qoymağa ruhumu heyrətdə gəzir,
Səmanı seyr ilə sürətdə gəzir,
Haxlayıbdı elə bil qadə məni,
Gör necə atıbdı fəryadə məni?

Döndərir könlü gülüstanə elə,
Ya da ki, tarlaya, bostanə elə,
Çevirir sözümü dastanə elə,
Ürəyi qoydu zimistanə elə,
Salmadı eşq ilə heç yadə məni,
Gör necə atıbdı fəryadə məni?

Dolaşır könlümü ah, başa vurur,
Qoparır şivəni göz - qaşa vurur,
Bəbəyi coşdurur hey yaşa vurur,
Özünü dəlidi, dağ-daşa vurur,
Bənzədir yağı kimi yadə məni,
Gör necə atıbdı fəryadə məni?

Can atır sitəmi çala qanadı,
Könlümün göyünü ala qanadı,
Köçünü zirvədə sala qanadı,
Olubdu bağrıma qala qanadı,
Səsləyir hay ilə imdada məni,
Gör necə atıbdı fəryadə məni?

Elə çəkir canı bu qəmə tərəf,
Baş vurur o sirli aləmə tərəf,
Düşürür gözümü hey nəmə tərəf,

Gəlməyir heç cürə xoş dəmə tərəf,
Qoyubdu ahimə amadə məni,
Gör necə atıbdı fəryadə məni?

Yenə könlün təbi uçur haraya.
Yetməyir mən dili zarə-haraya,
Gəlməyir sinəmə çarə araya,
Ülfəti varmı de bu can saraya?
Buraxıb zülmünə azadə məni,
Gör necə atıbdı fəryadə məni?

Qəmləri hər anda min bar elədi,
Ürəyim zülmünə qubar elədi,
Dərdimi eşq ilən nübar elədi,
Könlümü əhlara anbar elədi,
Gəzdirir hər gecə röyada məni,
Gör necə atıbdı fəryadə məni?

Şadimanın nə görür çəkdiyini?
Bağrını başına qəm əkdiyini,
Gözünün yaşını hey tökdüyünü,
İlhamın önününə diz çökdüyünü,
Eləyib ağrıya bəyzadə məni,
Gör necə atıbdı fəryadə məni?

17.12. 2002

HİCRAN KÜLƏKLƏRİ ƏSİR BAŞIMDA

Hicran külәkləri әsir başımda,
Dolaşır ağrısı bu göz yaşımda.
Alır bәbәkləri bir uyğu kimi,
Ürәyi titrәdir xoş duyğu kimi.
Düşüncәm qәlbimә peymana gәlir,
Soyuq baxışına imana gәlir.
Ağladır içimi dәrdә ehtiras,
Qurur ümidimin qapısında yas.
Әlim ətəyimdən yapışıb qalıb,
Həsrətim vüsalla çarpışıb qalıb.
Dilimin cövrünə dözmür səbirim,
Ağlım bilməcədir, hissim qəbirim.
Taleyin atını minib çapıram,
Özümə əzabdan qala yapıram.
Suallar heykəltək durub qarşımda,
Hicran külәkləri әsir başımda.

05.03.2011

ÇƏKİL GET, QARA BULUD

Çəkil get, qara bulud, qəlbə divan eləmə,
Al sabahın sinəsin qəmə ünvan eləmə.

Duyğularım gah göydə, gah yerdə avazlanır,
Ürəyimdə dünyanın min bir dərdi yazlanır,
Kədər mənə ərk edir, bu sinəmdə nazlanır,
Ruhun zənguləsinə təbim yenə sazlanır,
Beyitlərin içində misralar pərvazlanır…
Çəkil get, qara bulud, könlü xarab eləmə,
Mənim fəryadlarıma iblistək tab eləmə.

Yenə açdın köksünü, bağrından nə ah gəlir?!
Sübhün könlündən qopub yurduma sabah gəlir,
Hər sabahın içində səvab və günah gəlir…
Həm yerdə, həm göylərdə ucada Allah gəlir!…
Çəkil get, qara bulud, ərşi aha bürümə,
Ö mələk küləkləri, gəl arxanca sürümə.

Bu payız səhərində tök ətəyindən daşı,
Təb məni havalayıb, dolub könlümün başı,
Yerdə, göydə tapmıram ruhuma can sirdaşı!
Elə bilmə fələyin felinə oldum naşı,
Çəkil get, qara bulud, gurşadını ələmə,
Fəqanımı isladıb göz yaşıma bələmə.

Ağlayan duyğulara yer tapmıram gizləyim,
Başına sığal çəkim, elə hey əzizləyim,
Götür üzdən çadranı ilhamla dənizləyim,
Ürəyimi qüssədən, kədərdən təmizləyim,
Çəkil get, qara bulud, sübhümüz xar olmasın,
Təlatümlü varlığım ağrıya yar olmasın.

Küləklərin Xəzərin tellərin daraqlayar,
Duyğularım təbimin kitabın varaqlayar,
Sən gələndə asiman tufanı yaraqlayar,
Bu divanə ürəyim bir sevda soraqlayar…
Çəkil get qara bulud, qəmimə əl eləmə,
Könül qapısın açıb həsrətə gəl eləmə.

Şadimanın ağrısı yeri-göyü tutmayır,
Sinəmdən qopan nalə səmalara çatmayır,
Arzularım bir hovur qəlb içində yatmayır,
İntəhasız kədərin sədaları batmayır,
Çəkil get, qara bulud, dünya içi zülümdü,
Ah olan içərimdi, sənə baxan çölümdü!…

15.11.2003

DOLAN VAXTI

Könül göyün bulud alar,
Şimşək ora yolun salar,
Ümidlərim tənha qalar,
Bürüyər çən, duman baxtı,
Ürəyimin dolan vaxtı.

Diləklərim çaxıb keçər,
Bağrım başın yaxıb keçər,
Bəxt ulduzum axıb keçər,
Kədər qəlbdə qurar taxtı,
Ürəyimin dolan vaxtı.

Kül altında közü neynim?
Qəlb içində sözü neynim?
Çapdı göyə, yerə beynim,
Min bir xəyal qəlbdən axdı,
Ürəyimin dolan vaxtı.

Gözdə yaşı dərya yudu,
Çeşmələrin köksün oydu,
Duyğuları başsız qoydu,
Şimşəklərtək könlüm çaxdı,
Ürəyimin dolan vaxtı.

Bu sinəmdə söz göyərdi,
Kül altında köz göyərdi,
Misralar göz-göz göyərdi,
Vərəqlərim uddu vaxtı,
Ürəyimin dolan vaxtı.

Şadimana həyat odu,
Bir Günəşdi sönməz odu,
Nalə çəkən könül udu,
Bu sinəmin için yaxdı,
Ürəyimin dolan vaxtı.

06.02.2001

EY FƏLƏK VERMİSƏN BU CANI MƏNƏ

Ey fələk, vermisən bu canı mənə,
Allahdan izinsiz ala bilmirsən.
Yanır əzablarda bu miskin sinə,
Onun tellərini çala bilmirsən.

01.07.2000

TƏK SƏNİ İSTƏYİRƏM

Tək səni istəyirəm,
Döyəsən pəncərəmi.
Qapqara zülmət ola,
Oyatmadan aləmi –
Açam qapını,
Qıram tənhalığın sapını.
Gələsən otağıma,
Girəsən könül bağıma, ilhamım.
Hər şeyi unudaq,
O zərif hisslərin acısını, şirini dadaq.
Seyrangaha çıxaq təbimin dolan çağı,
Onsuz da bu tənhalıq mənə yağı!
Alışaq bir yerdə için-için,
yanaq hər ikimiz ürək üçün.

***

Tək səni istəyirəm gözüm dolanda,
Başımın üstünü sükut,
Qara bulud kimi, alanda,
Çatasan dadıma,
Yetəsən bu çılğın anlarda dəli fəryadıma.
Kimsəyə könüldən vurulmadım,
Hardasan, ey mənim adım?
Biz ki, bir-birimizlə dərdimizi bölürük,
Kağızsız, qələmsiz ölürük.

***

Tək səni istəyirəm, ilhamım,
Gəl, tənha gecələrimin yaraşığı,
Şirin Xanımın bəxtsiz taleyinin aşığı.
Sinəmi didib parçalayan acılara,
Dünyanın için doğrayan sancılara,
Bütün dəhşətli ölümlərə,
İnsanları müti edən zülmlərə
təsəlli olaq,
Ucalıqda qalaq.
Altundan da qiymətli,
kağız və qələmlə,
Bu sirli aləmlə,
İmisti sözümüzlə,
Açıq gözümüzlə qələbə çalaq,
Qələbə çalaq…!

10.06.1992

YANACAĞAM

İçimdə alışan yanan bir odam,
Eşqi ərşə büləndd əli fəryadam,
Məndən od alıbdı Həvva və Adam,
Min ildi qovuyla közsüz ocağam,
Ölsəm də məzarda hey yanacağam!

Köksə İlahidən basılıb atəş,
Ki, hərarətimdən od alır Günəş,
Yer-göy bu alovdan qəş eləyir, qəş!
Dünyanın sazağın mən anacağam,
Ölsəm də məzarda hey yanacağam!

Savaş istəyirsə ürək, savaşım,
Bir dəli çeşmətək qaynayıb-daşım,
Boğulub içimdə acı göz yaşım,
Əsla son mənzildə dayanacağam,
Ölsəm də məzarda hey yanacağam!

Söndürə bilməyir odumu rüzgar,
Odur ki, arada qalıbdı ögar,
Qovrulur köksümdə ürək, can-cigar,
Külümlə alova boyanacağam,
Ölsəm də məzarda hey yanacağam!

Dad çəkir əlimdən uca fələklər,
Yanır atəşimdən odsuz ürəklər,
Göydə qanad açır mavi mələklər,
Demə ki, ey könül, usanacağam,
Ölsəm də məzarda hey yanacağam!

İçimin odundan alışır zaman,
Zili bağırımda boğulan kaman,
Dad çəkir əlimdən eyləyir aman!
Torpaqdan alovla oyanacağam,
Ölsəm də məzarda hey yanacağam!

Atəşlər sarılıb, sanki anıma,
Düşüb bu dünyanın odu canıma,
İlğım qarışıbdı yoxdan qanıma,
Od olub Günəşə mən qonacağam,
Ölsəm də məzarda hey yanacağam!

28. 04. 1997

QƏLBİM HƏMDƏM ARAR DİLLƏR İÇİNDƏ

Tənhalıq – nə qədər ağırdı bu ad?
Qoparar içərdə min cürə fəryad,
Gözlərim arayar könlümə imdad,
Qalarsan ağrılı illər içində,
Qəlbin həmdəm arar dillər içində.

Bağrına tökülər dünyanın qəmi,
Ahın lərzə gələr tutar aləmi,
Sənə kədər verər ömrün hər dəmi,
Qalar odun, közün küllər içində,
Qəlbin həmdəm arar dillər içində.

Tənhalıq evinin yayı qış olar,
İnsan hənirtisi bir alqış olar,
Bu ömür bəxtinə nə qarqış olar?
Ürək haray çəkər tellər içində,
Qəlbin həmdəm arar dillər içində.

Saatlar tarıma çəkər əsəbi,
Hönkürər uşaqtək könlünün təbi,
Düşər gözlərindən yaşamaq dəbi,
Sükutun qırılar çöllər içində,
Qəlbin həmdəm arar dillər içində.

Ağlarsan hər gecə kor taleyinə,
Batarsan ələmin sərxoş meyinə,
Yer- göy nalə çəkər bu gileyinə,
Harayın qırılar yellər içində,
Qəlbin həmdəm arar dillər içində.

Dolanar belinə ələm qurşağı,
Dərd səni bürüyər başdan aşağı,
Əgər qismət olsa qocalıq çağı…
Sonatək batarsan göllər içində,
Qəlbin həmdəm arar dillər içində.

Tənhalıq, Şadiman, gəlməyib becə,
Boğar ürəyini həm gündüz, gecə,
Zərif könlün təki duyğular incə,
Qalarsan əlində sükutun necə?
Saralıb solarsan güllər içində,
Qəlbin həmdəm arar dillər içində.

08. 01. 2003

NƏŞ‘Ə MƏNİ DOĞUR, DƏRD İSƏ BOĞUR

Sirli kainatdan zərrətək qopdum,
Məni bu həyatda nə varsa boğur.
Min kərə özümü itirib tapdım,
Nəş‘ə məni doğur, dərd isə boğur.

24.09.2008

DÖZÜM İŞĞALDA

Dözüm işğalda,
Özüm işğalda,
Sözüm işğalda,
Közüm işğalda.
Mən gündüz-gecə,
Allah, bəs necə
Dözüm işğalda?

03.07.2008

ŞAİRİN VƏZİFƏSİ

Şairin vəsifəsi şair olmaq,
Könlündə haqqa yuva salmaq,
Onun qəlbini almaq,
Düzü yazmaq,
Şərə quyu qazımaq.
Dərsini boğazından çıxarsalar da,
Ürəyini qoparıb aparsalar da,
Düzə qələmi çalmaq,
Bulud təki dolmaq,
Şairin vəzifəsi şair olmaq,
Şair olmaq...

31.01.2009

SİZ MƏNİ TANIMAQ İSTƏSƏZ ƏGƏR

Siz məni tanımaq istəsəz əgər,
Coşan misraların selinə gəlin.
Bu gəliş etməsin parıltıtək zər,
Türkün coşub-daşan dilinə gəlin.

Günlərim tökülən payız yarpağı,
İsidir alışan sehri torpağı,
Könül rişəsindən qopan hər ağı,
Yanır cızha-cızla, külünə gəlin.

Ürəkdən doğmasa sözlər bayağı,
İlhamın hər qəlbə dəymir ayağı,
Siz də havalanın bülbül sayağı,
Ruhun bağçasının gülünə gəlin.

Siz məni tanımaq fövqündə olun,
Tuti duyğuların zövqündə olun,
Düşün diyar-diyar ayağıyalın,
Haqqın şeir adlı elinə gəlin.

Gəlin sözə-sova, misraya doğru,
Duyun cadar-cadar alışan bağrı,
Görün ki, harayım yalanmı, doğru?
Qəlbin ud fəryadlı telinə gəlin.

Şadiman söz bəslər qucaq içində,
Doğulur misrası sıcaq içində,
İsinmək istəsəz ocaq içində,
Atəşi qövr edən yelinə gəlin.

12.12.2009

***

Məni ürəyindən çıxar, ey fələk,
Əsdir tufanları qoy coşsun külək.
Canımı qoparıb bədəndən alsın,
Onu kainatın içinə salsın.
Düşüb səyyarələr seyrangahına,
Qoşulum buludun dolan ahına,
Çaxnaşım göylərdə şimşəklər sayaq,
Uçuşum göylərdə mələklər sayaq.
Bütün planetlər güzarım olsun,
Ulduzlar içində məzarım olsun.
Bu sənə səcdədir, deyildir dilək,
Məni ürəyindən çıxar, ey fələk.

30.05.2008

ŞAİR – KAMERTON

Piano dillərini kökləmək üçün
kamerton bir cihazdır.
Musiqini için-için
dindirən xoş avazdır.
Lazım deyil əl vurmaq,
Hər dilə toxunarsa barmaq,
Kamertondan gəlsə səslər,
Demək piano köklənib,
Hər not da diləklənib.
Musiqilər doğulacaq,
Üni ərşə dağılacaq.

***

Şair də kamerton kimi olmalı,
Ağrı-acıyla dolmalı.
Təbiətin xoş səsini,
Vətənin od nəfəsini,
Bu dünyanın harayını,
İlhamıyla duymalıdır
Canın oda qoymalıdır.
Kamertontək yana-yana
hər nota səs verməlidir,
Ağ kağıza canlı nəfəs verməlidir.
Can tağının meyvələrin söz-söz
candan dərməlidir.
Söz yığını şeir deyil,
Şeir hissdir, seyir deyil.
O vücudu titrətməli,
Yeri, göyü ram etməli.
Əgər yoxsa belə qüdrət,
Yazdığında yoxdu sənət!
Gecə-gündüz qəlb dolmalı,
Gözlər yuxusuz qalmalı.
İlhamında can olmalı,
Şair kamerton olmalı,
Şair kamerton olmalı.

09.10.2008

BİLMİRƏM NƏ GƏZİR BU CAN İÇİNDƏ?

Bilmirəm nə gəzir bu can içində?
Canım düşüb qalıb hicran içində.

Xəyalım baş vurur bu aləmlərə,
Sevinc kədər verir ötən dəmlərə,
Gözlərim baş qoyub yatır nəmlərə,
Dünya da hıçqırır bəxtikəmlərə,
Ürəyim çırpınır al-qan içində,
Bilmirəm nə gəzir bu can içində?
Canım düşüb qalıb hicran içində.

Zaman dəqiqəyə yaxa verməyir,
Sinəsin atılan oxa verməyir,
Üşüyən saata çuxa verməyir,
Acın harayını toxa verməyir,
Sübhün işartısı var dan içində,
Bilmirəm nə gəzir bu can içində?
Canım düşüb qalıb hicran içində.

Fikirlər aləmə dağılıb qalıb,
Əlim qoltuğuma sığılıb qalıb,
Gülüşüm dodağda uğunub qalıb,
Qəmim də sinədən yığınıb qalıb,
Əzabım çırpınır hər yan içində,
Bilmirəm nə gəzir bu can içində?
Canım düşüb qalıb hicran içində.

Sevdalı ürəyim gəlmir köksümə,
Telləri bənd olub bir qərib simə,
Dəlitək hovlanır cumur hissimə,
Yad kimi boylanır baxır əksimə,
Məni əsir edir bir an içində,
Bilmirəm nə gəzir bu can içində?
Canım düşüb qalıb hicran içində.

Heyrətdən böyüyür gözümdə aləm,
Ərşin yeddi qatın dağıdır naləm,
Olub çilik-çilik könül piyaləm,
Titrəyir əlimdə ah ilə qələm,
Tənim od götürür büryan içində,
Bilmirəm nə gəzir bu can içində?
Canım düşüb qalıb hicran içində.

Xəyalım aparır yuxumu ərşə,
Gah qüssə şah olur, gah da ki, nəş'ə,
Ürəyim arayır bir tənha guşə,

Qəlbə mehman olur yenə əndişə,
Gözüm haqq arayır iman içində,
Bilmirəm nə gəzir bu can içində?
Canım düşüb qalıb hicran içində.

Mənə qənim olub gecə-gündüzüm,
Fikir haçalanır, söz düzüm-düzüm,
Gah şərə açılır, gah dərdə üzüm,
Mən bu fırtınaya bəs necə dözüm?
Atəşim köz açır zaman içində,
Bilmirəm nə gəzir bu can içində?
Canım düşüb qalıb hicran içində.

Haqqın qarşısında Şadiman nəçi,
Göynədir könlünü dünyanın içi,
Zamanın sərt gedir bu biçhabiçi,
Yamağa, yırtığa olub pinəçi,
Fələyin hər hökmü fərman içində,
Bilmirəm nə gəzir bu can içində?
Canım düşüb qalıb hicran içində.

29.04.2007

YUXUM ÇƏKİLİB ƏRŞƏ

Yuxum çəkilib ərşə,
Çəkir məni qəm şişə,
Yerdən göyə uçuram,
Özümə yol açıram.
Yanır mənimlə gecə,
Ev sükut, sakit küçə.
Qulağımı səs alır,
Gözüm zülmətdə qalır.
Ulduz-ulduz sözlərim,
Bu yol çəkən gözlərim,
Dikilibdi aləmə,
Kimsə dinmir naləmə.
Arabir külək səsi,
O hayqıran nəfəsi,
Gecəyə layla çalır,
Gah qalxır, gah alçalır.
Zülmətdən qopan səda,
Olur könlümə qida.
Hamı yatıb yuxuda,
İlham qara-qorxuda,
Qapımda durub baxır,
Məni yandırıb yaxır.

10.10.2008

MƏNƏ DİVANƏTƏK BAXIB, EY FƏLƏK

Mənə divanətək baxıb, ey fələk,
Bu odu könlümə sən tökmədinmi?
Hissin qılıncını taxıb, ey fələk,
Məni tərəfinə sən çəkmədinmi?

Sinəmdə alışan ocaq çatmısan,
Tutub ürəyimi ora atmısan,
Bütün vücudumu qora qatmısan,
Özün mənlə oda tez çökmədinmi?

Hara gedirəmsə səndən keçirəm,
Sənin arşınınla ömrü ölçürəm,
Hər an dəyişirəm, hər an bir cürəm,
Bu hissin ağacın düz əkmədinmi?

Zamanın dartılan həyat simiyəm,
Gah canın düşməni, gah həkimiyəm,
Mən dəvəsi ölmüş ərəb kimiyəm,
Onun karvanını bir çəkmədinmi?

Kağızlar üstündə göz qaraldıram,
Odum atəş saçır, köz qaraldıram,
Demə, sözüm ölüb üz qaraldıram,
Bu sözün xurcunun sən tikmədinmi?

Şadiman heybətli küləyə bənzər,
Göyləri, yerləri fırlanıb gəzər,
Dünya parıltısı günəş təki zər,
Onun ahu-zarın mənə dedinmi?..

09.04.2011

ALIN MƏNİ, EY DALĞALAR

Alın məni, ey dalğalar, götürün öz sırtına.
Qorxutmayır ürəyimi heç bir zaman fırtına.

***

Təbiətin istəyiylə bu dünyaya gəlmişəm.
Gah hönkürüb ağlamışam, gah ahımı dəlmişəm.
Gah sevdalı aşiqlərtək qəh-qəh çəkib gülmüşəm.
Bu cahanın ağrısını, acısını bilmişəm.
Öz əlimlə gözlərimdən axan yaşı silmişəm.
Doğulandan çarpışmada ağılımın istəyi,
Ağrılarım dopdoludur daşır zaman ətəyi.
Buludların gözlərində axan yaşa dönərəm,
Qanad açıb dəliləşən ləpələrə enərəm,
Çılğınlığım qaçsa məndən ocaq təki sönərəm.

Bu dəhşətli küləklərlə ovudaram ürəyi,
Coşan Xəzər dəli-dolu ilhamımın dirəyi.
O, ulayan tufanlarda quduz dişin qıcıdır,
Yuxusuna haram qatır, göy suları acıdır.
Şahə qalxır gur ləpələr, harayına od düşür,
Sanki sular sultanının sarayına od düşür.
Bu atəşin qığılcımı bağırımda közləşir,
Salır könül otağıma tükürpərdən hay-həşir.

***

Alın məni, ey dalğalar, götürün öz sırtına,
Qorxutmayır ürəyimi heç bir zaman fırtına.

08.07.2007

YANDI KÖNLÜM FƏĞAN İLƏ

Yandı könlüm fəğan ilə,
Ağızımda dil üşüdü.
Günbaşladı əfqan ilə,
Vaxt qoynunda il üşüdü.

Bağ-bağçama xəzan gəldi,
Könlə bəxti yazan gəldi,
Haqq evindən azan gəldi,
Ürəyimdə tel üşüdü.

Gülzarımda çiçək açdı,
Sübh açıldı ətir saçdı,
Şeh yaxasın yellər açdı,
Bülbül öldü – gül üşüdü…

Gül bağrından qopdu nalə,
Yandı göylər, yerlər halə,
Günəş ərşdə od piyalə,
Batdı getdi, yel üşüdü.

Duman aldı könül bağın,
Əydi külək hər budağın,
Titrətdi çən qəlb yarpağın,
Üzündəki tül üşüdü.

Ey Şadiman, qanan başdı,
Könüllə təb pıçıllaşdı,
Zirvə ötdü, dağ dolaşdı,
Ocağımda közüm daşdı…
Alov altda kül üşüdü.

18. 05. 2003

HAQDAN GƏLƏN SƏSLƏR

Boğdu məni bu ələmlər,
Bəşər etdi könlə qəsdlər.
Bitməzmi heç böylə dəmlər?
Siz ey haqdan gələn səslər.

Ciyərimə dolduz mehtək,
Çapdız qəlbdə bir fatehtək,
Bəbəklərdə doğduz şehtək,
Siz ey haqdan gələn səslər.

Tapmadım heç bir dəm aram,
Sağalmadı könül yaram,
Ürəyimi eylədiz ram,
Siz ey haqdan gələn səslər.

Alışdıqca közüm artdı,
Tale qəlbə zəhər qatdı,
Məni adəm oda atdı!
Siz ey haqdan gələn səslər.

Hey apardız iqtidarı,
Ümidlərim yolda yarı,
Qəlbdə nə var böldüz yarı,
Siz ey haqdan gələn səslər.

Canım çıxdı boğazımdan,
Tel qırıldı qəlb sazımdan,
Dilim qopdu ağızımdan!
Siz ey haqdan gələn səslər.

Can dedikcə canım yandı,
Gündə min yol qəlb dayandı,
Könül oda hey boyandı,
Siz ey haqdan gələn səslər.

Hər gecəmə layla olduz,
Hey nəş‘əylə, vayla olduz,
Bağrıma nə hayla dolduz?
Siz ey haqdan gələn səslər.

Ürəyimi alın çəndən,
Qırmın könül telin dən-dən,
İstəyiniz nədir məndən?
Siz ey haqdan gələn səslər.

Sanki qəlbi yel eylədiz,
Diləyi tel-tel eylədiz,
Gözdə yaşı sel eylədiz,
Siz ey haqdan gələn səslər.

Könlümü nə qovhaqovdu?
Kədər məni satdı, sovdu,
İçimdə bu nə alovdu?!
Siz ey haqdan gələn səslər.

Bəbəklərdə doğdu nəmlər,
Ürəyimi boğdu qəmlər,
Bitmədi ki, bu ələmlər?
Siz ey haqdan gələn səslər.

Nə vaxt girdiz otağıma,
Pıçıldadız qulağıma,
Hey qor tökdüz yatağıma!
Siz ey haqdan gələn səslər.

Evimdə bir mələkmisiz,
Qəlb içində diləkmisiz,
Hər yük çəkən ürəkmisiz,
Siz ey haqdan gələn səslər.

Canımdakı köz ovuldu,
Qəlbdən göyə kül sovuldu,
Şadiman ki, Rəbbə quldu!...
Siz ey haqdan gələn səslər.

18.03.2000.

ÖLDÜRÜN, DİRİLDİN MƏNİ ADAMLAR

Öldürün, dirildin məni adamlar,
Ancaq ürəyimi almın əlimdən.
Qalsın kahasında sirr dolu kamlar,
Bir şəffaf büllurtək salmın əlimdən.

Siz mənim könlümdən keçirin qəmi,
Batırın ahımda bütün aləmi,
Qoy özüm eşidim, acı naləmi,
Asın harayımı hər bir telimdən.

Öldürün, dirildin məni yad kimi,
Yarın ürəyimi bir cəllad kimi,
Hər sözüm hayqırsın bir övlad kimi,
Düşməsin fəryadı heç vaxt dilimdən.

11.04.2011

OVUNDURA BİLMƏZ

Günəşin ağzından çıxan bir odam,
Dünyanın bağrından qopan fəryadam,
Alışar ahlardan bu könül odam,
Qaçar harayımdan əsən küləklər,
Məni ovundura bilməz fələklər.

Gözlərim gurşadı boğar beşikdə,
Mənim göz yaşlarım yağar eşikdə,
Ürəyim dünyaya yanar keşikdə,
Qopar bağrımdan, uçar diləklər,
Məni ovundura bilməz fələklər.

Qəlbə tən gəlməkdə zirvələr naşı,
Dərdlərə ocaqdır könlümün başı,
Oyatmaz hayqırtım dostu, sirdaşı,
Zaman da ömrümün anın ələklər,
Məni ovundura bilməz fələklər.

Könlümün istəyi gözündə donar,
Gecə də, gündüz də bu qəlbim yanar,
Ahım bu dünyanı gəzib dolanar,
Qoynuma sığınıb qalar biləklər,
Məni ovundura bilməz fələklər.

Sinəmi tutmayan dərdlər ağlaşar,
Hörümçək torutək elə bağlaşar,
Hər biri böyüyər, şişər, dağlaşar,
Heç könlü anlamaz, duymaz ürəklər,
Məni ovundura bilməz fələklər.

Baş alıb dünyadan getmək istərəm,
Ayı, Günəşi də ötmək istərəm,
Zamanın gözündən itmək istərəm,
Saatlar ömürə qurar kələklər,
Məni ovundura bilməz fələklər.

Çıxıb adamlıqdan olaram ulduz,
Göydə səyyarəmiz nə nazəndə qız?
Üşüdən baxışlar kipriyimdə buz,
Dünyanın qəmləri könlümü təklər,
Məni ovundura bilməz fələklər.

Şadiman, göy qopar bu fəraqıma,
Buludlar, şimşəklər dözməz ağıma,
Öz könlüm, öz qəlbim dönər yağıma,

Ahımdan alışıb yanar mələklər,
Məni ovundura bilməz fələklər.
Məni ovundura bilməz fələklər.

17.08.2001

DİLƏ GƏLDİ ÜRƏYİMDƏ DUYĞULAR

Dilə gəldi ürəyimdə duyğular,
Oxu könlüm, oxu səsin çağlasın.
Məhəbbətdən sehirləşir uyğular,
Oxu könlüm, qaranlıqlar ağlasın,
Oxu könlüm, oxu səsin çağlasın.

Bir tənimdi, bir ruhumdu, bir də sən,
Söylə mənə ya göydə, ya yerdəsən?
Öt bülbültək, əyilmə heç dərdə sən,
Oxu könlüm, nəş'ə qəmi dağlasın.
Oxu könlüm, oxu səsin çağlasın.

Səndən əziz, səndən pünhan kimim var?
Təbim adlı dəryalarda gəmim var,
Ürək telin əsdirən bir dəmim var,
Oxu könlüm, haqq şər yolun bağlasın,
Oxu könlüm, oxu səsin çağlasın.

Mən sənինlə ilhamıma yetmişəm,
Dərin-dərin fəzalarda ötmüşəm,
Ulduzların arasında itmişəm,
Oxu könlüm, vaxt sənə əhd bağlasın,
Oxu könlüm, oxu səsin çağlasın.

Əzəl gündən candı möhnət yuvası,
Ona məlhəm İlahinin duvası,
Getməz başdan eşq, məhəbbət havası,
Oxu könlüm, xeyir şəri dağlasın,
Oxu könlüm, oxu səsin çağlasın.

Şadimanı məmnun etdi diləyin,
İlham adlı o şahanə mələyin,
Sevdasından doğulmusan fələyin,
Oxu könlüm, təb misranı bağlasın,
Oxu könlüm, oxu səsin çağlasın.

13. 09. 2003

AĞLADIR KÖNLÜMÜ SULTAN TƏBİM

Bağrımı odlara atan təbim,
Ağladır könlümü sultan təbim.

Dözürəm hələ də min cövrünə,
Gör necə mən yanıram qövrünə,
Düşmüşəm bu alışan dövrünə,
Bağrımı odlara atan təbim,
Ağladır könlümü sultan təbim.

Hələ mənimlə davadı işi,
Nəş'əmi ələmlə doğrar dişi,
Sitəmdi bağrıma bu gərdişi,
Yorulub sinəmdə yatan təbim,
Ağladır könlümü sultan təbim.

Hər gecə ürəyimi qoparır,
Bilmirəm hansı səmtə aparır?
İtirir, sonra da göyü arır,
Gah çıxıb, gah da ki, batan təbim,
Ağladır könlümü sultan təbim.

Yalvarıb əl açıram Allaha,
Bir məni sağ çıxara sabaha,
Dözmürəm eylədiyi bu aha,
Aləmi hər cürə qatan təbim,
Ağladır könlümü sultan təbim.

Gah üzür dəryada balıq kimi,
Gah ötür hökümlə xalıq kimi,
Gah düşür cəbrinə qalıq kimi,
Hesabın kəsirlə tutan təbim,
Ağladır könlümü sultan təbim.

Elə ki, günəşə, aya dönür,
Daşdırır çeşməni, çaya dönür,
Ürəyimlə aha, vaya dönür,
Ömrümə dərd yükü çatan təbim,
Ağladır könlümü sultan təbim.

Yetməyir Şadimanın dadına,
Yanıram atəş ilə oduna,
Düşməyir əhdi-ilqar yadına,
Məni ilhamına satan təbim,
Ağladır könlümü sultan təbim.

03.03.2003

SİNƏ DOLU, GÖZÜ AĞLAR ŞAİRƏM

Sinə dolu, gözü ağlar şairəm,
Sabah üçün pak işinə, qurbanam.
Bulaq təki qaynar, çağlar şairəm,
Təbim, qəfil gəlişinə, qurbanam.

Bir səyyadam, səhraların qonağı,
Yazılmayıb qəlbin min bir varağı,
Sabahımın xoş məramı, çırağı,
Təbim, qəfil gəlişinə, qurbanam.

Zaman deyir, onsuz gec-tez sözünü,
Çoxlarının şöhrət örtüb gözünü,
Bir danışdır ürəyimin özünü,
Təbim, qəfil gəlişinə, qurbanam.

İçimdəki məramlarım cilalı,
Atdım daha qəm-qüssəni, məlalı,
Taleyimin sabahının calalı,
Təbim, qəfil gəlişinə, qurbanam.

Çox quruyub gözlərimdə qəm yaşım,
Dərdi-sərlə keçdi cavan, mərd yaşım,
Qurtarmazdır, cəfalardan heç başım,
Təbim, qəfil gəlişinə, qurbanam.

Hər ömürə canlı bir gün yazılar,
Rəngarəgdir talelərdə yazılar,
Şər əliylə mərdə quyu qazılar,
Təbim, qəfil gəlişinə, qurbanam.

Şadimana namərd dağlar çəkibdi,
Sıx ormanam, başıma çən çökübdü,
Haqq yolunda gözüm çox yaş tökübdü,
Təbim, qəfil gəlişinə, qurbanam.

25.10.1987

***

Ürəyimdə yatıb qalmış,
Məni tələtümə salmış,
Ümidlərimin açarı…
Fırtınalı, qasırğalı,
Başı min bir qovğalı,
Günlərimin qaçarı.
Səni axtardığım gündən,
Qurtula bilmirəm bu düyündən…

22.11.1998

XƏYALIM

Eldən qüvvət alıb uçan xəyalım,
Yamyaşıl düzlərdən keçdin-keçmədin?
Mənim ilham adlı gözəl vüsalım,
Qaynar bulaqlardan içdin-içmədin?

O bəyaz çöllərdə qonaq olanda,
Lalələr, nərgizlər dərdin-dərmədin?
Yurduma baharın ətri dolanda,
Şadlıq süfrəsini sərdin-sərmədin?

Eşqin həvəs ilə, vəchlə coşanda,
İlhamın qaynayıb daşdı-daşmadı?
Təbin tərəvətlə nəğmə qoşanda,
Keçilməz dağlardan aşdı-aşmadı?

Kəkliklər, turaclar koldan səkəndə,
Şiş qayalıqlara qondu-qonmadı?
Günəşli günlərdə yağış tökəndə,
Heyrətdən bir anlıq dondun-donmadın?

Səma buludları çox çaxnaşanda,
Xəyalım, tutuldun, tutulmadınmı?
Ürəyə qüssələr, qəm axnaşanda,
Bəladan qurtuldun, qurtulmadınmı?

Saf çöllərdən qazlar, qular köçəndə,
Baharın səfasın duydun-duymadın?
Köçkün qaranquşlar yurda uçanda,
Sən təbiiliyə uydun-uymadın?

Xəzər İtil ilə qoşa coşanda,
Dünyalara səda düşdü-düşmədi?
Ürəklər istəklə qoşalaşanda,
Qəmlərin bağırı bişdi-bişmədi?

Gənclik sabahlara səslər elləri,
Bu qüdrətdən de pay aldın-almadın?
Əllər coşduranda geniş çölləri,
Sən də öz nəğməni çaldın-çalmadın?

Çöllü-biyabana həyat gələndə,
Heyrətindən nağıl oldu-olmadı?
Ellər şadlığından deyib-güləndə,
Könlə həyat eşqi doldu-dolmadı?

Vicdanla əməyə söz birləşəndə,
Göydən ilham pərin endi-enmədi?
Ölkəmizdə hər şey yeniləşəndə,
Diləklər zövq alıb dindi-dinmədi?

Sözlə əməl, işlə ayaqlaşanda,
Dastan olub elə yayılmadımı?
Hünərlə vicdanlar sayıqlaşanda,
Çətinliklər düşüb bayılmadımı?

Çiçəkdən don geyən yurdun sevinci,
Tarda-kamançada səslənmədimi?
Ana torpağımdır ömrə dürr, inci,
Düşüb ürəklərə bəslənmədimi?

Qafqaz duyğumuzun uca sərvəti,
Könüldə ehtişam oldu-olmadı?
Ürəkdə sevginin zinət izzəti,
El xəzinəsinə doldu-dolmadı?

Haqqın məramıyla dolan ürəklər,
Birlik obasını qurdu-qurmadı?
Açıb qanadını uçan küləklər,
Erkən yuxulardan durdu-durmadı?

05.04.1978.

DONUB QALARAM

Mən həyat gözündən tökülən yaşam,
Dəryalar boğular həyəcanımdan.
Ələmlər içində ağrılı başam,
Dünyanın ağrısı çıxmaz canımdan.

Zaman məhvərindən qopan bir mehəm,
Oxşaram naləli bu gündüzləri.
Sübhün gözlərində boğulan şehəm,
Damlamla sularam yanan düzləri.

Buluda dönərəm susuz çəməndə,
Yanan çiçəkləri ovutmaq üçün.
Bulaq çeşməsini tapıbdı məndə,
Alışan köksünü sovutmaq üçün.

O müdhiş gecənin qaranlığında,
Ayın gözlərinə çıraq olaram.
Çirkin ürəklərin viranlığında,
Dönüb bir heykələ donub qalaram.

17.03.1999.

SƏN EY TUFAN MƏHƏBBƏTİM

Sən ey tufan məhəbbətim, küləklərtək əs könlümdə,
Qəmin ağrı, acısının telini tap, kəs könlümdə,
Səmalarda buluda dön, yağdır göydən yağışları,
Sinəmdəki əzabların ilmələnsin naxışları.
Dincliyimə həsrət qalsın həyatıma gələn anlar,
Qoy bitməsin sinəmdəki hicran dolu bu divanlar.
Ürəyimi çalxat seltək, dağa-daşa vursun özün,
Kül altında sovur göyə, kirin - kirin yansın közün.
Sən ey tufan məhəbbətim, gözlərimdə yaşı sellət,
Buludlartək dolan könlü qoy üzməsin acı illət.
Zərrə-zərrə, hissə-hissə ağrılarım havalansın,
Dodağımdan qopan səda fələklərə duvalansın.
Şimşəklərtək atəşləri töküm yerin bağırına,
Sən ey tufan məhəbbətim, qoy əriyim ağırına.
Bu ağrıyan ürəyimin şəfasına dəva umma,
Mən çəkdiyim əzabları bir kimsəyə rəva umma.
Başda əsən ağılımı göy üzündə quşa döndər,
Sinəmdəki qorxuları lal sükutlu daşa döndər.
Duyğulansın saatlarım, sellər təki aşıb daşsın,
Hissim qonsun sıldırıma qartallartək zirvə aşsın.
Bu hönkürən xiffətimə toxunmasın soyuq baxış,
Toxunarsa, gətirəcək sabahıma boranlı qış.
Sən ey tufan məhəbbətim, Allahıma iman elə,
Yerdən, göydən küsən cana təbib olub dərman elə.
Əzablardan qurtularaq fələklərtək ucalaşım,
Əl götürüm bu dünyadan əbədilik vidalaşım.

29.02.2004

UÇAN RÖYALAR

Gəlişin, gedişin qəfil olsa da,
Rəngin avazıyıb, üzün solsa da,
Mavi gecələrim sənsiz dolsa da,
Gəl könül qapımı döy dönə-dönə,
Söylə pıçıltıyla gəlirəm yenə.

Həsrət kəməndinə salarsa səni,
Üstünə qovlasa dumanı, çəni,
Ey uçan röyalar, unutma məni,
Zamanın təkəri geriyə dönə,
Söylə pıçıltıyla gəlirəm yenə.

Uyğulu göylərdə şimşəklər çaxa,
Köksümü həsrətlər alova yaxa,
Gözlərim yoluna hey baxa-baxa,
Dərdimə yüklənib dolsa da sinə,
Söylə pıçıltıyla gəlirəm yenə.

Başımın üstündə yellər əsərsə,
Dilim incəyərsə, ruhum küsərsə,
Qapımın ağzını həsrət kəsərsə,
Bəxtimin çırağı lap qəfil sönə,
Söylə pıçıltıyla gəlirəm yenə.

Gözümdən yaşlar yox, sel axıb gedə,
Min çalarlı yuxum zülümlər edə,
Həsrətlər vəhşitək köksümü didə,
Ünyetməz göylərdən bəlalar enə,
Söylə pıçıltıyla gəlirəm yenə.

Rəngli röyalara aləm gülsə də,
Külli-ixtiyarsan cahan bilsə də,
Həsrət yaşlarını aləm silsə də,
Zülmətin gözləri tuş olsun çənə,
Söylə pıçıltıyla gəlirəm yenə.

Gecəmin xəyalı daş-qalaq olub,
Ahımı dinləyən kar qulaq olub,
Gözüm yaş axıdır, can bulaq olub…
Anlat ötənləri yuxumda mənə,
Söylə pıçıltıyla gəlirəm yenə.

Uçan röyalarım, sızlama hər gün,
Anların kələfi açılmaz düyün,
Ürək döyüntüsü can deyir, öyün,
Budur son qərarım, tövsiyyəm sənə,
Söylə pıçıltıyla gəlirəm yenə.
Söylə pıçıltıyla gəlirəm yenə.

03.11.1985

QAPIM DÖYÜLDÜ

Yatmışdım. Qərib gecə. Sükut içində hər yan.
Səssizlik öz kamında. Birdən qapım döyüldü.
Qorxulara büründüm, ruhum olmadı həyan,
Bu ani səadətin önündə qəm əyildi.

Yönəldim tez qapıya, görən gələn kim ola?
Sordum astaca: «Susqun, Kimsən? Ey gələn, danış.»
Nə səs varmış, nə səda, sükut gəlmədi yola.
Səslənən qulağımmış, hər şey könlümə tanış.

Bu zaman daxilimdə haçalandı duyğular,
Qulaqları oxşayan ilhamın nəfəsiymiş.
Qəlbi pərvazlandıran bu bəzəkli uyğular,
Sözlərlə cilalanan ürəyimin səsiymiş…

24.11.1989

OLAR

Fələk könlə vəfa qılmaz, könül candan bezar olar.
Ürək ağlar, odu qalmaz, can içində azar olar.

Dilim fəryad çəkər ahdan, səda gəlməz heç Allahdan,
Şişib dünya hər günahdan, içi mənə məzar olar.

Yanar cigər, yanar bağır, bir kimsəyə yetməz çağır,
Fələk edər cəfa ağır, dil ağızdan həzar olar.

Gözlərimdən çeşmə doğar, bəbəkləri tutub boğar,
Qəlb səhrama hicran yağar, bu səhradan gülzar olar.

Üzü gülməz heç taleyin, edər üzə hey gileyin,
Zaman kəsər yolun heyin, yoxuş mənə güzar olar.

Vəfa qılmaz Rəbb adəmə, salar könlü dəmdən-dəmə,
Göz bulanar acı nəmə, sinəmdə hey ah-zar olar.

Zaman yapar saray andan, nalə qalxar hər bir yandan,
Tən ayrılar mələk candan, əl məzarı qazar olar.

Can cisimdən qopar hənuz, öz ulduzun tapar hənuz,
İçimdə dərd çapar hənuz, könül mülküm bazar olar.

Cəfalar hey başdan aşar, yazıq ürək qəmlə yaşar,
Ey Şadiman, təbim daşar, əlim ahdan yazar olar...!

08.11.2001.

KİMSƏ ÜRƏYİMƏ TOXUNMAYAYDI

Kaş bir bu dünyadan qaça biləydim,
Ünvanım heç dildə oxunmayaydı.
Başqa səyyarəyə uça biləydim,
Kimsə ürəyimə toxunmayaydı.

Bu sınıq bəxtimə kəsilib asi,
Başımda sınaydı könlün əsası,
Alaydım özümdən özüm qisası,
Kimsə ürəyimə toxunmayaydı.

Mənə dərd verənlər mənsizləşəydi,
Qəlbin asimanı çənsizləşəydi,
Könlümə bir yeni nəğmə düşəydi...
Kimsə ürəyimə toxunmayaydı.

Uçaydım yellərtək göyün üzünə,
Düşəydim buludun axan gözünə,
Dönəydim leysanın mən də özünə,
Kimsə ürəyimə toxunmayaydı.

Sellərdən soraydı fələk ismimi,
Çırpaydı daşlara sular cismimi,
Fəryada gələndə könlümün simi,
Kimsə ürəyimə toxunmayaydı.

Üzəydim qəlbləri, boğan dərdləri,
Dünyadan qovaydım mən namərdləri!
Qoparıb ataydım bu sərhədləri...
Kimsə ürəyimə toxunmayaydı.

Canım boğazımdan çıxsaydı, nə qəm?
Ölüb dirilirəm mən taleyi kəm,
Varağa yaş töküb, yananda qələm...
Kimsə ürəyimə toxunmayaydı.

13-14.05.1999

YENƏ KÖNLÜM QUŞU CÖVLAN ELƏYİR

Yenə könlüm quşu cövlan eləyir,
Qəlbimin ahıyla dövran eləyir.
Yenə ötür ürəyim "Şur" ilə,
Təb vurur könlə özün qan eləyir.
Gözümdə cilvələnir yaş dənizi,
Çalxadır qəlbi yarımcan eləyir.
Yenə bağrım savaşır ah ilə,
Qanımı bir dolu fincan eləyir.
Dil açır dadıma tez yetmək üçün,
Yetişir dilimi şan-şan eləyir.
Düşəli bu ürəyim naləyə,
Qəm gəlir könlümü nişan eləyir.
Sığmayır ev-eşiyə ilhamım,
Özünü məni pərişan eləyir.
Salıbdı zülümə bu Şadimani,
Ömrümü ahıya viran eləyir.

03. 03. 2003

NƏDƏN SIZLAYIRSAN DİVANƏ, BÜLBÜL?

Nədən sızlayırsan divanə, bülbül?
Gəlmirsən bir dinə, imanə, bülbül,
Vermisən ömrünü fərmanə, bülbül,
Uyma, gəl hərcayi peymanə, bülbül,
Sənin də, mənimtək, fəğanın qandı,
Həyatın hər üzü canə divandı.

Sən dərdə giriftar, mən dərdə açar,
Bu könül qapımı yalnız dərd açar,
Qalmışam müsibət əlində naçar,
Qəlbim qopub təndən yanına qaçar…
Ürəyim ələmə, qəmə ünvandı,
Həyatın hər üzü canə divandı.

Bülbül, elə acı zamanlarım var,
Sinəmdə ahlarım, amanlarım var,
Nəş'əyə, şadlığa gumanlarım var…
İlhamım çağlayır, ummanlarım var,
Bəlkə bu harayın haqqa dəvandı,
Həyatın hər üzü canə divandı.

Gəl elə oxuma, can yanır axır,
Sinəmin fəryadın yandırıb-yaxır,
Könlüm buludlayır, şimşəklər çaxır,
Səni bura salan eşqə kəm baxır…
Zindan, nə zamandan, azad yuvandı?!
Həyatın hər üzü canə divandı.

İlhamım əsirdi bu məhəbbətə,
Çəkilək sənlə, gedək xəlbətə,
Salmayaq misranı, təbi xiffətə,
Girək bir-biriylə tuti-söhbətə,
Elə vurğun oldum, səntək, afətə,
Dilinin cəh-cəhi qəmi qovandı,
Həyatın hər üzü canə divandı.

Dəmir sarayının qapısı bağlı,
Çırpınma, təntimə, itirmə ağlı,
Hərəyə bir cürdü həyat nağılı,
Sən dustaq, mən çöldə sinəsi dağlı!
Gözündən axan yaş dərdi yuvandı,
Həyatın hər üzü canə divandı.

Salma Şadimanı həvəsə, bülbül,
Belə eşq göstərmə qəfəsə, bülbül,
Aram et boğaza, nəfəsə, bülbül,
Vermə ürəyimlə səs-səsə, bülbül,

Deyərlər başında dəllik havandı…
Həyatın hər üzü canə divandı.

12.11. 2003

PAYIZ AXŞAMI

Qəlbimi, ruhumu alıb əlimdən,
Tufan qoparırsan, payız axşamı.
Bu coşğun təbimi o pak elindən,
Hara aparırsan, payız axşamı?

Yandırma ürəyi, atıb qoynuna,
Qoymursan könlümü odda qoruna,
Çılğın dilək̀ləri salıb toruna,
Hara aparırsan, payız axşamı?

Sükut içindədir gecənin bağrı,
Silinib qəlbimdən hər acı-ağrı,
Hicrində alışan ürəyi, bağrı,
Hara aparırsan, payız axşamı?

Köksümdə alışan ulduzlar səf-səf,
Hüsnünü oxşayan hilalın sədəf,
Qara şallı gecə uyğuma kələf,
Hara aparırsan, payız axşamı?

Şadiman bir şərqi oxuyur pəstə,
Sevgiylə alışan ürəyi xəstə,
Durmusan təbimlə yenə də qəsdə,
Hara aparırsan, payız axşamı?

11.11.1991

***

Ürəyimdən qopar ahlar, bağrım başı fəğan edər,
Sınar könlüm sitəmlərdən yerə, göyə əfqan edər.
Dildən qopan harayımdan buludlar da sıxar-tökər,
Həm əzabı, həm zülümü can bədənlə birgə çəkər.
Ağlayaram için-için, fələk bilməz qəmi neçin?
Gözlər üzər qan gölündə vəfa bilən ürək üçün.
İlham qapım bağlı qalar, gəlməz kimsə sorağına,
Misralarım axar sutək ürəyimin varağına.
Oyaq qalar bəbəklərim, yuxularım uçar ərşə,
Üzər məni ah, Allahım, bu həyəcan, bu əndişə.
Alışaram, ocağıma düşər bir-bir hicran odu,
Ötməz məndən gecə-gündüz qəlbə düşən canın odu,
Üzü gülməz Şadimanın ürəyinin cəfasından,
Ömür ötər, dadmaz könül yar dünyanın vəfasından.

21.12. 2002

ÜRƏK, QINAMA SƏN MƏNİ

Könlə yağanda yağışlar,
Yuyar qəlbimdən sis, çəni.
Ömürdən keçər baxışlar…
Ürək, qınama sən məni.

Mən gizli-gizli dolanda,
Hərdən saralıb solanda,
Qəlb intizarda qalanda,
Ürək, qınama sən məni.

Göydə buludlar coşarsa,
Şimşəklər sərhəd aşarsa,
Təb buna nəğmə qoşarsa,
Ürək, qınama sən məni.

Əslitək yanar od olsam,
Leylitək çölə yol salsam,
Şirintək dərdlə tək qalsam,
Ürək, qınama sən məni.

Gözlərimlə yaş tökərəm,
Bu yaşdan hicran əkərəm,
Dərdi ortaya tökərəm,
Ürək, qınama sən məni.

İstəkli gözlər bu gözüm,
Alışar qəlbdə od-közüm,
Bağrımda partlar bir dözüm…
Ürək, qınama sən məni.

Dolaşıq işə düşəndə,
Ağlamaqdan qəlb şişəndə,
Ruhumdan ayrı bişəndə,
Ürək, qınama sən məni.

Gözdə yağışlar yağanda,
Qüssəni, qəmi boğanda,
Ruhumda ilham doğanda,
Ürək, qınama sən məni.

Meh qovlayanda dumanı,
Gözüm gəzəndə ümmanı,
Coşanda hissin al qanı,
Ürək, qınama sən məni.

Azalar ikən dərd-acı,
Şöhrətə ensə baş tacı,
Çoxalsa qardaş, həm bacı,
Ürək, qınama sən məni.

Könlümdür sevgi adası,
İçində yanar odası,
Keç günahımdan, qadası,
Ürək, qınama sən məni.

Ovqatım qəfil tutulsa,
Ahdan çıxıb bir qurtulsa,
Ağlım sevgiyə satılsa,
Ürək, qınama sən məni.

Var Şadimanın aləmi,
Çıxmaz seyirdən qələmi,
Eşitsən içdən naləmi…
Ürək, qınama sən məni.

25.07.1985.

GECƏLƏR ŞAMI

Oduna yandığım, gecələr şamı,
Sənin atəşindən köz var sinəmdə.
Elə cilvələnir ruhumun kamı,
Hələ deyilməmiş söz var sinəmdə.

Yenə həyacanlar bürüyür canı.
Göylərə, yerlərə sürüyür canı,
Coşur damarının çağlayan qanı,
Təbimi dindirən göz var sinəmdə.

Könlümdə diləklər gəzir havalı,
Sirli kainata qəlbdən duvalı,
Uçuşur saatlar əldə qavalı,
Telləri oynadan saz var sinəmdə.

Varağlar üstündə bağrım ahlanır,
Qələmim susanda can gunahlanır,
Zülmətdən ay doğur, yer sabahlanır,
Bəyaz qışdan sonra yaz var sinəmdə.

Ey gecələr şamı, düşdüm sevdaya,
Döndü ürəyimdə həsrət nidaya,
Şükürlər olsün ki, Böyük Xudaya,
Haqqın cığırına iz var sinəmdə.

22. 02. 2004

XƏYALINLA ALIŞARAM GECƏLƏR

Xəyalınla alışaram gecələr,
Sənsiz könül necə yatıb dincələr?
Ürək ki var, yolundaca incələr,
Ucalığım, həqiqətim, hardasan?

Göz qalıbdı yollarında didərgin,
Ömür gərgin, həyat gərgin, gün gərgin,
Gülzarlıqda bir tale var, lap ölgün,
Təmiz, şəffaf ülviyyətim, hardasan?

Uca-uca eşq dağına çıxmışam,
Ayrılığın yurd-yuvasın yıxmışam,
Sevdanın ağ əllərini sıxmışam,
Quş qonmayan sədaqətim, hardasan?

Sellər-sular təki coşub çağlaram,
Həsrətinin əl-qolunu bağlaram,
Hicranından dağa dönmüş, dağlaram,
Qələmimə şan-şöhrətim, hardasan?

Bahar gəlib, bağçamızda çiçəklər,
Arzularım qəlb içində ləçəklər,
Ömür keçər, qocalığım gerçəklər,
Kağızıma səadətim, hardasan?

Şadimanın vüsalının əlacı,
Həsrət, hicran acı olur, çox acı,
Şadlığımın, fərəhimin baş tacı,
Misralara məhəbbətim, hardasan?

11.10.1986

DOĞULAN ŞEİR

Bu gecə ruhumdan doğulan şeir,
Məni ağlatmağçın çox can atırsan.
Bağrımın içində boğulan şeir,
Çaxnaşma içində əl-qol atırsan.

Yuxumu qovursan gözüm içindən,
Tələş axtarırsan sözüm içindən,
Canımı gəzirsən dözüm içindən,
Yorğun kürəyimə şələ çatırsan.

Mən də dilsiz-dilsiz baxıram sənə,
Düşürəm zülmətə, batıram çənə,
Yenə oğrun-oğrun dil olma mənə,
Könlüm elə bilir sən də yatırsan.

Yoruldum, tükəndim səadətindən,
Vaxt, zaman bilməyən söz-söhbətindən,
Daha usanmışam məhəbbətindən,
Girib ürəyimə aləm qatırsan.

Bu gecə ruhumu burax, dincəlsin,
Bir hovur özünə, közünə gəlsin,
Verdiyin ağrının odu incəlsin,
Bəsdir ürəyimi atıb-tutursan.

23.11.2011

EY ŞAMLAR AŞİQİ

Ey şamlar aşiqi, gözəl pərvanə,
Gəl belə dolanma çıraq başına.
Sinəmdən od tökür könül divanə,
Aləmi hönkürdən varaq başına.

Mən ki, əhli-qələm, sən eşqə sultan,
Qəlbimin atəşin alova tutan,
Ayıltma gecəni, uyusun yatan,
Özünü od-közün içinə atan,
İkimiz ocağın duraq başına.

Səni candan əziz sandım özümə,
Səntək oda düşüb yandım özümə,
Demə leylalığı belə üzümə,
Gəl tök atəşindən uyan gözümə,
Bir yerdə dəlitək vuraq başına.

Pərvanə, odlara tutma canımı,
Dəli həsrətimə gəl tut anımı,
Bu düşğün könlümlə qur dövranımı,
Qaldıraq göylərə eşqin şanını,
Bir xəta yetişər iraq başına.

Gələnlər dünyaya divanə gəldi,
Rəbbin ayırdığı ünvanə gəldi,
Gəlib bir-birindən lap canə gəldi,
Etdiyi bəlalar dövranə gəldi…
Könlüm atəşindən imanə gəldi,
Vurma tellərinin daraq başına.

Şadiman sevdana oldu mübtəla,
Qoyma ürəyini haxlasın bəla,
Mən yandığım təki sən də yan hala,
Yapma həsrətindən kədərə qala,
Gəl tökmə aləmi soraq başına.

12. 09.2003

HECA

Şirin laylaların ana dilində,
Könlümün içinə dağılan heca,
Düşüb yuyunuram şaqraq selində,
Zərif çiçəklərtək yığılan heca.

O tuti ləhcənə vurulub qaldım,
Kövrək zəngulənə mehrimi saldım,
Evinə təb adlı sehrimi saldım,
Ruhumdan, canımdan doğulan heca.

Səndən qopub gəlir hər ağı, layla,
Dolmuşam küləyi, buludu hayla,
Ahımın təşnəsi sovrulsun vayla,
Doğma kəlmələrlə yoğrulan heca.

Sazımın, tarımın közü səndədir,
Min illik qopuzun izi səndədir,
Səndə bu məhrəmlik, doğmalıq nədir?!
Ögey baxışlardan boğulan heca.

Zərif çiyinində dastanlar gəzir,
Sən türk doğulana Tanrıdan nəzir,
Sənə xor baxanlar ruhumu əzir,
Ey heçdən var olan, doğrulan heca.

Anamın nəfəsin səndə duyuram,
Dəli istəyinə yartək uyuram,
Səni varlığımdan necə ayıram?!
Çocuqtək bağrıma sığılan heca.

Qolların boynuna dolar Şadiman,
Hissimin allahı, eşqimə iman,
Ağlayan könlümə bir təkcə dərman,
Təbsiz şe‘r əhlindən sıxılan heca…

Əzəldən layiqsən ən yüksək taca,
Yerin zirvələrdən ucadır, uca!

04.10.2013

ŞAİRİN GÜNÜ

Dünyada şairin günü olmayır,
Onun sözləridi həyat nağılı.
Qəlbi heç yuvada məskən salmayır,
Misralar savaşır, hönkürdür ağlı,
Şairin xoşbəxtlik qapısı bağlı.

16.02.2016

ÜRƏYİMLƏ GÖRÜŞƏCƏM…

Hünərim çatmır gecənin sakitliyini pozam,
Bu dəli hisslərin pərakəndliyindən yazam,
Və yaxud onların cığırına düşüb azam.
Qaranlığın içindən gələn qəfil səslər
qulağlarımı dəlir,
Hər tərəfdən üstümə bir hənirti gəlir.
Demə, sükutun da adam kimi beyni varmış,
Ona da həyatın hər üzü yarmış…
Yatanlar öz yuxu dünyasında,
Kim bilir nələri görür röyasında…
Mənsə mürəkkəbi tükənmiş
qələmimi tumarlayıram,
Təbimdən doğan misraları hamarlayıram…
Bir azdan səhər açılacaq,
Zülmətin qurduğu qəsir uçulacaq…
Qaranlıq öz çadrasını götürüb qaçacaq,
Şəhərin küçələri yenə adamla yarışacaq,
Üzlərində kədəri sevincə qarışacaq.
Baxışları gah sevişəcək,
Gah da bir-biriylə vuruşacaq.
Kimi haqsız olacaq, kimi haqlı,
Hamı ümidinə bağlı.
Yaxşı yaxşılıq, pis pislik edəcək,
Gah adamlar bir-birini güdəcək,
Gah da hərə öz işinin dalınca gedəcək,
Yenə qaraörtüklü axşam gələcək,
Gecəm üzümə güləcək,
Sükutun içinə düşəcəm,
Ürəyimlə görüşəcəm…

30.10.2012

EY DİLİ QAFİL

Mənə yazma deyən, ey dili qafil,
Ürəyim coşanda, yazmasam olmur.
Ötkəm duyğuların necə naqafil?
Ömrün tufanında azmasam olmur.

Səadət gətirmir hər gələn səhər,
Birinə nəş'ədi, birinə qəhər,
Vururam günləri başa birtəhər,
Dərdimə məzarı qazmasam, olmur.

18. 10. 2004

RUHUMU ƏLİNƏ ALDIN

Sən mənim ruhumu əlinə aldın,
Duyğumu duyğuma caladın, ilham.
Titrətdin içimi, alova saldın,
Sönməyə qoymayıb qaladın, ilham.

Mən soyuq baxışlar içində dondum,
Özümə ümiddən bir heykəl yondum,
Yazdığın nağıla özüm oyundum…
Damağdan getmədi xoş dadın, ilham.

Səni ürəyimdən qovmaq istədim,
Səndən gələn eşqi ovmaq istədim,
İnciyib bir kərə doymaq istədim,
Yadımdan çıxmadı heç adın, ilham.

Qapımı, bacamı bağladım bərk-bərk,
Ruhuma eylədim mən eşqini sərk,
Yalvarıb ürəyə çox eylədim ərk,
Qonağı olasan sən yadın, ilham.

Gecələr yorğanı çəkdim başıma,
Gəlib baxmayasan sən göz yaşıma,
Yatdım, yuxumda da çıxdın qarşıma,
Qəlbdə yara açdı imdadın, ilham.

Sözlər misra-misra axdı könlümə,
Şıltaq uşaq kimi çıxdı könlümə.
Dönüb şimşəklərə çaxdı könlümə,
Bağrımı gurşadla suladın, ilham.

Özün də bilirsən vurğunluq nalan,
Səndən gələn eşqi sanmışam yalan,
Sətirlər içində qəlb etdim talan,
Demə ki, sən mənə qaladın, ilham.

Qələmə, kağıza ömrü yar etdin,
İllərin içində can ögar etdin,
Sən bu Şadimanı yoxdan var etdin,
Söylə kimdir sənin ustadın, ilham?!

04.10.2014

GÜCÜM QALMAYIB

Bir şam işığıtək gücüm qalmayıb,
Ələnir vüqarım ömür üstünə.
Yaxşıya, yamana seçim qalmayıb,
Bilmirsən kim durub canın qəsdinə?

Hamı varlığından ucalıq umur,
«Heç kəs ayranına turş deməyir» ki.
Hamı bir-birinin üstünə cumur,
Dil zəhər axtarır, bal yeməyir ki.

Hicran ağrıları bəstəkar olub,
Yeni nəğmələri oxur qulağa.
Bu gün ağu deyən, dünən yar olub,
Min bir tənələri yaxır qulağa.

Dözməyin özü də – qul vərdişidi,
Bizə döz deyirlər ətrafdan hamı.
Yəqin ki, zamanın tərs gərdişidi,
Uçular bir gün də fələyin damı.

06.01.2015

SƏNƏ PAK SEVDALAR

Sənə pak sevdalar, mənə yazıqlar,
Dolaş bu dünyanı, sən mənsiz dolaş.
Sənə haqq dualar, mənə sazaqlar,
Yeni sevgilərə, eşqlərə ulaş.

Gəl həsrət milini çəkmə gözümə,
Onsuz qor olmuşam mən diləklərə.
Qara geydirmisən al gündüzümə,
Ərşə büləndolub ahım min kərə.

Müddətdi bəbəyi göz yaşım dərib,
Əkdiyim sevincdi, dərdiyim qəmdi,
Dünyanın bir qürbət quşuyam, qərib,
Qanadımı gərən sirli aləmdi.

Şadiman zamanın odu, atəşi,
Alışıb yanacaq köksümdən dünya.
Səni itirdiyim sevgimin nə'şi,
O sənli günlərim bir dadlı röya.

07-08. 02.1994

GƏZİRSİZ OTAQDA

Gəzirsiz otaqda o baş, bu başa,
Möhtəşəm xəyallar, gözəl xəyallar.
Yorğun bəbəklərdə dönüb göz yaşa,
Qəlbdə törədirsiz min cürə hallar.

Vallah, sizin üçün əsir ürəyim,
Gəlib gecələrə hökm edirsiniz.
Sizinçin tikibdi qəsir ürəyim,
Qapımı açmamış tez gedirsiniz.

Yığışın yörəmə, içim yalqızdı,
Mənə pıçıldayın can sevdanızı.
Ürəyim min kərə qəmə uduzdu,
Gəlin, kəsim-durum mən yanınızı.

Mən can sevdalısı, üzdə gülürəm,
Mənim ürəyimi söz qələm etdi.
Sizinlə dəliyəm, sizsiz ölürəm,
Mənə acıları bu aləm etdi.

Gəzirsiz otaqda incikə oxşar,
Ey gözəl xəyallar, üzməyin məni.
Qüssə qarışqatək qəlbə daraşar,
Gəlib yuxularda, gəzməyin məni.

25. 04.2015

ŞAM İŞIĞI

Bir anlığa ruhun için nə titrətdin şam işığı?
Alovunla qaranlığa üsyan etdin, şam işığı.

Ağrım canda ah qoparır, ürəyimi didir tökür,
Nədən könül sarayımın kərpiclərin bir-bir sökür?

Ömür zaman qarşısında heç durmadan dizin bükür,
Sıralanıb saniyələr, gün önündə bir-bir çökür,

Hər insanın həyatıtək yanıb sönən şam işığı,
Atəşinin dilləriylə haqqa dönən şam işığı.

Alovunun hərarəti ürəyimdə şölə saçdı,
Bağırımdan qopan səda yerdə, göydə eşqlə uçdı,

Durdu yatmış məhəbbətim, pərvanətək qanad açdı,
Özün vurdu atəşlərə, alovların üstdə qaçdı,

Nə möcüzə söyləsənə bu hikmətin, şam işığı?
Atəşlərdə alışmaqmı səadətin, şam işığı?

Şadimanın ürəyində niskilləri baş-başadır,
Sənin təki onun qəlbin atəş dolu od yaşadır,

Doğulana həyat özü bir oyundur, tamaşadır,
Kimi şəkər, kimi isə ömrü boyu zəhər dadır,

Hər bir kəsin ömrü kimi sönüb keçən şam işığı,
Qədəhində su yerinə alov içən şam işığı.

02.01.2015

GETMİSƏN MƏNDƏN

Yaman üz çevirib getmisən məndən,
Duyğumu sərgərdan etmisən məndən.
Mən ki heç əlimi üzmədim səndən,
Bir dönüb gələydin aha, ruhdaşım.
Hardasan? Gəlmirsən daha, ruhdaşım.

Günlərim axarın dəyişir sənsiz,
Ürəyim həsrətlə döyüşür sənsiz,
Qəlbimin içinə qəm düşür sənsiz,
Ağrın istəyindən baha, ruhdaşım.
Hardasan? Gəlmirsən daha, ruhdaşım.

Mən könül içində məzar qazmışam,
Məzara yetməkçin yolda azmışam,
Götür baş daşımın, üstə gətir şam,
Salma istəyimi gaha, ruhdaşım,
Hardasan? Gəlmirsən daha, ruhdaşım.

Məni xəyallara möhtac eyləmə,
Qəlbimi həsrətə baş tac eyləmə,
Hissimi duyğuya lap ac eyləmə,
Mən səni bilmişəm düha, ruhdaşım,
Hardasan? Gəlmirsən daha, ruhdaşım.

Şadiman qəflətdə naçar olubdu,
Bu acı möhnətə düçar olubdu,
Dərdin qəlb qapıma açar olubdu,
Sən mənə canımdan baha, ruhdaşım,
Hardasan? Gəlmirsən daha, ruhdaşım.
Hardasan? Gəlmirsən daha, ruhdaşım.

07.07.2015

PƏRVANƏ

Zərif qanadların titrər küləktək,
Hönkürüb çoşursan sən də fələktək.
Dəli duyğuların coşur diləktək,
Sala bilməyirsən eşqi səhmanə,
Özünü odlara vuran pərvanə.

Şam yanır, isidir eşqilər canı,
Artırır içində hiss-həyacanı.
Kim göstərib sənə bu od ünvanı?
Tənin kül olacaq, ömrün viranə,
Özünü odlara vuran pərvanə.

Axşamın gəlişi sənə toymudur?
Sevgin dəli kimi candan qan udur,
Şölələnən alov ömrə taymıdır?
Ütülür qanadlar qalmır nişanə,
Özünü odlara vuran pərvanə.

Eşqə dönüklərə addımın hünər,
Gecələr başına dolanıb dönər,
Sənin də həyatın alova yenər,
İzin ver, ürəyim cismintək yanə,
Özünü odlara vuran pərvanə.

09.07.2014

BU GECƏ YUXUMA GƏLİB

Bu gecə yuxuma gəlmişdi təbim,
Yuxumu gözümdən qovub apardı.
Qəlbin tələtümün bilibdi təbim,
Ağrımı köksümdən sovub apardı.

Baxdı Şadimana məsum çocuqtək,
Dodağı bal daddı, gözləri atəş.
Tutub ayaqladı dərdi palçıqtək,
Zülmətin içindən parladı günəş.

16.02.2016

GETMƏDİN HEÇ VAXT

Gecə işığımsan, səhər nurumsan,
Çıxıb ürəyimdən getmədin heç vaxt.
Bəlkə bu dünyada tək qürurumsan,
Qurmusan könlümün içindəcə taxt.

Hara gedirəmsə gəzdin içimdə.
Mənimlə ağlayıb, gülürsən, ey təb.
Hönkürən buludam, sənsə seçimdə,
Könlün hər istəyin bilirsən, ey təb.

Körpəcə uşağam, həyanım oldun,
Laylatək ruhuma doldun, hər gecə.
Təkcə sən dərdimi duyanım oldun,
Mənim cəfakeşim oldun hər gecə.

Şirin xatirətək gəldin ağlıma,
Zəkamdan boylandın möcüzə kimi,
Hər misra içində döndün nağlıma,
Verqüldən, nöqtədən, hər sözə kimi.

İlin fəsillərin hekayə etdin,
Buludu şimşəkdən ayrı sanmadın.
Harda alışdımsa, sən ora yetdin,
Ürək yanmayanda sən də yanmadın.

Gizli ağrılara təbimim oldun,
Hansı ki, loğmanlar çarə bulmadı.
Bəlkə sən Allahdan qəlbimə yoldun,
Səni çarə sanıb məndən almadı…

Sən bir mələkmisal, mən aciz bəndə,
Sənin əhvalına tuşlandı ürək.
Qonağım olmusan hər ayda, gündə,
Pozmadı eşqinə heç andı ürək.

Almısan özündən bu Şadimanı,
Adamlar içində tənha gəzirəm.
Ey təbim, sən verdin hər bir fərmanı,
Əmrə müntəzirəm, hələ dözürəm.

28.04.2016

BİR DOLU ÇEŞMƏYƏM

Bir dolu çeşməyəm, suyum çağlayar,
Ürəyim dəlisov küləyə bənzər.
Özümdən xəbərsiz könlüm ağlayar,
İlhamım utancaq mələyə bənzər.

Xəyalım dolaşar gəzər dünyanı,
Acını, ağrını azaltmaq üçün.
Könlümə şah edər gecə röyanı,
Yuxuma əlimi uzatmaq üçün.

Nə üzüm xəyaldan qopa bilmirəm,
Nə yuxum gözümə yığışmaz müdam.
Nə canı bədəndə tapa bilmirəm,
Nə duyğum ürəyə sığışmaz müdam.

Mən atəş olaram gur ocaqlara,
Tufanlar içində külüm sovrular.
Ürək qopub düşər künc-bucaqlara,
Zərrəsi odumda yanıb qovrular.

Bütün vücudumu titrədər təbim,
Bağrımı özünün qulu eyləyər.
Duyğular tapılmaz dərmanım, həbim,
Loğmanı, həkimi, pulu neyləyər?

Elə kövrələrəm bir uşaq kimi,
Şirin xəyallara çıraq tutaram.
Dolanar boynuma təb qurşaq kimi,
Sığınıb köksünə səssiz yataram.

Bir dolu çeşməyəm, qurumaz gözüm,
Çağlaram meşələr, çöllər içində.
İlhamım coşmasa arımaz gözüm,
Dilim ötüşərmi dillər içində?

Şadiman çapdıqca xəyal atını,
Duyğudan-duyğuya çox cilalaşır.
Nəğməyə tutubdu bu həyatını,
Onunçın zirvədən-zirvəyə aşır.

07. 01. 2003

GECƏNİN YASTIĞI

Mən gecənin yastığına
Baş qoymağı unutmuşam.
Zülmət açıb qucağını,
Ona sarı üz tutmuşam.

Pıçıltılar qulaq oyub,
Yatanları çoxdan uyub,
Mənim könlüm, gözüm doyub,
Fikrə girib lap batmışam.

Ay işığın səpələyir,
Göydən yerə nur ələyir,
Qəlb içinə eşq bələyir,
Duyğuları oyatmışam.

Ruhum gəzir gen dünyanı,
Yada salmır heç röyanı,
Bilinməyir can ünvanı,
Fikirləri çox qatmışam.

Mən gecənin tələşıyam,
Ağrıların göz yaşıyam,
Ruhumun elçi daşıyam,
Daşın üstə daş atmışam.

06.07.2015

RUH ORTAĞIM

Yaman qəribsədim sənin üçün mən,
Söylə ruh ortağım, harda qalmısan?
Bilməm niyə sevdim, səni neyçün mən?
Könlümü ağrıya salan halmısan?!

Qəlbimin içində səddə dönmüsən,
Ürəkdə çıxılmaz həddə dönmüsən,
Əyilib bükülən qəddə dönmüsən,
Acı xəyallara yəqin dalmısan.

Dur gəl, ruh ortağım, masamda şam ol,
Örpəyə bürünən məsum axşam ol,
Qəfil ürəyimdə kükrəyən kam ol,
Gəlməsən, bilərəm, bir xəyalmısan.

17.06.2016

MƏNİM İLHAMIM

Qoy çağlasın bu ürəyim,
Nə qədər ki, ilhamım var.
Odur mənim saf diləyim,
Onsuz məni qüssə qovar.

Bir sehirmi, bir nağılmı,
Aman ürək, mən bilmirəm?
Ovsunlayıb söz ağlımı,
Onsuz deyib mən gülmürəm.

Mənim üçün mənası var
Hər çiçəyin, hər otun da.
Duyğularım könlü qovar,
Günlər yüyrək can atında.

Sökülən dan, batan axşam,
Sanki seyir, tamaşadır.
Min əsirlik sirli daşam,
Arzum, hissim baş-başadır.

Mənə gəl-gəl deyir həyat,
Köz yurdumda, söz elimdə.
Ey Şadiman, yaşa, yarat,
Öz evində, öz dilində.

13.04.1986

BAXA BİLMİRƏM

Mən ürəyimdə tufan dunyanın haqq səsiyəm,
Bütün Yer kürəsinin yanıqlı naləsiyəm,
Taleyimin əlində həyat piyaləsiyəm,
Düşüb bir gün torpağa parça-parça olacam,
Cahanın bağırında fəryad təki qalacam.

Yenə də duyğularım köpürür sellər təki,
Könlüm elə ağlayır yanıqlı dillər təki,
Sinə içində atəş bozarıb küllər təki,
Ayrıla bilmirəm heç bu sevda yuxusundan,
Daha sevə bilmirəm həsrətin qorxusundan...

Məndə atəşi boldu gur yanan ocaqların,
Bağrımda laylası var ötüb keçən çağların,
Divanəsi olmuşam bu ürəyim ağların!
Xəyallarım öcəşir sevda dənizlərində,
Anlarım itir-batır həyatın izlərində.

Kainatın köksündə qovruluram kürrətək,
Vurnuxuram dəryada yolun azmış bərətək,
Göyün bağrından qopub düşdüm yerə zərrətək,
Odur ki, çırpınıram Göylə Yer arasında,
Göydə ulduzum parlar ulduzlar sırasında...

Mən boş yerə qələmi könlə əsir etmədim,
İlhamın qapısına qəlb coşmasa getmədim,
Doğulub haqq aradım, əfsus haqqa yetmədim,
Duyğularım qartaltək qayanı yuva edər,
Dil könlümün eşqinə Allaha dua edər.

Bir həqiqət quşuyam həyatın bağçasında,
Diləklərim şan-şandır bu könül boğçasında,
Qopub ürəyim təndən, qalıb can taxçasında,
Min illik bir palıdam tufanlara dözürəm,
Dəryaların dibində bir qəvvasam, üzürəm.

Siz məni aramayın adamların içində,
Hiylə, fitnə, qəm dolu bu damların içində,
Min cürə ləzzət alan bu kamların içində,
Bir gecəlik işığı bu şamların içində
Titrədir vücudumu ürəyimin nərəsi,
Qəlbi özüylə bahəm fırladır Yer kürrəsi.

Dolub bağrım içinə Yerin, Göyün atəşi,
Sinəmin alovları ram eyləyir Günəşi,
Tapmayır məzarını heç fəraqımın nəşi,
Boğulubdu zülümlər zamanın göz yaşında!
Cahanın acıları ürəyimin başında.

Şadiman ki, dünyadan elə-belə keçmədi,
Duyğu çeşmələrindən boş yerə su içmədi,
Bu ilham da səbəbsiz ürəyimi seçmədi,
İlahinin hökmündən çıxa bilmirəm, neylim?
Bu dünyaya hamıtək baxa bilmirəm, neylim?

13.11.2001

MƏHƏBBƏT

DƏYMƏ MƏNİM ÜRƏYİMƏ

Gülə qonam bir bülbüləm,
Sevda düşüb diləyimə.
Axı özüm sənə diləm,
Dəymə mənim ürəyimə.

Eşqi təmiz saxlamışam,
Qəlb dolanda ağlamışam,
Sənə ümid bağlamışam,
Dəymə mənim ürəyimə.

Həyat başdan bizə sınaq,
Narahatlıq ona qonaq,
Gəl ikimiz birgə yanaq,
Dəymə mənim ürəyimə.

Şirin Xanım, susmaz dilin,
Yardır sənin ayın, ilin,
Əllərimdən tutsa əlin…
Dəymə mənim ürəyimə.
Dəymə mənim ürəyimə.

22.04.1987

QALDI YOLLARINDA YORĞUN BAXIŞLAR

Bəxtimə saldığım min bir düyünü
Açıb bu ayləmə eyləyəydim faş.
Tək sənin oduna yandığım günü
Bir daha ömrümə qaytarardım kaş!

Bu qəfil həsrətlə verib baş-başa,
Sənsiz günlərimlə alışmayaydım.
İnsaflı bağrımı döndərib daşa –
Bu dəli sevdaya qarışmayaydım!

İndi mən imkansız, sənsə peşiman,
Arada keçilməz min bir yoxuşlar!
Şirin Xanım, kimə gətirdin iman?
Qaldı yollarında yorğun baxışlar!..

19.11.1990

ÖYRƏTMƏ MƏNƏ

Axı bu dünyanın ayrılığı var,
Salır insanları çiskinə, çənə.
Həsrəti, hicranı ürəklər ovar,
Özünü sən belə öyrətmə mənə!

Onsuz da xəzanı düşmüş payızam,
Sinəsi ah-nalə, dərdli bir sazam,
Ayrı planetə uçan ulduzam,
Özünü sən belə öyrətmə mənə!

Tanrının önündə gücsüz bəndəyik,
Hökmü-fərmanına biz daməndəyik,
Əcəl qarşısında gör nə gündəyik,
Özünü sən belə öyrətmə mənə!

Dəli sevgimizə qənim tapılar,
Həsrət üzümüzə açar qapılar…
Ayrılıq oduyla ürək çapılar,
Özünü sən belə öyrətmə mənə!

Sübhün yazısını oxudu kimlər?
Eşqin əlacını bilməz həkimlər,
Qarışıq dünyada çoxdu hökümlər,
Özünü sən belə öyrətmə mənə!

Bəlalı ürəyim yolunda ehsan,
Mən Şirin Xanımam, sən bahar, leysan,
Hər an torpaq onu udacaq asan,
Özünü sən belə öyrətmə mənə!

25.11.1990

GÖZÜM ALDI, KÖNÜL TUTDU, SEVGİLİM

Gözüm aldı, könül tutdu, sevgilim,
Tuti dilə, şirin sözə vuruldum.
Eşqin məni oda atdı, sevgilim,
Sinəndəki oda, közə vuruldum.

Dağdan aşan dəli seləm, çağlaram,
Xəyalınla pünhan ülfət bağlaram,
Möhnətindən illər boyu ağlaram,
Göz yaşımı süzə-süzə vuruldum!

Çiçəyinəm, üşüyürəm bağımda,
İlğımlara tuş olubdu bağım da,

Tufan vurmuş, xəzəl olmuş çağımda
O qamətə, o xoş üzə vuruldum.

Bir ocağam, gəl toxunma qoruma,
Eşqi məndən, məni ondan qoruma,
Könlün düşüb mənim sevgi toruma,
Qoynuna gül düzə-düzə vuruldum!

Şirin Xanım, dərdin dağlar-qədərdir,
Taleyini qara yazan qədərdir,
Demə, gülüm, sevgi gəldi-gedərdir,
Faş eyləmə eşqi üzə, vuruldum.

03.12.1990

DƏLİ MÖHNƏTİNƏ DÖZÜM QALMAYIB

Dəli möhnətinə dözüm qalmayıb,
Könlümə nəşəni düz inci-inci.
Sual et, neçə yol ğözüm dolmayıb?
Sinəm məlalını süz inci-inci.

Odlanıb yanıram neçə müddətdi,
Həsrət sağalmayan mərəzdi, dərddi,
Mənim eşqim ki var, dünyada mərddi,
Onu məhəbbətlə süz inci-inci.

Özümə yad oldum sənsiz el bilir,
Leysanın gücünü dağda sel bilir,
Məcnunun eşqini səhra, çöl bilir,
Qoy onun içinə üz inci-inci.

Ey eşqimin dağı, mən güneyinəm,
Piyalənə axan şəffaf meyinəm,
Yanıqlı kamanın, qəmli neyinəm,
Bas bağrım başına köz inci-inci!

Çılğın dağ seliyəm, yol-irız hanı?
Ömür kitabımın sənsiz yox anı,
İlqara sadiq ol, sən ömrü, canı
Şirin Xanım üçün üz inci-inci!

23.10.1988

İTİRDİM BİR PAYIZ SƏHƏRİ SƏNİ

İtirdim bir payız səhəri səni,
Bu külək hayandan əsdi, bilmədim!
Tale ayrı saldı qismətdən məni,
Hicranın üstümdə əsdi, bilmədim!

Çevirdi üstümə yaman dilləri,
Yolunda sazağa verdim illəri,
O dəli köhlənli zaman selləri,
Bəndimi-bərəmi kəsdi, bilmədim!

Söylə, puç oldumu o şirin dilək?
Şirin Xanım, sənə zülm etdi fələk,
Ağlaya-ağlaya daş oldu ürək,
Müqəddəs eşqimdən küsdü, bilmədim!

19.11.1990

YUXUMA NİYƏ GƏLMİSƏN?

Anlaya bilmədim səni,
Açılmayan bir sirmisən.
Ürəyimə çəkib çəni,
Yuxuma niyə gəlmisən?

Düşsə də bu mənə baha,
Batsa da sevgim günaha,
Biz ki, yad olmuşuq daha,
Yuxuma niyə gəlmisən?

Sən özgə bir qəlb aradın,
Kimin telini daradın?
Başqa birinə yaradın,
Yuxuma niyə gəlmisən?

Röyan nəyimə lazımdır?
Bu da bir tale yazımdır?
Verdiyin qəmlər azmıdır?
Yuxuma niyə gəlmisən?

Şirin Xanımdan doymusan?
Könlünü darda qoymusan,
Başqa sevdaya uymusan,
Yuxuma niyə gəlmisən?

27.07.1985

DEDİM AYRILAQ

Könlümdə ilahi məhəbbətini,
Qoruya-qoruya, dedim ayrılaq.
Fələkdən bəxtimin səadətini,
Soruya-soruya, dedim ayrılaq.

Əlinin istisi qaldı əlimdə,
Bəlalı sevgimin adı dilimdə,
Uzaqdan, yaxından səni dilim də,
Araya-araya, dedim, ayrılaq.

Səni qoruyarkən yad alqışlardan,
Min bir tənələrdən, sərt qarğışlardan,
Könlümə muniskən, pak baxışlardan
Yarıya-yarıya, dedim ayrılaq.

Könlümün könlümə sayğılarını,
Bəlalı eşqimin duyğularını,
Tənha gecələrin uyğularını,
Yoruya-yoruya, dedim ayrılaq.

Addımlar sevgimiz bəxt küçəsiylə,
Bizi qovuşduran ümid səsiylə,
Könlüm həsrətinin işgəncəsiylə
Qarıya-qarıya, dedim ayrılaq.

Ürəyim həzin ney, yaralı tütək,
Şirin Xanım sızlar sənsiz tənha, tək,
Eşqini könlümə ipəkqurdutək,
Sarıya-sarıya, dedim, ayrılaq.

30.11.1989

MƏNƏ ELƏ GƏLİR Kİ…

Mənə elə gəlir ki,
Sənindir bu ürək, can.
Mənə elə gəlir ki,
Məni sən yaratmısan.

Mənə elə gəlir ki,
Bu müqəddəs torpağı,
Hər gülşəni, hər dağı,
Adicə bir yarpağı
Mənə sən yaratmısan!

Mənə elə gəlir ki,
Qərinəni, zamanı,
Bu yağışı, dumanı,
Ürəyimdə gümanı
Mənə sən yaratmısan!

Mənə elə gəlir ki,
Göydə uçan quşları,
Sirr yuvası daşları,
Gözlərimdə yaşları,
Mənə sən yaratmısan!

Mənə elə gəlir ki,
Coşub-daşan çağlayan,
Gah gülən, gah ağlayan,
Məni sənə bağlayan,
Eşqi sən yaratmısan!

02.11.1978

SƏN MƏNİ HƏR YERDƏ ARAYACAQSAN…

Surətim gözündə güzgü olacaq,
Eşqimlə telini darayacaqsan,
Özündən xəbərsiz gözün dolacaq,
Sən məni hər yerdə arayacaqsan!

Düşmən kəsiləcək sənə ürəyin,
Xatirəm olacaq könül dirəyin,
Didərgin düşəcək eşqin, diləyin,
Mənim xatirəmlə yarıyacaqsan!

Gözündən, könlündən düşəcək həyat,
Yalnız mən olacam bağrına səyyad,
Xəyalım köksündə quracaq busat,
Bu sirri hamıdan qoruyacaqsan!

Mənli günlərini yığıb sinənə,
Dolub boşalsa da qəlb dönə-dönə,
Bu çətin olsa da, əzizim, sənə,
Mənim həsrətimlə qarıyacaqsan!

24.06.1986

SƏNİ İSTƏYİR ÜRƏK

Yoxdur gecə-gündüzüm,
Qəmə salıbdır fələk.
Qalmayıb səbri-dözüm,
Səni istəyir ürək!

Könlümü ovutmağa,
Dərdimi sovutmağa,
Qəmimi dağıtmağa,
Səni istəyir ürək!

Pərdə-pərdə gəlir qəm,
Sənsiz heçdir bu aləm,
Ərşə qalxıbdı naləm,
Səni istəyir ürək!

Açılmayır sabahım,
Tutacaq səni ahım,
Budurmu ki, günahım
Səni istəyir ürək?!

Başıma dərd açma gəl,
Qürbətlərə uçma gəl,
Qismətindən qaçma gəl,
Səni istəyir ürək!

Şirin Xanım çəkir dad,
Yetmirmi sənə fəryad?
Könlümə eylə imdad,
Səni istəyir ürək!

19.10.1989

BU HƏYATIM AĞLAR BİR NEY…

Bu həyatım ağlar bir ney,
Bəmdə, zildə ötər, sənsiz.
Hər sözümdən yağar giley,
Xoş günlərim bitər, sənsiz.

Diri ikən dünyam gordu,
Alışıbdı sinəm qordu,
Ürək səni məndən sordu,
Özüm ondan betər, sənsiz!

Necə dözüm bu gedişə?
Ömrüm ilə bəd gərdişə,
Gedər əldən sevinc, nəşə,
Səadətim itər, sənsiz.

Həsrət məni yaraladı,
Taleyimi qaraladı,
Ağ bəxtimi qaraladı,
Yolumda çən bitər, sənsiz.

Hicran qəmə muştuluqçu,
Şadimanın nədir suçu?
Dalınca bu ürək uçub
Yoxdu xəbər-ətər, sənsiz.

27.11.1990

EY MƏNİM TALEYİMİN SABAHI

Ey mənim taleyimin sabahı,
Ömrümün, günümün pənahı,
Həsrəti könlümün günahı –
Harada qaldın?
Bəlkə kiminsə qəlbində yurd saldın,
Gəl, gəlişinlə yanıqlı könlümə bir içim su ol,
Nə məndən inci, nə də asi ol.
Bilmirəm hara aparır məni bu yol…
Fəqət hirsinlə, hikkənlə,
Həyat oynu oynama mənlə.

Gah şirin, gah acı sözlərinlə,
Bir cüt ala gözlərinlə –
Mənimki ol!
Mənimki ol!

22.07.1990

BƏYAZ GECƏLƏR

Könlüm tənhalıqdan göz yaşı tökür,
Bağrımın ormanına sis, duman çökür.
İçimdə vüsalın acı gileyi,
Dodaqlarıma qonub şeh təki həsrətin meyi.
Ömrüm də zaman kimi incələr,
Bu bəyaz gecələr…

Başımda sevdanın möhnəti,
Kəsib qarşımı qəfləti.
Həsrət bir kabus kimi,
Eşqin başıma sərkimi?

Amansız vərdişlərdə,
Qan ağladan gərdişlərdə.
İçimə sarılır bilməcələr,
Bu bəyaz gecələr.

Qürurum sevgidən yuxarı,
İrizini itirmiş çayın axarı.
Könlüm həsrətdən naxış-naxış,
Gözlərimdən süzülür gurşad yağış.
Kəsib qapımı necələr…?
Bu bəyaz gecələr.

Sevda dənizlərində boğulur diləklər,
Qan ağlayır bir-birindən ayrı ürəklər.
Halımızdan pərişan fələklər,
Sinəmizin duyğuların hicran yelləri ələklər,
Həsrət də vüsalın işgəncəsindən dincələr,
Bu bəyaz gecələr.

Üşüyər içimdə bir acı sevda,
Bütün varlığı ilə bədbəxt eşqimizə fəda.
Şadimanın könlü şəhidi-şüəda!
Şərəfinə ağ kağızı bəzər incilər…
Bu bəyaz gecələr…
Bu bəyaz gecələr…

16.12.1994

GƏLMƏ YUXULARA, GƏLMƏ, SƏN ALLAH

Könlümü qəmlərə tuş eyləmisən,
İçimdən bir anda dikəlir min ah.
Qəm bilməz gözümü yaş eyləmisən,
Gəlmə yuxulara, gəlmə, sən allah.

Unut olmuşları, unut bir daha,
Batırma özünü sən də günaha,
Bu sevgin ki, mənə çox gəldi baha,
Gəlmə yuxulara, gəlmə, sən allah.

Yatmış duyğuları saldın didərgin,
Nə qədər keçəcək ömür, gün gərgin?
Öldürür, dirildir röyalar sərgin…
Gəlmə yuxulara, gəlmə, sən allah.

Dəryada kimsəsiz xəyal yelkənim,
Qılıncı sıyrılmış kədərim, qənim,
Əzəldən bir bəxtim olmadı mənim,
Gəlmə yuxulara, gəlmə, sən allah.

İçimin ağrısı dünyanı udar,
Eşqi də, səni də biryol unudar,
Bu qara teleyim zindandan da dar,
Gəlmə yuxulara, gəlmə, sən allah.

Qəlbi bu gəlişlə ovutmayırsan,
Yanan ürəyimi sovutmayırsan,
Sən ki, bircə yolluq qayıtmayırsan,
Gəlmə yuxulara, gəlmə, sən allah.

13.07.1991

BÜTÜN MƏMLƏKƏTİ TUTACAQ ÜNÜM

Bütün məmləkəti tutacaq ünüm,
Ahımdan boşalıb dolmayacaqsan.
Sənsiz yaxasını cıracaq günüm,
Təkcə sən mənimlə olmayacaqsan.

Şimşəklər acıqlı çaxacaq yenə,
Buludlar gözünü sıxacaq yenə,
Günəş də yandırıb yaxacaq yenə,
Təkcə sən mənimlə olmayacaqsan.

Dağları, daşları gəzəcək külək,
Gündə min bir dona girəcək fələk,
Ağlaya-ağlaya öləcək ürək..!
Təkcə sən mənimlə olmayacaqsan.

İçin-için gözüm yaş tökəcəkdir,
Önümdə xəyalın diz çökəcəkdir,
Həsrətin başıma daş tökəcəkdir,
Təkcə sən mənimlə olmayacaqsan.

Sevgimiz röyada ulaşacaqdır,
Hicranın sisinə bulaşacaqdır,
Uyğum da uyğuna sarışacaqdır,
Təkcə sən mənimlə olmayacaqsan.

20.09.1991

İKİMİZ DƏ YANIRDIQ NƏ VAXTDAN BU ATƏŞƏ

İkimiz də yanırdıq nə vaxtdan bu atəşə,
Biz ki, od-alov verdik bu sevgiylə günəşə,
Harda qaldı o istək, o od, o yanğı, nəş'ə?
İtirdik bu sevgini o boranda, o qarda,
İndi sən harda qaldın, mən isə söylə harda?

Qınadı tanıyanlar, tanımayanlar bizi,
Unutduq sevgimizə şahid gecə-gündüzü,
Məhəbbətin nə qədər dönük olurmuş üzü?
Soldu istəyimiz də, məramımız da darda,
İndi sən harda qaldın, mən isə söylə harda?

Çiləndi sevgimizin üstünə həsrət zəhər,
O dəli duyğulardan ürək görmədi bəhər,
Qınadı bizi axşam, qınadı bizi səhər,
Aradakı hicrana dodaq büzdü sabah da,
İndi sən harda qaldın, mən isə söylə harda?

Gəl birləşsin ayrılan əllərimiz yenə də,
Gör nə qədər arzu-kam, baş qaldırıb sinədə?
Sitəm edir bu illər həsrət-hicran mənə də,
İncidərmi bu qədər yarını sevən yar da?
İndi sən harda qaldın, mən isə söylə harda?

22.03.1987

SƏN MƏNİM KÖNLÜMÜN MÖHNƏT YUVASI…

Sən mənim könlümün möhnət yuvası,
İçimdə ağlayan günahlarımsan.
Dilimin ovunmaz hicran duası,
Həsrətə tuş olmuş sabahlarımsan.

Qara gözlərimin yaşından doğan,
Dünyanı çalxadan dəryalarımsan.
Gecələr könlümü yataqda boğan,
Vüsala minnətçi röyalarımsan.

Mən simurq quşuna dönüb axşamlar,
Pəncərən önündə gizli səkərəm.
Qəfil otağında sönəndə şamlar,
Mən də göz yaşımla hicran əkərəm.

Səni ürəyimə buraxan gündən,
Artır, azalmır ki, işgəncələrim.
Bəxtimdə açılmaz min bir düyündən
Hönkürür mənimlə bu gecələrim.

Bir azca hərarət oduna möhtac,
Əfsus, ayaz vurmuş istəklərimsən.
Sən mənim dərdinə tapılmaz əlac,
Məzara gömülmüş diləklərimsən…

Hansı bəhanələr gətirim, fələk?
Hicran əzabını sınayanlara.
Cavabsız məktuba çevrilib ürək…
İndi Şadimanı qınayanlara!

01.05.1997

SEVGİLİM

Sevgilim, könlümü yıxma cəhd ilə,
Demə, söküləni tikməyə nə var?
Mən sənə bağlandım min bir əhd ilə,
Demə, ayrılığı çəkməyə nə var?

Sənin eşqin ilə zülmətim – səhər,
Ağardır gecənin qara üzünü.
Üzər, sən olmasan, könlümü qəhər,
Qoyma kül olmağa eşqin közünü.

O nurlu çöhrənin ziyalarıyla,
İşığlat ömrümün sabahlarını.
Yuxulu gecəmin röyalarıyla,
Bağışla könlümün günahlarını.

06.04.1997

SƏN YADIMA DÜŞÜRSƏN

Sönür könül işığı,
Pozulur yaraşığı,
Qəm olub qəlb aşığı…
Sən yadıma düşürsən.

Ürək boynun bükəndə,
Qəlbə duman çökəndə,
Gözlərim yaş tökəndə,
Sən yadıma düşürsən.

Yanır ağızda dilim,
Doğranır dilim-dilim,
İtir can ilim-ilim,
Sən yadıma düşürsən.

Sönür eşqin çırağı,
Yanır tale varağı,
Artır sinəm fərağı,
Sən yadıma düşürsən.

23.11.1998

O ODLU GÖZLƏRİN KÖNLÜMƏ ATƏŞ

O odlu gözlərin könlümə atəş,
Tanrı bu ocağı söndürməydi.
Doğaydı hər səhər zirvədən günəş,
Onu ucalıqdan endirməyəydi.

O yaşıl gözlərin qəlbə min çalar,
Lapdan varlığımı tilsimə salar,
Hərdən bir qərinə xəyala dalar…
Bu xəyal zülümü andırmayadı.

Yar əgər taparsa ürəkdən yarı,
Nədir bu dünyada dünyanın varı?
Tale tufanıyla hicranın qarı –
Yanan qəlbimizi dondurmayaydı.

Sarılıb ilğımtək yanan köksünə,
Bir heykəl yapaydım oddan əksinə,
Çıxıb könülmüzün fələk əksinə,
Qəlbləri hicranla yandırmayadı.

04.08.1996

YAR, YAR

Bağçamıza girəsən,
Yar, yar.
Bir dəstə gül dərəsən,
Yar, yar.
Səni candan sevəni,
Yar, yar.
Gül dibində görəsən,
Yar, yar.

Alışdıraq şamları,
Yar, yar.
Nur edək axşamları,
Yar, yar.
Gözdolusu görək hey,
Yar, yar.
Ürəkdəki kamları,
Yar, yar.

Sinəmdə qəmlərim var,
Yar, yar.
Bəbəkdə nəmlərim var,
Yar, yar.
Sənə könüldən barat,
Yar, yar.
Sevgili dəmlərim var,
Yar, yar.

Gülməsin hicranları,
Yar, yar.
Ayırır hey canları,
Yar, yar.
Şadimanın ömrünə
Yar, yar.
Bəxş elə xoş anları,
Yar, yar.

11-12.05.1997

SƏNİN TALEYİNLƏ, MƏNİM TALEYİM…

Necə bənzəyirlər biri-birinə,
Sənin taleyinlə, mənim taleyim.
Dönüb bir nağılın qəmli sirrinə…
Sənin taleyinlə, mənim taleyim.

Acısı yandırar qəlbin içini,
Gedir tarlasında ömür biçini,
Gah könül fəryadı, gah da iç ünü…
Sənin taleyinlə, mənim taleyim.

Qaşla-göz arası sevgisi yaxın,
Həsrətin əlində solana baxın,
Qəmləri sel təki hey axın-axın,
Sənin taleyinlə, mənim taleyim.

Tapılmır dünyada açması hələ,
Hansı bəxt görübdü kədəri belə?
Elə dastan olub düşüb ki, dilə –
Sənin taleyinlə, mənim taleyim.

Zaman sitəmindən yarası qanlı,
Fələyi amansız, günü divanlı,
Gah həsrət, gah da ki, vüsal ünvanlı…
Sənin taleyinlə, mənim taleyim.

Eşqin göz yaşında boğulur cahan,
Verər qarşısında ölümlər də can,
Sanki tək vücudda bir döyünən can –
Sənin taleyinlə, mənim taleyim.

Şadiman, bəxtimiz ömür nağılı,
Gah qapısı açıq, gah da ki, bağlı,
Eşqə əsir edər, eyvah, ağılı…
Sənin taleyinlə, mənim taleyim.

16.09.1985

RÖYALARDA ÇƏMƏNLİKDƏ GƏZİRDİN

Röyalarda çəmənlikdə gəzirdin,
Çiçəklərdən dəstə-dəstə üzürdün,
Gizli-gizli məni hərdən süzürdün,
Belə gördüm yenə səni yuxumda,
Ovsunladı gecə məni yuxum da.

Çay aşağı marallar da keçirdi,
Ceyranlar da oradan su içirdi,
Şər qarışıb, göz-gözü pis seçirdi,
Zorla duydum baxışını yuxumda,
Baxışının naxışını yuxumda.

Sonra birdən gurşad yağış yağırdı,
Sellər çayın boğazından boğurdu,
Ay da, hənuz, buludlardan doğurdu,
İslanmışdı üst-başımız yuxumda,
Üz-gözümüz, göz-qaşımız yuxumda.

Xəfif-xəfif əsən gecə küləyi,
O göylərin şıltaq-nazlı mələyi,
Oynadırdı sinəmizdə ürəyi,
Yox olmuşdu ədamız da yuxumda,
Öpüşürdü sevdamız da yuxumda.

Ayılanda gördüm yasdıq yaş olub,
Ağırlaşan ürək dönüb daş olub,
Röyalarım, sanki sənə faş olub,
Sevgiləri adlamısan yuxumda,
Məni yaman odlamısan yuxumda.

Nə edim ki, sən də, gülüm, beləsən,
Şadimanı əfsunladın elə sən,
Deyirəm ki, bunu yaxşı biləsən,
Ürəyimi almayasan yuxumda,
Məni eşqə salmayasan yuxumda.

22.09.1998

QOVA BİLMİRƏM

Sənin o ilahi məhəbbətini
Borandan, tufandan, qardan qorudum.
Bükdüm ürəyimə səadətini,
Qəfəsdən, zindandan, dardan qorudum.

Günəşə tuş olmuş qar dənəsitək,
Əridim ah ilə baxışlarında,
Ağlayan, üşüyən yar sinəsitək,
İslandım həsrətin yağışlarında.

Mən canda axtardım hey sevdamızı,
Onu duyğularda tapa bilmədim.
Diləklər öldürən bu ədamızı
Bisütun dağıtək çapa bilmədim.

Hicran otağında vüsalımız kül,
Əsdirdi baxışda qədər küləyi.
Xəzan bağçasında açılan bir gül,
Sanki payızların solğun mələyi.

Xəyalın gözümdə əsir olandan,
Evimin ən əziz qonağı olub,
Eşqin ürəyimdə bir sirr olandan,
Könlümün, qəlbimin qınağı olub.

Gözümdən bağrıma axır göz yaşı,
Sevgilim, duyğunu yuva bilmirəm.
Dərddən sızıllayır qəlbimin başı,
Səni ürəyimdən qova bilmərəm.

26.11.1999

NƏ DƏ HƏYAT VAR

Əvvəlki illərə qayıdaydım kaş,
Mən səni sevəydim, əzizləyəydim.
Atıb vüsalının bulağına daş
Çağlayıb çeşmətək, dənizləyəydim.

Pərişan telləri töküb çiynimə,
Baxıb qızaraydım səni görəndə,
Geyəydim təzə bir donu əynimə,
Sən gəzən çəməndən çiçək dərəndə.

Yolunun üstünə çıxaraq hər gün,
Guya təsadüfü qarşılaşaydım,
Salıb bəxtimizə yenə səda, ün,
Sənin xəyalınla pıçıldaşaydım.

Üzünə tamarzı qalaydım yenə,
Yuxuma gələydin gecələr gizli,
Sənin atəşinlə alışan sinə,
Aşiqin olaydı, ey aybənizli.

Ondakı illərə qayıtsaydım mən,
Tək səni sevərdim yenidən, ey yar.
Mənim həyatımda olmasan ki, sən
Onda nə Şadiman, nə də həyat var.

5.02.2000

NƏ LAZIM?

Salmısan könlümü dərmansız dərdə,
Daha oğrun-oğrun baxış nə lazım?
Gözümdə sel təki yaş olan yerdə,
Buluddan tökülən yağış nə lazım?

Söylə, sevgi oldu bunun harası?
İtdi yollarında gözün qarası,
Vurmusan qəlbimə sevda yarası.
Xalıtək min yerdən naxış nə lazım?

Onsuz da üşüyür ürək, könül, can,
Donub damarlarda dövran edən qan,
Mənimtək çovğunda, borandadı an,
Daha təbiətə bu qış nə lazım?

Dünyanın özü də haraya dönə,
Onsuz da harayım yetməyir sənə.
Ürək olan yerdə başa sal mənə,
Sinənin içində o daş nə lazım?

27.08.2001

OLDUM

Ey mənim könlümü ovlayan ovçu,
Vurdun ürəyimə yaralı oldum.
Bu dərddən Tanrıya mən ki, duaçı,
Atdığın nişanın maralı oldum.

Düşdüm hicranların qəm yatağına,
Bir gələn olmadı heç otağına,
Qar düşdü könlümün sevda tağına,
Sazaqdan, şaxtadan saralı oldum.

Ürək hə deyəndə, yox dedi dilim,
Doğradı bağırı qəm dilim-dilim,
Özüm də bilmədim nədən, sevgilim,
Niyə bu sevgidən aralı oldum?

Səndədi könlümün, qəlbimin canı,
Fələyin bəxşişin, əzizim tanı,
Kim poza bildi ki, fələk yazanı?
Mən ki, bəxt sarıdan qaralı oldum.

Etmə Şadimanı dərdindən xəstə,
Sağ ikən sən məndən könlümü istə,
Yolunu salanda məzarım üstə,
Sonradan demə ki, haralı oldum?!

10.12.1999

O GÜN

O gün bir küçədə gəldik üz-üzə,
Ürəkdən xəbərsiz alışdı canlar.
Zaman xatırladı o eşqi bizə,
Lövbərsiz gəmiyə bənzədi anlar.

Donub ikimiz də qaldıq, o yerdə,
Nə dillər danışdı, nə qəlblər dindi.
Bir anlıq səcdəyə döndü o yer də,
Yuxulu xəyallar özü diksindi.

Sənin bəbəklərin şimşəyə döndü,
Alışdı bağrımın asimanında.
Elə bil könüllər eşqlə döyündü...
Qovruldu zamanın dar gumanında.

Ötən xatirələr baharda qartək,
Əridi anların yoxuşlarında.
Qaldı aralıqda o sevgimiz tək,
Döndü bir xəyala baxışlarında.

Dəqiqə ötüşdü, sanki bir ilğım,
Budaqdan yarpaqtək ayrıldı yollar...
Bizim sevgimizin həsrəti lağım,
Udar məhəbbəti, məzara yollar.

04.12.1999

NECƏ KEÇİM?

Alıb ürəyimi atəşə saldı,
Alışır bağırım, alışır içim.
Hicranın yolunu Günəşə saldı,
Belə məhəbbətdən mən necə keçim?

Deyirlər sevəni Allah da sevər,
Dünyaya nur verən sabah da sevər,
Sevgi günahdırsa, günah da sevər,
Belə məhəbbətdən mən necə keçim?

Ucaldıbdı ərşə eşq sarayımı
Nəşənin əliylə boğub vayımı,
Duyur bir baxışla hay-harayımı
Belə məhəbbətdən mən necə keçim?

Bu sevda könlümə pərişan deməz,
Qəlbimi hicrana heç nişan deməz,
Bağrımı bu eşqə necə şan deməz?
Belə məhəbbətdən mən necə keçim?

Şövqüylə sinəmə səadət damlar,
Tutub ayrılığı həbs edər, damlar,
Dünyada saf eşqə həsrət adamlar,
Belə məhəbbətdən mən necə keçim?

17.03.2001

BİR SƏN OL

Bir sən ol, mən olum, bir uçuq kaha,
Heç nə istəmirəm Tanrıdan daha!
Səhər yelləritək, bəxt cilvələnsin,
Ey yar, ömrümüzə şadlıq ələnsin.
Nə sərvət, nə dövlət, nə pul, nə para,
Heç zaman tay olmaz əhdə, ilqara.
Təmizliyə bağlı saf mənəviyyat,
Onun sayəsində bərqərar həyat.
Var-dövlət isidə bilməz ürəyi,
Sevgidir qəlblərin ürkək mələyi.

***

Bir sən ol, mən olum, bir uçuq kaha,
Düşüb var dərdinə batmayaq aha.
Yansın, şölələnsin könül şamımız,
Qalmasın ürəkdə həyat kamımız.
Ömür yollarında sevgi bələdçi,
Ona yuva olsun könlümün içi.

***

Bir sən ol, mən olum, bir uçuq kaha,
Bu həqiqi sevgi yetsin Allaha!...

19.02.2000.

AMAN YARIM

Dünya gözəl, sevgi şirin, ömür az,
Sən olmusan həyatıma bahar, yaz,
Sevənlərə çox yaraşır işvə, naz,
Kədər nədir, bilməyəsən, gül yarım,
Aman yarım, gözəl yarım, gül yarım.

Heç sevdadan doyan varmı dünyada?
Eşqimizə heyran olub dünya da.
Axtarmayım gül üzünü röyada,
Könlümə gəl hər dərdimi bil, yarım,
Aman yarım, gözəl yarım, gül yarım.

Saf ürəkdir məhəbbətin adası,
Təmiz eşqdir yaşamağın faydası,
Xiffət çəkmək sevənlərin qaydası,
Eşq nəğməsin sənə söylər dil, yarım,
Aman yarım, gözəl yarım, gül yarım.

Candan əziz sandım səni canıma,
Mələksima, nur verirsən anıma,
Durma gendə bir gəl mənim yanıma,
Cilvələnir ürəyimdə tel, yarım,
Aman yarım, gözəl yarım, gül yarım.

Şadimandan üz çevirmə, amandı,
Ayrılıq ki, ölümdən də yamandı,
Heç unutma dilindəki o andı,
Alışdırıb qəlbi etmə kül, yarım,
Aman yarım, gözəl yarım, gül yarım.

18.03.2001

VAR EŞQİDƏ

Sən ey eşqə edən cəfa,
Nə heyrətlər var eşqidə?
Əgər qılsan ona vəfa,
Səadətlər var eşqidə.

Hicrə bulma rəva canı,
Onun ki, heç yox ünvanı,
Başlar könlə qəm divanı,
Müsibətlər var eşqidə.

Ömür elə ötür yeltək,
Gedən-gedər tutma eltək,
Qəlbdən qəlbə yol sal teltək,
Hekayətlər var eşqidə.

Ötürmə heç zamanı ki,
Sev bir mələk simanı ki,
Unutma din-imanı ki,
İbadətlər var eşqidə.

Uyan sevgi dərgahına,
Şükür eylər Allahına,
Səbəb olma qəlb ahına,
İtaətlər var eşqidə.

Sevda çağlar bəhərlərdən,
Gecə ağlar qəhərlərdən,
Həsrət gülər səhərlərdən,
Əziyyətlər var eşqidə.

Qəlbdə ahlar zəban olar,
Qəm ayağa daban olar,
Ürək elə sərban olar...
Nə zillətlər var eşqidə?!

Ey Şadiman, bu nə sevda?
Canı ona eylə fəda,
Tən gəlməyir eşqlə əda,
Məhəbbətlər var eşqidə.

10.11.2001

İLK MƏHƏBBƏT

Salırsan qəlbləri dərmansız dərdə,
Dəvasın nə loğman, nə həkim tapır.
Qarşında diz çökür igid də, ər də,
Dərdinin dərmanın söylə kim tapır?

Bir zaman Qeysi Məcnun eylədin,
Leylini dillərdən dillərə saldın.
Əslini, Kərəmi de bir neylədin?
Onları kül edib, guya kam aldın!

Bir vaxtlar Fərhada Şirin eşqiylə,
Bisutun dağını parçalatmısan.
Söylə, ilk məhəbbət nə əsas ilə,
Qəlbləri bu ağır dərdə atmısan?!

Çox könüllər oldu səndən yaralı,
Qoydun sinələri dərd, qəm içində.
Toruna düşəndən qəlbim saralı,
Qoymusan gözümü yaş, nəm içində.

1973

EY YAR

Sənin qərib düşmüş məhəbbətinə
Min kərə ürəkdən can dedim, ey yar,
Şükür edib tanrı səadətinə
Sən də mənim təki yan dedim, ey yar.

Həsrətə düşəndə vüsal xoş olar,
Gözlərdən yanağa düşən yaş olar,
Məhəbbət olmayan ürək daş olar,
Sən bu gerçəkliyi an dedim, ey yar.

Yamandır hicrana qəlbin dözməyi,
Möhnət dəryasında könlün üzməyi,
Kimdən öyrənmisən bağrı üzməyi?
Qəmindən ürəyim qan dedim, ey yar.

Əhdi-peymanımız bir söylə hanı?
Basıbdır fəğanın yenə hər yanı,
Niyə qınayırsan bu Şadimanı?
Yolunda qurbanlıq can dedim, ey yar.

10.12.1999

NƏDƏN ÜZ ÇEVİRİB GEDİRSƏN BELƏ?

Nədən üz çevirib gedirsən belə?
Ağlayan könlümün dərmanı sənsən.
Vermə ümidimi, sevdalım yelə,
Bəxtimin hökümü, fərmanı sənsən.

Əsən küləyimsən, doğan günəşim,
Odundan nurlanır ocaq atəşim,
Ulu məhəbbətə səcdədi işim,
Eşqimin həyatda imanı sənsən.

Getmə, sevdiciyim, dünya fanidir,
Zamanın gözündə ömür anidir,
Canı təndən alan ölüm anidir,
Qəlbimin həyatda səhmanı sənsən.

Sevda göylərində, tərlanım, uç gəl,
Ayrılıq İlahi yanında suç, gəl,
Ürəyim yollarda qalıbdı, quc gəl,
Bu dünyamın ən xoş zamanı sənsən.

Etmə həyatımı hicranlara tuş,
Vaxtımız fələyin süfrəsində nuş,
Saniyə saatın əqrəbində quş,
Gələn hər məqamın amanı sənsən.

18. 04. 2003

BU GECƏ GƏLMİŞDİ

Bu gecə gəlmişdi ruhum qapına,
Qapının səsinə oyanmadın sən.
Sanki hicran əkdi ahım qapına,
Bəlkə heç acıma dayanmadın sən.

Qapı arxasında qalan canımı,
Üşütdü çilənin soyuq şaxtası.
Bürüdü dumantək həsrət anımı,
Hönkürdü halıma qapı taxtası.

Bu gecə gözümün yuxusu qaçdı,
Ürəyim ağlıma üsyan elədi.
Bu gecə hislərim haqqa əl açdı,
Allahın özünü heyran eylədi.

06.02 2016

BİR QƏRİB AXŞAMDA DÜŞDÜN YADIMA

Bir qərib axşamda düşdün yadıma,
Zülmətin baxtına düşən şam kimi,
Yetişə bilmədin heç imdadıma,
Qaldın ürəyimdə yazıq kam kimi.

Çağırdım, səslədim ünüm yetmədi,
Səhraya çatmamış yağışlar sayaq,
Bu hicran savaşı bir an bitmədi,
Aradıq bir-birin baxışlar sayaq.

Dikildi gözümüz yola, irıza…
Dönmədi könlümüz öz yuvasına,
Tələsdi ömrümüz hey qışdan yaza,
Öyrəndik həsrətin cəng havasına.

Qəlbimiz ağladı, üzümüz güldü,
Baxanlar bəxtəvər sandılar bizi,
Payız yarpağıtək günlər töküldü…
Sevdalar hicr ilə andılar bizi.

Bir qərib axşamda xəyalın gəldi,
Bağrımın evinə bir şivən saldı.
Hicranın sinəmdən qopdu, yüksəldi,
Yazıq ürəyimi qoparıb aldı.

8. 10. 2002

BƏBƏKDƏN TÖKÜLƏN YAŞLARIM DAMLA

Bəbəkdən tökülən yaşlarım damla,
Damlalar çeşməni doydura bilmir.
Gəl bu həsrətini bir yolluq damla,
Gözümü yuxular uydura bilmir.

Dolanıb xəyala o ötən günlər,
Vurub taleyimə hicran düyünlər,
Ürək segah üstə kamantək inlər,
Ayrılığın qəlbin oydura bilmir.

Əsiri olmuşam sənli dəmlərin,
Söylə, şahısanmı bu ələmlərin?
Necə zəngin imiş narın qəmlərin?
Könlüm qəm libasın soydura bilmir.

Həsrət zülmətimə baxışların, Ay,
Gəl bu Şadimana ver, əzizim, hay,
Könül sarayını açıb taybatay,
Qapıya bir qıfıl qoydura bilmir.

8. 10. 2002

BİR GÜN DÖN YARINA

Səni hər şeydən üstün tutdum,
Dəli təki sevə-sevə özümü unutdum
Və ürəyimi hicranın içinə atdım,
Gecələr o şirin xəyalınla yatdım.
Əksini gözümdən qova bilmədim,
Ayrılığın burnunu ova bilmədim.
Sənə yetmək üçün ümidlərim alışdı,
Könlün ocağına düşüb atəşinə qarışdı.
Zülmətə tuş olanda
xəyalların çıraq oldu gözlərimə,
Əksin naxış saldı izlərimə.
Sevgin sevda dənizlərinə düşüb çalxandı,
Sərsərilər kimi məni andı.
Ürəyim çırpındı qəfəsə düşmüş quş təki,
Üzümə çırpıldı qarqış təki.
Bütün vücudumu parampaça etdi,
Köksümdən çıxıb səni aramağa getdi…
Ürəksiz qalan varlığımı titrədi,
Eşqin, sanki fələyin göndərdiyi fitrədi.
Girib həyatıma məni əsir edib,
Məhəbbəti könlümə qəsr edib.
Bu qəsirdən boylanıram yollarına,
Nə olar, əzizim? Bir gün dön yarına…

6. 06. 2002

YAR GƏRƏK KÖNLÜVÜ ALSIN GETSİN

Yar gərək könlüvü alsın getsin,
Qoluvu boynuva salsın getsin.
Oxşasın hər kərə gül üzüvü,
Aşikar eyləməsin sözüvü.
Çəkməsin aləmə car özüvü,
Könlüvə ayna etsin gözüvü.
Eşqivü çil-çıraqban eləsin,
Canuvu canuva can eləsin.
Sözü könlüvə məlhəm eləsin,
Ağlı yüz ölçərək cəm eləsin,
Ələmin ömrünü kəm eləsin,
Zili xatürüvə bəm eləsin.
Könlüvün evinə ensin getsin,
Yar gərək başuva dönsün getsin.

22. 05. 2002

XƏYALIN OTAQDA UÇUR QUŞ KİMİ

Xəyalın otaqda uçur quş kimi,
Əlimi atıram, tuta bilmirəm.
Düşüb kirpiklərin üstə daş kimi,
Yuxum ərşə qaçıb yata bilmirəm.

Gah masa üstündə şam təki yanır,
Önümdə kölgətək durub-dayanır,
Həsrətlər içindən həsrət oyanır,
Mən bu müsibətə bata bilmirəm.

Ömür uçur gedir elə ahəstə,
Sanki peyda olur zaman at üstə,
Qaçmaq istəyirəm qəm gəlir üstə,
Yollarım uzanır çata bilmirəm.

17.10.2007

YADINDAMI?

Yadındamı o illər?
Eşqlə yanğılı dillər,
Alışardı, yanardı,
Zamanım dayanardı.
Sənsiz dünyam küsərdi,
Ümidimi kəsərdi,
Xəyallarım uçardı,
Tez yanına qaçardı,
Küsüşüb barışardıq,
Od olub alışardıq.

***

Yadındamı bir səhər?
Aldı könlümü qəhər,
Sənsiz həyat daraldı,
Gözümdə gün qaraldı.
Küləklər sayaq, əsdim,
Görüşünə tələsdim,
Qıvrıldım ilan təki,
Gözüm görmədi səki,
Eşqin çapdı başımda,
Səni gördüm qarşımda.

***

Yadındamı səadət?
Cantək sevgili həyat,
Könlümüzə yar idi,
Həsrət, vüsal var idi.
Sellər təki coşardıq,

Çeşmələrtək daşardıq.
Bizə dünyada əziz,
Həm duyğulu, həm təmiz,
Saf məhəbbət nəsibmiş,
Üstümüzdə əsibmiş.

***

Yadındamı o vaxtlar?
Ayrı yanardı baxtlar,
Alışardım oduna,
Heç düşməzdim yadına.
Öz içimdə yanardım,
Səni dünyam sanardım.
Sənsə çəkib özünü,
Yan tutardın üzünü.
Məni oda atardın,
Yuxuları qatardın.

***

Yadındamı küləklər?
O göy atlı mələklər,
Darayardı telimi,
Qucaqlardı belimi,
Dodağımda gülüşlər,
O xəyali görüşlər...
Yuxumuza gələrdi,
Həsrət dərddən ölərdi.
Səni mənə yar edən,
Bağrımın başın didən,
Yuxumu qısqanardım,
Gizli-gizli yanardım...

***

Yadındamı, sevgilim?
Sənsiz ağlardı ilim.
Dərd başımdan aşardı,
İçimdə dolaşardı,
Həyat adiləşərdi,
Can gözümdən düşərdi.
Könlüm səni arardı,
Qəlbimi dərd sarardı.
Ağlardım için-için,
Sənin o sevgin üçün,
Demə ki, bu eşqimiz,
Qoymayıb qəlbimdə iz,
Kökü gedib dərinə,
Ürəyimin yerinə,
Sənin sevgin yerləşib,
Əbədi sehirləşib.

15.02.2000

SURƏTİN AY KİMİ DURUB QARŞIMDA…

Surətin ay kimi durub qarşımda…
Həsrətin parlayır bu göz yaşımda.
Edir ürəyimə hicranın sitəm,
Çəkilib getməyir könlümdən matəm.
Hər yerdə görürəm xəyalını mən,
Könlümün telləri qırılır dən-dən,
Ömrümdən boylanır elə iztirab,
Qalmayıb canımda nə taqət, nə tab.
Bitmir ayrılığın acı möhləti,
Naləm əyan edir ərşə haləti.
Surətin ay təki yuxumdan baxır,
Bu baxış könlümü yandırıb-yaxır.
Basır yatağımı bu həyacanım,
İsinmir həsrətin oduyla canım.
Ağrılar içində illət boylanır,
Bütün həyatımdan zillət boylanır.
Gecəm sabahıma dərmanə gəlir,
Ay təki surətin fərmanə gəlir.
Yıxır ümidimin sarayın qubar,
Hər ağrı içində bir işgəncə var.
Soyuq məzar kimi üşüyür canım,
Xəyalın önündə əsirdi anım.
Tütyə sevincim də həsrətdən keçir,
Zülmün qədəhindən ruhum qan içir.
Həsrətin parlayır bu göz yaşımda,
Surətin ay kimi durub qarşımda…

18. 02. 2005

OXUYUR SEVDA QUŞU CANIMDA

Könüldə duyğularım oynayır,
Qəlbimin alovuyla qaynayır,
Niyə bəs ürəyimlə oynayır?
Onun öz sevgisi var qanımda,
Oxuyur sevda quşu canımda.

Gecəmin zülmətinə çıraqdır,
Ağrıdan, əzablardan iraqdır,
Eşqimin ülfətindən soraqdır,
Mən onu görməmişəm yanımda,
Oxuyur sevda quşu canımda.

Vəfalı sevgili yar baratdı,
Bu yarın səadəti həyatdı,
Kim ki, bu dünyada eşqə çatdı –
İlahi diləyi var anımda,
Oxuyur sevda quşu canımda.

Şadiman ağrıya şan verməsin,
Könlünü ona nişan verməsin,
Əzrayıl gəlsə də can verməsin,
Tanrıdan mükafatdı canım da!
Oxuyur sevda quşu canımda.

14.01.2007

CAN ÇƏKƏR BƏLA ELƏ EŞQİDƏN

Nə gələr ada belə eşqidən?
Can çəkər bəla elə eşqidən.

Tökdürər ürəyinə cəfanı,
Az olar ki, görəsən vəfanı,
Loğmanlar bula bilməz şəfanı,
Göz yaşın dönər selə eşqidən,
Can çəkər bəla elə eşqidən.

İçdirər dərdini qaşıq-qaşıq,
Oynayar sənlə aşıq-aşıq,
Qəmi könlünə olar sarmaşıq,
Çən düşər qara telə eşqidən,
Can çəkər bəla elə eşqidən.

Bölə bilməz ürəyin acını,
Qurar həsrət sinədə tacını,
Tapmazsan heç yerdə əlacını,
Uçar yuxular yelə eşqidən,
Can çəkər bəla elə eşqidən.

Qəlbini dərdlərə mətin edər,
Hər işin dəvasın çətin edər,
Sevgini cana xilqətin edər,
Düşərsən yaman dilə eşqidən,
Can çəkər bəla elə eşqidən.

Qəm səni edər oyuncaq kimi,
Atılıb qalarsan bucaq kimi,
Alışar bağırın ocaq kimi,
Dönər ürək də külə eşqidən,
Can çəkər bəla elə eşqidən.

Şadiman, məhəbbətlə nə cida?
Odu ruhumuza verən qida,
Qoyma hicranı könlüvü uda,
Dəyər fəna gülə eşqidən,
Can çəkər bəla elə eşqidən.

05.03. 2003

TİTRƏK BAXIŞLARIN HÖNKÜRƏN BULUD

Bilirəm, sevirsən məni gizlicə,
Titrək baxışların hönkürən bulud.
Mənsiz ömür, günün keçir de necə?
Yəqin ürəyin də sızlayan bulud.

Gecə də, gündüz də könlün ağlayır,
Səni dəli edir mənim xəyalım.
Bülbültək içində həsrət çağlayır,
Ağladır qəlbini bu qeylü-qalım.

Uşaqtək şuluqluq edər gözlərin,
Çırpınar, şıltaqlıq elər kipriklər.
Ələnər qəlbinə həsrət közlərin,
Qəm qəh-qəh içində çalar çəpiklər.

Yandırar baxışın bütün aləmi,
Mənim varlığımı oyatmaz, heyhat.
Fələyin çaldığı hicran qələmi,
Qəmin ürəyini eyləyər rahat.

Elə dağ çəkibdi qəfil ayrılıq,
Öldürür, dirildir baxışlar səni.
Könlün candan ayrı gəzir xoşqılıq,
Ömürdən qoparıb atmaqçın çəni.

Acılar içində tökmə göz yaşı,
Ağlama bəxtinin qəddarlığına.
Çırpanda daşlara tez sınar kaşı,
Məhəbbət neyləsin qəlb darlığına?

O itən yollara dikmə gözünü,
Fələyin yazdığın pozan olmayıb.
Nə qədər öysə də bəndə özünü –
Hələ öz bəxtini yazan olmayıb…

Gah haray salırsan, gah lal olursan,
Gah da boynubükük gülə dönürsən.
Əfsus, özün boyda sual olursan,
Yanıb əzablardan külə dönürsən.

Bilirəm sevirsən, canında hicran,
Özün öz bəxtini qarqışlayırsan.
Sənə fəryad təki gəlir saat, an,
Həsrət tufanında nə qışlayırsan?

Töküldü üstünə dünyanın qəmi,
Dərd səni dəryadan-dəryaya atdı.
Buludu ağlatdı o ələm dəmi,
Fəryadın dağ üstə min dağ yaratdı.

18. 06. 2002

TƏKCƏ SƏNİ UNUTMARAM

Çıxa dünya, aləm yaddan,
Yatmış könlü oyatmaram.
Əl üzülsə bu həyatdan,
Təkcə səni unutmaram.

Hicran gəlib alsa qəlbi,
Əzablara salsa qəlbi,
İlan təki çalsa qəlbi,
Təkcə səni unutmaram.

Ağrılarım zirvə aşsa,
Qəm gözündən seltək daşsa,
Əl titrəyib, dil dolaşsa,
Təkcə səni unutmaram.

Ey könlümün can sirdaşı,
Sənə bağlı bağrım başı,
Sil ürəkdən o tələşı,
Təkcə səni unutmaram.

Şadimandan dünya doysa,
Ürəyimi həsrət oysa,
Qəm qapıma ayaq qoysa…
Təkcə səni unutmaram.

13.11. 2003

AH, NECƏ SEVİRƏM

Ah, necə sevirəm, sevirəm səni?
Bu sevda alıbdı qoynuna məni.
Gizli duyğuların titrəməsindən,
Ruhumun çağlayan həyat səsindən
Ərşə çəkilibdi canın qəmləri,
Mələktək gəzirəm hey aləmləri.
Olmusan könlümün ayı, ulduzu,
Hicranın bağrıma salıbdı buzu.
Tufanlar əsdirir coşan qanımda,
Dünyanın nəş'əsi qopar canımda.
Sənինlə başlayar könlümə bahar,
Edibdi sinəmi bu atəş ahar.
Ağlım ürəyimə olubdu əsir,
Tikibdi anıma arzular qəsir.
Diləkdən yeni bir dilək doğubdu,
Kədəri bələkdə tutub boğubdu.
Canım çırpınarkən o görüşünə,
Qapıların açır qəlb gəlişinə.
Həyat qaynayanda göydə və yerdə,
Həsrət dözməz axı düşdüyü dərdə.

***

Ah, necə sevirəm, sevirəm səni?
Sevdan ram edibdi özünə məni.
Yuxumun qapısın açaraq gecə,
Tez qaçır yanıma ruhun gizlicə.
Üz-üzə, göz-gözə, pıçıldaşırıq,
Arzudan-arzuya coşub-daşırıq.
Əllərin telimə sığal çəkəndə,
Sevda gülzarına çiçək əkəndə,
Xəyalın zülmətin bağrını yarır,
Anların içində həyat arayır.
Kədəri salaraq dəmir qəfəsə,
Qalırıq dəmlərlə nəfəs-nəfəsə.
Ötür ömrümüzdən, gedir bu anlar,
Taleyə köklənib sevdalı canlar.
Dünəndən qoparmaq olmur saatı,
Qaytaraq geriyə ötən həyatı.
Qurmusan ömrümə səadət taxtı,
Zirvədən-zirvəyə gəzdirir baxtı.
Ah, necə sevirəm, sevirəm səni?
Yaşat olduğuntək əzizim məni.

12. 03. 2004

BU QATAR YAMANCA ŞÜTÜYÜB GEDİR

Bu qatar yamanca şütüyüb gedir,
Qəmimi məktuba büküb aparır.
Özünü mənimtək halbahal edir,
Eşqimin ağzıını tikib aparır.

Üzümdən oxuyur həyacanımı,
Özündə ağladır bu hicranımı,
Qoparıb bədəndən şirin canımı,
Bütün ürəyimi söküb aparır.

Bu qatar verməyir anlara aman,
Tələsir mənzilin başına yaman,
Mən ah eləyirəm, ürəyim iman,
Gözümdən yaşımı töküb aparır…

Səhər mürgüsündən çöllər ayılır,
Çarxlar tıqqıldayır, anlar bayılır,
Qəlbimin fəryadı ərşə yayılır,
Yollara ayrılıq əkib aparır.

Giribdi qəlbimlə əcəb sövdaya,
Qoynunda yer verib niyə sevdaya?
Görmürmü könlümdən qopan nidaya?
Bağrıma qəm dağı çəkib aparır.

Qışın soyuğluğu gəlir səhərdən,
Tutulub boğazı dəmin qəhərdən,
Bütün varlıığımı udan zəhərdən,
Anların çiyninə çöküb, aparır.

Bu qatar bilmirmi qəm adətimi?
Alıb əllərimdən məhəbətimi…!
Nə ki, qərib olmuş səadətimi,
Məni də özüylə çəkib aparır…

03. 01. 2005

BU GECƏ XƏBƏR ET ULDUZLARA SƏN

Bu gecə xəbər et ulduzlara sən,
De ki, ürəyimdən gedib duman-çən.
Yenə könlüm evi çıraqban olub,
İncə duyğularla mehriban olub.
Atəşlə alışıb yanır ürək, can,
Sənin həsrətinə nalan olub an.
Dərdimi deməyə qüdrətim çatmır,
Qəmimi çəkməyə vüs'ətim çatmır.
Ürəkdən nə silər bu məlalımı?
Özün yadına sal mənim halımı.
Bu gecə xəbər et, ulduzlar çıxsın,
Mənim atəşimin oduna baxsın.
Sən qəmi verənsən, mən qəmi çəkən,
Səpilsin göylərə ulduzlar erkən.
Yansın inci-inci, yansın şam kimi,
Könlüm cilvələnsin bu axşam kimi.
Hər ulduz taleyin misalı təki,
Sənin surətinin timsalı təki,
Parlasın göylərin sinəsində qoy,
Gecənin zülmətin bu işıqla oy.
Dərdini deməyə həmdəm et məni,
Ya da bu dərdinlə gəlib öt məni!…
Sevdalı günləri salım ürəyə,
Sənin cəmalını alım ürəyə,
Oxşasın ruhumu bu gecə yarı,
Gəl birgə yaşadaq əhdi-ilqarı.
Bir sevda günəşi doğsun başımda,
Batırım ələmi bu göz yaşımda.
Canıma qonaq et ruhunu belə,
Mən də bu zülməti vurum qəm ilə.
De ki, ürəyimdən gedib duman-çən,
Bu gecə xəbər et, ulduzlara sən…

17. 02. 2005

GÖZLƏRİNİN DƏNİZİNDƏ BATMIŞAM

Gözlərinin dənizində batmışam,
Sularına ürəyimi atmışam,
Sevda odun qəlb içinə çatmışam.
Xəyalların arzulara çatmışam.

Bu könlümün acıların bilsənə,
Sevdiciyim, canım özü dilsənə,
Gözlərimdən axan yaşı silsənə,
Küsüb gedən, ürəyimə gəlsənə.

Ağrıların bilinməyir müddəti,
Qövr eləyir zaman-zaman şiddəti,
Nə yamanmış ayrılığın hiddəti,
Yandırmaqdı ürəkləri adəti.

Sevgimizin bir üzünə gülsənə,
Küsüb gedən ürəyimə gəlsənə.

12.11.2007

ODA SƏCDƏ EDƏN BİR PƏRVANƏTƏK

Oda səcdə edən bir pərvanətək,
Düşüb ocağına qovrulacağam.
Həsrət karvanına tuş divanətək,
Hicran tufanından sovrulacağam.

Cismimi əzrayıl versə yellərə,
Eşqim kəfən olsa sənsiz illərə,
Qapımı bağlamış bu niskillərə,
Alınmaz qalatək dayanacağam.

Bu hicran bağrımı çəksə də şişə,
Eşqimin bağını döysə əndişə,
Vüsalın könlümdə ən gözəl guşə,
Hər an bu atəşlə yuğrulacağam.

Ötəri ümidlər güldürsə məni,
Aləmə Leylitək bildirsə məni,
Amansız ayrılıq öldürsə məni,
Ay təki gecədə doğulacağam.

Zaman niskilləri döysə başıma,
Bürünsə səyyarə bu göz yaşıma,
Fələk neçə sərhəd çəksə qarşıma,
Dəli həsrətinlə boğulacağam.

Ucuz tutanlara eşq oyuncaqdı,
Sənə sevgilərim qucaq-qucaqdı,
Könül atəşinlə yanan ocaqdı,
Üfürsən, dünyaya dağılacağam.

Şadiman, gecən də dönər ulduza,
Gecəli-gündüzlü könlü yalqıza,
Eşqini şeirlə salıb ağıza…
Nəğməylə, şərqiylə yayılacağam.

06. 08.1994

YAŞIL GÖZLƏR

Yaşıl gözlər, könlün için
Od-ocaqla qalamısan.
Söylə görüm, xudam, neçin
Dərdi mənə calamısan?

Yıxıb sınmaz dirəyimi
Oxlamısan diləyimi.
Eşqlə dolu ürəyimi
Həsrətinlə talamısan.

Yaşıl gözlər, əfsunlandım,
Bir baxışla ovsunlandım.
Alovunla qorsunlandım,
Göydən enən bəlamısan.

Taleyimin yoxuşları
Saldı ömrə naxışları.
Evlər yıxan baxışları
Nə tuşladın qalama sən?

Yaşıl gözlər – bəxtin tacı,
Başdan aşır ağrı-acı.
Dərdlərimin tək əlacı
Gəl, yox eylə bəlamı sən.

Yaşıl gözlər, gözüm yatmaz,
Özgə istək qəlb oyatmaz,
Əllərinə əlim çatmaz.
Dəryada bir talamısan.

Şadimanı alışdıran,
Sevgisinə ulaşdıran,
Eşqi qəlblə vuruşduran
Bir tilsimli qalamısan.

26.03.1995

ƏBƏDİ QOVUŞAYDIQ

Ürəyi dərd alıbdı,
Yenə həsrət qalıbdı.
Gözlərim o gözünə,
O sevda dənizinə,
Atılıb bir üzəydik,
Yeri, Göyü süzəydik.
Mələklərtək sehirli,
Məhəbbətimiz sirli,
Alışaydıq, yanaydıq,
Odlara boyanaydıq.
Gözümüzün sevinci,
Hər damlası bir inci,
Parlayaydı Günəştək,
İçimizdə atəştək,
Bir ocaq çatılaydı.
Könlümüz atılaydı,
Bu sevdanın üstünə,
Durub qəmin qəsdinə,
Acılardan çıxaydıq,
Gizli-gizli baxaydıq,
O sevginin gözünə.
Atılaydıq közünə,
Yanaydıq için-için.
Arada hicran neçin?
İçimizdə bir atəş,
Odu tükənməz Günəş.
Yer, Göy ram olaydı,
Ürəkdə kam olaydı.
Bu sevdalı dünyanı,
Hər atəşli xülyanı,
Səadətlə oyaydıq,
Xəyallara uyaydıq,
Atışaydıq kədərlə,
Çarpışaydıq qədərlə.
Hər şey könlümüzcə,
Sevgilim, söylə necə,
Kədərdən sovuşaydıq?
Əbədi qovuşaydıq?

16.07.2001

EY MƏHƏBBƏT

Ey məhəbbət…,
Səni munis bildim,
Ən zərif, ən gizli hiss bildim,
Bütün istəklərdən nəfis bildim,
Könlümü ağladanda pis bildim.
Ürəyimin içindən keçdin,
Neçə yol biçindən keçdin,
Niyə-neyçindən keçdin.
Şərabtək süzdün qanımı qədəhə,
Üf demədən başına çəkdin,
Guya bu istəyinlə təkdin.
Şərbət təki içdin,
Bütün istəklərimi biçdin.
Dodağından qopdu qəh-qəhə,
Özün də alışdın bəh-bəhə.

***

Ey məhəbbət…,
Heyran oldum qüdrətinə.
Səni pirim bilib səcdə etdim vüsətinə,
İllərlə dözdüm həsrətinə.
Elə ki, bələd oldum xislətinə
Çəkdiyim acılara üzüldüm,
Ayrılıq cəhənnəmində əzildim,
Kədər badəsinə süzüldüm.
Canımı tənimdən qopartdın,
Qəlbimi məndən apartdın.
Arzumu-kamımı səninlə böldüm,
Həsrətinə gah ağladım, gah güldüm,
Güman etdin öldüm.

***

Ey məhəbbət…,
Bu munis gecələrimdən doğan ağrı,
Elə kabab etdi bağırı.
Bir içim suya döndü harayım.
Titrədi zəlzələndən könül sarayım,
Köksümə ismarlandı vayım.
Mənə etdiklərinin hansını sayım?!...
Acılar içində titrəşən xülyalarımı?
Gözlərimlə savaşan röyalarımı?
Könlümə sığmayan dünyalarımı?

***

Ey məhəbbət…,
İlhamı könlümə atdın,
Bütün duyğuları qəlbimdə oynatdın,
Bu rahat həyatımı bir-birinə qatdın,
Cahanın acıların qəlbimə çatdın,

Axır ki, arzuna çatdın…
Ürəyimi eylədin dəli,
İndi yetmir ona ağlımın əli!
Gəzirəm özümdən havalı,
Zehnimlə, şüurumla davalı,
Dilim haqqa dualı,
Bitmir etdiklərinin qeylü-qalı.
Kimə ərz edim halı?

***

Ey məhəbbət…,
Şadimanı oda saldın,
Sinəsinə qada saldın,
De haçan yada saldın?
Könlümü yaman fəryada saldın.
Çarəsi bulunmaz,
Ürəyi alınmaz.
Götür məndən əndişəni,
Qaytar nəş'əni.
Məni sən yaratmadın axı,
Yaradıb bu dunyaya atmadın axı.
Haqqımın yanına gedərəm,
Səndən Allahıma şikayət edərəm.
Şikayət edərəm…
Ey məhəbbət…
Ey məhəbbət…

13.05.2008

HƏSRƏT VƏ SEVDA

Həsrət və sevda,
İçdən qopan nida,
Dodaqlarda əlvida.
Ayrılığın ürəkdə açdığı
şırımları dərin,
Sağaltmaq olmur heç
nəylə yerin.
Ocağı sönmüş könlümün
külləri oynaşır ətrafda,
Küskün xatirələrin
izləri qaynaşır ətrafda.
Ağrılar içində can verir ədam,
Məhəbbətin olsa da
Könlümə qidam,
İndi mən həm özümə,
həm sənə yadam,
Yadam…

13.09.2008

UZUN ƏHVALATDI SƏNİ SEVMƏYİM...

Uzun əhvalatdı səni sevməyim,
Hansından başlayım, hansını deyim?!...
Ayağın basdığın küçələrimi?
Səni yatızdıran gecələrimi?
Saçını oxşuyan küləklərimi?
Qəlbdən baş qaldıran diləklərimi?
Pəncərəndən gələn qəfil işığın,
Etmişdi ürəyi, qəlbi aşığın.
Bağrımı yarardı o süzülən ay,
Sənin varlığından gələrdi haray.
Əksi bərq vurardı palçıq daxmanın,
Tutub saxlayardı eşqimin canın.
Titrərdi vücudum məsum uşaqtək,
Yanardı gözümdə ümid çıraqtək.
Hər tərəfdən əksin mənə baxardı,
Surətin köksümü oda yaxardı.
Dönüb dolanardı səmtinə üzüm,
Boylanıb baxardı işığa gözüm.
Pəncərən mənimçin pirə dönmüşdü,
Heç kəs baş açmayan sirə dönmüşdü,
Baxışım düşərdi yolun ağına,
Ürəyim gəzərdi hey sorağına.
Sən keçən yolları hamarlayardım,
Xırda daş-kəsəyi tumarlayardım.
Ləprin düşən yolu sevərdim canla,
Sənə vurulmağım çəkmişdi anla,
Amma ili-ilə calayırdım mən,
Köksümə od-atəş qalayırdım mən.
Sən qalan daxmanın bağını sevdim,
Gül-çiçək açılan çağını sevdim.
Səsin gələn yerdə gözüm dolandı,
Qarşıma çıxanda üzüm allandı.
Üz-üzə gələndə mən səndən qaçdım,
Sənin xəyalına yenə əl açdım.
Gündüz işə-gücə başım qarışdı,
Gecə xəyallarım canla yarışdı.
Surətin evimdə səhmana döndü,
Çıxıb insanlıqdan rəhmana döndü.
Mənə yad göründü bacım, qardaşım,
Gözdə kölgələndi acı göz yaşım.
Çəkildim çox zaman tənha otağa,
Vurdum öz-özümü bəzən yatağa.
Qapalı otağım nağılım oldu,
Səndən uzaq gəzən ağılım oldu.
Ürəyim minərək xəyal atına,

Çıxdı çapdı göyün yeddi qatına.
Sənin xəyalınla yapdım saraylar,
İçimdə hayqırdı acı haraylar.
Gündüzlər zəhləmi apardı dözüm,
Qurduğum xəyala heyrandım özüm...
Uzağa gedəndə yanıb tüküldüm,
Xəzan çiçəyitək mehdən büküldüm.
Sən baxan gözlərə qısqandım belə,
Bunu qəlbdə çəkdim, salmadım dilə.
Özünü, sözünü müqəddəs saydım,
Könlə bu səcdəni, demə bəs saydım.
Lampa işığına gələn pərvanə –
Mənim ruhum idi sənə divanə.
Otağın içində dolaşar ikən,
Bağrında alışan eşq yaşar ikən,
Sənin hənirtindən oda düşərdi,
Lampa şüşəsində yanıb bişərdi.
Sənsə heç əhmiyyət verməzdin ona,
Adi bir hal kimi baxardın buna.
Bu ağrı əzablar verərdi mənə,
Salardı könlümü dumana, çənə.
Ürəyim titrərdi səni görəndə,
Qəfil baxışından ümid dərəndə.
Özümü dünyada xoşbəxt sanardım,
Gizli alışardım, gizli yanardım.
Anamın gözündən yayınıb bəzən,
Çıxardım eyvanın kəndarına mən,
Daxmandan süzülən nura baxardım,
Sanki pəncərəndə aytək çıxardım,
Xəyalən evinin için görərdim,
Sızqa ümidlərin köçün görərdim.
Dağılan fikirlər məni qucardı,
Dəli hisslərimə qapı açardı.
Hönkürüb ağlardım gizli-gizli mən,
Mömin kahin idim – bütüm idin sən.
İlahi səcdənin qulu olmuşdum,
Dərdin keçilməyən yolu olmuşdum.
İndi o illərdə düşüb qalmısan,
Mənim xəyalımda məskən salmısan…
Düşdüyüm bəlanın adı məhəbbət,
Tanrının yazdığı yazıdır əlbət.
Həqiqi sevginin yuvası ürək,
Onu xəlq edənə bunca nə demək?
Uzun əhvalatdı səni sevməyim,
Hansından başlayım, hansını deyim?!...

03.12.2011

ÖZÜNÜ SEVDİRƏ BİLMƏDİM SƏNƏ

Özünü sevdirə bilmədim sənə,
Eşqidən doğula bilərmi tənə?
Bu nə bilməcədir, bu nə tapmaca,
Gümanım qalmayıb heç bir əlaca.
Çalışdım ruhunda sevda yaradım,
O sevda içində parlasın adım.
Ürək tellərində küləyə döndüm,
Könlünün içində diləyə döndüm.
Əzabdan-əzaba qatlaşdım hər gün,
Qəfil baxışların mənə toy-düyün.
Yuxular içində çırpındın quştək,
Kirpiyim üstündə parladın yaştək.
Sözümün-sovumun gərəyi oldun,
Könül tağlarının dirəyi oldun.
Hər günün həsrəti bir ilə döndü,
Dilim lal olduqca can dilə döndü.
Yalvardı ruhuma hər gecə yarı,
Əritsin qəlbinə ələnən qarı.
Sənsə soyuqluğun yolunu tutdun,
Həsrətin, hicranın qolunu tutdun.
Baxışlar içində sorğuna döndüm,
Ürəyim içində ağrına döndüm.
Gecənin çəninə bulaşıb qaldım,
Həsrət tikanına dolaşıb qaldım.
Sevdamı bənzətdim ulduza, aya,
Döndüm pıçıltının içində vaya.
Baxışında gəzdim mehribanlığı,
Qəlbim səndən uddu pərişanlığı.
Dilimin şəkərin zəhərin bildin,
Titrək gülüşümü qəhərin bildin.
Yanan ürəyimin odundan keçdim,
Eşqə gedən yolu haqq yolu seçdim.
Bütə səcdə edən kahinin oldum,
Sənə çatmaq üçün şahinin oldum.
Sən elə bildin ki, könlündə kamam,
Verdiyin ağrıdan üzüldüm tamam.
Bu dərdim ağlatdı aləmi mənə,
Özünü sevdirə bilmədim sənə...

26.12.2011

HƏM ÇİÇƏKDİ, HƏM ƏTİR

Od-atəşlə bir-birini yaxanda,
Uzaqlardan qəm bizlərə baxanda,
Sellər təki kükrəyəndə, axanda,
Fələk gələ kədərləri apara,
Qəlbimizdən niskilləri qopara.

Əllərinin hərarəti ürəkdə,
Yolun azıb, yoldan çıxıb ürək də,
Kim var söylə mənim kimi ürəkdə?
Ayrılığın sinəsindən vurmuşam,
Sənin ilə birgə yuva qurmuşam.

Məhəbbətim vüsalının adıdır,
Səadətim süfrəmizin dadıdır,
Ocağımız ürəyinin odudur,
Bu atəşi tök əbədi yoluna,
Hicran dönsün əbədilik quluna.

Qəlbimizdən ayrılıq su içməsin,
Həsrət, eyvah, qapımızdan keçməsin,
Könlümüzün evin yuva seçməsin,
Göz yaşımız səadətdən durula,
Hər anımız məhəbbətlə qurula.

Son qoyula könüllərin qəminə,
Bəbəklərin qurumayan nəminə,
Mehman olaq məhəbbətin dəminə,
Ürəyimin bağçasında gül bitir,
Sevgi özü həm çiçəkdir, həm ətir.

20.09.1998

BU ACI HƏSRƏTLƏ QALDIM BAŞ-BAŞA

Bu acı həsrətlə qaldım baş-başa,
Ürəyim çırpınır hicran içində.
Gözüm sevda oxur bəbəkdə yaşa,
Dodaqda suallar niyə, neçində?

Qürbət sevərlərtək biganə ötdün,
Yatmış duyğuları heç ayıltmadın.
Durna qatarına qoşulub getdin,
Onlar qayıtdılar, sən qayıtmadın.

Yarpaqlar tökülür, payız başlayıb,
Məsum ağaclartək eşqimiz nalan.
Ürəyim sökülür, ayaz başlayıb,
Dön isti ocağa yollarda qalan.

17.10.2007

MƏN YADINA DÜŞƏYDİM

Yenə könlün dolaydı,
Qaranlıqlar solaydı,
Gözün yolda qalaydı,
Xəyalla öcəşəydin,
Mən yadına düşəydim.

Unudaydın hər şeyi,
Qəlb olaydı eşq neyi,
Kaş ataydın gileyi,
Alovumla bişəydin,
Mən yadına düşəydim.

Yuxuların qaçaydı,
Ruhun bizə uçaydı,
Vüsala əl açaydı,
Xəyallar görüşəydi,
Mən yadına düşəydim.

O gün gələydi təki,
Edəydin mənə ərki,
Hicranlar balıq təki,
Əlindən sürüşəydi,
Mən yadına düşəydim.

Arzuların coşaydı,
Fikir dağın aşaydı,
Eşqin aşıb-daşaydı,
Hicranla əlləşəydi,
Mən yadına düşəydim.

07-08.11.1998

MƏNDƏN ƏSİRGƏMƏ

Donar gözlərimdə dünyanın özü,
Dərd çəkər üzümə naxışlarını,
Qəmlə əlçimlənər dilimin sözü,
Məndən əsirgəmə baxışlarını.

Rəvamı sinəmdə ələm yuvası?
Qəm çalar könlümdə hicran havası,
Bitməz həsrətinlə vüsal davası,
Məndən əsirgəmə baxışlarını.

Mən ki, baxışının odunda qoram,
Yanar sinə-bağır heç tapmaz aram,

Sənin möhnətinlə qövr edər yaram,
Məndən əsirgəmə baxışlarını.

Qovğadan açılmaz bəlalı başım,
Səf çəkər ordutək gözümə qaşım,
Titrər için-için kirpikdə yaşım...
Məndən əsirgəmə baxışlarını.

Sevsən, ürəyinin qoru olaram,
Baxsan, gözlərinin nuru olaram,
Xəzanım yetişər, uru olaram,
Məndən əsirgəmə baxışlarını.

30.04.1999

BİLDİM

Sənin boynubükük məhəbbətini
Həsrəti könlümü üzəndə bildim.
Çəkdim illər ilə hey xiffətini
Niskili könlümü əzəndə bildim.

Qəlbimin bağına uçdun meh təki,
Eşqin bəbəyində bəyaz şeh təki,
Aldın ürəyimi bir fateh təki,
Orda qalib kimi gəzəndə bildim.

Axdı gözlərimdən qəm yağışları,
Saldı ürəyimə nəm naxışları,
Tutdum gözlərimdə o baxışları,
Məni oğrun-oğrun süzəndə bildim.

Yandırdın hicranı çıxmaz külündən,
Eşqinə don biçdin qəlbin tülündən,
Sən könül bağımın sevda gülündən,
Bağrıma çələnglər düzəndə bildim.

Hicran qoy keçməsin ürək yolundan,
Asılıb qalmasın heç əl-qolundan,
Yarım, bu eşqimin sevgi kolundan
Təzətər çiçəklər üzəndə bildim.

Çəkənlər bilir ki, məhəbbət bəla,
Ona tutulanlar dərdə mübtəla,
Məni də o qəmə yazıb haqq-təla,
Eşqin dəryasında üzəndə bildim.

10.12.1999

O GÜN Kİ...

O gün ki, ayrıldı könül yolumuz,
Qaldım həsrətinin kədərləriylə.
Tale göylərindən yağdı dolumuz,
İslandıq vüsalın qədərləriylə...

Sanki ayrı düşdü təndən canımız,
Döndük İsa-Musa quşuna o gün.
Kökləndi sevgiyə, eşqə anımız,
Könül dünyasına düşdü səda, ün.

Hətta yuxuların dərinliyində
Toqquşdu hər zaman baxışlarımız,
Sısqa ümidlərin sərinliyində,
Dondurdu baharı sərt qışlarımız.

Xəyalla birləşdi diləklərimiz,
Dolaşdı sevginin gumanlarında.
Ağlaya-ağlaya ürəklərimiz,
İtdi bəxtimizin dumanlarında.

Ürəklər aparıb eşqimizi də,
Uçublar sevginin asimanına.
Yəqin ki, sevgilim, bir gün bizi də
Alıb apararlar onlar yanına!...

08.11.1999.

YALVARIRAM

Yalvarıram gözlərinə,
Gözlərimə heç baxmasın.
Yalvarıram izlərinə,
Könlümdə iz buraxmasın.

Yalvarıram o Allaha,
İstəyimi tez aparsın.
Ürəyimdən gəlib daha,
Bu sevgini tez qoparsın.

Yalvarıram fələklərə,
Ümidimi ağlatmasın.
Sevgi dolu ürəklərə,
Vüsal yolun bağlatmasın.

Yalvarıram aya, günə,
Ömrümə qəm yükləməsin.
Ayrılığın bəd üzüylə,
Ürəyimi təkləməsin.

Yalvarıram bu aləmə,
Könlüm təki saralmasın.
Ağrımasın qəm ələmə,
Gündüzünü qaraltmasın.

Yalvarıram Yaradana,
Qəmi alsın bu sinəmdən.
Mən də şuxluq qatım cana,
Zövq alım bir bu aləmdən.

Yalvarıram Şadimana,
Hər yetənə can deməsin.
Yükləməsin dərdi cana,
Ömrü boyu qəm yeməsin.

03.08.2001.

SƏNDƏN AYRI DÜŞƏNDƏ

Gözdə yaşım dolanar,
Qəlblə qəm görüşəndə.
Dolandıqca bulanar,
Səndən ayrı düşəndə.

Ümidlər ansız qalar,
Ürəyim cansız qalar,
Könlüm ünvansız qalar,
Səndən ayrı düşəndə.

Dil ağzımda quruyar,
Sözümü qəm darayar,
Gözüm səni arayar,
Səndən ayrı düşəndə.

Yanıram hey şam təki,
Bir qərib axşam təki,
Dərdin şişər dam təki,
Səndən ayrı düşəndə.

Qəlbimin ehtiyacı,
Eşqin könlümün tacı,
Sənsiz zaman, gün acı,
Səndən ayrı düşəndə.

Şadimandan gəzmə gen,
həyat şirin, dünya gen,
Hicran göylərindən en,
Səndən ayrı düşəndə.

03.03.2001

YENƏ SƏNİN OLARAM

Yenə o gün gələydi,
O vüsal aləmindən
Gözlərimiz güləydi.
Qopub hicran dəmindən
Gizlicə görüşəydik,
O illərə düşəydik.
Vüsal anı gələndə,
Üzümüzə güləndə,
Sanaydıq bəxtiyarıq,
Necə sevgili yarıq.
Hey tutaydıq əl-ələ,
Nəğmə qataydıq dilə,
Yellərlə öcəşəydik,
Sevinclə güləşəydik,
Çıxıb çölə, çəmənə,
Can deyib yasəmənə,
Çiçəkləri qucaydıq,
Qanadlanıb uçaydıq.
Qəfil qarşılaşanda,
Ürək coşub-daşanda,
Gözümüz ocaq çatıb,
Bizi odlara atıb,
Yandıraydı atəşə,
Bənzəyəydi günəşə,
Biz də odlar içində,
Hicranları biçində.
Vüsal dəryaya bənzər,
Könül qayıq, eşq Xəzər,
Üzüb ləpələr üstə,
Nəğmə deyib ahəstə,
Gur suları yaraydıq,
Qəmin boynun vuraydıq.
Yenə o gün gələydi,
Ayrılıqlar öləydi,
Odlu baxışlarınla,
Qəlbə naxışlarınla,
Yolum üstə duraydın,
Qəmin boynun vuraydın.
O gün gəlsə, əzizim,
Yenidən sevda bizim.
Yepyeni sevgilərlə,
O sevdalı illərlə,
Ürəyimə girərəm,
Qəmin qolun gərərəm,
Qol boynuna dolaram,
Yenə sənin olaram!...

15.07.1999

SƏNİNÇİN

Eşqə yanan ürəyimi gəl oxşa,
Kül altında közüm qalıb sənինçin.
Bənd olma heç bir ötəri baxışa,
Yollarında gözüm qalıb sənինçin.

Sinəm yanır nə müddətdi oduna
İnsafa gəl bir yet onun dadına,
Ürəyimdə varaq-varaq adına
Yazılmamış sözüm qalıb sənինçin.

Bu Şadiman eşqinlə şad dünyada,
Ömründən vermə saat, gün bada.
Qoymaram ki, üstü alsın dərd-qada
Bu könlümdə dözüm qalıb sənինçin.

31.03.2001

GƏL BİZİM TƏRƏFƏ

Şahanə məhəbbətə,
Sevgilim, xoş ərəfə,
Düşüb gözəl niyyətə,
Dur gəl bizim tərəfə.

Kolundan çiçək üzüm,
Yoluna bir-bir düzüm.
Haylı gecə-gündüzüm,
Dur gəl bizim tərəfə.

Ömür zamandan qısa,
Qoyma onu qəm asa,
Hicranı basa-basa,
Dur gəl bizim tərəfə.

Haraylar ayım, ilim,
İtər qəm ilim-ilim,
Səni səsləyir dilim,
Dur gəl bizim tərəfə.

Sənə bənzər tay hanı?
Dolansan da hər yanı,
Candan ayırma canı,
Belə qaraltma qanı,
Dur gəl bizim tərəfə.

17.03.2001

AĞLADI FƏLƏKLƏR

Ağladı fələklər fəryadlarıma,
Ahımdan dünyanın beli büküldü,
Təkcə sən baxmadın imdadlarıma,
Gözümdən gurşadlar axdı töküldü.

Zamanım yolundan döndü, dayandı,
Üzüldü canımdan min bir ələmlər.
Bütün sevinclərim sinəmdə yandı,
Mənə kədər verdi sənsiz bu dəmlər.

Hicran əzabından üşüdü canım,
Yerlərə, Göylərə üsyan eylədim.
Sənə bağlı qaldı könül ünvanım,
Dərdimi divara, daşa söylədim.

Əridi şam təki günlərim bir-bir,
Ayımı, ilimi yaxdım ahlara.
Eşqinə əlinlə qazıdım qəbir,
Niyə səbəb oldun, de günahlara?

Xəyalın gözümün önündə bitdi,
Hara boylandımsa mən səni gördüm.
Bütün kainata harayım yetdi,
Bir an tükənmədi sevdalı dərdim.

Sənsə biganəlik etdin əzəldən,
Biganə sevginin ölümmüş sonu.
Eşqin sarayını ovdun təməldən,
Əynimdən çıxmadı ayrılıq donu.

Xəyalım at çapdı ötən illərə,
Hər şeyi yenidən başlamaq üçün.
Zaman ömrümüzü verdi yellərə,
Bir bunu anlayıb duymadın neçin?

Könlümün evinin sultanı olan,
Uca məhəbbətim ucadır mənə.
Sanma ki, həqiqi sevgilər yalan,
Onu qocaldaram, vermərəm sənə.

05.08.2001.

MƏNƏM

Sən məndən gizləmə baxışlarını,
Onu yandıran da, yaxan da mənəm.
Yağdırıb həsrətin yağışlarını,
Sinəndə şimşəktək çaxan da mənəm.

Ərit ürəyini donduran buzu,
O tale qapında bəxt mələr quzu,
Sevgi göylərinin yanar ulduzu,
Hicrində saralıb axan da mənəm.

Çəkmə səbirimi sən imtahanə,
Birdəfə gəlmişik biz ki, cahanə,
Qəfil təsadüfü edib bahanə,
Ay yazıq, üzünə baxan da mənəm.

Sən məndən gizləmə baxışlarını,
Ərit ayrılığın sərt qışlarını,
Axıdıb yolunda göz yaşlarını,
Eşqin dəryasına axan da mənəm.

Qəfil atəş olub dollam canına,
Dönərəm damarda axan qanına,
Qor olub gecənin vüsal anına,
Həsrətin evini yıxan da mənəm.

12.12.1998.

ÇAĞIRSAN

Çağırsan, gələrəm görüş yerinə,
O vüsal anların yaşatmaq üçün.
Səni əvvəlkitək sevərəm yenə,
Eşqi sevdalara oxşatmaq üçün.

Çağırsan könlümü götürüb gəlləm,
Onu əzizləyib ovutmaq üçün.
Hicran nağılını bitirib gəlləm,
Həsrətin ocağın sovutmaq üçün.

Çağırsan tərlantək qanad açaram,
Yayın ilğımında, qışın qarında.
Günüm, dəqiqəm də tapmayır aram,
Alışar sevginin duyğularında.

Çağırsan gələrəm görüş yerinə,
Geriyə səslərəm sənsiz günləri.

Mən vüsal deyərəm günün birinə,
Açaram bəxtimdən bu düyünləri.

Baxışın könlünün yolunda qalıb,
Onu ovutmağa bəsdir bircə an.
O görüş yeri də dərddən qocalıb...
Çağırsan nə qəm ki, çağırmayırsan.

05.12.1998

MƏNİ GÖZLƏRİMİN YAŞINDAN QORU

Dəmir barmağlığa salsa gözü nəm,
Çinartək köksündə boy atsa ələm,
Qəlbi cəfalarla üzsə bu aləm,
Sönməsin, sevgilim, sinənin qoru,
Məni gözlərimin yaşından qoru.

Dərd ürək içində həlqələnəndə,
Ağrıya, acıya qəlb bələnəndə,
Sözlərim dilimdə güllələnəndə,
Bağrımda gedəndə qəm vurhavuru,
Məni gözlərimin yaşından qoru.

Zinətdə zənn etmə mükafatımı,
Sadəlikdə ara bu həyatımı,
Vara dəyişmərəm xoş saatımı,
Bədənə zindandır ürəyin koru,
Məni gözlərimin yaşından qoru.

Ayaqlar altına düşəndə mənlik,
Şərəfsiz bir həyat olur gülşənlik,
Dünyanın bir üzü bəşərə şənlik,
O üzü toxusa qəlbimə toru,
Məni gözlərimin yaşından qoru.

Ötəndə ürəyin boranlı qışı,
Sevgilim, zənn eylə tale naxışı,
Ərzi bürüyəndə bahar yağışı...
Çaylar çıxa bilməz sellərdən duru,
Məni gözlərimin yaşından qoru.

Sevgilim, bəxtimiz anlardan aslı,
Bir ucu sevincli, bir ucu yaslı,
Ağıl var ürəyin önündə paslı...
Bəşərin zamanla vaxt yorhayoru.
Məni gözlərimin yaşından qoru

7-8.12.1998

SEVİRƏM – BU SÖZDƏ HƏZİN BİR LAYLA…

Sevirəm – bu sözdə həzin bir layla…
Bu sözdə ən nəcib ləyaqət vardır.
Təmiz məhəbbəti susdurar ayla,
Vüqarı dağ kimi bəmbəyaz qardır.

Əyilməz bir kəsin qarşısında heç,
Safa təmiz olar, çirkinə kirli.
Deyər ki, sevgini gözlərindən seç,
Baxma ki, kəlamı sirlidir, sirli.

O, dünya evində açan qönçədir,
Hər gələn qoxlayar, hər gedən dadar.
Bir günəştək pakdır, qəlbtək incidir,
Yalanı röyanı, fitnəni udar.

O, çağlayan çeşmə, qaynayan bulaq,
Coşğun şəlalətək kükrəyib daşar,
Ordakı dil dedi, eşitdi qulaq,
Oranı əbədi ev edib yaşar.

Sevirəm, özüldür əhdü-peymana,
Təmiz məhəbbətin qülləsi olar.
Bir kəlmə altında kirləşən dona,
Çirkli yağışlardan ləpələr dolar.

Sevirəm, hər qəlbə ayaq açsa da,
Hər ürək saxlamır onu əbədi.
Pətəkdən-pətəyə arı qonsa da,
O da öz balına sevirəm dedi.

Çiçəkdən-çiçəyə qonan bülbüllər,
Hər gülə sevgisin izah etməyir.
Saxlayır köksündə eşqini illər,
O da ətir üçün bağa getməyir.

Sarmaşıq dolanar bağçada gülün,
Çəməndə lalənin altun qoynuna.
Bülbül işə salar öz şirin dilin,
Güllər ətir saçar onun oynuna.

Quşlar deməsə də sevirəm dillə,
Onların quş dili sevda söyləyir.
Sədaqət andını göndərir çöllə,
Dilsiz sədaları aman eyləyir.

Sevirəm, köksündə qövr edən hər kəs,
Onu asanlıqla diliylə deməz.
Əgər lap dərindən gələrsə o səs,
O səsin harayı sevəni əyməz.

Sevirəm, həyatda ən uca çinar,
Hər kəs o çinarı adlaya bilməz.
Sədaqət olmasa sevgi də qınar,
Hər axan göz yaşın əliylə silməz.

Sevirəm, dünyanı odlayıb bir-bir,
Bütün kainata eşqin paylayır.
Paklıq qarşısında olaraq əsir,
Yatanı yuxudan, sanki haylayır.

Sevirəm, bu sözün altında əzəl,
Məhəbbət bir neçə dona bürünər.
Dildə deyilsə də tez olar xəzəl,
Yalan çöhrəsində aydın görünər.

Təmiz məhəbbətin önündə bə'zən,
Yalan, ilan təki, sürünsədə ah.
Asanca qəlblərdə olsa da gəzən,
Bir süfrə başında açılar günah.

Çəmənlər çiçəyə bürünsə də hey,
Hər çiçək şirəsi bal ki, deyildir?
Hər dilə, dodağa dəyən sərxoş mey,
Bir yurdsuz, yuvasız səfil veyildir.

Dənizdə qağayı ömrü uzunu,
Fırlanar başına pak dalğaların.
Qurd tutsa qəflətən çöldə quzunu,
Kim ondan soracaq namusun, arın?

Sevirəm, dəyanət istər ürəkdən,
O taybatay açmaz qapısın bağın.
Qorxmaz nə tufandan, nə də küləkdən,
Başında qar olar dözümlü dağın.

Sevirəm sözünü dil asan deyər,
Ürəkdə gəzdirmək lazımdır onu.
Sevənlər hicranın libasın geyər,
Qəmli hekayətin qurtarmaz sonu.

Sevirəm, hər dilə yatsa da, ancaq
hər ürək saxlamaz onu bakirə.

Deyildir yaxaya sancılan sancaq,
Atılsa ayağa, batacaq kirə.

Sevirəm sözünün arxasında bil,
Diqqət et, ey deyən, nələr səslənir.
Bu sözdə gizlənib bir müqəddəs sirr,
Yadı yaxın edən sevgi bəslənir.

Sevirəm, bu sözdən qılınclar susar,
Dağlar parçalanar durduğu yerdə.
Onun naləsindən göylər qan qusar,
Bahar xəzan olar, dözməz bu dərdə.

Sevirəm, dünyanı dolaşıb bir-bir,
Hər danışan dildən dodağa qonar.
Onun qarşısında qəlb olar əsir,
O sussa, insanlıq əbədi donar.

Nə zahirə baxar, nə də daxilə,
O qəlbdə yurd salıb gözlərdə yanar.
Bir müddət keçməyib axacaq dilə,
Odlu dodaqlara şeh təki qonar.

Sevirəm, bu kəlmə yanar ürəyin
Təmiz məhəbbətin aləmə yayar.
İki nəcib qəlbin birlikdə rəyin,
Önünə öz sadiq imzasın qoyar.

Sevirəm, həyatın altun beşiyi,
Eşqin damarlarda sel olan qanı.
Böyük kainata çəkir keşiyi,
Odur məhəbbətin mənzil ünvanı.

Sevirəm, dünyanın düşünən beyni,
Onsuz cahanımız qara geyinər.
Odlu məhəbbətin açılmaz eyni,
Onsuz necə eşqin qəlbi döyünər?!..

27.09.1979.

MƏNİ MƏFTUN EYLƏYƏN

Ey sevgilim, məni məftun eyləyən,
Dik baxışlı şəhla gözlərin oldu.
Sevirəm sözünü dilsiz söyləyən,
Ürəkdə deyilmiş sözlərin oldu.

Varsa məhəbbətin, varsa ilqarın,
Eşqinə sadiq ol vəfalı yarın,
Qorxma əzabından boranın, qarın,
Həyatda qələbə düzlərin oldu.

Məndən əsirgəmə baxışlarını,
Keçək biz bu yolun yoxuşlarını,
Qəlbimin min dürlü naxışlarını,
Pozan sənin ilkin izlərin oldu.

Madam ki, eşqimiz olubdu bəlli,
Quru vədlərinlə vermə təsəlli,
Gəl titrək əlimdən tut ikiəlli...
Bəlkə bu səadət bizlərin oldu.

02.02.1978

QOVLA BU ÇİSKİNİ

Dikilib üzümə odlu gözlərin,
Əridir şam kimi məni, ey gülüm.
Həsrət ocağında qalıb közlərim,
Söylə yadigarmı qəlbə, sevgilim?

Oğrun baxışların toqquşan zaman,
Gözlərim önünü alır çən, duman,
Ani təbəssümün mənə bir ümman,
Həyatım bilmişəm səni, sevgilim.

Yanır bu ürəyim gizli oduna,
Məndən icazəsiz gedir badına,
Həsrətin damğasın vurma adına,
Üzülər eşqimin dəni, sevgilim.

Hicranın köksümü yandırıb-yaxır,
Sevgimin göyündə şimşəklər çaxır,
Könlümün evinə dumanlar axır,
Qovla bu çiskini, çəni, sevgilim.

03.02.1978

HARDASAN?

Üzünün təbəssümü tükənməyən varımdı,
Könlünün təmizliyi mənim pak vüqarımdı,
O ülvü səadətin dağlarda ilk qarımdı,
İxtiyarım, dayağım, həqiqətim, hardasan?
Özümdən əziz sevgim, məhəbbətim, hardasan?

Bu həyat yollarında gözlədikcə yolunu,
Tökdü tale başına çox leysanı, dolunu,
Söylə, nə vaxt salarsan sən boynuma qolunu?
İxtiyarım, dayağım, həqiqətim, hardasan?
Özümdən əziz sevgim, məhəbbətim, hardasan?

Bəxtinin soyuq əli döyəcləyir başıma,
Çox eniş-yoxuş çıxır hər gün, hər an qarşıma,
Bürünübdü həyatım bu acı göz yaşıma,
İxtiyarım, dayağım, həqiqətim hardasan?
Özümdən əziz sevgim, məhəbbətim hardasan?

Dikmişəm gözlərimi yoluna nə zamandı?
Çəkmə əlini məndən, səndən ayrı, yamandı,
Dönüklüyə dözümüm, taqətim yox, amandı,
İxtiyarım, dayağım, həqiqətim, hardasan?
Özümdən əziz sevgim, məhəbbətim, hardasan?

İçimdə buzlaşıbdı duyğuların selləri,
Hey verir mənhus yelə pərakəndə illəri,
Soldurma könlümdəki açılan pak gülləri,
İxtiyarım, dayağım, həqiqətim, hardasan?
Özümdən əziz sevgim, məhəbbətim, hardasan?

Şadimanın çöhrəsi gülməz sənsiz dünyada,
Sənsiz mənasızlaşır bu ünyetməz dünya da,
Səsim göyləri tutur, bir çatginən fəryada,
İxtiyarım, dayağım, həqiqətim, hardasan?
Özümdən əziz sevgim, məhəbbətim, hardasan?

08.08.1988

VURĞUN OLMUŞAM

Qara qaşlarının altından baxan,
Qara gözlərinə vurğun olmuşam.
Köksümün içini yandırıb-yaxan,
Sənlə alışmışam, sənlə solmuşam.

Min bir məna dolu o baxışların,
Oğrun baxmağının əsiriyəm mən.
Qəlbdə cövlan edən soyuq qışların
Əlindən qurtarsın köksümü sinən.

Hər gün səhər-axşam yolumun üstə,
Ucalan bir çinar deyilmisənmi?
Şirin röyalarda qolumun üstə
Baş qoyub bəxtəvər yatanda sənmi?!

Bəxtiyar xəyallar qoynunda sənli
Yaşayır hələ də bu yalqız sinəm.
Mənsiz nigaransan, xoşbəxtsən mənli?
O məhzun gözlərdən quruyubmu nəm?!

Eşqim gecə-gündüz olub ah-vayım,
Bürüyər cahanı odsuz odlanar.
Günəşli gündüzüm, gecəli ayım,
Vüsal həsrətiylə alışıb yanar.

10.09.1979

DİLSİZ SEVGİ

Eşqim nələr çəkdi sənin əlindən,
Bir bunu mən bildim, bir də ürəyim.
Köksə atəş tökən od əməlindən,
Məcnuntək sərgərdan qaldı diləyim.

Dilsiz hekayətə nə vaxtacan mən
Giriftar edəcəm yazıq sinəmi?
Nə qədər lal gəzsən uzaqlarda sən,
Qurumaz gözümün çiskini, nəmi.

Sən ürək etmirsən bircə kəlməyə,
Bəs mənim könlümü neçin qəm ala?
Necə qıyırsan ki, qəddimi əyə,
Həsrətin könlümü çöllərə sala.

Şirin təbəssümlər, odlu baxışlar,
Söylə nə vaxtacan üzəcək məni?
Köksündən köksümə süzən yağışlar
Sevgiyə dəryamı olacaq yəni?

Saysız qüssələrin, saysız qəmlərin
Əlində kimsəsiz, naçar qalmışam.
Mənə həyat verən xoşbəxt dəmlərin
Çoxdan sorağını gözdən almışam.

Dinlə, sevdiciyim, ürəkdən gələn,
Odlu kəlmələrin səsin, sədasın.
Odu pərdə-pərdə qalxıb yüksələn,
Özüm o gözlərin alım qadasın.

11.09.1979

HƏSRƏTLİ GÖZLƏR

Yoluna dikilib həsrətli gözlər,
İzləyir gündüzü, gecəni, gülüm.
Lallığa qapılan məhəbbət neylər?
Həsrətə bürünüb neçə ay, ilim.

Bir səhər tapmışdım, sevgilim səni,
Mərhəmət etmədin dilsiz yarına.
Bu necə eşqidir salıbdır məni,
Hicranın sıldırım qayalarına.

Amandır, sevgilim, dikmə üzümə,
Oddan qidalanan lal baxışları.
Eşqin alovunu tökmə gözümə,
Salma ürəyimə qəm naxışları.

Yaman ayrılığa dözməzdir ürək,
O vüsal oduyla çoxdan alışıb.
Sevgimiz, eşqimiz tərpənib zirək,
Amansız həsrətlə demə barışıb.

Sevgilim, həsrətli od baxışını,
Fəqət, tökmə yanan qəlbin içinə.
Yağdır başa eşqin gur yağışını,
Naxələf hicrana getmə keçinə.

07.09.1979

BELƏ İSTƏYİRƏM

Mən sənin eşqinlə qalım isinim,
Gül bilib ətirli köksünə sinim,
Bircə kəlmən ilə hay çəkim, dinim,
Düşüm sonalartək gölə, sevgilim,
Belə istəyirəm, belə, sevgilim.

Lapdan qulağıma gələndə səsin,
Həsrəti üzəndə dürlü nəfəsin,
Mənə göy olanda hicran qəfəsin,
Atım hicranları çölə, sevgilim,
Belə istəyirəm, belə, sevgilim.

Yandırıb-yaxanda alovun məni,
Qovlayım üstündən dumanı, çəni,
Qoymayım köksümdən uzağa səni,
Düşsün bu sevdamız dilə, sevgilim,
Belə istəyirəm, belə, sevgilim.

Hicran öz evinə salanda başı,
Acı qüssələrdən çatanda qaşı,
O qara gözlərdən tökəndə yaşı,
Əllərim gözünü silə, sevgilim,
Belə istəyirəm, belə, sevgilim.

Hərdən qəmgin-qəmgin tənha qalanda,
Başımın üstünü hicran alanda,
Könlümə iztirab, fərağ dolanda,
Harayım yayıla elə, sevgilim,
Belə istəyirəm, belə, sevgilim.

Qarşımdan gülərək ötüb keçəndə,
Gözüm gözlərinin odun biçəndə,
Qəlbin ürəyimdən sevgi içəndə,
Sığınım köksünə elə, sevgilim,
Belə istəyirəm, belə, sevgilim.

Hərdən xumar-xumar gizli baxanda,
Qəlbimi atəşə, oda yaxanda,
Arada ildırım, şimşək çaxanda,
Dolansın şeh dolu yelə, sevgilim,
Belə istəyirəm, belə, sevgilim.

Gözün gözlərimə alov tökəndə,
Könlümün evini hicran sökəndə,
Arada rəqiblər nifaq əkəndə,
Olsun dərd müntəzir hələ, sevgilim,
Belə istəyirəm, belə, sevgilim.

07.04.1979.

SOYUQ PAYIZLARIM

Soyuq payızlarım başlayır yenə,
Hərə çəkiləcək öz yuvasına.
Başımın üstünə dərd enə-enə,
Qulaq asacağam qəm duasına.

Həsrətli qalacam yenə gözlərə,
Hər payız gecəsi niskil olacaq.
Odlu köksündəki sirli izlərə
Sazaq ələnəcək, qırov dolacaq.

Soyuq payızlarım başlayır sabah,
Könlüm o gözlərə həsrət qalacaq.
Baxışın çinarın yarpağıtək ah,
Saralıb, torpaqda izi qalacaq.

Uzaqdan-uzağa dilsiz baxışa,
Səssiz danışığa həsrət qalacaq.
O qara gözlərdən yağan yağışa,
Dözməyib könlümdə ümid solacaq.

Soyuq payızlarım başlayır yenə,
Ayrılıq qoynuna salacaq bizi.
Həsrət səhrasında alışır sinə,
İtirib bulağa gedən yol-izi.

Soyuq payızlarım başlayır sonsuz,
Eşqimiz yazacaq qəm hekayətin.
Məsum nanə təki varlığım donsuz,
Həsrətdən baharı görəcək çətin.

Soyuq payızlarım başlayır demək,
Birgünlük sənsizlik bir il olacaq.
Köksümə qalacaq sonsuz qəm yemək,
Payız yarpağıtək çöhrəm solacaq.

Soyuq payızlarım başlayır mənim,
Eşqimin baharı xəzan olacaq.
İntizar bəlalı köksümə qənim,
Mənimlə birlikdə həmdəm qalacaq.

11.09.1979

HİCRİNDƏ YANIR

Baxışlar toqqaşır, gözlər odlanır,
Ürək için-için hicrində yanır.
İnan ki, odundan özünü danır,
Bu necə intizar, bu necə həsrət?
Açığı könlümə vurur xəsarət.

Özümü atmışam sönməz oduna,
Qəlbim bilə-bilə gedir badına,
Heç çata bilərmi sükut dadına?
Niyə dinməyirsən, niyə, sevgilim?
Gəl qayıt könlümə sevdalı gülüm.

Dillər danışmasa, gözlər gülərmi?
Eşqin alışmasa, sevda bilərmi?
Acı göz yaşımı əllər silərmi?
Sən sükut evində biganə qalsan,
Günahsız eşqimi bəlaya salsan.

Aman, salma məni od-alovuna,
Çıxıbdı ayrılıq könül ovuna,
Ürək dilsiz eşqlə necə ovuna?
Din-danış harayın gurlasın, daşsın,
Könlüm ayrılığın səddini aşsın.

07.09.1979

O GÖZLƏRƏ HƏSRƏT QALMIŞAM

O sevgi deyilmi könlümdə çaxan?
Sorağın yenə də qəlbdən almışam.
Hərdən günəş təki yandırıb-yaxan,
Mən ki, o gözlərə həsrət qalmışam.

O qamət deyilmi ürkək yerişli,
Qəlblərə yol tapan ipək gülüşlü,
Qüssəsi bir aləm o sərt duruşlu?
Mən ki, o gözlərə həsrət qalmışam.

O ürək deyilmi eşq ilə coşan,
Sellər, sular kimi kükrəyib daşan,
Küskün röyalarla çox pıçıldaşan?
Mən ki, o gözlərə həsrət qalmışam.

O sevgi deyilmi dünyanı gəzir,
Köksünə güllərdən bir çələng düzür,
Tale gəmisiylə dəryada üzür?
Mən ki, o gözlərə həsrət qalmışam.

18.03.1980

GÖNDƏRSƏN EVİMƏ KARVANLA QƏMİ

Göndərsən evimə karvanla qəmi,
Töksən də üstümə, səsə aləmi,
Bil ki, unutmaram təkcə o dəmi,
Baxışdan-baxışa gizli yol açdın,
Könüldən-könülə izinsiz qaçdın.

Səni kim çağırdı eşq mənzilinə?
Könlüm necə dözsün qəmin zilinə?
Qəlb yaman allandı hicran dilinə,
Ürək tab gətirmir, darır köksümü,
Qırılır qəlbimin gündə min simi.

Amandır, uzaq gəz məndən, ey hicran,
Onsuz bir zindandır mənə bircə an,
Qapqara don geyər al qırmızı dan,
İnan, gündüzlərim gecəyə dönər,
Odlu gözlərinin çırağı sönər.

Onsuz həsrətliyəm, onlu bəxtiyar,
Mənim taleyimə odur ixtiyar,
Sevgim dilə düşsə, hey diyar-diyar,
Mən dönə bilmərəm əhdimdən onsuz,
Bir eşqə düşmüşəm axırı sonsuz.

Çəkdirmə köksümə düyünlü dağlar,
Onsuz için-için gözlərim ağlar,
Qoyma qəm qapımı kilidlər bağlar,
Yörəmdən duyuram hicran havasın,
Məndən sevməyimin alma qisasın.

Ürəkdə ülfətim sonsuz ümmandır,
Fəqət, yolum üstü çiskin-dumandır,
Səndən yazıq könlüm imdad umandır,
Ağlatma gözləri günahsız yerə,
Döndərmə ömrümü, ey yar, zəhərə.

11.09.1979

QARA GÖZLƏR

Mənə həyat verən, ey qara gözlər,
Həsrətlə baxmağı kimdən öyrəndin?
Nə qədər bu ürək sükutu gözlər,
Kirpikdən ayrıldın, baxışdan döndün.

Qəlbimi yandırır bu iztirabın,
Könül ocağından keçir alovun.
Möhnətin ürəyin kəsibdi tabın,
Tutur şadlığımı hicran tilovun.

Udur zamanımı lal sükutların,
Dönür əyləncənə düşüncələrim.
Ötür ağır-ağır can saatlarım,
Asılır röyadan hey gecələrim.

14.09.1979

ŞİRİN KƏLMƏLƏRİN

Şirin kəlmələrin dodaqlarından
Həzin musiqitək axdı töküldü.
Vüsal göylərində açıldı al dan,
Həsrət buludunun bağrı söküldü.

Odlu pıçıltılar qulaqlarından
Köksümə yol aldı duyğular ilə.
Duruldu könlümün bulaqlarından,
Qarışdı sinəmə qayğılar ilə.

Gözlərim sevincdən qaynayıb daşdı,
Yoluna dikildi səhərə qədər.
Fərəhim, şadlığım keçilməz aşdı,
Ayağıma düşdü neçə min kədər.

Dünən pərvazlanan saf məhəbbətim,
Ruhumdan boylanan bir səcdəgahdır.
Ya röyası olsun, ya həqiqəti,
Sənsiz qara üzlü nalədir, ahdır.

Sənincin yaşayan sevdalı ömrüm,
Yolunda yorğundur axıra qədər.
Köksündə qövr edən səsim, səmirim,
Anbaan bağrımı oduyla didər.

21.09.1979

HƏSRƏT QALMIŞAM

Mənə məhəbbəti hava, su edən,
Ala gözlərinə həsrət qalmışam.
Köksümin içini oduyla didən,
Acı həsrətinə mehr salmışam.

Bahanə var, söylə, görünməməkçin,
Məndən gen gəzməyə səbəb nə olmuş?
Yoxsul hicranlara bürünməməkçin,
Gözlər ümidlərin oduyla dolmuş.

Yoxluğun könlümə qəsd edir, gülüm,
Gecələr yuxumu əlimdən alır.
Varlığın mənimçin ağzımda dilim,
Gah kaman, gah da ki, dərdi ud çalır.

O isti yatağım soyuq məzartək,
Üşüdür köksümü səhərə kimi.
Qəmin qulağımda hey çalır tütək,
Qırılır sevgimin o sarı simi.

Sənsiz ayım batar, günəşim solar,
Eşqimin göyünü duman bürüyər.
Həsrət yalquzaqtək qapımda ular,
Qəmin aralıqda məni sürüyər.

Olum gözlərinin qurbanı ki, mən,
Gizlində saxlayır öz məhəbbətin.
Vaxtsız saçlarıma sevgi salsa dən,
Yazar ürəyimə eşq hekayətin.

Ay mənim eşqimin sevgili yarı,
Səni sevən gözlər yolda qalıbdı.
Nəcib eşqimizin solmaz dildarı,
Sevgin qanadına məni alıbdı.

Aləm eşqimizi səcdəgah sanıb,
Səhər də, axşam da ziyarət edir.
Sənsə həsrətlərin oduna yanıb,
Alova qovuşdun şövqiylə nədir?

İndi tab eləmir ruhum qəminə,
Dərdin qabağına qovlayır məni.
Mehlərin ilğımı vuran dəminə,
Yollayır ayrılıq çiskini, çəni.

27.09.1979

O GÖZLƏR KİMİ

Uzun kirpikləri sinəmə oxdu,
Kəsibdi qarşımı igid ər kimi.
Axtarsan dünyanı dünyada yoxdu,
Gözlər görməmişəm o gözlər kimi.

Hissimdə həsrəti çalar lal udu,
Tökülüb köksümə alovun odu,
Məni bəlalara salan da odu,
Gözlər görməmişəm o gözlər kimi.

Yandırıb-yaxmağı bir yana qalsın,
Durubdu qəsdimə könlə qəm salsın,
Öldürüb-dirildib lap qisas alsın,
Gözlər görməmişəm o gözlər kimi.

Qəfil baxışıyla könlümü ovlar,
Tökər köks içinə odlar, alovlar,
Eşqin göylərindən dumanı qovlar,
Gözlər görməmişəm o gözlər kimi.

Oduna yanıram neçə müddətdi,
Onsuz hər addımı, hər işi bəddi,
Onsuz yollarımda keçilməz səddi,
Gözlər görməmişəm o gözlər kimi.

Qəfil can almağı könlümə bəlli,
Odlu məhəbbəti möhkəm təməlli,
Oğrun baxışları mələk əməlli,
Gözlər görməmişəm o gözlər kimi.

Belə can alanı görməyib zaman,
Kəsibdi yolumu yenə ah-aman,
Oynaşır sinəmdə çən, çiskin, duman,
Gözlər görməmişəm o gözlər kimi.

Kəsilər ixtiyar, can gedər əldən,
Ürək fəğan edər lap cani dildən,
İstəyirsən soruş hər aydan, ildən,
Gözlər görməmişəm o gözlər kimi.

Yollayıb həsrəti qul olum, əylim,
Necə əsir olub hiss dolu meylim,
Dərdinə düşmüşəm, bilmirəm neylim?
Gözlər görməmişəm o gözlər kimi.

Eşq yolunda çəkən qəmü-cəfalar,
Sevgiylə doğulur əhdə vəfalar,
Ürək bula bilməz daha şəfalar,
Gözlər görməmişəm o gözlər kimi.

Baxanda diləyin, qəlbin oynayar,
İçində yüz şirin xülya qaynayar,
Verdiyi ağrıdan başmı aynayar?
Gözlər görməmişəm o gözlər kimi.

Məni həm güldürən, həm də ağladan,
Köksümü həsrətlə, qəmlə dağladan,
Çılğın ilhamımı coşub-çağladan,
Gözlər görməmişəm o gözlər kimi.

Yolunda canımı fəda eyləyən,
Müqəddəs eşqini dilsiz söyləyən,
Gedəni-gələni necə əyləyən,
Gözlər görməmişəm o gözlər kimi.

Odlu fəğanına dözəndi ürək,
Saf könül evində əyilməz dirək,
Gah sakit, mülayim, gah xəzri külək,
Gözlər görməmişəm o gözlər kimi.

Dəli həsrət ilə yanar qəlb, sinə,
Dönüb istəklərə könlümə sinə,
Günəşdən ələnir od binəsinə,
Gözlər görməmişəm o gözlər kimi.

Mən ki, baxışlara arzuyam, kamam,
Alıbdı gecəmdən yuxumu tamam,
Gecənin yatdığı bir ağır damam,
Gözlər görməmişəm o gözlər kimi.

Həsrətdən könlümü qəm, qüssə oyar,
Oğrun baxışlardan qəlb necə doyar?
Dolanıb dünyanı hey diyar-diyar,
Gözlər görməmişəm o gözlər kimi.

Sevgidən, eşqidən divanə olan,
Kükrəyib buludtək boşalıb dolan,
Payız xəzanıtək saralıb solan,
Gözlər görməmişəm o gözlər kimi.

22.08.1983

SƏNSİZ GÜNLƏRİM

Tutur əllərimdən aparır məni,
Dərdli bir aləmə sənsiz günlərim.
Bəxtəvər dövrandan qoparır məni,
Tuş eyləyir qəmə sənsiz günlərim.

Nə daşlı, çınqıllı oldu yolumuz?
Kədərlə, ələmlə doldu yolumuz,
Əlçatmaz keçidlə boldu yolumuz.
Həsrətdi o dəmə sənsiz günlərim.

Əllərim bəs niyə çatmır əlinə?
İncə duyğuları düz xoş dilinə,
Sal könül nəğməmi ürək telinə,
Düşüb zildən bəmə, sənsiz günlərim.

05.04.1985

MƏN VURULMUŞAM

Sinəm həsrətinə yenə qalandı,
Bir dünya dərdiylə qəlbim talandı,
Çılğın yaz selitək könlüm bulandı,
Yoxsan, işdən-gücdən lap yorulmuşam.
Demə, gülüm, sənə mən vurulmuşam.

Mən sənsiz olanda günəş qaralır,
Bağrımı dərd alır, rəngim saralır,
Önümdə gen-geniş həyat daralır,
Varsan, zamanınam, bax qurulmuşam,
Demə, gülüm, sənə mən vurulmuşam.

Sən sarı bülbülsən, mən gözəl bahar,
Ömrün yolu üstə eyləyək nahar,
Qalandı odlara, qəlb oldu ahar,
Sən günəş, odunla mən yoğrulmuşam,
Demə, gülüm, sənə mən vurulmuşam.

Çeşmənin gözündən bulaq su içər,
Bulud şimşəklərçin canından keçər,
Bu da bir zamandı dolanıb keçər,
Bulağın gözütək tam durulmuşam,
Demə, gülüm, sənə mən vurulmuşam.

Yoxluğun car çəkdi bunu aləmə,
Saldı varlığımı həsrətə, qəmə,
Gəl ürəyim adlı sevgi ölkəmə,
Eşqinin köksünə lap sarılmışam,
Demə, gülüm, sənə mən vurulmuşam.

21.04.1987

KAŞ OLMAYAYDI…

Vüsalı saralan bir bahar kimi,
Bəxtimiz hicrana tuş olmayaydı.
Sənin ürəyində sevgi həsrəti,
Mənim gözlərimdə yaş olmayaydı.

Nə xoşbəxt olardıq ikilikdə biz?
Zülmət gecəmiz də süd kimi gündüz,
Əhdi-ilqarımız, peymanımız düz,
Ayrılıq vüsaldan baş olmayaydı.

Həsrət sinəsini cırıb töksə də,
Kədər badəmizə zəhər töksə də,
Aydın fəzamıza zülmət çöksə də,
Günəşi qaralan qış olmayaydı.

Uçub əlimizdən getdisə günlər,
Qədər bəxtimizə saldı düyünlər,
Dəli ayrılığa uyan beyinlər,
Min bir hava çalan baş olmayaydı.

İllərin qəmindən boşalıb dolan,
Hər günü yarpaqtək saralıb solan,
Hicranın əlində oyuncaq olan,
Məcnun sevgimizdə yaş olmayaydı.

Bizi bir-birindən aralı qoyan,
Qaniçən cəlladtək dərilər soyan,
Şeytanın, iblisin dilinə uyan,
Həsrətin sinəsi daş olmayaydı.

İndi bu ürəkdir cəfalar çəkən,
İlk məhəbbət adlı ağır yük çəkən,
Sinəmi oduyla yandırıb tökən,
Çəkdiyim ağrılar boş olmayaydı.

Şadiman hardadır, sən isə harda?
Odlu duyğularsa boranda, qarda,
Sevgimiz beləcə qalıbdı darda.
Dünyada ayrılıq kaş olmayaydı,
Dünyada ayrılıq kaş olmayaydı.

14-17.01.1987

GÖZLƏRİNƏ BAXAYDI

Oğrun baxışların oxtək süzdürüb,
Sevgi bağçamızdan güllər üzdürüb,
Ömrün yollarına çələng düzdürüb,
Yalnız sən olaydın köksümə sirdaş,
Gözüm gözlərinə baxaydı, ey kaş.

Daima gözlərin məni güdəydi,
Yenə duyğularım bayram edəydi,
Sevgim pak eşqinə qonaq gedəydi,
Heç yorulmayaydı nə ürək, nə baş,
Gözüm gözlərinə baxaydı, ey kaş.

Sərin bahar çağı, güllər açanda,
Könlünün göyünə könlüm uçanda,
Sevgi pərvazlanıb qəlbə qaçanda,
Həsrətinlə gözə dolmayaydı yaş,
Gözüm gözlərinə baxaydı, ey kaş.

Mən qartal deyiləm zirvəni tutam,
Füsnükar xəyallar köksündə yatam,
Hələ açılmayıb könüldə butam,
Barı, asılmaya sinəmizdən daş,
Gözüm gözlərinə baxaydı, ey kaş.

Səhər ağ örtüyün çəkəndə düzə,
Gur işıq verəndə gözəl gündüzə,
Biz də oturaydıq hər gün üz-üzə,
Heç çatılmayaydı həsrətinlə qaş,
Gözüm gözlərinə baxaydı, ey kaş.

Birgünlük həsrətə dözməyəydik biz,
Yenə birləşəydi, gülüm, əlimiz,
Yalan deməyəydi eşqə dilimiz,
Günəş qürb edəndə, qaralanda qaş,
Gözüm gözlərinə baxaydı, ey kaş.

Ömrün tufanına dözən olaydın,
Yalnız ürəyimə mehr salaydın,
Təkliyə düşəndə mənsiz dolaydın,
Qədərin hökmüylə qocalanda yaş,
Gözüm gözlərinə baxaydı, ey kaş.

İkimiz yanaydıq oda, atəşə,
Artıb çoxalaydı sinədə nəş‘ə,
Ürəyim güləydi qəfil gəlişə,

Bütün diləklərdən eşq olaydı baş,
Gözüm gözlərinə baxaydı, ey kaş.
Gözüm gözlərinə baxaydı, ey kaş.

13.05.1986

USANMIŞAM MƏN DAHA

Yorulmuşam, usanmışam mən daha,
Necə çıxım sənsiz söylə sabaha?
Parçalanan ürək olur tuş aha,
Tufan gəldi, sazaq gəldi, gəlmədin.
Yaxın gəldi, uzaq gəldi, gəlmədin.

Könlüm, ruhum oldu sənə bir əsir,
Məram, istək, duyğu, arzu tələsir,
Qəlb evində hicran yeli sərt əsir,
Qapıma dərd, ələm gəldi, gəlmədin.
Söylə, niyə aləm gəldi, gəlmədin?

Eşq dediyin dərdə dustaq olmuşam,
Qərarsızam, mükəddərəm, dolmuşam,
Ümidlərlə ürəyimi almışam,
Şövqlə qaçan zaman gəldi, gəlmədin,
Gözlərimə duman gəldi, gəlmədin.

Başım üstə əsir ömrün yelləri,
İztirabdan susub qəlbin telləri,
Qədər alır əlimizdən illəri,
Həyatıma xəzan gəldi, gəlmədin.
Qocalığı yazan gəldi, gəlmədin.

Vurulmuşam, sinəm səndən gileyli,
Mən ki, sənə sadiq qalan bir Leyli,
Niyə saldın özgələrə sən meyli?
Min həvəsli dilək gəldi, gəlmədin,
Fəryadıma ürək gəldi, gəlmədin.

10.11.1987

OVUNMAZ GÜLÜM

Yanar giryan-giryan yolunda bağrım,
Qor olar təzədən soyumuş külüm.
Dikələr sinəmdən aləmə ağrım,
Ovunmaz ürəyim, ovunmaz gülüm.

Həsrətin başımda dəli bir külək,
Eyləyər könlümü dərd ələk-vələk,
Sənsiz səadətlər yollasa fələk,
Ovunmaz ürəyim, ovunmaz gülüm.

Başıma tökülsə dünyanın varı,
Süfrəmə düzülsə neməti, barı,
Silməsən qəlbimdən qəmini, barı,
Ovunmaz ürəyim, ovunmaz gülüm.

Ürəyim çəməndə solan lalədir,
İnsafsız əlində qəlb piyalədir,
İçi dünya tutmaz dərddir, nalədir,
Ovunmaz ürəyim, ovunmaz gülüm.

12.11.1990

BİR DAHA

Ruhu köhləninə çatıb gecələr,
Səni yuxularda görəm bir daha.
Eşqin dəryasında sevgim incilər,
Onları yoluna sərəm bir daha.

Əlin nə vaxt çatar titrək əlimə?
Dilin nə vaxt yetər ağlar dilimə?
Könlümdə son qoyub qəmə, ələmə,
Eşqinə çələnglər hörəm bir daha.

Qırıb qanadını quzğun həsrətin,
Bağlayam qapısın hər pis xislətin,
Bizi yadlaşdıran kirli niyyətin,
Tutub qollarını gərəm bir daha.

Qəlbdən qopan hava bir şərqi türkü,
Ötüşə izimdən hər qorxu, hürkü,
Atıb çiyinimdən mən ağır yükü,
Ömürlük qəlbinə girəm bir daha.

11.05.1991

SEVGİ DUYĞULARI

Könlümün içində həzin bir atəş,
Keçən ocağımın külü də közdü.
Parladı eşqinlə sinəmdə günəş,
Bağrım məhəbbətin gölündə üzdü.

O isti əllərin hərarətindən,
Soyuq ürəyimin alovu artdı.
Səadət vüsalı doğdu bətindən,
Eşqisiz dünyamda həyat yaratdı.

Gözündən gözümə bir işıq axdı,
Ömrün qaranlıqda çırağı oldu.
İlahi bircə yol mənə də baxdı…
Bu eşq taleyimin varağı oldu.

Qəlbdən haray çəkən çılğın duyğular,
Könlümə gah kədər, gah da ki, nəş'ə,
Alıb ağuşuna məni uyğular,
Öldürür, dirildir bu xoş əndişə.

Mübarək baxışın gecəmə işıq,
Gəzər Şadimanın pak aylarında,
Bir könül bəxş etdin sevgi qarışıq,
Çapacaq ömrümün dolaylarında. **08.01.1993**

SƏNİ

Sən mənim bəxtimə düşən işıqsan,
Yolumdan qovmaqçın çiskini, çəni.
Ömrümə, günümə bir yaraşıqsan,
Mənə Yaradanım göndərmiş səni!

Yoxdu bu sevginin dünyada tayı,
Ürəkdə od yoxsa, yanmaz havayı,
Yox canıma munis səndən savayı,
Mənə Yaradanım göndərmiş səni.

Odlu nəfəsindən torpaq yazlanır,
Cahanın könlündə eşq avazlanır,
Vüsal libasında sevgi nazlanır,
Mənə Yaradanım göndərmiş səni.

Oxşa Şadimanı ovutmaq üçün,
Alışan köksümü sovutmaq üçün,
İçimin dərdlərin dağıtmaq üçün,
Mənə Yaradanım göndərmiş səni.

01.05.1997

GƏL

Suallar üz-üzə durub ürəkdə
Məni xatirəyə aparır bu yol,
Ahım buludlara dönüb fələkdə,
Gəl, yanan könlümə bir içim su ol.

Dodaqda gülüşlər donubdu, sənsiz,
Üzümə qəm, kədər qonubdu, sənsiz,
Vallah, bilsən necə sonumdu sənsiz,
Gəl, yanan könülümə bir içim su ol.

Sanki qürbətdəyəm indi elə bil,
Eyvah, bu ürək də mənimki deyil,
Gözlərim yollarda didərgin, veyil,
Gəl, yanan könlümə bir içim su ol.

Şadiman gecələr alışan şamdı,
Dünya başdan-başa sənsiz axşamdı,
Dərdin, dirək dözməz, nə ağır damdı?
Gəl, yanan könlümə bir içim su ol.

02.03.1997

NƏ DEYƏRSƏN

Kaman təki qaşlarını
Nə əyərsən, nə əyərsən?
Qurutsam göz yaşlarını…
Nə deyərsən, nə deyərsən?

Kipriyinə qonsam şehtək,
Pəncərəni öpsəm mehtək,
Qəlbə girsəm bir fatehtək…
Nə deyərsən,nə deyərsən?

Dönsəm vüsal yuxusuna,
Qələm çəksəm qorxusuna,
Gəlsəm sevda qoxusuna,
Nə deyərsən, nə deyərsən?

Çeşmələrtək ləpələnsəm,
Üz-gözünə səpələnsəm,
Ovucunda təpələnsəm,
Nə deyərsən, nə deyərsən.

Şadimana hicran məhrəm,
Can üstədir eşqlə bahəm,

Desəm ki, sən dərdə məlhəm,
Nə deyərsən, nə deyərsən?

04.03.1995

SƏN OLMAYANDA

Dünya öz donunu dəyişər tamam,
Gözlərim önündə sən olmayanda.
Dönür həyatımdan yaşamaq meylim,
Mənim bir günümdə sən olmayanda.

Acılı-şirinli anlarım nalan,
Zaman da, həyat da qarşımda yalan,
Qalıram yollarda ağlar, nigaran,
Mənim bir günümdə sən olmayanda.

Hönkürür halıma göylər, fələklər,
Yolur saçlarını azman diləklər,
Ayımı, ilimi hicran ələklər,
Mənim bir günümdə sən olmayanda.

Dağları, daşları sızladır naləm,
Söndürür evimin çırağın ələm,
Ocağı boranda sovrulan küləm,
Mənim bir günümdə sən olmayanda.

Könül sarayımın daşları uçur,
Ürək də sinəmdən çöllərə qaçır,
Könlümün qapısın ayrılıq açır,
Mənim bir günümdə sən olmayanda.

Anların qovğası başımda sınır,
Zamanın nəbizi əsla dayanır,
Həyatın nərdində zərlərim yanır,
Mənim bir günümdə sən olmayanda.

Amandır, gözümdən getmə uzağa,
Sinəmdən düzülür qəmlər varağa,
Bu çılğın ürəyim dözməyir dağa,
Mənim bir günümdə sən olmayanda.

Zaman öz acısın başıma tökür,
Aydın səhərimə qaranlıq çökür,
Ruhum, eşqim çağlar daşqın dəli Kür,
Mənim bir günümdə sən olmayanda.

08.11.1992

SƏN ÇIXAYDIN QARŞIMA

Dəli könül dağ selitək daşanda,
Qarışaydı diləklər göz yaşıma.
Bağrım, köksüm ilham ilə coşanda,
Məni sevən, sən çıxaydın qarşıma.

Eşq qonanda zirvələrə qar təki,
Könlüm nəğmə oxar kaman, tar təki,
Ürək parça-parça olur nar təki,
Məni sevən, sən çıxaydın qarşıma.

Açılıbdı çöl-çəməndə çiçəklər,
Bağlayıbdı başlarına ləçəklər,
Nə desə də mənə ağzıgöyçəklər,
Məni sevən, sən çıxaydın qarşıma.

Sənsən könlün əzəl-başdan rənası,
Məhəbbəti sanma ömrün fənası,
Olmaz yarsız ömür-günün mənası,
Məni sevən, sən çıxaydın qarşıma.

Darıxıram səsin-sədan gəlməsə,
Gözüm baxmaz, könlüm baxmaz bir kəsə,
Ürəyimin sirin deyim mən kəsə?
Məni sevən, sən çıxaydın qarşıma.

Ömür ötür, zaman qaçır, gün qara,
Çəkir mənim ürəyimi qəm dara,
Ürəklərin ülfətində var çara,
Məni sevən, sən çıxaydın qarşıma.

29.06.1986

SƏNİN ÇIRAĞİNIN PİLTƏSİYƏM MƏN

Sənin çırağının piltəsiyəm mən,
Onu yandıranda ağrını düşün.
Dilinin hayqıran gur səsiyəm mən,
Səs avaz edəndə bağrını düşün.

Sevda yolçuları yorğun olurlar,
Süzgün baxışlara oğrun olurlar,
Dəlitək ürəyə vurğun olurlar,
Onu oğurlayan oğrunu düşün.

13.05.2011.

SƏNƏ DİLƏKÇƏ YAZIRAM

Sənə diləkçə yazıram,
Fikirimdə lap azıram.
Əhvalını sormaq üçün,
Görüm səsin gəlmir neçin?
Unutdunmu görən məni?
Hansı iş-güc yorub səni?
Xəyalına gəlirəmi?
Dərdi sənlə bölürəmi?
Yuxuların azırmı heç?
Mənə məktub yazırmı heç?
Qəlbin yenə göylərdəmi?
Dodaqların meylərdəmi?
Hicranına verə qəmi,
Unutdunmu ötən dəmi?
Güllü-çiçəkli bağımız,
O sevdalı xoş çağımız,
Gözlərinə görünürmü?
Xatirələr sürünürmü?
Ötənlərin sorağına,
Yazırmı eşq varağına?
Bu ağlayan çağlarımı,
Çəkdiyin qəm dağlarımı…
Ürəyindən keçirəmmi?
Gözlərinə köçürəmmi?
Aramızda qalın divar,
Qovuşmağa məsafə var.
Məsafəni addıma qoş,
Xəyalımın eşqiylə coş.
Qanad açan quşlar təki,
Gözdən qopan yaşlar təki,
Könlü götür yanıma gəl,
Qop ruhundan canıma gəl.
Diləkçəm eşq sorağında,
Göyərçinin ayağında.
Sərhədlərdən qaçıb gəlir,
Sənə sarı uçub gəlir.
Çıx eyvana boylan hərdən,
Qurtar məni dərdi-sərdən.
Diləkçəm xoş barat məndən,
Cavab gözlər könlüm səndən…

11.02.2012

BAĞÇAMIZDA İKİ LALƏ BİTİBDİ

Bağçamızda iki lalə bitibdi,
Qara xallar al üstünə yetibdi,
Ətrafında sarı bülbül ötübdü,
Üzlərində gəzişirlər duman, çən.
Ay sevgilim, biri sənsən, biri mən.

Bir-birinə baxışırlar nə vaxtı,
Oynadırlar zaman üstə pak vaxtı,
Ruhum coşdu, ürəyimə sel axdı,
Bu məhəbbət heç nə ilə gəlməz tən,
Ay sevgilim, biri sənsən, biri mən.

Mehlər əsir, yarpaqları titrəşir,
Nazik, incə saplaqları titrəşir,
Buta üstə papaqları titrəşir,
Mirvaritək şəbnəmləri lap dən-dən,
Ay sevgilim, biri sənsən, biri mən.

Deyirəm ki, möhnətlərə düşməsin,
Qüssə gəzib ürəkləri eşməsin,
Gəl seyr elə, şehlə dolu çeşməsin,
Xiffətlərə dözə bilmir könül, tən,
Ay sevgilim, biri sənsən, biri mən.

Şadimanın ruhu coşub yenə də,
Qəlb yerinə, bilməm nədir sinədə,
İki lalə açıb bizim binədə,
Etmək olmur nə günəşi, ayı tən,
Ay sevgilim, biri sənsən, biri mən.

02.05.2012

SƏNİ SEVMƏMƏK OLARMI?

De sənsiz qalan gecəmə,
Səni gözləyən küçəmə,
Hər sual dolu necəmə,
Heç bunu demək olarmı?
Səni sevməmək olarmı?

Ağrıdan keçib gələnə,
Əzabı seçib gələnə,
Həsrəti içib gələnə,
Hicranı öymək olarmı?
Səni sevməmək olarmı?

Ağlayıb gülən gözləri,
Dərdindən ölən gözləri,
Sirrini bilən gözləri,

Hicrana əymək olarmı?
Səni sevməmək olarmı?

Çıxart canından ağrını,
Yandırma aha bağrını,
Tutma gözlərim oğrunu,
Heç belə əmək olarmı?
Səni sevməmək olarmı?

Gəz Şadimanda günahı,
Ağlat gözündə sabahı,
Götür sevinci, ver ahı,
Heç bunu çəkmək olarmı?
Səni sevməmək olarmı?

06.01.2012

BİR NAĞIL DANIŞ

Mənə gizli-gizli bir nağıl danış…
Nağılın heç zaman bitməsin, ey dost.
Özün də nağılın içinə qarış,
Ruhumun evindən itməsin, ey dost.

Qursun ürəyimdə bir quş yuvası,
Açsın bəbəyimdə min yaş yuvası.
Olsun öz siriylə lap daş yuvası,
Dərdin əli ona yetməsin, ey dost.

Hərdən gözlərində kədər görürəm,
Hər kirpik içindən min qəm dərirəm,
Süfrətək könlümə onu sərirəm,
Ağrın ürəyimdən getməsin, ey dost.

Sən ki, nağıllardan keçib gəlirsən,
Eşqin şərbətini içib gəlirsən,
Ruhumu bir yuva seçib gəlirsən,
Oradan şər-xəta ötməsin, ey dost.

Sevda yolçuları ruhsevər olur,
Ah könlə girəndə, ahsevər olur,
Ömür də bir şamdır, yandıqca solur,
Günündə qəm-qüssə bitməsin, ey dost.

Mənə gizli-gizli bir nağıl danış…
Yazıq Şadimanla gah küs, gah barış,
Gəlsə də xəzandan sonra qarlı qış…
Xəzanla sevdalıq etməsin, ey dost.
Xəzanla sevdalıq etməsin, ey dost.

04.06.2012

VAXTSIZ XƏZAN DÜŞÜB GÜLÜMƏ SƏNSİZ

Nə vaxtdı saçıma sığal çəkmirsən,
Əllərim dolaşıb telimə sənsiz.
Sinəmdə bir ümid kolu əkmirsən,
Qəm qurşaq dolayıb belimə sənsiz.

Damar dilə gəlir qandan xəbərsiz,
Zamanım boylanır andan xəbərsiz,
Qonubdu könlümdən, candan xəbərsiz,
Bağrımın harayı dilimə sənsiz.

Əsir taleyimdə hicran mehləri,
Ələnir sübhümə kədər şehləri,
Ayrılıq ömrümün qəm fatehləri,
İçim divan tutur çölümə sənsiz.

Yerə-göyə bəyan günümün halı,
Gətirdin bəxtimə bu qeylü-qalı,
Yenə də üz tutub gəlir ədalı
Hicran sonaları gölümə sənsiz.

Bü ömür yolları heç olmadı düz,
Xəlbət yasa batır, aşkar gülür üz,
Mənə əzab verir gecəbəgündüz,
Toxuna bilmirəm könlümə sənsiz.

Fələk aha salıb mən biçarani,
Haradan arayım tapıb çarəni?
Ayrılıq səd çəkib, tutub arəni,
Düşmüşəm çarəsiz zülümə sənsiz.

Qalmayıb canımda daha amanım,
Təkcə yuxulara gəlir gumanım,
Sitəmlə qapımı açır zamanım,
Bu ağrı aparır ölümə sənsiz.

Ocağım soyuyub, oynayır külü,
Şadiman tarlanın yanan sünbülü,
Uçubdu könlümün şeyda bülbülü,
Vaxtsız xəzan düşüb gülümə sənsiz.

17. 12. 2003

SƏNSİZ NƏ EDƏCƏM

Gözlərim kədərdən boylanıb baxır,
Canın dövrəsinə haylanıb baxır,
Anım əzabıma vaylanıb baxır,
Sənsiz ötməyəcək çən bu şəhərdə,
Sənsiz nə edəcəm mən bu şəhərdə?

Ötən günlərimi soraqlayacam,
Xatirə dəftərin varaqlayacam,
Hicran tellərini daraqlayacam,
Boğulub qalacaq canım qəhərdə,
Sənsiz nə edəcəm mən bu şəhərdə?

Kirpriklər döyəcək baxışlarımı,
Bəbəklər doğacaq yağışlarımı,
Ağrın qoparacaq sərt qışlarımı,
Könlümün qədəhi daşar zəhərdə,
Sənsiz nə edəcəm mən bu şəhərdə?

Bilirsən, ayrılıq əzabdır cana,
Ağlım dilənçidir hiss-həyəcana,
Qıyıb səbəb olma, bunca hicrana,
Asılıb qalacaq ruhum səhərdə,
Sənsiz nə edəcəm mən bu şəhərdə?

Hönkürüb ağlayar getsən küçələr,
Qara örtüyündən çıxmaz gecələr,
Qəlbim haray salar, anım incələr,
Daşacaq həsrətin bağı bəhərdə,
Sənsiz nə edəcəm mən bu şəhərdə?

16.11.2012

BƏBƏYİMSƏN

Göz yaşımsan, bəbəyimsən,
Gecələrə şam-çırağım.
Könlüm, canım, ürəyimsən,
Alın yazım, bəxt varağım.

Fələk çalan haqq qələmim,
Qismətimə düşən yazım.
Küllü-dünyam, eşq aləmim,
Fəğan edən könül sazım.

Ağlım, hissim, gümanlarım,
Arzu-kamım, saf murazım,
Sevgi dolu zamanlarım,
Qışdan sonra həyat yazım.

Təbib, loğman, həkim çarəm,
Əlac olmaz dərdə məlhəm.
Ayrılığın gəlsə zarəm,
Ömür keçsin sənlə bahəm.

Tənhalığa əlacımsan,
Oğrun, qərib baxışların.
Başımda ismət tacımsan,
Ömrə düşən naxışların.

Şadimanı alsa zülüm,
Əllərinlə bük qumaşa.
Ürəyimdə sevda gülüm,
Şehini çək gözə-qaşa.

05.06.1995.

SƏNDƏN KÜSMƏRƏM

Səni incidiyim bəsdir, sevdiyim,
Qəlbdə eşq bəsləyən təndən küsmərəm.
Könül iltifatın açıqca, deyim,
Özümdən küsərəm, səndən küsmərəm.

Taleyin dolanbac, yolları nalan,
Gecəli-gündüzlü könlümü alan,
İblisə, şeytana qələbə çalan,
Özümdən küsərəm, səndən küsmərəm.

Onsuz əlimizdən uçdu bu illər,
Qəlbdə yuva qurdu acı niskillər,

Tilsimdən yenicə çıxıb müşküllər,
Özümdən küsərəm, səndən küsmərəm.

Təşnə ürəyimin dəli sevdası,
Dilimin sevgiyə son mübtədası,
Qapında sərgərdan eşqin ədası,
Özümdən küsərəm, səndən küsmərəm.

Şadiman, alışan şamdı gecələr,
Gözündən qanlı yaş damdı gecələr,
Sənsiz damla dərdi damdı gecələr,
Özümdən küsərəm, səndən küsmərəm.

27.05.1995

QAYIDACAQSAN

Ümidlə baxıram gələn sabaha,
Dönük sevdamızı oyadacaqsan.
Nə ola birləşə əllər bir daha,
Bilirəm, yenə də qayıdacaqsan.

İçimdə gəzəcək başsız küləklər,
Mənasız olacaq qəlbdə diləklər,
Mənsiz boş qalacaq yerlər, fələklər,
Bilirəm, yenə də qayıdacaqsan.

Durna qatarıtək uçacaq xəyal,
Ötən günlərimlə edib həbsi-hal,
Coşacaq içimdə bir qərib vüsal,
Bilirəm, yenə də qayıdacaqsan.

Səni ayaqların apardı getdi,
Könlümsə könlünlə xəyala yetdi,
Demə ki, arada uçrum var, bitdi,
Bilirəm, yenə də qayıdacaqsan.

Mənasız olacaq hər gündüz-gecə,
Xəyalın duracaq önündə incə,
Necə dözəcəksən, bu illər necə?
Bilirəm, yenə də qayıdacaqsan.

Ümidin qəlbimdə bir məskən salıb,
Özümdən xəbərsiz könlümü alıb,
Gözlərim yolunda intizar qalıb,
Bilirəm yenə də qayıdacaqsan.

11.11.1989

QOPARMAQ ÇƏTİN

Sevgini qəlbimdən qoparmaq çətin,
Özümlə sabaha aparmaq çətin,
Acılar verməkmiş mənə niyyətin,
Dəydi sevgim, eşqim vüsalım daşa,
Ürək neyləsin ki, unudulmuşa?!

07.08.1988

SƏN DƏ MƏNDƏN XƏBƏRSİZ

Həyatımız keçirdi sakit axınla hər gün,
Ömrü başa vururduq necə də dərdi-sərsiz.
Baxışlar qarşılaşdı, ürəklərdən qopdu ün,
Sən də məndən xəbərsiz, mən də səndən
xəbərsiz.

Yalnız yuxularda biz vüsal sevinci daddıq,
Yatmış xatirələri uyğularda oyatdıq,
Kədərin xurcununu çiyindən birgə atdıq,
Sən də məndən xəbərsiz, mən də səndən
xəbərsiz.

Yenə də səhər oldu, ürək düşdü qəfəsə,
Bu yolda çox qatıldıq neçə yabançı hissə,
Görüşməyin eşqiylə qəlblər gəldi həvəsə,
Sən də məndən xəbərsiz, mən də səndən
xəbərsiz.

Çox alışıb, çox yandıq sevginin ocağında,
İsindik xəyalların pakanə qucağında,
Keçdi ömrün yarısı hicranın bucağında,
Sən də məndən xəbərsiz, mən də səndən
xəbərsiz.

Qarşıdan ötüb keçdin dünən elə yel təki,
Susub durub dayandım, edə bilmədim ərki,
Sonra da öz-özümə eylədim xeyli təpki,
Sən də məndən xəbərsiz, mən də səndən
xəbərsiz.

Şadiman şahid özü bir ömür getdi bada,
Divanə həyatımız illərlə yandı oda.
Ürəyimiz ağladı canı üzən fəryada,
Sən də məndən xəbərsiz, mən də səndən
xəbərsiz.

07.03.1990

İTİRDİM SƏNİ

Dayanıb ömrümün zamanı, anı,
Yağır taleyimə həsrətin çəni.
Doydurdu həyatdan ayrılıq canı,
İtirdim ömürlük, itirdim səni.

Gözümün yaşları qəhərə dönüb,
Ömrün saatları zəhərə dönüb,
Xəyalın ərköyün kəhərə dönüb,
İtirdim ömürlük, itirdim səni.

Ürəyim eşqini unutsun daha,
Gözüm yollarından qayıtsın daha,
Yatmış taleyimi ayıltsın daha,
İtirdim ömürlük, itirdim səni.

Məhəbbət də bitdi, sevgi də bitdi,
O xoş səadətim bir anda itdi,
Əlim əbədilik hicrana yetdi,
İtirdim ömürlük, itirdim səni.

Gözlərim yolunda töksə yaşları,
Gətirsə ömrümə qarlı qışları,
Töküldü üstümə qəm qarqışları,
İtirdim ömürlük, itirdim səni.

20.10.1992

ƏLİNİN HƏRARƏTİ

Nə edim əlinin hərarətini
Qoruya bilmədin gələn sabaha.
Bağışla, məhəbbət hekayətini,
Bələdim qovrulan acı günaha.

O günəş eşqini soyuq buz etdim,
Özümü, səni də mən yalqız etdim,
Əlçatmaz xəyallar dalınca getdim,
Bağışla, sən mənə inanma daha.

Ürəyim içindən seltək çağlayır,
Onu sənsizliyin dərdi çuğlayır,
Nə qədər ömrüm var, gözlər ağlayır,
Bağışla, bağlandım həsrətə, aha.

07.04.1990

QORUYACAĞAM

Səni bu könlümdə pünhan saxlayıb,
Yaxşından, yamandan qoruyacağam.
Şirin xəyalınla gecə yuxlayıb,
Hər çətin anından qoruyacağam.

Təsəlli olacaq xatirələrin,
Sığınıb köksünə sənli illərin,
Bizim eşqimizə yağı dillərin,
Gələn tufanlardan qoruyacağam.

Titrek kipriyinini yaş bürüsə də,
Üstümə qoşunla gəm bürüsə də,
Tutub ümidləri dərd sürüsə də,
Düşən sis, dumandan qoruyacağam.

21.05.1990

DƏYDİM QƏLBİNƏ

Bu payız axşamı dəydim qəlbinə,
Gətirdim könlünə sazağı, çəni.
Ürək üsyan etdi fəryada, ünə,
Bağışla, can dostum, bağışla məni.

Sən çıxdığın yola çıxmaram daha,
Ancaq ürəyimi əydim mən aha.
Könlünü qıraraq batdım günaha,
Bağışla, can dostum, bağışla məni.

Dilimin dediyin könlüm demədi,
Bəs o üzündəki küskünlük nədi?
Araya girənlər sənə nə dedi?
Bağışla, can dostum, bağışla məni.

O gün qarşılaşdıq, təsadüfən biz,
Barışıq eylədi kiprik altda göz,
Mən tapa bilmirəm bu təmasa söz,
Bağışla, can dostum, bağışla məni.

Şadiman əzizi sanıbdı səni,
Gecə də yuxuda anıbdı səni,
Demə ki, bir yolluq danıbdı səni,
Bağışla, can dostum, bağışla məni.

23.11.1989

SEVGİLƏR KÖRPÜ SALANDAN

Arada sevgilər körpü salandan,
Min yerdən dikilən baxışlar yanlış.
Bu dəli könlünü könlüm alandan,
Pünhan eşqimizə naxışlar yanlış.

Günü qara edən haqsız tənələr,
Acı sitəm ilə köksümü dələr,
Gözümün evini buludlar bələr,
Leysantək ağlayan yağışlar yanlış.

Bəxtin yollarını dumanlayaraq,
Ürəyi, diləyi hey danlayaraq,
Dilsiz məhəbbəti yamanlayaraq,
Dilinin tökdüyü qarqışlar yanlış.

Arada gəzən söz qəlb söküb gedər,
Girib bəbəklərə yaş töküb gedər,
Diləyi ağladar, can büküb gedər,
Hicranın şəninə alqışlar yanlış.

02.08.1991

APARDI

Yenə qarşılaşdı baxışlar o gün,
Gözümün yaşını sellər apardı.
Yağdı ürəyimə yağışlar o gün,
Acımı-ağrımı göllər apardı.

Yenə oğrun-oğrun gözlər oxudu,
Şimşəklər özünü göyə toxudu,
Səadət anları xalı toxudu,
Min bir çalarların çöllər apardı.

Uzaqdan-uzağa ürəklər coşdu,
Könül havasına bir şərqi qoşdu,
Neçə zirvə uçdu, neçə dağ aşdı,
Odlu nəğməsini ellər apardı.

Zaman həyat boyu qovdu taleyi,
Yoruldu yollarda, kəsildi heyi,
Nəğmələri qoşdu könlümün neyi,
Onun şərqisini dillər apardı.

Ürəklər yabançı deyilmiş demə,
Ağıl sayəsində yetər xoş dəmə,
Həyatım alüdə olduqca qəmə,
Ömrün yaxşısını illər apardı.

02-05.11.1991

AXTARACAĞAM

Kəssə yollarını boran, tufan, qar,
Çətin gedişləri hey yaracağam,
Pozulsa arada ittifaq, ilqar,
Səni ömrüm boyu axtaracağam.

Fələk yazımızı tərsinə yazsa,
Ağıl bu sevgini acıya yozsa,
«Hər bizi istəyən» bir quyu qazsa,
Səni ömrüm boyu axtaracağam.

Tənha vuracağam ömrümü başa,
Döndərəcəm yanan ürəyi daşa,
Çatmasa da pünhan diləyim daşa,
Səni ömrüm boyu axtaracağam.

Dərdimi röyamla bölər də olsam,
Eşqi biyabanda mələr də olsam,
Mən dəli sevdadan ölər də olsam,
Səni ömrüm boyu axtaracağam.

Qoy tə'nə eləsin könlümə hamı,
Neynirəm çıraqsız qara axşamı?
Yanıb qutarsa da ömrümün şamı,
Səni ömrüm boyu axtaracağam.

08.06.1993

SƏHƏR-SƏHƏR NƏ XOŞ BAXDIN

Səhər-səhər nə xoş baxdın, sevgilim,
Çiçəklərin üzü gülə bu eşqə.
Ürəyimi yaman yaxdın, sevgilim,
Bahar ətir səpib gələ bu eşqə.

Göydə quşlar havalanıb uçurlar,
Ağ buludlar ora-bura qaçırlar,
Gül çiçəklər vəcdə gəlib açırlar,
Bülbül özü gəlib dilə bu eşqə.

Gözlərində sevinclərin baxışır,
Dodağına gülüşlərin axışır,
Diləklərin qəlb evinə yığışır,
Həsrət qəfil düşə ölə bu eşqə.

28.04.2015

SƏN

Ruhumun içində boylanır duyğum,
Artır günbəgündən bu eşqə qayğım,
Tək sənə köklənib can dolu sayğım,
Titrətdin içimi ordan getdi çən,
Küləktək könlümə uçub doldun sən…

Vəfa qaynağımsan, can timsalımsan,
Dilimdən düşməyən ruh misalımsan,
Ən ağır məqamda şaqraq halımsan,
İtirdim özümü, qaçdı qəlbdən mən,
Küləktək könlümə uçub doldun sən…

Harada, nə zaman doğuldun? Bilməm,
Ruhumun içində nağıldın, bilməm,
Zəkamdan boylanan ağıldın, bilməm,
Xəyalın önündə əsir olub tən,
Küləktək könlümə uçub doldun sən…

Mən səni ruhumdan necə qovlayım?
İçdə doğan eşqi neylə ovlayım?
Neylə başın qatım, neylə tovlayım?
Sevginin önündə lal olmuşam mən,
Küləktək könlümə uçub doldun sən.

25.04.2016

SƏNİ RÖYALARDA YAŞADIRAM MƏN

Səni röyalarda yaşadıram mən,
Röyalar həyatın əksini vermir.
Sənin həsrətinlə qəm uduram mən.
Udduğum qəmləri bir kimsə görmür.

Soyuq qış günündə gəldin qəlbimə,
Bir dünya günəşi bəxş etdin mənə.
Sevgisiz, eşqisiz qəlbə qəlb demə,
Rəssamtək gözəllik nəqş etdin mənə.

Yazın nəfəsini duydum havada,
Hər tərəf ağappağ qar içindəydi.
Səni göndərənə əlim duada,
Dünyamız sevilən yar içindəydi.

Bu qədər məhəbbət olan aləmdə,
Nə hacət, küslülər barışmasın bəs?
Olmasan, ürəyim batar naləmdə,
Sənin varlığından nur alır nəfəs.

12.04.2015

MƏN DƏ ORDAYAM

Sən məni axtarma çöldə, bayırda,
Sənsiz hər anımda bil ki, dardayam.
Ağrıdan, əzabdan insan doyur da,
Ruhun harda gəzir mən də ordayam.

Çıxarda bilmirəm səni yadımdan,
Sanki doğulmusan ürək odumdan,
İnan, söyləyirəm sənə adımdan,
Ruhun harda gəzir mən də ordayam.

Gecəyə qoşulub gəlirsən hər gün,
Gəlib yuxularda gülürsən hər gün,
Səni sevdiyimi bilirsən hər gün,
Ruhun harda gəzir mən də ordayam.

Bu nə nağıl deyil, nə də tapmaca,
Kimsə fikirləşib açmasın açа,
Çıxır bədənimdən can qaça-qaça,
Ruhun harda gəzir mən də ordayam.

Gizlədə bilmirəm ürək atəşin,
Bəlkə bağırıma düşüb günəşin?
Heç bilmək olmayır Allahın işin,
Ruhun harda gəzir mən də ordayam.

Dilimdə, qəlbimdə adın dolaşır,
Xəyalın günümlə hər gün yollaşır,
İçimdə sevginmi qaynayıb daşır?
Ruhun harda gəzir mən də ordayam.

Sənsiz qərib olur bu dünya mənə,
Çalış salmayasan könlümü çənə,
Etiraf edirəm bu sirri sənə,
Ruhun harda gəzir mən də ordayam.

26.05.2016

BİLƏSƏN

Səhər-səhər yolladın gül-çiçəklər,
Cana verdi xoş ovqatı, biləsən.
Bir-birinə ülfət etdi ürəklər,
Bu sevdanın işığına gələsən.

Günəşin də hərarəti çoxaldı,
Gözüm doldu, yaman könlüm yuxaldı,
Həyəcandan titrəyərək sıxıldı,
Məhəbbətlə ovsun etdin gülə sən.

Erkən durub mənə böylə eşq etdin,
Qəlb udunun tellərilə məşq etdin,
Gül-çiçəyi göz boyanla nəqş etdin,
Ruhum gülür, sən onunla güləsən.

Ey güllərdən, çiçəklərdən təmizim,
Ləpələnir sevda adlı dənizim,
Görməmisən ömrün boyu, əzizim,
Bu füsnikar mənzərəni hələ sən.

Yollarında düşüb qalıb baxışım,
Gözlərimdə buludlanıb yağışım,
Ürəyindən kimsə silməz naxışım,
Sultan oldun ruha, könlə, dilə sən.

04.08.2016

ÜRƏYİMDƏ QORUYA BİLSƏM

Bütün xatirələr dola qəlbimə,
Tək sənin eşqinlə yarıya bilsəm.
Baxışın sevgini sala qəlbimə,
Səni ürəyimdə qoruya bilsəm.

Pıçıltın könlümə dolan meh ola,
Könlümü ram edən bir fateh ola,
Kirpikdə gizlicə yatan şeh ola,
Səni ürəyimdə qoruya bilsəm.

Dönüb xəyallara gizli gəlirsən,
Ruhum nə çəkirsə, onu bilirsən,
Ömür çox qısadır, sonu bilirsən,
Səni ürəyimdə qoruya bilsəm.

12.09.2016

QÜRBƏTƏ SEVGİ MƏKTUBU

Susqun dodağından kəlmələr qopmur,
Gəlib ürəyimi bəs niyə tapmır?
Həsrət buzlarında donub qalmışam,
O lal yuxulara mehir salmışam.
Hər keçən günümü sənlə ovutdum,
Yenə həsrəti yox, mən səni tutdum.
Gözdəki yaşlarım dəsmalım oldu,
Ayrılıq ömürlü eşq halım oldu.
Sən özün bilirsən indi necəyəm,
Şama elçi düşən tənha gecəyəm.
Qayıt-gəl, istilət bu sevdamızı,
Ürəkdə ovutma can nidamızı.
Hər şey köhnələşib sən gedən gündən,
Ömrüm baş açmayır qara düyündən.
Ürəkdə yatırdım mən səadəti,
Göz yaşlarım boğur bu məhəbbəti.
Sənsə nə zamandı çıxıb-getmisən,
Özünü eşqimdən uzaq etmisən.
Bilmirəm halını, bəlkə xəstəsən,
Bəlkə də, kim bilir, lap can üstəsən?
Sağsansa, getdiyin yurduna qayıt,
İçində vicdanın yatıbsa, ayılt.
Evdə uşaqların yolunu gözlər,
Hər gün yatağını əlim əzizlər.
İyini qoxlaram palpaltarından,
Niyə gen düşmüsən halal yarından?!
Əgər sevmirdinsə, niyə birləşdik?
Yıxıldıq, həyatın dibinə düşdük.
İki körpə balan səni gözləyir,
Atam hanı deyb yol əzizləyir.
Sənsə atıb getdin uşaqlarını,
Sən atasız etdin uşaqlarını.
Söylə, əzablara necə dözüm mən?
Düşdüyüm möhnəti, neylə çözüm mən?
Ər də arvadından gendə durarmı?
Ayrı məmləkətdə yuva qurarmı?
Axı sən deyirdin Vətən şirindi,
Bu illər ərzində yerin göründü.
Vallah, başqasına baxmamışam mən,
Allah qoyan yoldan çıxmamışam mən.
Kişi hənirtisi gəzir evimiz,

Neçə il nişanlı, sevgiliydik biz.
Necə xətt çəkmisən ötən günlərə,
Ruhumun içində bitən günlərə?
Qızın da, oğlun da soruşur səni,
Onlardan fikirləş, incitmə məni.
Beş ildi getmisən, xoş sorağın yox,
Bəlkə qayıtmağa heç marağın yox…
Atalıq hislərin oyat, yatıbsa,
Uzun yollarını tez eylə qısa.
Batırma könlümü ağrıya müdam,
Bir dəfə doğulur həyata adam.
Rusyada nə çoxdu özgə yuvalar,
Dön gəl soyumayıb hələ havalar.
Aclıqda batırma uzun qışımı,
Buzlarda dondurma gözdə yaşımı.

***

Qayıt-gəl, Orxanım, ev-eşiyinə,
Könlüm yenə dursun can keşiyinə.
Kimi yar etmisən unut tez onu,
Həsrətlə bitməsin bu eşqin sonu.
Anan da, bacın da pərişan olub,
Yoxluğun bizlərə pis nişan olub.
Nicatın, Ayselin yolunu gözlər,
Bitib tükənməyir eşqinə sözlər.
Pəncərəm önündə dibçəklər solub,
Bağçamız içində çiçəklər solub.
Hər sözü məktubda yaza bilmirəm,
Həsrətin uzundu, dözə bilmirəm.
İstəsən iş-gücü burda taparsan,
Özünə sevgidən qala yaparsan.
Vurma sözlərimi qulaqardına,
Yolladım sevgimi, dur-gəl ardına…

07.06.2016

QƏZƏLLƏR

YANDIRIR SƏNSİZ, EY AFƏT,
MƏNİ HİCRAN GECƏLƏR

Yandırır sənsiz, ey afət, məni hicran gecələr,
Ağlasam yaş yerinə gözdən axar qan gecələr.

Qoymaram yastığa baş, ərşə çəkib qəm yuxumu,
Olur ildən də uzun çün mənə hər an gecələr.

Bülbül eşqində gülün sübh açılan vaxt oxuyar,
Edirəm sübhə kimi naləvü əfğan gecələr.

Yetsə kim vəslinə yarın çıxar azədəliyə,
Mənə zindan görünür hər tərəf, hər yan gecələr.

Qorxuram əqlimi başdan ala bu tənhalıq,
Gəl həyan ol mənə, ey sevgili canan, gecələr.

Bəxtəvər başına, pərvanə yanıb qurtardı,
Şadiman, şəm kimi sübhə qədər yan gecələr.

27.02.2001

EYVAH, ÜRƏYİM OD TUTUB
ATƏŞLƏRƏ YANDI

Eyvah, ürəyim od tutub atəşlərə yandı,
Nurlara boyandı.

Canım, ciyərim ah ilə aləmləri sardı,
Cismimə vardı.

Hər dərd çoxalıb könülmü tutdu günah ilə,
Güldü sabah ilə.

Gözdəki yaşım axdı və səhraları tutdu,
Çeşməni unutdu.

Batdı harayım sinədə ulduzlara bənzər,
Qəm canımı gəzər.

İnsandan olan şeytanın hər üzü aşikar,
Qəlbi edər şikar.

Ağladı gözüm, könlümü tutdu acı yaşım,
Dərdi çəkdi başım.

Ruhu bürüyüb ahlara oxşar qara matəm,
Rəbbim bu nə sitəm? !…
Rəbbim bu nə sitəm? !…

29.05.2003

BAXMAYIIR İNSAFA HEÇ CANDAN ALIR CAN QOCALIIQ

Baxmayır insafa heç candan alır can, qocalıq,
Qoymayır dünyada ki, bir elə ünvan, qocalıq.

Fələyin əmrinə hazırdı sala təni dala,
Elə tən yiyəsi yox etməyə divan, qocalıq.

Düşürüb taxtdan əcəb hakimi-sultanı, şahı,
Eləməz dərdə dəva, işi, gücü qan, qocalıq.

Göz baxar, üz qırışar, taqəti olmaz ürəyin,
Elə naləyə düşər təndə ki, hər yan, qocalıq.

Qalar möhtaca ürək, qəminə çarə edəsən,
Yaraşar sənə elə dünyada ad-san, qocalıq.

Elə hünər yiyəsi de mənə, yıxmasın onu,
Necə haldan düşürər buza dönər qan, qocalıq?

Sənə möhtac olana o səni möhtac eliyər,
Olsa min canın əgər, eyləyər bircan, qocalıq.

Elə zalım fələyin əmrinə əsir olalı,
Ağlayır bəni-bəşər, əlində yaman qocalıq.

Şadimana, ürəyin qanə dönübdü nə edim?
Şalıb ata, anavu verməyir aman, qocalıq.

23. 05. 2002

YENƏ YAZ GƏLDİ GÜLÜR ÜZÜ VƏFANIN, BƏRİ GƏL

Yenə yaz gəldi gülür üzü vəfanın, bəri gəl,
Etməz heç hicrə sitəm indi cəfanın bəri gəl.

Atəşin könlə düşüb, günəşi heyrətdə qoyub,
Dunyada bir yeri yox nə bivəfanın, bəri gəl?

Səni Xaliq yaradıb eşqini məndə tapasan,
Çəkməyən məlhəmini bilməz səfanı, bəri gəl.

Bizi atəşə salan üzü də verər vüsalı,
Loğmanım yet könlümə, bul bu şəfanı, bəri gəl.

Açma heç qapını sən, dəyişər həsrət donunu,
Biçirlər cövrə düşənlər qiyafəni, bəri gəl.

Şadiman həm gecə, həm sübhü-sabah etdi nəzir,
Xilqətim hifz eləmiş bunca urfanı, bəri gəl.

05. 03. 2003

EY SƏBA, HİCRANIMA CANDAN QOPAN AH İSTƏRƏM

Ey səba, hicranıma candan qopan ah istərəm,
Üz tutub dərgahına necə xoş sabah istərəm?

Açılan qönçələrin mə'nası yalnız eşqidir,
Çəkilən eşqə cəfa, nədən ki, günah istərəm?

Ürəyim dərdə batıb yoxdu canımda hünərim,
Ağrıma şəfa bulan ümmanda Allah istərəm.

Qəm odu yaxdı məni, sinəmdə atəş görünür,
Gözlərim haqqı gəzir, bu haqqa dərgah istərəm.

Günə öz dərdi həyan, bir kimsəyə yoxdu ümmid,
Ya eşqi zülüm bilib, ya qəmi, eyvah, istərəm,

Ey səba, bu Şadiman ağrıların əsiridir,
Ağlayan ürəyimə tar üstə segah istərəm.

19. 12. 2004

ÇƏKDİM AHI CANİ-DİLDƏN
AHIM ƏRŞƏ YAYILMAZMI?

M.Füzuliyə şikayət

Çəkdim ahı cani-dildən ahım ərşə yayılmazmı?
Mən bimarı danan dünya, yatmışların ayılmazmı?

Hicranların dəldi-deşdi ürəyimi ağı kimi,
Bu ağının hər şivəni cana günah sayılmazmı?

Sitəmlərdən gözüm doldu göylərinin sularıtək,
Sular içrə batan könlüm dərya tutub oyulmazmı?

Dəli ürək qəfəslərdə bir çırpınan quşcağazdı,
Onun çılğın sədaları yerdə-göydə duyulmazmı?

Haray salıb fəğan etdim bu zamanın əhvalına,
Qətrə-qətrə Nəsimitək dərim ahdan soyulmazmı?

Çox yalvardım əzabıma çarə bulum doğulandan,
Bulunmursa dərdə çarə məgər ondan doyulmazmı?

Şadimanı duyan Babam, qədəm basıb gəlir canım,
Haqq qapına gələnlərin dərgahına qoyulmazmı?

06.03.2011

GƏLİRSƏN ÖYLƏCƏ GƏL
DÖNMƏ VƏFADAN GERİ YAR

Gəlirsən öyləcə gəl dönmə vəfadan geri yar,
Gətirib tökmə cana bir belə dərdi-səri yar.

Düşürüb qovğaya bu qəlbimi çıxma aradan,
Şəfəqin günəşə bənzər, saçılır min zəri yar.

Həsrətin yoxdu daha çəkməyə könlüm tabını,
Tökürəm gecəbəgündüz beləcə mən təri yar.

Hicran əzablarının yolları çox daşlı olur,
Bunu bilənləri gör, sormağa gəlmə bəri yar.

Şadimanı özünə sanma ki, biganə olub,
Onun biganəliyin üzünə tutma dəri yar.

07.03.2011

BU ADAM BAZARINDA İNSANLIĞA ACAM MƏN

Bu adam bazarında insanlığa acam mən,
Haram var bu dünyadan baş götürüb qaçam mən?

Gördüklərim həyatmı sutək ömrə calanıb?
Quş təki canım ola, qanad açım uçam mən.

Bu tapmaca zamanın işığı gözə çatmır,
Bəlkə cahan bir günah, bəndə adlı suçam mən?

Kirin-kirin alışan saatlar gündən qopur,
Ömür ocağı tüstü onu udan bacam mən.

Duyduqlarım əzabım, duymadığım korluğum,
Candan çəkdiklərimə ömrüm boyu bacam, mən.

İçimdən bir ah qopur sancılır can tirinə,
Haqq ətəyindən tutan ucalardan ucam, mən.

Ey Şadiman nədir ki, ürəyini oxlayan,
Ruhum candan aralı, ikisinə ucam mən.

21.03.2011

FƏDA OLSUN CANIM SƏNƏ FƏDA BİLMƏZLƏR EŞQİNƏ

Fəda olsun canım sənə fəda bilməzlər eşqinə,
Bağrı-cana düşən qəmi qada bilməzlər eşqinə.

Dəlib keçən ahın oxun yarə alan ürək dadır,
Bu yarənin əzabını səda bilməzlər eşqinə.

Gözdən axan yaşı bir-bir mirvaritək sapa düzdüm,
Onun təndə bitən dərdin nida bilməzlər eşqinə.

Əcəb ötür günüm səhman anlarına qonağ bəxtim,
Ötən günə tumar tutdum əda bilməzlər eşqinə.

Kirpik içrə yuva qurdu qəmim möhnət divanəsi,
Hər möhnətin ucalığın dada bilməzlər eşqinə.

Nədir belə candan çıxıb karvan tutub gedir göyə,
Qərar tutan cismləri ada bilməzlər eşqinə.

Şadimana, ruhun hər gün bədəninlə güləş edir,
Gözlər tutan faniliyi qida bilməzlər eşqinə.

18.04.2011

KÖNLÜM DOLAŞIR AH İLƏ ALƏMLƏR İÇİNDƏ

Könlüm dolaşır ah ilə aləmlər içində,
Əfsus, gəzir illər boyu bu qəmlər içində.

Donur sinənin dərdi əlində acı tale,
Lap aşiqi-məşuq olalı dəmlər içində.

Sevda dolu canımı tutub hicirlə nalə,
Batıb gözümün kirpiyi ol nəmlər içində.

Havalı təbim göylərə çaxnaşma salıbdı,
Əqlim batıb min cürə sərsəmlər içində.

Fəryada düşüb tellərə amadə ürəyim,
Duruş gətirə bilməyir heç bəmlər içində.

Tutub canımı qüssələrin əlinə salıb,
Buldu yenə diriliyi ələmlər içində.

Cidal elədim zehnimə bu müşğülə qarşı,
Müşgülümü çətin bulalım kəmlər içində.

Müdhiş zamanın hər cürə əzabını duydum,
Sədası dolaşdı hələ qələmlər içində.

Verdim sualı Şadimana, əhvalın dedi:
Dilim-dodağım lap acı bir təmlər içində.

22.02.2009.

MƏMLƏKƏTİM HARAY

Savaşda bağrı para şəhid məmləkətim haray,
Yağıya qismət olan yuvam, bərəkətim haray.

Ələnib torpağına şəhidlərin qanı, Vətən,
Düşən ellər dilinə vayım, fəlakətim haray.

Atılın meydana, bu bizlərə bir dərsi-əzim,
Düşübdü ayaqlara min şanı-şövkətim haray.

Qalmayıb canı-vücud cümlə-elin sinəsi qan,
Bu müsibətə dözən halı-hərəkətim haray.

Qıyma gəl Şadimana yurdu çəkə böylə sitəm,
Qibleyi Kəbə evim, namazı rükətim haray.

28.09.1993

DAD ƏLİNDƏN FƏLƏYİM

Dad əlindən fələyim, imdad əlindən fələyim,
Gömüldü torpağa tən min ad əlindən, fələyim.

Qəmindən bağrı parə azəri övladı mənəm,
Qopdu sinəmdən əcəb fəryad əlindən, fələyim.

Yağı ağ köynəyimi əlvan qanlara boyadı,
Çəkə məntək qəmini min yad əlindən, fələyim.

Məni yurddan ayıran iblisin heç Allahı yox,
Düşmüşəm biyabana səyyad əlindən, fələyim.

Bağrı parə məmləkət gözdən axan yaşa çimir,
Nə zaman yurd olacaq abad əlindən, fələyim.

Şadimana, çəkirsən bir bu qədər müsibəti,
Sinəsində ürəyi bərbad əlindən, fələyim.

21.09.1993

BAĞRI YANAN AY ŞƏHİDİM

Köksü parə alışan, bağrı yanan ay şəhidim,
Düşmüsən torpağa sən qanın axır çay, şəhidim.

Vətən eşqi könlünü saldı yaman bəlalara,
Verdin əsir yurduna qeyrətini pay, şəhidim.

Neçə min qurğuşuna tuş elədin yağıları,
Baxışın düşmənlərə oldu kaman-yay, şəhidim.

Gözümdən yaş tökürəm mən məzarına, neylim,
Min ilin ölüsünə olmayasan tay, şəhidim.

Baş əyib qəbrinə mən, diz çökürəm baş daşuva,
Sənə rəhmət oxuyur, həm o tay, bu tay, şəhidim.

Qaldı nişan üzüyü, sən fələyin işinə bax,
Nə sənə, nə də yara olmadı bir toy, şəhidim.

Şadimana, üzülüb tabı-təvanım yoxdu heç,
Bir yolluq qurulaydı yağına son vay, şəhidim.

21.09.1993

KAFİRLƏR YAMAN SALIB MİN DƏRDÜ-BƏLAYA ELİ

Kafirlər yaman salıb min dərdü-bəlaya eli,
Göz yaşım dərya olub döndəribdi çayə eli.

Birləşib bir gedəlim yağı üstünə kişilər,
Birləşə bilməyiriz öldürdü bu qayə eli.

Ya Quran, ya İslam göstərə qüdrəti-əzim,
Dinsizin top-tüfəngi saldı kəlisaya eli.

Gəlinlər göz yaşıyla islatdı örpəyini,
Özü dönmüş fələyim salmayır bir sayə eli.

Əcəb yatıb yuxuya yurduna ər, ərən olan,
Yağı son anda qoyub min cürə ox-yayə eli.

Anaların şüvəni göydə fələyi ağladır,
Bağlanıb bəxt qapısı gətirər bir hayə eli.

Möcüzə göstərə Tanrı oyada Xətayini,
Sıyıra qılıncını döndərə qalayə eli.

Göstərə ovsunu Xudam yurda çarə edə,
Bizimtək günə qala salan bu ah-vayə eli.

Şadiman, fikir eləmə tanrı verər cəzasını,
Qanına qəltan olar, qoyan Kərbəlaya eli.

21.09.1993

SORAĞIN GƏLDİ MƏNƏ

Sorağın gəldi mənə hali-pərişan olmuşam,
Həsrətin əlində büryan, ürəyi şan olmuşam.

Öylə bir qəm çeşməsi üzür gölündə diləyim,
Aləmi ram eyləyən ahu gözlü an olmuşam.

Deyirlər, könlüm içi yamanca düşüb büsata,
Qəlbi lərzəyə salan yamanca ad-san olmuşam.

Təkcə səndin, Şadiman, qəmimə məlhəm dünyada,
Necə bir öylə sitəm könlə əcəb can olmuşam?

19.08.1993

***

Bülbülü satdı gül, eyvah, təzədən xarə yenə,
Yenidən vurdu hicir könlümə min yarə yenə.

Olacaqdırmı mənə bilməm haçan ağ gün qismət?
Günlərim bəxtimə bənzər, niyə bəs qarə yenə?

Yenə də məş'əl kimi yanmaqdadı qəlbim qəmdən,
Üz tutub bilməyirəm mən ki, gedim harə yenə?

Düşünürdüm dözəcəkdir ürəyim həsrətinə,
Tuş olub dərdə onun hər tərəfi parə yenə.

Şadimana, kimə nə qüssəvü-dərd eləyirəm?
Dərdimə kimsə mənim eyləmədi çarə yenə.

03.12.1997

***

Yanıram hər gecə o zülfü-pərişanım üçün,
Düşürəm heyrətə gündüz-gecə əfğanım üçün.

Bir canım var onu cananıma qurban elədim,
Olsa min canım əgər, verrəm o cananım üçün.

Çəkilir ərşə yuxu, yatmayıram mən gecələr,
Mənə kim rəhm edəcək bu acı hicranım üçün?

Tanrı bəxş etmiş idi yarı mənə, incitmişəm,
Yarı candan ayıran yağıyam öz canım üçün.

Şadimana, niyə həsrət səni öldürmədi bəs?
Mən ki, ömür edirəm, əhd ilə peymanım üçün.

12.05.1997

***

Bağlayıb eşqə könül əhdə vəfa eyləmişəm,
Çəkmişəm möhnətüvü cana cəfa eyləmişəm.

Sübhətək yummamışam gözlərimi hicrindən heç,
Duymasın kimsə deyə gizli nəva eyləmişəm.

Yenə könlüm evinə yağdı bu hicran yağışı,
Bilmirəm eşq yolunda nə xətalar eyləmişəm.

Hərə bir yolla alır zövqü səfa aləmində
Mən də hicran qəmini qəlbə səfa eyləmişəm.

Şadiman, sinəmə çox dağ çəkib hicranın əli,
Dağı dağ üstə vurub dağa dəva eyləmişəm.

30.03.2001

***

Yenə könlüm quşu qan ağladı bülbül sayağı,
Yenə həsrət sinəmi dağladı bülbül sayağı.

Yenə sənsiz oduna dözməliyəm hər gecənin,
Yenə hicran bulağı çağladı bülbül sayağı.

Yenə yandırmadadır can evimi ahım odu,
Yenə firqət qapımı bağladı bülbül sayağı.

Yenə hicran gecəsi gəldi məni yandırıbdı,
Yenə qəmlər sinəmi dağladı bülbül sayağı.

Yenə xoş günlərə həsrətdi gözü aşiqinin,
Yenə fikri o keçən çağladı bülbül sayağı.

Yenə üz tutdu hara getdi canım qurbanı yar,
Yenə qəm Şadimanı haxladı bülbül sayağı.

21.12.1997

***

Hər kəsin sevdiyinə eşqidə hicran olsun,
Çəkə həsrət odunu hər cəfaya can olsun.

Sübhətək qanə düşən könlə çarə arasın,
Alışan hər ürəyin ruhu da büryan olsun.

Dadmayan hicr odun, heç bilməz eşqi nədir,
O cümlədən də, sevən, bu dərdə nalan olsun.

Gecə-gündüz alışa ayrılıq əzabına,
Ahı göyləri tuta, aləmə e'lan olsun.

Nə vəfa eyləyər sevdiyinə yarı üçün?
Yoxsa hicrə hünəri, o sinə talan olsun.

Gəl Şadimana sən man etmə biganəliyi,
Düşməyib elə qəmə, bu qəmi yalan olsun.

17. 02. 2005

***

Məni Leyli eləyən yarıma deyin gəlsin,
Qəlbimin atəşini söz ilə öyün gəlsin.

Çıxarıb eşqimi candan elərəm hicrana,
Dözməyir nə ki ürək, min belə beyin gəlsin.

Etmirəm həsrətə tab, bir yetirin siz ona,
Kəsərək intizarın taqəti-heyin gəlsin.

Hanı hicran acısı çəkdirənin insafı?
Yolu asta eləyib, sonra da yeyin gəlsin.

Sübhü həsrətə atıb yatmayıram axşamlar,
Tutub vüsala üzü, bəzəyib əyin gəlsin.

Baxın əhvalıma bir hali-pərişanam mən,
Çəkdiyim acıları siz ona sayın gəlsin.

Söyləyin Şadimanın dərdinə yoxdu əlac,
Təkləyib ayrılığı başına döyün, gəlsin.

28.11.2013.

***

Vəfa qılma bir kimsədən, vəfa candan doğmayırsa,
Sənə doğru gələn şəri, dost bildiyin boğmayırsa.

Ömür nazik ipə bənzər, qırılmağın bir kəs bilməz,
Qəlbi boşdan hikmət uyma, ağla hikmət yağmayırsa.

Can çırpınır bədənlərdə istədiyin bulmayanda,
Çox vaxt şimşək sarır yeri, bulud göyü sağmayırsa.

Qəlbi boşlar bilməyirlər, pislik ömrə bir zillətdi,
Öz canına xəta edər şərin ipin yığmayırsa.

Zaman elə cəlladdır ki, verdiklərin alır səndən,
Çox qalxanlar enir yerə, nəfisini sığmayırsa.

Hamı bidad edir candan, can tənhadır, dilək sonsuz,
Ömrə düşən vaxt darısqal, gələn özün sağ sayırsa…

Şadimandan uman könlü, onun könlü şüşədədi,
Qırmaq qurmaqdan asanddı, nifrət cana sığmayırsa.

02.12.2013

***

Gələ bir başa ağıl, biz də bir hörmətə çataq,
Günü ağ, işi rəvan bəxtəvər millətə çataq.

Hamı azadəliyi dünyaya elan eləyib,
Biz də azadəliyi nuş ilə şöhrətə çataq.

Haramı dərdə salıb hələla verəyin rəvac,
Dəxi xalqlar içrə biz, hər cürə izzətə çataq.

Şeytan olmaq həvəsi hər kəsə ürcah olmaz heç,
Şeytanı dəf eləyib o nurlu Xilqətə çataq.

İmanı dala atıb eyləməyək cana sitəm,
Biz də vicdan deyilən o gözəl nemətə çataq.

Üzü qibləyə sarı, xeyrə tutaq əlimizi,
Canı təndən eləyək, öylə ülviyyətə çataq.

Bir hovur tut başını, günlərinin seyrinə dal,
Ya ki, heyvan sayağı ömrüdə zillətə çataq.

Şadiman, Rəbbi sevən hər iki dünyaya təmiz,
Eşqə ver ürəyini, qoyma ki, illətə çataq.

08. 05. 2006.

***

Əcəb düşdün qəlb içinə ordan getmək nə müşkülmüş.
Haqqım bidar olub yaman, haqqa yetmək nə müşgülmüş.

Hamı ömrə sığal çəkir, bilmir tanrı pərvənəsi,
Qanad açıb şahin təki onu ötmək nə müşkülmüş.

Fikirlərim zəncirvari göylə-yerlə bəndə düşüb,
Haçalanıb xəyallartək gözdən itmək nə müşkülmüş.

Səyyarələr sirr içində aləm ona heyrət edir,
Uçub-qonub kainata orda bitmək nə müşkülmüş.

Şadiman söz təlaşında onun dildən kənar edir,
Çəkib bağra misraları kabab etmək nə müşkülmüş.

30.11.2013.

***

Əgər yoxdur qəlbində sənin Allaha məhəbbət,
Artacaqdır günbəgün bil ki, günaha məhəbbət.

Gecələr dincliyini qurban edənlər fənaya,
Eyləməz heç bir zaman gələn sabaha məhəbbət.

Özünü ağıl evinə bənna sayanlar bilə,
Ağıl yox, ürək edir çox vaxtı aha məhəbbət.

Nə çoxdu sevdaları hicranlarda arayanlar,
Qoy bilsinlər, getməyibdi heç gah-gaha məhəbbət.

Şadimana deyin bilsin, eşqə düşmək xətadır,
Qəlbə gəlir hər bir zaman, çünki baha məhəbbət.

02.12.2013.

***

Gəlmişəm öz canı verəm eşqlə qurban Vətənə,
Ola min canım əgər, edərəm qurban Vətənə.

Edirəm səcdə onun torpağının danəsinə,
Şükür, Tanrım eləyib ağlımı səhman Vətənə.

Canı bədəndə olan bilməlidir yurdu piri,
Odur ki, sevgimi də, qılmışam peyman Vətənə.

Ürəyim vurmadadı bu dildarın eşqi ilə,
Çünki canı yaradıb İlahi iman Vətənə.

Çıxıram seyrə düzə, çölə, çəmənə, nə qəmim?
Alıram zövqü-səfa qəlbə mehriban Vətənə.

Bayrağım boyanı seçib qırmızı, yaşıl, göyü,
Türkü-göy, dini-yaşıl, qırmızı pak qan Vətənə.

Şadimana, hünəri meydana səslə, nə süküt,
İndi zəfər çağıdır məlhəmi fərman Vətənə.

18.11.2013.

***

Şair olanın ruhuna qanad gərək olsun,
Misrasına, hər sözünə bir dad gərək olsun.

Heç etməyə ilhamını təhqirlərə məruz,
İblisliyə, yaltağlığa qəlb yad gərək olsun.

Allahı verən fitrətə yar etsin ürəyi,
Ya pərvanə, başa ağlı abad gərək olsun.

İslatmaya kağızını mürəkkəbə əbəs,
İnsanlığa hər könüldə imdad gərək olsun.

Milləti düşəndə dərdü-bəlalara nalan,
Səmalara bülbül təki fəryad gərək olsun.

Tutsun Vətənin şərəfini özündən uca,
Həm xeyrinə, həm seyrinə can şad gərək olsun.

Ey Şadiman, misralarının paklığın qoru,
Öləndən sonra yazdığına ad gərək olsun.

02. 02. 2003

YOX BÖYLƏ HALIM GƏLMƏYƏ

Kəsilib iqtidarım, yox böylə halım gəlməyə,
Verdiyin zülümlərin sonsuzdur, zalım, gəlməyə.

Mənə öz sevdiyini izhar eyləyən bəyim,
Taqətim heç qalmayıb bu dərdi sənlə bölməyə.

Gözümün yaşları həbs eylədi kipriklərimi,
Bir yaxın yoxdu mənə bu qan-yaşı silməyə.

Ürəyim vermədədi haqqına yer sübh-gecələr,
Etməsin cəhdi qərar, həsrəti canı dəlməyə.

Şadimanı yandırır çəkdiyi hicran yarası,
Dəvanı səndə bulur, gəl qoyma onu ölməyə.

03.12.1992

MƏCNUNLUQ İSTEDADI VAR

Məhəmməd Füzuliyə nəzirə

Mən də ki, bu eşqidən məcnunluq istedadı var,
Sevgi sultanı mənəm, aşiqlərin də adı var.

Sən zülüm etməkdə ol, nəş‘ədir bu cismi-cana,
Eşqidə Şirin mənəm, Şirinin öz Fərhadı var.

Təmkinin son həddini bənzətmə, ey yar, fələyə,
Hər səbrin naləsi çox, hər ahda min fəryadı var.

Öylə hali-xəstəyəm, əhvalımı bir sorsana,
Dövrani-cövrü zülüm, ağızda zəhər dadı var.

Gəzmə, ey sevgili yar, bu eşqi fəzada qəfil,
Səhranın məntək əcəb, bir biçarə səyyadı var.

Saymasınlar könlümü hər ağrıya, dərdə cünun,
Dərdin can aşiqləri, onların öz imdadı var.

Şadiman, gəl bu eşqi cani-könüldən qəbul et,
Öyün ki, Füzulitək ustadının pak adı var.

20.07.1995

TƏKCƏ VƏTƏN

Canını canımdan artıq sandığım, təkcə Vətən,
Doğulandan hər kəlməsin qandığım, təkcə Vətən.

Bu elə məhəbbətdir, önündə sevgilər yalan,
Dərdini dərdim bilib usandığım, təkcə Vətən.

Bütün altunlar, paralar yığıla onsuz nədir?
Gecə-gündüz hər cəfasın andığım, təkcə Vətən.

Səpilib torpağına bitərəm bir çəmənzartək,
Gecəni sübh eləyib oyandığım, təkcə Vətən.

Atılıb savaşlara yolunda min qan edərəm,
Düşməninə qisasla çox yandığım, təkcə Vətən.

Uçacaq, Şirin xanım, ruhun fələklər evinə,
Məzarınla eşqinə boyandığım, təkcə Vətən.

03.12.1992

DİLDƏ BƏYAN EYLƏMİŞƏM

Səni çox sevdiyimi dildə bəyan eyləmişəm,
Bilsin qoy cümlə-cahan mən ki, əyan eyləmişəm.

Baxışın sevda dolu od qalayır qəlb evinə,
Sənsiz öz gözlərimi qana giryan eyləmişəm.

Bil ki, hər gəlişinə müntəzirəm, sahibi-mərd,
Ey pasibanım, könlü eşqi duyan eyləmisən.

Niyə Tanrım məni daş qəlbli edib öz işidir?
Ciddi-cəhdiylə onu eşqə uyan eyləmişəm.

Sən də ey Şirin xanım, ərz elə, öz ərzi-halı,
Bircə canım var idi, mən sənə can eyləmişəm.

08.12.1992

GÜLÜZLÜ SABAHIM GEDİB

Bu canımın əlindən gülüzlü sabahım gedib,
Gözümün yaş çeşməsi, min naleyi-ahım gedib.

Ağlayır bu binəva ürəyim, yox dada yetən,
Könlümün pərvanəsi, tacı-səcdagahım gedib

Bir deyən olmadı ki, bunca zülüm olmaz, müdam,
Ürəyimin danəsi Xosrovu-pənahım gedib.

Şahidim, tək olan Yaradan bilir, dərd əhliyəm,
Sevincim, səadətim o sevgi allahım gedib.

Kimə üz tutdumsa mən, tez kor etdi istəyimi,
Qəlb könül pərvanəsi, bunca qibləgahım gedib.

Acılar bağra düşüb, eyləyir ağrı ağıla,
Gecə-gündüz fikiri dönən dil gah-gahım gedib.

Şadimanın dərdinə yanmadadı öz ürəyi,
Öndan da ruha yaxın, qəm verən günahım gedib.

08.12.1992

YOLUMDA YANDIRDIN, ANA

Ağrıyan ürəyini yolumda yandırdın, ana,
Canı canın eşqinə candan usandırdın, ana.

O tuti ləblərindən axdıqca haqq laylaları,
Mənə öz qibləmi, pak Tanrımı qandırdın, ana.

Bu çılğın ürəyimə tökdükcə atəş qovunu,
Çocuqkən gözlərimi odla oyandırdın, ana.

Acılar taleyimi yolladıqca yoxuşlara,
Kəsibən yollarını zorla dayandırdın, ana.

İlahi sevgilərin qor salıb könlün içinə,
Qəlbimi öz dilimə eşqlə boyandırdın, ana.

Sənə qurban dediyim canım yolunda amadə,
Mərhəmət çırağını bağrımda yandırdın, ana.

İlahi nuru sənin qəlbinə verdi saflığı,
Dözümünlə lap mənə mələyi andırdın, ana.

Sinən üstdə bəslədin canından əziz balanı,
Dəyəcək hər bəlanı, hər hökmü dondurdun, ana.

Bu Tanrı vergisini İlahi göndərdi sənə,
Onu simurq quşutək köksümə qondurdun, ana.

Şahid oldun buna ki, böylə ürək kimsədə yox,
Eşqinin heykəlini cismimdə yondurdun, ana.

Sən bütün varlığıyla hər zaman qulun Şirinə,
Canından can bəxş edib aləmə sandırdın, ana.

09.12.1992

BELƏ DAD EYLƏMƏ

Ey dil, əhdə vəfasızdan indən belə dad eyləmə,
Sən hər könül oğrusunu öz qəlbinə ad eyləmə.

Sədaqətdən, məhəbbətdən xəbərsizlər nə çoxdur ki,
Ürəyinə yovuq bilib, sonra da imdad eyləmə.

Dinlət könül duyğuların, Allahına tut üzünü,
Şükürlər et hər saata, naqisdən fəryad eyləmə.

Qəm keçər bir buluddur ki, durduğu yerdə dayanmaz,
Sən onu sinənə salıb, addımbaşı yad eyləmə.

Şirin xanım, hər gecənin açılan bir səhəri var,
Al gündüzün Məcnunutək könlünü səyyad eyləmə.

09.12.1992

KEÇDİ ÖMÜR AH-VAYLARDA

Ömür keçdi ah-vaylarda niyə ona həyanım yox?
Nə halımdan xəbər tutan, nə bir onu duyanım yox.

Ey dil, şərəf saydın niyə əğyarınla ötən günü?
Ömür keçdi qəm içində, bəxtəvər dövranım yox.

Güman eylə, min illərlə əcəl bizə aman verər,
Sən zülüm et nəkarəyəm, nə höküm, nə fərmanım yox.

Sitəmindən gül bağrımda od qalayır hicran yenə,
Bu xəstəhal vücudumda, ya Rəbb, tabı-təvanım yox.

Qaliba, mən binəva Tanrıdan haqq diləməkdə,
Qırılıbdı ömür sapım, bundan ağır zamanım yox.

Böylə xəyal eyləmə ki, bəşərə övladam, eyvah,
Diri ikən məzardayam nə dünyam, nə cahanım yox.

Şirin xanım, əzrayıl da məndən uzaq dolanmaqda,
Öylə bəxti qarayəm ki, canım var, canalanım yox.

20.12.1992

İMDAD EYLƏ

Allahım, and verirəm eşqimə imdad eylə,
Viran olmuş könlümü bircə yol abad eylə.

Bəndənəm, yaratmısan, ey Xudam, öz hökmünlə,
Bu bəxti qaranı da bircə kərə yad eylə.

Zülm etdikcə mənə ahımdan aləm dağılır,
Çarə bulmursan əgər, nəş'əmi fəryad eylə.

Mən ki, qoyduğun yola müntəzirəm, yox sual,
Çıxsam izindən, hənuz, haqqıma min dad eylə.

Şadiman biçarəni, ya ucalt ərşinə sən,
Ya uçurt qəlb sarayın, ömürlük bərbad eylə.

07.06.1994

CAN AĞLAYAR

Ya İlahi, fərağından için-için can ağlayar,
Təbib könlə əlac bulmaz, dərdlərə dərman ağlayar.

Ürəkdəki ağrılardan, üsyan edər gözdə yaşlar,
Elə nalə çəkər könül, göz təki əfğan ağlayar.

Qəlb içində yaralar da bitişməzdir, zülümlərdən,
Məlhəm eylər, dəmadəm puç, tələşdan loğman ağlayar.

Hər tərəfdən ələmlərin ünü ərşə məzar olar,
Dağ üstündə gələr dağ da, bu dağdan fəğan ağlayar.

Yalanlar ram edər yeri, zirvələrdən enər dünya,
Əsir olar harama can, bu candan dövran ağlayar.

Qanadlanar ömürlər də təzə uçan quşlar təki,
Haray çəkər qocalıq da, haraydan zaman ağlayar.

Yenə gözdən axar yaşlar, bəbəklərdən üzə sarı,
Bu yaşlardan qəhərlənən bulud nə, leysan ağlayar.

Dünya özü qan içində, hey qanlardan savaş doğar,
Bir-birini yağı sanan cahan yox, insan ağlayar.

Deməsinlər, Şirin xanım özünə şadiman söylər,
Şadimanlıq sevdasıyla, o da yarımcan ağlayar.

29.12.1996

GƏL EY BƏXTİ QARA KÖNÜL

Gəl ey bəxti qara könül, gün görmədin bu dünyada,
Həyat tarlan səpin etdi, bar dərmədin bu dünyada.

Gözlər ahdan saldı fəğan, içə axdı bəbək yaşı,
Əl-qol atan qəm qolunu heç gərmədin bu dünyada.

Haray çəkdi gözüm yaşı bir kimsədən bulmadı dad.
Zalım fələk, kor bəxtimə yol vermədin bu dünyada.

Mən ki, əhdə sadiq biri qiymət qoyan olmadı heç,
Can deyəni dostun bilib can demədin bu dünyada.

Ey Şadiman, möhnət oxu dəlib keçir ürəyini,
Açıb süfrə könül dosta, heç sərmədin bu dünyada.

02.04.2015

AĞLARAM HİCRİNƏ MƏN

Ağlaram hicrinə mən hər gecəni, yar gecələr,
Sənə mehman olalı ürəkdə qəmin gecələr.

Bir gəlib görsən inan əhvalımı, pərişanam,
İçimi didib tökür sormadığım çox necələr?

İstərəm görüm səni dərdimi bəyan eləyim,
Göz yaşıma bürünüb ev-eşiyim, lal küçələr…

Xəyalın sükut kimi gözlərimə tor toxuyur,
Mənim bu çəkdiyimə nə ki ürək, can incələr.

Gəlirsən ruhuma gəl, gör nə qədər ah eləyir,
Ahımı dərdlərimiz şərab təki qoy içələr.

Şadiman biçəräni yandırır həsrətin odu,
Birləşə qəlblərimiz bu ağrıdan yan keçələr.

23.02.2016

TƏBİƏT

NEYLƏSİN?

Dağların başını xəzan alanda
Çiçəyi, çəməni, gülü neyləsin?
Duman zirvələrdə yalqız qalanda
Rüzgar ağ qırçınlı tülü neyləsin?

Səf-səf qoşununu düzəndə bulud,
Harayı, həniri bir yanıqlı ud,
Hönkürtü çökəndə hər qovaq, palıd
Ormanın füsnükar yeli neyləsin?

Çiskin bürüyəndə qaya qaşını,
Buludlar tökəndə o göz yaşını,
Salanda kol-kosa ovçu başını,
Kəkliyin, turacın dili neyləsin?

Torpaqda salanda xəzəl naxışlar,
Üzülər niskildən, qəmdən baxışlar,
Yağanda aramsız gurşad yağışlar
Dağların kükrəyən seli neyləsin?

Sapsarı göy, yerdən xəzan da razı,
Soyudar qanını payızın nazı,
Alanda çəməni, düzü ayazı
Üşüyən çiçəyin teli neyləsin?

Qaralar hikkədən, dolar fələklər,
Yalmana, yamaca sazaq ələklər,
Hədəylə əsəndə soyuq küləklər
Dağların üşüyən beli neyləsin?

Yerlərin bağrından açılmaz buzu,
Düzdə anasına sığınar quzu,
Gecələr udanda bulud ulduzu...
Torpaq tir-tir əsən çölü neyləsin?

Yağanda fələyin ağappaq qarı,
Rüzgar inləyəndə hey zarı-zarı,
Donanda dəryanın suları, barı,
Ördəklər, sonalar gölü neyləsin?

Şadiman, payızın, qışın zəhmi var,
Vallah hər fəslin yaxşı fəhmi var,
Allahın bəndəyə, cana rəhmi var,
Bəs məzar içində ölü neyləsin?!...

10.12.1999

MƏNƏ PAYIZLARI GƏTİRMƏ, ZAMAN

Saralıb tökülən yarpaqlar kədər,
Hər can qarşısında son qoyub Qədər,
Xəzanlı bağ-bağça bağrımı didər,
Alar könlüm evin yenə sis, duman,
Mənə payızları gətirmə, zaman.

Laləli çəmənlər düzlər solanda,
Yamyaşıl ağaclar donsuz qalanda,
Fələk qara geyib yer-göy dolanda,
Doğar ürəyimdə kədər, ah, aman,
Mənə payızları gətirmə, zaman.

Göyün sinəsində qopanda nalə,
Ölür boynubükük bənövşə, lalə,
O sərxoş buludlar dolu piyalə,
Üzər yarpaqları budaqdan yaman,
Mənə payızları gətirmə, zaman.

Şimşəklər atlıtək çapıb keçəndə,
Xəzan bağça-bağın bağrın biçəndə,
Buludlar səmanın qanın içəndə,
Bənzər bir savaşa əldə ox-kaman,
Mənə payızları gətirmə zaman.

Xəzri zilə qalxar ağlar havalar,
gömgöy Xəzərin burnun ovalar,
Torpağın bağrından qopar dualar,
Göylərə əl açar, diləyər, aman,
Mənə payızları gətirmə, zaman.

Xəzəli yetişib Şadimanın da,
Qışın sazağı var donan qanında,
Dünyanın duyulur xəzan canında…
Udur yalquzaqtək yaxşını yaman,
Mənə payızları gətirmə, zaman.
Mənə payızları gətirmə, zaman.

17-18.09.1998

PAYIZDA GÖYƏRƏN OTLAR NƏ QƏMLİ?

Payızda göyərən otlar nə qəmli?
Üşüyər çəmənlər, çöllər içində.
Titrək baxışları, gözləri nəmli,
Dumana bürünər yellər içində.

Payızda göyərən otların halı,
Niskilli qəlbimə tökər məlalı,
Fələyin davakar bu qeylü-qalı
Gurşada çevrilər sellər içində.

Yamyaşıl otların hüsnü pərişan,
Alar könlüm evin kədəri nişan,
O gözəl bahardan heç verməz nişan
Sızıltı duyular tellər içində.

Qışı haylayanda qasırğa, Xəzri,
Hər otun şəninə verər yer nəzri,
Sanki göy torpaqdan diləyər üzrü
Payızı danlayar illər içində.

Titrəyər səmanın köksündə şimşək,
Qışın gəlişinə etməz şübhə-şəkk,
Otlar boz düzlərdə üşüyəndə tək,
Ağlayar sonalar göllər içində.

Payızda göyərən hər ot dad edər,
Soyuğun əlindən hey fəryad edər,
Üzün göyə tutar, Rəbbi yad edər
Dili haray çəkər dillər içində.

Payızda göyərən otlar ağlayar,
Ümidin Allaha, haqqa bağlayar,
Tikanın, kolun da köksün dağlayar,
Bir həmdəm arayar güllər içində.

Şadiman, zamanın gedişi belə,
Verər hər canlının ömrünü yelə,
Qapını döyəndə əzrayıl hələ
Bir pənah tapmazsan ellər içində.

23.11.1999.

QARA TELLƏRİNİ TÖKÜB ÇİYNİNƏ

Qara tellərini töküb çiyninə,
Alıbdı dünyanı əlinə gecə.
Geyinib qara bir atlas əyninə,
Ayı kəmər edib belinə gecə.

Parlaq ulduzları boyunbağıdır,
Qara buludları, sanki dağıdır,
Yellərin sinəmdən qəmi dağıdır,
Bir sərinlik axır elinə, gecə.

Odlu vüsallarla bağrın alışır,
Həsrətlə, hicranla könlün barışır,
Toran mehlərinə sevgi qarışır…
Bir yaraşıq verir telinə, gecə.

Çaylar həzin-həzin laylanı çalır,
Qaranlıq boynuna qolunu salır,
Şadiman bu axşam qadanı alır.
Qat tuti dilimi dilinə, gecə.

25.05.1987

NAZLI GƏLİŞİNƏ MƏN OLUM HEYRAN

Nazlı gəlişinə mən olum heyran,
Dərdini, bəlanı alımmı, bahar?
Bu dağlar gülüstan, bu düzlər seyran,
Qoynunda xəyala dalımmı, bahar?

İzin ver dolanım, çölü-çəməni,
Gah lalə qoxlayım, gah yasəməni,
Yenə tələtümə gətirdin məni,
Ud olum bir «Cəngi» çalımmı, bahar?

Dəli leysanlarla yu üz-gözümü,
Yenidən axtarım tapım özümü,
Təkcə cəmalıma heyran sözümü,
Boynuna çələngtək salımmı, bahar?

Eşqi, səadəti əlində gətir,
İtir bu dünyadan bədxahı, itir,
İnsan ağılında təmizlik bitir…
Bu dəli istəklə dolummu, bahar?

22.03.1987

BİR PARÇA DAM, SƏMA, HEYVA AĞACI

Könülümü titrədən ilhamım qasid,
Dilsiz şərqiləri ruhumun tacı.
Boylanır pəncərəm önündə məsud,
Bir parça dam, səma, heyva ağacı.

Atılır otağa günün işığı,
Titrəyən yarpaqlar yellər aşığı,
Dənizin içində qəlb yaraşığı,
Bir parça dam, səma, heyva ağacı.

Tufanlar əsdirər taxta evciyi
Qərib sular üstə qərib inciyi,
Saxlayar bəlkə də qorxmaz divciyi
Bir parça dam, səma, heyva ağacı.

Soyuq ürəyimə bir ilham verər,
Danışan yarpaqlar ruha kam verər,
Duyğulu könlümə dadı tam verər,
Bir parça dam, səma, heyva ağacı.

O ağ qağayılar hey dövrə vurar,
Dirəklər üstündə, fəqət toy qurar,
Tanrı ətəyindən yapışar durar
Bir parça dam, səma, heyva ağacı.

Hardansa sərçələr çaşıb gələrlər,
Titrək yarpaqları eşqə bələrlər,
Torpaq ağrısıyla, sanki ölərlər...
Bir parça dam, səma, heyva ağacı.

Xəzərim sevgili dənizdir mənə,
Ürkək mələklərtək təmizdir mənə,
Uca saraylardan əzizdir mənə,
Bir parça dam, səma, heyva ağacı.

Burda uzaqdayam mən qayğılardan,
Yalançı, minüzlü o sayğılardan,
Yaranıb sevgili pak duyğulardan –
Bir parça dam, səma, heyva ağacı.

Pəncərəm önündə hər yarpaq şanə,
Verər dilək̇ləri necə nişanə,
Allah, bənzəməsin heç pərişanə,
Bir parça dam, səma, heyva ağacı.

Ürək sükunətin eşqinə uyar,
O gen asimandan gözümmü doyar?
Dalğalar üstündə bu könlümə yar –
Bir parça dam, səma, heyva ağacı.

Sıxma gözlərini, Şadiman, şehtək,
Oxşayar telini bu dəniz mehtək,
Fəth edib qəlbimi elə fatehtək –
Bir parça dam, səma, heyva ağacı.

30.07.2001.

RUHUM QANAD AÇIR UÇMAĞA BU GÜN

Yenə yaşıllaşıb bağ-bağça, çəmən,
Havaya ətrini verir yasəmən,
Yerin döşlərindən çeşmədir əmən,
Quşlar cəh-cəh vurur ətrafdan həmən,
Təb gəlib qapımı açmağa bü gün,
Ruhum qanad açır uçmağa bu gün.

Baharmı gözəllik verən aləmə?
Aləmmi baharı salan bu dəmə?
Təbiət son qoyub gözündə nəmə,
Nəş'ə sitəm edir qəlbdə ələmə,
Cəhd edir ürəyim qaçmağa bu gün,
Ruhum qanad açır uçmağa bu gün.

Arabir şimşəklər çaxnaşır göydə,
Buludlar acıqlı axnaşır göydə,
Hər bulud həm dolur, həm daşır göydə,
Leysanlar titrəyir dağ aşır göydə,
Yerin bağırını qucmağa bu gün,
Ruhum qanad açır uçmağa bu gün.

Şıdırğı oynadır bahar yelləri,
Ehtizaza gəlir qəlbin telləri,
Ötüşür quşların o quş dilləri,
Titrədir kövrəkcə saf könülləri,
Günəş ocaq çatıb saçmağa bu gün,
Ruhum qanad açır uçmağa bu gün.

Şadiman, can verir canıma nəş'ə,
Qoyma qapımızdan girə əndişə,
Kədər bu anları çəkməsin dişə,
Təbiət bahara açılan guşə,
Nə halət dərd-sərə acmağa bu gün,
Ruhum qanad açır uçmağa bu gün.

30.03.2007.

PAYIZ ÇİÇƏYİ

Əsdirir başında fələk yelləri,
Ələyir üstünə gurşad selləri,
Solur vücudunun yaşıl telləri,
Saraldır donunu, payız çiçəyi.
Gətirir sonunu, payız çiçəyi.

Sən ki, ormanların bir yaraşığı,
Sarı ot-əncərin oldun aşığı,
Ey bomboz çöllərin həyat işığı,
Nə incə mələksən, payız çiçəyi.
Torpağa ürəksən, payız çiçəyi.

Boylanıb baxırsan çəməndən, çöldən,
Sonalar seyrinə gəlibdi göldən,
De, mən necə doyum yamyaşıl teldən?
Duyğumu coşdurdun, payız çiçəyi.
Sellərtək daşdırdın, payız çiçəyi.

Baxıram göylərə qapqara bulud,
Hətta, xəzan çağı saralır palıd,
Titrək yarpaqların bir yanıqlı ud,
Nə şərqi oxuyur, payız çiçəyi.
Ətrin qəm qoxuyur, payız çiçəyi.

Bağ-bağça ömrünü vurubdu başa,
Fəqət bənzəri var bir cansız daşa,
Şehin ləçəklərdə bənzər göz yaşa!
Qəlbi dağlayırsan, payız çiçəyi.
Yoxsa ağlayırsan, payız çiçəyi?

Kökündən qoparmaq səni çox ağır,
Üstünə fələyin leysanı yağır,
Tufanlara düşsən sən məni çağır –
Bir az sevgi istə, payız çiçəyi.
Alım könlüm üstə, payız çiçəyi.

Sən məndən canımı, ruhumu aldın,
Tənha səma altda kəməndə saldın,
Ovcumun içində ətrinlə qaldın.
Bu da bir eşqimi, payız çiçəyi?
Könülümlə məşqmi, payız çiçəyi?

Xəzanda göyərən otlar mükəddər,
Sənin də üstünü alıbdı kədər,
Sabah qarlı qışı gətirsə qədər...

Heç edər pöhrəni, payız çiçəyi.
Dondurar çöhrəni payız çiçəyi.

Niskilli çöllərin həyat sevinci,
Otlar arasında parlayan inci,
Ağrıyan könlümün qoy çıxsın dinci,
Gəl Şadimana yet, payız çiçəyi.
Könlünü yuva et, payız çiçəyi.

23.12.1999

BİZİ YAŞADAN HƏYATDI

Qara çadralı bu gecə,
Yuxudan ayıldı necə?
Zülmətin ömrü daraldı,
Göy üzü tamam qaraldı.
Gecənin bağrı yarıldı,
Al Günəş sübhə sarıldı.
Getdi zülmət min ah ilən,
Ayıldı gün sabah ilən.
Ağappaq buludlar uçdu,
Sinəsin göylərə açdı.
Dünyanın dodağı qaçdı,
Qolların səhərə açdı.
Örpəyin uzatdı yerə,
Baş əydi ona min kərə.
Küləklər daradı telin,
Şəbnəmlər islatdı əlin.
Göy üzü çəhrayı oldu,
Yelləri saçını yoldu.
Sanki bu qış yox, yaz imiş,
Yerdə, göydə bir naz imiş.
Sərçələr budağlar üstə.
Səsləri elə ahəstə.
Bağ-bağat içrə dolaşdı,
Bülbüllə gül qoşalaşdı.
Dünyanın gözləri güldü,
Könlümə sevinc töküldü.
Ruhuma, canıma qida,
Sinəmdən qopdu xoş nida.
Ömür Tanrıdan baratdı,
Bizi yaşadan həyatdı!

03.02.2007

GÜNƏŞ DOĞDU, QARANLIQLAR QAÇILDI

Günəş doğdu, qaranlıqlar qaçıldı,
Sübhün gözü ərşə, ərzə açıldı,

Üzün gülə bülbül necə toxudu?
Səhər-səhər şirin nəğmə oxudu.

Ağacların gözündən şeh töküldü,
Külək əsdi göylərdən meh töküldü,

Kəpənəklər koldan-kola dolaşdı,
Əl-ayağı gül tozuna bulaşdı.

Yeddi rəngli göylər qurşaq bağladı,
Qatar-qatar ağ buludlar çağladı.

Gah yer göyə, gah göy yerə əl etdi,
Duyğuları ürəyimdə yel etdi.

Bağçasını açdı göyə qəlb damım,
Qanadlandı uçdu yenə ilhamım.

02.03.2003

TÖKDÜ ATƏŞİ QƏLBƏ

Dan ulduzu son dəfə parladı söndü,
Gecə köçünü yığıb evinə döndü.

Sübh atıldı yuxudan, qəfil oyandı,
Doğdu günəş, səmalar parladı, yandı.

Göylər ağ örtüyünü çəkdi başına,
Səf buludlar büründü zər qumaşına.

Asimanlar titrədi, yellər oynadı,
Ürəyimin içində tellər oynadı.

Fələyin gözlərindən töküldü şehlər,
Üşütdü can evimi nə nazlı mehlər?

O nazəndə səhərin gəldi vüsalı,
Yerlərin və göylərin xoş oldu halı.

Hər budağın üstündə bir yarpaq açdı,
Havalanıb ilhamım yanına qaçdı.

Eyvanda yuvasını qurdu qaranquş,
Munis oldu könlümə bu köçəri quş.

Mələksima təbiət mənə seyr oldu,
Tökdü atəşi qəlbə, o da şeyr oldu.

02. 03. 2003

QIŞ GƏLİB BULUD ÜSTƏ

Qış gəlib bulud üstə,
Bəyaz qarı ahəstə.
Yorğanın sərib yerə,
Ağappaqdı dağ, dərə.
Xəzri elə ulayır,
Buza dönüb çöl-bayır.
Günəş hərdən gözünü
Qırpmadan baxıb durur,
Buz içində toy qurur.
Qar özü bir bərəkət,
Torpağa can hərəkət,
İlahinin neməti,
İnsana səadəti.
Qarla külək bəhs edir,
Buludlar yallı gedir.
Sevdalı günlərimiz,
Sədalı ünlərimiz.
Qışı bahar eyləyir,
Bağ-bağçamız gülləyir.
İsinir ürəyimiz,
Uçuşur diləyimiz.
Sabahımız yaz olar,
Aləm xoş avaz olar.
Təbiətin qüdrəti,
Coşub-daşmaq adəti,
Dünyaya sədaqəti.

09.01.2008

ALMA AĞACI

Payızın saralan-solan vaxtında,
Çiçəklər bitirib, alma ağacı.
Oturub bağımız xəzan taxtında,
Baharı gətirib, alma ağacı.

Niskillər içində üzən sabahın,
Aparıb sevdası naləyi-ahın,
Elə bil yerlərə munis Allahın –
Sevgisin yetirib, alma ağacı.

Budaqlar üstündə çiçəklər əsir,
Sazağın bağrını bir ülfət kəsir,
Günəş şölələrdən hörübdü həsir,
Odunu götürüb, alma ağacı.

Aparıb kədəri, aparıb qəmi.
Qəlbdə tüğyan edən acı naləmi,
Bir eşqə bürüyüb küllü-aləmi,
Könlümə ötürüb, alma ağacı.

Şadiman, təbiət sirlərlə dolu,
Hər üzə açılmır onun haqq yolu,
Yatıb göy içində sis, gurşad, dolu,
Sazağı itirib alma ağacı.

23.11.2008

QIŞLA BAHAR DÖYÜŞÜR

Qışla bahar döyüşür,
Düşür araya həşir,
Gah qara bulud gəlir,
Göylərin köksün dəlir.
Gah da gözləri dolur,
Hər biri qədəh olur,
Təşnə göy qəh-qəh çəkir,
Başına bəh-bəh çəkir,
Buludun göz yaşını,
Silkələyir başını,
Bu nə sevda, nə baxış,
Yağır şıdırğı yağış.
Gurşad doyur dayanır,
Yatmış torpaq oyanır,
İslanmış paltarını,
Üst-başında varını,
Silkələyir astaca,

İşdən hali, ustaca
Səmayla pıçıldaşır,
Buludlar dolub daşır,
Yağış qara çevirir,
Yazı taxtdan devirir,
Qış bozardır üzünü,
Tez göstərir özünü.
Bahar qışdan gizlənir,
Göz yaşı dənizlənir.
Bir hönkürtü qoparır,
Yer-göyü su aparır.
Ya xəzri, ya giləvar,
Bir-birin tutub qovar.
Hərdən günəş boylanır,
Bu səs-küydən oylanır.
Göydə, yerdə çarpışma,
Buludlarla qapışma...
Yaz könlünü dillədir,
Qışa əlin yellədir.
Qış da bir az havalı,
Təbiətlə davalı.
Bu il gecikmiş sayaq,
Şaxtası da birsayaq,
Nə ağ kürkü sərməyir,
Nə yaza yer verməyir.
Buludları tovlayır,
Külәkləri qovlayır.
Həm yağış, həm qar edir,
Bu dəli sevda nədir?
Təbiətin sovqatı,
Bihuş edir ovqatı.

05.03.2011

ÇATLAYIR BAĞIRI DOLAN BULUDUN

Çatlayır bağırı dolan buludun,
Şimşəyin atəşin dadmaq istəyir.
Sancısı canında qalan buludun,
Göylər ağrısını udmaq istəyir.

Bir şaqqıltı qopur səma üzündə,
Gurşadlar püskürür yerlərə sarı.
Ətəklər islanır titrək dizində,
Qurulub dumanın qara hasarı.

Yağış damlaları boyunbağıtək,
Göylərdən yerlərə mirvari düzüb.
Yerlər gülmüsünür sevda bağıtək,
Sanki ürəyini bir möhnət üzüb.

Gurşad hicran dolu mahnı oxuyur,
Damlalar piano dilləri təki.
Özünü divara, daşa toxuyur,
Titrək sevgilinin əlləri təki.

Buludlar toqquşur, şimşəklər çaxır,
Yarından həsrətli iki sevəntək.
Alışan könüldür ürəyi yaxır,
Dodaqlar tərpəşib dillər dinəntək.

Üst-başım islanıb, kipriyim yaşdı,
Buludlar ələyir yağışı göydən.
Sanki sərxoşluğu keçən əyyaşdı,
Boylanır şimşəyin baxışı göydən.

Çətiri tuturam başıma sarı,
Külək fırlanaraq burur əlimdən,
Özümü sıxıram bir küncə barı,
Gücünü toplayıb vurur əlimdən.

Qoşulub küləyə çətirim uçur,
Yağış damlaları oxşayır onu,
Nazlı bir pəritək boynunu qucur,
Yazıq əllərimə yox sayır onu...

Çatlayır bağırı dolan buludun,
Şimşəyin atəşin dadmaq istəyir.
Sancısı canında qalan buludun,
Göylər ağrısını udmaq istəyir.

23.04.2011.

KİM KƏSİBDİ BU AĞACIN BAŞINI?

Budaqları əyilibdi köksünə,
Kəc baxılıb boy-buxuna, əksinə,
Hansı nadan çıxdı onun əksinə?
Yer də udmur puçur-puçur yaşını,
Kim kəsibdi bu ağacın başını?

Yarpaqları tökülübdü ətəyə,
Sanki dönüb öz canına kötəyə,
Bənzəri var sızıldayan tütəyə,
Təyin edin gövdəsindən yaşını,
Kim kəsibdi bu ağacın başını?

Bəbəyində ovxalanır ağrısı,
Naşı imiş təbiətin oğrusu,
Baş açmıram qəddarından doğrusu,
Uçurubdu binəsindən daşını,
Kim kəsibdi bu ağacın başını?

Dünən hələ yarpaqları tac idi,
Günəş udan budaqlara sac idi,
Salxımları sevdasına ac idi,
Sanki ahı qarqışlayır naşını,
Kim kəsibdi bu ağacın başını?

Yetim-yetim budaqları sallanır,
Dünən vardı, bugün adı hallanır,
Öldürdülər, məzarına yollanır,
Zəhər ilə qaynadıblar aşını,
Kim kəsibdi bu ağacın başını.

Hamı onun kölgəsindən keçərdi,
Ot-əncərlər şəbnəmindən içərdi,
Balta alıb onu vuran nə çərdi,
Gözün ovub, çapıbdılar qaşını,
Kim kəsibdi bu ağacın başını?

Dili yoxdu harayına çağırsın,
Səsi yoxdu pələngtəki bağırsın,
Əqli yoxdu adam kimi çığırsın,
Baharına bələyibdi qışını,
Kim kəsibdi bu ağacın başını.

06.05.2011

SARI QAR

Payız, sarı çiçəklər,
Xəzəl olar ləçəklər,
Özün gizlər böcəklər,
Göylər buludu sağır,
Göydən sarı qar yağır.

Xəzri gələndə bağa,
Qan uddurur torpağa,
Xəzəl düşür yarpağa,
Uçuşur ağır-ağır,
Göydən sarı qar yağır.

Xəzan bağları qucur,
Köçəri quşlar uçur,
İsti yerlərə qaçır,
Kəsilir o çal-çağır,
Göydən yerə qar yağır.

Payızla qış birləşir,
Xəzri salır hay-həşir,
Xəzəllər sehirləşir,
Örtülür hər yol, cığır,
Göydən sarı qar yağır.

Günəş göydə saralır,
Günün ömrü daralır,
Havalar tez qaralır,
Soyuyur sinə, bağır,
Göydən sarı qar yağır.

Saçda sarı xəzəllər,
Üz-gözümü bəzəllər,
Ayaq altda gəzəllər,
Ağaclar məsum, fağır,
Göydən sarı qar yağır.

08.11.1998

NOVRUZDA

Yanar el-obada bayram şamları,
Gülər qız-gəlinin üzü Novruzda.
Qumaşa bürünər el axşamları,
Keçməz tonqalların gözü Novruzda.

Al-əlvan geyinər gəlinlər, qızlar,
Göydə çıraq tutar min-min ulduzlar,
«Cəngi»nin üstündə köklənər sazlar,
Aşığın tükənməz sözü Novruzda.

Xalçalar sərilər, el yallı gedər,
Yurd igidlərinin eşq bağrın didər,
Qızlar çərşənbədə qapılar güdər…
Həyadan al olar üzü Novruzda.

Səməni göyərər bir həftə qabaq,
Şəkərbura, qoğal, hey dolar tabaq,
Beləcə olubdu min il də qabaq,
Dəyişməz donunu, düzü, Novruz da.

Qapılar pusular, torba atılar,
Hər qapı ağzında tonqal çatılar,
Pusquda gizlənən igid «satılar»…
Gülüşlər dolanar düzü Novruzda.

Elin ağsaqqalı çəkilər başa,
Nişanlı axtarar bacı qardaşa,
Hər ocaq yer verər pilova, aşa,
Artar bərəkəti, duzu Novruzda.

Səməni halvası xonçalar gəzər,
Hər adambaşına şam süfrə bəzər,
Nişanlı qızları bir həsrət üzər…
Boylanar eyvandan gözü Novruzda.

Şadiman, əsrlər çox gəlib keçər,
Zaman əlimizdən illəri biçər,
Müqəddəs adətdən el necə keçər?
Qarşılar hər bahar bizi Novruz da.

05.03.1989

EY DALĞA, DÖYƏCLƏMƏ ALTIMDAKI DİRƏYİ

Ey dalğa, döyəcləmə altımdakı dirəyi,
Odur şirin canımın, varlığımın ürəyi.
Axı mənim taleyim gur suların üstündə,
Nə durmusan söylə sən həyatımın qəsdində?
Səhərdən axşamadək hicranını ələrsən,
Axşamdan səhərədək quzu təki mələrsən.
Tufanların əlində əsir olub qalmısan,
Mehri-məhəbbətini qasırğaya salmısan.
Nəfəsini dərmədən əsir soyuq küləklər,
Sən baş qoyub yatanda düşür duyuq küləklər.
Ayıldır harayıyla səni şirin yuxudan,
Hıçqırıb ağlayırsan, bəlkə elə qorxudan…
Göz yumub eşitmirsən qulaq tutan naləmi,
Mən ki, təngə gətirdim fəryadımla aləmi.
Bu titrək duyğularım ağlayır uşaq kimi,
Dolanıbdı boynuma kədərim qurşaq kimi.
Acılarım qor olub bağrıma ocaq təki,
Vücudum qəm əlində cansız oyuncaq təki.
Haqsızlığın içində boğulub-batmışam mən,
Əzabımdan özümə heykəl ucaltmışam mən.
Ey dalğa, döyəcləmə altımdakı dirəyi,
Odur şirin canımın, varlığımın ürəyi.

1-2.12.2004

QOY BAXIM ULDUZLARA

Diqqət eylə, göyə bax,
Göy bürünüb nazlara.
Qaranlıqdan nişan yox,
Qoy baxım ulduzlara.

Asimanda ay doğur,
Qatı zülməti boğur,
Göydən yerə nur yağır,
Qoy baxım ulduzlara.

Səmayla nümayişi,
Kainatla sazişi,
Nur ələməkdir işi,
Qoy baxım ulduzlara.

Hər ulduz bir qalaça,
Qaladan düşüb qaça,
Göydən yerə nur saça,
Qoy baxım ulduzlara.

Hərdən də səf düzülür,
Gözləri lap süzülür,
Göydən biri üzülür,
Qoy baxım ulduzlara.

Xəfif-xəfif gülərlər,
Sakitcə hal bilərlər,
Könlə həyat dilərlər,
Qoy baxım ulduzlara.

Şadimanla gözləşir,
Göydən yerə sözləşir,
Ürəyimdə yerləşir,
Qoy baxım ulduzlara.

24.08.1985

QIŞ ÇIXIB TAXTINA SULTAN SAYAĞ

Qış çıxıb taxtına sultansayaq,
Donur bədəndə necə baş-ayaq,
Tapa bilmir özünə can dayaq,
Nə təhər şaxtanın köksün oyaq?
Donubdu gözümüzdə yaş, baba,
Kəsmisən qapımızı, qış baba.

Hər tərəf bürünübdü ağ qara,
Çəkir şimal küləyi dağ qara,
Batıbdı bağça, bağat, bağ qara,
Bulaşıb çöl və çəmən, dağ qara.
Titrəyir həm bədən, həm baş, baba,
Kəsmisən qapımızı, qış baba.

Tökülür hər ağacın yarpağı,
Dondurub bəd ayaz da torpağı,
Şaxtanın başında buz papağı,
Olubdu çöl, çəmənə bir yağı.
Üşüyür çay içində daş, baba,
Kəsmisən qapımızı, qış baba,

Ağaclar budaqların oxşayır,
Bağçalar yaz çağların oxşayır,
Dərələr şiş dağların oxşayır,
Kəkliklər ayağların oxşayır.
Qaralıb qayalarda qaş, baba
Kəsmisən qapımızı, qış baba.

Dondurub ot-ələfi bu külək,
Üşüyür əl və barmaqlar, bilək,
Könlümüz sinədə titrək mələk,
Coşur hey qarın eşqiylə dilək.
Olubdu üst-başımız, yaş baba,
Kəsmisən qapımızı qış, baba.

Təbiət oğlan çağına gəlib,
Küləklər bağça-bağına gəlib,
Rəbbinin sərt növrağına gəlib,
Bərəkət el torpağına gəlib,
Qarğalar qış sorağına gəlib.
Barıdan, dam-bacadan aş, baba,
Kəsmisən qapımızı, qış baba.

Hər fəsilin mələk görkəmi var,
Çöllərin bər-bərəkət dəmi var,
Torpağda taxıl verən zəmi var,
Zamanın həm kəsri, həm kəmi var.
Gəlibdi yaş üstünə yaş, baba,
Kəsmisən qapımızı, qış baba.

Qurd-quşun yer altında yuvası,
Məlhəmdi ürəyə qış havası,
Şaxtalar dil-dodağı ovası,
Yel əsir, qalxır yerin duvası.
Fəsillər bəşərə sirdaş, baba,
Kəsmisən qapımızı, qış baba.

Ayağım altında sərt dalğalar,
Tufanın gücündən pərt dalğalar,
Yerlərə, göylərə dərd dalğalar,
Taleyim ömrümə nərd, dalğalar.
Hər qəfil tufana qaddaş baba,
Kəsmisən qapımızı, qış baba.

Xəzərin üstündə dəmir dirək,
Yerin bağrından güc əmir dirək,
Allaha bağlıdı ömür, dirək,
İlahi etdiyin demir, dirək.
Şadimanı sanma heç daş, baba,
Kəsmisən qapımızı, qış baba.

02.12.2002

GÖYÇƏKDİ BAHAR

Bitdi çöl-çəməndə qışın savaşı,
Sevincdən buludun axdı göz yaşı,
Yaşıla büründü bahar dağ, daşı,
Güldü asimanda günəşin üzü,
Yaz heyrətə saldı gecə-gündüzü.

Çinarlar birboy da ucaldı göyə,
Zürafə hüsnüylə özünü öyə,
Şimşəklər çaxnaşdı buludu döyə,
Söyüdlər əyildi köksünə sarı,
Yer, Göy salamladı, sanki baharı.

Necə yaşılı don geyindi bağlar,
Çeşmələr torpağın döşündə çağlar,
Ruha qida verər ətirli çağlar,
Çünki bahar gəlib, İlahi, bizə,
Təzədən həyatdı o qəlbimizə.

Açar ağaclarda yarpaqlar bir-bir,
Gilavar bağların qoynunda xəlbir,
Xəlbəti küləklə kəpənək əlbir,
Çiçəkdən çiçəyə uçar bir anda.
Həyatdan köç edər güldən doyanda.

Dolaşar bağları quşların səsi,
Havadan duyular yazın nəfəsi,
Qışın əsiri yer qırar qəfəsi,
Sanki, «Yallı» gedər baharla çöllər,
Baharın özütək al geyər ellər.

Odur təbiətin nazlı mələyi,
Coşdurar sinədə arzu, diləyi,
Yaşamaq eşqiylə dolan ürəyi
Diləklər üstünə qovar yel kimi,
Bahardır ürəyin yalnız həkimi.

Quşların cəh-cəhi bağda sazəndə,
Günəş od pərisi, bahar nazəndə,
Dağların boynuna dolanar çən də,
Qovar sis, dumanı o yaz yelləri,
Qıvrılar ilantək yağmur selləri.

Yaz səadətidir dağın, daşın da,
Gəlindir çatılan ocaq başında,
Həyatdı buludun o göz yaşında,
Gözümüz önündə çiçəkdi bahar.
Bütün fəsillərdən göyçəkdi bahar.

30.04.1999.

XƏZƏRDƏ FIRTINADI

Xəzərdə fırtınadı, tökür dəniz göz yaşı,
Göyü, yeri titrədir dalğaların savaşı.
Qağayılar qışqırır vurur özün sulara,
Küləyə üsyan deyir sürtür üzün sulara.
Qaralmış ləpələrin harayı qulaq tutur,
Göydə qara buludlar bu aha çıraq tutur.
Diləklərin üstündə meydançalar yellənir,
Qasırğa özün öyür, Xəzər üstə tellənir.
Taleyimiz asılıb Allahın ətəyindən,
Ölüm qorxusu keçir ağlı olan beyindən.
Bu taxta evciklər də titrəyir dirək üstə,
Dolur havalı təbim yer tapır ürək üstə.
Duyğularım çırpınır, sözlər axır dilimə,
Alıram qələmimi, kağızımı əlimə.
İlhamımla həmnəfəs yerə, göyə qaçıram,
Bu dəhşətli dəmlərin ahından söz açıram…
Mənim də duyğularım sular təki çağlayır,
Qoşulub ürəyimə bu Xəzər də ağlayır…

23. 02. 2004

QUŞBAŞI QAR YAĞIR

Təbiət bürünüb ağappaq tülə,
Quşbaşı qar yağır dənizə, düzə.
Boyanıb yer və göy, sanki ağ tülə,
İlahi bərəkət göndərib bizə.

Bəmbəyaz gəlinlik paltara bənzər,
Qışın əynindəki dümağ libası.
Çölləri, düzləri bir saflıq bəzər,
O qar naxışıyla parlar əbası.

Günəş sarıltısın göstərər hərdən,
Buludlar qol-qola tutub oynaşar.
Geyər ağ dənələr bir almaz zərdən,
Havadan asılı durar qaynaşar.

Qurumuş yarpaqlar tökülər bir-bir,
Çılpaq ağacları tutar üşütmə.
Küləklər göylərin əlində xəlbir,
Aləmə soyuqluq qatar üşütmə.

Mirvari dənələr bəmbəyaz inci,
Ələnir üstümə, başıma elə.
Qışmı təbiətin paklıq sevinci?
Dənələr qar olur dolaşır telə.

Qara qarğalar da qatar bağlayır,
Vurur ağaclara, bağlara özün.
Qış hələ girməmiş şaxta çağlayır,
Ocağın, sobanın çatladır gözün.

Yollar buz bağlayıb, qar təpə-təpə,
Sanki, ağ karvanlı səhradır hər yer.
Dəniz şahə qalxır üşüyür ləpə,
Sahildə, limanda bəmbəyaz zər yer.

Quşbaşı qar yağır, torpaq üşüyür,
Təbiət üzünü bozardıb yaman.
Budaq üstə qalan, yarpaq üşüyür,
Qış qapını kəsib verməyir aman.

Bakının çöhrəsi bozarır-solur,
Yalın ayaqları donur quşların.
Külək dər-divarda saçını yolur,
Sanki iniltisi qopur daşların.

Göylərin üzündə bir çaxnaşma var,
Bulud qoşun çəkir buludun üstə.
Bütün kainatda, sanki coşma var,
Döyünür dünyanın qəlbi ahəstə.

Quşbaşı qar yağır yer göyə əsir,
Səmanın bağrından inci ələnir,
Qapıdan girməyə külək tələsir,
Dolmuş novulçada buzlar yellənir.

Pəncərəm önündə qar naxışları,
Atəşə bürünür könlüm odundan…
Əridir rəngkartək o baxışları,
Ürəyim riqqətə gəlir dadından.

Mən Xəzər üstündə donub qalmışam,
Otağım içində dolaşır bu qış.
Ayağım altına qarı salmışam,
Bir xışıltı salır, dalaşır bu qış.

Təbiət nə gözəl, həyat nə şirin?
Ömrə hər fəsili qonaq eyləyir.
İlahi qoruyur adəmdən sirin,
Bizi bu dünyaya sınaq eyləyir.

17. 12. 2002

AL GÜNƏŞ ALƏMİ BƏZƏDİ YENƏ

Al günəş aləmi bəzədi yenə,
Sübhün gözü şehlə təzədi yenə.

Səmalar əl-əlvan rəngə boyanıb,
Buludlar necə göz-gözədi yenə?

Bir yanda şimşəklər özünü öyür,
Asiman bağrında nizədi yenə.

Ağappaq buludun rəngi boğulub,
O dolmuş gözləri kuzədi yenə.

Quşların səsası bürüyüb bağı,
Baharın pak üzü bizədi yenə.

Üzlərdə, gözlərdə səadət gəzir,
Ocağın külü köz-közədi yenə.

Şadiman dünyanın bağrından qopub,
Atəşi küllə üz-üzədi yenə.

12. 02. 2003

SARI-QIRMIZI GÜLLƏR

Bahar yaşıl ətəyin sərib torpağın üstə,
Kolun dibindən baxır bənövşə – boyu bəstə,
Bürüyür ürəyimi xoş duyğular ahəstə,
Ruhuma qanad verir çiçək donlu gözəllər,
Bağçamızda açılıb sarı-qırmızı güllər.

Çiçəklərin öz ətri, ləçəklərin öz iyi,
Ləklər üstə oynaşan küləklərin öz iyi,
Sinəmdə cövlan edən diləklərin öz iyi,
Gəzir kolların üstə ofsuna düşmüş əllər,
Bağçamızda açılıb sarı-qırmızı güllər.

Mən təmənna edirəm, əqlimi almın əldən,
Uçuşur kəpənəklər asılıb qalır yelldən,
Həzin əsən çiçəklər yorulub düşür dildən,
Mənimtək çalxalanır sehrə düşən könüllər,
Bağçamızda açılıb sarı-qırmızı güllər.

Torpaq ətir qoxuyur otların təmasından,
Günəş hərdən boylanır mirvari səmasından,
Qarışqalar boylanır balaca yer tasından,
Bənövşəni, laləni titrədir incə yellər,
Bağçamızda açılıb sarı-qırmızı güllər.

İlahinin səpdiyi gözəlliyə varam mən,
Çiçəklərin eşqinə alışıram, qoram mən,
Baharın sevda dolu günlərinə yaram mən,
Yerə, göyə səs salır ürəyimdəki tellər,
Bağçamızda açılıb sarı-qırmızı güllər.
Bağçamızda açılıb sarı-qırmızı güllər.

18.04.2012

EY SARALAN YARPAQLAR

Əsir yenə həzin payız küləyi,
Mavi gözlü səmaların mələyi,
Qurur əcəb bağça-bağa kələyi,
Dəli külək üstünüzü torpaqlar,
Ömür bitər, ey saralan yarpaqlar.

Həyat qısa, hüzünlüdür necə də,
Yaraşıqsız hər həyətdə, küçədə,
Nəğmə idiz gündüzlərdə, gecədə,
Dəli külək üstünüzü torpaqlar,
Ömür bitər, ey saralan yarpaqlar.

Addımlayır üstünüzdən yaxşı-pis,
Başınızı alır yenə, duman, his,
Sizə qəlbdən həyat dilər gözəl hiss,
Dəli külək üstünüzü torpaqlar,
Ömür bitər, ey saralan yarpaqlar.

Bir vaxt zövqlə oxşayardı sevən göz,
Şəninizə qoşulardı şirin söz,
Daha qalmıb o zamankı alov, köz,
Dəli külək üstünüzü torpaqlar,
Ömür bitər, ey saralan yarpaqlar.

Nədir belə pıçıltılı haraylar?
Keçən günü son gününüz haraylar,
Uçulubdu taclı, yaşıl saraylar,
Dəli külək üstünüzü torpaqlar,
Ömür bitər, ey saralan yarpaqlar.

03.10.1986

AY DƏNİZDƏ ÇİMƏNDƏ

Yenə də xumar-xumar yatırsan mavi dəniz,
Elə qucub dalğalar bir-birini mehriban.
Necə də sakitliyə bürünübdü göy bəniz.
Asimanda ulduzlar qatar-qatar, çıraqban.

Gecədir. Bütün aləm bürünüb sakitliyə,
Yalnız zülməti pozan göydə aypara Aydır.
Bu sakit dalğalarda yuyunmaq üçün deyə,
Ay çimir ləpələrdə, sanki günəşli yaydır.

Bu dəniz adasında Ay sularda çimməndə,
Elə bil gözləyirmiş sakinlərin yatmağın.
Salır qaranlıqları ustalıqla kəməndə,
Bu minvalla gözləyir, o, günəşin çıxmağın.

Ay dənizdə çimməndə necə füsnikar olur,
Sanki nur seli axır pak dənizin üstünə.
Bu sular məskənində sinəm qürurla dolur,
Baxıram heyranlıqla nurlu Ayın hüsnünə.

06.05.1986

QAĞAYI

Qumaş tükün qaralara boyanıb,
Xəzərimə yasmı tutdun, qağayı?
Önündəcə çirkli dəniz dayanıb,
Qara suyu necə daddın, qağayı?

Sübh-səhəri bəzər hayın, harayın,
Qulağımdan getmir könül ah-vayın,
Gözəllikdə yoxdur sənin heç tayın,
Xoş məramı tez unutdun, qağayı.

Mən bilirəm, çox cəfaya dözmüsən,
Nəfəs boğan havadanmı bezmisən?
Tufanlarla quş canını üzmüsən,
Bəlkə çirkli sular uddun, qağayı?

Hisli, paslı qanadını gərmisən,
Bu direklər şəhərinə sərmisən,
Hər dalğanın gözündən yaş dərmisən,
Ləpələrin üstə yatdın, qağayı.

Qışğırığın götürübdü aləmi,
Ağladırsan içimdəki naləmi,
Ləkələrin oxşar yazar qələmi,
Ürəyimdən söz oyatdın, qağayı.

12.10.1990

NƏZM HEKAYƏTLƏR

TAĞAYIM

«Salam olsun şövkətüzə, elüzə»
Şəhriyar.

I HİSSƏ

Səndə qalıb uşaqlığın illəri,
Əndirmənin ilan mələr çölləri,
Yaşıdların şirin-şəkər dilləri,
Qızlar gəlsin bulağına, Tağayım,
Səsim yetsin qulağına, Tağayım.

Şən açılan sabahımın özüsən,
Mənim üçün bu dünyanın üzüsən,
Dodağımdan qopan yurdum sözüsən,
Çiçəklərdən tül toxuyan, Tağayım,
Gecə-gündüz gül qoxuyan, Tağayım.

Anam Xəzər tellərini hörəndə,
Səhər şehin bağ-bağçaya sərəndə,
Üzümündən, əncirindən dərəndə,
Dad qalardı dilimizdə, Tağayım,
Şirələnmiş əlimizdə, Tağayım.

Gilavarın arxasınca uçardıq,
Çay aşağı dəli kimi qaçardıq,
Qayalara qayadan yol açardıq,
Göy Xəzərdən gün qalxardı, Tağayım,
Gilgilçayı lal axardı, Tağayım.

Asmakörpü çay üstündə durardı,
Qızmar Günəş başımıza vurardı,
Körpə qızlar gəlin-evcik qurardı,
Körpü üstə oynayardıq, Tağayım,
Qarışqatək qaynayardıq, Tağayım.

Gün çıxanda adamların hay-hoyu,
Ötürərdi heyvanları gözboyu,
«Kəndyeri»nə ot çıxardı dizboyu,
Biz də quzu otarardıq, Tağayım,
İsti düşdü yatırardıq, Tağayım.

Hərə bir gün çobanlığı dadanda,
Al səhərin gül havasın udanda,
Quşlar nəğmə oxuyardı hər yanda,
Gün doğardı canımızda, Tağayım,
Alışardı qanımız da, Tağayım.

Çıraqqala dumanlardan çıxanda,
Məsud, məğrur bizə tərəf baxanda,
Uzaqlarda qəfil şimşək çaxanda,
Biz də qorxub qaçışardıq, Tağayım,
Kəpənəktək uçuşardıq, Tağayım.

Bilməz idik xəstəlik nə, mərəz nə?
Dava-dalaş, umu-küsü, qərəz nə?
Dürməclərdik şor-lavaşı, çərəz nə?
Göz olardı el nəzəri, Tağayım,
O illərin yox bənzəri, Tağayım.

Bir zamanlar sellər dağdan gələrdi,
Gilgilçayı kəndi iki bölərdi,
Suya düşən qoyun-quzu mələrdi,
Sel bilməzdi bağça-bostan, Tağayım,
Ötənlərin özü dastan, Tağayım.

Elin ağzı kəndi belə öyərdi,
«Yuxarıbaş », « Aşağıbaş » deyərdi,
Novruz oldu, bir-birinə dəyərdi,
Gur tonqallar alışardı, Tağayım,
Uşaq, böyük yarışardı, Tağayım.

Ətirliydi kəndin gözəl yazları,
Alyanaqlı, ucaboylu qızları,
Yandırardı oğlanları nazları,
Coşdurardı diləkləri, Tağayım,
Oxşayardı ürəkləri, Tağayım.

Uşaqlığım zamanımın qoynunda,
Taleyimiz fələk qoyan qanunda,
Mat qalmalı röyaların oynunda,
Ram edərdi qorxuları, Tağayım,
Şirin-şəkər yuxuları, Tağayım.

Qız-gəlinlər bulaq üstə gələrdi,
Dərdi-sərin bir-biriylə bölərdi,
Xısın-xısın pıçıldaşıb gülərdi,
Beş addımdı bulaq bizə, Tağayım,
Səs dolardı evimizə, Tağayım.

Anam səhər işə-gücə qaçardı,
Qapımızı ana nənəm açardı,
«Bala» deyib bizi eşqlə qucardı,
«Nənə qurban» kəlməsiylə, Tağayım,
Sevinərdik gəlməsiylə, Tağayım.

Bəy xanımı Səfurənin odundan,
Heç doymadım sözlərinin dadından,
Oğul dağlı loğman-şair qadından,
Bayatılar dinləmişəm, Tağayım,
Dinlədikcə inləmişəm, Tağayım.

İslam əmi muğamatı xoşlardı,
Tarın səsi bəbəklərin yaşlardı,
O yazdığı şeirlərlə huşlardı,
Nura həsrət gözləriylə, Tağayım,
Çox yanıqlı sözləriylə, Tağayım.

İlk müəllim, bizə Sabir dayımız,
Dərsi bir gün bilməsəydik vayımız,
Döyülərdik qalmaz idi hayımız,
Dərsdən evə dönməz idik, Tağayım,
Necə həlim, dinməz idik, Tağayım?

Evə gəldim taxçamıza çıxardım,
Tapşırılan dərslərimə baxardım,
Şeir oldu elə bərkdən oxardım,
Lap ürəkdən alışardım, Tağayım,
Öz səsimlə yarışardım, Tağayım.

O Mənsurə anamın can kəlməsi,
Tikəsini bizim ilə bölməsi,
O Gülsabah bibimin gənc ölməsi,
Onda gördüm fələk üzün, Tağayım,
Qohumların yaşlı gözün, Tağayım.

Hacıbaba qardaşımın zəhimi,
Dərs zamanı müəllimlik fəhimi,
Uşaqlara hərdən qəfil rəhimi –
Keçənlərdən xoş xatirə, Tağayım,
Tarix olub hər sətirə, Tağayım.

Ağabala atamın mərd ərliyi,
Anamızla saf məhəbbət birliyi,
Atalığı, evdarlığı, dirliyi,
Bir örnəkdir bu günlərə, Tağayım,
Bugünki toy-düyünlərə, Tağayım.

Nə düşərdi tərs Fərhadın beyninə?
Təzə paltar geyinməzdi əyninə,
Pis gələrdi onun uşaq eyninə,
Qurban olum cəfasına, Tağayım,
Qardaşımın vəfasına, Tağayım.

Xanimənin dodağında gülüşü,
Gül bacımın o nazənin yerişi,
Sehir idi başdan-başa hər işi,
Çox almısan qadasını, Tağayım,
Canlar üzən ədasını, Tağayım.

Mirvarinin şirin-şəkər yeməsi,
Bişmişləri yeməyəcəm deməsi,
Dür bacımın hələ özün öyməsi,
Dəyməz idi heç xətirə, Tağayım,
Ötənlərdən bir xatirə, Tağayım.

Heyran idim Mətanətin nazına,
Qardaşımın yeddi gözəl qızına,
Mən nə deyim, fələk hər kəc yazına?
Qəribliyə düşdü canım, Tağayım,
Sənlə keçdi ən xoş anım, Tağayım.

Gül anamın cehiz saxsı nehrəsi,
Gəlinimiz Minanın ay çöhrəsi,
Xanımana nənəmin yun cəhrəsi –
Hanalarda çiçəklərdi, Tağayım,
Xalılarda gerçəklərdi, Tağayım.

Oğlanların çırtma vurub oxması,
Uşaqların dambacadan qorxması,
Qız-gəlinin çal-çəpərdən baxması,
Dil-dodağda noğullaşdı, Tağayım,
Xatirələr nağıllaşdı, Tağayım.

Səbirənin hər sözünün ballığı,
Gəlnimizin böyük-kiçik hallığı,
Kənd qızına xas üzünün allığı,
Bir səadət bağışlardı, Tağayım,
Nə müqəddəs baxışlardı, Tağayım?

Neçə-neçə gəlinin dul qalması,
Qarıların yaslarda saç yolması,
Ağacanın tək dam altda olması,
İranın fars, qərib oğlu, Tağayım,
Bəxti kimi yolu bağlı, Tağayım.

Toydan qabaq qızların cəm olması,
Yunu didib yorğan döşək salması,
Kəndimizin bulaması, dolması,
Ağızlarda dada döndü, Tağayım,
Qohumlar da yada döndü, Tağayım.

O Cəmilə nənə olan somiyə,
Tanış idi sadəliklə hamıyə,
Pişikləri eyləyərək hamiyə,
Tən bölərdi payını da, Tağayım,
Çoxaldardı sayını da, Tağayım.

Kənd məscidi ağzı bağlı olandan,
İmanımız avazıyıb solandan,
Cavanların sərxoş olub qalandan,
Hey boşaldı tabaqların, Tağayım,
Nə yaxşıydı qabaqların, Tağayım?!..

Şəfiqənin qəfil gələn ölümü,
Zalım fələk eləyəndə zülümü,
Gördüm ağlar məzar üstə elimi,
Yazıq bibim şamtək söndü, Tağayım,
Göz yaşımız selə döndü, Tağayım.

Xalam oğlu gənc Teyyubun vəfatı,
Cavan ikən nakam olan həyatı,
Bu fələyin qara gələn saatı,
Aldı Güllü bacısını, Tağayım,
Verdi bəxtin acısını, Tağayım.

On dörd yaşlı canım xəstə düşəndə,
Ürəyimi yaralıyıb deşəndə,
Zalım əcəl yatağımı eşəndə,
Əzrayılın üzün gördüm, Tağayım,
Başım üstə özün gördüm, Tağayım.

Qazı baba kənddən küsüb gedəndə,
Təpə üstə dam salıb yurd edəndə,
Qocalığı, rəhmətliyi güdəndə,
Onda bildim dünya fani, Tağayım,
Hər can üstə ömür ani, Tağayım.

Qarıların yayma-lavaş yayardı,
Qoşalayıb sonra cüt-cüt sayardı,
Kənddə hərə bir ayama qoyardı,
Ağızlara yaraşardı, Tağayım,
Dildən-dilə dolaşardı, Tağayım.

Dəliqanlı cavanların dəlliyi,
Qocaların çalmaları, belliyi,
Toyda, yasda adamların elliyi,
Ev də evə həyan idi, Tağayım,
Bir-birini sayan idi, Tağayım.

Sərincimiz südlə dolub-daşanda,
Ala inək çöl eşqiylə coşanda,
Süd ocağda qazanlardan aşanda,
Anam bizə söylənərdi, Tağayım,
Sonra gülüb əylənərdi, Tağayım.

Bəzənəndə toyxanalar əl-əlvan,
Nüsü dayı olardı cəld, pəhləvan,
Güləşərdi güləşçitək çox rəvan,
Zillənərdi zurna səsi, Tağayım,
Zurnaçının xoş nəfəsi, Tağayım.

Gəlin köçən qızların naz satardı,
Başlarına al örtüklər atardı,
Qayınata belə kəmər çatardı,
Gəlin üzün gizlədərdi, Tağayım,
Bəy evini gözlədərdi, Tağayım...

Novruzgülü torpaq altdan çıxanda,
Buludların bahar gözün sıxanda,
Uşaq ikən mən də dolub baxanda,
Alışardım yellər ilə, Tağayım,
Xoş, müqəddəs illər ilə, Tağayım.

Bayram gəldi elin pilov asmağı,
Torba atıb qapıları pusmağı,
Çərşənbədə damdan qulaq asmağı,
Sancılıb qan yaddaşıma, Tağayım,
Dönüb ürək sirdaşıma, Tağayım.

Aman Allah, elim, obam qanımda,
Ocağımın odu hələ canımda,
Kəndin özü röyalarda yanımda,
Qoynunu aç övladına, Tağayım,
Sal məni də bir yadına, Tağayım.

24-25.03.1998

İKİNCİ HİSSƏ

Salırsansa əgər məni yadına,
Yaddaşını əylə, gətir dadına,
Baş əyirəm pak, müqəddəs adına,
Yansın hər an ocaqların, Tağayım,
Görməyəsən qəm dağların, Tağayım.

Həyacanla qorxulara gəlmişəm,
Şirin-şəkər yuxulara gəlmişəm,
Ətir saçan qoxulara gəlmişəm,
İlhamıma aç yuvanı, Tağayım,
Ciyərimə səp havanı, Tağayım.

Təb xalısın çalarlara tutmuşam,
Yaddaşımda boyaların qatmışam,
Xatiratı can mülkünə çatmışam,
Çıxmışam söz pişvazına, Tağayım,
Qələmimin döz nazına, Tağayım.

Keçmişini birər-birər izlərəm,
Zəmanənin yoxuşların düzlərəm,
Astarına üz tutaram, üzlərəm,
Vaxt atının könlün allam, Tağayım,
Ötənlərə nəzər sallam, Tağayım.

Bəy adımız tarixlərə köçdülər,
Gədə-güdə qanımızı içdilər,
Varımızın çəkisini ölçdülər,
Sən bunlara şahid oldun, Tağayım,
Hamı üçün vahid oldun, Tağayım.

Kərim bəyin iki oğlu var idi,
Hacıağa, Ağabala car idi,
Ad-sanları el-obaya yar idi,
Bu şöhrəti sən də gördün, Tağayım,
Sərvətinin barın dərdin, Tağayım.

Hacıağa bəyliyin bar-bəhəri,
Yar-yoldaşı Qubanın can gövhəri,
Qonaqlıqda içirtdilər zəhəri,
Öldürdülər bəy kişini, Tağayım,
Vay etdilər gərdişini, Tağayım.

Bəy xanımı qızlarını götürdü,
Özlərini Quba xana yetirdi,
İzlərini düşmənləri itirdi,
Özün gördün bu ağrını, Tağayım,
Sən bilirsən hər doğrunu, Tağayım.

Ağabala oğlu Məmməd babamdı,
Ondan qalan bizə palçıq, gil damdı,
Dünya özü ağı dolu bir camdı,
Şirini az, zəhəri çox, Tağayım.
Kim deyər ki, heç dərdim yox, Tağayım?!

Ata babam bu dərdlərlə göyərdi,
Pıçıltıyla bəy adını öyərdi,
Dönə-dönə baisləri söyərdi,
Keçmişiylə çağlayardı, Tağayım,
Bəxtin haqqa bağlayardı, Tağayım.

Mən babamın heç üzünü görmədim,
Nəvələrə can sözünü görmədim,
Adı qaldı, bir özünü görmədim,
Zindanlara düşdü canı, Tağayım,
Əzablardan dondu qanı, Tağayım.

Yaddaşının tarixini əylədi,
Atam mənə yana-yana söylədi,
Zalım zaman bu adları neylədi?
Çox susmusan bu sorğuma, Tağayım,
Olan olub, sən ağrıma, Tağayım.

Əzizlərim bu dünyadan köçdülər,
Əzrayılın zəhər suyun içdilər,
Əbədilik o dünyanı seçdilər,
Sən də buna durub baxdın, Tağayım,
Ürəyimi yaman yaxdın, Tağayım.

Xiffətlərdən bağırları yarıldı,
Bəy babamın uşaqları qırıldı,
Bədənləri məzarlara sarıldı,
Bu dərdləri sən də bildin, Tağayım,
Gözlərinin yaşın sildin, Tağayım.

Keçmişinə gedib çıxan köküm var,
Bu ölçüdə dağdan ağır çəkim var,
Tarix kimi məlhəm edən həkim var,
Bu həkimin sözü dərman, Tağayım,
Gec-tez haqqa verir fərman, Tağayım.

Qocaların ölüb getdi qalmadı,
Heç birisi bu günlərə qalmadı,
Heç onlardan dilim soraq almadı,
Keçmişləri birər-birər, Tağayım,
Unutqanlıq haqqı gərər, Tağayım.

On səkkizdə Vətən zəfər çalanda,
İstiqlalı al qanıyla alanda,
Pak, üç rəngli bayrağımız olanda,
Bəyli, xanlı bayram etdin, Tağayım,
İyirmüç ay kama yetdin, Tağayım.

Sonra gəldi, bolşevikin havası,
Ermənin müsəlmanla davası,
Dağıdıldı el-obanın yuvası,
Qana döndü çöllərimiz, Tağayım,
Qara geydi ellərimiz, Tağayım.

Ruslar gəlib, qanımıza susanda,
Ermənilər yurdumuzu basanda.
Dağda, düzdə kolu-kosu pusanda,
Yağı qəlbdə yara açdı, Tağayım,
Arvad, uşaq kənddən qaçdı, Tağayım.

Nənəm çaşıb körpəsini atıbmış,
Özün kənddən qaçanlara qatıbmış,
Məmləkətin qara bəxti yatıbmış,
Qarı belə danışardı, Tağayım,
Sonra halı qarışardı, Tağayım.

Xanımana nənəm türkü öyərdi,
Ermənin adı gəldi, söyərdi,
Qaşlarını düyünləyib əyərdi,
Balasını haylayardı, Tağayım,
Yağıları vaylayardı, Tağayım.

Qocaların keçmişlərə varardı,
Kərim, Qasım, Sücəddin bəy arardı,
Deyərdilər, başda bəylər durardı,
Böyük-kiçik bilinərdi, Tağayım,
Yaşlı gözlər silinərdi, Tağayım.

Kərim bəyin ocağının oduyam,
Harda olsam elə onun adıyam,
Torpağının mən də ağız dadıyam,
Ucalaram şərəfinlə, Tağayım,
Öc alaram sələfinlə, Tağayım.

Sonuncu bəy – Hüseynalı əmimiz,
Bəylik getdi, soldu tale zəmimiz,
Gədələrə qaldı büsat gəmimiz,
Ev-eşiyi taladılar, Tağayım,
Qazanları yaladılar, Tağayım.

Səfurən də bəy ərinə ağlardı,
Xanımlığın yada salıb çağlardı,
Hüseynağa ürəyini dağlardı,
Yas tutardı balasına, Tağayım,
Ocağının qalasına, Tağayım.

Hüseynalı körpüsündən keçəndə,
Keçib kəndin evlərini seçəndə,
Yol uzunu gül-çiçəkdən biçəndə,
Oxşayardın üz-gözümü Tağayım,
Qəlbə məlhəm od-közümü Tağayım.

Seyid Camal ağanın pak məzarı,
Nəzir etsən aparardı azarı,
Azalardı sinələrin ah-zarı,
Qəbir evi nurla dolsun, Tağayım,
Ruhu yurda məlhəm olsun, Tağayım.

Hər Gülsurə bibi kəndə gələndə,
Anasıyla dərdlərini bölləndə,
Zemfirası, cavan qızı öləndə,
Dərd bürüdü ürəyini, Tağayım,
Yıxdı könül dirəyini, Tağayım.

Hacıağa əmimin bəy görnüşü,
El içində ağayana yerişi,
Bu fələyin zalımanə gərdişi,
Etdi onu oğul dağlı, Tağayım,
Heç qalmasın qapı bağlı, Tağayım.

O rəhmətlik əmim məni aparmış,
Körpəlikdə xəstəlikdən qoparmış,
Gəlməsəydi, təni məzar taparmış,
Kəsdiribmiş yanımı da, Tağayım,
Xilas etmiş canmımı da, Tağayım.

Deyirlər ki, müharibə başladı,
Başlayanda hər qapını daşladı,
Anaların gözün qanla yaşladı,
Öldü getdi cavanların Tağayım,
Boş qaldı çox ünvanların, Tağayım.

Papaqlılar evlərindən getdilər,
Qan-qadalı cəbhələrə yetdilər,
Arvad-uşaq necə fəğan etdilər?!
Qatı oldu dumanların, Tağayım,
Qanlı gəldi zamanların, Tağayım.

Ata babam Məmmədi də tutdular,
Tutub elə zindanlara atdılar,
Niyə adın xainlərə qatdılar?
Xəstə gəldi, evdə öldü, Tağayım,
Əzrayıl da üzə güldü, Tağayım.

Qarı, qoca hey Hitleri söyürdü,
Qara xəbər hər qapını döyürdü,
Zalım ölüm boy-buxunun öyürdü,
Çox üyütdü mərdlərini, Tağayım,
Çox artırdı dərdlərini, Tağayım.

O vaxt rusun torpağıyçın öldülər,
Tikələrin onlarla tən böldülər,
Evlərinə yüzdən biri gəldilər,
Sitalinçin baş verdilər, Tağayım,
Gözlərindən yaş verdilər, Tağayım.

Anam deyir, aclıq kəsdi amanı,
Elin çıxdı ərşə ahı-amanı,
Bəhram dayı müharibə zamanı,
Neçə aca çörək verib, Tağayım,
Elə ürək-dirək verib, Tağayım.

Kənddə çoxu acından qan qusurdu,
Canavarlar ev-ev qapı pusurdu!
Arvad-uşaq qorxusundan susurdu,
Ot otlardı günlər ilə, Tağayım,
Dərd gələrdi ildən-ilə, Tağayım.

Kənd yoluyla ana, bala gedəndə,
Ac canavar qəfil hücum edəndə,
Sinələrin parçalayıb didəndə,
Bu dərd dildə ağı oldu, Tağayım,
Elin sinə dağı oldu, Tağayım.

Kənd məscidin etdin taxıl anbarı,
Doldu ora neçə illər dən-darı,
Yıxdı bizi İlahinin ah-zarı,
Döydük yasda dizimizə, Tağayım,
Heç gəlmədik özümüzə, Tağayım.

Var əlində İlahinin əsası,
Alır bizdən günbəgündən qisası,
Babı olduq, vallah, sözün qısası,
Açılmadı din qapımız, Tağayım,
Çox qırıldı bəxt sapımız, Tağayım.

Müslüm əmi qızılcayla çarpışdı,
Yandı bədən xəstəlikdən alışdı,
Qızdırmadan gecə halı qarışdı,
Həkim, dərman tapılmadı, Tağayım,
Öldü dərdi çapılmadı, Tağayım.

Meyrənsənin ürəyin qəm bələndə,
Ata nənəm damdan düşüb ələndə,
Atam, əmim yetimliyi biləndə,
Ana deyib haray saldı, Tağayım,
Evlə dolu yetim qaldı, Tağayım!

Tək, köməksiz atam quzu otarmış,
Samanlıqda quzularla yatarmış,
Qurd özünü sürü üstə atarmış,
Canavarı qovlayarmış, Tağayım.
Dəyənəylə hovlayarmış, Tağayım,

Ərsiz qalan gəlinlərin ağladı,
Cavan ikən başa qara bağladı,
Qanlı savaş qapıları bağladı,
İgidləri aldı qaçdı, Tağayım,
Eli dərdə saldı qaçdı, Tağayım.

Cavanların cəbhələrə getdilər,
Gedib orda yoxa çıxıb, itdilər,
Ruhlarıyla obamıza yetdilər –
Dolandılar yuxularda, Tağayım,
Ahın batdı qorxularda, Tağayım.

O illərin qorxusundan çıxmadıq,
Sinəmizdə qorxu hovun yıxmadıq,
Qibləmizə, Tanrımıza baxmadıq,
Sən də güldün ağlımıza, Tağayım,
Tükürpədən nağlımıza, Tağayım.

İndi Şuşa ermənin əsiri,
Qurub yağı Qarabağda qəsiri,
Özün söylə, ey ocağım, bu sirri?
El yolunda hanı ölən, Tağayım?
Fəğanına varmı gələn, Tağayım?

Kəndimizin qutab, küftə-bozbaşı,
Qazanların bəzəyiydi dəm aşı,
Süfrələrin sayılardı lap başı,
Zəfəranın ətirliydi, Tağayım,
Qonaqların xətirliydi, Tağayım.

Yaymaların üstə bıçaq çəkərdik,
Kəsdiyimiz yerlərə ət tökərdik,
Düşbərəni xırda-xırda bükərdik,
Su qazanda qaynayardı, Tağayım,
Düşbərələr oynayardı, Tağayım.

Şorqoğalı, şəkərbura, paxlava,
Səmənidən hazırlanan bərk halva,
Dişimizlə eləyərdi cəng, dava,
Ovcumuzda sıxılardı, Tağayım,
Əlimizə yaxılardı, Tağayım.

Anam tabaq içrə xəmir salardı,
Çırpı yığıb, təndirdə od qalardı,
Suyu səpib, odun közün alardı,
Kündələri tez yapardı, Tağayım,
Üz-gözünü od qapardı, Tağayım.

Yayılardı təndirin xoş ətiri,
Anaciyim xoş tutardı xətiri,
Yana-yana hər yazdıqca sətiri,
Ürək elə alovlanır, Tağayım,
Atəş düşür, od qovlanır, Tağayım.

Kəndə köhnə qəbirstanlıq yar idi,
Albanların xaç məzarı var idi,
Hər qəbirin daşı bir ah-zar idi,
İtib-batdı keçmişimiz, Tağayım,
Belə oldu hər işimiz, Tağayım.

Əncir, üzüm bağları səf durardı,
Hərə orda özünə ev qurardı,
Doşabları küpələrə vurardı,
Mürəbbəsi, irçalı bol, Tağayım,
Oradan da dənizə yol, Tağayım.

Sövet gəldi, hamısını yıxdılar,
Bu bağların axırına çıxdılar,
Öz elində xalqa qultək baxdılar,
Çox dağıldı xanimanlar, Tağayım,
Qayıtmaz ki, keçən anlar, Tağayım?

Kənddən qıraq şimalda bir səd vardı,
Səddin burnun dəniz suyu ovardı,
Quzuları səddə külək qovardı,
Biz də qorxub hürküşərdik, Tağayım,
Çöldə, düzdə bərkişərdik, Tağayım.

Gilgilçayı dəli-dolu axardı,
Yaz zamanı bərəsini yıxardı,
Şahə qalxıb məcrasından çıxardı,
Üçurdardı çal-çəpəri, Tağayım,
Çay da elə şıltaq pəri, Tağayım.

Sel gələndə döndü nağıl divinə,
Qaçdıq-getdik Gəncalının evinə,
Yazdım bunu xatirələr sevinə,
Çay canlarla güləşirdi, Tağayım,
Uşaq-böyük əlləşirdi, Tağayım.

Kənd yerində Tuğay kəndi olubmuş,
Hansı rüzgar tellərini yolubmuş?
Bəlkə yağı, bəlkə rüzgar dolubmuş,
Adı qalıb, özü yoxdu, Tağayım,
Ocağı yox, közü yoxdu, Tağayım.

Kol dibindən bənövşələr açardı,
Çöllərində dovşanların qaçardı,
Səmalarda şahinlərin uçardı,
Buludların axışardı, Tağayım,
Bir-biriylə baxışardı, Tağayım.

O şıdırğı yağışların yağardı,
Gecələrə pərvanə Ay doğardı,
Zülmətinin boğazından boğardı,
Ulduzların gözləşərdi, Tağayım,
Öz dilində sözləşərdi, Tağayım.

Çəmin içi lil sularla dolardı,
Camışların özün orda bulardı,
Axşam çağı hamı çaş-baş qalardı,
Qamışlığa hay düşərdi, Tağayım,
Camışlara vay düşərdi, Tağayım.

Məzarların çox üst-üstə qazıldı,
Hər məzara bir baş daşı yazıldı,
Tarixinin yol-irizi azıldı,
Ölənlərin unuduldu, Tağayım,
Hər ölənçin qəm uduldu, Tağayım.

Qarıların xəşil-quymaq çalardı,
Səmənini döyüb halva salardı,
Xır-xingalı, əriştəsi qalardı –
Gündən-günə, aydan-aya, Tağayım,
Xörəklərin gəlməz saya, Tağayım.

Rəfimizə çini kasa düzərdik,
Bir otağı qonaq üçün bəzərdik,
Dam-daşında səliqəlik gəzərdik,
Həyət-baca kürünərdi, Tağayım,
Hər şey təzə görünərdi, Tağayım.

Nov daşında üzümləri əzərdik,
Sonra onu tavalara süzərdik,
Od üstündə irçallarla közərdik,
Mürəbbələr qaldı qışa, Tağayım,
Küpələrdən daşa-daşa, Tağayım.

İnək doğdu anam ağuz sağardı,
Qazanları ocaq üstə yığardı,
Kələkəsi hər kasaya sığardı,
Pendirtəki kəsilərdi, Tağayım,
Kim yeməsə küsülərdi, Tağayım.

Zülmət qaçıb səhər nəfəs dərəndə,
Anam südü ləyənlərə sərəndə,
Günəş qalxıb pəncərəni gərəndə,
İşə-gücə qaçışardıq, Tağayım,
Arıtəki uçuşardıq, Tağayım.

Geyinərdik al-qırmızı donları,
İsidərdi bu təzəlik canları,
Yaddaşımda iz qoyan xoş anları,
Heç unuda bilməyirəm, Tağayım,
O zamantək gülməyirəm, Tağayım.

Qonum-qonşu evimizə gələrdi,
Dərdlərini anam ilə bölərdi,
Bir-biriylə pıçıldaşıb gülərdi,
Boy-buxunlu gözəllərin, Tağayım,
Harda qaldı o illərin, Tağayım?

Xalidənin gənc qız ikən ölməsi,
Əzrayılın belə vaxtsız gəlməsi,
Anasının, oy balam, vay kəlməsi!
Tük ürpətdi başımızda, Tağayım,
Sel oldu göz yaşımızda, Tağayım.

Yay gələndə Xəzərə üz tutardıq,
Özümüzü gur sulara atardıq,
İsti qumlar üstündəcə yatardıq,
Heç nə çatmaz ötənlərə, Tağayım,
Xəyalımda bitənlərə, Tağayım.

Şən-sevdalı günlərimiz ötüşdü,
Çox yaralar ürəklərdə bitişdi,
Keçən ömrün qocalığı yetişdi,
Qəbirlərin gülzarlandı, Tağayım,
Ahılların məzarlandı, Tağayım.

Zinyət xalam uca boylu bir xanım,
Bağlı idi tək qızıyla xoş anım,
O Balaca xanımı qəlb mehmanım,
Əlim yetmir çoxdan ona, Tağayım,
Əhvalıma gəlib yana, Tağayım.

Xanımbacı bibimi qəm yoxladı,
Oğül dərdi ürəyini oxladı,
Gözün yumdu, əbədilik yuxladı,
Rəhmətliyi dərd apardı, Tağayım,
Bu dünyadan tez qopardı, Tağayım.

Atam heç vaxt keçirməzdi namazı,
Divarları dolaşardı avazı,
Ürəklərə yayılardı nəvası,
Diləyərdi cana sağlıq, Tağayım,
Örnək idi dinə bağlıq, Tağayım.

Narınc xala çərəkəni alardı,
Avazıyla məclisə səs salardı,
Hüzrə gələn qadınların dolardı,
Bir səs ilə ağlaşardı, Tağayım,
Ruhlar ilə bağlaşardı, Tağayım.

Gecə sıxıb köynəyini sərərdi,
Ulduzları göydən bir-bir dərərdi,
Ay zülmətin qollarını gərərdi,
Baş balışa atılardı, Tağayım,
Səhərədək yatılardı, Tağayım.

Nehrəmizə anam qatıq tökərdi,
Ağzın bərk-bərk sələ ilə bükərdi,
Çalxalayıb yağın üzə çəkərdi,
Yırğalayıb oldurardı, Tağayım,
Yağ bardağın doldurardı, Tağayım.

Quzuları qoyunlardan alanda,
Haraylayıb küzülərə salanda,
Qarıların süddən qatıq çalanda,
Bıçaq vursan kəsilməzdi, Tağayım,
Heç üstündə əsilməzdi, Tağayım.

Deyirlər ki, quleybanı gələrdi,
Qap-bacanı döyüb üzə gülərdi,
Qız-gəlinlər qorxusundan ölərdi,
Tükürpədən nağılları, Tağayım,
Ram edərdi ağılları, Tağayım.

Oğlanların çilingağac oynardı,
Nərlər kimi qaçışardı, qaynardı,
Anaların başı işdən aynardı,
Balaların səsləyərdi, Tağayım,
Ürəkdə eşq bəsləyərdi, Tağayım.

Gəncliyimiz ötdü, keçdi neylədik?
Sevdamıza canı qurban eylədik,
Bir-birinə can deyib, can söylədik,
Yaman ötdü illərimiz, Tağayım,
Yetişmədi dillərimiz, Tağayım.

Keçmişlərə ağı deyən neyimsən,
Ürəyimdə taqətimsən, heyimsən,
Xəyalları sərxoş edən meyimsən,
Qoy dolanım mən başına, Tağayım,
Qurban olum dam-daşına, Tağayım.

Anam sacı ocaq üstə qoyardı,
Kündələri əl içində oyardı,
Lavaşının iyin ərşə yayardı,
Unutmaram ocağını, Tağayım,
Könlə məlhəm qucağını, Tağayım.

Bişən zaman isti təndir çörəyi,
Ətri ilə məst edərdi ürəyi,
Qızarardı qadınların biləyi,
Yanaqları al olardı, Tağayım,
Bişən çörək bal olardı, Tağayım.

Təndir üstü qarılarla dolardı,
Bir-birinə sözlə həyan olardı,
Çörəklərin ətri günlə qalardı,
Nemət idi qarnımıza, Tağayım.
İy dolardı burnumuza, Tağayım,

Sübh gözünü açar-açmaz durardıq,
Səsimizi başımıza vurardıq,
Hörükləri ufa-ufla darardıq,
Tez məktəbə yollanardıq, Tağayım,
Gündəliklə qollanardıq, Tağayım.

Ətirənin, Rəhilənin gülüşü,
Həlimənin, Şükufənin yerişi,
Elmiranın möcüzəydi hər işi,
Nəğiyməydi can sirdaşım, Tağayım,
İndi kimlə pıçıldaşım, Tağayım?

Qocaların onda hələ sağ idi,
Məktəbimiz bizə pak ocaq idi,
Hamımızın kef-damağı çağ idi,
Uşaqlığım şirin-şəkər, Tağayım,
Yuxulara məni çəkər, Tağayım.

Sinifmizin vardı bircə Şakiri,
Oxumağa həvəsliydi fikiri,
Dalaşanda heç yox idi məkiri,
Biliyi də yeddi qatdan, Tağayım,
Niyə çıxmır heçnə yaddan, Tağayım?

Atam axşam gündəliyi açardı,
Beş görəndə sevincindən uçardı,
Dilimizdə kitablar od saçardı,
Elmimizi daşdırardı, Tağayım,
Zirvələri aşdırardı, Tağayım.

Kitabxana uşaqlarla dolardı,
Kitab üstə mərəkələr salardı,
Bir-birinin yenə könlün alardı,
Yamanlığı üşüdərdik, Tağayım,
Can deyib, can eşidərdik, Tağayım.

Bir səadət oxum dəydi daşlara...
Gözüm batdı ahlar boğan yaşlara,
Qar ələnir saça, telə, qaşlara,
Uşaqlığı məndə gəzmə, Tağayım,
Qonaq olsam könlü üzmə, Tağayım.

Əqrəb qaçır suya həsrət sel kimi,
Saatlarım ayrılırlar yel kimi,
Nə var söylə, cana şirin el kimi?
Ürəyimi saldın közə, Tağayım,
Çox açmısan qoynu bizə, Tağayım.

Ayazının şaxtasında donmuşam,
Qış gələndə yay-yazını anmışam,
Sevgilitək mən oduna yanmışam,
İstəyimi gətir yada, Tağayım,
Çox alışır düşən oda, Tağayım.

Məhəbbətin ürəyimdə daşırdı,
Dəli təki dağdan, daşdan aşırdı,
Qövr eləyən yaramı dərd qaşırdı,
Eyləmədin buna çarə, Tağayım,
Sağalmayır demə yarə, Tağayım.

Uzaq düşmüş xatirələr uyudu,
Kirin-kirin yaman məndən soyudu,
Xulyaların nə dərin bir quyudu?
Düşüb qalıb zamanlarım, Tağayım,
Pozulubdu səhmanlarım, Tağayım.

Bədnəzərin yaman gördüm üzünü,
Camışımız vurdu yerə özünü,
Onda bildim kəsərdə el sözünü,
Ahı çıxdı yerə-göyə, Tağayım,
Fəryadını boğdu pəyə, Tağayım.

Yamanların, nisgillərin ağladı,
Ürəyimdə köç salıb, söz bağladı,
Közün atıb bağrım-başın dağladı,
Ötənləri harayladı, Tağayım,
Misra-misra sarayladı, Tağayım.

Seyidriza, qərib Məmməd İrandan,
Ayrılıq da dilə düşür sorandan,
Çalışdılar işdə ala-torandan,
Üzlərinin nisgilləri, Tağayım,
Açılmadı müşgülləri, Tağayım.

Cənub dərdi qəlblərini oxladı,
Ayrılıqlar ürəklərin qoxladı,
Gözlərində həsrətləri yuxladı,
Vətən eşqi olmur talan, Tağayım,
Kimdir onu qəlbdən alan, Tağayım?!

Cahan nənə tez-tez bizə keçərdi,
Anam onla dərdləşib çay içərdi,
Zalım ölüm cana yovuq nə çərdi?
Aldı-qaçdı qocaları, Tağayım,
Qaldı tüstü bacaları, Tağayım.

Səfurəylə Banu uşaq tutardı,
Doğulanla bir somyədə yatardı,
Ursu nənə tez haraya çatardı.
Əsəbləri darılardı, Tağayım,
Nəvələrlə sorulardı, Tağayım.

Fərrux nənə sakit-səssiz gəzərdi,
Qonşuluqda bizi eşqlə süzərdi,
Laylasına şirin-şəkər düzərdi,
Nəvələrin oxşayardı, Tağayım,
Söz özü də baxşa yardı, Tağayım.

Aynisənin kəndə qonaq gəlməsi,
Yun corabda rəngli naxış ilməsi,
Hər milinin öz dilini bilməsi,
Cəhrəsiylə oxunardı, Tağayım,
Barmaqlarla toxunardı, Tağayım.

Mirfeyzulla-Seyidkübra ocağı,
Zəlil Bahar o evdən bir qəm dağı,
Nəzir edən tez tapardı xoş çağı,
Peyğəmbərin nəsilidi, Tağayım,
Müqəddəslər əsilidi, Tağayım.

Səriyyənin, Gülzadanın zəhməti,
Üzlərində mehribanlıq neməti,
Atamızın xalalara hörməti,
Dodağında səslənərdi, Tağayım,
Qəm sozalıb, süslənərdi, Tağayım.

Rübabənin o oğulsuz harayı,
Tək dam altda uğuldayan ah-vayı,
Qurtarmırdı dərdlərinin heç sayı,
Qəmi ərşi qarsıyırdı, Tağayım,
Qəm özü də yansıyırdı, Tağayım.

Həmayılın haray-həşir salması,
Gur səsiylə yaddaşımda qalması,
Örtüyünü düngə vurub çalması,
O, anama əmiqızı, Tağayım,
Söndü getdi bəxt ulduzu, Tağayım.

Əlkiramın qəfil gələn qəm yası,
Yetim qaldı arvadı, üç balası,
Bibim oğlu Paşa oğul qalası,
Tahirənin yaşın gördüm, Tağayım,
Dərdə düşmüş başın gördüm, Tağayım.

Cabir dayım heyvanları döyərdi,
Cəbirliyi xatirimə dəyərdi,
Əsəbləşib it-pişiyi söyərdi,
Mən də ondan yan qaçardım, Tağayım,
Ürəyimə dərd açardım, Tağayım.

Rıza əmi atamın qan qohumu,
Dava etdi ərşə atdı ahımı,
Dodağımda qopartdı gah-gahımı,
Atam ilə yollaşmadı, Tağayım,
Doğma təki ballaşmadı, Tağayım.

Abdullanın çox davada olması,
Almanyada əsir düşüb qalması,
Mehrin bizim kəndimizə salması,
O, almanla rusu söydü, Tağayım,
Ömrü boyu haqqı öydü, Tağayım.

Qaraçöpü yığıb şələ bağlardıq,
Çətin işin sinəsini dağlardıq,
İlan gördük qorxub, hürküb ağlardıq,
Şələ çiyni ağrıdardı, Tağayım,
Ahımızı bağırdardı, Tağayım.

Qaçıb çaya tor torbalar atardıq,
Xırda çapaq balıqları tutardıq,
Quru biyan yığıb ocaq çatardıq,
İsidərdik əlimizi, Tağayım,
His tutardı telimizi, Tağayım.

Sünbülləri kombayınlar biçərdi,
Biçinçilər ayran, qatıq içərdi,
Xəzər üstən günəş dağa keçərdi,
Qız-oğlanlı toplanardıq, Tağayım,
Əkin boyu saplanardıq, Tağayım.

Kəndçilərin bərəkətlə yaşardı,
Zəmilərin dənlə aşıb-daşardı,
Sünbüllərin boyumuzdan aşardı,
Hürkə-hürkə dən yığardıq, Tağayım,
Bir-biriylə tən yığardıq, Tağayım.

Kolanılı Məmmədbağır at üstə,
Qırmancını haylayardı ahəstə,
Qarovulçu peşəsinə lap xəstə,
Bizi atlı qovlayardı, Tağayım,
Dilə tutub tovlayardı, Tağayım.

Kisəmizdə başşağılar daşardı,
Doldurduqca kisələrdən aşardı,
Gözətçinin səsi qızıb coşardı,
Üstümüzə kükrəyərdi, Tağayım,
Kisə beli lap əyərdi, Tağayım.

Şığıyaraq üstümüzü alardı,
Qovub atla kisəmizi çalardı,
Zəhmətimiz gözətçiyə qalardı,
Ot içinə bükülərdik, Tağayım,
Ağlaşaraq əkilərdik, Tağayım,

Uşaqlıq da tezcə gəlib ötüşdü,
Biz böyüdük, gənclik çağı yetişdi,
Bəxtimizə üzümlükdə iş düşdü,
Tale yolum ordan keçdi, Tağayım,
Karvan-karvan ömür köçdü, Tağayım.

Bağlarında meynələrin bol idi,
Qız-gəlinin taleyinə yol idi,
Ağır beldən sızıldayan qol idi,
Zəhmətlərə bürünürdük, Tağayım,
İlan təki sürünürdük, Tağayım.

Məmmədbağır Səliməni yanladı,
Bizim sıra dala qalıb anladı,
Üzün tutub bəy adımı danladı,
Əyilmirsən dedi mənə, Tağayım,
Bu təpkilər nəydi mənə, Tağayım?

Bəy adını başımıza qaxdılar,
Hər addımda bizə qara yaxdılar,
Adımıza eldə ögey baxdılar,
Bu ağrını bizlə çəkdin, Tağayım,
Ocaq yaxan közlə çəkdin, Tağayım.

Qadınların əli suluq atardı,
İşdən sonra belə şələ çatardı,
Qız-gəlinlər şələ altda yatardı,
Bu əzabın özün gördüm, Tağayım,
Hər naqisin üzün gördüm, Tağayım.

Cərgə-cərgə qızlar kətmən vurardı,
Kim yoruldu, nəfəs alıb durardı,
Məmmədbağır o saat vay qurardı,
Şırım açdı bağırımda, Tağayım,
Bunu daddım ağırımda, Tağayım.

Gəlinlərin dözmüb bala salması,
Qəzəblənib bu zülümdən dolması,
Üzlərində gözəlliyin solması,
Ağarardı tellərində, Tağayım,
Əzablıydı illərin də, Tağayım.

Həlmə xala un daşını salardı,
Buğda töküb ondan yarma alardı,
Daşın səsi aləmə səs salardı,
Sıyığından ətir qalıb, Tağayım,
Ürəyimdə xətir qalıb, Tağayım.

İmamilin ağıryana olması,
Xanım kimi xətirləri alması,
Banu ilə birgə günü qalması,
Düşdü elə ağızlara, Tağayım,
Mən də saldım kağızlara, Tağayım.

Qab-qacağı bulaq üstə yuyardıq,
Bir-birini pıçhapıçla duyardıq,
Anamızın gözün yolda qoyardıq,
Uşaqlığa qarışardın, Tağayım,
Könlümüzə sarışardın, Tağayım.

İsmayılın su maşını gələrdi,
Arvadların bəxti üzə gülərdi,
Su üstündə əsəblər də mələrdi,
Vedrələri tez qapardıq, Tağayım,
Uzun yolu su apardıq, Tağayım.

Ağrın keçib ürəyimdən aşardı,
Yaddaşımda xatirələr yaşardı,
Uşaq ikən şadlıqlarım daşardı,
Boy verərdi başım üstən, Tağayım,
Oxşayardın məni pəstdən, Tağayım.

Yay öz köçün gün üstünə çatardı,
El-camaat dam üstündə yatardı,
Gecə oldu yastığa baş atardı,
Xəzər yaman guruldardı, Tağayım,
Fırtınanı gur udardı, Tağayım.

Yağış oldu palçıq damlar damardı,
İşin qoyub hamı dama cumardı,
Ayaq altda çatlar damar-damardı,
İş-gücümüz ötüşməzdi, Tağayım,
Dincliyimiz yetişməzdi, Tağayım.

Axşam anam lampa üstə əsərdi,
Lampamızın piltəsini kəsərdi,
Əl vursaydıq yaman bizdən küsərdi,
İşığımız korlaşardı, Tağayım,
Göz tutulub, kor aşardı, Tağayım.

Dəryazlarla ot biçilib dolardı,
Adamların yabaları olardı,
Həyətlərdə tayaları salardı,
Zəhmət üzdə qırışardı, Tağayım.
İşlər yazda qarışardı, Tağayım,

Zaman ötdü, uşaqların yekəldi,
Sinələrdən min bir qayğı dikəldi,
Gəncliyimiz qapı açdı, tez gəldi,
Saldı bizi cığırlara, Tağayım,
Tale gülməz fağırlara, Tağayım.

Obaşdannan xoruz banı başlardı,
Yatanların qulaqların daşlardı,
Səhər şehi bağ-bağatı yaşlardı,
Qaranlığın içi şərdi, Tağayım,
Sübhümüzə gün düşərdi, Tağayım.

Nöhəddin də al şərabdan içərdi,
Lenini çox söyüb səddi keçərdi,
O da, bir gün bu dünyadan köçərdi,
Sən ki, buna şahid oldun, Tağayım,
Ölənlərə saç da yoldun, Tağayım!...

Zaman elə uçub-gedən quş oldu,
Hər ömürün payızında qış oldu,
Cavan canım qürbətlərə tuş oldu,
Burnumuzun ucu göynər, Tağayım,
Səndən ayrı düşən neynər, Tağayım?

Gəldi, getdi uşağlığın havası,
Sızıltıtək qaldı qəlbdə davası,
Candan çıxmaz heç bir kəsin yuvası,
İyi gələr yellər ilə, Tağayım,
Könlümdəsən illər ilə, Tağayım.

Ev-eşikli oldu bacı-qardaşım,
Dərdlərinə girdi, çapdı çox başım,
Qələm oldu ömürlə can yoldaşım,
Belə yazdı qədər mənə, Tağayım,
Agah etdim bunu sənə, Tağayım.

Ata evdə çox qızların qarıdı,
Ər evində bəxti olan yarıdı,
Ömürmüz də Rəbb əlində darıdı,
Səpdi, biçdi, hissə-hissə, Tağayım,
Tuş olmasın heç kim pisə, Tağayım.

Cavanların vaxt yetəndə toy etdi,
Səadətlə elə, yurda hay etdi,
Sinələrdə sevincləri çay etdi!,
Özün gördün nəş'ələrin, Tağayım,
Canda şadlıq guşələrin, Tağayım!...

İzlərində, cığırında itmədim,
Könlə düşməz haya-hoya getmədim,
Mən bülbüləm, qazlartəki ötmədim,
Sən bilirsən vüqarımı, Tağayım,
Soya olan ilqarımı, Tağayım.

Əzizlərim döndü oldu yad mənə,
Hey verdilər kədər dolu dad mənə,
Bu ömrümü etdilər heç zad mənə,
Hıçqırtılar qəlbdə yatdı, Tağayım,
Yaxşı-yaman, bu həyatdı, Tağayım.

Bir kimsəni təbimtək yar bilmədim,
Ömür ötdü, vaxtını dar bilmədim,
Qələmimi kağıza bar bilmədim,
Misralarım aman etdi, Tağayım,
Bu amanı yaman etdi, Tağayım.

Qönçə-qönçə güllərində ətir var,
İstək olsa, sevgi dolu xətir var,
Şeirlərdə hicran dolu sətir var,
Sən də doğdun xətirlərdən, Tağayım,
Boylanırsan sətirlərdən, Tağayım.

Xıdırzində uca dağlar başında,
Yuyunardı buludun göz yaşında,
Qarıların nəziri dam-daşında,
Boylanardı kəndə sarı, Tağayım,
Yox edərdi ahı-zarı, Tağayım.

Kənd yerinin adı Tuğay, deyildi,
Gözüm açdım Tuğay-Tağay deyildi,
Qocaların dillərində öyüldü,
Adı qalıb, özü hanı, Tağayım?
Kim dağıdıb bu ünvanı, Tağayım?

Ürəyimdə acılarım vay kimi,
Tuşlanıbdı ürəyimə yay kimi,
Yerdən qopub göyə dəyir hay kimi!
Bu hayımı sən də oxu, Tağayım,
Sinəni çək, dəyər oxu, Tağayım!

Sənlə olan günlərim bir yuxudu,
Bu yuxunu tale mənə oxudu,
Burunumda qalan şirin qoxudu,
Xoş qoxudan boylanırsan, Tağayım,
Başım üstə haylanırsan, Tağayım.

İndi mənə daha izzət vermirsən,
Keçənlərtək artıq ləzət vermirsən,
Peymanıma bir yolluq qət vermirsən,
Damağımda qaldı dadın, Tağayım,
Ürəyimdən çıxmır odun, Tağayım.

Gəlin gəldi, ata evim yadlaşdı,
Ötən günlər ağzımızda dadlaşdı,
Ürəyimdə bu ağrılar odlaşdı,
Yad qızının varmış üzü, Tağayım,
Qaçaq saldı evdən bizi, Tağayım.

Günlər zəhər tökür qeylü-qalıma,
Mən yanıram, sən də bir yan halıma,
Qoca anam gözün dikib yoluma...
Bu sinəmdən dur gəl qopar, Tağayım,
Ürəyimi ora apar, Tağayım.

Səsimizi, səmrımizi itirdik,
Çol-çocuğa əmrimizi itirdik,
Sevda dolu ömrümüzü itirdik,
Nə tez ötdü hünər çağı, Tağayım?
Ötən günlər oldu ağı, Tağayım.

Yaz ayının çiçəkləri açdılar,
Ətirləri burnumuzda saçdılar,
Yay gəlməmiş bağ-bağçadan qaçdılar,
Bihuş etdi məni halın, Tağayım,
Bu olaydı qeylü-qalın, Tağayım.

Yaxşılığı ağlatdılar qul kimi,
Etibarı xərclədilər pul kimi,
Rəbb hər ömrü ötüb keçdi yol kimi,
Bizdən qaldı yaxşı-yaman, Tağayım,
Hər kəsə də gülmür iman, Tağayım.

Pak atamın – Ağabalan vəfatı,
Yetimliklə qəmə batan həyatı,
Yaman çapdı Əzrayılın bəd atı,
Aldı qaçdı əzizimi, Tağayım,
Necə bükdü dərd dizimi, Tağayım?!

Atam getdi, şanım getdi əlimdən,
Xoş növraqlı anım getdi əlimdən,
Elə bil ki, canım getdi əlimdən,
Sən ahımın özün gördün, Tağayım,
Ürəyimin közün gördün, Tağayım.

Fələk dərdin heç birisin çözmədi,
Əzabları ürəyimdən üzmədi,
Mənim kimi ata deyib gəzmədi...
Atamlaydı dadın-duzun, Tağayım,
Dərdin ağır, dərdin uzun, Tağayım!

Məşədxanım ata evə gələrdi,
Əzizlərlə hey şadlanıb gülərdi,
Kim deyərdi o da vaxtsız ölərdi...
O atama xalaqızı, Tağayım,
Tez qırıldı könül sazı Tağayım.

Əmim qızı Hüsniyyənin ölümü,
Məyus etdi qara xəbər elimi,
Çox yandırdı ağı deyən dilimi,
Bəy əmimin xanım qızı, Tağayım,
Nə dəhşətli oldu yazı, Tağayım?!

Hər Gülbanı bibim qardaş deyəndə,
Ağrı-acı ürəyini yeyəndə,
Zalım əcəl qəlb qapısın döyəndə,
Bağrım-başı parçalandı, Tağayım,
Gözlərimə qan calandı, Tağayım,

Səkinən də itğilərə dözmədi,
Yazıq bibim ömür köçün sezmədi,
Yığın-yığın ağrıları çözmədi,
Sinəsində qəm daşırdı, Tağayım,
Qürbət eldə can tapşırdı, Tağayım.

Bəy babamın balaları getdilər,
Üzü soyuq məzarlara yetdilər,
Keçən günlər niyə belə ötdülər?
Heç qayıtmaz bir də geri, Tağayım,
Onlar ölü, biz də diri, Tağayım.

Ölənlərin ah-vayla can verəndə,
Zalım əcəl cismidən can dərəndə,
Göz yaşını bəbəklərə sərəndə,
Göy üzünü bulud aldı, Tağayım,
Gözüm yurdda, eldə qaldı, Tağayım.

Atam öldü, ev-eşiyi yad oldu,
Ağzımızda ondan qalan dad oldu,
Qardaşım da, şükür, soya ad oldu,
Bu ad üçün can verərəm, Tağayım,
Damarımdan qan verərəm, Tağayım.

Ata evim çox elədi dərd mənə,
Bu ağrını etmədi namərd mənə,
Ömür ki var, oldu sirli nərd mənə,
Günlərimi zərtək atdı, Tağayım,
Ötənlərlə birgə batdı, Tağayım.

Əzizlərim ürəyimi təklədi,
Könülümü kədər üstə köklədi,
Yəqin istək nəsillədi, köklədi,
Mən də bunu daddım belə, Tağayım,
Xəyallarım döndü yelə, Tağayım.

Gənclərimiz kənddən çıxıb getdilər...
Bəziləri arzulara yetdilər,
Bəziləri arzudan yan ötdülər,
Sən onları qarşıladın, Tağayım,
İstəyini aşıladın, Tağayım.

Deyirlər ki, şəhər ağlı alandı,
Parlaqlığın ürəklərə salandı,
Yurdun eşqi sinələrdə qalandı,
Mən bu eşqi səndə duydum, Tağayım,
Mehrini də qəlbə qoydum, Tağayım.

Sevda dolu günlərimiz ötüşdü,
Könlümüzə gah sevinc gah, qəm düşdü,
Hər anı da başa vurmaq bir işdi,
İşlərimiz çox dolaşdı, Tağayım,
Hicran gəlib başdan aşdı, Tağayım.

Sevdiklərim çox etdilər naz mənə,
Dərdləri bol, sevincləri az mənə,
Qəlbim oldu simi qırıq saz mənə,
Mən bunları sadaladım, Tağayım,
Yaddaşında qalsın adın, Tağayım.

Yaltağlığı, məddahlığı aldılar,
Bir dəb kimi kitablara saldılar,
Ürəklərdə bu adla da qaldılar,
Hər düz sözün xeyrinə çıx, Tağayım,
Təmizliyin seyrinə çıx, Tağayım.

Saldım sənin pak adını kitaba,
Sığışasan haqq tarixlə hesaba,
Zaman bənzər ət doğrayan qəssaba,
Bu ömrümü alıb kəsər, Tağayım,
Mən gedərəm, qalar əsər, Tağayım.

Yolun gedib gələnlərə astana,
İltifat et şagirdinə, ustana,
Çevirdim ki, pak adını dastana,
Bir sənə də qiymət olsun, Tağayım,
Qoy adına hörmət olsun, Tağayım.

Dədə yurdum, atamın od ocağı,
Aç balana ana kimi qucağı,
Göstərməsin Tanrı sənə qəm dağı,
Nağıllaşan, sehirləşən, Tağayım,
Xəyallaşan, seyirləşən, Tağayım.

Bir gələydim, dolanaydım boynuna,
Sığınaydım doğma, isti qoynuna,
Qatışaydım mən uşaqlı oynuna,
Bağ-bağçadan gül üzəydim, Tağayım,
Tellərimə bir düzəydim, Tağayım.

Gəl söyləmə oxumurlar şeiri,
Şeir olub ağılımın seyiri,
Çox deyirlər nədir mənə xeyiri?
Xeyirimi güdməmişəm, Tağayım,
Heç dalınca getməmişəm, Tağayım.

Ömür-günün keçib cana rişəsi,
Uzun yolda ya qəmi, ya nəş‘əsi,
İstəyinin qəlbə girib tişəsi,
Ötənləri qoymur yatsın, Tağayım,
Kədərinin adı batsın, Tağayım.

Sinəmdəki acılarım selləndi,
Yellənçəktək ruhi-canım yelləndi,
Xəyallarım birər-birər dilləndi,
Dərd alanda ürəyimi, Tağayım,
Doğdu ilham mələyimi, Tağayım.

Yeddi qurşaq göylərini çalanda,
Buludların qovub yerin alanda,
Gilavarın ovqatında qalanda,
Mehlərini oxşayardı, Tağayım,
Füsnükarlıq baxşa yardı, Tağayım.

Sevda yolun çəməninin içiydi,
Uşaq könlüm bir dəlicə keçiydi,
Zamanımın yaman biçə-biçiydi,
Ocağında keçdi ömür, Tağayım,
Doğumumuz haqdan əmir, Tağayım.

İndi səni yuxularda gəzirəm,
Ayrılıqla ürəyimi üzürəm,
Yenə, Vallah, bu tağda mən dözürəm,
Saralıram həsrətindən, Tağayım,
Ayrı olmaz can bətnindən, Tağayım.

Sənlə olan ötən ömür yaz mənə,
Sənsiz keçən bu günlər ayaz mənə,
Nə dərdin var götür məktub yaz mənə...
Ocaq çatım ürəyimdə, Tağayım,
Kükrəsin təb mələyim də, Tağayım.

Şadimanın atəşindən odlaşıb,
Ayrı düşüb, demə sənə yadlaşıb,
Məhəbbətin həsrətindən dadlaşıb,
Haqqa duam, təmiz havam, Tağayım,
Elim-arxam, yurdum-yuvam, Tağayım.

26. 01. 2002 – 08. 03 2006.

AĞI-DASTAN

20 YANVAR 1990-ci il şəhidlərinin müqəddəs ruhuna…

Sinəsi yara, Bakı,
Yaxdılar qara, Bakı,
Yağının fitvasıyla
Qarışdı ara, Bakı.

Didilən canlarım oy!
Tökülən qanlarım oy!

Başım, qollarım hanı?
Axır köksümün qanı,
Qana susayan yağı,
Sən verdin, aldın canı?

Bağlanan yollarım oy!
Zəncirli qollarım oy!

İgidim ölmə dayan,
Bağlı gözün aç, oyan,
Çərxin tərsə çevrilsin,
Bizi bu günə qoyan.

Lay-divar nərlərim oy!
Qeyrətli ərlərim oy!

Yağı canın üzülsün,
Bəxt ulduzun süzülsün,
Bağrıma dəyən güllə
Ürəyinə düzülsün.

Sussuz dodaqlarım oy!
Sinədə dağlarım oy!

Lənkəranda ölən mərd,
Üzdü bizi şivən, dərd,
Qara geyib gələrdim…
Kəsib yolları namərd.

Dağılan sinələr oy!
Uçulan binələr oy!

Qalanın yolu bağlı,
Qalmışam qolu bağlı,
Gəlməyə yağı qoymur,
Yol güllə dolu, bağlı.

Binədə şəhidim oy!
Əyilməz igidim oy!

Dilimi bağladılar,
Sinəmi dağladılar,
Arxamca gülənlərim
Üzümə ağladılar.

Torpağa düşənim oy!
Qanında bişənim oy!

Haqqımı min yol dedim,
Vətəndən hara gedim?
Qanun-höküm yağıda,
Kimə şikayət edim?

Ay şəhid cavanım oy!
Batırılan qanım oy!

Məzarsız qalan, şəhid,
Varlığı talan, şəhid,
Torpağında doğulub
Torpaqdan olan, şəhid.

Bəxtsiz igidlərim oy!
İtgin şəhidlərim oy!

Maştağa qana batıb,
Orda bir şəhid yatıb,
Tanrı qanı görmədi,
Dünyanın axrı çatıb.

Yollarda ölənim oy!
Yüzə bölünənim oy!

İstəklim güllələndi,
Köksü qana bələndi,
Ahımdan fələyin də,
Gözündən qan ələndi.

Nakam solanlarım oy!
Şəhid olanlarım oy!

Yatağın buza döndü,
Talesiz qıza döndü,
Ömrün yağı əlində
Sönən ulduza döndü.

İgid, qorxmaz ərim oy!
Didilən hünərim oy!

Bu sinəmi qəm yarar,
Gözlərimsə haqq arar,
Şəhid atasın balam
Ömrü boyu axtarar…

Əsir qalalarım oy!
Yetim balalarım oy!

Torpağa düşən, bacım,
Canla əlləşən, bacım,
Şəhid sinən didilib
Yuyulmur nə‘şin bacım.

Qanlı köynəklərim oy!
Ölən diləklərim oy!

Nə’şimi tanklar üyüb,
Can üstə min yol söyüb,
Məhkumam döymə, yağı,
Məni öz bəxtim döyüb.

Tək ayaq məzarım oy!
Bu qanlı gülzarım oy!

Qara yanvar nə nəhsdi?
Yağı yolları kəsdi…
Əliyalın Bakımı
Öldürməyə tələsdi.

Sınan ayaqlarım oy!
Qanlı bayraqlarım oy!

Gecəmi gündüz etdim,
Zülümlə mərd böyütdüm,
Yağı tank altda əzdi,
Əcəb kamıma yetdim.

Şəhid ananlarım oy!
Ərsiz sonalarım oy!

Şəhid anam, bacım vay,
Aşdı başdan acım vay,
Kimə dil açım, Allah,
Yoxmu bir əlacım vay?

Batıbdı harayım oy!
Uçubdu sarayım oy!

Yağdı güllələr qəfil,
Bu dərdi götürməz fil,
Sən toyların qızıydın
Yasa batdın qərənfil.

Ah, qanlı güllərim oy!
Dəhşətli illərim oy!

Neftçalanı tutdular,
Sinəsin qanatdılar,
Tikəmiz boğazlarda
Haqqı-say unutdular.

Bəbəkdə sellərim oy!
Köməksiz ellərim oy!

Düşmən tələ qurubdu,
Evdə üzə durubdu,
Sinəmdən qorxan yağı
Kürəyimdən vurubdu.

Qanlı qucaqlarım oy!
Sönən ocaqlarım oy!

Ayaqlarım yox gələm,
Sınmış qollarım qələm,
Güllə başda, sinədə,
Ürək can vermir öləm.

Dayanan saatım oy!
Pozulan həyatım oy!

Yaram sürər, ağlama,
Uzun sürər, ağlama,
Örpəyi üzünə tut,
Yağı görər, ağlama.

Ağrılı ürəyim oy!
Puç olan diləyim oy!

Anam, bacım qarada,
Min güllə bir yarada,
Yağı qaldı kənarda
Biz qırıldıq arada.

Dərdli dağım, daşım oy!
Şəhid vətəndaşım oy!

Yağı çırağın sönsün,
Sinənə əcəl ensin,
Nahaq qanlar tökənin
Qanı çaylara dönsün.

Haqqsız güllənənim oy!
Əcəlsiz ölənim oy!

Allah, bu necə işdi?
Süngü sinəmi deşdi,
Bağrımdan keçən güllə,
Min yol yerin dəyişdi.

Zəncirli Vətənim oy!
Min ölüb-itənim oy!

Yağını dərd əyəydi,
Qapısın vay döyəydi,
Sənə dikilən güllə
Ürəyimə dəyəydi.

Bəxti kəm sevgilim oy!
Öz qismətim, gülüm oy!

Qəddi əyilən canım,
Bağrı üyülən canım,
Əsirlik zindanında
Haqsız döyülən canım.

Zəncirli qollarım oy!
Heysiyyatım, arım oy!

O vay sözünə qurban,
Çıxan gözünə qurban,
Bircə oğul itirən,
Özüm özünə qurban.

Sinəsi dağlarım oy!
Min yerdə ağlarım oy!

Dağ-daş nalədən dindi,
Yaralı qəlb döz indi,
Ölüm əcəl işidi,
Heyif, yağı sevindi.

Yaralı gözlərim oy!
Ağlar gündüzlərim oy!

Nahaq qanlara uyan,
Zülmün Tanrıya əyan,
Balan atasız qalsın,
Məni atasız qoyan.

Qanlı dodaqlarım oy!
Sınan budaqlarım oy!

Suraxanı, yol qanlı,
Həm sağ, həm də sol qanlı,
Düşmən atan güllədən
İgidim yarımcanlı.

Çəkilməyən dərdim oy!
Qalıb yerdə mərdim oy!

Şəhid qollarım üstə,
Ağı desin el pəstə,
Səni bu hala salan-
Ürəyimdən su istə.

Soyuq otaqlarım oy!
Qara yataqlarım oy!

Min-min güllə çapardı,
Başımı tank qopardı,
Mən səni tək qoymazdım,
Qəfil güllə apardı.

Mənsiz qalan yarım oy!
Əhdə vəfadarım oy!

Yağı köksümü diddi,
Öldürdü kama yetdi,
Yarsa mənim üstümdə
Özünü şəhid etdi.

Dünyada ğərəyim oy!
Sən mənim mələyim oy!

Bu güllə hardan yağır?
Tökülür ağır-ağır.
Aç gözünü bax, fələk,
Parça-parçadır bağır.

Kimdən haqq diləyim oy?
Dünyada gərəyim oy!

Gəncənin yolu müşkül,
Güllə açdı qəlbdə gül…
Nahaqqı haqq eyləyən,
Qanunun başına kül.

Sönən sobalarım oy!
Dərdli obalarım oy!

Laçının yolu yağı,
Güllədir solu-sağı,
Məni Şuşamdan edən
Balan görsün yurd dağı.

Dərdli Qarabağım oy!
Pozulan növrağım oy!

Qubanın yolu bəlli,
Tanklar gəlir yüz, əlli,
Qalmısan qan içində
Yox dada yetən elli.

Qəfil fəlakətim oy!
Əsir məmləkətim oy!

Belə əsmə qəm yeli,
Tutub zülüm qan eli,
Gülləni yağdıranın
Haqdan kəsilsin əli.

Bağrımı paralar oy!
Dərd məni qaralar oy!

Xankəndinə tank çapar,
İçimizə qəm yapar,
Qanımızı tökəni
Əzrayıl, özün apar.

Qurda yem canlarım oy!
Günahsız qanlarım oy!

Dilim lal, ürəyim qor,
Qanun, höküm əldə zor,
Günümüzü tar edən
Görən gözün olsun kor.

Bükülən dizlərim oy!
Boğulan sözlərim oy!

Göyçənin bağrı qandı,
İnsaf, mərifət yandı,
İmperiya əliylə
İrəvan Yeravandı.

Hanı igid ordum oy?
Əldən gedir yurdum oy!

Ağdərəni tutdular,
Spitakı ucaltdılar,
Bağrımdakı körpəyə
Qəfil güllə atdılar.

Evdə yananlarım oy!
Çöldə donanlarım oy!

Göyçə gölü qanlıdır,
Göyləri dumanlıdır,
Yağı əldə məzarlar,
Necə ah-amanlıdır.

Ağır müsibətim oy!
Qanlı hekayətim oy!

Ünüm haqqa ucalsın,
Düşmən dərddən qocalsın,
Məni yurdumdan edən,
Yurdun yadlara qalsın.

Qanlı ev-eşiyim oy!
Gülləli beşiyim oy!

Naxçıvanım dardadır,
Haqq, ədalət hardadır?
Harda ki, qan tökülür
Allahsızlıq ordadır.

Ağrılı günlərim oy!
Bağlı düyünlərim oy!

Yaman gün gedər, gəlməz,
Mərd namərdə əyilməz,
Zor ilə alınan yurd
Özününki deyilməz.

Əldən gedən elim oy!
Qıfıllanmış dilim oy!

Güllə şimşəktək çaxır,
Küçədən qanlar axır…
Sən can üstə, şəhidim,
Gözüm gözünə baxır!

Gücüm çatmır sənə oy!
Düşmən daşa dönə oy!

Yağı quduzdu, yaddı,
Köksə min güllə atdı,
Əcəl olsa nə dərdim?
Öldürənim cəlladdı.

Yoxdu bir günahım oy!
Hardadı Allahım oy?!

Ağlasın kaman, neyim,
Kəsilib daha heyim,
Öz gülləmdi sinəmdə
Bu dərdi kimə deyim?

Tanklarla döyüldüm oy!
Yetiş dada öldüm oy!

Sumqayıt yolunda qan,
Bədən öldü, uçdu can,
Alimi tank altında
Yox olsun belə dövran.

Kağızım, qələmim oy!
Qaralan aləmim oy!

Sumqayıtı çaldılar,
Qan töküb alçaldılar,
Yurdun alimlərini
Tank altına saldılar.

Şəhid olan adım oy!
Boğulan fəryadım oy!

Hava şaxta, soyuqdu,
Qəlb güllədən oyuqdu,
Allahın günahı yox,
Yuxarıdan buyruqdu.

Qanla dolu küçəm oy!
Ay imkansız gecəm oy!

Qurda ümid əbəsdi,
Haqsızlıq haqqı kəsdi!
Şirinxanım bir bülbül…
Çırpındığı qəfəsdi.

Ölən həqiqətim oy!
Didərgin millətim oy!!!

26.01.1991-27.10.1991

BURDAN BİR ATLI KEÇDİ

Ahıl vaxtında yurd-yuvasından məcburən qovulmuş, Xızıya pənah gətirmiş və yurd xiffətindən dərdə düşüb vəfat etmiş dağ cüssəli Vəliyev Qasım Hüseyn oğlunun müqəddəs ruhuna!..

I

Burdan bir atlı keçdi…
Dona çayından içdi,
Bağçasında, bağında,
Əkdiyini yad biçdi!..

***

Aman, Lələvər dağı, ellərin cəmi,
Harda ocaq saldı, haraya düşdü?
Yurdların bir olan, gur olan dəmi
Fitnəyə, fe'lə, qaraya düşdü.

*

Niyə Nuh gəmisi gəlmədi Qafa?
Yurdlar sahibinə etmədi vəfa,
Millət cəfa çəkdi, yad gördü səfa,
Köçhəköç, qaçhaqaç araya düşdü.

*

Tarix unudarmı o qanlı çağı?
Dərddən ürəklərin əridi yağı,
Düşmənin vurduğu o sinə dağı,
Yenə yara üstdən, yaraya düşdü.

*

İrəvan, Zəngəzur, Qaf, Göyçə talan,
İki yüz il dolaşır dünyanı yalan,
Ey Vətən, didərgin azəri balan,
Hara qovladılar, oraya düşdü?

*

Niyə içimizin sönübdü kini,
Cihada çağırır o İslam dini,
Dünyanın iblisi, şeytanı, cini,
Bizim yurd-yuvaya, saraya düşdü.

*

Sınaq yarışırmı, Allah, mərdlərə?
Qol-qanad verirsən hey namərdlərə,
Çarə arayarkən biz bu dərdlərə,
Zülüm də, ölüm də çaraya düşdü.

II

HANI AXTALA…?

Müddətdi olubsan elindən uzaq,
Necə gəzdirirsən vayı, Axtala?
Kəsibdi başının üstünü sazaq,
Qanlıdır o Dona çayı, Axtala!

*

Hanı, o dağların düzləri, hanı?
Çeşməsi çağlayan gözləri hanı?
Sönmüş ocaqların közləri hanı?
Necə unuduldu sayı, Axtala?

*

Bağında bülbülün dili kəsildi,
Sazında siminin teli kəsildi,
Türkün beli sındı, eli kəsildi,
Hanı o dağların yayı, Axtala?

*

Suyundan içdiyim o buz bulaqlar,
Atımı sürdüyüm o göy yaylaqlar,
Yağının əlində qalan oylaqlar,
Niyə eşitməyir hayı, Axtala?

*

Mənə söylədilər yurd et Xızını,
Yayın yaylaq eylə, oxşa yazını,
Dindir dərdə düşmüş teli sazını,
Vur başa hər günü, ayı, Axtala.

*

Dünya hürr deyirkən hey millətlərə,
Biz niyə tuş olduq de zillətlərə?
Bu qoca vaxtımda bu minnətlərə
Qalmadı könlümün hayı, Axtala.

*

Atla dolaşdığım gədiklər hanı?
Kabablıq etdiyim əmliklər hanı?
O haylı, haraylı şenliklər hanı?
Hanı o xoş bahar ayı, Axtala?

*

Gəzdikcə Xızıda çölü, çəməni,
Ürəyim unuda bilməyir səni,
Bilirsən, qubarın yandırır məni,
Yoxdu o yerlərin tayı, Axtala!..

***

Bu ahlar içində çırpınan qoca,
Haqqına könlündən açıbdı baca.
Fəraqı dilindən könlə yaxılır,
Köksündə elə bil şimşək çaxılır.

Bütün canı ilə titrəyir, əsir,
Ruhu o yerlərə yenə tələsir.
Bumbuz əllərində hərarət gəzir,
Allaha ömründən istəyir nəzir.
Bir də o yerləri dolaşmaq üçün,
Bu eşq alışdırır könlünün için.
Ona qərib gəlir Xızı dağları,
Unuda bilməyir ötən çağları…

III

BU PAYIZ QANLI GƏLDİ…

Bu payız qanlı gəldi,
Yaman divanlı gəldi,
Yurdundan perik düşən,
Köynəyi qanlı gəldi.

***

Min doqquz yüz səksən səkkiz-soyuq noyabır ayı,
Qalxır ərşə haray deyən anaların ah-vayı.

*

Yüz ildi ki, köçəköçdü Zəngəzurdan, Qafandan,
Ələsgərin eli Göyçə silindimi cahandan?
O gündən ki, rusların şər ayağı dəydi yurda,
Babamıza nökər olan erməni döndü qurda.
O tayqulaq Andranik də at oynatdı bir zaman,
Qonaq oldu hər mənzilə nalə, qırğın, ah-aman,
Anaların, bacıların namusu tapdalandı,
Ocaqların odu söndü, üstünə su calandı.
Məzarlığa döndü ellər bir əsirdə min kərə,
Qana döndü axan sellər, qanlı oldu hər dərə…
Vətən oğlu, sinən yansın bu ellərin ahına,
Şəhid olmuş babaların, nənələrin ruhuna –
Baş endirib, silah götür qisasını al daha,
And verirəm Yaradana qoyma qalsın sabaha.
Sən Cavanşir əzəmətli bu yurdun övladısan,
Azərbaycan dediyimiz məmləkətin adısan.
And verirəm doğulduğun bu torpağa, havaya,
Şah İsmayıl qüdrətli ol, qalx, yağıyla davaya!..

***

Min doqquz yüz səksən səkkiz, soyuq noyabır ayı,
Necə qəmli, necə miskin axırdı Dona çayı.
O Axtala yurdunun da köçəköçü baş alır,
Anaların, qarıların bəbəklərin yaş alır.
Ləlvər dağın, Çətin dağın başında duman gəzir,
Hanı haqqım, Qibləgahım, evləri aman gəzir.

Keçəlgodun, Mələkyurdun mənsiz necə olacaq?
Ermənimi o yaylağa, o oylağa dolacaq?
Köndüoğlu xəyaldadı sındırmayır vüqarın,
O ömrünün yoldaşı da gizlətməyir ah-zarın.
Deyir: «Məni bu yaşımda qəribliyə atma gəl,
Qəm yükünü, dərd yükünü sən çiynimə çatma gəl.
Məzarları erməniyə tapşırıbmı gedirik?
O imansız yağıları yerli, yurdlu edirik.»
Köndüoğlu Qasım kişi alışırdı bu dərdlə,
Necə qalsın bir obada bu yaşında namərdlə?
O Tükəzban qarı ilə keçirdiyi günləri,
Bircə anda xatırladı sazlı toy-düyünləri.
Boğazını boğdu qəhər qocalığın anladı,
Ürəyində milyon kərə öz-özünü danladı.
«Kilimə bürün, elnən sürün … -dedi, arvadına,-
Ləkə salmaz kişi olan, ey qarı, öz adına…»
Köndüoğlu Qasım kişi dildə dedi bu sözü,
İçin-için alışaraq yandı ürəkdə özü.
O sıçradı at üstünə yaraşmayan yaşıyla,
Yol üstündə əyalına gəl eylədi başıyla…
Öz evindən bir kibrit də almadı Qasım kişi,
Fikirləşdi qayıdacam gec-tez buraya əşi.
Həmişəlik getmirəm ki, öz yurdumdan kənara,
Bir az keçər sakit olar düzələr yenə ara…
Çevrilərək, baxdı bu an o Ağlağan dağına,
Sanki qandal vurdu fələk atının ayağına.
O ucaboy qamətini əydi Göyün köksünə,
Çapdı atın hikkə ilə Axtalanın əksinə...

***

Adəm oğlun, neçin verdin, Allah, yağı cahana?
Bu o günlər son köç idi yurddan Azərbaycana!…
Batmamaqçın o ellərin insanları al qana,
Azərbaycan torpağından köçdü Azərbaycana…
Qaçhaqaçda körpə öldü ananın kürəyində,
Yara açdı, o gün fələk Axtala ürəyində!

IV

AXTALA ƏFSANƏSİ

Deyirlər ki, Ayrım eli yurd çadırın quranda,
Kişiləri ova çıxıb, xatını ocaq quranda,
Dona çayı lap yaxından gurultuyla axarmış,
Sel gələndə qurduqları yurd-yuvanı yıxarmış.
Bir kişi də xatınına tapşırmış ev-eşiyi,
Mən gedirəm quş ovlayım sən, gəlin, çək keşiyi…
Bu üç oğul amanatın analıq peymanına,
Tapşırıram mən onları sənin pak imanına.

Deyib çıxır əri evdən gedir meşəyə sarı,
Paltar yuyur gəlin çayda anlar ötür gün yarı.
Uşaqlar da oynayırmış çaya yaxın talada,
Allah, necə şirin olur cana candan bala da?
Birdən sakit axan çayda sellər necə köpürür?
Sanki Dona bir əjdaha ağzından od üfürür.
Alır körpə balaları axan sellər qoynuna,
Mat qalıbmış fəryad çəkən gəlin fələk oynuna.
Xatunun «ah tala …» sözü o yurdun adı oldu,
Min il qabaq Axtalanın şəhid fəryadı oldu!…

V

KÖNDÜOĞLUNUN SIĞINDIĞI XIZIDAN YURDUNA DÖNMƏSİ

Köndüoğlu köçlə birgə uzun bir yol gedirdi…
Ürəyini yurd həsrəti parça-parça edirdi.
Sadaxlıya yetişəndə əl elədi o köçə,
Gözlərində şimşək çaxdı, qəlbi od biçə-biçə…
Dedi: «Dostum bu yaxında, bir ona baş çəkim mən,
Nə qədər ki, gecə düşmüb, bu dağlara çökmüb çən»…
Atını o Sadaxlıda tapşırdı qonağına,
Dedi:«Kişi, daş da belə dəyməsin ayağına.
İnəyim də sənə daha ərmağandı bu gündən,
Bağlayanda ip boğaza qoru onu düyündən.
Sağ, ye, halal eyləyirəm südünü də bil sənə,
Bəlkə bir də dönər oldum bu yerlərə mən yenə…
Köndüoğlu ellə birgə evini tərk edəndə,
Göz gəzdirib tövləsinə bu niskillə gedəndə,
Sanki heyvan duyuq düşmüş bu qərib köçhəköçdən,
Ərşə düşmüş mələr səsi, ahı gəlmişdi içdən…
İnək onsuz durmamışdı yiyəsinə ağlamış,
Atla birgə inəyi də, o, yedəyə bağlamış…

***

Köndüoğlu Qasım kişi gəldi Xızı elinə,
Bir neçə gün çay-çörək də heç vurmadı dilinə.
Dörd ay hələ keçməmişdi Axtalanın həsrəti,
Alışdırdı sinəsində elə dönmək niyyəti.
Dönməliyəm qoca dedi: «Erməni kimdi, bala,
Salıb məni qoca vaxtı böylə didərgin hala?..
Keçəlgodun qartalıyam, mənə enmək yaraşmaz,
Qartal ölər, hənuz ona qarışqalar daraşmaz…»
Novruz hələ gəlməmişdi, Köndüoğlu yığışdı,
O, Tükəzban qarısıyla bir maşina sığışdı.
Öncə gəldi Sadaxlıda qonağının evinə,
Gedək, qarı, kişi dedi, gərək dostum sevinə.
Dostu onu çox ürəklə qarşıladı həmən gün,

Qonağının ağrısına ürəyindən qopdu ün.
Köndüoğlun daşındırmaq istədi öz fikrindən,
Gördü qocanın ürəyi aşıb-daşır lap kindən.
Dedi: «Getmə, ermənilər öldürər səni orda,
Sən ədalət arayırsan, haqq, ədalət de harda?…»
Qasım kişi sakit-sakit qonağını dinlədi,
Qəddi-qamətin düzəldib yumruğun düyünlədi,
Hirisindən, hikkəsindən elə qanlı inlədi…
Atını və inəyini, arvadını götürdü,
Özünü bir mart səhəri Axtalaya yetirdi.

***

Ermənilər mat qalmışdı kişidəki hünərə,
Qəlblərində alqışladı bəlkə onu min kərə!..
Yer də, göy də heyran olmuş ondakı bu mərdliyə,
Qasım kişi üsyan etdi yağıda namərdliyə.
O ucaboy qamətiylə yaraşırdı atına,
Qarısıyla qovuşmuşdu Axtala həyatına…
Ermənilər doluşmuşdu boş qalan o evlərə,
Qalib-qalib baxışları bənzəyirdi divlərə.
O Novruzu öz evində keçirtdi Qasım kişi,
Əkmək oldu bağ-bostanı o yaz onun hər işi.
Səhər gəldi qovardı o Göy atını şamlığa,
Niyə gəldin kəlməsini demirdi heç bir dığa.
Çörək alıb dönərdi tez Axtalanın mərd əri,
Çiyinində qoşalülə, altındaca kəhəri…
O yay oğul nəvəsi də gəldi baba yanına,
Döndü Tükəzban qarının uşaq da həyanına.
Köndüoğlu Qasım kişi qalmaqda öz elində,
Keçəlgodu, Mələkyurdu dolaşdı at belində.
Bir gün erməni uşağı nəvəsin hədələdi,
Elə bil Köndüoğlunun başına daş ələdi,
Getdi qoca qürur ilə erməni qapısına,
Dedi: «Gəlmə sənsən dığa, oturaram yasına!
Bu oğlumun oğluna da Axtaladı yurd-ocaq,
Babalardan ərmağandı, bizimki də olacaq.»
Deyərək, o, hikkə ilə qamçı çəkdi atına,
Ermənin işlədi söz, sanki yeddi qatına.
İkiüzlü yağı hələ uşağını danladı,
Ər kişinin yanındaca onu hey yamanladı.

***

Qanıqara evə gəldi Qasım kişi o gecə,
Dilindən bir fəryad qopdu, necə oldu, el necə?
Onun Tükəzban qarısı inəyini yemləmiş,
Ocaq çatıb xörək asmış, pürrəngi çay dəmləmiş.
Ermənin dərsin verdim dedi, o, arvadına,
Sədr olan vaxtı düşdü qocanın tez yadına…
Ermənilər bir zamanlar əl-ayaqda işləmiş,
Süfrəmizə qonaq olub çörəyimdən dişləmiş…

Kişi olub it uşağı, bilmirəm nə zamandan?
Qorumadıq bir-birini yüz ildi ah-amandan.
Deyərək, o qürur ilə əlini istilədi,
Ürəyində ocağına Allahdan haqq dilədi…

***

Payız gəldi Köndüoğlu başı işə qarışdı,
Mer-meyvəsi doldu-daşdı, bağ-bağatla yarışdı.
Kartofunu, soğanını yığdığca hey daşırdı,
Bir səhər də nəvəsiylə bostanda dolaşırdı…
Səsə döndü darvazaya bir maşın gördü kişi,
Dünya görmüş qoca qartal anladı bu gəlişi.
Boris idi Şamlıqdakı tanışlarından biri,
Gələn kimi bəyan etdi ürəyindəki sirri.
Dedi: « Qoca, saqqalılar dolubdu kənd-kəsəyə,
Bolünürlər hər küçədə onlar neçə hissəyə.
İstəmirəm colma-cocuq ürəyinə hey dəyə,
Bir sürüdü qırılmışlar nə ev tutur, nə pəyə.
Qasım kişi, kəsdiyimiz o çörəyin eşqinə,
Məzhəb haqqı, biz də qaldıq nə zamandan pis günə…
Başımıza kəndir salıb sürüyür it uşağı,
Dilimizi tərpədəndə bizə vurur qəlb dağı.
Heç bilmirik hardan gəlib töklüşüblər buraya?…
Qan-qırğını salıb yenə qırılmışlar araya.
Məzhəb haqqı, sağ erməni olmayaydı dunyada,
Nə siz, nə biz düşməyəydik bir bu qədər fəryada!..
Elin köçüb, sən burada neyləyərsən yetənə?
Künc-bucaqda, ya meşədə, kol dibində bitənə.»
Məğrur qoca qürur ilə uca dağlara baxdı,
Ləngi-Teymur qalasında seyrək şimşəklər çaxdı.
Şeypurxanın başı üstü dumanlara büründü,
Qara bulud o qalanın kölgəsiylə sürüdü…
Köndüoğlu ermənіyə döndərərək üzünü,
Qəzəb doğan hiddət ilə söylədi son sözünü.
Yığışdırın hər neyim var doldurun siz maşina,
Allah özü düçar etsin ömrünüzü qışına.
Tarixlər də şahid buna bu yerlərin oğluyam,
Bu dağların sərkərdəsi, mən binadan dağlıyam.
Allahımız əlac etsin bu yurdların ahına,
Tapşırıram yurd-yuvamı məzarların ruhuna…!

VI
KÖNDÜOĞLUNUN YENİDƏN XIZIYA DÖNMƏSİ

Köndüoğlu qayıdaraq gəldi Xızı elinə,
Bel götürdü bu yaşında o yenidən əlinə.
Bir ev tikdi, o, Tükəzban qarısıyla özünə,

«Bizimlə qal dədə» deyən oğul-uşaq sözünə,
Qulaq belə asmadı heç dağdan uca bu qoca,
El içində uca oldu, başı zirvətək uca.
Hey evinin eyvanından baxdı bomboz dağlara,
Uçdu xəyal atı yenə Axtalalı çağlara,
Yurd həsrəti birdən-birə parçaladı köksünü…
Tapmadı, o, təzə yurdda o yerlərin əksini.
O gəzdiyi Kəçəlgodu gördü qoca yuxuda,
Alışdırdı ürəyini ocaq odu, qoxuda.
İsitmədi vücudunu bu təzəcə binəsi,
Kədər verdi evi ona, yandı ahla sinəsi.
Əydi uca qamətini o yerlərin xiffəti,
Dərdli idi özü kimi can yoldaşı, afəti.

***

Köndüoğlu Qasım kişi hər gün solub saralırdı,
Uzaqlara dikir gözün, yaman qanı qaralırdı.
Xızı ona verməyirdi o yerlərin heç dadını,
İçdə boğdu qoca qartal qəribliyin fəryadını.
Qürbətlərin şəkəri də zəhər kimi acı olur,
Doğulduğu ocağında kişi yurdun tacı olur.
Köndüoğlu baxışlardan duydu qərib olduğunu,
Hiss elədi payızlartək yarpaq töküb solduğunu…
Ayrım eli Axtalada doğulmuşdu, canı orda,
Necə təkan versin ağlı içindəki yatmış qurda?!
Haqq bilməyən yağılara necə sübut eyləsin, o?
Haqq arayan bu dünyaya haqsızlığı söyləsin, o.
Hey üzüldü ayrılığın dağdan ağır əzabından,
Qırılırdı ömür simi tale adlı rübabından.
Köndüoğlu Qasım kişi yatağına düşdü xəstə,
Dağdan ağır vüqarıyla, gidi dünya, o, can üstə…
Nə loğmanlar, nə təbiblər tapmadılar dərdə çarə,
Köksü üstə yurd ağrısı şişdi qəmdən, açdı yarə.
Vida dedi, Qasım kişi yaxınına, uzağına,
Qərib ömrü söndü şamtək qürbətlərin sazağına.
Əbədilik yümdu gözün bu dünyanın zülmünə,
Qurtulmaqçın iztirabdan o qovuşdu ölümünə!
Ruhu uçdu ər kişinin yağı əldə qalan elə,
O şərəfli həyatı mən dastan edib saldım dilə.
Son nöqtəni qoyarkən ah, bu ağrılı misralara,
Qələm məhəl qoymadı heç ürək üzən israrlara.
Köndüoğlu, ruhun bəlkə qarqışlayır yağıları,
Ya qeyibdən qulağıma gəldi hicran ağıları…

***

Burdan Göy atlı keçdi,
Atı qanadlı keçdi,
Elindən ayrı düşən,
Hicran əkdi, qəm biçdi.

*

Bu ayrılıq keçəydi,
Haqqın yolun seçəydi,
Eli dərdə salanlar,
Qəm əkib, dərd biçəydi.

*

Atımın yalına bax,
Didərgin halına bax,
Yurdum yağı əlində
Elimin halına bax.

*

Həsrətəm Göy atıma,
Bəxtəvər büsatıma,
Bu müxənnət qonşular,
Qəm qatdı həyatıma.

*

Eləmi, Lələvər dağı,
Yağı, həmənki yağı?
Ruhum gələndə ora,
Ayrılıqdan de ağı.

*

Ləngi-Teymur qalası,
Yurdumun Axtalası,
Keçəlgoda çatdırın,
Öldü igid balası.

*

Axtala gündüzləri,
Ey igidsiz düzləri,
Qürbətdə ölənlərin,
Qaldı qərib sözləri.

*

Baxma qoca yaşıma,
Nələr çəkmiş başıma,
Öldüm ki, ruhum uçsun,
Yurduma, dam-daşıma…

*

Dərd var ki, bölən var,
Dərd var ki, biləni var,
Axtalaya deyin ki,
Xızıda öləni var!..

07-08.04.1998

DÜKAN ADAMIN HEKƏYƏTİ

Dünəndən üzü dönən hava şaxta içində,
Dondurur evsizləri, yoxsulları içində.
Günəş gah küsüb qaçır, gah da üzün göstərir,
Xəzri cana işləyir, adamın köksün gərir.
İlikləri göynədir soyuq noyabr ayı,
Küçədən bir səs gəlir, zəif, qalmayıb hayı.
Canlı yeriyən dükan ağır çanta əlində,
Sözlər titrəyir gəzir haray çəkir dilində!
Kalkotka corab deyib eşidəni üzdürür,
Bədbəxt, canlı dükanlar yükü əldə gəzdirir.
Küçə boyu qışqırır qonum-qonşu çıxmayır,
Qapıdan baş çıxarıb çölə tərəf baxmayır.
İnsanlar tapdığına munis olub evində,
Çöldə kimin nə işi havanın sərt günündə?!
Hamı çəkilib evə, küçələr bomboş qalıb,
Sanki göyə, yerə də xəzri lövbərin salıb.
Küləyin vıyıltısı bir şivənə bənzəyir,
Arabir yağan qarla yolu-izi bəzəyir.
Bu minvalla soyuqdan dükan adam keyləşir,
Səsinin yazıq halı gah inilti, gah həşir.
Xəzrinin əsməsi də sızıltıya bənzəyir,
Özün çırpır hasara daşa, divara dəyir.
Əlləri donmuş adam küçə boyu qışqırır,
Soyuğun üstə gedir, hərdən bir də asqırır.
Ümidi var corabdan, kalqotkalardan satsın,
Heç olmasa cibinə bir-iki manat atsın.
Sonra qaçsın dükana, bir isti çörək alsın,
Taqətdən düşməmkçin ağzına çörək salsın.
Küçə də amansızdı, soyuq sükuta dalmış,
Canlı dükan adamı qara xəyallar almış.
Evdəki körpələri ondan imdad istəyir,
Evini düşündükcə kədər qəddini əyir.
Küçə boyu səsinə səs verir soyuq külək,
Şaxtanın təsirindən donub daha əl, bilək.
Ayaqların dalınca sürüyərək o gedir,
İçindəki əzablar, ümidsizlik can güdür.
Bəxtini yamanlayır, İlahi, bu nə gündü?!
Boğur məni iztirab, boğazımda düyündü.
Bir hasarın küncünə sığınır o bir anlıq,
Çəkdiyi müsibəti ömrə-günə viranlıq…
Ümid edir bir Allah bəndəsi çıxar çölə,
Qəfildən qapı açıb, bir anlıq baxar çölə.
İsti çay təklif edər, alıb içərəm çayı,
Taqətim daha yoxdu qalmayıb canın hayı.
Fikirləşir bir anlıq niyə çıxdım evimdən?

Axı nə istəyirəm şaxta kəsən bu gündən?!
Küçələrin lallığı ümidlərimi qırır,
Elə bil ürəyimə dalbadal güllə vurur.
Gəlməsəydim evdəki iki uşaq nə yesin?
Boğur kişi qüruru içdən ümidsiz səsin.
Ömür-gün yoldaşım da körpələrlə çalışır,
Evin dərdi-səri də onun başından aşır.
Ümidi tək mənədi, niyə evdə oturum?
Bir günümü necə mən aclıq ilə batırım?
Bu fikirlər içində küncə sığınıb qalır,
Sanki külək yazığın dərdin içinə alır.
Bir müddət təntiyərək səsin batırır xəzri,
Şaxtanın ağrısını, sanki yatırır xəzri.
Dükan adam hasarın dibindən qalxıb durur,
Onu alan xəyalın başına qapaz vurur.
Diksinərək xəyal da qaçıb getdi uzağa,
Ürkək-ürkək boylanıb baxdı xeyli sol-sağa.
Adamlar mənzilində, osa küçədə gəzir,
Öz halı ürəyini iri addımla əzir.
Şaxtanın təsirindən itiribdi özünü,
Dil dolaşır ağızda çaş salır öz sözünü.
Dükan adam titrəyən ayaqların sürüyür,
Donub ölmək qorxusu bir an onu bürüyür.
Sahibsiz it uzaqdan baxır ona hirslə,
Canı da ram olubdu ürək didən bu hisslə.
Əyilir yerə daşı götürüb atsın itə,
Soyuqdan titrək əli bəs daşa necə yetə?
İt də dükan adamın gücsüzlüyün hiss edir,
Çöküb quyruq bulayır, ona güzəştə gedir.
Haradan rəhim gəldi bu heyvana görəsən?!
O özü də acından deyilmi tir-tir əsən?
İki acın taleyi bir məqamda birləşir,
Bütün canlılar yəqin bu həyatla güləşir.
Qalibi öyən dünya, məğluba deyir ağı,
Doğulan gündən sönür kasıbın bəxt çırağı.

***

Könlü daş insanların bəs ruhu nə, qəlbi nə?!
Bu qədər müsibəti götürərmi qəlbinə?!
Ətrafda yoxsulların naləsi göyü yarır,
Bir tikə çörək üçün İlahiyə yalvarır.
Çəkdiyi müsibətin ağrısıyla yollaşır,
Kasıbın ömür yolu dərdlərlə aşıb daşır.

***

Dükan adam qəfildən dizi üstə oturur,
İçindəki ağrının bircə anlıq batırır.
Çökür itin önündə başına sığal çəkir,
Ümidsiz gözlərindən qanlı-qanlı yaş tökür.

Əlinin altındakı it də titrəyir əsir,
Onun da varlığını rüzgar qılınctək kəsir.
Hər ikisi ac-sussuz, qalıb küçə içində,
Dükan adam it günün var-gəl edir içində!
Çantasın yerə qoyur dərd işləyir qanına,
Soyuğun kəskinliyi çökür miskin canına.
O gömgöy dodaqlarla əllərini isidir,
Canına hopan ağrı, donan canın yasıdır.
Diliylə tumar çəkir it də soyuq çantaya,
Az qalır ki, aclığa üsyan edə, ulaya.
Heyvan yemək eşqiylə ağzını çox sulayır,
Dükan adam önündə quyruğunu bulayır.
O da titrək səsiylə itlə dərdləşir dilsiz,
Donan əllər cansızdı, sanki qalıbdı əlsiz.
Dükan adam qalxaraq davam edir yoluna,
Sanki it də acıyır onun miskin halına.
Adam gedir, it gedir, hər ikisi ac-sussuz,
Ayaqlar süründükcə, baxışdan asılıb buz…

***

Dükan adam çalışır çörək pulu tapmayır,
Halallıqla ömür edir, bir dəm yolu sapmayır.
Qapı-qapı gəzərək malın satır pul alsın,
Qazandığı paranı boş ciblərinə salsın.
Evinə çörək pulu aparsın heç olmasa,
İnsan necə var ola, canda imid qalmasa?!
Ona görə küçədə qul həyatı yaşayır,
Evinin dərd-sərini çiyinində daşıyır.
Hər günü qapılarda keçir dükan adamın,
Doğulduğu yurdumu qoyub gözündə kamın?
Şaxta qılınctək kəsir onun bu qul həyatın.
İnlədir acı bəxti göylərin yeddi qatın.
İtin də sahibi yox küçələrdə yesirdi,
Payızın əllərində hər ikisi əsirdi.
İti sahibi atmış küçəyə qatil təki,
Bəs bu dükan adama kim eyləmiş bu ərki?!
Doğulduğu Vətənmi, yoxsa ata-anası?
Bəlkə ata-ana da olub canından asi.
Ömrü bu it gününə, sanki fəryad eyləyir,
Arabir əsən xəzri ahına dad eyləyir.
Dükan adam bəxtinin ağrısına bürünür,
Hər gün məhəllələrdə ilan kimi sürünür…

***

Mən də bu hekayəni qəm-qəhərlə yazmışam,
Gözümün leysanına, gürşadına azmışam.
Bir kasıbın əzabın ürəyimdən keçirtdim,
Onun fəryadlarını misralara içirtdim.
Sözlərim də könlümə qoşulub hönkürdülər,

Mənim ağrılarımı gözləriylə gördülər.
Kasıb it günündədi, it də kasıb günündə,
Hər ikisi həyatın açılmaz düyünündə!
Keçib bəxtin kəndiri boğaza, açmaq olmur,
Bəlkə bu bir yazıdı heç ondan qaçmaq olmur.
Yazını da pozuya aparmaq hünər istər,
Hər bir yoxuşu aşmaq qoluzorlu ər istər.
Ərləri də çox zaman haqsızlıqlar çökdürür,
İçlərinə sevinc yox, ağrı-acı tökdürür.
Baxa bilmir evində qadın, uşaq üzünə,
Pozulur rahatlığı yuxu getmir gözünə.
Günün bir ağrısını hekayəmə gətirdim,
Oxuyub dəyər verən, hüzuruna yetirdim.
Özünü dükan edən adama baxmaq olmur,
Yoxsulluq acısını qəlbə buraxmaq olmur.
Taleyin nəql etdiyim dükan adam göz dağı,
Ağrıdır görənləri, salır könlümə ağı.

***

Bu hekayə həqiqi həyat hekayəsidi,
Hardansa qazanc tapmaq hər kəsin qayəsidi.
Bol-bol nemətlər dolu süfrə qisməti olan,
Bil ki bu yazdıqlarım həqiqətdi, yox yalan,
Silib yağlı əlini yazdığımı aç oxu,
Bir gün sənə də dəyər həyatın aclıq oxu.
Ona görə qəlbini açıq eylə yoxsula,
Allahın mərhəməti birinci yetir qula.
Sən də dükan adamın çəkdiyini çəkərsən,
Dünyanın dili altda, sanma ki, bir şəkərsən.
Heç bir kəsin başından əskik deyil şər, qada,
Kasıb da varlı kimi insandı bu dünyada.

22.11.2016

QUZEY ELİN GÜNEY ELƏ MƏKTUBU

NƏZM HEKAYƏ

Bir məktub var, yollayıram elinə,
Ey Təbrizim, dilim doğma dilinə,
Sən bir hə de, qoşularam yelinə,
O tikanlı sərhədləri keçərəm,
Bu həsrəti ürəyimdən biçərəm.

Ərdəbildə, Urmiyada harayım,
Qalxıb ərşə qəlbimdən qəm sarayım,
Savalandan, Ərkdən keçir can hayım,
Bir biləsiz nə çəkirik bu yanda,
Siz də deyin nə var, nə yox o yanda?!

Bizi niyə ayrı saldı cəlladlar?
Yurd sevgisin hardan qanar, de yadlar?
O tay, bu tay haray çəkir övladlar,
Ocağımız ayrı yanır nə vaxtdı,
Bizi əsir salanımız xoşbaxtdı.

Bu tərəfdə Rübabənin segahı,
Ağlar qoyub həm gecəni, sabahı,
Bu ayrılıq heç oyatmır Allahı,
Yaraları könlümüzdən qopara,
Bu niskili sinəmizdən apara.

Diləkçəmin sətri qəmlə doludu,
Haqq yolunda Babəklərin uludu,
Dibdən düşən Nəsiminin qoludu,
Səttərxanın, Pişəvərin hardadı?
De olara, Vətən yenə dardadı!..

Xərcləyirlər bizi çirkli pul təki,
Ağladırlar qolu bağlı qul təki,
Bir ağrı var keçir gedir yol təki,
Şəhriyarın misrasından boylanır,
Ey Güneyim, canda nə var, oylanır!..

Heydərbaba Şəhriyara gəl dedi,
Qırılıbdı əlimizdən əl dedi,
Ayrılıbdı bir Arazla el dedi,
Mən də onun səsinə səs qatıram,
Demə Vətən, başı atıb, yatıram!...

Ağrın heç vaxt itib getmir sinəmdən,
Gözlərimdə sel azalmır heç nəmdən,
Baş çıxarmır kağız, qələm aləmdən,
Hansı əllər bizə imza atıbdı?
Başımızı qardaşlıqla qatıbdı…

Mən istərəm Təbrizimdə dolaşım,
Külək əssin, toz-torpağa bulaşım,
Əlim yetməz yurdlar ilə ulaşım,
Vətən eşqi çox şirindi ürəkdə,
Asılıbdı şanı təki diləkdə!

Dərbəndimdən qolun açıb gəlir qış,
Nə zamandı yurd-yuvada gülür qış,
Bizim üçün niyə belə ölür qış?!
Donduracaq ayrılığın sazağı,
Görməyirik burnumuzdan uzağı.

Hələ gəncəm, arzularım böyükdür,
Həsrətlərin ürəyimə lap yükdür,
Tükənibdi, səbirimiz bir tükdür,
Çəkə bilmir ağılımız bu dağı,
Kəsiləydi yurddan yağı ayağı…

Deyirlər ki, xoşbəxt olub yurdumuz,
Deyirlər ki, vardır şanlı ordumuz,
Harda itib, harda batıb Qurdumuz?!
Məmləkəti çək-çevirə salıblar,
Əlimizdən nəyimiz var alıblar.

Vətən dərdi ürəyimdə yaradı,
Kağızlarda yazılanlar qaradı,
Niyə bizim yolumuz ah-zaradı?!
Bir biləsən nə çəkirik Güneyim,
Bədənimdə sızıldayır can neyim.

Bardaş qurub içimizdə ayrılıq,
Yoldaş olub köçümüzdə ayrılıq,
Durub baxır suçumuzda ayrılıq,
Yurd neyləsin, qoruyanı olmasa?
Ürəyinə sarıyanı olmasa?

Şah Xətayi, gorun yaman çatlayır,
Cavad xanın qəbirində partlayır,
Yağı yaman dizimizi qatlayır,
O yan, bu yan deyib haray salırıq,
Cavabını məktublardan alırıq.

«İrəvanda xal qalmadı, deyirlər,
Xalq mahnısı deyib adın öyürlər,
Bu söz ilə xalqın adın əyirlər,
İrəvanın xanı gəlib yuxuma,
Deyir xanı xal eyləyib, oxuma.

Bir göyərçin bəsləmişəm nə vaxtdı,
Onu qəmdən həsləmişəm nə vaxtdı,
Niskilini süsləmişəm nə vaxtdı,
Ayağına diləkçəmi bağlaram,
Yetirməsə o tayıma, ağlaram.

Deyirlər ki, Ərkqalası dumandı,
Üzün tutub buludlar nə zamandı,
Təbim coşub misralarım ümmandı,
Sətir-sətir hüzuruna yollaram,
Hər sətirin sonun ahla qollaram.

O tayımda Şəhriyarım var olsun,
Gözəl günlər taleyinə yar olsun,
Sərhəndinə mənim dərdim car olsun,
Deyin, qızı Vətən deyib, ağlayır,
Sinəsində Azərbaycan çağlayır.

Bütövləşə bilməriksə, ölərik,
Bütövləşsək, ömrü boyu gülərik,
O niskilli gözlərdən nəm silərik,
Arazımız ayrılığa görk oldu,
Döyüşlərin nişangahı Ərk oldu!

Bura gözü yaşlıların Vətəni,
Bura bağrı daşlıların Vətəni,
Yar deyərək, basdıq bağra yetəni…
Əhvalımız gündən-günə qaradı,
Ürəyimdə sağ yerim de, haradı?!

Arazının gur suları qırmızı,
Yağı yaxdı böhtan bizə qırmızı,
Yad edirlər könlümüzə yarmızı,
Bu talanan Vətəndən bir yurd edək,
Ağlımızın dovşanların – Qurd edək.

Özüm billəm nə çəkirəm sinəmdə,
Bu ağrıya dözmür daha sinəm də,
Bu yurd təki tapmaz kimsə aləmdə,
Ağrıların daşıyırıq yük təki,
Asılıbdı könlümüzdən tük təki.

Bir simim var ürəyimdə sızlayır,
Dərdi qalxıb Şahdağına, nazlayır,
Ocağında min bir niskil yazlayır,
Əgər düzsəm misralara, ağlarsan,
Hönkürtünlə ürəkləri dağlarsan.

Deyirlər ki, Təbriz üstü buluddu,
Ayrılığı kökün atan palıddı,
Səsi batmış Vətən, sanki bir uddu,
Hıçqırtısı mizrab üstə köklənib,
Niyə mənim yurdum, elim təklənib?

O tikanlı sərhədlərdən hay gəlir,
Bəbəklərdən axan yaşlar çay gəlir,
Qulağıma nisgil dolu vay gəlir,
Bu vayımı Şəhriyara söyləyin,
Ayrılığın ürəyin qan eyləyin.

Quzeyliyəm, dərdim daşdan ələnir,
Gözdə qəmim keçib yaşdan ələnir,
Ürəklərə ağrı başdan ələnir,
Əhvalımın sorun halın bədəndən,
Bu başımı gəlin alın bədəndən.

Çünki mənə ondan gəlir ağrılar,
Vətən eşqli candan gəlir ağrılar,
Bilən bilir qandan gəlir ağrılar,
Qanımızda gəl coşduraq qeyrəti,
Salaq bütün küllü-ərzə heyrəti.

Aşıqların saz götürüb çalsınlar,
O tay, bu tay səslərini salsınlar,
Ürəymizi qoy bir qədər alsınlar,
Bilmək olmaz, dünya özü bir boxça,
Boxçasından qəm çıxara, dərd açа.

Güney elim, şad sorağın şirindi,
Dağ-düyünlər köksündədir sirindi,
Pöhrə güllər, yal-yamaclar dirindi,
Dəvasıdır, çünki şır-şır bulaqlar,
Çox söz alıb, söz eşidib qulaqlar.

Nakam gedib sənə neçə mərd, ər də,
Başlar qalıb neçə qanlı yəhərdə,
Ay Güneyim, yaxşı dözdün hər dərdə,
Göz yaşların gülab təki əl yuyub,
Pak qoynunda bir həsrətli yurd uyub.

De, ovunsun ürək necə bu qəmlə,
Qara günlü, qara ünlü ələmlə?
Çılğın ürək hesablaşmır bu dəmlə,
Sən halisən hər cür dağdan, düyündən,
Dağlar çəkən o nalədən, o ündən.

Hər ikimiz boğuluruq hicranda,
Qalmayıbdı daha taqət heç canda,
Tanınırıq kölə təki hər yanda,
Uçurt, dağıt sərhədləri uç da, gəl,
Könlüm istər yubanmadan qaç da, gəl.

Ərk qalanda Babəkindən nişan var,
Keçmişlərdən gələn ulu bir şan var,
İki yerə parçalanan bir can var,
Götür canı tellərini bağla gəl,
Hönkür-hönkür halımıza ağla gəl.

İnsan oğlu dözməz heç vaxt qandala,
İşlərimiz gedir hər gün lap dala,
Xırdalanıb, döndük qəpik bir pula,
İmperyalar hər dövürdə beləydi,
Özlərin də haqqın özü bələydi.

Ana yurdum, bu köksümdə dərd böyük,
Ürəyimdən qəm asılan ağır yük,
Könül, sanki qırılacaq nazik tük,
Kömək elə həsrətləri biz sökək,
Pak vüsala bir imarət, yurd tikək.

Ozanların, aşıqların boyladı,
Əhdü-peyman deyib səni hayladı,
Qış qışladı, yayında da yayladı,
İgidlərdir sənə neçə söz qoşan,
Pak qoynunda yüz keçilməz səd aşan.

Ey Güneyim, qurban olum daşına,
Sərt şaxtana, sazağına, qışına,
Gilə-gilə axan gözün yaşına,
Dönə-dönə mən qurbanlar kəsərdim,
Vüsal mehi olub eldə əsərdim.

Çiçəkləri göz yaşlarım sulayır,
Qanlı həsrət çöllərində ulayır,
Ələm səni çirkabına bulayır,
Bir deyən yox bu nə qüssə, bu nə ah,
Niyə sənə qəmlər verir hər sabah?

Ey Güneyim, düzlərində gözüm var,
Həsrətini tək çəkməyə dözüm var,
Görməsəm də deyiləsi sözüm var,
İçin-için yanan ürək çağlayır,
Gözlər sənin hicranından ağlayır.

Babəklərin at çapıbdı düzündə,
Ov ovlayıb, quş quşlayıb düzündə,
Çox ərənlər şahidisən özün də,
Neçin indi susub dinmir daşların?
Sakit-səssiz çatılıbdı qaşların.

Neçə igid at kişnədib dağında?
Neçə gözəl seyrə çıxıb bağında?
Tufan, boran qondu yetkin çağında,
Ey Ərkqalam, sirli dünyam ayılıb,
Gözün aydın, qorxünc yağın bayılıb.

Qanad açıb, quş oluban uçardım,
Ayaqyalın yamaclıqda qaçardım,
Şahin təki qanadımı açardım,
Qucaqlardım qarışını, düzünü,
Kaş doyunca bir görəydim üzünü.

Aman Güney, xəyalamı dalıbsan?
Qan tökülür aradamı qalıbsan?
Varlığına üşütməmi salıbsan?
Mən bilirəm, gözüm ordan uzaqdır,
Aramızda çiskin, duman, sazaqdır.

Ağır-ağır qəmlər qalxır obamdan,
Bu dərd mənə yadigardır babamdan.
Sevin yurdum, tüstü çıxır sobamdan,
Bura odlar ölkəsinin parası,
Yavaş-yavaş sağalacaq yarası.

Dağ-daşıma həsrət necə dağ çəkir,
Gecə-gündüz iztirabdan qəlb bükür,
Səhər-axşam göz yaşını hey tökür,
Səbəb həsrət, möhnət qəmi olubdu,
Düz-dərəmə mülkü-hicran dolubdu.

Obam yatır, qucağında dərdlərin,
Qubarı var, niskili var kəndlərin,
Aşılmazlar oylağıdır sədlərin,
Aşırımlarda səba yeli nəsim var,
Aman Güney, könüllərdə səsim var…

Dünya hali, qəmlər sonsuz, gün qara,
Həyat şirin, həsrət donsuz, qəlb yara,
Ellər hara, qüssə hara, qəm hara?
İnan Güney, ələm bizim deyildir,
Bu hicrandan gələn acı meyildir.

Mən yanıram için-için qəmlərə,
Ağrı-acı çəkdiyim o dəmlərə,
Göz yaşımın boyadığı nəmlərə,
Neçə dərya yığılıbsa çatmayıb,
Gözlər bir gün arxayınca yatmayıb.

Ulu Hörmüz sənə arxa olardı,
Könlü-gözü bir dünya nur alardı,
Şadlıq odla nəğməsini qalardı,
Qitə-qitə dolaşardı can yalnız,
Sabiq həsrət bir qalaydı tək, yalqız.

Aman Güney, bir sevda var ürəkdə,
İstəyirəm bircə azad diləkdə,
Gəlib düşüm yamacına küləkdə,
İlim-ilim itim sərin yaylaqda,
Sədam gəlsin neçə düzdə, oylaqda.

Şeh düşəndə otlarının üstünə,
Səba yeli qoy qarışsın al günə,
Mən də baxım ocağına, tüstünə,
Fərəhlənsin qəlb rübabım, qoy dinsin,
Saf varlığım od-alovda isinsin.

Ey Güneyim, sənə mənim sözüm var,
Belə xəyal olacaqmı mənə yar?!
Bir təsəllin bu dünyaya altun var,
Aman Güney, bu köksümün harayı,
Gəl uçurma könlümdəki sarayı.

Düşmən bağlar qollarımı qandalla,
Qapanmışam dağ-düyünə bu halla,
Kim deyər ki, bu dərdləri dur dalla,
Bağlanıbdı yaraların qapısı,
Qurulubdur, artıq ona qəm yası.

Narahatdır köksü qübar ellərim,
Zəhmətindən əli qabar ellərim,
Əməyindən almayıb bar ellərim,
Heydər babam, qızın dərddən halidir,
Həyat dərin, böyük insan alidir.

Bu zülümü, əzabı mən çəkmişəm,
El dərdini ürəyimə tökmüşəm,
Səhər-axşam göz yaşımı tökmüşəm,
Həsrət məni aparıb öz qoynuna,
Qonaq edib çıxartdığı oynuna.

Öz-özümə dərdlər çəkən olmuşam,
Bu qəmləri qəlbə tökən olmuşam,
Şitillərin bir-bir əkən olmuşam,
İnan Güney, mənim dərdim böyükdür,
Həyat dibsiz, dərdlər ona bir yükdür.

Qubarlıdır, niskillidir ellərim,
Çox mənasız gəlib keçir illərim,
Öylağımda ilan təki sellərim,
Hər daşımda, torpağımda qan izi,
Çalxalayıb nehrə təki dənizi.

Arazım da həzin-həzin ağlayır,
Pıçıltısı ürəyimi dağlayır,
Niskilləri dəstə gültək bağlayır,
Kürdən Xəzər sularına yollayır,
Ahlarını dalğaları qollayır.

Bu Vətənə yad dillilər qor olub,
Cəh-cəhləri ruhumuza zor olub,
Haqqı deyən indi gözdən kor olub,
Bəxtimizdə əsir hicran yelləri,
Batırıbdı niskillərdə elləri.

Əsillərin qara geyib, bəlalı,
Nəsillərin dağ möhnətli, məlalı,
Bütöv olsa artar yurdun calalı!
Bizim yerlər dərd üstündə doğulub,
Şadlıq burda qəm əlində boğulub.

Bulaqların gecə-gündüz qaynayır,
Düzlərində ceyran, cüyür oynayır,
Azərbaycan, dost-düşməni gəl ayır…
Həsrət məni çöllərində sürüyür,
Şad könlümü agrılara bürüyür.

Parçalanmış yurdlarımız ağlayır,
Şimə dönüb, qəlbi tel-tel bağlayır,
Ürəyimdə bir dərdim var, çağlayır,
Xan Arazın selləritək gurlaşıb,
Səbrim qalmıb, çünki zaman darlaşıb.

Şəhriyartək şairimin qəmi var,
Vərəqlərdə yazılmamış dəmi var,
Gözlərində həsrət dolu nəmi var,
Bu həsrətin şəbnəmləri qurusun,
Vüsalımız canbir olub yarısın…

Biz də bir gün birləşərik, ey Vətən,
Bir bayraqda dürləşərik, ey Vətən,
Bu amalla sirləşərik, ey Vətən,
Bunu sənə dərdli qızın söyləyir,
Paramparça bədəndə can neyləyir?!

O üzdən də kağızları üzürəm,
Sətir-sətir dərdə çarə gəzirəm,
Fərəhim yox, qolu bağlı əsirəm,
Əsirliyin tikanların qıraydıq,
Qolumuzu bir-birinə saraydıq.

Kaş o günün bizə qismət olaydı,
Bizim üçün əziz nemət olaydı,
Bu ayrılıq tarixlərdə qalaydı,
Xan Arazın üstə körpü tikəydik,
Ətrafına gül-çiçəklər əkəydik.

Bu eşq ilə misraları çözürəm,
Qələm tutub beyitlərdə gəzirəm,
Demə, Vətən, ayrılığa dözürəm,
Bu dözümün əlacına duam yox,
Birləşməsək, bir sakitcə yuvam yox.

Ağrıları misralara yetirdim,
Sapa düzüb xan Araza ötürdüm,
Bu məramla dastanımı bitirdim,
Sağlıq olsa, görüşərik, Güneyim,
Yurd-yuvanla birləşərik, Güneyim...

19.03.1980

XOCALI SOYQIRIMI

Xocalıda rus və erməni işğalçıları tərəfindən qanına qəltan olunmuş minlərlə şəhər sakininin ruhuna…

Haqqı-sayım zay oldu,
Diləklərim vay oldu,
Başım cəllad əlində
Axan qanım çay oldu…

***

Qarabağ, yarası qan sızan torpaq,
Qarabağ, yaralı hər kol, hər yarpaq.
Xalqın ölüm-qalım müqəddəratı.
Qeyrətin, namusun son hesabatı!
Ölən ərənlərin şəhid beşiyi!
Qana bələnibdi evi-eşiyi.
Millətin özünə qayıtma andı!
Qarabağ, ahınla xalqım oyandı.
Yüz ildi qan sızır torpağı, daşı,
Əsrin əvvəlinin qanlı yaddaşı.
Daşnaklar əlində sozalan torpaq,
Sızqa işığı da azalan torpaq.
Yanan yurdlarımın dərdli anası,
Azərbaycanımın əsir balası.
Qanlı imperyanın oyun meydanı,
Daha yaddaşından silmə bu anı,
Silmə ölənlərin şivən səsini,
Silmə, həyat deyən son kəlməsini.
Babam da unutdu əsrin əvvəlin,
Uzatdı gavura gül kimi əlin,
Ocağı başında yer verdi ona,
Girdi kafir yağı, girdi min dona…
Ey ürəyi yumşaq ərlər, ərənlər,
Daşnak yuvasında min qan görənlər…
Tarixdən silməyin siz bu günləri,
Çıxarılan gözlər, soyulan dəri,
Min-min kitabların əsəri olsun!
Küt qılıncımızın kəsəri olsun!
Susmasın qələmlər yazsın bu qanı,
Faş etsin dünyaya genosid anı!
Doğulan körpəyə bu öyüd olsun!
Xocalı yurduma son meyid olsun!..

-II-

Analar ağlar naçar,
Sinələr dağlar naçar,
Yurdunda doğulanlar,
Elindən hara qaçar?!..

***

Fevraldı, boz qışın əzazil çağı…
Əsrin yazılmamış qanlı varağı!
İyirmialtısı… qaranlıq gecə,
Udacaq şəhəri şəhər ölüncə..!
Hər an təhlükədə gedib-gələnlər,
Birdi, yüzdü, mindi burda ölənlər…
Sığınıb taleyin qanlı kürkünə,
Şükür edir Xocalı hər ötən günə…
Ermənilər kəsib işığın, suyun,
Qurulub bəxtinə məkirli oyun!
Düşmən uçaqları qəzəblə uçur,
Şəhərin üstündə fəlakət saçır.
Dünyanın axırı çatıb burada,
Bu yurd dərd-ələmdə, bu yurd qarada.
Ümidi qırılmış insanlar qəmgin,
Doğrayır buludlar səmanın əngin.
Tanrı da üzünü döndərmiş burdan,
Xainlər, satqınlar çıxır aradan…
Günbəgün bu yurda bir ölüm çökür,
Körpə fəryadları qəlbləri sökür.
Bunu yer-göy bilir, şəhər əsirdi,
Yağı qan tökməyə çox tələsirdi…
Çünki o Şuşanın yolunda qala,
Kürsü sahibləri yanmadı hala.
Təsəlli verdilər əsir şəhərə,
Dönmüşdü evlərdə çörək zəhərə.
Nə gedən, nə gələn var idi yurda,
Demə, qurbanlıqmış bu yurd da qurda!
Kəsilən yollardan kömək gəlməyir,
Bu nalə, bu zülüm haqqı dəlməyir.
Yaralı Xocalı imdad diləyir,
Yağısa başına güllə ələyir.
Əllər yalnız göydən aman gözləyir..!
Burda hər addımı ölüm izləyir.
Fikirlər beyində belədən-belə,
«Gələr bizimkilər, məhv olar tələ…»
Bu cür xəyallarla dayaq el-elə.
Şəhər ümidini üzməyib hələ…
Gəlinlər, qocalar, analar naçar,
Bağlanan yollardan yurd hara qaçar?!..

Anlar bir-birini gülləyə tutur,
Nə ürək dincəlir, nə gözlər yatır.
Bu mühasirədə ölüb-itən çox,
Fəryada, naləyə, aha gələn yox…
Xocalı Şuşanın ümid çırağı,
Tükənib olanı, yoxdur yarağı!
Çox evdə qatildən xəbərsiz nənni,
Sığıbdı köksünə məsum körpəni.
Kimsə eşitmədi ahı-fəğanı,
Qan oldu gecənin qara yorğanı!
Düşmənin məkirli pılanı hazır,
Bu günahsız yurda bir ölüm yazır…

-III-

Xerosima, Naqasaki başını qaldır,
Bax bu əsrin sonunda bu nə qeylü-qaldır?!
Xocalıya ruhun uçsun məhv olmuş Xatın,
Nədir bu Soyqırımında şəhid həyatın?!..
Nə Napaleon, nə də Hitler bu hökmü vermib,
Heç bir millət, var olandan, bu zülmü görmüb!
Heç bir yağı körpələrə qıymayıb, Allah,
Görən gözün, duyan köksün oymayıb, Allah.
Heç bir yurdun sinəsində bu dağ olmadı,
Bir gecədə Xocalıda heç kim qalmadı…
Zəlzələmi bu torpağın sinəsin yardı?
Selmi coşdu Xocalının qoynuna vardı?

***

Yox, yox, nə zəlzələ, nə də daşqındı,
Yuxulu Xocalı hələ çaşqındı.
Qanlı rus alayı var Xankəndində,
Min badə qaldırır daşnakla gündə.
Kafirlər, gavurlar birləşib yenə,
Salıb Xocalını bu qara günə.
Gecədi, cocuqlar, körpələr yatmış,
Əsir Xocalının axırı çatmış.
Doldu tavanlara güllə yağışı,
Heyrətdə buraxdı boranlı qışı.
Qocalar, uşaqlar qaçır küçəyə,
Ayaqlar düşürdü od gölməçəyə…
Yanır çırta-çırtla evlər, eşiklər,
İmdada möhtacdı körpə beşiklər…
Şəhərə hər yandan tanklar şığıyır,
Bu yurd varlığıyçın özün qarğıyır.
Qaçanı yollarda güllə haqlayır,
Kafirlər şikarı odla dağlayır.
Döşənib torpağa minlərlə meyid,
Yağıya gərəkmi yalvarış, öyüd?

Düşmənin əlində əsir camaat,
Qana boyanıbdı burdakı həyat.
Zinətli barmaqlar kəsilir o an,
Fışqırır başlardan, üzlərdən al qan.
Döşlərdə körpələr süngüyə keçir,
Bu gün ermənilər türk soyun biçir!..
Sinəsi yaralı qadınlar nalan,
Əcəl də, ölüm də bu yerdə yalan.
Yaralar qan tökür, yağılar güllə,
Bu qan deyiləsi deyildi dillə.

***

Ayağladın azğın yağı,
Namusumu, arımı,
Tarixlərin qan varağı,
Xocalının Soyqırımı!

*

Min illərin yaddaşında,
Qalanların göz yaşında,
Şəhidlərin başdaşında…
Xocalının Soyqırımı!

*

Tapdalanmış qeyrətimiz,
Ayaqlanmış millətimiz,
İşgəncəmiz, zillətimiz,
Xocalının Soyqırımı!

*

Yağıların kəsər dişi,
Başkəsənin haqq vərdişi,
Qanlı əlin qan gərdişi,
Xocalının Soyqırımı!

*

Əsir düşmüş birliyimiz,
Parçalanmış ərliyimiz,
Murdarlanmış pirliyimiz,
Xocalının Soyqırımı!..

***

Gecə öz yerini vermiş səhərə…
Gündüz əyləşmişdi qara kəhərə.
Bağrı qan zülmətin gülləsi susmuş,
Qaranlıq ötən gün min yol qan qusmuş!..
Allah vəhşilikdən səsini qısmış…
Günahsız gecəni boğazdan asmış.
Qara örpək geyib ağappaq səhər,
Nə ölüm, nə də qan görmüb bu təhər.
Əsir Xocalının sinəsi yanır,
Həyatın nəbzi burda dayanır.
Meyidlər çöllərə, yollara dolmuş,

Burda həqiqət də, həyat da solmuş!
Canı boğazından çıxmamış canlar…
Qırmızı lalə tək torpaqda qanlar…
Yanan Xocalının sinəsi dağlı,
Haqqın, ədalətin qapısı bağlı!..

***

Ey milli qırğına çağıranlarım,
Kürsüdən xalq deyib bağıranlarım,
Ağır saatlarım, ağır anlarım,
Erməni əlində yandı Xocalı,
Milyon il keçsə də qandı Xocalı.

*

Qucağı al qanla dolmuş analar,
Daşnak zindanında əsir sonalar,
Getdi əlimizdən namus, ismət, ar,
Xalqın sinəsinə dağdı Xocalı,
İndi yuxularda sağdı Xocalı.

*

Ağlama, Qarabağ, azəri yurdu,
Hanı ər oğullar, hanı ər ordu?
Evimdə, çölümdə yağı tor qurdu…
Tökülən qanlardan göldü Xocalı,
Cocuğlu, çağalı öldü Xocalı.

*

Allahım, İlahim, hardasan, harda?
Qalıb neçə bölgəm, elatım zorda,
Sədəlövh millətim inləyir darda,
Milli hissimizə qordu Xocalı,
Daşnak ğenosidin yordu Xocalı.

*

Özgə havasıyla yuxulayanlar,
Min nazü-neməti qoxulayanlar,
Eli ağır gündə darda qoyanlar…
Yandı diri-diri, yandı Xocalı,
Xalqın ölüm-qalım andı Xocalı!

*

Umudlu, Malıbəyli, Quşçunun malı,
Dağıldı didərgin əhli-əyalı…
Göyləri titrədir bu yurdun halı,
Qanlı Daşaltıya taydı Xocalı,
Eli satanlara vaydı Xocalı.

*

Əyilmə, ey Vətən, dik tut başını,
Tökmə gözlərindən qanlı yaşını,
Uğrunda hər şəhid vətəndaşını –
Tarixin köksünə yazdı Xocalı,
Xainin məzarın qazdı Xocalı.

*

Köksü kabab olmuş, ellərim, ağla,
Dağlarım, daşlarım, çöllərim, ağla,
Sinəsi yaralı illərim, ağla,
Süngüylə doğrandı əsir Xocalı,
Əlacsız Şuşama qəsir Xocalı!..

***

Qoca dünya, bu tarixi silmə öz yaddaşından,
Min-min qanlı sellər oldu ellərin göz yaşından…
Od püskürür yerə, göyə ürəyimin başından…
Yandı içim, yandı köksüm imdad eylə, Allahım!
Vəhşi, barbar beyinləri abad eylə, Allahım.

*

Fəqət yetər, yetər, Vətən min yerə parçalandı,
Ürəklər də, məramlar da elə hey haçalandı…
Ağır yurdlar, ağır ellər göz önündə talandı,
Xocalının müsibətin yerdə qoyma, Allahım!
Divan qurub, sən hökmü ver, qana uyma, Allahım.

*

Kərəminə sığınmışıq, Sənsən ümidgahımız,
Qara çadra geyinibdi hər gələn sabahımız,
Ərşə bülənd olub daha qan ağlayan ahımız,
Uçurt, dağıt zülüm evin qərəzinlə, Allahım!
Ölç-biç vəhşi insanlığı tərəzinlə, Allahım.

*

Millətimin sinəsində şəhid ağrı-acısı,
Yandı daşnak sitəmində min-min qardaş, bacısı,
Səbirimiz tükənibdir ürək ası, dil ası,
Parçalandı Azərbaycan bir Arazla, Allahım!
Sənə bəlli vəhşiliklər, sən tarazla, Allahım!!!..

-IV-

Yandıracaq dağ-daşı,
Yurdda hər vətəndaşı,
Qurumaz gözüm yaşı,
Xocalı qiyaməti…

*

Göylərdən qan ələyər,
Min il keçsə qədd əyər,
Dünyadan haqq diləyər,
Xocalı qiyaməti.

*

Ölən bacı, qardaşdı,
Yanan torpaqdı, daşdı,
Min-min qanlı başdaşdı…
Xocalı qiyaməti…

*

Sındı qolum, qanadım,
Yandım, Allahım, yandım,
Yağıya savaş andım,
Xocalı qiyaməti…

*

Zülümü düzdə qoyan,
Yalanın köksün oyan,
Haqqı dünyaya yayan,
Xocalı qiyaməti…

*

Fələkətlə üz-üzə,
Düşmənə qalxan, nizə,
Döndü qanlar dənizə,
Xocalı qiyaməti.

*

İntiqam, qisas deyər,
Qeyrət qapısın döyər,
Ölüncə qəlbi döyər…
Xocalı qiyaməti…

*

Yurdlar pərən-pərəndi,
Zülüm ərşə dirəndi,
Haqq haqqına ərəndi,
Xocalı qiyaməti…

*

Ağlayar kağız, qələm,
Yanar ahımdan aləm,
Əcəl can verməz öləm,
Xocalı qiyaməti…

*

Əsir yurdun fəryadı,
Yetməz Tanrıya dadı,
Soyqırımıdı adı –
Xocalı qiyaməti…

-V-

Ey rus xalqı, gözünü aç, bax bu qanlara,
Yandırılmış, parçalanmış şəhid canlara.
Tarixlərdə yer verilmib bu divanlara,
İmperyalar millətini şərəfli etmib,
Heç bir cəllad taxtı-tacı axıra yetmib.

*

Daşnakların dəyirmanı çox su apardı,
Tanrı özü bu qanlarçın tufan qopardı,
Neçə-neçə Pyotrlar atın çapardı…
Göstər mənə tacı-taxtın şərəfin, adın,
Onları da bu dünyaya gətrib rus qadın.

*

Ey rus xalqı, Yesenin əziz övladı,
Bu gün azad ölkənizdə azadlıq dadı,
Sizə-bizə yaxşı bələd faşizim adı!
Min-min ölən-itən oldu o qalmaqalda,
Yaxşı bildik nədir o vaxt zəncirlər qolda?!

*

Bakı nefti evinizdə çırağa döndü,
Faşistlərlə vuruşlarda yarağa döndü,
Vətənimin pak ürəyi sizlə döyündü…
Qanımızla, canımızla birləşdik onda,
Doğulandan ölənədək bu xalq bir donda!

*

İndi daşnak taununa yurdum gillənib,
Nə olubdu axar sellər belə lillənib?!
Andranik havalılar yenə şellənib,
Planı cızır, möhür basır o rus oğullar,
Vətənimin istiqlalın yenə boğullar.

*

Ey rus xalqı, özün ara kimdi savaşan,
Sənin, mənim silahımla həddini aşan,
Özgə yurdda vəhşi kimi gəzib dolaşan,
Oğulların hara tökür güllə yağışın?!…
Bilməliyəm, bu qanlara nədir baxışın?

*

Ey rus xalqı, sənin oğlun bu yurdu böldü,
Qarabağın axan qanı min çaydı, göldü,
Böyütdüyün qansızlarla Xocalı öldü!
Bir qiymət ver əli qana boyananlara,
Daşnakların arxasında dayananlara.

*

Para ilə vicdanları satana, lənət!
Haqqı danıb vəhşiləri tutana, lənət!
Cəlladların kölgəsində yatana, lənət!
Ey rus xalqı, şirindirsə azadlıq əgər,
Pak yolunda şəhid yurdum dünyaya dəgər!

-VI-

Düyünlənən yumruğumuz silah davaya,
Bağrımızdan püskürən od qalxsın havaya,
Qan çanağı Xankəndində çevrilsin vaya!
Qurğuşuna dönsün orda şər gözü ovsun,
Əsli-kökü olmayanı bu yurddan qovsun.

*

Ey Vətənin oğlu, qızı, gedək səngərə,
Sipər olsun yağılara hər dağ, hər dərə,
Dığaların qollarını gərək el gərə!
Gül qoxulu qızlarımız yağı əlində,
Qisas yurdun ürəyində, qisas dilində!

*

Eldən gələn el malını çalıb-çapdılar,
İki yüz il məmləkətə zülüm yapdılar,
Çoxaldılar mikrob təki, yolu sapdılar…
Yetər daha bu aldanış, verək əl-ələ,
Zəfər çalaq bu savaşdan gün doğsun elə.

*

Qalibiyyət bizimlədir, Tanrı haqqa yar,
Qisas deyib haray çəkir namus, ismət, ar,
Azərbaycan qədim yurdsa-qurd ərləri var…
Xocalının şəhid ruhu qan bu dağ-daşa,
Zəfərlə çıx savaşlardan, ey Vətən yaşa!

*

Meşələrdə donanların ruhu eşqinə,
Xocalının yanan köksü, ahı eşqinə,
Geyin bozqurd libasını, igid, əyninə,
Əyilməyən qürurunu göstər yağıya,
Son qoy Vətən torpağında vaya, ağıya!

*

Bunu sənə gözü yaşlı qız, gəlin deyir,
Min illərlə qılınc vuran sərt əlin deyir,
Azərbaycan adlı böyük bir elin deyir,
Vətənsizə nə səadət?! Vətənlə yaşa!
Qırılmalı zəncir, buxov, yol qurtuluşa!
Zəfərlə çıx savaşlardan, ey VƏTƏN, yaşa!!!

03-05.03.1992

RƏVAYƏTLƏR

QİSMƏT ALLAHDANDI

Belə nəql edirlər kasıb bir kişi,
Kotanla yer sürüb əkməkmiş işi.
Çətin güzəranla keçirərdi gün,
Yoxsulluq köksünün başında düyün.
Bir səhər kotanla yer şumlayarkən,
Sürdüyü tarlanı hey tumlayarkən,
Şum altdan bir dəmir küpə göründü,
Kişi götürməyə onu ərindi.
Ayağıyla vurub atdı kənarə,
Yenə işin gördü hey qanı qarə.
Axşam oldu kasıb döndü evinə,
Danışdı işindən arvad sevinə.
Kişi bardaş qurub süfrə başında,
Dedi: «Ağrısı çox qoca yaşın da.
Torpqda işləmək güc tələb edir,
Mənim də günlərim ömürdən gedir,
Əkdiyim ödəmir üst-başımızı,
Yoxsulluq axıdır göz yaşımızı.
Səhər tezdən yeri şumlayarkən mən,
Az qaldı kotan da çıxsın əlimdən.
Bir dəmir küpəyə ilişdi qaldı,
Güc vurdum qolumdan gücümü aldı.
Ərindim qaldırım baxım bir ona,
Vurub ayağımla atdım o yana.
Qismət Allahdandı, Allah istəsə,
Qoymaz vücudumu aclıqdan əsə.
Bacadan başıma tökər sərvəti...
Var ilə sayılır kişi hörməti.»

***

Bu vaxt qonşu arvad qapı dalında,
Sanki heç deyildi o öz halında.
Eşidib o dəmir küpə söhbətin,
Qaçdı oğurlasın özgə qismətin.
Gecəylə tarlaya üz tutub getdi,
Elə təngənəfəs küpəyə yetdi.
Açdı ağızını dəmir küpənin,
Üç zəhərli ilan ürpətdi tənin.
Tez ağzın bağladı küpənin qadın,
Batırdı içində qorxu fəryadın.
Arvad hikkə ilə küpəni aldı,
O hiylə pərisin qoynuna saldı.
Dedi: «Qonşununki fitnəsidir bu,

Bacadan ataram lap bəsidi bu.
Arvad da, kişi də qoy ölsün getsin,
Gecəykən onların işləri bitsin.
Duyub yə`qin mənim ayaq səsimi,
O çoxdan bilirdi var həvəsimi.
Tələyə salmaqmış niyyəti onun,
Ölməkdir bu gecə qiyməti onun.»
Dırmaşır kasıbın damına səssiz,
Bacanın önündə arvad çökür diz.
Açaraq küpənin ağzını bir az,
Qorxudan üzünün rəngi bəmbəyaz.
Buraxır bacadan o dəmir qabı,
Gördüyü səhnədən kəsilir tabı.
Küpədə ilanlar qızıla dönür,
Şabaştək yoxsulun başına enir.
Kasıb arvadına tutaraq üzün,
Dedi: «İlahini gördümü gözün?!
Bacadan başıma tökdü sərvəti,
Ey arvad, bil, budur Rəbbin qüvvəti.»
Qonşu tez bacaya başını saldı,
Dedi: «Qızıl mənim nə qeylü-qaldı?»
Kasıb da bacaya tərəf boylandı,
Bayaqkı söhbəti o saat andı.
Dedi: «Sənin varın burda neyləyir?
Bacadan tökülən xətrinə dəyir?
Mənim qismətimə göz dikdiyinçin,
Sənin mətləbini Rəbb etmədi çin.
Başını dürtdüyün yad baca ki, var,
Səndən alar canı havaya sovar.
Şeytan fitvasıyla nəfsinə uyma,
Axırda özünü pis günə qoyma.
Get şükürlər ilə yad et Allahı,
Üzünə xeyirə açsın sabahı.
Qismətin quludur insanın özü,
Odur ki, qismətə dikilib gözü.»

03.03.2002

ÜÇ QİSİMDƏ OLAN İNSAN

Belə söyləyirlər peyğəmbər vaxtı,
Bir kişi dilədi qızına baxtı.
Yolunun üstünə çıxsın yaxşı ər,
Bağrını üzməsin kədər, dərdi-sər.
Gün gəldi qapını kəsdi elçilər,
Yarpaqtək qızıyçın əsdi elçilər.
Bir gündə üç elçi düşdü qızına,
Üçü də çevrildi bəxt ulduzuna.
Üzüyumşaq idi kişinin bir az,
Gələn elçilərə eyləmədi naz.
Üçünə söylədi hə kəlməsini,
Xaliqə qaldırdı yazıq səsini.
Dedi: «Ey Yaradan, göstər qüdrəti,
Puç etmə, İlahi, sən xoş niyyəti.
Mənim bir qızım var onlarsa üçdü,
Üçü də bəs niyə qızımı seçdi?
Sənin rəhmin böyük mənə kömək et,
Çətin məqamdayam imdadıma yet.»
Haqdan səda gəldi, «Eşşəyi, iti,
Qızına yaxın tut addım at qəti.»
Ata balasının tutub əlindən,
Övlad istəy ilə öpdü telindən.
Tez heyvanlar olan yerə gətirdi,
Eşşəyi, iti də ora ötürdü.
Birdən, zənnlə baxdı, qızı üç oldu,
Bayaqkı əndişə, sanki puç oldu.
Kişinin ahını Yaradan gərdi,
Eşşəyi, iti də qıza döndərdi.
Ata İlahiyə şükürlər etdi,
Qızlara toy qurdu mərama yetdi...

***

Bir gün fikirləşdi kişi kədərlə,
Barışa bilmərəm mən ki, qədərlə.
Öz doğma balama həsrət qalmışam,
Özümü yamanca oda salmışam.
Adam şəkilinə düşmüş heyvanlar,
Mənim qızım kimi növrəstə canlar.
Onları balamdan ayırmaq çətin,
İndi necə bulum Tanrı qismətin?
Öz doğma qızımı görməkçin gərək,
Tərpənim bir qədər hiyləgər, zirək.
Kişi yığışaraq lap qonaq kimi,
Əvvəl bir qızına eyləyir ərki.
Qapını döyərək verir salamı,
Qəlbdə qalmamaqçın heç bala kamı,

Salamın yerinə qız donquldanır.
Kişi o dəqiqə eşşəyi anır.
İkinci gün gedir başqa qız gilə,
Zənn edir, balası üzünə gülə.
Hörmət əvəzinə o itdik görür,
O qızdan dəhşətli bir sərtlik görür...
Kişi barmağını dişləyir fəndlə,
Hiyləsi yamanca işləyir fəndlə.
Üçüncü qız gilə yığışıb gedir,
Qızının əriylə hey xoş-beş edir.
Görür qız hamilə, ağır ayaqlı,
Çox başıaşağı, ərinə bağlı.
Bir xeyli qəlb oxşar kalamdan sonra,
İsti hal-əhvaldan, salamdan sonra.
Dedi: "Yeməmişəm bir neçə zaman,
Yaxşı qarpız düşüb könlümə yaman.
Qoy qızım gətirsin qarpızı mənə,
Ey oğul, əziyyət vermərəm sənə."
Atanın istəyin eşidən qızın,
Xoş duyğu inlətdi könlünün sazın.
Enib nərdivana, çardağa qalxdı,
Ordakı tək böyük qarpıza baxdı.
Alıb qollarına düşürtdü onu,
Yeri əlçimlədi o uzun donu.
Heç nə qorxutmadı hamilə qızı,
Onun gəlişinə könüldən razı.
Gəlib o kişinin önündə durdu,
Ata tez qarpıza əlini vurdu.
"Qızım, başqasını bir gətirsənə,
Zəhmət olmazdırsa, əgər ki, sənə."
Gəlin baş endirib qalxdı yuxarı,
Üzündə bir dünya həyası, arı.
Həmənki qarpızı bir də götürdü,
Ata hüzuruna özün yetirdi.
Kişi zənnlə baxdı qızına sarı,
Duymadı üzündə böylə ah-zarı.
Duyuq düşdü, qarpız çardağda təkdi,
Qızı imtahana yamanca çəkdi.
Dedi: "Bir başqası olmazmı məgər?"
Nə qızcığaz dindi, nə də cavan ər.
Qız bir də qayıdıb qalxdı çardağa,
Utancaq görkəmdə baxdı sol, sağa.
Həmənki, qarpızı aldı əlinə,
Bir şirinlik qatdı tuti dilinə.
Atanın önünə yetirdi özün,
Örpəklə gizlətdi utancaq üzün.
Kişi riqqət ilə baxdı qızına,

Şükürsana etdi bəxt ulduzuna.
Hey, eyni qarpızı övlad üç kərə,
Hamilə, çardağdan endirdi yerə.
Dedi: “Bu qarpızı mənimçin kəsin,
Suzundan yanıram bir az tələsin.”
Ata iştahayla yedi qarpızı,
Allahdan, taledən, baladan razı.
Dedi: “Çox ucadır insanlıq adı,
Bu mənim öz balam insan övladı.
O qızlar eşşək və bir də it imiş,
Odur ki, dil acı, baş da küt imiş.
Qarışar adəmin nəsili, eyvah.
Bürüyər dünyanı bundan sonra ah.
Görünməz elənən hər səhvin ucu,
Düşər ayaqlara dünyanın tacı...”
Ata düşündü ki, səhvi düzəltsin,
Allaha yenidən dualar etsin.
Kişi əl götürdü o haqq dərgaha,
Dərgahdan bir səda gəlmədi daha...

08.03.2002

QAZİ VƏ ZİNA QADININ HEKAYƏTİ

Ey səhər, etməyək heç bircə günah,
Xeyirlə üzlərə açılsın sabah.
Səvabdan yapışsın bəşər övladı,
Olmasın cahanda körpə fəryadı,
Bütün insanların gözləri gülsün,
Dünyanın üzündən sevinc tökülsün.
İdraklar xeyirli işə can atsın,
Adəm övladını paklıq ucaltsın.
Səvaba çalışsın qoy bütün cahan,
Səvabın içində dövran etsin can.
Çünki heç bir şeydən yaranmadıq biz,
Bütün kainata Allah açıb iz...
Bu gün etdiyimiz hər bir işimiz,
Haqqın qanunuyla pis gərdişimiz,
Sorğuya, suala çəkiləcəkdir,
Əməllər ortaya töküləcəkdir.
Dünyaya gətirən bizi haqq-təla,
Onun əlindədir həm bəxt, həm bəla.
Bütün kainatı yaradan Allah,
Bəşəri yox edər çəksə bircə ah!
Xeyirdən yapışan haqqa ucalar,
Hər işdə Tanrıdan, Rəbbdən bac alar.

***

Hər xeyir əməli sanaraq uca,
Rəvayət danışdı mənə bir qoca.
Dedi, Qazi vardı bir məmləkətdə,
Tapdı xeyir işi o, bərəkətdə.
hər cümə axşamı verdi xeyirat,
O günü aclara olsun xoş həyat.
Qazanlar asıldı, süfrə açıldı,
Üzlərdən, gözlərdən şəfəq saçıldı.
Hər cümə axşamı yeyildi ehsan,
Fəqir-füqarəyə verildi xoş an.
Doydu ac qarınlar isindi canlar,
Razılıq eylədi Qaziyə onlar.
Bir cümə axşamı şər qarışan vaxt,
Bir ac yolçu döydü qapını bivaxt.
Xeyirat verilib süfrə yığılıb,
Artıq camaat da təmam dağılıb.
Qazinin əmriylə gəldi qulluqçu,
Yolçuya «gecikdin» dedi, dilucu.
Qapıdan peşiman qayıdan acın,
Kimsə ödəmədi aclıq əlacın.
Yolçu kor-peşiman qayıdıb getdi,
Qazinin bu işi Tanrıya yetdi...

***

Həmin məmləkətdə bir zina qadın,
Çoxdan batırmışdı öz təmiz adın.
Nəlayiq yollarla pul qazanardı,
Camaat pis adla onu anardı.
O bir gün faytonla keçdiyi zaman,
Yolun kənarında gördü bircə an.
Bir ana üç uşaq dayanıb durub,
O yazıq səfillər boynunu burub.
Əl açıb durublar faytona sarı,
Artıq şər qarışıb günbatan yarı.
Həmin an faytonu qadın saxlatdı,
Özünü faytondan tez yerə atdı.
Oturdub acları yanında qadın,
Tanrı dərgahında ucaltdı adın.
Götürüb evinə gəldi, onları,
Bir az qoy isinsin o ac canları.
Yedirib doydurdu hey səfilləri,
O talesizləri, o tifilləri!
Evində yer verdi aclara gecə,
Sanki mələk oldu o qadın necə.
Ötüşdü zülmətlər, gəldi xoş sabah,
Yoxsul ürəyindən yox olmuşdu ah.
O təzə pal-paltar verdi aclara,

Səadət bəxş etdi naəlaclara.
Düyünçəyə yığdı pulu, zinəti,
Artdı ac qadının min qat heyrəti?!
Dedi ki, mən bəxşiş verirəm sənə,
Ehtiyacın olsa dönərsən yenə.
Yolçular duayla tərk etdi onu,
Hər bir yaxşılığın xeyirdir sonu!...

***

Elə zaman gəldi bir fateh kimi,
Əzrayıl onların oldu hakimi.
Qazi də, qadın da dünyadan köçdü,
Torpağın üstündə dünya da köçdü!...
Sorğu-sual günü gəlib yetişdi,
Qazi cəhənnəmin içinə düşdü.
O zinalıq edən yetdi cənnətə,
Tanrının əliylə çatdı hörmətə.
Qazi sual etdi: «Günahım nədir?
İlahi bu qədər mənə zülm edir!
Mən ki, ömrüm boyu acların şamı,
Süfrəm açıq olub cümə axşamı.
O ki, zinalıqda çıxardıb adın,
Cənnətə düşməli indi o qadın?»
Gəldi İlahidən bir şahanə səs:
«Yolçunu qovduğun günah deyil bəs?
Sən heçə endirdin etdiklərini,
Boş yerə sərf etdin alın tərini.
O zinalıq edən qadınsa o gün,
Açdı bədbəxtlərin bəxtindən düyün.
O ac yetimlərə verdi varından,
Qopardı onları aclıq darından.
Səvaba yetməyin quyusu dərin...
O özü qazandı cənnətdə yerin!»
Qoca rəvayəti yetirdi sona,
Mən də qulaq asdım heyrətlə ona.
Sonra hekayəti könlümə saldım,
Tanrının hökmüylə qələmə aldım.

20.02.2000

RUZİSİNƏ ASİ OLAN KİŞİNİN RƏVAYƏTİ

Deyirlər bir kənddə çox kasıb kişi,
Odun satmaq idi gündəlik işi,
Gedərdi meşəyə yığardı şələ,
Sonra güclə, zorla atardı belə,
Şəhər bazarına gedib çatardı,
O bir abbasiyə onu satardı.

Ruzinin azlığı kasıba kədər,
Dedi: «Keçirmərəm günümü hədər.
Qoy mən bir şələmi iki eyləyim,
Bəlkə kasıblığın qəddini əyim.»
Bir səhər yollandı yenə meşəyə,
Saldı o özünü lap əndişəyə.
Bu gün iki şələ odunla getdi,
Şəhər bazarına naharda yetdi.
Çalışdı bir az çox qazansın kişi,
Yaxşı gətirmədi onun heç işi,
Lakin iki şələ bir abbas oldu,
Kasıbın ürəyi, könlü oyuldu.
Qayıdıb peşiman o yola düşdü,
Kədərdən, qüssədən, sanki büzüşdü.
Yolda bir qocayla kasıb rastlaşdı,
Hikkədən, əsəbdən qaynadı, daşdı,
Dedi: «Bir şələni eylədim iki,
Boş yerə çulladım belimə yükü.
Qazancımsa oldu yalnız bir abbas.
Qoca, ayaq saxla mənə qulaq as,
Yoxmu heç Tanrının söylə insafı?
Salır əzablara təmizi, safı.
Halal qazancımı artırmır heç vaxt,
Haramı, oğrunu eyləyir xoşbaxt.»
Qoca gülümsünüb köksün ötürdü,
O müdrik sözünü belə bitirdi.
Dedi: «Yetirərəm Rəbb dərgahına,
Bəlkə bir son qoyar sənin ahına.»
Allah elçisiydi qocanın özü,
Keçirdi Tanrının yanında sözü.
Qoca bircə anda tez gözdən itdi,
Rəbbin hüzuruna bir anda yetdi.
Ağzını açmamış pak ilahi səs,
Dedi: «Kasıb bilmir o ruzidir bəs?»
Yolda qarşılaşdı qoca kişiylə,
Bir də maraqlandı onun işiylə.
«Yenə həmən hamam, həmən tas» – dedi
Qoca ona baxıb, qulaq as dedi:
«Sənin ruzin budur - Tanrı söylədi -
Alın yazısında qazanc öylədi.»
Kişi hirislənib dedi: - qocaya -
«Daha bu Allahı salmaram saya.
Ayrı məmləkətə köçüb gedərəm,
Ordakı Allaha dua edərəm.»
Kişi gəldi evə dedi niyyətin,
Sonra yığışdırdı köçün, külfətin.
Ayrı bir diyara üz qoydu getdi,

Yolda bir varlıya o gəlib-yetdi,
Varlı karvanıyla evə gedirdi,
Sözü-söhbətiylə valeh edirdi.
Kasıbın kimliyin soranda varlı,
Gördü ki, ürəyi dərddən qubarlı.
Kasıb öz halını söylədi ona,
Dedi ki, mən daha gəlmişəm cana,
İndi də köçürəm yad məmləkətə,
Bəlkə orda yetdim bir bərəkətə.
Hamilə zənənim, bir də bax özüm,
Qalmayıb səbirim, qalmayıb dözüm.
Varlı ona dedi: «Mənə qulluq et,
Evimdə işləyib məqsədinə yet.
Həm yuvan olacaq, həm də çörəyin,
Dərddən ağrımasın daha ürəyin.
Tacirəm, zənginəm dövlətim çoxdu,
Mənimtək bu yurdda bəxtiyar yoxdu.»
Varlının mülkünə gəldi o kişi,
Daha rəvan getdi onun hər işi.
Tacir mal dalınca gedir bir müddət.
Zənənin ağrısı eyləyir şiddət.
Kasıba bir oğul doğur həmən gün,
Onların bəxtinə olur toy-düyün.
Uşaq doğulanda sınır döşəmə,
Döşəmə altında qızıl sən demə.
Qızıldan bir sıxma gizləyir kasıb,
Sonra da o yeri izləyir kasıb.
Sınmış döşəməni düzəldir bir an,
Sanki uçmayıbmış ora heç zaman.
Ay ötür, il dönür varlı da dönür,
Ayrı həvəs ilə könlü döyünür.
Deyir başqa yerə köçüb gedirəm,
Oranı özümə məkan edirəm.
İstəsən evimi sataram sənə,
Ya pul, ya da qızıl verərsən mənə,
Kasıb fikirləşir, onsuz varım yox,
Ev-eşik almağa iqtidarım yox,
Tapdığım qızılı verərəm ona,
Duyuq düşsə əgər, ziyan nə cana?
Qovar, köç-külfəti yığıb gedərəm,
Ayrı bir məkanı yuva edərəm.
Deyir: «Varlı ağa, pul yox qızıl var,
O mənim bəxtimə, taleyimə yar.
Qızıl sənin olsun, ev isə mənim,
Tale gəmisində həyat yelkənim,
Qoy üzsün zamanın dənizlərində,
Bəxt gülsün üzünə kənizlərin də.»

Varlı o kasıbdan qızılı alır,
Kasıb da varlıya bir nəzər salır.
Görür xəbərsizdi varlı yatardan,
Qurtarır könlünü kasıb da dardan.
Varlı evi satır qızılı alır,
Ayrı məmləkətdə yurd-yuva salır.
Qalır o var, sərvət kasıb kişiyə,
Oğlu, arvadıyla evə-eşiyə,
Kasıb sahib çıxır bax o zamandan,
Qurtulur ürəyi ahdan, amandan.
Deyir: «Ey bu yurdun Allahı, şükür,
Başıma fələyin cah-cəlal tökür.
O yurdda kasıblıq hey üzdü məni,
Könlümə yağdırdı çiskini, çəni.
Burdakı Allahın rəhmi böyükdür,
Ordakı Allahın zəhmi böyükdür.»
Düşünür qocanı mən tapım daha,
Çatdırsın sözümü orda Allaha.
Kasıb çox arayır qocanı tapır,
O söz köhlənini şimşəktək çapır.
Deyir: «Sözlərimi yetir sən ona,
Mən onun əlindən gəlmişdim cana.
Burda həm sərvətim, həm hörmətim var,
Pul hər çətinliyin burnunu ovar.»
Tanrı dərgahına tez yetir qoca.
Deyir: «Var yetişib dünənki aca.
Ordakı Allahdan ağzı duada,
Ötüşüb bəxtindən qüssə, dərd, qada.»
Tanrı deyir: «Yetir o kasıba sən,
Onun ruzisini mən yazmışam, mən.
Ruzisin bir abbas vermişəm onun,
Sanmasın o varı gündəlik donun.
Doğulan uşağın ruzi – pul, para,
Onunçun o kişi yetişib vara.
Ananın qarnında olarkən hələ,
Yazdım o uşağın alnına belə.
Yetir o kasıba İlahi birdir,
Talelə, qədərlə Tanrı əlbirdir.
Allahın hökmünü yadına salsın,
Uşağa yazdığım ruziylə qalsın.»
Yetişib kasıbın evinə Qoca,
Dedi: «Bəni-bəşər, Allahdı uca,
Oğluna yazılan ruzidir bu var,
Odur ki, bəxtinə sərvət olub yar.
O tək Yaradana şükürlər eylə,
Onun hüzuruna dualar söylə.
Onun əlindədir ruzinin özü,

Odur ki, doymayır bəşərin gözü.
Sənə kasıblığı o yazıb, kişi,
Sanma bu bir başqa Allahın işi.»
Kasıbın köksündən qopdu qəm ahı,
Sandı şükürlərlə min yol Allahı.
Dedi: «Rəbb, bağışla sən bu bəndəni,
Sənin hüzurunda o səhv edəni.
Oğlu da, varı da sən verdin mənə,
Odur ki, bir qulam, İlahi, sənə!»
Başına, gözünə hey döyə-döyə,
Hər gün əllərini o dikdi göyə.
Kasıb şükürlərlə çatdı mərama,
Kaş hamı yetişə arzuya, kama.
Bəşərin köksündə bitsin xoş niyyət,
Necə ki, xoş yetdi sona rəvayət.

04.05.2000

ANA LEYLƏYİN HEKAYƏSİ

olmuş əhvalat

Deyirlər ki, bir kənddə,
Tək çinarlı həyətdə,
Qoca və qarı vardı.
Onlar erkən durardı,
Qarı təndir qalardı,
İsti çörək salardı.
Bir yamyaşıl baharda,
Dopdolu bir naharda,
Qondu çinara leylək,
Könlündə varmış dilək.
Çinarın lap başında,
Budaqların qaşında,
Gözəl bir yuva tikdi,
Yuvaya saman tökdü.
Sonra üç yumurtanın,
Örtdü çör-çöplə yanın.
Qanadın gərib yatdı,
Arzuya, kama çatdı.
Az keçmədi üç bala,
Oldu leyləyə qala.
Ata leylək gələrdi,

Yeməyi tən bölərdi.
Balalarla oynaşar,
Sevincdən aşar, daşar,
Sonra uçub gedərdi,
Onları şad edərdi.
Ana leylək onları,
Bapbalaca canları,
Yedirib, içirərdi,
Qanadın keçirərdi,
Yuvanın dörd yanına,
Od dolardı canına.
Leylək qanad açanda,
Yem dalınca uçanda,
Günəş göydən baxırdı,
Sinəyə od yaxırdı.
Çinar təndirə yaxın,
Yarpaqlar axın-axın,
Təndirə meh səpirdi,
Üz-gözündən öpürdü.
Qarı inəyi sağdı,
Sonra çır-çıpı yığdı,
Təndiri alışdırdı,
Maşayla qarışdırdı.
Ana leylək uzaqdan,
Lap kəndə yaxın dağdan,
Gördü çinarın üstü,
Gah alov, gah da tüstü.
Qanad açdı yel təki,
Dağdan aşan sel təki,
Gəlib özün yetirdi,
Tamam ağlın itirdi,
Təndirə atdı özün,
Yandırdı üzün, gözün.
Qarı lap çaş-baş oldu,
Buludlar təki doldu.
Qışqırıb haray saldı,
Əlin təndirə saldı.
Yanan leyləyi tutdu,
Təndirdən çölə atdı.

Leylək isə nə vaxtdan,
Köçmüşdü bu həyatdan!
Partlamışdı ürəyi,
Puç olmuşdu diləyi.

***

Leylək elə zənn edib,
Balalar əldən gedib.
Körpələri yanıbdı,
Həyatı dayanıbdı.
Uşaqlar üçün ana,
Ürəyi yana-yana,
Ömrə dedi, əlvida!
Həyatı etdi fəda.
Balalarsa yatmışdı,
Yuxuya bal qatmışdı,
Bir azdan ata leylək,
Qorxu içində, ürkək,
Uçdu gəldi uzaqdan,
Qondu çinara bir an.
Hüzünlə baxdı, baxdı,
Gözlərindən yaş axdı...
Balaları nazladı,
Neçə gün pərvazladı.
Ata leylək onları,
Bu biçarə canları,
Böyüdərək uçurtdu,
Ata haqqını tutdu!
Bu həyətdən qaçırtdı,
Yuvanı sökdü leylək,
Uçdu, sanki bir mələk.
Ananın haqqı təki,
Yoxdur ən ağır çəki.
Ondan qurtulmaq çətin,
Ömrü bəşəriyyətin!..

12.04.2000

KAHADA ÖLÜM HÖKMÜ

Bütün yer kürəsində öz torpaqlarında
günahsız şəhid olmuşların müqəddəs ruhuna!

İki pərdəli, dörd şəkilli mənzum dram

İştirak edirlər:

Sultan kişi-60 yaşında
Fatimə ana-52 yaşında
Azərtac-onların qızı16 yaşında
Günay-onların qızı 14 yaşında
Qorqud-oğlu 18 yaşında
Suzanna-erməni qadını 45 yaşında
Boris - onun əri 50 yaşında
Digər əskər və zabitlər, gözətçilər
İlahi səs

I-Cİ PƏRD. I-ci şəkil

1 mart 1992-ci il. Bir neçə gündür ki, Xocalı şəhəri erməni işğalçıları tərəfindən darmadağın edilib. Vəhşi işğalçılar hələ də dağ-daşda, meşədə, düzənlikdə qalan yüzlərlə meyidin öz torpaqlarında dəfn olunmasına belə aman vermir. Təsadüf nəticəsində işğalçılardan canı qurtulmış Sultan kişi üç uşağı və həyat yoldaşı ilə birlikdə rast gəldikləri balaca kahada gizlənirlər.

Sübh, səhər dan yeri yenicə sökülmüş, bu zaman yaxınlıqdakı cığırdan Əskərana gedən erməni qadını Suzanna seyrək ağaclıqda bir kişinin əyilə-əıyilə quru şaxları yığdığını görür. Suzanna tələsik Əskarana üz qoyur. Bütün bunlardan xəbərsiz binəva Sultan kişi kahaya gəlir. Növbəti faciəni hələlik alın yazısı olsa, belə ağlına gətirməyərək içəri daxil olur…

Sultan kişi /qayğılı və iztirablı/

Bir az odun yığıb gətirdim sizə,
Şaxta da dayanıb yağıtək üzə.
Bura gözdən iraq, könüldən uzaq,
Dondurmamaq üçün bizləri sazaq,
Dedim çır-çırpını yığım gətirim.
Azca sıcaqlıqçın sizə yetirim.
Balaca bir ocaq qalayım gərək,
Bəlkə imdad etdi, yol açdı fələk…

Fatimə ana /gözü yaşlı və həyacanlı/

A kişi, tüstünü görər erməni,
Nə olub, a balam, qan tutub səni?
Yorğana bürünüb oturmuşuq da,
Bir az suyumuzda vardır tuluqda.
Bakıdan ümidi üzməyirəm mən,
Qarabağ göyündən çəkilər bu çən…

Azərtac /son dərəcə gözəl/

Ana, Xocalının ahı-vayları,
Qanlı çeşmələri, qanlı çayları,
Hər gecə yuxumda tufana düşür,
Bir çaylaq daşıtək həyat sürüşür…
Görürəm, Günayla məni yağılar
Tutub, ləkələnib namus, ismət, ar.
Onsuz əsirlikdən qurtulmaq çətin,
Biz qurbanı olduq ah, xəyanətin!
Doğma ocağında əsir olasan?

Günay /həyacanla /

Tanrım, aralıqda yurdsuz qalasan?
Ata, yalvarıram öldür sən bizi!
Qurtar fəlakətdən bu qəlbimizi.
Hər tərəfdə yağı qurtulmaq çətin,
Əsir düşməkdirmi sənin niyyətin?
Öldür anamı da, qoy qul olmasın,
Enib yağılara saçın yolmasın…

Qorqud /yumruqlarını hikkə ilə sıxır/

Günay nə danışır, ah, aman, Allah,
Biz qaçaq siz ölün, bu ki, lap günah.
Onsuz çörəyimiz daha qurtarıb,
Axır günlərimiz kahaya varıb,
Acından hamımız ölərik bir gün,
Bəxtimizin quşu düşüb didərgin.
Ömrümüz sərgərdan, yurd, zaman gərgin.

Sultan kişi /son dərəcə qəzəbli/

Aman, ya Rəbbim, bir az səbr ver,
Qopmasın ayağım basdığım bu yer…

Öz doğmalarımı özüm öldürüm?
Zəlil olduğumu bir də bildirim!
De, Tanrı nə deyər nahaq qanlara?
Əlimlə etdiyim bu divanlara?!
Bəs yağı əlinə düşsələr necə?
Ləkəli namusla yaşamaq becə.
Ah, nələr söyləyir dilim, İlahi?
Özün yerdə qoyma qırğını ahi!
Səbr edin, gecəni bir başa vuraq,
O qadir Allahdan bir çarə bulaq…

Fatimə ana

Nə deyim Tanrının səbri böyükdür,
Bəxtimiz havadan asılı tükdür…

Pərdə bağlanır

2-ci şəkil

Əskaran, Borisgilin evi. Suzanna şam yeməyini mizin üstünə düzə-düzə səhər gördüyü mənzərəni ərinə nəql edir.

Suzanna

A kişi, şad xəbər verəcəm sənə,
De, nə alacaqsan əvvəlcə mənə?
Bəxtimiz gətirib qazanc yeri var…

Boris /acgözlüklə/

Axçi, ay arvadım, a sevimli yar,
Bir tuluq çaxırım sənə muştuluq,
Süfrə aç, mən özüm eyləyim qulluq.
Axırları çatıb, türklər öləcək,
Vazgen özü, bir gün, bura gələcək

Suzanna /tədbirliklə/

Oğuldan, uşaqdan heç nəyimiz yox,
Bir məni saxlaya bilməyirsən tox.

Boris /əsəbli/

Arvad, bildiyini bir danışsana,
Özün öz işinə sən qarışsana.
Məzhəb haqqı məni gətirdin cana,
Nə qədər var-dövlət gərək insana?
Hələ Xocalıda yığdıqlarını,
Özgə inəklərin sağdıqlarını…
Ay qız, itirmisən sən lap arını,
Qızılı, sərvəti min bir varını,
Qoymağa yerin yox, hey ağlayırsan.

Suzanna /arxayınca/

Boris, yenə nə çox yorğalayırsan?
Yaxşı, sən öl, çıxma özündən daha,
Məzhəb haqqı, işin qalıb Allaha!
Türkün var-dövləti mənə şirindi,
Bizim ulduzumuz göydə göründü!..
Mükafat gözləyir ocağımızı,
Şad müjdə verəcək erməni qızı!

Boris /son dərəcə maraqla/

Söylə, qəlbindəki muradı anım,
Uzatma, bir danış, sən mənim canım.

Suzanna (pıçıltıyla)

Meşənin yanından keçirdim, Allah,
Gördüm kol-kosluqda türk kişisi, ah,
Əyilə-əyilə odun yığırdı,
Göydən lopa-lopa lam qar yağırdı.
O məni görmədi, canımda qorxu,
Sakitcə sivişdim, sanki bir yuxu!
Dedim, görsə məni boğar bir anda,
Şus, bunu danışma sən də hər yanda.
Özüm deyəcəyəm sabah zabitə,
Ki, ovun üstünə sakitcə yetə.
Mən var atəşindən bir an sönmərəm,
Bəxşiş verməsələr evə dönmərəm.
Gərək bəhərini əlimlə dərəm,
Bu işin bəhrəsin özüm də görəm.

Boris /hiyləgərcəsinə/

Ay arvad, gözlərin yaman itidir,
Hə, sabah gedirsən, fikrin qətidir?

Bəlkə biz işlədək onu həyətdə,
Saxlayaq heyvantək onu xəlvətdə.

Suzanna (tədbirli)

Bəlkə, heç tək deyil o türk kişisi,
Çoxdur ağaclıqda erkək, dişisi…
Ətrafdan gəlirdi ocaq iyisi.

Boris (kefi kök)

Yəqin ölüm çəkib onun da meysi,
Erkən rast gəlib sən əzrayıla,
Vallah, canı-dildən könlüm maila,
İş sənə havalə, özün bilərsən,
Əhsən, belə arvad fəhminə əhsən.

2-Cİ PƏRDƏ. 3-cü şəkil

Sübh açılır, səhər öz üzünü göstərmək üzrədir. Əskəranda erməni zabitlərinin olduqları bir mərtəbəli bina, uzaqdan sərxoş əskərlərin qəhqəhələri gəlir. Sanki onlar rus qoşunlarının köməkliyi ilə qanlar içində boğduqları Xocalının ahı-fəryadlarını bayram edirlər. Bu zaman Suzanna tələsə-tələsə özünü dəhlizə yetirir. Dəhlizin qapısında əli avtomatlı erməni əskəri dayanıb, erməni qadını onun qulağına nə isə pıçıldayır və içəri daxil olur. Gözətçi onu başqa bir əskərlə baş erməni zabitinin olduğu otağa yollayır. Suzanna qapını döyməmiş özünü içəri salır.

Suzanna /hiyləgərcəsinə/

Başımızın tacı gəlmək olarmı?

Baş zabit /təkəbbürlü/

Millət bir-birindən izin alarmı?
Erməni hardasa, orda dayağım,
Meşinli qapılar açar ayağım!
Canımla, qanımla millətə qulam,
Mən ölsəm yolumla gedəcək balam.

Suzanna /nazla/

Erməni zabiti, xoş gördük sizi,
Mən dünən tapmışam növbəti izi…
Göylərə qaldırar igidlik eli,

Axsın türkün qanı gurlatsın seli!
Bizim şöhrətimiz dünyanı aşıb,
Ayrı planeti gəzib dolaşıb.
Amerka, Fransa bizə can deyir,
Ruslar bir süfrədə bizimlə yeyir.
Sizdəki qüdrətə baş əyirəm mən,
Çəkilsin Arsaqdan çiskin, duman, çən.
Ondoqquzuncu əsr yüz əlli nəfər,
Eylədi İrandan Arsaqa səfər.
İndi yüz əlli min olmuşuq bu gün,
Sadəlövh türklərsə yurdsuz, didərgin.
Bir də xristian albanlar bizi,
Can bilir, buraxmır heç əlimizi…
Çox da onları biz saymırıq qandan,
Onlar birləşiblər bizimlə candan…
Mərhəba, erməni xalqı, bir gün də,
Şahı olacaqsan yerin, göyün də!..

Baş zabit /qəhqəhə ilə/

Axçi, ay madonna, dilin bıçaqdır,
Erməni qızları, vallah, qoçaqdır!
Millət tarixini bilməli yaxşı,
Varlığın belədir həyata baxşı…!
Gəl yüz tut, arağı vurum sənlə,
Mən bir tost deyəcəm, sən məni dinlə.

Suzanna /Özündən razı/

Mən ki, cənab zabit, əmrə müntəzir,
Könlümdə dəhşətli bir qisas gəzir.

Baş zabit / mizin üstündəki tut arağından iki qədəhə süzür./

Erməni gözəli, qədəhi götür,
Könlümə bir dürlü səadət yetir.
Gəl vuraq qədəhi qədəhə bir an,
Qoy cövlan eləsin bu hiss, həyacan …
İç, böyük xalqımın gözəl maralı,
Mələklər tərəfdən sinəm yaralı!..

/zabit Suzannanın dodaqlarından öpür…/

Suzanna

Yaralı köksünə mən özüm qurban,
Sənə müjdə verim izin ver bir an.
Söylə, mükafatım sonda nə olar?
Bu işdə bəndənə nə bəxşiş qalar?

/Baş zabit bir az kefli mizin siyirməsini çəkir, orda bir xeyli zinət əşyaları bərq vururdu, o göz oxşayan altunların içindən qızıl bir saatı əlinə alır və özü Suzannanın qoluna salır. O, təkəbbürlü/

Dünən türk qızını gəbərtdim burda,
Çəsədin tullatdım meşədə qurda!
Öncə iynə vurub, gecə kef etdim,
Kefim istəyəntək kamıma yetdim,
Qızları pak çıxır bu batmışların…
Qoynuna qoymuşdu altunun, varın.
Əvvəl danışmırdı o heç bir ağız,
İynə vuran təki bülbül oldu qız.
Demə, nişan olmuş ona keçən ay…

Suzanna /əsəbi/

Yaxşı ki, siz ona tez qurdunuz vay!

Baş zabit

Bu qızıl saatı, xeyli altunu,
İnsanın sabahı, yaşam atını,
Tökdü ayağıma, buraxım onu,
Bilmədi çatıbdı bədbəxtin sonu..!
Yalvardı toxunmum mən paklığına,
Nə qədər girdimsə çox qılığına,
Yaxın buraxmadı məni o zalım.
Basım qucağıma kamımı alım.
Yaman möhkəm olur bu türk qızları,
Namus-ar onların bəxt ulduzları.
İynə öz işini gördü bircə an,
Bir gecə qoynumda oldu gözəl can.
Zülmlə öldürdüm türkün gözəlin,
Günah özündəydi, kəsmədi dilin…
Sonra da döşlərin üzdüm yerindən,
Köksünə güllələr düzdürdüm dən-dən…

Suzanna /razılıqla qoluna baxır/

Türklər qırılmalı Arsaqdan daha,
Az qalıb o xoşbəxt, gözəl sabaha.
Dünən bir türk gördüm meşədə qəfil,
Yamanca qorxurdu yəqin ki, tifil.
Əzrayıl da yoldan məni çağırdı…
Arsaqda türk görmək necə ağırdı?
O kişi tək deyil gərək ki, orda,
Qaçıb gizləniblər o vurhavurda.

Baş zabit /qəhqəhələrlə/

Erməni qızına eşq olsun bu gün,
Qoy Stepanakerdə çatsın müjdə, ün
Xankəndini etdik stepankəndi biz,
Bu yurdla əbədi vurur qəlbimiz!..
Gedib axtararıq elə indicə,
Bilirəm, Suzanna söyləməz becə.
Özün apararsan gördüyün izə,
Göstər o yuvanı bu saat bizə.

Suzanna /qürurla/

Baş üstə, göz üstə, ey Vətən oğlu,
İlahi tək bizə veribdi ağlı…

Onlar tələsik çıxırlar, on nəfər erməni əskəri ilə yola düşürlər. Gedənlərin arasında iki nəfər muzdlu zənci, iki nəfər də rus var.

4-cü şəkil

Dolu nahar vaxtı. Sultan kişinin ailəsinin gizləndiyi kaha, Azərtac gecə gördüyü yuxunu həyacanla danışır. Kahanın bir küncündə ocaq tüstülənir, ocağın üstündə hisli qazanda su qaynayır…

Azərtac /ağlar/

Yuxuda gördüm ki, qurulub mağar,
Burada nə qədər qohum, tanış var.
Qorquda toy edir bütün el, elat,
Dava yox şadlıqla çağlayır həyat.
Mən də qol götürüb toyda süzürəm,
Sanki, yad baxanın bağrın üzürəm.

Fatimə ana /həyacanla/

De ki, axırımız çatıb bu sabah,
Özün arxa dayan bizə, ey Allah!
Ya bir ölüm yolla hamımız bataq,
Köçlə, külfət ilə kahada yataq.
Yada ki…

/Ümidsiz hönkürür. /

Sultan kişi /qəzəbli və qorxulu düşüncələr İçində/

Sus, sus, şivən salma, ay arvad, dayan,
Allaha borcluyuq bir quruca can.
Gəlsələr əlimlə qıraram sizi,
Görən olmayıbsa kim tapar bizi?

/qəlbi ilə danışır…/

Bir quş tüfəngi də yoxdu, ay Allah,
Düşmən sinəsindən qoparım min ah!
Yağının əlində topu, tankı var,
Bəli, silahsızı silahlı qovar…
Biz hələ yatmışıq fil qulağında,
Vətənin, torpağın ağır çağında.
Kürsü düşkünləri kürsüyə əsir,
Anamız, bacımız yağıya əsir…

/Bu zaman Fatimə ananın fəryadı gəlir…/

Fatimə ana /nalə ilə/

A kişi, nə getdin xəyala yenə,
Alışır nifrətdən, hiddətdən sinə.

Sultan kişi /diksinir/

Ay arvad, ağzını bağla bir hovur,
Axmaq fikirləri başından sovur.
Erməni evləri talayır indi,
Xocalı odlanıb, Allah, nə gündü?!

Bu zaman yaxınlıqda erməni, fransız, rus dillərində danışıq, kobud əskər çəkməsinin səsi gəlir…

Fatimə ana /qorxa-qorxa/

Qız, yuxun qaraya qalaydı, bala,
Bu qədər zülm olar, ey Alla-Taala!

Sultan kişi tələsik baltanı axtarır, fəqət dünən meşəlikdə salıb itirmiş…

Hardadı, baltanın yerini deyin?
Necə hiss etmədim düşüb itdiyin?

Fatimə ana /vahimə içində/

Balta avtomata nə edər kişi?
Sən də itirmisən canla gərdişi!

/bir qədər fasilə/

Bu zaman Susanna, erməni zabiti və əskərlər kahaya doluşurlar. Onların əlində ölüm saçan avtomatlar…

Baş zabit /quduzcasına/

Suzanna, gör necə ov bəxşiş mənə,
Qəhrəman adını verəcəm sənə!

Suzanna /kinli-kinli/

Əgər türklərdə də olsaydı nifrət,
Bizi məhv etməkçin tapardı cür'ət!
Yaxşı ki, onların ürəyi yumşaq,
Sanki ağılları bir körpə uşaq.
Biz pislik edirik, onlar yaxşılıq,
Bu millət əbədi niyə xoşqılıq?…
Bu türk köpəkləri qırılmalıdır,
Hər köksə min güllə vurulmalıdır.
Hansını göstərsəm birinci onu,
Doldurun gülləylə murdar qoynunu!

Baş zabit /həqarətlə/

Kişi, Xocalıdan siz qaçmısınız,
Burada nə gizli yurd açmısınız?
Ara, o dəhşətdən siz qalırsınız?
Qırıla-qırıla çoxalırsınız…
Necə itirmisiz o gecə izi?

Ölmü kor etdiniz tapmasın sizi…
Tanrıdan güclüdür bizdəki qüvvət,
Əzrayıldan aldıq sübh-səhər dəvvət.
Sizin ki, ünvanı o verib bizə,
Qanınız dönəcək, indi dənizə.
Ha, ha, ha, kim gəlsin öncə irəli?
Çıxarılsın gözü, kəsilsin əli…
Nə olsun, söylərsiz bizlərə dığa?
Erməni hakimdir, fəqət Arsağa!

Sultan kişi /qəzəbli/

Sizdəki vicdandan xəbərim vardır,
Əfsus, beyninizdə hələ bahardır.
Biz gəlmə tayfanı millət eylədik,
Yurduna çevrildi hər düz, hər gədik.
Siz ki, qoltuqlarda daldalanansız,
Vazgen havasından ilham alansız.
İrəvən bölgəsin dövlət etdiniz,
Torpaq oğurlamaq ana xəttiniz.
Savaş istəyənlər bir gün qan qusar,
O taylı, bu taylı Azərbaycan var.
Ruslara güvənib, qan tökənsiniz,
Ocaqlar söndürüb, yurd sökənsiniz…
Savaş istəyənlər birgün qan qusar,
Dövran zalımları boğazdan asar!
O taylı, bu taylı Azərbaycan var…
Qana hərisləri tutar ahı-zar!
Ölsək də yerimiz sabah min olar,
Vətən oğulları qələbə çalar!..

Baş zabit /tapançanı ona tuşlayır…/

Al, bu tapançadan açılan güllə,
Sənə, millətinə dəyərli sillə.

Sultan kişi yıxılır, Fatimə ana nalələr içində qışqırır və ərinin üstünə atılır. Üst-başı qana bulanır…

Fatimə ana / fəryadla/

Aman, Tanrı, göstər öz qüdrətini,
Silahsız bəndənə sədəqətini…

Baş zabit /qəhqəhələrlə/

Qalibin əsəbin bir anda gərmək,
Hə, nədi döşünə yatdı gəbərmək?!
Ölüm ayağında əyilmir bunlar,
Türkləri qorxutmur tökülən qanlar…

/Bu zaman Azərtac gözlənilmədən ocaqdakı qaynar suyu zabitin üzünə atır, dəhşətli türkürpədici bağırtı qopur…Rus əskəri avtomatdan bir qatar gülləni kahadakıların üstünə səpir. Təkcə Qorqud anasını qucaqlamış halda sağ qalır. Kahanı insan iniltisi bürüyür! Qorqud bir əliylə Fatimə ananın qoynundan çıxardığı düyünçəni ocağa atır, bir əliyləsə neçə gündən bəri gizlətdiyi qumbaranı gödəkçəsinin cibindən çıxarıb əskərlərə tərəf atır. Özünü itirmiş düşmən əskərləri nə zaman qumbaranın onların ayağı altında partladığını duymadılar. Yaralanmış Suzanna ocaqda yanan pullara doğru can atır… Kaha alışır… Qanlar bir-birinə qarışır, can verən insanların iniltisi kahanı titrədir…/

Suzanna /ağır yaralı/

Ah, canım, üz-gözün yəqin ki, yandı,
Sən ki, can üstəsən, qana boyandın!
Türklərin qorxusu yoxdu dünyada,
Doğra diri-diri, at yanan oda…

Baş zabit /iniltiylə/

Suzanna, kor oldum, yandı gözlərim,
Yanıb tuluq olub büs-bütün dərim.
Bu türklər puç etdi hər diləyimi,
Qızıl qan aparır bu ürəyimi…
Qırılsın, qalmasın qoy müsəlmanlar,
Dənizlərə dönsün bu axan qanlar…
(**ölür..**)

/erməni əskərləri və Suzanna artıq ölmüşdür.
Qorqudun anası, atası və bacıları da şəhid düşmüşlər, qumbaradan ağır yaralanmış Qorqud can üstə pıçıltılarla…/

Qorqud

İlahi, son nəfəs, son an, son zaman,
Qəlpə ürəyimdə, ölürəm, aman.
Əzizlər şəhidsə gözüm önündə,
Köksüm qan içində bu qara gündə!
Rəbbim, qisas aldım, qazidir adım,

Hənuz Allahıma çatdı fəryadım!
Aldın ürəyincə kamını, Qorqud,
Qayıt öz soyuna, ey qurd oğlu, qurd!..
Yatın atam, anam, mərd bacılarım,
Fəqət ləkəsizdir namusum, arım…
Qızqardaşım Günay, Azərtac uyu,
Bizi yad edəcək bu yurdun soyu!
Sabah Milli Ordu zəfər çalacaq,
Qarabağ bizimdir, bizim olacaq…
Qarabağ bizimdir…

Qana bulaşmış sinəsiylə torpağı qucaqlayır, şəhid olur. Kaha yanır və yana-yana bir-birinin ölümünə fərman verən adəm övladlarına ilahi səs gülür…ha, ha, ha…

İlahi səs /kahanın içində gurlayır/

Qırın, bir-birini vəhşi insanlar,
Yandırın, dağıdın qoy axsın qanlar…
Torpağı, ey bəşər, mən verdim sizə,
Mən həyat verirəm gecə-gündüzə.
Sonunuz ölümdür, dilsiz məzarlar,
Qalanlar ölənə məzar qazarlar.
Sizi Yaradanı unudub nədən?
Məmləkət cızırsız dağdan, dərədən.
Qoymaram çoxalsın acgöz əsliniz,
Min il, milyon ildi qandı nəsliniz.
İnsan sümüyündən daşlar yarandı,
O adəm kökünüz hey pozdu andı.
Cəbrayıl, əzrayıl mənə müntəzir,
Ölüm ucuzlaşıb əllərdə gəzir.
Sizi qırdırıram bir-birinə mən,
Məzarlar içində çürüyəcək tən…
İblis içinizdən verəcəm ehsan,
Ruhunuz deyəcək bu işə əhsən…
Uçan boşqabları, səma daşları,
Dəmir canlıları, dəmir başları,
Göndərdim neçə yol yerin tərkinə,
İnsanlıq bürünsün həya kürkünə.
Xeyri yox, qorxusu yoxdur bəşərin,
Kesib caynağına adəmlər şərin…
Dünya başdan-başa batıb günaha,
Dönün iblislikdən, yetin Allaha!..

3-7.01.1994. Pirallahı-Neft Daşları

SEVGİ VARA SATILMAZ

4 pərdəli, 8 şəkilli mənzum dram

İştirak edirlər:

Ərqaya-25 yaşında mühəndis
Altunşah-30 yaşında xüsusi dükan sahibi
Narınc xala-Altunşahın anası 60 yaşında
Süsən-18 yaşında gənc bir qız
Süsənin xəyalı-göy libasda
Nazan-22 yaşında pozğun qadın
İnci-17 yaşında pozulmuş qız
Sultan-40 yaşında heç yerdə işləməyən balıq alveri ilə varlanmış şəxs
Aypara-Sultanın həyat yoldaşı 35 yaşında
Lamiyə-qızı12 yaşında
Qadınlar, Həkimlər, Şəfqət bacıları

I PƏRDƏ. 1-ci şəkil

Hadisələr Bakıdan bir xeyli kənarda şəhər tipli böyükada qəsəbəsində cəryan edir. Səhərdir. Ərqaya bir gözdən ibarət mənzilində çay tədarükü görür. Elə bu zaman yayından çıxmış ox təki telefon cingiltisi otağa yayılır.

Ərqaya *(həyacanlı)*

Alo, alo, Süsən, danış yandı ürək,
Nə taledir yazdın mənə aman-fələk?
Ah, Allahım, böylə sükut, böylə tələş,
Sinəm üstdən asılıbdı qara bir daş.
Bilirəm ki, sonu yoxdur bu sevdanın,
Kasıb evin oğulusan, çıxsın canın.
Hardan mənim pulum-param cehiz alım?
Ürəyimcə başa varsın qoy vüsalım.
Doğub məni cocuqluqdan atdın, ana,
O gündən də, hənuz suça batdın, ana.
Uşaq evi qucağına aldı məni,
Yad əllərlə, yad dillərlə çaldı məni.
Məşəqqətlə ali məktəb bitirmişəm,
Neft çıxaran mühəndisdi indi peşəm.

Bir tərəfdən bahalığın üzü dönük,
Səadətim, sevgim, eşqim, bəxtim tünük.
Sevdiyimi kimdi mənə verən ucuz?
Köksüm yara, yara üstdən tökülür duz.
Yazılıbsa taleyimə bu qızcağaz,
Bir gün mənim ömrümə də gələcək yaz.

O telfonun dəstəyini yerinə qoyur. Dilindən tökülən ah, fəqanlarla Süsənin xəyalı gözünə görünür. Onun canı atəşlərə bürünür.

Süsənin xəyalı

Uyğularda gördüm gecə bir qatarda,
Sənin ilə oturmuşam ağ paltarda.
Sevgimizin zirvəsinə biz yüksəlib,
Əzabların, zülümlərin bağrın dəlib,
Yol gedirik paralardan qurtulmaqçın,
Pak, ayrı bir səyyarəyə atılmaqçın.
Sultan qardaş da yox idi yanımızda,
Altun duyğu, bəxtəvərlik qanımızda.
Ac-yalavac adətləri qoyub burda,
Həsrət ilə qərib-qərib baxır yurda,
Hey qaçırdıq bu dünyadan, vurhavurdan,
Bir-birilə didişmədən qırhaqırdan…

Ərqaya (çaşqın)

Ah, sevgilim, yenə gəldin səhər-səhər,
Ah, sevgilim, yenə gəldin sən bir təhər.
Xəyalların qəlbə sitəm, ələm, qəhər,
Zəhər oldu bu məhəbbət mənə, zəhər!
Telefonda pak səsin də xəyalmıdır?
Kölgələrin taleyimə vusalmıdır?
Hünərim yox qapınızı açmağa da,
Alıb səni qərib yerə qaçmağa da.
Xülyalarla sevgimizi böləsiyik,
İkimiz də bu eşq ilə öləsiyik.
Ah, Allahım, al kölgəni apar məndən,
Parçalandı köksüm nartək oldu dən-dən.

Süsənin xəyalı yox olur. Ərqaya, əsəbi, mühəndis işlədiyi neftçıxarma idarəsinə gedir.

2-ci şəkil

Dolu öynə, Sultanın qırmızı kərpicdən yapılmış qəsrəbənzər dəbdəbəli evi. Süsən və Ərqayanın eşqindən xəbər tutan Sultan bacısını evdə əsir edib, heç yerə buraxmır. O Süsəni, özü kimi pullu-paralı adama, ərə vermək istəyir. Vaxtsız ata-anasını itirmiş, Sultan balıq alveri ilə varlanmışdır. Dörd divar arasında dustaq edilmiş Süsən, qardaşı arvadı Aypara və qızı Lamiyə ilə evdədir.

Süsən (qəmli-qəmli)

Bəzəkli ev-eşik, bu var, bu dövlət,
Hamı suç, hamısı heyvani qələt.
Ürək sevgi, dostluq, saflıq oyuncaq,
Haram pul-parayla doludur qucaq.
Kiminin yeməyə çörəyi yoxdur,
Kiminin varı çox, ürəyi yoxdur.

Aypara

Masanın üstündə necə yeməklər,
Meyvələr, şirnilər, özün de nələr?
A Süsən, nəyimiz əskikdir, balam?
Kəsilib arada iltifat, salam.
Üzünün çöhrəsi tufandan betər,
Yenə başlamısan, sən Allah, yetər!
Bilmirəm kefini nə ilə alam?
Dözürəm hər cəngə, mən Rüstəm-zalam!
Axı tək deyilik bu el içində,
Qonşuların dili niyə, neçində?
Sənin Ərqayayla məhəbbətin car,
Həya yaxşı şeydir el, camaat var.
Qardaşın nə vaxtdı üzümə baxmır,
Məni də heç yerə daha buraxmır.
Nəzir-niyaz ilə bir qızımız var.
Firavan günümü eyləmisən tar.
Sevgi də, eşq də bir quru sözdür.
Axı qonum-qonşu bu evə gözdür.

Lamiyə

Mənim gözəl bibim bir nağıl söylə,
Nədən pərişanlıq bu qədər böylə?

Bu evdə tək sənsən qəlbimə yaxın,
Qüssəni, kədəri buraxma yaxın.

Süsən (Lamiyənin boynunu qucaqlayır)

Mənim kədərlərim qaynayan çeşmə,
Ürəkdir tab edir keşməkeşimə.
Mən gedən deyiləm, o Altunşaha,
Qoy naləm, fəryadım yetsin Allaha.
Onun dükanı var, adamdır demək?
Bəşərin başında pul-para, yemək.
Boğur bu cəh-cəlal, bu sərvət məni,
Bağlanan bəxtimin üzülüb dəni…

Lamiyə (məsum-məsum)

A bibi, nağılı qoy bir tərəfə,
Nə yazıq taleyin keçib kələfə.
Vallah, o Ərqaya çox sevir səni,
Qov gözəl çöhrəndən çiskini, çəni.
Hər gün pəncərənin önündə durur,
Məktəbdən dönəndə o məndən sorur…
«Salam söylə» dedi, dünəndə yazıq.

Aypara (əsəbi)

Allahım, nə qədər gör biz dayazıq?
Sus, ay qız, nə olub dil-dil ötürsən,
Kitabı əlinə bir dəm götür sən.
Altunşaha verdik onun hərisin,
Atan mən yazığa tökür hirisin.
Bilsə, hamımızı qırar, öldürər,
Bütün el-obanı bizə güldürər.
Sevgi kişilərin fitnə-fəsadı,
Dünyada yaşayar pak qadın adı.

Lamiyə (sadəlövhcəsinə)

Bibimin günahı nədir ki, ana?
Yazığ qızcağazı yığmısan cana.
Ərqaya yaxşıdır, Altunşah lovğa,
Niyə buraxmırsız onu yovuğa?
Əgər oxuyana qiymət yoxdursa,
Alver edənlərdə para çoxdursa,
Haram yeyənlərdə cəh-cəlal böyük,

Halallar dünyanın boyununa yük,
Bəs elm niyə lazım, deyirsən oxu?
Buraxıb məktəbi indi ki, çoxu.

Süsən (qəmli)

Qönçəm, qərənfilim, ey saf bulağım,
Yeganə təsəllim, könül dayağım.
Lamiyə, ürəyin bir şəlalədir,
Bəyaz səhərlərdə şehli lalədir.
Bibinin dərdinə çarə bulunmaz,
Zamanım, həyatım, qəlbim ovunmaz.
Zorla Altunşaha verirlər məni,
Böylə bəxt tapmasın dünyada səni.
Ümid əsirgəmə məndən, Allahım,
Yetsin hüzuruna bu qəmli ahım.

Aypara (əsəbi)

Yenə səhər-səhər başlama qəmə,
Acı fəryadınla çapma aləmə.
Nə var, nə görmüsən o ac gədədə?
Yaralar açılar bomboş mədədə.
Malsız, mülksüz sevgi – bir qədəh zəhər,
Üzəcək ömrünü ehtiyac, qəhər,
Parasız sevginin heç faydası yox.
Barı, Allahından, Tanrından bir qorx,
Şahlıq quşu qonub başına yazıq,
Niyə biz qadınlar belə dayazıq?
Sevgi ər evində, xoş gün-güzəran,
Çıxar Ərqayanı qəlbindən bu an!

pərdə örtülür.

II PƏRDƏ 3-cü şəkil

Nazanın 3 gözdən ibarət mənzili. Nazanın anası işə gedən kimi o, başına qəsəbənin pullularını yığıb kef məclisi qurur. Düz 10 ildir ki, pulluların pulları ilə Nazan bu həyata qurşanıb. Yüngül həyata alışıb, rəfiqəsi İnci də ondan dala qalmır. Yenə də o kef məclislərindən biri Nazanın evində. Sultan, Altunşah, Nazan və İnci bir masada cəm olublar.

Nazan (kefli və papiros damağında)

Baxtım gətirməyib mənim heç zaman,
Bu qara taleyim edir ah-aman.
Anam ermənidir, atam azəri,
Düz kişi sayılar ailənin əri.
Gözümü açandan hiss elədim mən,
Evimiz içində gəzir duman, çən.
Onlar bir-birinə heç can demədi,
Bir acı sözü də heç kim yemədi.
Qırğın, dava-dalaş artdı günbəgün,
Qırıldı bağlılıq bu toy, bu düyün.
Sonra atam atdı bir gün anamı,
Uçdu ailənin xoşbaxtlıq damı.
Gəmidə keçirir anam vaxtını,
Dağıtdı tənhalıq könül taxtını.
Bilməm azəriyəm, yoxsa erməni,
Siz deyin kim necə çağırsın məni?
Mən lazım deyiləm ata, anama,
Neylim doğulmuşam dünyaya, amma…

Sultan (canyanalıqla)

Nazan bu söhbəti yığışdır daha,
Salma kef məclisin naləyə, aha.
Sən özün həm ata, həm də anasan,
Mənimçin nazlı bir ürkək sonasan.
Doldur, ey mələyim, eşqlə beyini,
Sən ki, doğmamısan valideyini.
Əymə qəm, kədərlə belə qəddini,
Qoy onlar çəksinlər sənin dərdini.

Nazan (qayğılı)

A Sultan, bu yerin kişisi sənsən,
Ağlına, puluna alüdəyəm mən.
Sənինlə olduğum anlarım dadlı,
Zamanım, ömürüm, günüm qanadlı.
Atadan, anadan yaralı İnci,
Bugün süfrəmizə verər sevinci.
Fəqət sən mənimsən, rəfiqəm bilir,
Bu dəli eşqimə İnci də gülür…

Sultan (qəhqəhələrlə)

Kef məclislərimin yaraşığısan,
Görən gözlərimə sən ki, işığısan.

Sənsiz fələklərə sipərdi ahım,
Hər qara gecəmə bəyaz sabahım.
Səni uca tutdu həmişə könlüm,
Bir an ayrılmaram gəlməsə ölüm.
Altunşah, İncinin qulluğunda ol,
Bugün süfrəmizdə qədəhlərə yol.
Birinci sağlığı Nazan eşqinə,
Tanrıdan diləyim şükür bu günə.

Altunşah (nəş‘əli İncinin belini qucaqlayır)

Əlbəttə, bu xanım incidən inci,
Nəş’əli könlümün odur sevinci.
Şərablı dodağı dodağıma bal,
Gəl kef məclisində ürəyimi al.

İnci (nazla)

Ah, dostum, nə qədər alovlu sözlər,
Alışır eşq ilə sevgili gözlər.
Bu nahar nəş’ələr bəxş eylə mənə,
Mən də bu könlümü qoy verim sənə.

Nazan (kefli)

Şərab şüşələri boşalır bir-bir,
Vaxtımız daralır, tükənir səbir.
İndi dönəcəksən yenə evinə,
Sultan, bilsən necə çətindir mənə?
Nə qədər pul-para töksən başıma,
Bunlar əlac olmaz bu göz yaşıma!
Səni qısqanıram öz arvadına,
O mətbəx qarısı, yazıq qadına.

Sultan (qəzəbli)

Şərabın çox düşdü deyesən, Nazan,
Yenə kəllə-çarxa vurdu başda qan.
Eyvah, istəyinə hazır pul-para,
Çox da çərənləmə, bəsdir, avara!
Sənin dilin ki var, başa dərd açar,
İçki məclisindən sevgilər qaçar.
Səni arvadımdan artıq tutmuşam,
Ona istəyimi tam unutmuşam.
Atımmı, deyirsən, evimi daha?
Son qoy göz yaşına, son qoy bu aha!

Nazan (qəhqəhələrlə)

Səni çox sevirəm canımdan öncə,
Könül qapısında hər gündüz-gecə,
Xəyallar əl açır dilənçi kimi.
Kimi fəryadıma çağırım, kimi?
İndi gedəcəksən, evim bir məzar,
Tənha həyatıma qəm quyu qazar.
Yatağım, otağım boş qalacaq, boş,
Taleyim mənimlə baş-başa sərxoş.

Altunşah (amiranə)

Yenə tüğyan etdi eşq nağılları,
Qopartdı başlardan saf ağılları.
Nazan qısqanclığa başladı yenə,
Gərək ki, İnci də qoşulsun sənə.
Süsənlə toyumuz tezliklə olar,
İnci də sənlə bir hava çalar.

İnci

Mənmi, ah, mənimçin kişilər birdir,
Sevgi təbiətdə açılmaz sirrdir.
Nə qədər könlümü salsa min hala,
Qəlbim sevgiləri buraxmaz qala.
Nazan, qurtar canım cəfəngiyyatı,
Sevgiyə qul etmə azad həyatı.
Bu kef masasında dadlı yeməklər,
İştahı ovlayan ləziz xörəklər.
Çeşmətək qədəhə süzülən şərab,
Həm bir səadətdi, həm də iztirab.
Budur, əzizlərim, nəş'əli həyat.
Mən buna deyirəm ən şirin busat,
Ailə də, uşaq da iyrənc bir röya,
Ömrümü ram edər bu qorxunc xülya.

Sultan

Ha, ha, İnci, səndə bu sözlər hardan?
Ağıllı xəlq edib səni Yaradan!

Nazan (son dərəcə sərxoş)

Ah, Sultan ömürlük mənim olmalı,
Mənimlə bir evdə hər dəm qalmalı.

Ya sona yetirmək bu qeylü-qalı,
Tükənib canımın qüssədən halı.

(şərabla dolu qədəhi Sultanın ayaqları altına atır…)

Sultan (qəzəblə ayağa qalxır)

Sərvətim, dövlətim bəs etmir sənə,
Əvəzində budur yaxşılıq mənə?
Nə sevgi, məhəbbət ağılsız qadın?
Soyumda çatmayır o pozğun adın?
Qadınlar heç zaman bilməz yaxşılıq,
Bircə anlıq kefi, ya bir xoşqılıq…
Sevginin adına yazar o saat,
Budur, aman Allah, qadınlı həyat!..

pərdə örtülür.

4-cü şəkil

Xeyli zamandır Süsən Altunşaha nişanlanıb. Bir azdan Altunşahla Süsənin restoranda toyu gözlənilir. Toydan qabaq Süsənə qardaşı Sultanın evində oğlan evindən gələn qadınlar gətirdikləri gəlinlik paltarını geyindirməklə və bəzək-düzəklə məşğuldurlar. Süsən qadınlardan icazə alıb kədərli halda ayrı otağa keçir.

Süsən (son dərəcə kədərli)

Allah, çəkdiklərim nədir dünyada?
Öz doğma qardaşım çevrilib yada.
Gözüm görə-görə könlə dağ çəkir,
Qəlbində hardandır bu hiylə, məkir?
Məni sevmədiyim adama verir,
Könlümü əzabla, ağrıyla gərir.
Bu dərdin çarəsi yalnız intihar,
Qardaşım Sultana qoy bu olsun ar.
Bilirəm, özünə qəsd etmək günah,
Fəqət Altunşahla günüm olar ah.
Ahlarla çarpışan ömür vay keçər,
Bəbəyin yaşları qəlbdən su içər.
Bu çayda boğular bütün diləklər,
Bir-birin sevmirsə, əgər ürəklər.
Sinəmdə bir başqa məhəbbətim var,
Bir başqa biriylə can ülfətim var.

Ərqayanın eşqi könlümə yardır,
Onsuz dünyam mənə büsbütün dardır.

(Bu zaman Sultanın arvadı Aypara otağa daxil olur.)

Aypara (acıqlı)

Ay qız, niyə belə aha batmısan?
Özünü dərd, qəmə, vaya atmısan.
Səni bəzəndirir oğlan adamı,
Qoyma sinələrdə, sən Allah kamı.
Analar bəsləyir eşqlə balanı,
Bir düşün, ay balam, Narınc xalanı.
O da Altunşahı kamla saxlayıb,
Xalqdan, caamatdan ayıbdır, ayıb.
Söylə, nə edirsən bu tək otaqda,
Dərdə salıb canı qoyma yataqda.

Süsən (əsəbi)

Sən məni güdürsən, vallah, ay gəlin,
Mənimçin hər zaman zəhərdir dilin.
Az qalıb, arzuya yetərsiz daha,
Siz məni batırdız büsbütün aha.
İndisə, izləmə məni hər addım,
Mən sənə bu evdə həmişə yaddım.
Qardaşın arvadı baldızı sevməz,
Baldız da heç zaman yad qızı sevməz!
Bunu eşitməkçin gəldin sən bura?
Bəsdir, ürəyimi etdiyin yara.
Keçdim bu otağa bir az dincəlim,
Gəlmədim dilinlə solum, incəlim.

Aypara (məyus)

Nə dedim dilindən töküldü zəhər,
Zəhər danışana bəxt verməz bəhər.
Ağlını başına yığ, ay biçarə,
Bir azdan toyundur arama çarə.
Üzünün gülüşün qaçırtma belə,
Salma öz adını ağıza, dilə.
Mənim deyəcəyim sözlərim budu,
Evimizi yıxar bu dedi-qodu.
Qadınlar oturan otaqda otur,
Elin söz-söhbəti aləmi qatır.

Gedirəm, sən də gəl tez yanımıza,
Salma ağrı-acı bu canımıza.

(Aypara son dərəcə hirsli otağı tərk edir.)

Süsən (həyacanlı)

Allahım, bu dərdin əlacı dərman,
Doldursam mədəmə el eyləməz man.
Onsuz da bir azdan gedirik toya,
Mənim əzablarım qoy dönsün vaya.
Başağrı dərmanı çatar dadıma,
Yetişər əzablı can fəryadıma.

(Bir ovuc dərmanı qoynuna qoyub qadınların yanına keçir.)

Pərdə enir.

III PƏRDƏ. 5-ci şəkil

Gəlini aparmağa gələn maşın həyətdə gözləyir. Qadınlar Süsənin üst-başına və üz gözünə axırıncı dəfə fikir verirlər.

Qadınlar (bir səslə)

Qızlar, gözünüz aydın,
Deyin Süsənin adın.
Bəxtiniz qoy açılsın,
Qüssə, qəmdən qaçılsın,
Qızın bəxti ər evi,
Qadın edər zər evi.
Gəlin evə din-iman,
Onsuz ev boş dəyirman.
Ay qızlar, xoşbaxt olun,
Baxın, səadət yolun
Açarı Süsəndədir,
O hamıdan öndədir.

Aypara (üzünə təbəssüm verərək)

Ay qadınlar, sağ olun,
Daima xoşçağ olun.
Toy hər qıza büsatdı,
Bu bir xoşbaxt saatdı.

Qadınlar (yenidən bir səslə)

Ay Aypara, mübarək,
Coşub-daşsın qoy dilək.
Sən qardaş arvadısan,
Süsənin imdadısan.
Sən ona ana oldun,
Çox məğrur sona oldun.
Hər subaya bu gündən,
Bu toydan, bu düyündən,
Qismət olsun inşallah,
Hər işdə böyük Allah,
Qoy bizlərə yar olsun,
Millətimiz var olsun.
Toy evlər yaraşığı,
Hər evin gur işığı,
O, hər qapını açar,
Heç kim olmasın naçar.

Lamiyə

(dolmuş halda bibisi
Süsənə yaxınlaşır)

Bibi, gözüm işığı,
Evimiz yaraşığı.
Mən sənsiz nə edəcəm?
Vallah, gəlib-gedəcəm,
Unutmaram mən səni,
Ayrılıq, həsrət çəni
Gözlərinə dolmasın,
Gözəl üzün solmasın.
Sənin qardaşın qızı,
Salar könlünə yazı.
Bibi, qadanı alım,
Səni qəlbimə salım,
Orda könlümü bəzə,
Gəlməyəsən heç gözə.

(Süsəni qucaqlayır.)

Süsən (pıçıldayır)

Bu evdə tək sevincim,
Mənim dürdanəm, incim.
Sən əzizdən əzizsən,
Çeşmələrtək təmizsən.

Candan sevirəm səni,
Sən də unutma məni!
Mənə su gətirsənə…

(Lamiyə bibisinə su gətirir.)

Lamiyə (həyacanlı)

Al iç, bibi, bu suyu,
Fikir dərin bir quyu.
Kim düşsə heç çıxmayır,
De o kimi yıxmayır?
Sevin, şadlan, ay bibi,
Ahdır həyatın dibi.
Hamıya quyu qazır,
Kitablar belə yazır…

Süsən (qürurlu)

Kədərlərin yuxlasın,
Allah səni saxlasın.
Ata evinə işıq,
Bəxtimizə yaraşıq.

Lamiyəni öpüb su ilə dolu stəkanı ondan alır.Bu vaxt həyətdən gəlin üçün gələn maşınların səsi eşidilir.
Baş qarışır, Süsən qarşıqlıqdan istifadə edib qoynunda gizlətdiyi başağrısında işlədilən analgin dərmanından bir xeyli qəbul edir. Lamiyənin gətirdiyi suyu içir. Süsəni gəlinlik paltarında otağdan çıxarıb maşina aparırlar. Hamı evi tərk edir, yaxınlıqda toy olacaq restorana tələsir.

Pərdə örtülür.

6-cı şəkil

Toy keçiriləcək restoran. Bəylə gəlin başda əyləşib. İçdiyi dərmandan Süsənin əhvalı pisdir.Toy qələbəlikdi. Toya yalnız amerka pulu dollar salınır. Süsən son dərəcə ağır psixoloji durumda…

Altunşah (fərəhlə)

Ay ana, toy gərək Böyükadada,
Çatsın ən şərəfli, böyük bir ada.
Yeməklər, şərablar bir çeşmə olsun,
Durub, dayanmadan süfrəyə dolsun.

Narınc (sevincdən titrək halda)

Allah, bu gün necə mən bəxtiyaram,
Ürəyim, könlüm tapmayır aram.
(pıçıltıyla)

Süsəndən nigaran yalnız ürəyim,
Rəbbim, qoyma qalsın qəlbdə diləyim,
Toyu təmtaraqla bir başa vuraq,
Biz dostdan, tanışdan ucada duraq.
Heç bir arzu deyil daha gərəyim.

Süsən (halı son dərəcə qarışıq halda öz-özünə pıçıltılarla)

Aman, ya Rəbbim, imdad fələyim,
Qızıllar, altunlar barmaqlar bəzər,
Ürək Ərqayanın sevgisin gəzər.
Sevgilim yəqin ki, indi qüssəli,
Eyvah, əllərimə yetməyir əli.
Bu mənim toyumdur, bu şan, bu şöhrət,
Qara taleyimi alıb fəlakət.
Bu gecə özgəyə yar olmalıyam,
Saralıb çiçəktək mən solmalıyam.
Altunşah bilmir ki, içdiyim dərman,
Bu gün ölümümə verəcək fərman.
Artıq ürəyimdə bulanmalar var,
Başıma olubdu dünya tamam dar.

Altunşah

Ah, Süsən, sevgilim, bu təmtəraqlar,
Xoşbəxt səadəti sevgi varaqlar.
Mən səni qızıla tutacam, yarım,
Ömürlük sənindir sərvətim, varım.

Süsən (xəstəhal)

Ah, yenə var-dövlət, yenə pul-para,
Min il, milyon ildi bəşər avara!

(Bu zaman Altunşah Süsənin əlindən tutub ortaya çə-kir. Süsən qol götürüb oynayanda Ərqayanın xəyalı gözləri önündə canlanır və bayılır. Ara qarışır, toyda cəh-cəlal pozulur…)

Narınıc xala (ağlar)

Məni eşitmədi Altunşah, Allah,
Qız ölsə nə deyər xalq mənə sabah?
Gəlin başqasının eşqiylə yanır,
Mənim harın oğlum sevgi nə qanır?!
Qızlar tükənibmi bu məmləkətdən?
Mən necə qurtulum bu fəlakətdən?

Süsən camaatın gözü qarşısında axır anlarını yaşayır. Acqarına içdiyi dərmanlar artıq qanına zəhərlənmə vermişdi.

Süsən (can üstə)

Aman, ulu Tanrım, axır ki ölüm,
Bitdi bu əzablar, bitdi bu zülüm.
Yetiş imdadıma, yetiş Ərqaya,
Allah, özü məni tuş etdi vaya,
Mənim səadətim məzarda başlar,
Boğmasın Lamiyə gözünü yaşlar…

Lamiyə (hönkürtüylə)

Bibi, yazıq bibi yumma gözünü,
Qoy bircə anlıq da görüm üzünü.

Aypara (çaşqın)

Yox, yox, ola bilməz bu bir yuxudur,
Qalx, Süsən, şaşqınlıq, bəlkə qorxudur.

Altunşah (diz çökür)

Aman, ay Allahım, səbr ver mənə,
Əzəlki həyata qayıdım yenə.
Bəlkə zəhərlədin sən öz-özünü,
Mən açа bilmədim o kor gözünü.
Süsən, ölmə, Süsən, gözlərini aç!
Ölümün əzazil pəncəsindən qaç.
Mən ki, heç vüsala yetişmədim ah,
Daha açılmasın bu gündən sabah…

Süsən (bənizi saralmış)

Altunşah eyləmə cəfanı cana,
Məni Allah özü salıb divana.

Dərdimə dərmanı eyləmək becə,
Bir azdan həyatım olacaq gecə…

Altunşah (çaşmış halda)

Bəlkə dərman içib hamıdan gizli,
İlahi, bu dünya, cahan min üzlü.
Elədim bir qızı zorla nişanlı,
Adım el ağzında qalacaq qanlı.
Əlimlə məhv etdim, Rəbbim, Süsəni,
Daha cəhənnəm də götürməz məni!
Aman-ah, İlahi, neyləyim indi?
Toyum vaya döndü, bu necə gündü?

Sultan (qəzəbli)

Axmaq qız, qalx, daha bu oyun yetər,
Bitər bu çaşqınlıq, çılğınlıq yetər.

Süsən (son nəfəsdə)

Son vida, son nəfəs bir quru səsdir,
Onsuz da bu dünya mənə qəfəsdir.
Ruhum Ərqayaya qovuşacaqdır,
Bu həsrət, bu hicran sovuşacaqdır.
Ah, əziz qardaşım, daha əlvida,
Gəl, öp alınımdan bu ki, son vida.

(**ölür…**)

Yeganə bacısının ölümündən dəhşətə gələn Sultan nalə çəkir. Toy yasa çevrilir.

Sultan (sarsılmış)

Ya Rəbb, bu nə sitəm, bu nə fəlakət?
Bugündən qoy gülsün mənə məmləkət.
Məhv etdim bacımı öz əllərimlə,
O rəzil, o çirkin əməllərimlə.
Qoy Tanrı, qoy Allah qəhr etsin məni,
Qaytarmaq çətindir, ey Süsən, səni.
Gəlinlik paltarı, qızıl, pul-para,
Çəkdi ürəyini min yerdən dara.
Bacımın bəxtinə yazıldı qara.

Başını əlləri ilə tutur və Süsənin meydinin üstünə yıxılır.Toyu gizli seyr edən Ərqaya Süsənin onun üçün naməlum olan ölümündən dəhşətə gəlir. O dəli qəhqəhələrlə sevgilisinin meydi üstündə fəryad edir…

Ərqaya (dəhşət içində hönkürür)

Dünya ağlar ölümlərdən, ey Allahım, imdad vaxtı,
Cana gəldim zülümlərdən, zəmanədən min dad vaxtı.
Çəkilibdi qəlb içinə dağ-düyünün hesabı yox,
Bu naqəfil sitəmlərdən ürəklərin heç tabı yox.
Sevgim, hissim, eşqim öldu zalımların sitəmindən,
Uçub könül sarayım da bəd dillərin pis təmindən.
Yandım, külə döndüm, Allah, can bədənin dustağıdır,
Bu cahillik, ilan təki zəhərləyən, qəm tağıdır.
Ey insanlar, gülmün eşqə, ürəklərin sultanı o,
Suçu məndə aramayın, bəxtimin ən xoş anı o.
Bir deyən yox, ey Ərqaya, niyə gəldin bu cahana?
Süsən düşüb torpaqlara, nə qəsd etdi şirin cana…?

(cibində gizlətdiyi bıçağı öz ürəyinə yeridir. Ərqaya alqana bürünür, o qan içində Süsənin meydini qucaqlayır və ölür... Bu mənzərədən dəhşətə gələn camaat kimi meyidlərin üstünə qaçır, kimi isə restoranı tərk etməyə başlayır.)

IV PƏRDƏ. 7-ci şəkil

Süsənlə Ərqaya neçə gündür məzarlıqda uyuyur. Sultan üzütüklü Nazanın evində. Altunşah da onunla bir yerdədir. Sultan son dərəcə kefli…

Sultan

Ah, Nazan, bilirsən, yaslı da olsam,
Tufan buludutək boşalıb dolsam,
Sənlə təsəlli tapıram, ancaq,
Bu mənzil ömrümə son dayanacaq.

Nazan (siqarı siqara calayır)

Bilsəydin nə qədər sevirəm səni?
Heç kişi ovutmaz dünyada məni.

Səni qısqanıram günə, aya da,
Naləmdən fəqanə gəlir qaya da.

İnci

Yenə də başladı qızda dəlilik,
Min yol söyləmisən bunu bilirik.

Altunşah (kədərli)

Bəlkə doğrudan da sevir Sultanı,
Onun da cismindən çıxacaq canı.
Daha anlamayır sevgi ölümdür,
Ürəklər bu hissdən bölüm-bölümdü.
Ərqayayla Süsən görün ki, necə?
Ölümə tuş oldu özləri becə!

Sultan (həyacanlı)

Sus, dostum, Süsəni gətirmə dilə,
Məhv etdim bacımı mən bilə-bilə.
Demə, pak sevgilər varmış həyatda,
Təmiz ürəklərdə ən dərin qatda.
Onun taleyinə mən qara yaxdım…

Nazan (kefli)

Sultan, mən də sənə bu eşqlə baxdım,
Ya mən, ya arvadın birimizi seç,
Sevginin yolunda balandan da keç.

**(bu zaman Sultan qəzəblə sillələrə
Nazanın üzünü qərq edir …)**

Sultan (nifrətlə bağırır)

Ah, pozğun, ifritə, küçə qadını,
Mənimlə bir yerdə çəkmə adını.
Hərzə danışma gəl eşqidən mənə,
Bunu milyon kərə söylədim sənə!

(Nazan ağlaya-ağlaya mətbəxə qaçır…)

Nazan (mətbəxdən)

Sən öz sözlərinçin cavabı ara,
Sənin ürəyinə vuracam yara.

Sultan (sakit görkəm alaraq)

Bəsdir, axıtma gəl göz yaşlarını,
Şərabda tapmısan sirdaşlarını.
Çoxdan itirmisən namusu, arı,
İçgidə axtarıb tapmısan yarı.
Min Sultan bəs etməz bir gündə sənə,
Fikrin kəf gəlməkdir indi də mənə.
Sevgidən, eşqidən oxudun, bəsdir,
Məni qamarlamaq hiylən əbəsdir.
Şərabtək qədəhə süzüb adını,
Kef üçün çox içdim səntək qadını…

Birdən Nazan əlində bıçaq mətbəxdən gəlir, bir əliylə Sultanı arxadan qucaqlayır, bir əliylə qoltuğu altda gizlətdiyi bıçağı onun boynuna çəkir. Arteryal qan damarına düşən bıçaq yerə düşür.Və qan çılçırağın və oturacaqların üstünə fışqırır. Altunşah Sultanın üstünə yüyürür. Nazan, dəli kimi, dişarıya atılır və qonşudan təcili yardıma zəng edir.

Sultan (qan içində)

Ah, Allah, ah, Tanrı, bu düşgün qadın,
Batırdı bir nəslin, bir soyun adın.
Bacım elə öldü mən isə belə,
Verdim həyatımı, İlahi, yelə.

(**Təcili yardım gəlir. Sultanı xeyli qan itirmiş halda xəstəxanaya aparırlar.)**

Pərdə örtülür.

8-cı şəkil

Gecədir. Xəstəxana. Çoxlu qan itirmiş Sultan ağır vəziyyətdə cərahi əməliyyat altında. Ərinin sağ qala cağına ümidini itirmiş Aypara dəhliz boyu hönkür-hönkür ağlayıür. Yuxusuzluqdan və dəhşətdən Lamiyənin ay üzü qaralıb.

Lamiyə (ağlar)

Ana, zülümlərdən üzüldü ürək,
Bizə xoş həyatı çox gördü fələk.

Aypara (ümidsiz)

Ay Allah, bircə yol rəhm eylə mənə,
Dərgahında əlim, dərvişəm sənə.
Sultana şəfa qıl qalxsın ayağa,
Qıyma şirin cana, qıyma növrağa.

Şəfqət bacısı (qapını açır və dəhşətlə)

Doktorlar saxlaya bilmədi qanın,
Yaralı xəstəniz tapşırdı canın…

Aypara (içəri yüyürür və ərinin meyidi üstünə sərilir.)

Sultanım, ömrünün taxtı çevrildi,
Yeganə qızımın baxtı çevrildi.
Dost-düşmən içində xəcil olduq, ah,
Mənə də rəhm eylə öldür, ay Allah.
Dağıtdı evimi şərəfsiz qadın,
Ləkəyə batırdı bir soyun adın.
Ay Allah, of, Tanrı, zülmünə bir bax!
Partladı bağırım, ax ürəyim, ax,
Yanır cismi-canım, odlarım sönməz,
Sultanım bir daha ocağa dönməz.
Nazan tutulubdu polisdə yatır,
Əxlaqsız qızının cinisi qatır.* -3-cinsisi
Küçə qadınına verib parasın,
Atdı yetimliyə ciyərparasın.
Mənim fəğanımdan inləsin bəşər,
İnsan – şeytanlıqdı, iblis ürək, şər.
Bir-birinə qənim kəsildikcə biz,
Gecələr yarasa, gündüzlər iblis.
Bir üz görmədim ki, olmasın donsuz,
Tanrı hüzurunda gunahlar sonsuz.
Süsənin göz yaşı boğdu bizi də,
Uddu tənimizi ah dənizi də.
Öldür, qoy mənim də qurtarsın canım,
Sağ qalsam sabahdan başlar divanım.
İzin ver zülümlə ölmüş, Sultanım,
Axar qanlarına qarışsın qanım.

Bu adla yaşamaq, vallah, zülümdü,
Hər rusvayçılığı örtən ölümdü…

Qoynunda gizlətdiyi bıçağı bağrına soxur. Aypara canından artıq sevdiyi Sultanın meyidi üstündə can verir. Həkimlər tökülüşüb gəlir. Onu xilas etmək mümkün olmur.

Lamiyə (dəhşətlə)

Kimə tapşıraraq gedirsən məni?

Aypara (can üstə)

Mən ki, çox sevirdim dünyada səni…
Sultan belə öldü, yaşamaq çətin.
Allah amanatı, mətin ol, mətin.
Bağışla böyüklük etmədik sənə,
Aman rəhmət dilə, qızım, ölənə…

Ölür. Həkimlər və şəfqət bacıları bu faciədən dəhşətə gəlirlər. Hamı donmuş halda bir-birinə baxır.

Lamiyə (ata və anasının meydi üstündə ağlar)

Altunlar, paralar dağ çəkdi bizə,
Fəlakət gətirdi, ailəmizə…
Rahatlıq tapmadı əlindən cahan,
Dünyanın köksündə dərya olub qan.
Savaş gün vermədi heç bir millətə,
Atdı ölkələri altun zillətə.
Baş kəsən də bizik, baş kəsdirən də,
Göyləri yerlərdən hey küsdürən də.
Halıma yanmasın bir qətrə Allah,
Günahdan doğulduq, ömrümüz günah.
Ehey, ulu Tanrım, çaxsın şimşəklər,
Ağlasın zəhmindən qorxunc ürəklər.
Çirkaba batıbdı insanlıq yenə,
Məhəl qoyulmayır Allaha, dinə.
Onun əzabıdır sinəmiz ağlar,
Odur ki, Rəbbimiz qapılar bağlar.

(Lamiyə meyidlərin üstünə yıxılır…)

Pərdə çökür.
Son.

23.02.1994.

DÖRDLÜKLƏR

1

Harının önünə çəkilməsə sədd,
Onun etdikləri xalqa olar dərd.
Haqqı tapdalayan öyülməməli,
Kim olursa olsun tanımalı hədd.

2

Ey Türk, atlarının kişnərtisi yox,
Qulaqlar batıran ərlər səsi yox,
Yurdların yağılar əlində nalan,
Yoxsa igidlərin od nəfəsi yox?

05.02.2016

3

Ağıl sözə məhkum, dilsə üyüdən,
Özümüz törərik şərə can güdən.
Oxşarıq min vəchlə boyu-buxunu,
Toxluqdan partlayar, doymaz ac gödən.

06.02.2016

4

Vətən, kiminə pul, kiminə ağrı,
Düzü deyənlərin partlayır bağrı.
Hərə bildiyitək işlədir başın,
Oğrunun yeminə çevrilir doğru.

5

Ov-yevdən qopmayan millət olmuşuq,
Öz kök-soyumuza zillət olmuşuq.
Dünyada hər yerə dağılaraq biz,
Yadların əlində alət olmuşuq.

08.02.2016

6

Məni nə zamandı bəlaya saldın,
Tutub ürəyimi əlimdən aldın.
Bədəni ürəksiz necə gəzdirim?
Ağlıma nə yolla qələbə çaldın?!

7

Məhəbbət ürəkdə çıraq kimidir,
Sanki İlahidən soraq kimidir.
Onun paklığını qoruyanlara,
Təzə açılmamış varaq kimidir.

8

Haqqı çıraq təki gözünə tutan,
Olarmı gecələr yuxusun qatan?
Gözü doymayanlar gözü aclardı,
Onlardan heç zaman olmaz əl tutan.

9

Daim hərəkətdə zamanın atı,
Onun ağırlığı ürəyin çatı.
Dünyada axına qarşı gedənlər,
Ağlı kəsdiyitək görür həyatı.

10

Ağıl hər bir kəsin nicat yoludur,
Ömrü yaşatmaqçın həyat yoludur.
Hissin tələsinə düşənlər ilə,
Əfsus, başdan-başa dünya doludur.

14.02.2016

11

Dostum, söz yaşadır ədəbiyyatı,
O öz güzgüsündə görür həyatı.
Adla yazmasam da oğru, əyrini,
Sözüm ürəyinə salacaq çatı…

21.02.2016

12

Mən sənə yox desəm, ürəyin ağrar,
Mən sənə hə desəm, hicran doğurar.
Həm yoxun, həm hənin arasındayam,
Bilmirəm heç hansı məni çağırar?!

24.02.2016

13

Gecənin boynundan asılıb səhər,
Odur ki, gecəni çalxadır qəhər.
Şadlığa qərq etmir nə ulduz, nə Ay,
Səhərin gəlməsin gözlər birtəhər.

25.02.2016

14

Səni ürəyimə niyə buraxdım?
Buraxıb könlümü yandırıb yaxdım.
Mən axı sevməli deyildim daha,
Ölən sevgim üçün bəlkə darıxdım…

15

Allah, axtarmayaq çarə fələkdə,
Düşmənə hiddəti artır ürəkdə.
Bizim səbrimizi al əlimizdən,
Qisasın havası bitsin diləkdə.

16

Mənim həyatıma girmisən nədən?
Onsuz da sığmayır ruhuma bədən.
Könlümün qapısı hamına bağlı,
Ağlı ürəyimlə, ey yağı edən!

26.02.2016

17

Məni ürəyinə buraxan gündən,
Qəlbinə, könlünə dərd yaxan gündən,
Düşmüşəm günahın içinə vallah,
Gözüm sənə tərəf çox baxan gündən…

18

Ürək əzizlənən dilək kimidir,
Qədirini bilməsən kələk kimidir.
Qayğı göstərməsən yolda qoyacaq,
Vətən də döyünən ürək kimidir.

27.02.2016

19

Sən ey həkimlikdən yapışıb duran,
Ömürlük düzlüklə qoy olsun aran.
Hər insan yaşamaq eşqiylə yanır,
Olma ömürlərə sən balta vuran.

03.03.2016

20

Dərdin böyüklüyün dərd çəkən bilir,
Ağrını qəlbinə çox tökən bilir.
İnsan həyatında sevinclər qısa,
Fələyin önünə can çökən bilir.

04.03.2016

21

Hər kəsin baxtına düşməz yaxşı dost,
Ömür yollarının gözəl naxşı dost.
Sınaqdan çıxması darda bilinər,
Haqqa gedən yolun düz baxışı dost.

05.03.2016

22

Dünyaya gələndən bir can tapmışam,
Canımın içində hicran tapmışam.
Hər günüm ömrümə kədər püskürüb,
Boğulan canımı ondan qapmışam…

23

Sən ey sevgi deyib qəlbdən yapışan,
Var olan günündən o ki, pərişan.
Can özü dünyada nağıl kimidir,
Bədəndən qopanda verməyir nişan.

24

Can bədən içində darıxır hər gün,
Gecədən sabaha sağ çıxır hər gün.
Səhərin gəlişi həyata ümid,
Zülmətsə ömürdən gün yıxır hər gün.

25

Sən elə girmisən qəlbin içinə,
Heç məhəl qoymursan niyə, neyçinə.
Ürək təndən qopub, səni axtarır,
Qəm onu dəryatək çəkir içinə.

06.03.2016

26

Ağıla gəlməyən könülə gəlməz,
Qəmə əyilənin heç üzü gülməz.
Bu dünya elə bil sınaq meydanı,
Hamını əydirər, özü əyilməz.

11.03.2016

27

Ömürdən asılıb həyat yarlığı
Çəkdirir insana könül darlığı.
Qohumlar nə qədər doğma olsa da,
İnsana həyandır dostun varlığı.

12.03.2016

28

İlahi, qəlblərə xoş məram gətir,
İnsan ağılında mərhəmət bitir.
Dünya göz yaşından qurtulmayırsa,
Qopar bədənimdən ruhumu götür.

13.03.2016

29

Türkiyə, ruhumun Ata ocağı,
Açma namərdlərə isti qucağı.
Sənin torpağını qana salanın,
Ölüm olacaqdır dayanacağı.

14.03.2016

30

İnsanı yaşadır ruhun işığı,
O bədən içində can yaraşığı.
Sevincə möhtacdır, kədərə miskin,
Odur hər insana ömür aşığı.

16.03.2016

31

Layiqsiz tutduğu yeri boşaltmaz,
Yatmış vicdanını heç vaxt oyatmaz.
Ona təsir etməz ahlar, nalələr,
Ruhunu millətin ruhuna qatmaz.

32

Niyə pərçimlənib tutdun kürsünü?
Vecinə almırsan umu-küsünü.
Xalqın fəryadına qulaq versəydin,
Bəlkə qaytarardın insan hissini!

17.03.2016

33

Beyindən aşağı ürək yerləşir,
Düşüncə bolluğu qəlblə birləşir.
Vicdanın varlığın hiss eləyəndə,
Qoparır bədəndə can haray-həşir.

18.03.2016

34

Ruha qida verir yazın gəlişi,
Bağçaya, çəmənə qonub gülüşü.
Gah külək, gah yağış cövlan eyləyir,
Əqli başdan alır nazlı yerişi.

19.03.2016

35

Başa düşməlidir insan insanı,
Onda xoş keçəcək ömrün hər anı.
Su təki axıtma verilən vaxtı,
Boşuna uçurtma bədəndən canı.

21.03.2016

36

Hər anın öz hökmü, öz cəfası var,
Ömrün acı-şirin can səfası var.
Hamımız bir yolun yolçularıyıq,
Kim görüb insanda can vəfası var?!

22.03. 2016

37

Biz kimik, özümüz yaxşı bilirik,
Hər səhvi ömrün naxşı bilirik.
Tənqidə amansız, tərifə düşgün,
Bunu düşmənlərin baxşı bilirik.

24.03.2016

38

Ağıldan qaçanın ömrü pərişan,
Hislər yüksəlişə verməyir nişan.
Özünü aldatmaq uğurdan deyil,
Aldanan kəslərin bağırı şan-şan.

39

Mərifət əhlinə dünya möhtacdır,
Onu yaşadanlar başına tacdır.
İnsanın xilası biliyə bağlı,
Dini bölümlərə elm əlacdır

25.03.2016

40

Dünyada hər ömür həyat parçası,
Onun tapmacasın kimdi açası.
Zamanı işıqtək yanıb sönəcək,
Bədənin ruhu var quştək uçası…

41

Dərd sıxır gözünü ürək içinə,
Ağrılar yerləşir dilək içinə.
Hiyləni həyatı bilən insanı,
Yaradan buraxmaz mələk içinə.

26.03.2016

42

Hər kəsin həyatı özünə bənzər,
Çəkdiyi əzablar üzündə gəzər.
Yandırar hər günü ömür ocağı,
Ürəyin qövr elən közünə bənzər.

28.04.2016

43

Sən könül içində diləyim kimi,
Özümdən qiymətli gərəyim kimi,
Ruhumda, qəlbimdə, yaddaşımdasan,
Sən mənə lazımsan ürəyim kimi.

44

Axır nəfəsdəyəm, ruhum havada,
Qalmışam bədənlə qanlı davada.
Sənsiz xəzan gəlib xəzəl olmuşam,
Uçur, qalmayacaq canım yuvada.

45

Hər insan ömrü səhər kimidir,
Gah şirin, gah acı zəhər kimidir.
Payızı gələndə xəzanı başlar,
Boğaz kilidləyən qəhər kimidir.

46

Bir könül sızlayır sinə içində,
Dərdimin ağrısı sına içində.
Mənim məhəbbətim düşüb qəlbinə,
Nə qədər istəsən sına içində.

03.05.2016

47

Vətənin qoynunda boy atır millət,
Onun qorunması ən böyük zəhmət.
O bizə qan kökdən, soydan ərməğan,
Bəxşiş verilməyir heç vaxt əmanət.

05.05.2016

48

Hər kəsin dilinə aldanma heç vaxt,
Sonra da sızlama qara olub baxt.
Çalışıb xərcləmə ömrü boşuna,
Min illə ölçülmür Allah verən baxt.

09.05.2016

49

Hamıya inanıb tökmə könlə dərd,
Üzündən, gözündən tanınmır namərd.
Hər adam içində gizli dünya var,
Ora keçmək üçün aşmalısan səd.

11.05.2016

50

Çöldəki düşmənlər güntək aşikar,
İçdəki düşməndən qoru özünü.
Çalış olmayasan heç zaman şikar,
Çünki min rəngiylə gizlər üzünü.

19.05.2016

51

Ağıldan başlayır həyata hamı,
Odur insanlığın yaşamaq kamı,
Ağılı hislərə qurban verənin,
Uçub tüküləcək ömrünün damı.

30.06.2016

52

Qürbətdə qarını doydurmaq olar,
Ömrünü kef ilə uydurmaq olar.
Vətən, yurd hər kəsin kimlik sorumu,
Bu adsız ayaqda heç durmaq olar?!

10.07.2016

53

Hər bir ağrı-acı ruhun içində,
Düşünən daima ahın içində.
Heç kəs ayranına turş deməyir ki,
Yerlərdə, göylərdə niyə-neçində?!

23.07.2016

54

Hamı bir-birinə çəkdirir qəmi,
İnsan fəryadları boğur aləmi.
İblisin hökümü dünyanı tutub,
Sınaydı şeytanın yazan qələmi.

24.07.2016

55

Gəlirsən, ey sabah, xoş duyğu gətir,
İnsan olanlara sən sayğı gətir.
Ömür gəldi-gedər bir içim sudu,
Ağıldan cahana çox qayğı gətir.

26.07.2016

56

Ey gecə, sükuta boyanıb qaldın,
Sükutun içinə bir xalı saldın.
Qoparıb indicə canı bədəndən,
Onunla nə qərib xəyala daldın?!

27.07.2016

57

Ağladır könlün için, yandırır axşam nə edim?!
Bənzəyir taleyimə sızlayan bu şam nə edim?!
Tökülür üstümə qəmlər, elə bil yaz yağışı,
Alıram ömrüm uzunu, belə bir kam nə edim?

58

Mərifət gözləmə başı pozuqdan,
Onun ki, kimliyi yazılıb haqdan,
Özünü hamıdan ucada sanar,
Qəlb yıxar, can yaxar elə nahaqdan.

59

Başdan xarablara əyilən dünya,
Öz yurd-yuvasında döyülən dünya.
Sənin də mənimtək günün qaradır,
Dəyirman daşında üyülən dünya.

60

Dildə bardaş qurub oturub yalan,
Eyləyir cahanı büsbütün talan.
Hamının bəxtinə bir ömür düşür,
Heç varmı ölməyib dünyaya qalan?!

27.07.2016

61

Günün ağrıları canda üyüyür,
Zaman dəyirmanı anları üyür.
Hamı addımlayır ömür yolunu,
Hamının kimliyin öz ağlı deyir.

29.07.2016

62

Qapılar açıqdır buyruq quluna,
Yaltaqlıq çıraqdır həyat yoluna,
Pilləyə qalxdıqca bəh-bəh deyərlər,
Çoxu istər düşsün onun halına.

05.08.2016

63

İnsan təbiətdən düşdükcə uzaq,
İçində kök atar can üzən sazaq.
Yeriyər üstünə ağrı-acılar,
Xəstəlik əsdirər vücudu zağ-zağ.

64

Hərənin ağzından bir avaz gəlir,
Avazın içində min bir naz gəlir.
Düşüncə sahibi olmaq ağırdı,
Əqildən zaylara gün taraz gəlir.

22.08.2016

65

Düşüncə sahibi olmaq çox ağır,
Üstünə daima dərd, ələm yağır.
Ətrafın verdiyi ağrı-acıdan
Partlayır ürəklər, dağılır bağır.

30.08.2016

66

Bir həsrət ağlayır içimdə mənim,
Qalıbdı ürəyim seçimdə mənim.
Ömrümün günləri tutub əl-ələ,
Canım bədənimdən köçümdə mənim.

11.09.2016

67

Çox vaxt yolumuzu kəsir bənd-bərə,
Büdrərkən udacaq hər uçrum, dərə.
Bir andan sonranı bilən olmayır,
Heç kəs tuş olmasın böhtana, şərə.

14.09.2016

68

Günlərə bağlıyam vərdiş içində,
Döyürlər qapımı gərdiş içində.
Ürəyim ağlımla üsyan eyləyir,
Mən ah-uf edirəm təşviş içində.

15.09.2016

69

Başın işləmisi ürəkdən keçir,
Hislərin fəryadı diləkdən keçir.
Ömür Yaradandan aslı müddətdə
Can bədən içində ələkdən keçir.

16.09.2016

70

Bazarda satılmır, vicdan alasan,
Onu can evinə tutub salasan.
Hər kəsin qabında nə varsa odur,
İndi insan tapmaq deyildir asan.

25.09.2016

71

Heç nədən yaranmır ürək ağrısı,
Doğulan günlədir hər can sorğusu.
İnsanı qocaldan təbiət deyil.
İnsan özü olur canın oğrusu.

72

Adam öz içində daima tənha,
Dözür hər sitəmə, hər dərdə, aha.
Gəldiyi kimi də köçür dünyadan,
Arzusu, dünyaya dönmək bir daha.

27.09.2016

73

Bədəndə can adlı sirdaşlayam mən,
Ağıldan ağrıyan bir başlayam mən.
Ömür nərdivanın qalxmaq çətindir,
Endikcə, ruhumla savaşdayam mən.

74

Üzün çizgiləri məzmunla dolu,
Baxanda oxunur hər həyat yolu.
Keçilən günlərin acı-şirini
İzlərdə hallanır imzası-qolu.

28.09.2016

75

Dizinə vurmaqla iş aşan deyil,
Göydən pul tökülüb, cib daşan deyil.
Ağlayıb, sıtqayıb göz yaşı tökmək,
Kişilik adına yaraşan deyil.

12.10.2016

76

Elə günah var ki, səvaba görkdü,
İnsan öz içində daima təkdi.
Ətrafı bürüsə doğma, yaxın, yad,
Özü öz ruhunun ağrısın çəkdi.

14.10.2016

77

İnsan öz taleyin özü yazmalı,
Ağrıya, acıya quyu qazmalı.
Heç vaxt hamar olmur ömür yolları,
Kim deyər yaxşıdır ömürlük halı?!

78

Sən mənim ağlımı əlimdən aldın,
Məni ağrıların içinə saldın.
Hər gün döyüşürəm öz-özümlə mən,
Hissimlə birləşib sən qalib qaldın.

79

Deyirəm heç bəlkə görüşməyəydik,
Əvvəlki həyatı dəyişməyəydik.
Acılar içində ömür keçirib,
İndiki duruma heç düşməyədik.

15.10.2016

80

Kamanda inləyən bir sim oluram,
Adınla dolaşan isim oluram.
Könlünə bağlanan eşqin ucundan,
Yenə də mən sənə təslim oluram.

81

Hislərə alüdə olmaq qorxulu,
Onlara sevdalı ağıl yuxulu.
Bə'zən hicrana da baş əymək gərək,
Elə vüsal var ki, ölüm qoxulu.

16.10.2016

82

Yaman üsyan edir asiman düzü,
Dolub, boşalmayıb buludun gözü.
Yerdəki pisliklər göyü coşdurur,
Pislik edənlərin utanmır üzü.

17.10.2016

83

Ruhumun içindən boylanan payız,
Buludlar başına haylanan payız,
Sənin də içində həsrətmi yatır?
Qoşulub könlümə oylanan payız.

23.10.2016

84

Hər insan ömürü bir içim sudu,
Çoxu həyatından daim asıdı.
Əlimizdə deyil vaxtın açarı,
Dünən sağ olanın bü gün yasıdı.

25.10.2016

85

Dünyanı boğurlar qanlar içində,
Hesab axtarırlar canlar içində.
Yaradan üzünü döndərib bizdən,
Qalıb taleyimiz anlar içində.

26.10.2016

86

Kədər olan yerdə gülmək olmayır,
Nə də birdəfəlik ölmək olmayır.
Halımı soran yox nə çəkirəm mən,
Ağrını ürəkdən silmək olmayır.

87

Bilən yox, könlümdə tufanlar yatır,
Hər an ürəyimi dəryaya atır.
Doğulan günümdən iztirabdayam,
Bilməm nədir içdə aləmi qatır.

88

Ruhuma çağlamaq düşüb yenə də,
Bilsən nələr yatır odlu sinədə.
Küləktək əsirəm, dayanmağım yox,
Tufanlar qalacaq yalnız mənə də.

89

Özüm öz bağrımda tufan edəcəm,
Kədərə qul olsa, könlü didəcəm.
Doğulan günümdən əzab çəkirəm,
Məni yerlər tutmur, göyə gedəcəm.

90

Nifrətin ölçüsün kimsə bilməyir,
O gözlə görünmür, ələ gəlməyir.
Ürəyi yaşadan xoş rəftar, gülüş,
Çox vaxt şəkər olub dilə gəlməyir.

05.11.2016

91

İlahi, sən məni imtahan etmə,
Dərdimi ağrılı bir cahan etmə.
Məni tənhalığa atma yenidən,
Nə aşkara gəlmə, nə pünhan etmə.

06.11.2016

92

Ağıldan keçəni dil deyə bilmir,
Ömrün ağrıların il deyə bilmir.
Əgər sevinmirsə qəlbin yiyəsi,
Ürək sahibinə gül deyə bilmir.

93

Ağrılar bədənə bir yalquzaqdı,
Doğulan günündən ona düzaqdı.
Vücud ki, titrədi zəlzələ təki,
Bil ki, payız gəlib, canda sazaqdı.

07.11.2016

94

Ümid qırıqlığı zəhərdən acı,
Qəlbə fərəh vermək onun əlacı.
İnsanın çəkdiyi hər əzab yükü,
Ürəyi qovuran cəhənnəm sacı.

10.11.2016

95

İnsanı sərhəddə, səddə salanlar,
Bütün hüquqları əldən alanlar,
Əlinizdə deyil dünya nizamı,
Bir gün özünüzə yetər talanlar.

96

Çəkdiyim acıdan heç küsmə, ürək,
Qəfil qasırğatək sərt əsmə, ürək.
Bilirəm, ağrını sən daşıyırsan,
Məni tərk etməyə tələsmə, ürək.

97

Zaman ömürləri çəkdikcə dişə,
Vücuda toy tutdu, artdı əndişə.
Əlin yetmədiyi hər bir diləyi,
Yandırdı ilğımlar, döndü küləşə.

98

Qaçırır ömrü zaman dəmbədəm,
Zilə boylananda qonur ruha bəm.
Çarpışır gerçəklik içində ürək,
Qalmışam arada mən taleyi kəm.

99

Mərhəmət sahibi olmasa insan,
Davam edə bilməz yolunu asan.
Ya canı, ya malı, ya doğmaları
Gec-tez əməlinə olacaq ehsan.

11.11.2016

100

Payızın içində kədəri yatır,
İnsanı düşdüyü ovqata atır.
Sarı xəzəllərin pıçıltısına
Qoşulub ürəyim, aləmi qatır.

15.11.2016

101

Zaman ömrümüzü şərabtək içir,
Saat əqrəblərin adlayıb keçir.
İnsan varlığına vurulmuş kimi,
Hər qapı döyəndə bir canı seçir.

16.11.2016

102

Yatdı bəxtimizə neftin qarası,
Sağalmaz könüldən daha yarası.
İşinə yaradı haramxorların,
Bizimlə olmadı heç vaxt arası.

29.11.2016

103

Neçə ömürləri puç edən insan,
Etdiyin əməlin şərədir ehsan.
Sənin də evinə düşər qan-qada,
Tökərsən gözündən sel təki leysan.

04.12. 2016

104

Gülüşün dodağa bülbültək qonar,
Bəzəyər mirvari sədəf dişləri.
Dodaqdan qopmağı günəşi sanar,
Qoy Tanrı qorusun o gülüşləri.

105

Baxışların ürəyimi oxladı,
Əqlim itdi, huşum getdi, ay aman.
Elə bil ki, gülü bülbül qoxladı,
Həsrət bitdi, vüsal yetdi, ay aman.

106

Sinəmdə kükrəyən ələmlərim çox,
Hər biri bağrıma zəhərli bir ox.
Ya şadlıq yağaydı, Şadiman, başa,
Ya da yox olaydıq, qəmlə birgə yox!

107

Bülbüləm, düşmüşəm bu dar qəfəsə,
Yatmışam bəxtimlə nəfəs-nəfəsə.
Ağlayır Şadiman kor taleyinə,
Haqq rəhmə gəlməyir bu niskil səsə.

108

Ya ana bətnində mən boğulaydım,
Ya da ki, Şadiman, kor doğulaydım.
Dünyaya gələn gün düşərək əldən,
Sınıb büllur təki kaş dağılaydım!..

109

Kimsənin nazını çəkməyir fələk,
Keçirir dişindən minlərlə ürək,
O ki, pul-parayla seçmir adamı,
Ələr milyonları əlində ələk.

110

Düşüb dilənçitək ayağa çoxu,
Acı ayaqlayır vəhşitək toxu.
Şadiman, fələyin qəfil dəyəydi –
Haram paraları yığana oxu!

111

Azadlıq istədi bir zaman hamı,
Çoxuna şirinlik vermədi tamı,
Güllələr altında qalan millətin,
Acından ölməkmi istiqlal kamı?

112.

Tapan yox bəşərin xilas əlacın,
Azadlıq pulunun, əsarət acın.
Şadiman, səbrinə baxma Allahın,
Ətar ayaqlara dünyanın tacın.

113.
Günah boynumuza ən ağır bacdı,
Ondan qorunmağa paklıq əlacdı,
Zamanın gərdişi, Şadiman, belə –
Haramdan qaçanlar dünyada acdı.

114.
Ölümdən qurtulmaq həyatın üzü,
Həyatdan qurtulmaq ölümdür düzü.
Rahatlıq hansında bunu bilən yox?
Qalanın öləni görməyir gözü.

115.
Bülbül gülzarlıqda oxuyur pəstdən,
Qonub xarabaya bayquş da qəsddən.
Deyir, "bülbül mənim acı fəqanım,
Qana hərisləri salsın həvəsdən."

116.
Şadiman, yoğrulub qanla Yer üzü,
İnsan sümüyüdür daşların özü.
İblisi içində boğmadıqca ah,
Ağlayır bəşərin min illər gözü!

117.
Eşq qədəhdə şərabtək əldən ələ içilməz
Məhəbbət qəlbdən gəlir ürək sevən seçilməz.
Döysə bir gün qapını yağının qara əli…
Nə anadan, nə yardan, nə Vətəndən keçilməz!

118.
İnsan bir-birini dəfn edir özü,
Min qat məzarlıqla dolu yer üzü.
Canı çıxanadək boğazdan onun
Ağlayar bir gözü, gülər bir gözü.

119.
İçimdə qəmlərim damdı gecələr,
Yaş gözdən yanağa damdı gecələr.
Yanar gizli-gizli başdan ayağa
Şadiman alışan şamdı gecələr.

120.
Acı göz yaşlarım könlümə qubar,
Haqqını deməkdən dil çalıb qabar.
Deyirlər, nəş'ənin şirindir kamı,
Mən ki, ey Şadiman, etmədim nübar.

121.
Zaman ömrümüzü qovar yel kimi,
Anlar əlimizdən axar sel kimi.
Doğumdan ölümə gedən yol qısa,
Şadiman, qırılar saçda tel kimi.

122.
Şadiman, acılar dağdı bu axşam,
Bağrımı ələmlər boğdu bu axşam.
Könlümün, dərdindən hamilə olub,
Qəmim neçə kərə doğdu bu axşam?

123.
Ərzi çox yandırıb yaxıbdı ahım,
Yoxmu sitəmlərə son Qibləgahım?
Bir-birinə vəhşi, yağı insanı –
Sən niyə yaratdın, niyə, Allahım?

124.
Qaraya boyama sabahımızı,
Eşit, qan ağlayan bu ahımızı.
İblisə dönübdü bəşər, İlahi,
Bağışla, bağışla günahımızı!…

125.
Şadiman, dünyanın qəmi qəlb deşər,
Ədəm övladında kin-xərçəng şişər,
Tövrat, İncil, Quran savaş üçünmü?…
Dinlərdən yuxarı ALLAHDI, bəşər!

126.
Bir tərəfdə toydu, birində matəm,
Yandırır içləri bu acı sitəm.
Dünyanın ələmi dünyadan böyük,
Nə vaxt veriləcək hər zülmə xitəm?

127.
Bəşər bir-birini atır günaha,
Heç məhəl qoymayır göydə Allaha.
Şadiman, düşünən başların işi
Bir peşəyə dönüb aldatmaq daha.

128.
Mənim acılarım dünyadan böyük,
Heyhat, boynumdadı bu çəkilməz yük.
Şadiman, həyatadan məzara qədər,
Bəxtmiz fələkdən asılı bir tük.

129.
İdarakın quludur vicdan da bəzən,
Şadiman, ayağa düşüb ağıl, zən,
Odur xəncər kimi sıyrılıb qından,
Düşünən başları bədəndən üzən.

130.
Sönər qəlb atəşi yoxdursa od, köz,
Acılar sinədə yaralar köz-köz.
Şadiman, doğursa ürəkdə ağrı –
Ağızdan dodağa heç gəlməsin söz.

131.
Sənsən bu dünyada yalnız pənahım,
Sənlə açılır ən xoş sabahım.
Bunu Şadimandan soruşsan deyər,
Göydə Tanrı, yerdə sənsən Allahım.

132.
Sənsiz həyatımda zaman, gün acı,
Bu sınıq könlümün sənsən əlacı.
Oldun Şadimanın bəxtinə, ey yar,
Qızıldan qiymətli pak ismət tacı!

133.
Dünyada qanuni sultanım, şahım,
Sevgi sarayında eşq padişahım.
Göyün səcdəsində olan Şadiman,
Sənə itaətə gələr, Allahım.

134.
Ələnir başıma çiskin, duman, çən,
Ey şərab paylayan, şərab süzmə sən.
Bunu Şadiman da bilir, ömürlük
Sərxoşam dünyanın ələmindən mən.

135.
Şadiman, gözlərim nəmdi gecələr,
Kiprikdən yuxular kəmdi gecələr.
Sevgi qədəhindən süzülən şərab,
Piyalə dodaqda dəmdi gecələr.

136.
Həyatda doğulmaq dadlı bir yuxu,
Tuşlanıb sinəyə ayrılıq oxu.
Şadiman, insanın taleyinə bax,
Yaşamaq da qorxu, ölmək də qorxu.

137.
Odlu dodağının büsəsi şirin,
Varlığım, həyatım tək sənin dirin,
Kimsəyə əyilməz bu Şadimana,
Ey yarım, bir söylə bu eşqin sirrin?

138.
İnsanı parayla aldatdı şeytan,
Odur, hiylələrə fəqət dəm tutan.
Ona qul olandan bəşər, Şadiman,
Olub bir-birini daima satan.

139.
Dünyadı canlarla boşalıb-dolan,
Bahartək açılan, payıztək solan.
Alında fələyin yazdığı yazı:-
«Torpağın altında əbədi qalan».

140.
Gör necə qısadır həyat yuxusu?
Necə bihuş edir onun qoxusu?
Şadiman, beşikdən məzəra qədər,
Çıxmaz beyinlərdən ölüm qorxusu!..

141.
Təbib, çarə hanı mənim yarama?
Fələk tapıb, sən də nahaq arama.
Zalım ölüm qoy özünü üzməsin,
Əzrayılım özü düşüb qarama.

142.
Bəşər qul olandan dövlətə, vara,
Vurdu sinəsinə sağalmaz yara.

Şadiman, loğmanlar məlhəm arayır…
Min illər dərdinə tapılmır çara.

143.

Əzablı günlərim yığılın gəlin,
Gəlin, bu gecəmin matəm eşqinə.
Qüssənin, ələmin bağrını dəlin,
Gəlin ki, alışır əzabdan sinə.

144.

Məni isindirə bilmədi cahan,
Üşüdü dünyanın ayazında can.
Üzüldü zaman da taleyim kimi,
Qırıldı sap təki ömrümdən hər an.

145.

Zamanın içində qaynayan qəməm,
Dərdə ürcah olmuş müşkül aləməm.
Hey dolub-boşalır könül piyaləm,
Donuq baxışlarda dolaşan nəməm.

146.

Sinəmin ahından diz çökər fələk,
Əsər taleyimdə sərasər külək.
Şadiman ayağa düşüb yalvarar,
Bir dinə-imana gəlməz bu ürək.

147.

Başıma döydükcə insafsız zaman,
Könlümün evinə qonaq ah, aman.
Əzrayıl qapıdan girər, Şadiman,
Kimsədən diləyə bilməzsən aman!

02.01.1985-02.01.1999

RÜBAİLƏR

1.Üzünün səcdəsidir göydə hilal,
Tanrı etmiş mənə sevdanı həlal.
Bəs niyə Şadimanı saldı qəmə?
Doğradı xəncər ilə qüssə, məlal.

2.Gəl, gözüm görsün könül rənasını,
Bunca əğyar anlamaz mənasını.
Gəl, vüsalın həm gələ təklənmişəm,
Anlayan yox könlümün sevdasını.

3.Yar yenə səcdədə itaətimə,
Bais olmuş özü səadətimə.
Allah, Allah, bu nə xoş sevdadır?
Heyrət eylər çoxu məhəbbətimə.

4.Gözümün yaşları dəryadı, yenə,
Vəslimiz bəlkə də röyadı, yenə.
Yoxdu bu Şadimana çarə edən,
Eşqimiz yoxsa ki, xülyadı, yenə?

5.Saqi, doldur camı gulab ilən,
İşimiz olmasın şərab ilən.
Ürəyi çəkmə şişə, bir də onu
Dəyişik salma sən kabab ilən.

6.Vəsildən yoxdu bir nişan gecələr,
Ürəyim etmədə fəğan gecələr.
Şadimanın yenə də gül sinəsi,
Olacaq lalə kimi qan gecələr!..

7.Əsdirmə könül bağçamı xəzan ilən,
Ağlatma mənim qəlbimi fəğan ilən
Bir mənfəətin görməmişəm dünyanın,
Ömür etməliyəm bəs necə ziyan ilən?

8.Ya ürək mülkümü abad elə,
Ya da hərdən bir onu yad elə.
Ya boya nurə qaranlıq evimi,
Ya könül mülkümü bərbad elə.

9.Ya fələk ahıma imdada gələ,
Ya mənimtək o da fəryadə gələ.
Ya qoya tənimi məzar evinə,
Ya mənə dad eləyib dadə gələ.

10.Ayrılıq qəlbə yaman kar elədi,
Sirrimi hər tərəfə car elədi.
Gözlərimdən süzülən qanlı yaşım,
Dost-tanış içrə məni xar elədi.

11.Gəlişin gör nə kəramət elədi,
Nə qiyamət, nə qiyamət elədi?
Gedişin viran edib eşq evimi,
Əhdü-peymanə xəyanət elədi.

12.Zülüm edibsən öylə, ey yar, könlümə,
Ağlayır yer-göy bu bimar könlümə.
Göz yaşım dönüb yenə fəvvarəyə,
Çıxmadın heç zaman qahmar könlümə?

04.05.1994

13.Ey gülüzlüm, bənzərin var aya,
Bir gəlib könlümü sal sevdaya,
Qoyma gözdən yenə Şadimanı
Səbəb olma düşə qəlbi vaya.

14.Yar qoyub könlümü sevdalar içində,
Çırpınır özü də ədalar içində,
Şadimana, bu nə can ağrısıdı?
Qalmısan bir belə qadalar içində.

15.Yar gəlib dərdimə imdad eləyə kaş,
Ağlayan qəlbimə bir dad eləyə kaş,
Döyə ürəyimizin qapısını bir
Şadimana, bizi də yad eləyə kaş.

16.Tutur qəmlər yenə hər yanımızı,
Qopara bilməyirik anımızı,
Şadimana, nola fələk qoruya
Bizə ərmağan edən canımızı.

17.Eyləyər canımıza qada fələk,
Verər hey ömrümüzü badə fələk,
Sorsan adəmdən, hənuz söyləyəcək: -
Yetməyib dünyada heç dadə fələk.

18.Yar gələ könlümə sultan ola,
Ürəyim gülə gülüstan ola,
Elə sevda oduna tuta ki,
Aşiqin bu eşqi dastan ola.

19.Olmadı heç ürəyim şad əlindən,
Elədi ah iə fəryad əlindən.
Nə edim, qan ağlayır sinə içi,
Ey fələk, eyləyirəm dad əlindən.

20.Vermədi nəş`ələr aləmlərə tac,
Verdi hey gözgörəli ələmlərə bac.
Şadimanə, nə qədər ömür elədin
Elə oldu ürəyin qəmlərə möhtac.

21.Ey aşiqi-könlə mübtəla yar,
Qoyma düşə arəyə bəla yar,
Mümkünsə, bu ömrümü şad elə,
Görənlər söyləyə bir əla, yar.

22.Hər işi asan eləyən haqqa inan,
Adəmi insan eləyən haqqa inan,
Nə qədər zalimlik etsə bəşər
Göz yaşı leysan eləyən haqqa inan.

23.Hər kəsin canına var can yarası,
Göynədər sinəsini qan yarası,
Şadimana, niyə getməz ki, müdam
Ağladar ürəyi dövran yarası.

24.Hər ürək sahibi insan olmaz,
Hər işi dünyada asan olmaz.
Olmayan şöhrətə qul dünyada -
Eləyər sadə ömür, san olmaz.

25.Gəlmədi zalım fələyin rəhmi mənə,
Oldu ayinə üzünün zəhmi mənə.
Tökdükcə qəmi üstümə xalvar ilə
Olmadı, gözü evinin fəhmi mənə.

26.Bu fələk qoymaz olam şad məni,
Elədi qəmlər ilə yad məni.
Qoymadı gülməyə ürəyimi,
Elə tapdı niyə fəryad məni?!

27.Çəkmədi dünya kimsə qəhrini,
İçirtdi hər adama zəhrini.
Gələnlər gördü onun dadını-
Heç kimə qıymadı öz bəhrini.

28.Ocağı bəla külündən çəkir,
Bülbülü xəzan gülündən çəkir,
Sanma o zülmü verən qadirdi,
Nə çəkir, hər kim dilindən çəkir?

29.Könlü öz qiblənə aldatma, fələk,
Gündüzü gecə bilib yatma, fələk.
Döndərib üzünü bir mənə sarı,
Başımı fe'lə salıb qatma, fələk.

30.Hər kəsin üzünə zinətdi həyat,
Ya cəhənnəm, ya da cənnətdi həyat.
Kim ki, göstərmədi qadirliyini-
Dünyadan köçüncə minnətdi həyat.

31.Çalış ki, dönməyəsən mayağa,
Zərbənin çoxu dəyir dayağa.

Elə tut mərtəbəni, ey qafil,
Axırda düşməyəsən ayağa.

32.Çoxunun dili başından böyük,
Etdiyi fəna yaşından böyük.
Bəşərdən gələn hər yamanlıqlar,
Rəbbin göydəki daşından böyük.

05. 12. 2002

33.Mehr ilə hər könlə qalmaz fələk,
Bəndənin qapısın çalmaz fələk.
İlahi verməsə öz hökmünü,
Kimsənin canını almaz fələk.

34.Ömür sürətlə qaçar ana tərəf,
Cin təki baş vurar hər yana tərəf.
Yetişər son zamanı insanın,
Əzrayıl sövq eləyər cana tərəf.

35.Kim olur fitnə, fe'l sultanı?
Bəşərin özü ara qatanı.
Rəbb verən adını salmaz yada-
Fələyin torpaq altda yatanı.

36. Ömrünü verən sənə qadirdi,
Canını salan tənə qadirdi.
Üzünü çevir haqqına sarı,
Rəhmi eyləyən yenə qadirdi.

37. Demə, Rəbb rəhm eləmir bizə, bəşər,
Tökdüyün qan ki, çıxıb dizə, bəşər.
Sən zülüm edirsən, Tanrı susur…
Vurmayır etdiyini üzə, bəşər.

38. Qapına mehri-vəfa salmaz əcəl,
Elə bir saniyə bekar qalmaz əcəl.
Olmasa İlahinin hökmü bil,
Dəni üzülməyəni almaz əcəl.

39. Başıma şah elədim ağlımı,
Qatmışam könlə ömür nağlımı.
Elədim ərz-halı Şadimana,
Şadimanlıq qapısı bağlımı?

40. Doğulan olmaya daş aləmə,
Salmaya bəlanı baş aləmə.
Üfürüb haqq gözünə şər külü,
Etməyə zülmünü faş aləmə.

06.12. 2002

BAYATILAR

1. Əzizinəm, gülmərəm,
Dərddən gülə bilmərəm,
Getsən məndən uzağa,
Göz yaşını silmərəm.

***

2. Əzizim, mən yanıram,
Həsrətindən yanıram,
Yarım uzaq ellərdə,
Qüssədən odlanıram.

***

3. Əzizim, bağlar keçər,
Qəlbimi dağlar keçər,
Bilsə onu sevirəm,
Sevincdən ağlar, keçər.

***

4. Əzizim, aman gəldi,
Dağlara duman gəldi,
Dönük eşqin əlindən
Dərdlərim yaman gəldi.

***

5. Ömrüm, günüm, həyatım,
Qəlbim mənim, büsatım,
De, bugünlər hardasan?
Ay mənim kainatım.

***

6. Həyatım aman oldu,
Varlığım yaman oldu,
Neyləyək ki, bu çağda
Ömrüm mənə man oldu.

***

7. Zaman mənə dar gəldi,
Pislik mənə ar gəldi,
Düzlüklə ucalsan sən,
El deməz ki, xar gəldi.

***

8. Yanma ürəyim, yanma,
Qərib könlüm usanma,
Dərd yaranıb çəkməyə,
Gəl bunu bir də danma.

***

9. Dağlar başı dumandır,
Ürəyim yenə qandır,
Gül, sən xəstə könlüm gül,
Yenə də xoşbəxt andır.

***

10. Kölgə getmə, bir yan dur,
Bağrımı etmə qan, dur,
Səni dözümlü bildim,
Səndən də yox həyan dur.

***

11. Səni mən əyan etdim,
Özümə həyan etdim,
Hissim məni aldadıb
Nahaqdan bəyan etdim.

***

12. Ürək, yan-yaxıl ürək,
Qəlbə deyilsən dirək,
Məni idarə edib,
Yamanca oldun zirək.

***

13. Bircə an dayan zaman,
İnsan deildir saman,
Biçəsən heçnə üstə,
Ayaq saxla bir aman.

***

14. Könlü xar etmə, gülüm,
Dərdi bar etmə, gülüm,
Mənasız əməllərlə,
Eli zar etmə, gülüm.

***

15. Dar yolun, dar qəlbi var,
Yaxşısı var, qəlbi var,
Hər sözü vicdanla de,
Desinlər ki, qəlbi var.

***

16. Könül – könül vurğunu,
Gəlir könül vurğunu,
Elə yaşa, ey ürək,
Desinlər, el vurğunu.

***

17. Günüm o itən oldu,
Pis kolda bitən oldu,
Elə yaşa, desinlər,
Müdriki – Vətən oldu.

***

18. Sellərtək kükrər könül,
Lazımdır hünər, könül,
Təmiz ol, elin desin,
Hər addımda ər könül.

***

19. Dağ çiçəyi incidir,
Güllərin sevincidir,
Səni incidən gündən,
Könlüm məni incidir.

***

20. Günüm yaman ağ oldu,
Ürəyim qanla doldu,
Hər dərd verdikcə mənə,
Çalın-çarpaz dağ oldu.

***

21. Ürək qan oldu yenə,
Tale, neylədim sənə?
Sən zülümkarlığınla,
Sitəmlər etdin mənə.

***

22. Əyilmərəm yada mən,
Ya əzizim, ya da mən.
Hiyləgəri, hiyləni,
Gətirmərəm yada mən.

***

23. Yar könlün yar alanda,
Qəlbə hicran qalanda,
Eşq də qiymətdən düşər,
Ömür-gün daralanda!

***

24. Məhəbbətin özüdür,
Qəlbimdə od-közüdür,
Ürəkdəki çizgilər
Sevgimizin izidir.

***

25. Əzizim, dağ sinəmdə,
Yox bir yer sağ sinəmdə.
Əridi dərd əlindən,
Qalmadı yağ sinəmdə.

***

26. Ötən illərə neylim?
Gözdə sellərə neylim?
Bəxtimin ucbatından
Düşdüm dillərə, neylim?

***

27. Taxtdan düşən eşq tacsız,
Getməməyim əlacsız.
Qəmlə dolu sinəmi
Həsrət alıbdı bacsız.

06.01.1972 Siyəzən

***

28. Bax can mənə neynədir?
Qəlbi yaman göynədir,
Ruhumun getdiyi yer,
Yer üstəndə göy nədir?!

***

29. Əzizim, sarı canım,
Saralıb sarı canım,
Sən gedəli buradan
Qalmayıb yarı canım.

***

30. Əzizim, unutmaram,
Səni qəlbdən atmaram.
Bülbül gülə yığışır,
Gül dərib, qurutmaram.

***

31. Gözün yaşı üz yuyar,
Qəlbə düşən söz yuyar.
Hər kəsin bəxt aynası,
Göz alışar, göz uyar.

***

32. Sevdi bu ah-zar məni,
Etdi dərdə car məni.
Heç nə süpürüb atmaz,
Atacaq bu yar məni.

***

33. Əzizinəm bağımda,
Gül soluxub bağımda,
Neylədim ki, mən sənə
Dərd verdin bu çağımda?

***

34. Əzizim, bu gül nədi?
Gül yoxsa, bülbül nədi?
Durub qapıda həsrət,
Tökdüyün bu dil nədi?

***

35. Əzizim dəmi gəlməz,
Göz gülsə, nəmi gəlməz.
Ruhumu dəryalarda
Batıran gəmi gəlməz

***

36. Əzizim gəzən fələk,
Qəlbimi üzən fələk.
Ömrümün yollarına
Elə qəm düzən fələk.

07-08. 10. 1988

***

37. Dağ başı duman imiş,
Duman ah, aman imiş,
Qürbətə düşən canım
Ayrılıq yaman imiş.

***

38. Gözdə yaşım gül eylər,
Baş ağrıdan gileylər,
Ağıl elə şeydir ki,
Hər baş içində neylər?

***

39. Dərd ürəyimi eşdi,
Eylədi yara deşdi,
Tapılmayır loğmanı
Allahım, bu nə işdi?!

***

40. Hicran könlümü dağlar,
Qoşulub mənə ağlar,
Fələk məndən dönəndən
Açar, qapımı bağlar.

***

41. Qəm mənə otaq oldu,
Gecələr yataq oldu,
Tanrı verən ömrümə
Bu fələk ortaq oldu.

***

42. Yaramı eşmə, fələk,
Eşmisən deşmə, fələk,
Əzrayılın fe`linə
Bir belə düşmə, fələk.

***

43. Uyma dünya malına,
Alar atar dalına,
İçi elə hiylədi
Düşənin vay halına.

***

44. Zamanı mələk gördüm,
Yağ içrə böyrək gördüm,
Bəşəri yırğalayan
Dünyanı yüyrək gördüm.

***

45. Qəm sinəmdə kamladı,
Axdı qəlbə damladı,
Bağrımda zindan açdı
Könlü tutub damladı.

***

46. Üzər acı söz canı,
Yandırar hər köz canı.
Vallah, baldan şirindi,
Hər bədənin öz canı.

***

47. Bağrımı sökdü fələk,
Ora qəm tökdü fələk.
Nə gün gördüm dünyada
Gözümdən tökdü fələk.

***

48. Ocaq közün axtarar,
Bəbək gözün axtarar.
Özünü itirənlər
Hər vaxt özün axtarar.

***

49. Kipriklər nəmə qalar,
Zil ötər bəmə qalar.
Özgəyə dəm tutanın
Hər işi dəmə qalar.

***

50. Kül altından qor baxar,
Göz yorular tor baxar.
Öz dilinə yad olan
Öz kökünə xor baxar.

***

51. Quş başsız qaça bilməz,
Qanadsız uça bilməz.
Rəbb bağlayan qapını
Bir kimsə aça bilməz.

***

52. Qəm qəlbə ahdan gəlir,
Hiylə günahdan gəlir.
Yamanlama taleyi
Qismət Allahdan gəlir.

***

53. Ocaq yanar qorlaşar,
Alışdıqca darlaşar.
Qılıncı itləməsən
Öz qınında korlaşar.

***

54. Tula yalına yetdi,
Arı balına yetdi.
Zaman ömrün köçünü...
Atdı dalına getdi.

***

55. Su ocaqsız qaynamaz,
Dərd tutan baş aynamaz.
Yurdu yağıya qalan
Qol götürüb oynamaz.

***

56. Vətənə eşq dənizdi,
Könlüm ona kənizdi.
Quyruqtək can bəsləyən
Vətən candan əzizdi.

***

57. Bu vətən heyrətimiz,
Pak canda qeyrətimiz.
Onu barat eyləsək
Yetişər illətimiz.

***

58. Saman bəzər axurun,
Kimsə bilməz axırın.
Quruyar yolda, izdə,
Su tapmasa çuxurun.

***

59. Qəm edib peşə məni,
Salıb dil-dişə məni.
Bağrımı köz eyləyib
Keçirib şişə məni.

***

60. Fələyin fəhmi durur,
Bəşərə rəhmi durur.
Ömürün son anında
Əzrayıl zəhmi durur.

***

61. Sübhün gözü şeh olar,
Dodağında meh olar.
Ona qolların açan
Yer üzü fateh olar.

***

62. Dünya üzü talandı,
Dili min bir yalandı.
O hiyləgər bəşəri
Məzarlara qalandı.

***

63. Gözdə yaşım qan oldu,
Qızardı al dan oldu.
Bir tənin ucbatından
Oda yanan can oldu.

06 – 07. 01. 2002

***

64. Gün keçir, aləm keçir,
İçimdən naləm keçir.
Vərəq ahımdan deyir,
Ağrımdan qələm keçir.

***

65. Duman gəl al başımı,
Gizlət bu göz yaşımı.
Sel bürüyüb bəbəyi,
Görməyirəm qarşımı.

***

66. Bir varım var can adı,
Nə qara, nə ağladı.
Ömrümdən ötən günə
Ürəyim qan ağladı.

***

67. Vaxt edir sorğu mənə,
Göndərir ağrı mənə.
Ömrümdən gün qoparır,
Olubdu oğru mənə.

***

68. Dünyanı tutan eşqim,
Aləmi qatan eşqim.
Hamıya can söyləyib
Tək məni atan eşqim.

***

69. Şamtək əriyən ömür,
Günü kürüyən ömür.
Bədəni çökdürürsən
Qalasan üryan ömür.

***

70. Bu dünya beh dünyası,
Gözlərdə şeh dünyası.
Hamı özün zənn edir,
Əməl-saleh dünyası.

***

71. Ömür qısa, gün baha,
Yarısı gedir aha,
Varlığımız müjdədi,
Nə istəyirik daha?!

***

72. Göz görür, ürək yanır,
İçdə duyğu oyanır.
Anlamayan nə bilsin,
Vicdan ruhdan boylanır.

***

73. Özgə atına minmə,
Minib də sonra enmə.
Tutduğun yol doğrusa,
Heç vaxt o yoldan dönmə.

12.08.2016

***

74. Neftimiz üz qarası,
Ürəkdə var yarası.
Bizi xoşbəxt eyləyib
Bilməm onun harası?!

***

75. Xalqa ağ gün yazıla,
Şər yollarda azıla.
Qara qızıl qurtarır,
Gedirik ağ qızıla.

24.09.2016

***

76. Hər ömür işıq kimi,
Ömrə yaraşıq kimi.
Elə sürətlə qaçır
Zamana aşiq kimi.

***

77. Baş üstələr yıxdı bizi,
Künc-bucağa sıxdı bizi.
Müti olub əyildikcə,
Adamlıqdan çıxdı bizi.

26.09.2016

***

78. Çəkildim gecə içinə,
Qəm uddum niyə-neçinə.
Əqrəblər ömrü qaçırır,
Düşmüşəm zaman köçünə.

29.09.2016

***

79. Gecə ruhuma işıq,
Təb verir qaşıq-qaşıq.
Heyranam sükutuna,
Ürəyim ona aşiq.

01.10.2016

YANĞILAR

1.Allah, amandı,
Halım yamandı,
Can-cana yağı,
Bu nə zamandı? !…

***

2.Ömür gülümdü,
Soldu zülümdü,
Hey çalış, vuruş -
Sonu ölümdü.

***

3.Sinəmdə atəş,
Edir qəlbi qəş,
Könlün odundan,
Əriyir günəş.

***

4.Girmə qəlb bağa,
Qəm olub ağa,
Yer-göy ah çəkir,
Bu könül dağa.

***

5.Bükər Rəb dizi,
İtirər izi,
Əzabdı qəbrə
Qoymaq əzizi.

***

6.Qəlb olar ahar,
Qəm edər nahar,
Bir dəfə gələr
Hər ömrə bahar.

***

7.Zilin bəmi var,
Gözün nəmi var,
Hər doğulana
Ölüm dəmi var.

***

8.Ağ teldən gəlir,
Su seldən gəlir,
Qeyrəti olan
Ər eldən gəlir.

***

9.Ağladar gözü,
Söndürər közü,
Girər qapıdan
Əzrayıl özü.

***

10.Rəbbdəndi sitəm,
Hər evə matəm,
Ömrün dadıdı -
Acı-şirin təm.

***

11. An alar yaşı,
Qocaldar başı,
Zaman sevgili
Ömrün sirdaşı.

***

12.Ötsə də günüm,
Batmasın ünüm,
Qırılar bir gün
Ömür düyünüm.

***

13. Saatlar uçar,
Haqqa əl açar,
Qalar qollarım
Qoynumda naçar.

***

14.Ürək ağrısı,
Ömür oğrusu.
Rəbb imtahanı –
Həyat doğrusu.

***

15.Gün gəlib ötər,
Anlarım bitər,
Əzablı həyat
Ölümdən betər!

***

16.Ömrün sabahı,
Səvab, günahı,
Vicdanda ara,
Qafil, Allahı…

***

17.Enmə dərinə,
Batma tərinə.
Kim gora gedib –
Kimin yerinə?!…

***

18. Ver ömürə bac,
Qoy başına tac,
Halbahal edən
Fələk gözü ac.

***

19. Saatlar susar,
Ömrümə hasar,
Fələk qovduqca
Zaman qan qusar.

***

20. Bu həyat barım,
Dildə qubarım,
Loğman sağaltmaz
Ürək qubarım.

***

21. Ah ərşə qalxar,
Yandırıb-yaxar,
Sinəmdən ürək
Qəm ilə baxar.

***

22. Dilimin andı,
Alışdı yandı,
Zaman ahımı
Mənimtək andı.

***

23. Bu ulduz Dandı,
Qırmızı qandı,
Düşmə göyündən
Yer ki, zindandı.

***

24. Könüldə yara,
Hey çəkir dara,
Fələk ömrümə
Yaxmaya qara.

***

25. Zaman doğrusu –
Günün oğrusu,
Ürəkdən keçir
Canın ağrısı.

***

26. Can düşdü oda,
Aha, fəryada,
Görmədim, Allah,
Bir gün dünyada.

***

27. Gözüm ağladı,
Qəmim çağladı,
Fələk qapımı
Açdı, bağladı.

***

28. Göz yaşım göldü,
Hər günüm öldü,
Həsrət könlümü
İkiyə böldü.

***

29. Gəldik dad təki,
Ömrə ad təki,
Əzrayıl bizi
Aldı yad təki.

***

30. Hər insan çiçək,
Hər an bir ləçək,
Doğulub-ölmək,
Hayıf ki, gerçək.

***

31. Dünya ki, beş gün,
Həm yas, həm düyün,
Rəbbə halidi
Hər səda, hər ün.

***

32. Kəsmə amanı,
Etmə yamanı,
Şeytantək dala
Atma imanı.

***

33. Göyün buludu,
Səmanın udu,
Elə ağladı –
Yerləri yudu.

***

34. Günəş alışar,
Qəlblə yarışar,
Könlümün odu
Ərşə qarışar.

***

35. Zaman – Rəbb atı,
Qovur həyatı,
Alıb belinə
Bu kainatı.

***

36. Ömür incidi,
Rəbb sevincidi,
Zaman qovduqca
Candan incidi.

***

37. Ahım dağ deşər,
Min yerdən eşər,
Sinə içində
Ağrı yerləşər.

***

38. Könlü dərd tutdu,
Özün unutdu,
Ömrün günləri
Tökülən tutdu.

***

39. Yetişməz dadım,
Dəli fəryadım,
Soyuyan deyil
Bu könül odum.

***

40. Ahlar anından,
Ötər yanından,
Hər paxıl adam
Yeyər canından.

***

41. Ah qəmdi ilə,
Heç gəlməz dilə.
Dünya doludu-
Ev yıxan ilə.

***

42. Ömür bəxt atım,
Gələn saatım,
Bağlıdır ona
Bütün həyatım.

11. 12. 2002

***

43. Zülmətdir necə?
Ay doğmur becə.
Alıb qoynuna
Könlümü gecə.

***

44. Şər yoxmu yiyən?
Ey haqqı yiyən.
Girib köksümə
O xəncər tiyən.

***

45. Qəmim kamladı,
Könlü damladı,
Bəbəkdə yaşım
Damla-damladı.

***

46. Göz yaşı çin-çin,
Tök için-için,
İblis dağladı
Dünyanın için.

***

47. Bəşər ahladı,
Hey gunahladı.
Çətinə düşdü –
O Allahladı.

***

48. Ürək ağlayır,
Dərdlə dağlayır,
Hər bir ağrını
Könlə bağlayır.

***

49. Məzar – hər bədən,
Bəşəri didən,
Bir soraq verməz
Dünyadan gedən.

***

50. Hicran nə acı?
Sevginin tacı.
Saf məhəbbətin
Həsrət əlacı.

***

51. Qartal ucada,
Layiq taca da.
Adamı boğan
Tüstü bacada.

***

52. Ömür bir yoltək,
Ya sağ, ya soltək,
Başa ki, çatdı -
Kəsilən qoltək.

***

53. Dünya kaşıdı,
Ağlar başıdı.
Hər doğulana -
Ömür daşıdı.

***

54. Hər gözdə yaş var,
Yaşa sirdaş var.
Ürək çalxadan-
Bədənə baş var.

***

55. Tənə baş imiş,
Ömrə yaş imiş,
Ətlə gizlənən -
Sümük daş imiş.

***

56. Bu yaş yarıdı,
Zirvə qarıdı,
Zaman tez uçdu-
Ömür qarıdı…

***

57. Gün uçdu getdi,
Dünənə yetdi.
Fələk bədəni
Darməzar etdi.

***

58. Hər dərd yaradı,
Könlü aradı.
Varın yığanın
Günü qaradı…

***

59. Vaxt başa çatar,
Günə an qatar.
Qopar ömürdən –
Əbədi yatar.

***

60. Dolu axuru,
Boldu naxırı.
Zalım bəşərin
Yoxdu axırı…

***

61. Odun külü var,
Yanan dili var.
Ocaq içində
Qalan külü var.

***

62. Can təndən qopar,
Əbədi çapar.
Gəzər aləmi…
Öz yerin tapar.

***

63. Qəm keçdi məndən,
Eylədi dən-dən.
Qırıldı canım-
Bu yazıq təndən.

***

64. Dildə ah deyil,
Ah Allah deyil.
Qiymətli ölmək-
Heç günah deyil.

***

65. Can başın tacı,
Ömrün əlacı.
Qopsa bədəndən-
Ölüm nə acı? !…

15.12. 2002

***

66. Gəlməz sabahım,
Ürəkdə ahım,
Bu nə ömür, gün?
Öldüm, Allahım!

***

67. Göz yaşım gülər,
Ahımı bölər.
Şadiman min yol,
Doğulub-ölər.

***

68. Dünyanın vayı,
Batıb harayı.
Uçub tökülür
Bəşər sarayı!

***

69. Gözdə qan yaşım,
Ağrıyır başım.
Hicran olubdu
Könül sirdaşım.

***

70. Gözüm qan tökər,
Ağrımı bükər,
Dəli ahımdan
Bu yer-göy hürkər.

***

71. Ay göyə işıq,
Yerə yaraşıq.
Könül onlara…
Mən könlə aşıq.

***

72. Haqq nur saçmadı,
Bizdən qaçmadı,
Allahın sirrin
Bəşər açmadı.

***

73. Həyat mö'cüzə,
Sirr açmaz bizə.
Ömrün son günü –
Sınan bir kuzə.

***

74. Ömür simimdi,
Hayım himimdi.
Qırılan zaman –
Mənim kimimdi?…

***

75. Ürəyim ağlar,
Sinəmi dağlar,
Görməyib heç kim
Bir belə dağlar.

***

76. Dünya nə dəmli?
İçi ələmli.
Bir gözü nəş'ə –
Bir gözü qəmli.

***

77. Günüm oynamaz,
Qəlblə qaynamaz,
Mən bəxti kəmin
Başı aynamaz.

***

78. Bu həyat balım,
Daddım pis halım.
Getməyir yola
Mənimlə zalım.

***

79. Can dildən ası,
Ömrün qəvvası,
Öz sözü olar
Bəşərin yası.

***

80. İnsan arıdı,
Yığdı, qarıdı,
Əzrayıl gəldi -
Ömrü arıdı.

16. 12. 2002

***

81. Sinəmdə atəş,
Yer-göy edir qəş,
Könlün odundan
Alışır günəş

***

82. Rəbbin saatı,
Qurdu həyatı.
Açmaz tam bizə
Bu kainatı…

***

83. Həyat sultanım,
Ömür dastanım.
Xəzan gələndə
Solar bostanım.

***

84. Dünya qəm dolu
Hər ömür yolu.
Rəbbi arayır
Uzanan qolu.

***

85. Həyat – adındı,
Könül dadındı.
Qaldın özünün,
Öldün, yadındı.

***

86. Cahanın ahı,
Min bir günahı.
Qanla açılır
Gələn sabahı.

***

87. Yaxşı günümüz,
Xoş düyünümüz.
Qəmə ki, düşdük,
Batar ünümüz.

***

88. Kim deyər şaddı?
Qüssəyə yaddı.
Həyat acısı,
Gözdə gurşaddı.

***

89. İnsan taleyi,
Dünyanın neyi.
Sərxoş fələyin
Dodaqda meyi.

***

90. Səhər açıldı,
Günəş saçıldı.
Göyün üzündən
Zülmət qaçıldı.

***

91. Can tənə tacdı,
Rəbbinə bacdı.
Bədənlər yeyən –
Bu dünya acdı!…

***

92. Bu zalım fələk,
Ərköyün mələk.
Ələyir təni,
Əlində ələk.

***

93. Ağlar gözümüz,
Gülər üzümüz.
Ya yaxşı, ya pis
Qalar izimiz.

***

94. Bəşər bir yoldu,
Hər cana koldu.
Gəldi xəzanı –
Saraldı, soldu.

***

95 Zamanın atı,
Beldə saatı,
Qovar ömürü,
Udar həyatı.

***

96.Hər tən özünə,
Yanar közünə.
Qarışar külü
Bu yer üzünə.

***

97.Dünya yuvandı,
Tənə ünvandı.
Həm ev, həm məzar –
Əcəb divandı.

***

98. Sel dağdan gələr,
Dərəni bələr.
Əlində qalıb
Bu kol-kos mələr.

***

99.Kəsmə amanı,
Etmə yamanı.
İlahi verib
Ömrə zamanı.

16.12. 2002

İKİLİKLƏR

1. Duyğudan qopmasa xeyir əməllər,
   Allaha açıla qalacaq əllər…

2. Tale də insananın öz əlindədir,
   İşində, gücündə, əməlindədir.

3. Güclülər həmişə gücsüzü əzir,
   Çünki başlarında şeytandı gəzir.

4. Naqislər əlində ağlayır bəşər,
   Ağlı fəth eləyib əbədi bu şər.

5. Heç kəs yığdığını aparmır gora,
   Bəs nədən ağlımız düşübdü tora?

6. Nadanlar əlində can olub əsir,
   Düzlükdən dəm vuran düzlüyü kəsir.

7. Gecənin qoynundan al səhər doğur,
   Sabah öz ipiylə zülməti boğur.

8. Yerlə yeksan oldu bu dünya min yol,
   Heç tapa bilmədi haqq evinə yol…

9. Allahın ibadət evinə gedən,
   Allahı içində aramır nədən?

10. Sındırma heç kəsin qəlbini nahaq,
    Canı mühakimə eyləyəcək haqq.

11. Ömür ayağımız altında təkər,
    Ağıl dərk eləyər, can ağrı çəkər.

12. Üzünə güləndən qoru özünü,
    Gülüşlə gizlədər, çünki üzünü.

13. Taleyi boşuna buraxsan, əgər,
    Axırda çevrilib başına döyər.

14. Əlacsız qalana yetir əlini,
    Allah özü görür hər əməlini.

15. Hamı qarışdırıb yaxşı-yamanı,
    Heç kəs dərk eləmir axır zamanı.

16. Səadət qapını döyməz boş yerə,
O meyvə deyil ki, tökülsün yerə.

17. Həqiqət çəkilib əzəldən dara,
Odur ki, xilqətin köksündə yara.

18. Nəfsə əsir olan nəfsinə enir,
Axırda nəfsinin quluna dönür.

19. Nə qədər şüurda şər qurubdu taxt,
Dünyanın xilası görünməz heç vaxt.

20. Düşünən başların ağrısı böyük,
Dünyanın əzabı çiyinində yük.

21. Nədir bəs könlünü günahkar edən?
Allahın evinə imana gedən?…

22. Həyanı itirən həyadan deyər,
Həyanın özünü diliylə döyər.

23. Umma namərdlərdən heç zaman vəfa,
Axırda özünə deyər bivəfa.

24. Şöhrətin əsiri olan hər kəsin,
Sonunda şöhrət də kəsər nəfəsin.

25. Eşq – Allahdan gələn ilahi sevda,
Odur ki, həm ruha, həm cana qida.

26. Həqiqət içindən hikmət boylanır,
Hikmətin özündən nemət boylanır.

27. Kim öz millətinə kəsilsə yağı,
Axırda özü də görəcək dağı.

28. Özgə havasıyla oynayanların,
Sonunda özgələr alar canların.

29. Allah dərgahına əl açmaq neçin?
Bizi yaratmayıb dilənmək üçün!

30. Vətən – hər millətin dunya neməti-
Millətin özündən aslı hörməti.

10.10.2005

31. Dünya əbədidir düşünür hamı,
Allahın əlində dünyanın damı.

32.Hər surət içində bir heyrət yaşar,
Heyrətdən bu həyat qaynayıb daşar.

33.Mənliyi qorumaq ömürdən uca,
İtirdin harayın çatmaz əlaca.

34.İnsan ömrü boyu mərama təşnə,
Məramsa insanı çəkir dişinə.

35.Xoşbəxtlik anlarla, sevdası sonsuz,
Kim yaşaya bilər həyatı onsuz? !

36.Günəşin odundan aya pay düşür,
Zülmətin könlünə ahı-vay düşür.

37. Dağ dilə gələndə qayalar çökür,
Bağrının naləsin dərəyə tökür.

38.Qartalın zirvəyə uçmağı fərman,
Sərçənin zirvəyə düşməyi dərman.

39. Nə kütlə, nə də xalq millət olmayır,
Millət heç bir əldə alət olmayır.

40. Məhəbbət ürəyin içində atəş,
Atəşdən od alıb əbədi günəş.

41. Yaltaqlıq adamı qatil eyləyir,
İnsanlıq adını batil eyləyir.

42. Nəciblik hər kəsə qismət olmayır,
Hər baş yiyəsində ismət olmayır.

43. Qənaətsevənə ruzi sel olar,
İsrafagedənə dönüb yel olar.

44. Özgənin cibinə dikmə gözünü,
Çıxarda bilməzsən cibdən özünü.

45. Dilin ağrısından baş ziyan çəkər,
Ziyana salmağı eyləyər şakər.

46. Məzlumun göz yaşı zalıma nəş'ə,
Göl olsa, kənarın zənn edər guşə.

47.Yaradan hər başa vermədi ağıl,
Ağıldan gələni saydılar nağıl.

48.Bəndə öləcəyin hər gün etsə yad,
Olmaz bəni-bəşər bir-birinə yad.

49.Öylə bir baş yoxdur etməsin xəta,
Bəs bunu kim edib bəndəyə əta?

50.Dağlar əyiləndə düzü incidər,
Ocaq döyüləndə közü incidər.

51.Gözün gördüyünə ürək amadə,
Ağıldan ürəyə gəlsə də hədə.

52.Haramdan qaçanın günü qaradır,
Bəs haram yeyənə dünya haradır?…

28.10.2006

53.Vətən ululardan qalan xəzinə,
Qoruya bilməyən vurar dizinə.

54. Dərindən qorxutma özünü heç vaxt,
Dayazda burulğan qurur tacı-taxt.

55.Dağı dağ eyləyən olsa da dərə,
Dağ təki tutulmub adı bir kərə.

56.Ürək edəcəksə ağlına fərman.
Taleydən gileyli olma heç zaman,

57.Düşüncə sahibi olsan bir qədər,
Addığın hər addım haqqını ödər.

58. Bir gün ac olanın - tox məqamı var,
Bir gün var olanın - yox məqamı var.

29. 10. 2006

59. Həyat – yaşamağın dirilik kamı,
Yandıqca tükənir bu ömür şamı .

60. Həqiqi məhəbbət heç vaxt solmayır,
Əfsus, hər ürəyə o heç dolmayır.

61. Sanma səadəti tutdun əlində,
O özün göstərər hər əməlində

62. Həyat zaman ilə verib baş-başa,
Hər insan ömürü ona tamaşa.

63. Hər gün əl açanda dərgaha ahla,
Qayıdır özünə ahın günahla.

31.10.2006

64.Həssas adamların qəlbi ağrıyır,
Bu ağrı ürəyi ahla doğrayır.

65.Heç kəs öz ağlını sınağa çəkmir,
Ağlın səhv addımın qınağa çəkmir.

66.Gətirmə etdiyin səvabı dilə,
Gətirsən dönəcək bir həzin yelə.

67.Yaxşı adamların ağrısı böyük,
Atılan addımın doğrusu böyük.

68. Düzlüyü eyləsən şüar özünə,
Haqq qapısın açar sənin üzünə.

69.Özünə güvənən haqqına fateh,
Haqqına çatanlar əməli-saleh.

70. Əlini öyrətmə heç vaxt harama,
Haramı dadanlar yetməyir kama.

71.Hər doğulan adam insan olmayır,
İnsanlıq hər kəsə asan olmayır.

72.Tanrının baratdır cana ilhamı,
Bu hissə yetməyir, əfsus ki, hamı.

73.Ürəkdən çıxmayır hicran ağrısı,
Hicrandan başlayır hər can ağrısı.

74.Etdiyin yaxşılıq Tanrıya əyan,
Həyat yollarında olacaq həyan.

75. Ağıl düşündükcə ürək alışar,
Bu iki məhfumla bir can yarışar.

76. Doğulan, dünyadan qorxub ağlayır,
Min bir ağrı ilə könül bağlayır.

19.08.2008

77. Beyin Yaradandan bir sirli nağıl,
Hər kəsə paylanmır bərabər ağıl.

78. Keçmişin bilməyən sabahı qara,
Qaralar içində ömrə nə çarə?

79. Torpaq, yurd, dil eşqi bələkdən gəlir,
Vətənin sevdası ürəkdən gəlir.

80. Qovmasan ömrünün önündən çəni,
Ömrün külәkləri aparar səni.

81. Tanımaq istəsən bacı-qardaşı,
Gərək ki, olasan bir yol yoldaşı.

82. Ömür uzandıqca günahlar artır,
Hər günah içində bir şeytan yatır.

22.08.2008

83. Taleydən heç zaman gözləmə nicat,
Yalnız çalışanı istəyir həyat.

84. Ağıldan doğulur canın ağrısı.
Elə bu ağrı da olur oğrusu.

85. Əzabın içindən zəhmət doğulur,
Zəhmət bətinindən nemət doğulur.

86. Duyğudan alışır ürək şam kimi,
Duyğusuz qəlb özü bir axşam kimi.

23.08.2008

87. İllərin zəhməti gəzir üzündə,
Ey adam, axtarma haqqı özündə.

88. Hiylədən dağılır cahanda nifaq,
Onun ovsunundan dağılır tifaq.

89. Dünya nərd taxtası bizsə zərlərik,
Atılıb düşməkdən ölüb çərlərik.

21.09. 2008

90. Dilə İlahidən məhəbbətini,
Ağrıyla doldurma can səbətini.

91. Hər ömrün zamanla vaxt sükanı var,
Hər canın bədəndə bir dükanı var.

92.Zülmətin qəlbinə sübh yara açır,
Sabahın bağrına Rəbb nuru saçır.

93.Ömür yiyəsinə tufan tək əsdi,
Zamanın qayçısı anları kəsdi.

94.Hər qara fikirlər ömrün biçini,
Qəlbdə yer eyləsən yeyər içini.

95.Nahaqqın ağrısı ədadan gəlir,
Haqqının doğrusu nidadan gəlir.

96.Sözün hər gəlişi, gedişi təbdə,
Onun qıfılının açarı Rəbdə.

97.Ağlın o üzündə divanəlik var,
Onun səcdəsinə pərvanəlik var.

98.Ürəyin yarası sözlə bitişmir,
Ağacın bəhəri vaxtsız yetişmir.

99.Ürəkdə alışan közə sadiq ol,
Dildən çıxartdığın sözə sadiq ol.

100.Sanyənin harayı anda partlayar,
Ağılın cövhəri canda çatlayar.

101.Cana layla çalır tənin beşiyi,
Qoyma ki, şeytanlar çəkə keşiyi.

102.Bəlkə yaza bilər şeiri hamı,
Ancaq Rəbb hamıya vermir ilhamı.

103.Kiminin ağrısı bəbəkdə yatır,
Kiminin ağrısı ürəkdə yatır.

104.Sahiblik hissiylə ağlını qoru,
Könül ocağından itməsin qoru.

105.Ağıldan itirmə Vətən eşqini,
Can necə itirmir o tən eşqini.

106.Çiçəyin solması fəsildən gəlir,
Ağılın solması nəsildən gəlir.

107.Vüqarı olanlar yaytək əyilməz,
Yaxşılıq edilər, dillə deyilməz.

108.Daxilin paklığı üzə işıqdır,
Necə ki, bədənə can yaraşıqdır.

109.Ömürdə görərsən həyatın üzün,
Pərdətək bürüyüb hər cana özün.

110.Sözlərin dalğası ağızda batır,
Dalğanın içində dəryalar yatır.

111.Fırtına qopmamış yuxulu olur,
Çayın lal axması qorxulu olur.

112.Hiyləyə qarışıb şahların başı,
Dünyanın naləsi çatladır daşı.

113.Səadət eşqiylə coşsa diləklər,
Heç zaman çirkaba batmaz ürəklər.

114.Sərvət meyarına salma qazancı,
Doğurar qarında sağalmaz sancı.

115.Mənbəyi olmayan bulaq çağlamaz,
«Özü yıxılanlar heç vaxt ağlamaz».

116.Beşikdən məzara yol gedirik biz,
Haqqın dərgahına qul gedirik biz.

117.Güclü gücsüz əzir ömrü uzunu,
Tapşırma heç zaman qurda quzunu.

118.Millət ağrımasa Vətən doğulmaz,
Vətənin sədası içdə boğulmaz.

119.Təb ağıldan gələn ürəyə çeşmə,
O özü çağlayar, gözünü deşmə.

120.Nə qədər bədəni canı tərk etməz,
Gözdən həyat eşqi çəkilib getməz.

121.Günü xoş keçənin üzü ağ olar,
Ömrü qış keçənin qəlbi dağ olar.

122.Vətənin sevdası qəlbdə aşınmaz,
Qürbətə torbayla heç yurd daşınmaz.

123.İlhamın işığın közə bağlama,
Hər cızma-qaranı sözə bağlama.

124.Xainin dilinin cəzası böyük,
Haqqa dönüklərin qəzası böyük.

125.Həyatın işığı çıraqdır ömrə,
Onun sevdası var Rəbb verən əmrə.

126.Dövrün dəryaları udur cahili,
Necə ki, dalğalar yuyur sahili.

26.09. 2008

127.Dünyada heç kəsdən gözləmə kömək,
İnsanı qaldırar, endirər əmək.

128.Həyat duyanlara qapısın açar,
Ömrün sonunadək duymayan naçar.

129.Layiqsiz başına qoyulsa da tac,
Olar tac ona yox, o, taca möhtac.

130.Dilinə gəlmirsə həqiqət adı,
Gözləmə haqqından sən heç imdadı.

131.Mənliyi olanın qürur zinəti,
Heç kim götürməsin gərək minnəti,

132.Yoxdur heç bir işdə yolun asanı,
Ağıl ayaqlara salmaz insanı.

133.Zaman vaxt atında ömürü qovar,
Adamın anlarla səadəti var.

134.Doğuldun, qədrini bil hər bir anın,
Ömür qulu olub müdrik olanın.

135.Dünya Yaradanın həyat naxışı,
Hərənin bir cürdür ona baxışı.

136.Günəş İlahinin ölçü qaşığı,
Odur ki, hələ də gəlir işığı.

137.Haqqın əlindədir səliqə-səhman,
Dünyanı boşuna fırlatmır zaman.

138.Haqqa tərəzidir alimin gözü,
Odur ki, dünyanı yaşadır özü.

139.Dünya öz istisin günəşdən alır,
Ürək alovunu atəşdən alır.

140.Eşqi ağılında gəzdirən kəsin,
Ağılı batırar ürəyin səsin.

141.Mehrini kitaba salan uduzmaz,
Enişdən, yoxuşdan keçəndə azmaz.

142.Hər qəlbə od verir sevgi közündən,
Kim əzab çəkməyib eşqin üzündən?

143.Ürəyə sitəmdir dilin ağrısı,
Kim yara görməyib ondan doğrusu?

144.Var-dövlət qulaqdan dincliyi alır,
Vaxt ötürən zaman, gəncliyi alır.

145.Nə qədər alüdə olsa da zərə,
Can yükünü çəkir dünyada hərə.

146.Bu dünya bir üzük qaşına bənzər,
Qaşın parlaqlığı yaşına bənzər.

147.Hər ağıl yiyəsi neçə dərd çəkir?
Dərdi də dünyada yalnız mərd çəkir.

148.Hər kəsin könlündə həyat işığı,
Sağ ikən sayılır can yaraşığı.

149.Var ilə sayılmaz dostluğa vəfa,
Onun sınağının ölçüsü cəfa.

150.Ağılın ağrısı başdan başlayır,
Çox ürək qüsuru yaşdan başlayır.

151. Siz məni qınamın, ey bəni-bəşər,
Haqdan yazmaramsa qəlbə qan düşər.

152.Vətəndən qeyri mənə qürbətdi,
Vətənin zəhəri də şərbətdi.

12.09.2009

153.Hər kəs öz yerini bilsə, nə yaxşı,
Haqq qoyduğu yola gəlsə, nə yaxşı.

20.10.2011

154.Həyatın o üzü özünə bağlı,
Hərdən də çaşdırır közüylə ağlı.

28.06.2012

155.Hər kəsin əlinə düşməyir çox pul,
Düşəndə özünə çoxun edir qul…

156.Vaxtı öldürənlər baxtı öldürür,
Ömrünü özünə yaman güldürür.

157.Hər ruhun işığı nəfəsdən çıxır,
İnsan can verəndə qəfəsdən çıxır.

158.Səadət hər kəsin başına tacdır,
İnsan səadətə daima acdır.

159.Dünyaya zəhərdir nadan adamlar,
Hər cür rəzaləti udan adamlar.

160.Həyat düşüncəsi ağıldan keçir,
Sonra öz suyunu ürəkdən içir.

161.Yaşamaq hər kəsə bir imtahandır,
Onun ağrısını çəkən tək candır.

162.Ağılla ürəyin gedir savaşı,
Bilinmir hansıdı daha çox naşı.

163.Ürəyə düşəndə vicdan ağrısı,
Çıxarmaq çətindi candan doğrusu.

22.09.2015

164.Haqqın dərgahından kömək umanlar,
Bizim özümüzdən gəlir yamanlar.

165.Acgöz adamların gözü doymayır,
Kimsənin dərdini heç vaxt duymayır.

166.Məzhəb ağrısıyla yanan müsəlmən,
Bir-birin qırmaqmı Allaha iman?

167.Sənin ucbatından əzab çəkir can,
Ağrıya-acıya tab edən vicdan.

168.Səhərin işığı salamdan başlar,
Kimə şadlıq düşər, kimə göz yaşlar.

169.Heç kəs bu dünyadan heç nə aparmır,
Mənliyi olanlar yolun saparmı?

170.Bəlkə ləğv edilə cahanda dinlər,
O zaman yetişə Allaha ünlər…

171.Qorxağı kim duyar, kim qulaq asar,
Önünə çəkilər zülümdən hasar.

172.Dərd ürək qapısın döyər qonaqtək,
Bacaran qapıdan qovar qınaqtək.

173.Ağıl yükləyəndi, ürəksə çəkən,
Bədən başdan-başa ağrıya məkan.

174.İnsan xilas edən hipokrat andı,
Hansı od-ocaqda alışıb yandı?

175.Hər kəs öz ağlının bəhərin görür,
Boğaz kilidləyən qəhərin görür.

176.Haramla yığılan varın dərdi çox,
Halalla qurulan evin mərdi çox.

177.Özünə tərifi yağdıran xalqın,
Tapdıyar hər zaman özgələr haqqın.

178.Heç vaxt görünməyir hiylənin üzü,
Bağlıdır hər zaman bəsirət gözü.

179.Qardaşın qardaşa açdığı güllə,
İşlənir hər zaman bir özgə əllə.

180.Hörmürçək toruna bürünən ağıl,
Qurar tor içində özünə nağıl.

181.Əzabı sonsuzdur düşünənlərin,
Ağrıya bələyir idrak günlərin.

182.Talan eyləyənlər xalqın malını,
Sonda görəcəklər acı halını…

183.Nə gəlir insana sözündən gəlir,
Yaxşı-pis hər kəsə özündən gəlir.

184.Millətin varlığı dövlətə bağlı,
Dövlətin varlığı millətə bağlı.

2016.

DEYİMLƏR

1. Adamın min üzü, dərdin bir üzü.
2. Baş düşünəndi, ürək çalışan.
3. Şəri törədən də adamdı, əridən də.
4. Göz eşq gətirər, ürək bitirər.
5. Dilin şirini – dirildər ölünü.
6. Sevgi hünərdi, yaşadan ərdi…
7. Aşiq ol sevənə, sevməyənə yox.
8. Ağrı candan doğar, bədənə keçər.
9. Bir yaxşılıq, min yamanlıq üyüdər.
10. Dilin zəhəri, verməz bəhəri.
11. Mərd tikəndi, namərd sökən.
12. Qonşunun pisi, gətirər küsü.
13. Hicran acıdı, sevgi tacıdı.
14. Həyat bazardı, duydun azardı.
15. Getmə uzağa, başa dərd yağa.
16. Ağıl əzəldi, duydun düzəldi.
17. Kimsəyə atma, aləmi qatma.
18. Canda mərhəmət, edər xoş niyyət.
19. Dil ahdan keçir, günahdan keçir.
20. Ömür qısadır, sonu yasadır.
21. Günaha getmə, vicdanı ötmə.
22. Ömrün gərdişi, zəhərli dişi.
23. Ağılı ötmə, hissi tərk etmə.
24. Qəlbin işığı, dərdin aşığı.
25. Günə dəyər ver, ömrə bəhər ver.
26. Dil haqqı öyə, vicdanı öyə.
27. Sevin ki varsan, ruhuna yarsan.
28. Könül qaladı, hicran taladı.
29. Əzabın üzü, ürəkdə közü.
30. Dünya tamaşa, bacarsan yaşa.
31. Aqil tənhadır, ömrü ahdadır.
32. Bu dünya qəhər, udana zəhər.
33. Həyata naşı, axar göz yaşı.
34. Sevgi bal kimi, min bir hal kimi.
35. Ömür fırtına, minmə sırtına.
36. Gününü sayma, dünyadan doyma.
37. Çalışmaq uğur, şad olmaz fağır.
38. Özünü tanıt, vicdan indi qıt.
39. Sev bu həyatı, çap murad atı.
40. Tale əlində, tez çap belində.
41. Yaşamaq zövqü, artırar şövqü.

42. Öldürmə günü, batırar ünü.
43. Tələs sabaha, yatmaq çox baha.
44. Həyat uğurdu, çökdün ağırdı.
45. Zalımın sözü qatlayar dizi.
46. Xəyanət tənə, uçurar binə.
47. İtirmə günü, batırar ünü.
48. Ötən zamandı, itdi amandı.
49. Sevgi ürəkdən, keçər ələkdən.
50. Durmaz çənəsi, bitməz tənəsi.
51. Bu dünya laçın, qapısın açın.
52. Çökmə ağrıya, qəlb aç doğruya.
53. Səadət haqdan, gəlməyir yaddan.
54. Qəlbdəki işıq ömrə yaraşıq.
55. Dilin acısı, ömrün sancısı.
56. Sayğı et eşqə, yaraşmır məşqə.
57. Dilinə bal qat, gözəldir həyat.
58. Ömür keçəri, ağrı içəri.
59. Fələyi sorma, dərinə varma.
60. Hicran həyatdı, qanana çatdı.
61. Yaşat ömrünü, Rəbbin əmrini.
62. Acını burax, ətrafına bax.
63. Sevənin közü, güldürər üzü.
64. Əzimkar olan, udar min bir an.
65. Yaşat qəlbini, oxşa səbrini.
66. Zaman ucada, can var bacada.
67. Eşq bir həyatdı, sevəni tutdu.
68. Yaradan vicdan, unutma bir an.
69. Dünya tərəzi, bitməz mərəzi.
70. Ömür əmanət, istər dəyanət.
71. Eşq ver diləyə, bənzər mələyə.
72. Vəfa şirindi, tutsan dirindi.
73. Gənclik ucalıq, istər xoşqılıq.
74. Sev həyatını, qur büsatını.
75. Enmə ayağa, dözməzsən dağa.
76. Bu möhlət quşu, gəzər dağ-daşı.
77. Gələn gedəcək, haqq yolu seçək.
78. Tələs sabaha, can tənə baha.
79. Bişir sözünü, vurma dizini.
80. Ürək vurandı, ağıl qurandı.
81. Paxıl şüvəndi, şərə güvəndi.
82. Gəncliyi qoru, ipəkdi toru.
83. Gün vaxta bağlı, əldə nağılı.
84. Yaltağın dili, gətirər əli.

85. Sevda yolçusu, haqqın elçisi.
86. İtirmə iman, əfv etməz zaman.
87. Aşiqin odu, sevginin dadı.
88. Dünya şəkərdi, dadan nökərdi.
89. Varsa amalın, artar kamalın.
90 Ağlatma gözü, qopartma közü.
91. Ağılın gücü, vaxtın ülgücü.
92. Qoru ürəyi, qursun diləyi.
93. Yetən imana, çatar peymana.
94. Eşqə səcdə et, Yaradana yet.
95. Qırma ürəyi, artar kələyi.
96. Vətən məkanın, yaşam imkanın.
97. Qoru Vətəni, canda bitəni.
98. Kişi bir ərdi, eşqi hünərdi.
99. Cızıqdan çıxma, evini yıxma.
100. Yoldaşın candı, tənə ünvandı.
101. Can əzab verən, tən ağrı dərən.
102. Sevgi gözəl hissdir, anlamayana pisdir.
103. Ömür duyuqdur, cana yovuqdur.
104. Sürət ver gücə, endirmə heçə.
105. Bəxtə vurulma, sonra darılma.
106. Zalımın adı, söndürər odu.
107. Güldür ürəyi, versin diləyi.
108. Səadət başda, artmayır yaşda.
109. Hicran acıdı, sevgi tacıdı.
110. Əyilmə yada, salsın fəryada.
111. Baxış od salar, ürəyi alar.
112. Vicdana öc ver, ömürə tac ver.
113. Dövran qarışıq, anlayan, aşıq.
114. Allah ağılda, ötməz nağılda.
115. Vicdana sim ver, ürəyə him ver.
116. Sev eşqlə canı, dürüst tut anı.
117. Saatın vaxt ucu, ağladar gücü.
118. Zaman zalımdı, ölüm-qalımdı.
119.Bitməsə hicran, təndən gedər can.
120. Ömür yaşantı, sonu sarsıntı.
121. Sevgi güldürər, həsrət öldürər.
122. Yaşat amalı, ucalt kamalı.
123. Həyat aynadır, gözü qaynadır.
124. Zülmə üsyan, Allaha həyan.
125. Tanrı içimdə, min bir biçimdə.
126. Yaşat ruhunu, inlət ahını.
127. Çağlat canını, coşdur qanını.

128. Zülmdən qaçan, qorxunu qucan.
129. Əymə özünü, görmə dizini.
130. Həyat heyrətdi, udsan nemətdi.
131. Zülmə əyilmə, untək üyülmə.
132. Ürəyin halı, bəxt qeylü-qalı.
133. Yaltağın dili, ağladar eli.
134. Yurd candan keçir, ürəyi seçir.
135. Ömür işığı, can yaraşığı.
136. Yadı dinlətmə, qəlbi inlətmə.
137. Sevda bir yoldur, can ona quldur.
138. Tox yeməkdən ölər, ac da acından.
139. Yaşat ruhunu, inlət ahını.
140. Sevgi həyatdı, qəlb oda atdı.
141. Gənclik xətası, qocalıq yası.
142.Ruha inci ol, qəlb sevinci ol.
143. Sevgi ürəkdən, gələr diləkdən.
144. Ağrıya möhtac, daim dərdə ac.
145. Dərdə qul olma, ürəyə salma.
146. Aclar çörəksiz, toxlar ürəksiz.
147. Mənliyi qoru, bitməz bu soru.
148. İş daşdan keçir, təlaşdan keçir.
149. Ağlına söykən, işə dur erkən.
150. Zaman havalı, dillər dualı.
151. Arxalan başa, vur ömrü başa.
152. Zülmə zaman yox, şərə iman yox.
153. İtirmə ağlı, ömürə bağlı.
154. Yaşam işıqdı, ömür qaşıqdı.
155. Zülmə tənə yox, haqqa binə yox.
156. Göz yaşa qəsir, ağrını kəsir.
157. Yaşına uyma, günü boş qoyma.
158. Dünya tə'nədi, yanan sinədi.
159. Ömür möhləti, etməz hörməti.
160. Hər dildə bəla, getməyir yola.
161. Acgöz doymayır, gözdən qoymayır.
162. Dünya həyatdı, tənbələ çatdı.
163. Dinlət ağrını, desin doğrunu.
164. Şirin dil varmı, ürəyə yarmı?
165. Sevdanın özü, ağladar gözü.
166. Tap şirin dili, dinsin qəlb teli.
167. Qəlbin ocağı, Vətən qucağı.
168. Bu zalım zaman, verməyir aman.
169. İlahi nurdu, ruha qürürdü.
170. Vara hərisin, kim qırar hissin?

171. Dağ duman verər, göy iman verər.
172. Ömür pilləsi, yaman silləsi.
173. Min murad ata, baş vur həyata.
174. İtməsin güman, var yaxşı-yaman.
175. Zaman keçəri, ömrü biçəri.
176. Çalxat ürəyi, o eşq mələyi.
177. Sındırma qəlbi, o ruhun təbi.
178. Ömür dumandı, ötdü yamandı.
179. İlahi nəzər, insanı bəzər.
180. Doğulan bəşər, niyə gərək şər?
181. İlahi eşqi, bəndənin məşqi.
182. Canın işığı, dilin aşığı.
183. Vicdan əzabı tükədər tabı.
184. Hicran candadı, sevən andadı.
185. Eşq bir həyatdı, sevəni tutdu.
186. Dərd leysan tökər, ürəklər çəkər.
187. Hicran eşq tacı, sevmək əlacı.
188. Vuruldun batdın, qəlbə dərd qatdın.
189. Hiylə ürəklə, gəzər kələklə.
190. Girmə ağıla, düşmə nağıla.
191. Həyat ışıqdı, qaşıq-qaşıqdı.
192. Ruh sirr yuvası, canda havası.
193. Qürbətə uyan, Vətəndən doyan.
194. İllər imtahan, müəllim cahan.
195. Cana kəc baxan, ömrünü yıxan.
196. Mərifət əhli, imanı bəlli.
197. Möhlət işığı, ömrün aşığı.
198. Allah yaradan, özündən qadan.
199. Hər ömür şamdı, yananda kamdı.
200. Udma zilləti, bitməz illəti.
201. Danma hicranı, ağrıdar canı.
202. Ağıldan qaçma, hislərlə uçma.

04-05.07.2015*

203. Ağıldan gələn bəla, Salar insanı dala.

07.05.2016

204. Kim hərəkətdə o bərəkətdə.
205. Yaxşılıq etmək yaxşı, Gətirməyə göz yaşı.

04.06.2016

MƏSƏLLƏR

1.Düşmənə öz yerini göstərməsən,
o səni öz yerindən edər.
2. Dərdə əyilməsən, dərd səni əyməz.
3. Yaxşılığın əvəzini gözləmə,
gözləsən düşərsən qəmə.
4. Ömür axar sudur, çoxu ondan asidir.
5. Hər kəsin öz həyatı çapır-keçir ömür atı.
6. İnsan öz əməlinin bəhrəsin yeyir.
7. Vətənə sahib çıxmasan, o sənə yad baxar.
8. Dərd – ağac qurdu, adamı içdən yeyər.
9. Can deyən çox olar, əlac edən az.
10. Möhnət bir gəmi, batırar qəmi.
11. Sözünü bilməyən, özünü bilməz.
12. Adam ağlından əzab çəkir.
13. İnsan doğulan andan qocalmağa başlayır.
14. Vaxt qapı açır, gün götürüb qaçır.
15. Eniş düz yoldu, yoxuşa quldu.
16. Aciz uduzar, yolundan azar.
17. Tez durmaq uğur, gec durmaq ağır.
18. Göz baxar doymaz, nəfsi dinc qoymaz.
19. Qocalar dəri, əridər zəri.
20. Gecə minnətçi, sabah zinətçi.
21. Ağıl başdandı, ömür yaşdandı.
22. Can haqdan işıq, tənə yaraşıq.
23. Ömür keçici, gündə bir ucu.
24. Dünya seyirdi, uddun – xeyirdi.
25. Xalq eldən gəlir, söz dildən gəlir.
26. Vətən – gülüstan, yad girsə – bostan.
27. Hicran can alar, eşq ilə qalar.
28. Hər söz yay kimi, pisi vay kimi.
29. Dərdin qapısı, ürəyin yası.
30. Yaxşılar azdır, pislər dayazdır.
31. Getmə dərinə, ürək sürünə.
32. Çıxdın enişə, dünya xoş guşə.
33. Ağıl işləsə, uddun nə isə.
34. Can sənə doğma, ahınla boğma.
35. Vicdan işıqdı, qanan aşiqdi.
36. Qazandın sənin, uduzdun çənin.
37. İlhamın közü, ürəyin sözü.
38. Həyat nemətdi, yarı zillətdi.
39. Elmə yetişən, bəxtlə ötüşən.

40. Din ibadətin, elm qüdrətin.
41. Sərvətə uyma, gözdən də qoyma.
42. Yaşat özünü, döymə dizini.
43. Birlik eldən, doğmalıq dildən.
44. Qəm sarmaşıqdı, qəlbə aşiqdi.
45. Qəlb ürfan yeri, sevənə diri.
46. Elm zəhmətdən keçir, ağıl şərbətin içir.
47. Dəyər ver qışa, yazı da yaşa.
48. Savad zəfərin, elm səfərin.
49. Çıxdın sabaha, əyilmə aha.
50. Şərab sərxoşluq, ömrə naxoşluq.
51. Göz baxar, doymaz, can rahat qoymaz.
52. Ürək cana tac, ağrı ana ac.
53. Elm ucalıq, duymasan aclıq.
54. Allah yaradan, duymasan qadan.
55. Yetdin zirvəyə – son qoyma səyə.
56. Hər günü öyrən, özünə güvən.
57. Əl açma yada, ləkədi ada.
58. Zülmə əyilmə, sonra döyülmə.
59. Xoş Vətən bağı, girməsə yağı.
60. Ömür şirindi, həyat dirindi.
61. Zülmə asi ol, haqq təması ol.
62. Mərifət zəfər, qaçmaz bir nəfər.
63. Həyat çox qısa, batırma yasa.
64. Xoş düş dillərə, layiq ellərə.
65. Coşsa amalın, gülər camalın.
66. Aşiqin gözü, söylər eşq sözü.
67. Çıxdın yarışa, çalış get başa.
68. Hicran ağırdı, yanan bağırdı.
69. Daşın sirri var, içdə dürrü var.
70. Anlar – ilmədi, naxış – bilmədi.
71. Çap zəfər atın, gülsün həyatın.
72. Canına qıyma – məzara uyma.
73. Can sevda yolu, ömürsə qulu.
74. Hünər – çarpışmaq, zəfər – çalışmaq.
75. Ağıl söyləyən, könül dinləyən.
76. Tez versən canı, yenisi hanı?
77. Vətən – evindi, atdın – divindi.
78. Ürək bilməcə – unutdun gecə.
79. Çıx dağ başına, bax sərt qışına.
80. Sözün yarası – üzün qarası.
81. Ağıl gövhərdi anlamaq dərdi.
82. Aç könül qatın, çap sevda atın.

83. Məhəbbət tələ, keçirdir ələ.
84. Hər gələn gülməz, həyatı bilməz.
85. Elm açardır, qanmaz naçardır.
86. Gülmə özgəyə, bir bax güzgüyə.
87. Çalışmaq çağın, tənbəllik yağın.
88. Çalış təhsil al, ötsün çətin hal.
89. Bilikdən qalma, quyuda qalma.
90. Dərsini oxu, odur şan oxu.
91. Dil acı olsa, düşürər yasa.
92. Mərifət – kitab, hər kəs etmir tab.
93. Əl-ayağın var, hünərə nə var?
94. Canda hünər tap, zirvələrə çap.
95. Qalxdın sabaha – durma get daha.
96. Bağın neməti, bağban zilləti.
97. Daş atma yada, gedərsən bada.
98. Qaçsan irəli, işlə yor əli.
99. Zəhmətdən qalma, qulu da olma.
100. Gün gəlsə acı, hünər əlacı.
101. Boşluğa düşmə, şərə ilişmə.
102. Ağla səcdə et, xeyrə doğru get.
103. Para həyatdı, çoxunu satdı.
104. Qanana dost ol, qanmaza qəsd ol.
105. Hicran bir yuxu, zəhərli oxu.
106. Aşma həddini, əymə qəddini.
107. Dürüst ömür sür, mükafatı dürr.
108. Əyrilərdən qaç, onlar gözüac.
109. Haram əskilər, halalsa – gülər.
110. Tapsan əlacı, gün keçməz acı.
111. Şərə qul olma, xeyirdən qalma.
112. Sözün düzü, haqqın üzü.
113. Yoxuş çətindi, çıxan mətindi.
114. Yaxşılar azdır, hər işi yazdır.
115. Vicdan işığı, haqq yaraşığı.
116. Ucalıq elm – yetmədin zülm.
117. Qışın qarı, yazın barı.
118. Savad – zəhmətdən, gələr idrakdan.
119. Allahı duyan etməz qan-qada.
120. Zirvə ucalıq – ensən viranlıq.
121. Ömür – can tacı, gah şirin, gah acı.
122. Can Yaradanın, uca tut adın.
123. Ağıl gövhərdi, əymədi mərdi.
124. Arxasız adam – budaqsız ağac.

19. 08. 2014

MÜƏLLİF HAQQINDA

Şirinxanım Ağabala qızı Kərimbəyli (ədəbi təxəllüsü ŞADİMAN) 2 sentyabr 1955-ci ildə Siyazən (keçmiş Dəvəçi, indiki Şabran) bölgəsinin Tağay kəndində anadan olub. Doğulduğu kənddə səkkizillik məktəbi, sonra Siyəzən şəhər 2 saylı orta məktəbi bitirib. 1973-75-ci illərdə Yenikənd üzümçülük sovxozunda fəhlə,1975-76-ci illərdə Volodarski adına tikiş fabrikında tikişçi işləyib.1977-ci il-də ADU-nun (indiki BDU) hazırlıq şöbəsində dinləyiçi, 1978-83-cu illərdə Kitabxanaçılıq (indiki İnformatika fakultəsinin əyani şöbəsini bitirib. 1992-ci ildə Azərbaycan jurnalist Sənətkarlığı İnstitutun məzunu olub. 1984-cu ildə Dəvəçi rayonun (indiki Şabran), hal-hazırda Siyəzən rayonun inzibatı ərazisi sayılan Gilgilçay qəsəbəsində kitabxana müdiri vəzifəsində çalışıb. 1985-2007-ci illərdə ADNŞ-nın Mədəngeofizik idarəsinin «Neft Daşları» geofizik ekspedisiyasında cizgiçi, texnik, mühəndis peşələrində çalışıb.

2007-ci ildən həmin idarədən əmək təqaüdünə çıxıb. Əmək fəaliyyəti ilə bərabər bədii yaradıcılığını davam etdirib. Dövrü mətbuatın mətbu orqanları olan «Neft Daşları», «Ədalət», «Çənlibel», «Azərbaycan müəllimi», «Bütöv Azərbaycan», «Kredo», «Mütərcim», «Məhsəti» və sair qəzet-jurnallarda çap olunub. «Məcməüs-şüəra»(Şairlər məclisi), «Füzuli» ədəbi məclislərin üzvü olub. AYB-nın və CASCFEN(Orta Asiya və Güney Qafqaz Söz Azadlığı Şəbəkəsi)nin üzvüdür. Hal-hazırda ədəbi fəaliyyətlə məşğuldur. «Modern.az», «Yalquzaq.com», «Davam.az» «Lit.parad», «Dayaq.az» və sair internet portallarla yaradıcılıq əlaqələri saxlayır. «Azpressin» və «Kredo» qəzetinin əməkdaşıdır. Şəxsi saytı aktiv faliyyətdədir.

Müəllifin çapdan çıxmış kitabları:

1. «Ürək niyə ağrıyırsan?», (Şeirlər), Bakı-1991, «Azərnəşr», 56 səhifə, sayı 3000.
2. «Çəkənə qəm dünya, çəkməyənə dəm dünya», (Şeirlər, poemalar, pyeslər), Bakı-2000, AEK «Marfa press» nəşr., 400 səhifə, sayı 1000.
3. «Kiminə acı dünya, kiminin tacı dünya», (Şeirlər, poemalar, pyeslər), Bakı-2002, «Nurlan», nəşr., 566 səhifə, sayı 500.
4. «Ağıla bəhər dünya, ürəyə qəhər dünya» (Şeirlər, poema), Bakı -2007, «Nurlan» nəşr., 742 səhifə, sayı 500.
5. «Seçmələr» (1 cild), Bakı-2008, «Nurlan» nəşr., 292 səhifə, sayı 1200.
6. «Məni illərdən soruşun» (Publisist düşüncə), Bakı-2008, «MBM» 95 səhifə, sayı 300.
7. «Dünya mənə tanış gəlir» adı ilə «Ürək niyə ağrıyırsan?» və «Çəkənə qəm dünya, çəkməyənə dəm dünya» kitablarının birlikdə təkrar nəşri, Bakı-2009, «Nurlan» nəşr., 522 səhifə, sayı1000.
8. «Tağayım», poema, Bakı-2010, «Adiloğlu» nəşr., səhifə 56, sayı 500.
9. «Ay adamlar, mən burdayam», «Adiloğlu» nəş. Bakı-2012 səhifə 454, sayı 500.
10. «Seçmələr», 2-ci cild, Bakı-2012, «Adiloğlu» nəş., səhifə 326, sayı 1200.
11. «Ötənlərdən gələn səslər», « Qanun» nəş. Bakı 2013, səhifə 632, sayı 500.
12. «Ötənlərdən gələn səslər», 2-ciild, «Qanun» nəşriyatı., Baki 2014, səhifə 480, sayı 500.
13. . «Seçmələr», 3-ci cild, Bakı-2015, «Qanun» nəşriyatı, səhifə 438, sayı 750.
14. «Seçmələr», 4-ci cild, Bakı-2015, «Qanun» nəşriyatı, Səhifə 360, sayı 750.
15. «Söz könlümü qələm etdi» /publisistik düşüncələr/ Bakı-2016 «Qanun» nəşriyatı, səhifə 288, sayı 500.
16. «Tək Yaradana gümanım» Bakı-2017, (Şeirlər, poemalar) «Qanun» nəşriyatı, səhifə 480, sayı 500.
17. «Seçmələr», 5-ci cild, Bakı-2017, «Qanun» nəşriyatı, Səhifə 464, sayı 500.

Müəllif və əsərləri haqqında çap olunmuş kitablar:

1. «Adı Şadiman olanın», Əli Rza Xələfli, Bakı-2009, «Təknur» nəş., səhifə 256, sayı 1000.
2. «Axtala əfsanəsi», Əli Rza Xələfli, Bakı-2010, «Adiloğlu» nəşr., səhifə 144, sayı 500.
3. «Üç rəngli bayrağa bürünmüş şairə» Nəzirməmməd Zöhrablı, Bakı-2010, «Adiloğlu» nəşr., 148 səhifə, sayı 500.
4. «Qırmızı həqiqətlər», Əli Rza Xələfli, Bakı-2011, «Adiloğlu» nəşr., səhifə 130, sayı 500.

MÜNDƏRİCAT

ALLAH

Böyük Yaradana Seç1-6 5
Quranda şairlər haqqında ayə Seç1-5 8
Yaradanım S1-15 8
Bahar buludutək S5-21 9
Bir Tanrı var S1-13 10
Səcdə nə gərək hər bütə Allah olan yerdə S2-5 11
Rəbbə S3-5 12
Hər nə varsa Allahdandı S5-6 13
Tanrı saxlasın S3-19 14
Dolaşır yeri-göyü qəm-qadalar S5-9 14
Qoru Allahım S4-12 15
Məzhəb acısından qop, ay müsəlman S4-22 16
Allah S3-13 17
Din adı altında bu vəhşiliklər S5 -16 18
Utanıram İlahi S5-11 19
Sənə açılıbdı əllər, İlahi S2-11 19
Əncəm et S4-18 20
Nə ola yetişəm sənə, Allahım S1-11 21
Ey Xuda S4-17 22
Niyə şairləri yaratdın, Allah? S4-5 23

DÜNYA

Dünya sevincdən doldu ya kədərdən gözlərin S1-26 24
Dünya mənə tanış gəlir S1-28 25
Gözləmə S1-21 26
Bu qərbə bərəkəllah S1-37 26
Siyasətdi, siyasət S1-40 28
Ey bir dəli sevda dünya.S2-11 31
Verilir haqqa cəza S1-32 32
Bu dünyada S1-17 33
Qara fikirlər olmasa S2-15 34
Körpə gülüşü S2-16 34
Ələmin ömürü zamandan uzun S1-35 35
Yalan dünya S1-46 36
Dünya susdu S1-44 38
Nigaranam S2-14 39
Çəkənə qəm dünya S1-24 40
Doğulan peşiman, ölən peşiman S1-30 41
Sazım çal S2-12 42
Etmədi dünya S2-43 44
Dünyanın qəminə qəm kimi baxdım S2-43 45
Günəşisevərlər deyirlər sənə S2-67 45
Bu dünya qəm çeşməsi S3-20 46
Sevdam var hələ S3-22 48

Qabarlı əllər S3-52 49
Qoyun azad uçsun göylərdə quşlar S3-46 50
Yuxum çin olaydı kaş S3-53 51
Şad etdin kimi dünya? S4-28 53
Tamaşa dünya S4-26 54
Bu dünya mənimdi S4-39 55
Bilmədin dünya S5-49 56
Bu dünya nə sənə, nə mənə qalmaz S4-30 56
Nə oldu? S4-36 58
Bizim dünya adlı vətənimiz var S5-30 59
Dünya şeytan içində S1-57 61
Tuş olmasın nakəsə. S5-46 62
Səlam olsun S1-64 63

VƏTƏN

Bayrağım S1-65 64
Qan-qadalı məmləkətim S1-122 65
Qəribəm, Vətən S5-109 67
Səni qana salan S5-109 67
Əski Azərbaycanın iyirmi səkkiz mayısan S1-67 68
Pıçıldaşan deyilmi? S5-81 69
Bizi özümüzə qaytaran ola S1-73 70
Vətən fəryadı S1-88 71
Neftçilər S3-97 73
Ey karvan yolunda soraq Dəvəçi S1-83 74
Dəvəçi-Siyəzən isti ocağım S1-87 75
Siyəzən S1-85 75
Vətən olmaz S1-98 76
Necə gedə biləydim S5-72 78
Can Azərbaycan S1-104 78
Vətəndi S1-107 80
Müəllim S3-96 81
Şəhidlər xiyabanı S1-77 82
Bəxtin açılsın S5-99 83
Yanıq Kərəm S1-134 84
Bizi bu dərd ilə barışdırmayın S2-100 85
Vətən elinə qurban S2-83 86
Qanlara boyandı Bakı ah ilə S2-92 88
Azərbaycan S2-75 90
Açılmayır baxt S5-61 93
Bir tərəfdə şəhidlər, bir tərəfdə danışıq S2-97 93
Vətən torpağı S5-84 94
Mənim şair babam S3-85 95
Dözə bilmirəm S3-88 97
Qonşu, belə qonşuluğa ar olsun S3-138 98
Neft Daşlarında gecə S4-50 100
Türkün bayrağı S4-62 102
Bu yurdun eli hanı? S4-47 103

Eşqin bitməz Azərbaycan S5-64 104
Gözəl vətən S4-55 105
Çanaqqala S5-110 106
Mustafa Kamal Atatürk S3-166 108
İstiqlalın sorağı S3-164 109
Elçibəy S3-168 111
Ey böyük şairim S2-158 112
Üzeyir elimizin dahisidir S2-160 114
Xəlil Rza S2-162 115
Köçdü haqq dünyasına şeirmizin Bəxtiyarı S2-166 116
Çəkdi yazıq millətinin ağrısın S2-168 118
Böyük əməllərin yaşar ellərdə S2-173 119
Ah yazıq məmləkət, ah yazıq vətən S2-175 120
Heç olmadı bir xoş günümüz S4-65 122
Şəhidin qanı S5-77 122
Yaradır insan S3-98 123
Necə yaşayırıq biz S5-92 124
Əsli-soyu tamam danan S4-64 125

ÖZÜMÜ AXTARIRAM

Özümü axtarıram S1-158 126
Ulu Tanrım, narahatam S1-146 127
Gəl tələsmə ağarmağa, saçlarım S1-148 128
Ürək, niyə ağrayırsan S1-150 129
Adın gəzər bu ellərdə, Rübabə S1-155 130
Arzular S1-163 131
Tənha qadın S1-168 134
Mən insan axtarıram S1-160 136
Dil nahaq danışanda S1-20 137
Kim deyər hansı yaxşı? S1-209 138
Pislik günahdan gəlir S4-83 138
Ana dünyası S2-198 139
Nə sən bildin nə mən S2-194 141
Bacım S2-196 142
Acılar S4-118 143
Küləyi ötən gəmi S2-208 144
Könül hücrəm S2-210 146
Ay aman S3-183 147
Ömrün illəri S5-140 147
Deyəcəm S3-188 148
Gərək S3-192 149
Yol gedirik S3-194 150
Bilmirəm səni S5-145 150
İtirdik günümüzü zərrə-zərrə əlimizdən S3-198 151
Gecikməyin S3-194 152
Özümü heç yerdə tapa bilmirəm S3-215 152
Üşüdüm S3-204 153
Qanunsuz doğulmuş qızcağaza S3-206 154

Lənət və rəhmət S3-210 156
Bu göylə yer arası S3-212 157
Dənizlə mən S3-216 158
Qadınlar S4-95 158
Niyə gərəkdir? S3-220 159
Ehtiyac S3-222 160
Yollara dikilib qalıb S5-137 161
Addımlar S3-224 162
Çətin gündə yaman-yaxşı sınanar S3-237 164
Fələk S3-202 164
Zəhər var altında yağlı dillərin S4-80 166
Kimə nə? S4-76 167
Məni bu talelə tək buraxmayın S4-82 168
Yaxşı adamları gəlin qoruyaq S4-84 168
Düzlüyü axtarmışam S4-85 169
Ey səadət quşu, harda qalmısan S4-86 170
Ey mənim ruhuma can olan fələk S4-87 171
Ömür elə keçir ki S5-131 171
Ürəyim ağlayır günümə mənim S4-88 172
Kim deyir heçnəyi aparmır insan? S4-89 172
Təkliyim mənim S4-91 173
Yıxdı könül mülkünü hicran dolu əndişə S4-77 174
Səadətim S4-92 174
Ömür S5-158 175
Möhtacam S4-97 176
Niyə vaxtsız ağarırsan saçlarım? S4-100 176
Aclığı olan bir kəsin S5 -165 177
Dünyaya gəlmək yaman S4-99 178
Səndən ötrü S4-101 178
Mənəm, mən S4-104 179
Payızlarım bələ başlar S4-105 180
Məndən yazdıqlarıma cavab istəmə S5-183 180
Yarpaq təki illərim S4-110 181
Kəsirlər dosta qurbanı S5-177 181
Küçə uşaqları – gözləri gəmli S5-126 182
Ömür sınaq meydanı S5-124 183
Ey mənim əlimdən qaçan illərim S5 – 128 183
Həyat məsum bir körpə S5-131 184
Hər gün gəlib-Keçirsən S5-132 185
Ömrün illəri S5-140 185
Doğum günüm S5-135 186
Gərək dürüst ola S5-161 186
Məktəb illəri S5 –136 187
Boğuldum S5-145 188
İnsan kimdir? S5-155 188
Əli-qolu bağlıların S5-159 189
Bir il də getdi ömürdən S5-161 190
Dil deyə bilmir S5-174 190
Gəl içəri doğum günüm YG-192 192

Dərd yüküm S5-184 193
Ay bu könül yoxsulu S3-174 194
Ucaldaq islamı S3-178 195
Kişidi bu S3-180 196
Ələbaxan S3-186 198
Tülkü Xislətli adam S3-184 200
Oğru S1-50 201
Bu yazıq xalqa qalan boş-quruca zəhmət olur S1-131 202
Müstəgilik S2-177 204
Əcəb yaxşı məkandı S2-179 206
Rüşvətə pərəstiş S2-190 208
Məddahlıq zamanın ürəyinə ox S2-65 209
Mənə meydan verün S2-101 209

İLHAM

İlham pərisi S1-172 210
Mavi yuxularım S1-152 212
İki damla yaş S1-171 213
Titriyən şam S1-175 214
Qəribəm S1-177 215
Qurumayır nəmS1-179 216
Bütün arzularım qaldı ürəkdə S1-202 216
Dəli ürək S1-182 216
Niyə şair doğdun məni, ay anna S1-190 218
Gözdə yaşım giryan olar S1-186 219
Yenə könlüm təblə cövlan eləyir S1-194 220
Hicran küləkləri əsir başımda S2-231 221
Çəkil get, qara bulud S1-197 222
Dolan vaxtı S1-184 223
Ey fələk, vermisən bu canı mənə S3-268 223
Tək səni istəyirəm S2-220 224
Yanacağam S2-221 225
Qəlbin həmdəm arar dillər içində S2-225 226
Nəş'ə məni doğur, dərd isə boğur S2-228 227
Dözüm işğalda S2-228 227
Şairin vəsifəsi S2-228 227
Siz məni tanımaq istəsəz əgər S2-229 228
Məni ürəyindən çıxar, ey fələk S2-234 228
Şair – kamerton S2-236 229
Bilmirəm nə gəzir bu can içində? S2-232 230
Yuxum çəkilib ərşə S2-235 231
Mənə divanətək baxıb, ey fələk S2 - 238 232
Alın məni, ey dalğalar S2-240 232
Yandı könlüm fəğan ilə S3-259 233
Haqdan gələn səslər S3-260 234
Öldürün, dirildin məni adamlar S2-241 235

Ovundura bilməz S3-274 236
Dilə gəldi ürəyimdə duyğular S3-277 237
Ağladır könlümü sultan təbim S3-278 238
Sinə dolu, gözü ağlar şairəm S3-282 239
Ürəyimdə yatıb qalmış S3-269 239
Xəyalım S3-280 240
Donub qalaram S3-269 241
Sən ey tufan məhəbbətim S3-279 242
Uçan röyalar S3-286 242
Qapım döyüldü S3-287 243
Olar S4-126 244
Kimsə ürəyimə toxunmayaydı S4-127 244
Yenə könlüm quşu cövlan eləyir S4-131 245
Nədən sızlayırsan, divanə bülbül S4-130 246
Payız axşamı S3-135 247
Ürəyimdən qopar ahlar S4-275 247
Ürək qınama sən məni S5-186 248
Gecələr şamı S5-213 249
Xəyalınla alışaram gecələr S5-190 250
Doğulan şeir S5-215 250
Ey şamlar aşigi S5-208 251
Heca S4-142 252
Şairin günü S5-231 252
Ürəyimlə görüşəcəm S5-217 253
Ey dili qafil S5-213 253
Ruhumu əlinə aldın S5-220 254
Gücüm qalmayıb S5-221 255
Sənə pak sevdalar S5-223 255
Gəzirsən otağda S5-227 256
Şam işığı S5-228 256
Getmisən məndən S5-232 257
Pərvanə S5-233 258
Bu gecə yuxuma gəlib S5-233 258
Getmədin heç vaxt S5-234 259
Bir dolu çeşmeyəm S3-214 260
Gecənin yastığı S5-231 261
Ruh ortağım S5-235 261
Mənim ilhamım S5-188 262
Baxa bilmirəm S1-180 262

MƏHƏBBƏT

Dəymə mənim ürəyimə S1-224 264
Qaldı yollarında yorğun baxışlar S1-225 264
Öyrətmə mənə S1-226 265
Gözüm aldı, könül tutdu, sevgilim S1-227 265

Dəli möhnətinə dözüm qalmayıb S1-229 266
İtirdim bir payız səhəri səni S1-228 267
Yuxuma niyə gəlmisən S1-232 267
Dedim ayrılaq S1-230 268
Mənə elə gəlir ki S1-231 268
Sən məni hər yerdə arayacaqsan S1-234 269
Səni istəyir ürək S1-233 270
Bu həyatım ağlar bir ney S1-235 271
Ey mənim taleyimin sabahı S1-236 271
Bəyaz gecələr S1-237 272
Gəlmə yuxulara ,gəlmə, sən allah S1-239 273
Bütün məmləkəti tutacaq ünüm S1-241 273
İkimiz də yanırdıq nə vaxtdan bu atəşə S1-242 274
Sən mənim könlümün möhnət yuvası S1-243 275
Sevgilim S1-245 275
Sən yadıma düşürsən S1-253 276
O odlu gözlərin könlümə atəş S1-246 276
Yar, yar S1-247 277
Sənin taleyinlə mənim taleyim S1-249 278
Röyalarda çəmənlikdə gəzirdim S1-251 279
Qova bilmirəm S1-255 280
Nə də həyat var S1-256 280
Nə lazım? S1-258 281
Oldum S1-257 281
O gün S1-260 282
Necə keçim? S1-261 282
Bir sən ol S1-265 283
Aman yarım S1-266 284
Var eşqidə S1-267 285
İlk məhəbbət S1-269 286
Ey yar S1-270 286
Nədən üz çevirib gedirsən belə? S1-271 287
Bu gecə gəlmişdi S5-358 287
Bir qərib axşamda düşdün yadıma S1-272 288
Bəbəkdən tökülən yaşlarım damla S1-273 288
Bir gün dön yarına S1-274 289
Yar gərək könlüvü alsın getsin S1-276 289
Xəyalın otaqdda uçur quş kimi S2-256 290
Yadımdadı? S1-262 290
Surətin Ay kimi durub qarşımda S1-275 292
Oxuyur sevda quşu canımda S1-279 292
Can çəkər bəla elə eşqidən S1-277 293
Titrək baxışların hönkürən bulud S2-248 294
Təkcə səni unutmaram S2-242 295
Ah necə sevirəm S2-250 296
Bu qatar yamanca şütüyüb gedir S2-251 297
Bu gecə xəbər et ulduzlara sən S2-252 298
Gözlərinin dənizində batmışam S2-258 298
Oda səcdə edən bir pərvanətək S2-253 299

Yaşıl gözlər S2-255 300
Əbədi qovuşaydıq S3-297 301
Ey məhəbbət S2-261 302
Həsrət və sevda S2-263 303
Uzun əhvalatdı səni sevməyim S2-279 304
Özünü sevdirə bilmədim sənə S2-281 306
Həm çiçəkdi, həm ətir S3-289 307
Bu acı həsrətlə qaldım baş-başa S2-254 307
Mən yadına düşəydim S3-290 308
Məndən əsirgəmə S3-294 308
Bildim S3-293 309
O gün ki S3-295 310
Yalvarıram S3-296 310
Səndən ayrı düşəndə S3-301 311
Yenə sənin olaram S3-298 312
Sənincin S3-299 313
Gəl bizim tərəfə S3-300 313
Ağladı fələklər S3-302 314
Mənəm S3-303 315
Çağırsan S3-304 315
Məni gözlərimin yaşından qoru S3-304 316
Sevirəm – bu sözdə həzin bir layla S3-319 317
Məni məftun eyləyən S3-322 320
Qovla bu çiskini S3-323 320
Hardasan S3-324 321
Vurğun olmuşam S3-325 322
Dilsiz sevgi S3-326 322
Həsrətli gözlər S3-327 323
Belə istəyirəm S3-328 324
Soyuq payızlarım S3-330 325
Hicrində yanır S3-329 326
O gözlərə həsrət qalmışam S3-333 326
Göndərsən evimə karvanla qəmi S3-332 327
Qara gözlər S3-333 328
Şirin kəlmələrin S3-331 328
Həsrət qalmışam S3-334 329
O gözlər kimi S3-338 330
Sənsiz günlərim S3-340 332
Mən vurulmuşam S3-345 332
Kaş olmayaydı S4-150 333
Gözlərinə baxaydı S3-348 334
Usanmışam mən daha S3-364 335
Ovunmaz gülüm S3-374 336
Bir daha S3-375 336
Sevgi duyğuları S4-148 337
Səni S4-158 337
Gəl S4-160 338
Nə deyərsən S4-162 338
Sən olmayanda S4-184 339

Sən çıxaydın qarşıma S4-186 340
Sənin çırağının piltəsiyəm mən S4-187 340
Sənə diləkçə yazıram S4-202 341
Bağçamızda iki lalə bitibdi S4-201 342
Səni sevməmək olarmı? S4-203 342
Bir nağıl danış S4-204 343
Vaxtsız xəzan düşüb gülümə sənsiz S5-248 344
Sənsiz nə edəcəm S5-258 345
Bəbəyimsən S5-293 346
Səndən küsmərəm S5-294 346
Qayıdacaqsan S5-314 347
Qoparmaq çətin S5-315 348
Sən də məndən xəbərsiz S5-320 348
İtirdim səni S5-318 349
Əlinin hərarəti S5-321 349
Qoruyacağam S5-321 350
Dəydim qəlbinə S5-322 350
Sevgilər körpü salandan S3-379 351
Apardı S5-328 351
Axtaracağam S5-332 352
Səhər-səhər nə xoş baxdın S5-353 352
Sən S5-359 353
Səni röyalarda yaşadıram mən S5-334 353
Mən də ordayam S5-361 354
Biləsən S5-367 355
Ürəyimdə qoruya bilsəm S5-368 355
Qürbətə sevgi məktubu S5-362 356

QƏZƏLLƏR

Yandırır sənsiz, ey afət, məni hicran gecələr S1-280 358
Eyvah,Ürəyim od tutub,atəşlərə yandı S5-281 358
Baxmayır insafa heç, candan alır can qocalıq S2-283 359
Yenə yaz gəldi gülür üzü vəfanın,bəri gəl S2-284 360
Ey səba,hicranıma candan qopan ah istərəm S2-285 360
Çəkdim ahı cani dildən S2-289 361
Gəlirsən öyləcə gəl S2-293 361
Bu adam bazarında insalığa acam mən S2-290 362
Fəda olsun canım sənə S2-291 362
Könlüm dolaşır ah ilə S3-388 363
Məmləkətim haray S3-396 363
Dad əlindən fələyim S3-390 364
Bağrı yanan ay şəhidim S3-390 364
Kafirlər yaman salıb S3-396 365
Sorağın gəldi mənə S3-388 365
Bülbülü satdı gül S4-206 366
Yanıram hər gecə S4-206 366
Bağlayıb eşqə könül S4-207 366

Yenə könlüm quşu qan ağladı S4-208 367
Hər kəsin sevdiyinə S4-210 367
Məni Leyli eləyən yarıma deyin gəlsin S4-217 368
Vəfa qılma bir kimsədən S4-221 368
Gələ bir başa ağıl, biz də bir hörmətə çataq S4-222 369
Əcəb düşdün qəlb içinə S4-219 369
Əgər yoxdur qəlbində sənin S4-221 370
Gəlmişəm öz canı verəm S4-224 370
Şair olanın ruhuna qanad gərək olsun S4-225 371
Yox böylə halım gəlməyə S5-382 371
Məcnunluq istedadı var S5-383 372
Təkcə Vətən S5-384 372
Dildə bəyan eyləmişəm S5-384 373
Gülüzlü sabahım gedib S5-385 373
Yolumda yandırdın, ana S5-388 374
Belə dad eyləmə S5-386 375
Keçdi ömür ah-vaylarda S5-390 375
İmdad eylə S5-390 376
Can ağlayır S5-396 376
Gəl ey bəxti qara könül S5-400 377
Ağlaram hicrinə mən S5-403 377

TƏBİƏT

Neyləsin S1-213 378
Mənə payızları gətirmə zaman S1-207 379
Payızda göyərən otlar nə qəmli S1-215 380
Qara tellərini töküb çiyninə S1-205 381
Nazlı gəlişinə mən olum heyran S1-206 381
Bir parça dam, səma, heyva ağacı S1-211 382
Ruhum qanad açır uçmağa bu gün S2-295 383
Payız çiçəyi S1-217 384
Bizi yaşadan həyatdı S2-297 385
Günəş doğdu, qaranlıqlar qaçıldı S2-299 386
Tökdü atəşi qəlbə S2-300 386
Qış gəlib bulud üstə S2-312 387
Alma ağacı S2-313 388
Qışla bahar döyüşür S2-318 388
Çatlayır bağrı dolan buludun S2-319 390
Kim kəsibdi bu ağacın başını? S2-323 391
Sarı qar S3-399 392
Novruzda S3-400 393
Ey dalğa,döyəcləmə altımdakı dirəyi S3-401 394
Qoy baxım ulduzlara S3-425 394
Qış çıxıb taxtına sultan sayağ S3-408 395
Göyçəkdi bahar S4-226 397
Xəzərdə fırtınadı S4-226 398
Quşbaşı qar yağır S4-232 398
Al günəş aləmi bəzədi yenə S4-231 400

Sarı-qırmızı güllər S4-236 400
Ey saralan yarpaqlar S5-426 401
Ay dənizdə çimində S5-424 402
Qağayı S5-419 402

NƏZM HEKAYƏLƏR

TAĞAYIM S2-117 403
AGI DASTAN S2-104 432
BURDAN BİR ATLI KEÇDİ S3-153 442
DÜKAN ADAMIN HEKAYƏTİ S5-434 451
QUZEY ELİN GÜNEY ELƏ MƏKTUBU S3 -122 455
XOCALI SOYQIRIMI S3-142 464

RƏVAYƏTLƏR

Qısmət Allahdandı S4-331 473
Üç qisimdə olan insan S4-333 475
Qazi və zina qadının hekayəti S4-336 477
Ruzisinə asi olan kişinin rəvayəti S4-339 479
Ana leyləyin hekayəsi S4-344 483

DRAMLAR

KAHADA ÖLÜM HÖKMÜ S4-258 486
SEVGİ VARA SATILMAZ S4-305 499

DÖRDLÜKLƏR 520
RÜBAİLƏR 537
BAYATILAR 542
YANĞILAR 551
İKİLİKLƏR 562
DEYİMLƏR 574
MƏSƏLLƏR 579

Müəllif haqqında 582
Müəllifin çapdan çıxmış kitabları 583
Müəllif və əsərləri haqqında çap olunmuş kitablar 584
MÜNDƏRİCAT 585

Şirin Xanım
Kərimbəyli Şadiman

YOL GEDİRİK
(NƏZM YAZILAR)

Dizayner: Rafael Qasımov

Çapa imzalanmışdır: 16.01.2018
Kağız formatı: 60x84 1/16
Həcmi: 37,25 ç.v; Tiraj: 500

Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing